**Rəşad Məmmədov**
**Nəzakət Fərziyeva**

# Kommersiya (sahibkarlıq) hüququ

## Mühazirə mətnləri

***dərs vəsaiti***

*Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Polis Akademiyasının Elmi Şurasının 13 sentyabr 2021-ci il tarixli 1 nömrəli qərarı ilə təsdiq olunmuşdur.*

**Bakı – 2023**

**Məmmədov Rəşad Yusif oğlu** – Ön söz, I fəsil, III fəslin 3.1, 3.3-cü yarımfəsilləri, IV fəslin 4.1, 4.2, 4.4-cü yarımfəsilləri, VI fəsil, VII fəslin 7.4-cü yarımfəsli, VIII fəslin 8.1, 8.3-cü yarımfəsilləri, IX-X fəsillər.

**Fərziyeva Nəzakət Müqabil qızı** – II fəsil, III fəslin 3.2-ci yarımfəsli, IV fəslin 4.3, 4.5-ci yarımfəsilləri, V fəsil, VII fəslin 7.1, 7.2, 7.3-cü yarımfəsilləri, VIII fəslin 8.2-ci yarımfəsli.

**Elmi redaktor:**

**Canpolad Alı oğlu Daanov** Polis Akademiyasının rəisi, polis general-mayoru

**Rəyçilər:** **Anna Viktorovna Belitskaya,** M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin hüquq fakültəsinin “Sahibkarlıq hüququ” kafedrasının professoru, h.e.d.

**Antonina Serikovna Kizdarbekova,** E.A.Buketov adına Karaqanda Dövlət Universitetinin “Mülki və əmək hüququ” kafedrasının professoru, h.e.n., dosent

**Andrey Nikolayeviç Sadkov,** Volqoqrad Dövlət Universitetinin “Sahibkarlıq hüququ, arbitraj və mülki proses” kafedrasının müdiri, h.e.n., dosent

**Hikmət Qismət oğlu Eyvazov,** Polis Akademiyasının “Elmi-tədqiqat və redaksiya-nəşriyyat” şöbəsinin rəisi, polis polkovniki, h.ü.f.d., dosent

**Nəbi Yəhya oğlu Əsgərov,** Polis Akademiyasının “Mülki hüquq” kafedrasının rəisi, polis polkovniki, h.ü.f.d., dosent

Bu dərs vəsaiti Azərbaycan Respublikası DİN-in Polis Akademiyasının kursant və dinləyiciləri üçün nəzərdə tutulmuşdur. Eyni zamanda, dərs vəsaitindən “Hüquqşünaslıq” ixtisası üzrə təhsil alan ali təhsil müəssisələrinin tələbələri, magistrantları, doktorantları, habelə kommersiya (sahibkarlıq) hüququ ilə maraqlanan geniş oxucu kütləsi faydalana bilər.

R.Y. Məmmədov, N.M. Fərziyeva. Kommersiya (sahibkarlıq) hüququ. Mühazirə mətnləri. Dərs vəsaiti. Bakı, “Sapfir-15” MMC, 2023, 408 səh.

# ÖN SÖZ

Dərs vəsaiti Azərbaycan Respublikasının Təhsil Nazirliyinin 16 fevral 2018-ci il tarixli F-134 nömrəli əmri ilə təsdiq edilmiş “Kommersiya hüququ” fənni üzrə tədris proqramı əsasında tərtib olunmuşdur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasında kommersiya (sahibkarlıq) hüququnun bir hüquq sahəsi kimi tədris edilməsinin **əsas məqsədi** – gələcək peşəkar hüquqşünas ixtisasına yiyələnmiş polis zabitlərinə hüquq mədəniyyətinin, hüquqi düşüncənin formalaşdırılmasından, inkişaf etdirilməsindən və təcrübi fəaliyyətdə bu sahədə mövcud olan hüquq normaların düzgün tətbiq edilməsi bacarığının aşılanmasından ibarətdir.

Kursant və dinləyici kommersiya (sahibkarlıq) hüququ fənnini mənimsəməsi nəticəsində kommersiya (sahibkarlıq) hüququnun tənzimlənmə predmetini və metodunu, habelə sahibkarlıq fəaliyyətinin anlayışını, əlamətlərini, onun həyata keçirilməsinin hüquqi formalarını, sahibkarlıq fəaliyyəti subyektlərinin yaradılması və xitamı ilə bağlı qanunvericiliyin mövcud normalarını **bilməlidir,** kommersiya hüququnun əsas nəzəri və təcrübi problemlərini müəyyən edərək təhlil etməyi, müxtəlif normativ hüquqi aktlarda təsbit edilmiş norma və müddəaların hüquqi məzmununu və onları şərh etməyi **bacarmalıdır,** sahibkarlıq fəaliyyətini tənzim edən normativ hüquqi aktlarla sərbəst işləmək, müxtəlif hüquqi hadisələrin, hüquqi faktların, hüquq normalarının təhlil və şərh etmək, zəruri informasiyanın axtarılması bacarıqlarına **yiyələnməlidir.**

Müasir dövrdə kompleks hüquq sahəsi kimi formalaşmış kommersiya (sahibkarlıq) hüququ digər hüquq sahələri ilə qarşılıqlı vəhdətdə olmaqla Azərbaycan Respublikasında sahibkarlığın prinsiplərini, sahibkarlıq fəaliyyəti subyektlərinin hüquqları-

nı və vəzifələrini, onun dövlət tərəfindən müdafiə və təqdir olunmasının forma və üsullarını, sahibkarların dövlət orqanları ilə qarşılıqlı münasibətlərinin müəyyən edilməsi sahəsində əsas və aparıcı yeri tutur.

Dərs vəsaitində qanunvericiliyə edilmiş son əlavə və dəyişikliklər nəzərə alınmaqla kommersiya (sahibkarlıq) hüququnun anlayışı verilmiş, onun predmeti, metodu, sistemi, mənbələri, prinsipləri, subyektləri, habelə sahibkarlıq fəaliyyəti subyektlərinin müflisləşməsi və iflası, sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsi və onun ayrı-ayrı növlərinin lisenziyalaşdırılması, sahibkarlıq fəaliyyəti subyektlərinin istehsal fəaliyyətinin, antiinhisar fəaliyyətin və rəqabətin, bank və investisiya fəaliyyətinin hüquqi tənzimlənməsi, o cümlədən Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyəti subyektlərinin hüquqlarının müdafiəsi məsələləri nəzərdən keçirilmiş, Azərbaycan Respublikasının qanunvericiliyi ilə xarici ölkələrin qanunvericiliyi arasında müqayisəli təhlil aparılmışdır.

Dərs vəsaiti nəinki mühazirələrdə sistemləşdirilmiş biliklərin əldə edilməsini nəzərdə tutur, həm də seminar-məşğələ dərslərində kursant və dinləyicilərin fəal iştirakı üçün də əhəmiyyətlidir. Belə ki, dərs vəsaitində mövzular məntiqi ardıcıllıqla, o cümlədən hər bir mövzuya dair nəticə və tövsiyə olunan ədəbiyyat siyahısı təsbit olunmuşdur. Hesab edirik ki, bu dərs vəsaiti kursant və dinləyicilərin kommersiya (sahibkarlıq) hüququ sahəsində geniş biliklərə malik olmalarına imkan yaradacaqdır.

Dərs vəsaiti ilə bağlı tutulacaq haqlı irad və tövsiyələri öncədən qəbul edir və dərs vəsaitinin təkrar nəşrlərində göstərilən haqlı irad və tövsiyələrin mütləq nəzərə alınacağını bildiririk.

## Bütün mövzunun mənimsənilməsi üçün tövsiyə olunan ədəbiyyat:


### *I. Azərbaycan dilində:*

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2023.
2. Azərbaycan Respublikasının Mülki Məcəlləsi. Azərbaycan Respublikasının 28 dekabr 1999-cu il tarixli, 779-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş və Azərbaycan Respublikasının 26 may 2000-ci il tarixli, 886-IQ nömrəli Qanununa əsasən 2000-ci il sentyabr ayının 1-dən qüvvəyə minmişdir. Bakı, 2019.
3. "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 15 dekabr 1992-ci il tarixli, 405 nömrəli Qanunu.
4. Aslanov S.X. Sahibkarlıq hüququ. Əlavə və dəyişikliklərlə. II nəşr. Bakı, "Digesta" nəşriyyatı, Bakı, 2013.
5. Xələfov E.A. Sahibkarlıq hüququ. Dərs vəsaiti. Bakı, 2007.
6. Məmmədov R.Y. Kommersiya (sahibkarlıq) hüququ: ümumi hissə. Dərs vəsaiti. I cild. Bakı, "Apostroff", 2015.
7. Məmmədov R.Y., Kizdarbekova A.S., Makoviy V.P., Kolesova T.S. Kommersiya (sahibkarlıq) hüququ: 100 suala 100 cavab. Dərs vəsaiti. Bakı, Ekoprint, 2017.
8. Məmmədov R.Y., Sadkov A.N., Karpıçev M.V. Kommersiya (sahibkarlıq) hüququ: sxemlərdə. Dərs vəsaiti. Bakı, Ekoprint, 2018.
9. Niftullayev V.M. Sahibkarlığın əsasları. Bakı, 2002.

### *II. Rus dilində:*

1. Андреева Л.В. Коммерческое право России. М.,2004.
2. Байша Ж.Ф. Предпринимательское право. Учебное пособие. 2-е изд. переработан. и доп. М,. Издательско-торговая корпорация «Дашков и К», 2008.
3. Большой российский энциклопедический словарь. М.: Больш. российская энцик., 2003.
4. Венгеров А.Б. Теория государства и права: Учебник. М.,

1999, 340 s.
5. Гражданское право. Часть 1. Учебник. Под.ред. А.П.Сергева, Ю.К. Толстого. М., 1996;
6. Гражданское и торговое право зарубежных стран. Учебное пособие. Под ред. В.В. Безбаха, В.К.Туринского. М., 2004.
7. Горбухов В.А. Коммерческое право. Конспект лекций. М. 2007.
8. Дойников И.В. Предпринимательское право. М.: «ПРИОР», 1998.
9. Жилинский С.Э. Предпринимательское право (правовая основа предпринимательской деятельности). Учебник для вузов. 7-е изд., перераб. и доп. М.: Норма, 2006.
10. Коршунова Н.М., Иваново Т.М. Предпринимательское право М. 1999.
11. Круглова Н.Ю. Хозяйственное право. М.: Русская Деловая Литература, 1997.
12. Кулагин М.И. Предпринимательство и право: опыт Запада. М., 1992.
13. Лаптев В.В. Введение в предпринимательское право. М., 1994.
14. Лебедев К.К. Предпринимательское и коммерческое право. СПб., 2002.
15. Попондопуло В.Ф. Коммерческое (предпринимательское) право: Учебник. 2-е изд. Перераб. и доп. М., 2006.
16. Предпринимательское (хозяйственное) право: учебник: в 2-х томах/ под ред. О.М. Олейник. Т.1. М., 1999; Т. 2. М., 2002.
17. Предпринимательское (хозяйственное) право. Учебник. Под ред. В.В.Лаптева, С.С. Занковского. М.,2006.
18. Предпринимательское право Российской Федерации. Под ред. Е.П. Губина, П.Г. Лахно. М., 2007.
19. Предпринимательское право. Курс лекций. Под.ред.

Н.И.Клейн. М., 1993;
20. Предпринимательское право России: учеб. / В.С.Белых, Г.Э.Берсункаев, С.И.Виниченко и др. // отв. ред. В.С.Белых – М.: Проспект, 2009.
21. Пугинский Б.И. Коммерческое право России. Учебник. М., 2005.
22. Российское предпринимательское право. Под ред. И.В.Ершовы, Г.Д. Отнюковы. М.: изд-во: Велби, Проспект, 2010.
23. Смагина И.А. Предпринимательское право. Учебное пособие. 3-е изд. М. Изд-во «Омега-Л», 2009.
24. Тюнель А., Функ Я., Хвалей Ф. Курс международного торгового права. Минск, 2000.
25. Хозяйственное право: учебник // под ред. В.К.Мамутова. Киев, 2002.
26. Юридическая энциклопедия / Под ред. Б.Н.Топорнина. М., 2001.

### *III. İngilis dilində:*

1. Kenneth W. Clarkson, Roger LeRoy Miller and Frank B.Cross. Business Law: Text and Cases - 14th edition. Cengage Learning Published: 2018.
2. Roger LeRoy Miller. Business Law Today: Essentials - 11th edition. Cengage Learning Published: 2017.
3. Jane Mallor. Business Law - 16th edition. Richard D. Irwin, Inc. Published: 2016.
4. Eric Baskind. Commercial Law Concentrate: Law Revision and Study Guide**.** Fifth Edition. Oxford Univercity Press, 2019.
5. M.A.Clarke, R.J.A.Hooley, R.J.C.Munday, L.S.Sealy, A.M.Tettenborn, and P.G. Turner. Commercial Law. Text, Cases, and Materials. Fifth Edition. Oxford Univercity Press, 2017.

# I FƏSİL
# KOMMERSİYA (SAHİBKARLIQ) HÜQUQUNUN ANLAYIŞI

## 1.1. Kommersiya (sahibkarlıq) hüququnun anlayışı, predmeti və metodu

12 noyabr 1995-ci ildə ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul olunmuş Azərbaycan Respublikası Konstitusiyasında sahibkarlığın tənzimlənməsinin əsas hüquqi kriteriyaları təsbit olunmuşdur. Belə ki, Azərbaycan Respublikası Konstitusiyasının 13-cü maddəsində mülkiyyətin toxunulmazlığı, xüsusilə də, sahibkarlığın zəruri şərtlərindən sayılan xüsusi mülkiyyətin müdafiəsi təsbit olunmuşdur. Azərbaycan Respublikası Konstitusiyasının 15 və 59-cu maddələrində isə dövlət sahibkarlığın dəstəklənməsini və azad sahibkarlıq üçün zəruri şəraitin yaradılmasını öz üzərinə götürür. Bu prinsiplərin hüquqi tənzimlənməsi mexanizmi “Sahibkarlıq fəaliyyəti” haqqında Azərbaycan Respublikasının 15 dekabr 1992-ci il tarixli 405 nömrəli Qanunu ilə tənzimlənir.

Bazar iqtisadiyyatı şəraitində sahibkarlıq fəaliyyəti sahəsində dövlət nəzarəti normativ tənzimləmə və dövlət nəzarəti ilə məhdudlaşır. Buna görə də, dövlətin başlıca məqsədi sahibkarların fəaliyyətinə əsassız müdaxilələrin qarşısını almaq, yalnız onlardan qanunvericiliyin tələblərinin yerinə yetirilməsini tələb etməkdir. İkinci istiqamətə gəldikdə isə daxili işlər orqanlarının vəzifəsi sahibkarların kriminal qrupların cinayətkar qəsdlərindən mühafizəsini təmin etməkdir.

Sahibkarlıq – təsərrüfatçılığın yeni formalarının təkmilləşdirilməsinin zəruri komponenti olan, yüzilliklər boyu insan həyatının zəruri atributu kimi çıxış edən tarixi, sosial və iqtisadi əhəmiyyətə malik olan çoxtərəfli təzahürdür. Məhz sahibkarlığın təkamül pro-

sesində dövlətin bilavasitə təsiri zamanı müasir inkişaf etmiş dövlətlər üçün xas olan bazar tipli iqtisadiyyat formalaşdırıldı.

Hər bir hüquq sahəsi haqqında danışarkən və onu öyrənərkən ilk növbədə həmin hüquq sahəsinin tənzimetmə predmetinə və metoduna diqqət yetirmək lazımdır. Məhz hüquqi tənzimetmənin predmeti və metodunu, yəni hüquq sahəsinin tənzimlədiyi ictimai münasibətlərin dairəsini və bu münasibətlərin hansı üsul və vasitələrlə tənzimləndiyini bilməklə hər bir hüquq sahəsi barədə, o cümlədən kommersiya (sahibkarlıq) hüququ haqqında və onun təsbit etdiyi əsas institutlar haqqında ümumi bilik və məlumat almaq imkanı yaranır. Eyni zamanda, hüquqi tənzimetmənin predmetini və metodunu öyrənməklə kommersiya (sahibkarlıq) hüququnu digər hüquq sahələrindən fərqləndirmək mümkündür. Çünki hüquq sahələrini bir-birindən fərqləndirən əsas meyar, məhz hüquqi tənzimetmənin predmeti və metodudur.

Kommersiya (sahibkarlıq) hüquq normaları ilə tənzim olunan ictimai münasibətlər kommersiya (sahibkarlıq) hüququnun **predmetini** təşkil edir. Bu ictimai münasibətlərə aiddir: sahibkarlıq münasibətləri, sahibkarlıqla sıx bağlı olan qeyri-kommersiya münasibətləri, dövlət və ictimai maraqların təmin edilməsi məqsədi ilə iqtisadiyyatın dövlət tərəfindən nizamlanması üzrə münasibətlər. Kommersiya (sahibkarlıq) hüququnun predmetinə daxil olan bu üç qrup münasibətlərin geniş nəzərdən keçirilməsi, fikrimizcə, daha məqsədəuyğun olardı.

I. Əsas və mərkəzi qrup münasibətlər kimi - sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi prosesində yaranan **sahibkarlıq münasibətləri** çıxış edir. Sahibkarlıq fəaliyyətinin leqal anlayışı həm Azərbaycan Respublikasının Mülki Məcəlləsində (bundan sonra AR MM), həm də 15 dekabr 1992-ci il tarixli «Sahibkarlıq fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanununda təsbit olunub. Belə ki, AR Mülki Məcəlləsinin 13-cü maddəsinə, həmçinin "Sahibkarlıq fəaliyyəti haqqında" AR Qanununun 1-ci maddəsinə müvafiq olaraq, sahibkarlıq fəaliyyəti şəxsin müstə-

qil surətdə həyata keçirdiyi, əsas məqsədi əmlak istifadəsindən, malların istehsalından və (və ya) satışından, işlər görülməsindən və ya xidmətlər göstərilməsindən mənfəət (fərdi sahibkarlar tərəfindən gəlir) götürülməsi olan fəaliyyətdir.

Göstərilən bu anlayışın təhlili nəticəsində sahibkarlıq fəaliyyətinin əlamətlərini aşağıdakı kimi göstərmək olar:

1. Sahibkarlıq fəaliyyəti **müstəqilliklə** xarakterizə olunur. Müstəqillik dedikdə şərti olaraq **əmlak** və **təşkilati müstəqilliyi** qeyd etmək lazımdır. **Əmlak müstəqilliyi** dedikdə, şəxsin sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi zamanı ayrıca əmlakının mövcudluğu başa düşülür. **Təşkilati müstəqillik** isə sahibkar tərəfindən sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı müstəqil qərarların qəbul edilməsi başa düşülür. Sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq, fəaliyyət növü seçmək, təsisçilərin dairəsinin müəyyən edilməsi barədə qərarların sahibkarlıq fəaliyyətini həyata keçirən şəxsin özü tərəfindən müstəqil olaraq verilməsidir.

2. Sahibkarlıq fəaliyyətinə verilən tərifə müvafiq olaraq, onun subyektlərinin əmlak istifadəsindən, malların istehsalından və (və ya) satışından, işlər görülməsindən və ya xidmətlər göstərilməsindən gəlirin əldə edilməsi təsbit olunub. Deyiləndən belə qənaətə gəlmək olar ki, sahibkarlıq fəaliyyəti - mütəmadi olaraq (**sistematik) gəlir əldə edilməsinə** yönələn bir fəaliyyətdir.

Sahibkarlıq fəaliyyəti subyektinin əsas məqsədi gəlirin əldə edilməsi onun fəaliyyətinə **kommersiya** xarakteri verir. Çünki sahibkarlıq fəaliyyətinin subyekti bu fəaliyyətin həyata keçirilməsi nəticəsində mütəmadi (sistematik) olaraq gəlir əldə edir. Məsələn, şəxs mülkiyyətində olan nəqliyyat vasitəsini satıb gəlir əldə edirsə o, sahibkar deyil, onun həyata keçirdiyi fəaliyyət isə sahibkarlıq fəaliyyəti hesab olunmur. Əgər şəxs daimi (mütəmadi) olaraq nəqliyyat vasitələrinin alqı-satqısı fəaliyyəti ilə məşğul olursa və gəlir əldə edirsə, bu halda şəxs sahibkardır və onun həyata keçirdiyi fəaliyyət də sahibkarlıq fəaliyyətidir. Beləliklə,

sahibkarlıq fəaliyyətinin subyekti mütəmadi olaraq gəlir əldə etməlidir ki, bu da öz növbəsində sahibkarlıq fəaliyyətinin əsas əlamətlərindən biri sayılır.

Lakin qanunvericilikdə təsbit olunmuş sahibkarlıq fəaliyyətinin leqal anlayışında "mütəmadi gəlir əldə edilməsi" kimi sahibkarlıq fəaliyyətinin mühüm əlaməti öz əksini tapmayıb. Təbii ki, bu da sahibkarlıq fəaliyyətinin qanunvericilikdə verilmiş anlayışının mahiyyətinin açıqlanmasına, habelə onun anlaşılmasında müəyyən çətinliklər yarada bilər.

Hesab edirik ki, qanunvericilik tərəfindən "Sahibkarlıq fəaliyyəti haqqında" AR Qanununun 1-ci maddəsində və AR Mülki Məcəlləsinin 13-cü maddəsində təsbit olunmuş sahibkarlıq fəaliyyətinin anlayışına "mütəmadi (sistematik) olaraq" ifadəsinin əlavə edilməsi məqsədəuyğun olardı.

3. Həmçinin sahibkarlıq fəaliyyətini həyata keçirən şəxslər **dövlət qeydiyyatından** keçməlidirlər. Halbuki sahibkarlıq fəaliyyətinə verilən anlayışda dövlət qeydiyyatı kimi mühüm əlamət öz əksini tapmamışdır. Lakin sahibkarlıq fəaliyyətinin subyektləri bu fəaliyyəti həyata keçirmək üçün ilkin olaraq dövlət qeydiyyatından keçməlidir. Xüsusilə vurğulanmalıdır ki, sahibkarlıq fəaliyyəti subyektlərinin dövlət qeydiyyatını Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Vergi Xidməti həyata keçirir. Belə ki, "Sahibkarlıq fəaliyyəti subyektlərinin "bir pəncərə" prinsipi üzrə təşkilinin təmin edilməsi tədbirləri haqqında" Azərbaycan Respublikasının Prezidentinin 25 oktyabr 2007-ci il tarixli 2458 nömrəli Sərəncamına müvafiq olaraq, sahibkarlıq fəaliyyəti subyektlərinin dövlət qeydiyyatını həyata keçirən dövlət orqanı kimi Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Vergi Xidməti müəyyən edilmişdir.

Bundan başqa, onu da qeyd edək ki, 24 iyun 2005-ci il tarixinədək həm Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 13-cü maddəsində, həm də "Sahibkarlıq fəaliyyəti haqqında" AR Qanununun 1-ci maddəsində təsbit olunmuş sahibkarlıq fəaliy-

yətinin anlayışında bu fəaliyyətin riskli xarakter daşıdığı təsbit olunur. Lakin "Azərbaycan Respublikasının Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikasının Qanununa və həmin qanunla təsdiq edilmiş Azərbaycan Respublikasının Mülki Məcəlləsinə dəyişikliklər və əlavələr edilməsi barədə Azərbaycan Respublikası Qanununun 2-ci hissəsinin 2-ci bəndinə əsasən, AR Mülki Məcəlləsinin 13-cü və "Sahibkarlıq fəaliyyəti haqqında" AR Qanununun 1-ci maddələrinin məzmununda "öz riski ilə" sözləri çıxarılmışdır. Fikrimizcə, sahibkarlıq fəaliyyəti istənilən halda risk ilə sıx bağlıdır.

Belə ki, risk haqqında hüquq ədəbiyyatında alimlər tərəfindən müxtəlif fikirlər mövcuddur. Belə ki, rus hüquqşünası O.A. Krasavçikovun fikrincə, risk – əmlak və şəxsi qeyri-əmlak nemətlərinin korlanması təhlükəsidir (imkanıdır). Risk daşımaq isə təsadüfi hallar nəticəsində baş verə bilən zərəri qanunda göstərilən hallarda şəxsin üzərinə götürmək vəzifəsidir.[1]

Digər hüquqşünas alimlər Z.K. Matveyev və V.A. Oygenzikt hesab edirlər ki, risk və risk sistemi zərərin ödənilməsi üsulu (forması) deyil, çünki bu üsullara öhdəliyin icrası və məsuliyyəti daxildir. Bu, öz növbəsində onu göstərir ki, "Risk doğrudan da zərərin ödənilməsi üsulu və forması deyil, belə ödəmənin əsasıdır".[2] O.A. Krasavçikovdan fərqli olaraq, riski məsuliyyətin subyektiv əsası hesab edən V.A.Oygenzikt ona başqa aspektdən yanaşır. Onun fikrincə, risk təsadüfi səbəblərdən baş verə biləcək zərəri "üzərinə götürmək vəzifəsi deyil", çünki bu zaman riskin

[1] Красавчиков О.А. Возмещение вреда причиненного источником повышенной опасности. Москва, 1966. с. 146.

[2] Матвеев Г.К., Шелестов В.С., Сергиенко А.А. Новое исследование деликтных обязательств. Советское государство и право, 1967. с. 155; Ойгензихт В.А. Проблемы риска в гражданском праве. Дюшанбе, 1972. с. 215.

subyektiv xarakteri inkar olunur.[1]

Bütün bu göstərilənlər bir daha onu təsdiq edir ki, sahibkarlıq fəaliyyəti bilavasitə riskli xarakter daşıyır. Ona görə də, "Sahibkarlıq fəaliyyəti haqqında" AR Qanununun 1-ci maddəsində və AR Mülki Məcəlləsinin 13-cü maddəsində əks olunmuş anlayışda bu fəaliyyətin riskli xarakterli olmasının bilavasitə göstərilməsi daha məqsədəuyğun olardı.

II. Sahibkarlıq münasibətləri bilavasitə gəlir əldə etmək məqsədi olmayan digər münasibətlərlə də sıx bağlıdır. Bu məsələyə münasibət bildirən İ.V.Yerşova qeyd edir ki, xüsusilə də belə münasibətlər müəssisələrin yaradılması və ləğvi, lisenziyaların, sertifikatların alınması, ekoloji ekspertizaların aparılması üzrə təşkilati-əmlak xarakterli fəaliyyətin həyata keçirilməsi zamanı yaranır. Belə fəaliyyət qeyri-kommersiya xarakter daşıyır, lakin gələcəkdə sahibkarlıq fəaliyyətinin yaranmasının zəruri şərti hesab olunur. Buna görə də, göstərilən hallarda yaranan münasibətlər kommersiya (sahibkarlıq) hüququnun predmetinə daxil olur.[2]

III. Dövlət, müxtəlif forma, üsul və vasitələrdən istifadə edərək dövlətin və cəmiyyətin ictimai maraqlarını təmin etmək məqsədi ilə sahibkarlıq fəaliyyətini həyata keçirən subyektlərin fəaliyyətini tənzimləyir və bu fəaliyyətə nəzarəti həyata keçirir. Belə ki, Azərbaycan Respublikası Konstitusiyasının 59-cu maddəsinə əsasən dövlət sahibkarlıq sahəsində yalnız dövlət maraqlarının, insan həyatının və sağlamlığının müdafiəsi ilə bağlı tənzimləməni həyata keçirir. Sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsi sahəsində yaranan bu münasibətlər kommersiya (sahibkarlıq) hüququnun predmetinə daxil olan münasibətlərin **üçüncü qrupunu** təşkil edir.

Sahibkarlıq fəaliyyətinə verilən tərifdə göstərilir ki, sahibkar-

---

[1] Ойгензихт В.А. Проблемы риска в гражданском праве.Дюшанбе, 1972. с. 221.

[2] Ершова И.В. Предпринимательское право. Учебник. - Изд. 4-е, перераб. и доп. - М.: Изд. «Юриспруденция», 2006. с. 7.

lıq fəaliyyətinin əsas məqsədi mənfəət (fərdi sahibkarlar tərəfindən gəlir) götürülməsi olan fəaliyyətdir. Əgər AR Vergi Məcəlləsinin 95-ci və 103-cü maddələrinə diqqət yetirsək görərik ki, qanunverici sahibkarlıq fəaliyyəti subyektlərini fiziki və hüquqi şəxs kateqoriyalarına ayırmaqla onların əldə etdiyi mənfəət və gəliri də fərqləndirir. Belə ki, AR Vergi Məcəlləsinin 95-ci maddəsinə əsasən, rezident və qeyri-rezident fiziki şəxslər gəlir vergisinin ödəyiciləridirlər. AR Vergi Məcəlləsinin 103-cü maddəsinə əsasən isə Azərbaycan Respublikasında rezident və qeyri-rezident müəssisələr mənfəət vergisinin ödəyiciləridir.

Hüquq sahəsində **hüquqi tənzimləmənin metodu dedikdə** həmin hüquq sahəsi ilə tənzimlənən münasibətlərə təsir göstərən üsul və vasitələrin məcmusu başa düşülür. Bir qayda olaraq, hər bir hüquq sahəsi müəyyən növ ictimai münasibətlərə təsir edən xüsusi hüquqi vasitələri nəzərdə tutur. Lakin bir sıra hallarda hüquq sahələri təkcə onlar üçün səciyyəvi olan ictimai münasibətləri deyil, həm də bu münasibətlərlə sıx bağlı olan digər münasibətləri tənzimləyir. Belə olan halda, hüquqi tənzimləmənin metodu təkcə həmin hüquq sahəsi üçün deyil, həm də digər hüquq sahələri üçün xarakterik olan hüquqi vasitələri ehtiva edir. Bundan əlavə kommersiya (sahibkarlıq) hüququnun daxil olduğu mürəkkəb hüquq sahələrində adətən hüquqi tənzimləmənin biri deyil, bir neçə metodlarının birləşməsindən istifadə olunur.

Ümumnəzəri planda ictimai münasibətlərin hüquqi tənzimlənməsinin metodu aşağıdakı xüsusiyyətlər nəzərə alınmaqla müəyyən olunur:

- *hüquq münasibətlərinin yaranması üçün əsas olan hüquqi faktların toplanması;*
- *normaları realizə edən hüquq münasibətlərində tərəflərin hüquqi vəziyyətinin xarakteri, subyektlər arasında hüquq və vəzifələrin bölüşdürülməsi;*
- *subyektiv hüquqların təmin edilməsinin yolları və vasitələri.*

Kommersiya (sahibkarlıq) hüququnun predmetinin xüsusiyyətindən irəli gələrək qeyd etmək lazımdır ki, qanunverici bəzi hallarda müqavilənin bağlanması ilə hüquq və vəzifələrin müəyyən edilməsini nəzərdə tutur. Digər hallarda hüququn tətbiqi aktı ilə əlaqədar olaraq yaranır (antiinhisar orqanın göstərişləri), üçüncü halda isə hüquq və vəzifələr qanundan irəli gələrək meydana gəlir (dövlət qeydiyyatına alınması vəzifəsi).

Kommersiya (sahibkarlıq) hüququnun normaları qismən müstəqil olaraq hüquq və vəzifələrin həcmi barədə məsələləri həll edə bilər (dispozitiv normalar), tövsiyə xarakteri daşıya bilər, hətta subyektiv hüquq və vəzifələrin dairəsini tam surətdə müəyyən edə bilər (imperativ normalar).

Müəyyən edilmiş hüquqların müdafiəsi və vəzifələrin icra edilməməsi zamanı sanksiyaların tətbiq edilməsi müxtəlif vasitələrlə (mülki-hüquqi, inzibati, cinayət) və müxtəlif qaydalarda (inzibati və məhkəmə qaydasında) həyata keçirilə bilər.

Bildiyimiz kimi hər bir hüquq sahəsi xüsusi tənzimləmə metoduna malikdir. Metodu dəyişilməz hesab etmək olmaz. O, siyasi və iqtisadi faktorlarla şərtlənir və hər bir hüquq sahəsi üçün spesifik olan aşağıdakı əlamətlərlə xarakterizə olunur:

- ✓ *hüquq münasibətlərinin yaranması, dəyişməsi və xitam verilməsi əsasları ilə (hüquqi faktlar);*
- ✓ *hüquq münasibəti iştirakçılarının ümumi vəziyyəti ilə;*
- ✓ *hüquq və vəzifələrin müəyyən edilməsinin xarakteri ilə (norma yaradıcılığı);*
- ✓ *vəzifələrin icrasını təmin edən vasitələrlə (sanksiyalar).*

Kommersiya (sahibkarlıq) hüquq münasibətlərinin tənzimlənməsində **imperativ** və **dispozitiv** hüquqi nizamasalma metodları istifadə olunur. Çünki kommersiya hüququnun predmetinə daxil olan münasibətləri həm üfüqi münasibətlərə (bərabərlik münasibətləri), həm də şaquli münasibətlərə (sahibkarla dövlət arasında yaranan münasibətləri) ayırmaq olar.

Kommersiya (sahibkarlıq) hüququnda istifadə olunan əsas

hüquqi nizamasalma metodu – **razılaşdırma metodudur**. Yəni, kommersiya (sahibkarlıq) hüququnun subyekti bu və ya digər məsələni müstəqil olaraq həll etsə də, hüquq münasibətlərinə daxil olduqdan sonra bu münasibətin digər iştirakçısı ilə razılaşma üzrə həll edir.

Sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsi prosesində **məcburi göstərişlər metodu** da tətbiq edilir. Yəni, hüquq münasibətlərinin tərəflərindən biri digərinə icrası üçün məcburi olan göstərişlər verir.

Kommersiya (sahibkarlıq) hüquq münasibətlərinin tənzimlənməsi üçün **tövsiyə metodundan** istifadə edilə bilər. Bu metodun tətbiqi zamanı hüquq münasibətlərinin tərəflərindən biri digərinə sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi qaydaları haqqında tövsiyələr verir. Yuxarıda göstərilənlərdən əlavə olaraq, **qadağa metodundan** da istifadə edilir.

Ümumi hüquq nəzəriyyəsində hüquq sisteminin bir çox tərəfləri mövcuddur. Lakin demək olar ki, onların hamısı sistemli tədqiqatların ümumi nəzəriyyəsi sahəsində mütəxəssis alimlərin işləyib hazırladıqları anlayışın ayrı-ayrı (xüsusi) hallarını ifadə edirlər. Rusiya Böyük Ensiklopedik Lüğətində "sistem" (yunanca *Systema* - hissələrdən ibarət tam; birləşmə mənasını verir) sözü «bir-biri ilə münasibətdə və əlaqədə olan, müəyyən tam, vəhdət əmələ gətirən elementlər çoxluğu» kimi izah olunur[1]. Başqa bir ədəbi mənbədə «sistem» sözünün beş müxtəlif mənası göstərilir. Bu səbəbdən sistem anlayışı bu və ya digər obyektə, yaxud təzahürə münasibətdə konkretləşdirilməlidir.[2]

Azərbaycanın görkəmli hüquqşünas alimi M.F.Məlikovanın müəllifi olduğu "Hüquq nəzəriyyəsi" dərsliyində hüququn sisteminə aşağıdakı kimi tərif verilmişdir: hüququn sistemi – hüqu-

---

[1] Большой российский энциклопедический словарь. М.: Большь. российская энцик., 2003. с.1037.

[2] Российская социологическая энциклопедия / Под общ. ред. Г.В.Осипова. М.: Норма-Инфра, 1998. с. 464.

qun daxili quruluşudur, onun struktur elementlərinin uzlaşdırılmasına, qarşılıqlı əlaqələrinə əsaslanan daxili məntiqi quruluşudur.[1] Daha sonra müəllif haqlı olaraq qeyd edir ki, "Hər bir ölkədə subyektiv və obyektiv faktorların əsasında yaranan və inkişaf edən özünəməxsus hüquq sistemi fəaliyyət göstərir.[2]

Göstərilən fikirlərdən belə qənaətə gəlmək olar ki, həm bu və ya digər hüquq sisteminin mövcudluğunu şərtləndirən obyektiv amillər, həm də onun formalaşmasına və inkişafına təsir göstərən subyektiv amillər göstərilir.

Məlum olduğu kimi hüququn əsas daxili struktur bölmələri hüququn sahələri, yarımsahələri, institutları, subinstitutları və normalarıdır.[3] Onlar bir-birindən həcminə, əhəmiyyətinə və ümumi hüquqi tənzimləmədə tutduğu yerə görə fərqlənir.

Hüquq sahəsi hüquq sisteminin ən böyük bölməsi olub, bir-biri ilə qarşılıqlı surətdə əlaqəli olan, ictimai münasibətlərin müəyyən sahəsinin tənzimlənməsi üçün nəzərdə tutulmuş hüquq institutlarını birləşdirir. Çox vaxt hüquq sahəsi normaları bütün sahənin normaları ilə tənzimlənən münasibətlər sahəsinin bir hissəsi olan ictimai münasibətlərin daha dar qrupunu tənzimləyən bir, yaxud bir neçə yarımsahəni ehtiva edir.

**Hüquq institutu** dedikdə, eynicinsli ictimai münasibətlərin ayrı-ayrı növlərini tənzimləyən hüquq normalarının məcmusu başa düşülür.[4] Subinstitut böyük (mürəkkəb) institutun müəyyən hissəsi olub, nisbətən müstəqil bölmə təşkil edir.

Hüquq norması hüququn ilkin hüceyrəsi, hüquq sisteminin minimum elementi (komponenti), hüququn mahiyyət xassələrini saxlayan ibtidai elementar hissəciyidir. Hüquq norması davranış

---

[1] Məlikova M.F. Hüququ nəzəriyyəsi. Dərslik. Yenidən işlənmiş və əlavələr edilmiş üçüncü nəşri. Bakı, "Elm və təhsil", 2019. Səh. 222.

[2] Yenə orada, səh. 223.

[3] Hüquq nəzəriyyəsi. Təkmilləşdirilmiş yeni nəşr. M.B. Əhmədovun elmi redaktorluğu ilə. Bakı: Mütərcim, 2013. Səh.298.

[4] Qasımov A.M. Əmək hüququ: Dərslik. Bakı: Adiloğlu, 2007. Səh.32.

qaydası olaraq dövlət göstərişindən ibarətdir və ümumi xarakterli qayda kimi qeyri-müəyyən sayda eynitipli hadisələr üçün hesablanaraq müəyyən vəziyyətdə hamıya və hər kəsə ünvanlanmışdır.

Hüquqşünaslıqda "hüquq sistemi" və "hüquqi sistem" anlayışları fərqləndirilir, özü də "hüquqi sistem" anlayışı daha geniş anlayış hesab olunur, çünki onun məzmununa yalnız hüquq sisteminin başlıca və müəyyənedici komponenti kimi hüquq normaları deyil, həm də digər struktur elementləri (komponentləri), hüquqi baxışlar, ideyalar, prinsiplər, qanunvericilik, hüquqi təsisatlar məcmusu, ilk növbədə məhkəmə təsisatları, hüquq münasibətləri sistemi və s. daxil edilir.[1]

Yuxarıda göstərilənlər əsasında qeyd etmək olar ki, **kommersiya (sahibkarlıq) hüququnun sistemi** – kommersiya (sahibkarlıq) hüququnun strukturunu hüquq sahəsi kimi, qanunvericilik sahəsi, elmi və tədris vəsaiti kimi xarakterizə edir. Digər hüquq sahələri kimi kommersiya (sahibkarlıq) hüququ da ümumi və xüsusi hissələrə ayrılır.

**Ümumi hissəyə** aşağıdakı institutlar aiddir:

1) kommersiya (sahibkarlıq) hüququnun anlayışı, predmeti və prinsipləri;
2) kommersiya (sahibkarlıq) hüquq münasibətləri;
3) kommersiya (sahibkarlıq) hüququnun subyektləri və onların əmlakının hüquqi rejimi;
4) müflisləşmə və iflasın hüquqi tənzimlənməsi;
5) sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsi;
6) dövlət əmlakının özəlləşdirilməsinin hüquqi tənzimlənməsi;
7) sahibkarlıq fəaliyyəti subyektlərinin hüquqlarının və qanuni mənafelərinin müdafiəsi.

---

[1] Бобылев А.И. Современное толкование системы права и системы законодательства // Государство и право, 1998, № 2. с. 24.

**Xüsusi hissəyə** isə aşağıdakı institutlar aiddir:

1) sahibkarlıq fəaliyyəti subyektlərinin istehsal fəaliyyətinin hüquqi tənzimlənməsi;
2) bank fəaliyyətinin hüquqi tənzimlənməsi;
3) investisiya fəaliyyətinin hüquqi tənzimlənməsi;
4) əmtəə bazarının hüquqi tənzimlənməsi;
5) qiymətli kağızlar bazarının hüquqi tənzimlənməsi.

Hüquq elmində kommersiya (sahibkarlıq) hüququnun anlayışına dair müxtəlif yanaşmalar mövcuddur. Belə ki, İ.A.Smaqina kommersiya (sahibkarlıq) hüququnu - hüququn kompleks sahəsi kimi nəzərdən keçirir və qeyd edir ki, hüququn kompleks sahəsi kimi – **kommersiya (sahibkarlıq) hüququ** – sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi, təşkili, o cümlədən, dövlət tənzimlənməsi sahəsində yaranan ictimai münasibətləri tənzim edən hüquq normalarının məcmusudur.[1] A.V.Pantyuxin və E.V.Smirnova isə kommersiya (sahibkarlıq) hüququnu dörd mövqedən nəzərdən keçirirlər: hüquq sahəsi kimi, qanunvericilik sahəsi kimi, elm sahəsi kimi, tədris fənni kimi. Müəlliflərin fikrincə, hüquq sahəsi kimi, **sahibkarlıq hüququ** – sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi zamanı yaranan sahibkarlıq münasibətlərini, onunla sıx bağlı olan münasibətləri, o cümlədən sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsi üzrə münasibətləri tənzim edən normaların məcmusudur.[2] Digər rus hüquqşünası J.F.Bayşanın isə kommersiya (sahibkarlıq) hüququna verdiyi tərif yuxarıda göstərilən müəlliflərin təriflərinə oxşar olsa da, müəllif kommersiya (sahibkarlıq) hüququnun predmetinə daxil olan münasibətlərin dairəsini geniş şəkildə xarakterizə edir və kommersiya (sahibkarlıq) hüququnu elm sahəsi kimi nəzərdən keçi-

---

[1] Смагина И.А. Предпринимательское право. Учебное пособие. 3-е изд. М. Изд-во «Омега-Л», 2009, с.7.

[2] Пантюхин А.В., Смирнова Е.В. Предпринимательское право: в вопросах и ответах. Учебное пособие. М, ТК Велби, КноРус, 2004. с. 3.

rərək, ümumi və xüsusi hissələrə ayırır.[1]

S.X.Aslanov kommersiya (sahibkarlıq) hüququna mülki hüquqi kontekstindən yanaşaraq qeyd edir ki, "…sahibkarlıq fəaliyyəti sahəsində münasibətləri tənzimləyən, eyni zamanda sahibkarlıq fəaliyyəti sahəsində olmasa da, onunla bilavasitə sıx əlaqədə olan digər münasibətləri o cümlədən, qeyri-kommersiya münasibətlərini, iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi, cəmiyyətin və dövlətin ümumi mənafeyinin təmin edilməsi, mülki dövriyyənin təmin edilməsi, sahibkarlıq fəaliyyətinin dəstəklənməsi və sərbəst bazar iqtisadiyyatının inkişafına şərait yaradılması sahəsində münasibətləri tənzimləyən hüquq normalarının məcmusu sahibkarlıq hüququnu təşkil edir".[2]

Aparılan təhlillər əsasında belə qənaətə gəlmək olar ki, sahibkarlıq hüququnun mülki hüququn tərkib hissəsi kimi çıxış etməsi və ya müstəqil hüquq sahəsi olması barədə hüquq elmində müzakirələr bu gün də davam etməkdədir və hüquq sahəsinin sahəvi və ya kompleks hüquq sahəsi olmasına dair vahid fikir formalaşmamışdır.

Yuxarıda verilən anlayışları ümumiləşdirərək, o cümlədən, bu hüquq sahəsinin predmetinin və metodunun təhlilindən çıxış edərək kommersiya (sahibkarlıq) hüququna aşağıdakı kimi anlayış verilməsini təklif edirik: **kommersiya (sahibkarlıq) hüququ**-hüququn bir sahəsi olub, sahibkarlıq münasibətlərini, o cümlədən, onunla sıx bağlı olan qeyri-kommersiya münasibətlərini, dövlət və ictimai maraqların təmin edilməsi məqsədi ilə iqtisadiyyatın dövlət tərəfindən nizamlanması üzrə münasibətləri tənzim edən hüquq normalarının məcmusudur.

Hüquq və tədris ədəbiyyatlarında kommersiya (sahibkarlıq) hüquq sahəsinin adlandırılması üçün müxtəlif terminlərdən isti-

---

[1] Байша Ж.Ф. Предпринимательское право. Учебное пособие. 2-е изд. переработан. и доп. М,. Исздательско-торговая корпорация «Дашков и К», 2008. с. 3-4.

[2] Aslanov S.X. Sahibkarlıq hüququ. Əlavə və dəyişikliklərlə. İkinci nəşr. Bakı, "Digesta" nəşriyyatı, 2013. Səh.28.

fadə olunur: ticarət hüququ, kommersiya hüququ, təsərrüfat hüququ, sahibkarlıq hüququ. **"Sahibkarlıq hüququ"**, **"təsərrüfat hüququ"**, **"kommersiya hüququ"** anlayışlarının nisbəti məsələsi hüquq ədəbiyyatlarında bu günə qədər də mübahisəli olaraq qalmaqdadır. V.A. Qorbuxovun fikrincə, **kommersiya hüququnun predmeti** – ticarət dövriyyəsinin obyektlərinin alqı-satqısı üzrə subyektlər arasında yaranan münasibətlər, peşəkar ticarət fəaliyyətinin tənzimlənməsidir. Daha sonra müəllif qeyd edir ki, **kommersiya fəaliyyəti** – sahibkarlıq fəaliyyətinin bir növüdür və ticarət əqdlərinin bağlanması nəticəsində gəlir əldə edilməsinə yönələn fəaliyyətdir. **Ticarət fəaliyyəti** dedikdə, istehsalçıdan istehlakçıya əmtəənin hərəkət etməsi (təşviqi) üzrə bir-birilə qarşılıqlı əlaqədə olan hərəkətlərin ardıcıllığı başa düşülür.[1]

Diqqəti tələb edən digər bir məsələ isə elmi və tədris ədəbiyyatlarında **"sahibkarlıq hüququ"** anlayışı ilə yanaşı **"təsərrüfat hüququ"** anlayışından istifadə olunmasındadır. Bir sıra alimlər bu anlayışlar arasında bərabərlik işarəsi qoyur,[2] digər alimlər tərəfindən isə əksinə, bu anlayışlar arasında olan fərqlər göstərilir.[3] Bu məsələ ilə bağlı V.V. Laptevin fikirləri ilə razılaşmaq olar ki, "bazar iqtisadiyyatına keçidlə təsərrüfat hüququnun mahiyyəti dəyişir, o sahibkarlıq fəaliyyətinin hüququna çevrilir. Bunun üçün isə ölkəmiz üçün yeni olan "sahibkarlıq hüququ" termini meydana gəlir. Bu zaman qərb ölkələrində "ticarət hüququ" və ya "kommersiya hüququ" terminləri bu günə qədər də qalmaqdadır.[4]

Hüquq ədəbiyyatlarında, habelə qanunvericilik aktlarında **"iqtisadi fəaliyyət"**, **"təsərrüfat fəaliyyəti", "sahibkarlıq fəa-**

---

[1] Горбухов В.А. Коммерческое право. Конспект лекций. М. 2007. с. 4.

[2] Предпринимательское (хозяйственное) право: учебник: в 2-х томах/ под ред. О.М. Олейник. Т.1. М., 1999; Т. 2. М., 2002.

[3] Хозяйственное право. Учебник. Под ред. В.К. Мамутова. Киев, 2002.

[4] Предпринимательское (хозяйственное) права. Учебник под ред. В.В. Лаптева и С.С. Занковского М.: Волтерс Клувер. 2006. с. 13.

**liyyəti"** və **"kommersiya fəaliyyəti"** anlayışlarına da rast gəlinir. **Təsərrüfat fəaliyyəti** – iqtisadi fəaliyyətin növlərindən biridir, təsərrüfat subyektlərinin özləri, dövlət hakimiyyəti və idarəetmə orqanları tərəfindən müəyyən edilən qaydalara uyğun olaraq iqtisadi fəaliyyətin təşkili, rəhbərliyi və bilavasitə həyata keçirilməsi qaydasıdır. **Kommersiya fəaliyyəti** isə ticarət ilə, əmtəə dövriyyəsi ilə bağlı olan iqtisadi, təsərrüfat, sahibkarlıq fəaliyyətinin növüdür.[1]

Rus hüquqşünasları Y.P. Qubin və P.Q. Laxnonun fikrincə, **sahibkarlıq fəaliyyəti** – daha geniş anlayış olan iqtisadi fəaliyyət anlayışının tərkib hissəsidir. Belə ki, istənilən sahibkarlıq fəaliyyəti elə iqtisadi fəaliyyətdir. Müəlliflər hesab edirlər ki, iqtisadi fəaliyyətin məzmunu – ona daxil olan digər fəaliyyət növlərinin əhəmiyyətini və mənasını müəyyən edir. Söhbət təsərrüfat, sahibkarlıq və kommersiya fəaliyyətindən gedir.[2]

**İqtisadi fəaliyyət** anlayışına nəinki məhsul istehsalı, işlərin görülməsi və xidmətlərin göstərilməsi, həm də iqtisadiyyat sahəsində digər fəaliyyət növləri də daxildir.[3]

Yuxarıda iqtibas gətirilən fikirlərdən belə qənaətə gəlmək olar ki, **"iqtisadi fəaliyyət" anlayışı "təsərrüfat fəaliyyəti", "sahibkarlıq fəaliyyəti"** və **"kommersiya fəaliyyəti"** anlayışlarına nisbətdə daha geniş anlayışdır və özündə təsərrüfat fəaliyyəti, sahibkarlıq fəaliyyəti və kommersiya fəaliyyətini ehtiva edir. **Kommersiya fəaliyyəti** isə sahibkarlıq fəaliyyətinin bir növüdür.

---

[1] Предпринимательское право Россиийской Федерации. Отв. Ред. Е.П. Губин, П.Г.Лахно. М.,Юристъ, 2004, с. 23.

[2] Yenə orada, c 22.

[3] Предпринимательское (хозяйственное) право. Учебник Под ред. В.В. Лаптева и С.С. Занковского. М. Волтерс Клувер, 2006. с.17.

## 1.2. Kommersiya (sahibkarlıq) hüququnun prinsiplərinin anlayışı və təsnifatı

“Prinsip” məfhumunun hərfi mənası müəyyən bir nəzəriyyənin, əqidənin, dünyagörüşün, elmin əsas müddəası, çıxış nöqtəsi kimi başa düşülür.

Hüququn prinsipləri[1] dedikdə, onun mahiyyətini, ictimai təyinatını və məqsədyönlüyünü xarakterizə edən ilkin başlanğıclar, əsaslar başa düşülür. Professor M.F.Məlikovanın fikrincə, hüququn prinsipləri – hüququn mahiyyətini, sosial təyinatını və məqsədəyönlülüyünü ifadə edən rəhbər başlanğıclar, ideyalar, əsaslardır. Hüququn prinsipləri sosial-iqtisadi gerçəkliyin tələbatlarından irəli gəldiyindən obyektiv xarakter daşıyır.[2] Daha sonra müəllif haqlı olaraq qeyd edir ki, hüququn prinsipləri hüququn bütün sistemində öz ifadəsini tapır. Onlar hüququn müəyyən normalarında, institutlarında möhkəmləndirilə bilər. Lakin hüquq normasının bilavasitə hər hansı prinsipi ifadə etməməsi o demək deyildir ki, həmin normaya ümumiyyətlə hüququn prinsiplərinin ruhu nüfuz etməmişdir. Qeyd edildiyi kimi, hüquq normaları bir-birindən ayrılıqda deyil, bütövlükdə bir sistemdə mövcud olub əlaqəli şəkildə fəaliyyət göstərir. Bu hal belə bir qənaətə gəlməyə imkan verir ki, hüququn prinsipləri hüquq sisteminə münasibətdə əlaqələndirmə (koordinasiya) rolunu ifadə edir, onun ünsürləri (norma, hüquq institutu, hüquq sahələri) arasında uyğunluq, ahənglik yaratmasına kömək edir, nəticədə hüquq sistemi bütöv, daxilən uzlaşmış ünsürlərin vəhdəti kimi qavranılır.[3]

Bu gün hüquq elmində kommersiya (sahibkarlıq) hüququnun

---

[1] Prinsip sözü (*prinsipium*) latın sözü olub, əsas, rəhbər müddəalar, ilkin başlanğıclar deməkdir.

[2] Məlikova M.F. Hüququ nəzəriyyəsi. Dərslik. Yenidən işlənmiş və əlavələr edilmiş üçüncü nəşri. Bakı, “Elm və təhsil”, 2019. Səh. 52.

[3] Yenə orada, səh. 54.

prinsiplərinin anlayışına dair müxtəlif mövqelər ifadə olunub. Bu hüquq sahəsinin kompleks və yaxud sahəvi hüquq sahəsi olduğuna dair vahid bir mövqe formalaşmadığı kimi, bu hüquq sahəsinin prinsiplərinin anlayışına dair alimlər arasında vahid fikir formalaşmayıb. Belə ki, bir sıra alimlər tərəfindən kommersiya (sahibkarlıq) hüququnun xüsusi prinsiplərini, digər alimlər tərəfindən isə mülki hüquqi kontekstindən yanaşılaraq mülki hüquqa xas olan prinsipləri kommersiya (sahibkarlıq) hüququnun prinsipləri kimi nəzərdən keçirilir.

Kommersiya (sahibkarlıq) hüququnun prinsiplərinin anlayışına dair hüquq ədəbiyyatında təsbit olunan fikirləri ümumiləşdirib qeyd edə bilərik ki, **kommersiya (sahibkarlıq) hüququnun prinsipləri dedikdə,** sahibkarlıq fəaliyyətinin tənzimlənməsini təmin edən hüquq normalarının bütün kompleksinə şamil olunan əsas başlanğıc müddəalar başa düşülür.

Kommersiya (sahibkarlıq) hüququnun prinsiplərinin mühüm və ən vacib təsnifatları nəzərdən keçirmək hesab edirik ki, daha məqsədəmüvafiq olardı. Belə ki, V.F. Popondopulo kommersiya (sahibkarlıq) hüququ prinsiplərinin təsnifatını verərkən mülki qanunvericiliyə istinad etmişdir. O hesab edir ki, "mülki hüququn tərkib hissəsi kimi kommersiya (sahibkarlıq) hüququnun xüsusiyyətlərini xüsusi hüququn prinsipləri vasitəsilə müşahidə etmək olar".[1] Müəllif İ.V. Yerşovanın fikirlərini tənqid edərək onun təsbit etdiyi prinsipləri kommersiya (sahibkarlıq) hüququnun prinsipləri kimi qəbul etmir. Lakin, İ.V. Yerşova kommersiya (sahibkarlıq) hüququna xas olan prinsipləri təsbit edir: azad sahibkarlıq fəaliyyəti, vahid iqtisadi məkan; mülkiyyətin formalarının müxtəlifliyinin tanınması, mülkiyyət formalarının hüquq bərabərliyi və onların bərabər şəkildə müdafiəsi; rəqabətin dəstəklənməsi və inhisarçılığa və haqsız rəqabətə yönələn iqtisadi

---

[1] Попондопуло В.Ф. Коммерческое (прелпринимательское) право. Учебник. М.Юристь, 2004. с. 29.

fəaliyyətin yolverilməzliyi; sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsi və qanunçuluq prinsipləri.[1]

Digər rus hüquqşünasları N.Y. Kruqlova və İ.F. Bayşa kommersiya (sahibkarlıq) hüququnun prinsiplərinin özünəməxsus təsnifatını verirlər.[2] Lakin, V.S. Anoxin və V.B. Doynikovun təsnifatı yuxarıda göstərilən təsnifatlardan fərqlənir və bu təsnifat İ.V. Yerşovanın verdiyi təsnifata daha yaxındır.

V.F. Popondopulonun kommersiya (sahibkarlıq) hüququnun prinsiplərinin təsnifatına dair yanaşmasını dəstəkləyən S.X.Aslanov isə sahibkarlıq hüququnun prinsiplərinin təsnifatına aşağıda göstərilən prinsipləri aid etmişdir: sahibkarlıq hüququ subyektlərinin bərabərliyi prinsipi; sahibkarlıq hüququ subyektlərinin iradə sərbəstliyi prinsipi; sahibkarların əmlak müstəqilliyi prinsipi; mülkiyyətin toxunulmazlığı prinsipi; müqavilə azaldığı prinsipi; mülki hüquqların maneəsiz həyata keçirilməsinə şərait yaradılması prinsipi; pozulmuş hüquqların bərpasının təmin edilməsi və onların məhkəmə müdafiəsi prinsipi.[3] Müəllif Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 5.1-ci maddəsinə əsaslanaraq kommersiya (sahibkarlıq) hüququnun prinsiplərinin təsnifatını vermişdir. Daha sonra S.X. Aslanov qeyd edir ki, "... Digər tərəfdən, istər sahibkarlıq ilə məşğul olan, istərsə də məşğul olmayan fiziki və hüquqi şəxslər mülki hüquq münasibətlərinin subyekti ola bilərlər (MM-in 5.1-ci maddəsi)".[4]

Bu halda qeyd edə bilərik ki, məhz AR Mülki Məcəlləsinin 5.1-ci maddəsinin dispozisiyası mülki hüquq münasibətlərinin subyekti ola biləcək şəxsləri iki kateqoriyaya ayırır: sahibkarlıq

---

[1] Ершова И.В. Предпринимательское право. Учебник. М., Юриспруденция, 2002. с. 13-15.

[2] Круглова Н.Ю. Хозяйственное право. М.: Русская Деловая Литература, 1997. с. 52-53; Байша Ж.Ф. Предпринимательское право. Учебное пособие. М., 2003. с. 6-7.

[3] Aslanov S.X. Sahibkarlıq hüququ. əlavə və dəyişiklərlə. Bakı, "Digesta" nəşriyyatı, 2013. Səh. 41.

[4] Yenə orada, səh. 41.

fəaliyyəti ilə məşğul olan və sahibkarlıq fəaliyyəti ilə məşğul olmayan fiziki və hüquqi şəxslər. Bunun isə əsas səbəbi ondan ibarətdir ki, hüquqi və fiziki şəxslər sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün Azərbaycan Respublikasının qanunvericilik aktları ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatından keçməli, sahibkarlıq fəaliyyətinin hər hansı bir növü ilə məşğul olmaq üçün isə müvafiq mərkəzi icra hakimiyyəti orqanından xüsusi (lisenziya) razılıq almalıdırlar. Başqa sözlə desək, sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki və hüquqi şəxslər dövlət qeydiyyatından keçərək müvafiq fəaliyyət növünü həyata keçirmək üçün lisenziya aldıqdan sonra xüsusi status əldə etmiş olur.

Artıq yuxarıda göründüyü kimi kommersiya (sahibkarlıq) hüququnun kompleks hüquq sahəsi olması ilə yanaşı, həm də onun prinsipləri haqqında hüquq elmində vahid fikir formalaşmamışdır. Odur ki, bu və ya digər müəllifin fikirlərinin əhəmiyyətini azaltmadan qeyd etmək lazımdır ki, kommersiya (sahibkarlıq) hüququ kompleks hüquq sahəsidir və digər hüquq sahələrinin prinsipləri kommersiya (sahibkarlıq) hüququna xas ola bilər. Lakin, birmənalı olaraq kommersiya (sahibkarlıq) hüququna məhz mülki hüququn bütün prinsiplərinin aid edilməsini fikrimizcə, heç də düzgün hesab etmək olmaz.

Bütün göstərilən təsnifatları təhlil edərək aşağıdakı prinsipləri təklif edirik:

**1. Azad sahibkarlıq fəaliyyəti prinsipi.** Bu prinsip öz təsbitini AR Konstitusiyasının 59-cu maddəsində tapıb. Belə ki, adı çəkilən maddəyə əsasən **«hər kəs öz imkanlarından, qabiliyyətindən və əmlakından sərbəst istifadə edərək təkbaşına və ya başqaları ilə birlikdə azad sahibkarlıq fəaliyyəti və ya qanunla qadağan edilməmiş digər iqtisadi fəaliyyət növü ilə məşğul ola bilər».**

Azad sahibkarlıq fəaliyyəti dedikdə, vətəndaşın və ya kommersiya təşkilatlarının iqtisadiyyatın istənilən sahəsində sahibkarlıq fəaliyyətinə başlamaq və həyata keçirmək hüququ başa

düşülür. Lakin bu azadlıq mütləq deyil və ictimai maraqların naminə, habelə dövlətin təhlükəsizliyinin və ölkənin müdafiəsinin təmin edilməsi məqsədilə qanunla məhdudlaşdırıla bilər.

Bu məhdudiyyətlərdən biri kimi sahibkarlıq fəaliyyətinin ayrı-ayrı növlərinin lisenziyalaşdırılması sistemini göstərmək olar. Belə ki, sahibkarlıq fəaliyyətinin azadlığı bu fəaliyyətin ayrı-ayrı növlərinin lisenziyalaşdırılması ilə də məhdudlaşdırıla bilər.

**2. Vahid iqtisadi məkan prinsipi.** Bu prinsipə görə ölkə ərazisində əmtəələrin, xidmətlərin və maliyyə vəsaitlərinin azad hərəkət edilməsidir.

Lakin insanların həyat və sağlamlığının müdafiəsi, təbiətin və mədəni dəyərlərin mühafizəsinin təmin edilməsi zəruridirsə, onda müvafiq qanunlarla bu prinsip məhdudlaşdırıla bilər. AR Mülki Məcəlləsinin 6-cı maddəsinin 4-cü hissəsində qeyd olunub ki, «mallar, xidmətlər və maliyyə vəsaitləri Azərbaycan Respublikasının bütün ərazisində sərbəst hərəkət edir. Əgər insanların təhlükəsizliyinin təmin edilməsinə, onların həyat və sağlamlığının mühafizəsinə, habelə təbiət və mədəniyyət sərvətlərinin qorunmasına zərurət yaranarsa, qanunvericiliyə əsasən malların və xidmətlərin hərəkəti üçün məhdudiyyətlər tətbiq edilə bilər».

**3. Sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsi prinsipi.** Sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsi istənilən dövlətdə mövcuddur. Bu prinsip AR Konstitusiyasının 59-cu maddəsində öz əksini tapmışdır. Belə ki, AR Konstitusiyasının 59-cu maddəsinin 2-ci hissəsinə əsasən dövlət sahibkarlıq sahəsində yalnız dövlət maraqlarının, insan həyatının və sağlamlığının müdafiəsi ilə bağlı tənzimləməni həyata keçirir. Qeyd etmək lazımdır ki, sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsində inzibati metodlarla yanaşı, iqtisadi metodlardan da istifadə olunur.

Dövlət və ictimai maraqlara uyğun bu və ya digər məsələlərin iqtisadi metodlar vasitəsilə həll edilməsi mümkün deyilsə, məcburi göstərişlər metodundan istifadə oluna bilər. Sahibkarlıq fəaliy-

yətinin dövlət tənzimlənməsinin formaları da müxtəlifdir. Bu formalara təkcə məhdudlaşdırıcı tədbirlər deyil, həm də dövlət və cəmiyyət üçün zəruri olan sahibkarlıq fəaliyyətinə dövlət köməyi də daxildir. Xüsusilə sahibkarlıq fəaliyyəti subyektlərinin dövlət qeydiyyatı, sahibkarlıq fəaliyyətinin ayrı-ayrı növlərinin lisenziyalaşdırılması, antiinhisar və vergi tənzimlənməsi və s. sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsində mühüm əhəmiyyət kəsb edir. Sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsi bir qayda olaraq, ölkə daxilində və qanunvericiliyə müvafiq olaraq həyata keçirilir.

**4. İnhisarlıqdan müdafiə və rəqabət prinsipi.** Bazar şəraitində iqtisadi və sosial inkişafda yalnız o sahibkar üstünlük əldə edir ki, əgər həmin sahibkar təsərrüfatçılıqda az məsrəflə olsa da, daha yüksək nəticələrə, yüksək keyfiyyətli, rəqabətə davamlı mallar (işlər, xidmətlər) istehsal etsin.

Bəzi müəlliflərin fikrincə bu prinsip xüsusilə planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçid zamanı vacibdir. Halbuki, sovetlər dönəmində təsərrüfat fəaliyyətinin müvafiq sahələrində inhisarçı olan iri müəssisələr və birliklər yaradılmışdır. Onu da qeyd edək ki, rəqabət olmadan və inkişaf etmədən rəqabət mühitini yaratmadan bazar iqtisadiyyatına keçid mümkün deyil. Məhz Azərbaycan Respublikasının Konstitusiyası da inhisarçılığa və haqsız rəqabətə yol vermir. Belə ki, Azərbaycan Respublikası Konstitusiyasının 15-ci maddəsinin 2-ci hissəsinə əsasən Azərbaycan dövləti bazar münasibətləri əsasında sosial yönümlü iqtisadiyyatın inkişafına şərait yaradır, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarlığa və haqsız rəqabətə yol vermir.

Bu prinsipin həyata keçirilməsində əsas rolu haqsız rəqabət və antinhisar qanunvericiliyi oynayır. Hal hazırda sahibkarlıq fəaliyyəti sahəsində antinhisar fəaliyyəti və sahibkarlar arasında haqsız rəqabətə yol verilməsini məhdudlaşdıran "Antinhisar fəaliyyəti haqqında" və "Haqsız rəqabət haqqında" AR Qanunlarını göstərmək olar.

**5. Qanunçuluq prinsipi.** Qanunçuluq prinsipi daha çox ümumi xarakter daşıyır. Belə ki, bu prinsipin məzmunu hüququn bütün subyektləri tərəfindən hüquq normaları göstərişlərinin dəqiq və tam həyata keçirilməsində ifadə olunur. Sahibkarlıq fəaliyyətində qanunçuluq dedikdə, bu fəaliyyəti tənzim edən normalara ciddi əməl olunması başa düşülür. Qanunçuluq prinsipi sahibkarlıq üçün vacib olan sahibkarlıq münasibətlərinin sabitliyini və dayanıqlığını təmin edir. Qanunçuluq prinsipi təkcə sahibkarlar üçün deyil, həm də onların fəaliyyətinə nəzarət edən dövlət orqanları üçün də mühüm əhəmiyyət kəsb edir. Bəzən sahibkarlıq fəaliyyəti subyektlərinin hüquqları onların fəaliyyətinə nəzarəti həyata keçirən dövlət orqanları tərəfindən pozulur. Belə pozuntuların aradan qaldırılmasına dair məsələlər "Dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi və sahibkarlığın inkişafı sahəsində süni maneələrin aradan qaldırılması haqqında" AR Prezidentinin 7 yanvar 1999-cu il tarixli Fərmanında təsbit olunmuşdur.

## 1.3. Kommersiya (sahibkarlıq) hüququnun mənbələrinin anlayışı və təsnifatı

Bir sıra alimlər hüququn mənbələrinin anlayışının daha bir mühüm aspektini fərqləndiririrlər. Hüququn mənbəyi yazılı hüquqi sənəd kimi nəzərdən keçirilir. Lakin bu zaman istənilən yazılı sənəd deyil, yalnız normativ tənzimləyici kimi hüququn əsas xarakteristikası ilə bağlı olan hüquqi sənədlər başa düşülür.

Dövlət və hüquq nəzəriyyəsi dərsliklərində bəzi müəlliflər hesab edirlər ki, hüququn mənbəyi aşağıdakı əlamətlərlə xarakterizə olunur:

- ✓ ***hüququn mənbələri hüquq normalarından ibarətdir.*** *Bütün hüquq mənbələrində ictimai münasibətlərin hüquqla tənzimlənən bu və ya digər sahəsində müəyyən davranış qaydalarının məcmusu təsbit olunur. Onların tətbiqi qeyri-məhdud sayda hallar üçün nəzərdə tutulur;*

- ✓ ***hüquq normaları müvafiq ifadə və təsbit formalarına malikdir.*** *Hüquq normasını abstrakt ifadəli göstəriş şəklində və ya konkret şəxsə ünvanlanmış, ümummәcburi əhəmiyyətə malik göstəriş şəklində, yaxud başqa üsulla ifadə etmək olar. Hüquq normaları ya dəqiq struktura malik formada yəni, bölmələrə, fəsillərə, maddələrə, paraqraflara və s. ayrılan sənədlərdə, ya bu və ya digər mübahisənin həlli haqqında rəsmiləşdirilməmiş hesabat formasında, ya da başqa formada təsbitini tapır;*
- ✓ ***dövlətin hüquq mənbələrinin dairəsinin formalaşmasına təsiri.*** *Dövlət və onun orqanları bu və ya digər hüquq mənbələrini müstəqil surətdə işləyib hazırlaya və onların qüvvəyə minməsini həyata keçirə (məsələn, normativ hüquqi aktlar), onları sanksiyalaşdıra (məsələn, hüquqi adət) bilər;*
- ✓ ***hüququn mənbələrinin icrasının məcburiliyi.*** *Hüquqi göstərişlərin bütün hüquq subyektləri tərəfindən sözsüz həyata keçirilməsi onların dövlət tərəfindən müdafiəsi və onlarda təsbit edilən hüquq normalarını pozmuş şəxs barəsində dövlət məcburetmə tədbirlərinin tətbiqi imkanı ilə şərtlənir;*
- ✓ ***ifadə və təsbitin formal-müəyyən xarakteri.*** *Bu əlamət, birincisi, subyektiv hüquq və vəzifələrin, onların pozulmasına görə sanksiyaların dəqiq və müəyyən surətdə ifadə olunmasını, ikincisi, mənbələrdə subyektlərin davranış qaydalarının təsbitinin sənədli xarakterini göstərir;*
- ✓ ***mənbələrdən istifadə imkanı.*** *Burada, birincisi, hüququn bütün subyektlərinin mənbənin məzmunu haqqında sərbəst informasiya almaq imkanı onun açıqlanmasının, rəsmi dərc olunmasının müəyyən qaydası və ikincisi, hüququn mənbələrinin anlaşıqlı, başa düşülən dildə ifadəsi nəzərdə tutulur.*[1]

---

[1] Теория государства и права. /Под ред. В.П.Малахова, В.Н.Казакова. М., 2002, с. 86-97.

A.B.Vengerov da belə hesab edirdi ki, "hüququn mənbəyi" anlayışı informasiya əhəmiyyətinə malikdir. O, zəruri davranış qaydasını tapmaq, onu rəhbər tutmaq, tətbiq etmək və s. üçün hara «baxmaq» lazım olduğunu müəyyən edir.[1]

Bütün bu göstərilən əlamətlər alimlərə hüququn mənbəyinin anlayışının aşağıdakı tərifini ifadə etməyə imkan vermişdir: "Xüsusi-hüquqi (formal) mənada hüququn mənbəyi dövlət tərəfindən rəsmən tanınmış müxtəlif sənədlərdə hüquq normalarının ifadəsinin və təsbitinin xarici formasıdır".[2]

Adətən, ümumi hüquq nəzəriyyəsində hüququn mənbələrinin dörd növü göstərilir: normativ-hüquqi akt, məhkəmə presedenti, sanksiyalaşdırılmış adət və normativ müqavilə. Ayrı-ayrı tarixi dövrlərdə, elə indinin özündə də bəzi ölkələrdə ayrı-ayrı alimlər hüququn mənbəyi qismində hüquqşünasların fəaliyyətini, hüquq ideologiyasını, hüquqi şüuru, dini mətnləri, hüquqi doktrinaları qəbul etmişlər və etməkdədirlər.

Yuxarıda göstərilənləri ümumiləşdirib elmi dövriyyəyə kommersiya (sahibkarlıq) hüququnun mənbələrinin aşağıdakı tərifi təklif olunur: "**Kommersiya (sahibkarlıq) hüququnun mənbələri** dedikdə, sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi prosesində yaranan sahibkarlıq münasibətlərini və onlarla sıx bağlı olan digər münasibətləri tənzim edən bu münasibətlərin iştirakçılarının hüquq və vəzifələrini müəyyən edən, kommersiya (sahibkarlıq) hüququ normalarını təsbit edən səlahiyyətli dövlət orqanlarının hüquqyaradıcı (normayaradıcı) fəaliyyətinin nəticələri başa düşülür".

Qeyd etmək lazımdır ki, müxtəlif dövrlərdə və müxtəlif alimlər tərəfindən müxtəlif meyarlardan istifadə olunmaqla həyata keçirilən ən mühüm və məşhur təsnifatlar nəzərdən keçirilmişdir. Bizim fikrimizcə, bu və ya digər təsnifata (onun bu və ya di-

---

[1] Венгеров А.Б. Теория государства и права: Учебник. М., 1999, с. 340.

[2] Теория государства и права /Под ред. В.П.Малахова, В.Н.Казакова. М., 2002,

gər növünə) üstünlük vermək və başqa təsnifatların əhəmiyyətini azaltmaq düzgün olmazdı. Çoxlu təsnifatın mövcud olmasına baxmayaraq, xüsusilə təcrübədə tətbiqi baxımından onlardan ən mühümlərini fərqləndirmək lazımdır. Belə təsnifatlara (şərti surətdə) hüquqi qüvvəsinə görə təsnifatı aid etmək olar. Məhz o, kommersiya (sahibkarlıq) hüququnun mənbələri sisteminin qurulmasının iyerarxiyasını şərtləndirir. AR Konstitusiyasının 148-ci maddəsinə əsasən, Azərbaycan Respublikasının qanunvericilik sistemi aşağıdakı normativ hüquqi aktlardan ibarətdir.

- ✓ *Konstitusiya;*
- ✓ *Referendumla qəbul edilmiş aktlar;*
- ✓ *Qanunlar;*
- ✓ *Fərmanlar;*
- ✓ *Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarları;*
- ✓ *Mərkəzi İcra Hakimiyyəti orqanlarının normativ aktları.*

AR Konstitusiyası hüququn mənbələri sırasına həmçinin beynəlxalq müqavilələri (148-ci maddənin ikinci hissəsi), Naxçıvan Muxtar Respublikasının Konstitusiyasını və qanunlarını (148-ci maddənin üçüncü hissəsi), yerli icra hakimiyyəti orqanlarının aktlarını (148-ci maddənin beşinci hissəsi) aid edir.

Kommersiya (sahibkarlıq) hüququnun əsas mənbəyi kimi Azərbaycan Respublikasının Konstitusiyası çıxış edir. AR Konstitusiyası Azərbaycan Respublikasında ən yüksək hüquqi qüvvəyə, birbaşa təsirə malikdir. Azərbaycan Respublikasında qəbul olunan digər hüquqi aktlar Azərbaycan Respublikasının Konstitusiyasına zidd olmamalıdır. Azərbaycan Respublikasının Konstitusiyası Azərbaycan Respublikasının qanunvericilik sisteminin əsasıdır. Azərbaycan Respublikasının Konstitusiyası hüquqyaradıcılığı sahəsində müxtəlif dövlət orqanlarının səlahiyyətlərini bölür və bu bölgüyə müvafiq olaraq hüququn mənbələrinin differensasiyasını (fərqləndirmə, dərəcələrə ayırma) aparır.

Həmçinin, hüququn mənbələrinin iyerarxik quruluşuna görə sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı normaları özündə təsbit edən məcəllələri göstərmək olar: AR Mülki Mə-

cəlləsi, AR Vergi Məcəlləsi.

Kommersiya (sahibkarlıq) hüququnun mənbələri sistemində Azərbaycan Respublikası Mülki Məcəlləsinin yeri haqqında məsələ çox mürəkkəbdir. Məsələ ondadır ki, AR Mülki Məcəlləsi öz tənzimlənməsi ilə vətəndaşların istehlak ehtiyaclarının təmin edilməsinə yönələn həm sahibkarlıq, həm də əmtəə münasibətlərini əhatə edir. AR Mülki Məcəlləsi sahibkarlığı tənzim edən çoxlu sayda normaları özündə təsbit edir. AR Mülki Məcəlləsində sahibkarlıq fəaliyyətinin anlayışı, onun həyata keçirilməsinin təşkilati-hüquqi formaları, sahibkarların əmlakının hüquqi rejimi və sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi sahəsində bağlanılan müqavilələr öz əksini tapıb.

AR-nın Mülki Məcəlləsi ilə yanaşı kommersiya (sahibkarlıq) hüququnun mənbələri sistemində aparıcı rolu «qanunlar» oynayır. Onları qruplaşdıraraq aşağıdakı kimi təqdim etmək olar:

- ✓ ***Bazarın vəziyyətini müəyyən edən qanunlar**: "Haqsız rəqabət haqqında" 2 iyun 1995-ci il tarixli Azərbaycan Respublikasının Qanunu, "Antiinhisar fəaliyyəti haqqında" 4 mart 1993-cü il tarixli Azərbaycan Respublikasının Qanunu;*
- ✓ ***Sahibkarlıq fəaliyyətini həyata keçirən subyektlərin hüquqi vəziyyətini müəyyən edən qanunlar:** "Maliyyə-sənaye qrupları haqqında" 23 aprel 1996-cı il tarixli Azərbaycan Respublikasının Qanunu, "Kiçik sahibkarlığa dövlət köməyi haqqında" 4 iyun 1999-cu il tarixli Azərbaycan Respublikasınını Qanunu və s.;*
- ✓ ***Sahibkarlıq fəaliyyətinin ayrı-ayrı növlərinin həyata keçirilməsi qaydalarını tənzim edən qanunlar**: "Bank haqqında" 16 yanvar 2004-cü il tarixli Azərbaycan Respublikasının Qanunu; "İnvestisiya fondları haqqında" 13 yanvar 2016-cı il tarixli Azərbaycan Respublikasının Qanunu;*
- ✓ ***Sahibkarlıq münasibətlərini tənzim edən digər qanunlar**: "Müflisləşmə və iflas haqqında" 13 iyun 1997-ci il tarixli Azərbaycan Respublikasının Qanunu.*

Sahibkarlıq fəaliyyətinin hüquqi tənzimlənməsində **Azərbaycan Respublikası Prezidentinin fərmanları** mühüm yer tutur. Azərbaycan Respublikası Prezidentinin qəbul etdiyi aktlar Azərbaycan Respublikasının Konstitusiyasına və Azərbaycan Respublikasının Qanunlarına zidd olmamalıdır. Belə bir göstəriş Azərbaycan Respublikası Konstitusiyasının 149-cu maddəsinin IV hissəsində öz əksini tapıb. Yalnız dərc edilmiş fərmanların tətbiqi və icrası bütün vətəndaşlar, icra hakimiyyəti orqanları, hüquqi şəxslər üçün məcburidir". Azərbaycan Respublikası Prezidentinin aşağıda göstərilən Fərmanları sahibkarlıq fəaliyyətinin hüquqi tənzimlənməsi sahəsində mühüm əhəmiyyətə malikdir: Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 1 dekabr tarixli, 1482 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Mikro və kiçik sahibkarlıq subyektlərinin istehsal etdikləri məhsulların ticarət şəbəkələrində satışının genişləndirilməsinə dəstək Qaydası", "Azərbaycan Respublikasında sahibkarların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsinə dövlət dəstəyi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 15 sentyabr 2017-ci il tarixli, 1599 nömrəli Fərmanı, "Müəyyən sahibkarlıq fəaliyyəti növləri ilə məşğul olmaq üçün tələb edilən xüsusi razılıq (lisenziya) və icazə sistemi ilə bağlı bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 26 oktyabr 2011-ci il tarixli, 509 nömrəli Fərmanı və s.

Kommersiya (sahibkarlıq) hüququnun mənbələri sırasına Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları da daxildir. AR Nazirlər Kabinetinin qərarları AR qanunlarının və AR Prezidentinin fərmanlarının inkişafı və icrası ilə əlaqədar verilməlidir. Sahibkarlıq fəaliyyətinin hüquqi tənzimlənməsi sahəsində AR Nazirlər Kabinetinin bir sıra qərarlarını göstərmək olar: "Məhsul nümunələrinin götürülməsi ilə bağlı yoxlayıcı orqanın çəkdiyi xərclərin sahibkar tərəfindən əvəzinin ödənilməsi Qaydaları və müddətləri"nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 12 may tarixli, 142

nömrəli Qərarı, “Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 21 dekabr tarixli 556 nömrəli Qərarı, “Mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən dövlət xidmətlərinin “KOB indeksi” üzrə qiymətləndirilməsi Qaydası”nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 yanvar tarixli 21 nömrəli Qərarı və s.

Kommersiya (sahibkarlıq) hüququnun mənbələri sırasında **mərkəzi icra hakimiyyəti orqanlarının** öz səlahiyyətləri çərçivəsində qəbul etdiyi normativ aktları da mühüm yer tutur. Bu normativ aktlar, qanunlar, AR Prezidentinin fərmanlarının və Nazirlər Kabinetinin qərarlarının icrasını təmin etmək məqsədilə dövlət orqanları tərəfindən öz səlahiyyətləri daxilində qəbul edilir. Məsələn, sahibkarlıq fəaliyyətinə dövlət nəzarətinin həyata keçirilməsində səlahiyyətli olan Azərbacan Respublikası İqtisadiyyat Nazirliyinin aktlarını buna misal olaraq göstərmək olar: “Kiçik və orta biznesin inkişafı mərkəzləri haqqında Nümunəvi-Əsasnamə”nin və “Dövlət-Sahibkar Tərəfdaşlığının İnkişafı Mərkəzi haqqında Nümunəvi Əsasnamə”nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Kollegiyasının 2019-cu il 16 iyul tarixli 4 nömrəli Qərarı, “Kiçik və orta biznes evləri haqqında Nümunəvi Əsasnamə”nin təsdiq edilməsi barədə Azərbaycan Respublikasi İqtisadiyyat Nazirliyinin Kollegiyasının 30 aprel 2019-cu il tarixli 3 nömrəli Qərarı və s.

Kommersiya (sahibkarlıq) hüququnun mənbələri sırasında **lokal normativ aktların** rolu da böyükdür. Belə ki, şəxsi sahibkarlıq fəaliyyətinin tənzimlənməsi məqsədi ilə təsərrüfat subyektlərinin özləri və ya onların təsisçiləri tərəfindən lokal normativ aktlar qəbul edilir. Təsisçilər tərəfindən təsdiq edilən aktlara müəssisəsinin nizamnaməsi aiddir. Müəssisənin nizamnaməsi bu müəssisənin təşkili və fəaliyyətini müəyyən edir. Müəssisələr tərəfindən qəbul edilən lokal normativ aktlarda onun

struktur bölmələrinin hüquq və vəzifələri müəyyən olunur, təsərrüfatdaxili münasibətlər tənzimlənilir.

Azərbaycan Respublikasının tərəfdar çıxdığı **beynəlxalq müqavilələr** də kommersiya (sahibkarlıq) hüququnun mənbələrinə aiddir. Belə ki, AR Konstitusiyasının 149-cü maddəsinin 2-ci hissəsinə əsasən, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir (məsələn, BMT-nin 1980-ci il «Əmtəələrin beynəlxalq alqı-satqı müqavilələri haqqında» Vyana Konvensiyası). Azərbaycan Respublikasının ratifikasiya etdiyi beynəlxalq müqavilələr ilə Azərbacan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlar (referendum ilə qəbul olunmuş aktlar istisna olmaqla) arasında ziddiyyət yaranarsa, beynəlxalq müqavilələr tətbiq edilir.

Kommersiya (sahibkarlıq) hüququnun mənbələri qismində **işgüzar adətlər** də çıxış edir. İşgüzar adətlər subsidiar əhəmiyyətə malikdir. İşgüzar adətlərin əksər hissəsi xarici ticarət münasibətlərinin tənzimlənməsində istifadə olunur. AR Mülki Məcəlləsinin 10-cu maddəsinə əsasən, "sahibkarlıq fəaliyyətinin hər hansı sahəsində təşəkkül tapan və geniş tətbiq edilən, qanunvericiliklə nəzərdə tutulmayan davranış qaydası, hansısa aktda qeyd edilib-edilmədiyindən asılı olmayaraq, işgüzar adət sayılır".

İndiyə qədər belə bir sual problem kimi qalmaqdadır (ən azı ölkə hüquqşünasları arasında): məhkəmə təcrübəsi (məhkəmə presedenti) hüququn mənbəyi hesab olunmalıdırmı?

Hesab edirik ki, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun qərarlarını aşağıda göstərilən **səbəblərə** əsasən, kommersiya (sahibkarlıq) hüququnun mənbəyi kimi qəbul edilməsi məqsədəmüvafiq hesab oluna bilər. **Birincisi,** Konstitusiya Məhkəməsi Plenumunun qərarları ümumməcburi xarakter daşıyır. **İkincisi,** normativ aktın və ya onun ayrı-ayrı müddəalarının Konstitusiyaya uyğun olmadığı üçün qüvvədən düşmüş hesab edilməsi zamanı AR Konstitusiyasına müvafiq

hesab edilməyən aktı ləğv edən və ya dəyişdirən yeni aktın qəbulu üzrə vəzifəsini yerinə yetirib-yetirməməsindən asılı olmayaraq hüquqi qüvvəsini itirir. **Üçüncüsü,** Konstitusiya Məhkəməsinin Plenumu tərəfindən qəbul edilmiş qərarlar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.[1]

Yuxarıda qeyd olunanlara əsasən belə bir nəticəyə gəlirik ki, AR Konstitusiya Məhkəməsinin qərarları faktiki olaraq hüququn mənbəyi əlamətlərinə malikdir. Yəni, hüquq tətbiqetmə praktikasında hüququn subyektləri tərəfindən əsas kimi götürülməlidir. Eyni zamanda, "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının 21 dekabr 2010-cu il tarixli Konstitusiya Qanununa görə Konstitusiya Məhkəməsinin qərarları normativ xarakterli aktlar hesab olunur. "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun 4-cü maddəsinə görə, Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 1-7-ci bəndlərinə və IV hissəsinə əsasən qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin qərarları normativ xarakterli aktlara aid edilmişdir.

Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qərarlarına gəldikdə isə, qeyd etmək istərdik ki, bəzi alimlər göstərirlər ki, Ali Məhkəmə Plenumunun qərarları artıq çoxdan hüququnun mənbələrinə çevrilmişdir. Digər qrup alimlər isə əks mövqedə duraraq hesab edirlər ki, Ali Məhkəmə Plenumunun qərarları hüququn mənbələri sırasına aid edilə bilməz. Biz də bu fikrə qoşuluruq və hesab edirik ki, Ali Məhkəmə Plenumunun qərarlarının hüququn mənbələri sırasına aid edilməsi hakimiyyətlərin bölünməsi prinsipinə ziddir və bu qərarlar heç bir hüquq norması müəyyən etmədiyi, dəyişdirmədiyi və ləğv etmədiyi üçün

---

[1] "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının 23 dekabr 2003-cü il tarixli, 561-IIQ nömrəli Qanunu. "Azərbaycan Respublikasının Qanunvericilik Toplusu", 31 yanvar 2004-cü il, № 1, maddə 9.

hüququn, o cümlədən də kommersiya (sahibkarlıq) hüququnun mənbəyi hesab oluna bilməz. Bundan başqa, Azərbaycan Respublikası qanunvericiliyinin müddəalarına görə Azərbaycan Respublikası Ali Məhkəmə Plenumunun qərarları tövsiyə xarakteri daşıyır.

## 1.4. Kommersiya (sahibkarlıq) hüquq münasibətlərinin anlayışı və növləri

Sahibkarlıq fəaliyyətinin təşkili prosesində xidmətlərin göstərilməsi, işlərin görülməsi, əmtəələrin istehsalı və realizəsi zamanı sahibkarlıq fəaliyyətinin subyektləri saysız-hesabsız münasibətlərə daxil olur: sahibkarlıq fəaliyyəti subyektinin dövlət qeydiyyatı, zəruri olan lisenziya və icazələrin alınması, əmtəələrin istehsalı, xidmətlərin göstərilməsi, işlərin görülməsi və s. üzrə münasibətlər.

İctimai münasibətlər o halda kommersiya (sahibkarlıq) hüquq münasibətləri kimi təşəkkül tapır ki, əgər bu ictimai münasibətlər hüquq normaları ilə nizamlanır. Beləliklə, qeyd edə bilərik ki, kommersiya (sahibkarlıq) hüquq münasibətləri - kommersiya (sahibkarlıq) hüququnun mərkəzi kateqoriyalarından biridir.

Kommersiya (sahibkarlıq) hüquq münasibətləri - iştirakçıları subyektiv hüquq və vəzifələrin daşıyıcısı olan və kommersiya (sahibkarlıq) hüquq normaları ilə tənzim olunan ictimai münasibətlərdir.

Kommersiya (sahibkarlıq) hüquq münasibələrinin strukturu özündə aşağıdakı elementlərini ehtiva edir:

- *kommersiya (sahibkarlıq) hüquq münasibətlərinin subyektləri;*
- *kommersiya (sahibkarlıq) hüquq münasibətlərinin obyektləri;*
- *kommersiya (sahibkarlıq) hüquq münasibətlərinin məzmunu.*

**Kommersiya (sahibkarlıq) hüquq münasibətlərinin subyektləri** - hüquq və vəzifələrin daşıyıcıları olan hüquq *münasi-*

*bətlərinin iştirakçılarıdır. Bu və ya digər subyektin kommersiya (sahibkarlıq) hüquq münasibətlərinin iştirakçısı (subyekti) olması onun hüquq subyektliliyi ilə müəyyən olunur, yəni hüququn subyekti olması qabiliyyətidir.* **Hüquq subyektliliyi** - müəyyən şəxsin siyasi-hüquqi vəziyyətidir və özündə üç elementi birləşdirir:

- ✓ ***hüquq qabiliyyəti*** - *hüquq və vəzifələrə malik olmaq qabiliyyətidir;*
- ✓ ***fəaliyyət qabiliyyəti*** - *öz hərəkətləri ilə malik olduğu hüquq və vəzifələri həyata keçirmək qabiliyyətidir;*
- ✓ ***delikt qabiliyyəti*** - *öz hərəkətlərinə görə hüquq məsuliyyətini daşımaq qabiliyyətidir.*

Hüquqi dövlətdə hüquq subyektliliyi şəxsiyyətin əsas hissəsidir. Ümumi hüquq nəzəriyyəsindən bizə məlumdur ki, hüquq qabiliyyətinin **üç növü** var: **ümumi hüquq qabiliyyəti** (ümumiyyətlə şəxsin hüququn subyekti olması qabiliyyəti), **sahəvi hüquq qabiliyyəti** (hüququn müvafiq sahəsində hüququn subyekti olmaq qabiliyyəti) və **xüsusi hüquq qabiliyyəti** (konkret hüquq sahəsi çərçivəsində hüququn subyekti olmaq qabiliyyəti).

Kommersiya (sahibkarlıq) hüququnda hüquq qabiliyyətinin **ümumi** və **xüsusi növləri** qəbul olunur. Hüquq subyektliliyi - kommersiya (sahibkarlıq) hüquq münasibətlərinin yaranması üçün nəyin zəruri olduğunun başa düşülməsinə imkan verən əsas kateqoriyadır. Kommersiya (sahibkarlıq) hüququnda hüquq subyektliliyi dedikdə, subyektin kommersiya (sahibkarlıq) hüquq münasibətlərinin iştirakçısı olmasının sosial-hüquqi imkanı başa düşülür.

**Ümumi** hüquq qabiliyyətinə malik olan subyekt sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq, istənilən sahədə sahibkarlıq fəaliyyətini həyata keçirmək, sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi sahəsində istənilən hüquqlara malik olmaq və istənilən vəzifələr daşımaq hüququna malikdir.

Kommersiya (sahibkarlıq) hüququnda **xüsusi hüquq qabiliyyətində** isə hüquq münasibətinin subyekti yalnız onun fəaliyyət

predmetinə müvafiq olan hüquqlara malik olur. Ümumi hüquq qabiliyyətinin məhdudlaşdırılması üsulu kimi sahibkarlıq fəaliyyətinin ayrı-ayrı növlərinin lisenziyalaşdırılması təcrübəsini göstərmək olar.

Xüsusi hüquq qabiliyyətinin ayrı bir növü də **müstəsna hüquq qabiliyyətidir.** Müstəsna hüquq qabiliyyətinin mahiyyəti ondan ibarətdir ki, sahibkarlıq fəaliyyətinin subyekti, bu fəaliyyətin yalnız bir növünü həyata keçirə bilər, digər fəaliyyət növləri ilə məşğul ola bilməz. Məsələn, “Banklar haqqında” AR Qanununun 33.1-ci maddəsinə müvafiq olaraq, icazə verilmiş fəaliyyət növləri istisna olmaqla, heç bir bank topdan satış və ya parakəndə ticarət, istehsal, nəqliyyat, kənd təsərrüfatı, yataqların işlənilməsi, tikinti və sığorta fəaliyyəti ilə məşğul ola və ya sığorta təşkilatları istisna olmaqla tərəfdaş, şərik və payçı kimi bunlarda iştirak edə bilməz». Müstəsna hüquq qabiliyyəti həm də sığorta təşkilatlarına investisiya fondlarına, maliyyə - sənaye qruplarına və digər kommersiya (sahibkarlıq) hüququnun subyektlərinə xasdır.

Kommersiya (sahibkarlıq) hüquq münasibətlərinin digər bir elementi onun **obyektidir.** Kommersiya (sahibkarlıq) hüquq münasibətlərinin spesifik obyektləri aşağıdakılardır:

- ✓ *əşyalar, o cümlədən, pullar və qiymətli kağızlar;*
- ✓ *vəzifəli (öhdəlikli) subyektlərin hərəkətləri;*
- ✓ *hüququn subyektinin şəxsi fəaliyyəti;*
- ✓ *sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi zamanı istifadə olunan firma adı, əmtəə nişanı, kommersiya sirri və s.*

Bildiyimiz kimi istənilən hüquq münasibətləri bir neçə komponentlərdən təşkil olunur ki, onlardan biri də həmin hüquq münasibətinin **məzmunudur**. Hüquq münasibətinin məzmunu tərəflərin hüquq və vəzifələrinin, onların hüquqi davranışlarının cəmidir. Təsərrüfat hüquq münasibətlərinin məzmununu həmin münasibətlərin iştirakçılarının subyektiv təsərrüfat hüquqları və vəzifələri təşkil edir və bunlar öz növbəsində mütləq və ya

mümkün davranış ölçüləridir.

**Kommersiya (sahibkarlıq) hüquq münasibətləri dedikdə,** sahibkarlıq fəaliyyətinin, onunla sıx surətdə bağlı olan qeyri-kommersiya xarakterli fəaliyyətin həyata keçirilməsi prosesində yaranan və kommersiya (sahibkarlıq) hüquq normaları ilə tənzimlənən münasibətlər, habelə təsərrüfat fəaliyyətinin dövlət tənzimi üzrə münasibətlər başa düşülür.

Mülki hüquq nəzəriyyəsində hüquq münasibətlərinin təsnifatından bəhs edərkən, onlar **mütləq və nisbi hüquq münasibətlərinə** bölünür (məsələn, mülki hüquq nəzəriyyəsinə görə mülkiyyət hüququ, vərəsəlik hüququ mütləq hüquqlar, öhdəlik hüququ isə nisbi hüquqlardır). Bu cür bölgü şərti bölgüdür. Amma buna baxmayaraq, sahibkarlıq hüququnun nəzəriyyəsində bu cür şərti bölgüdən istifadə etmək məqsədəuyğundur.

Mütləq hüquq münasibətlərində hüquq subyektinə qarşı qeyri-müəyyən sayda passiv öhdəlikli şəxslər dururlar və onlar subyektə öz hüquqlarının həyata keçirilməsinə maneçilik törədə bilməzlər. Bununla belə müəssisənin özünün fəaliyyət planının təsdiq edilməsi, mühasibat uçotunun aparılması, təsərrüfat fəaliyyətinin nəticələrinin formalaşdırılması səlahiyyəti onun mütləq hüquqlarına aid edilməlidir.

Müəssisənin nisbi hüquqlarına həvalə olunan (kimsə tərəfindən ünvanlanan) vəzifələr aiddir. Çox zaman bu cür hüquqlar digər subyektlərdə müsbət xarakterlidir. Belə hüquq münasibətləri çox vaxt müqavilələrdən, dövlət sifarişlərindən, təsərrüfat idarəçiliyi aktlarından yaranırlar.

Subyektlərin sayından asılı olaraq kommersiya (sahibkarlıq) hüquq münasibətlərini **sadə** və **mürəkkəb** kommersiya (sahibkarlıq) hüquq münasibətlərinə ayırmaq olar. **Sadə kommersiya (sahibkarlıq) hüquq münasibətləri** iki subyekt arasında yaranır (məsələn, lizinq müqaviləsi üzrə lizinqalanla lizinqverən arasında yaranan hüquq münasibətləri). **Mürəkkəb kommersiya (sahibkarlıq) hüquq münasibətinə** bir neçə və ya qeyri-məh-

dud sayda subyektlər daxil olur.

Kommersiya (sahibkarlıq) hüquq münasibətlərini onların quruluşuna, obyektlərinə və məzmununa görə aşağıdakı kimi təsnifləşdirmək olar:

**a) Mütləq (tam) əşya hüquq münasibətləri**.

Mülkiyyət hüququ heç bir konkret subyektlə bağlı olmayan mütləq əşya hüququdur. Mülkiyyət hüququ öz subyektinə qanuna müvafiq surətdə öz əmlakına sahiblik, istifadə və sərəncam imkanı verir. Bu hüquqdan dövlət, bələdiyyələr, xüsusi subyektlər öz əmlakı əsasında təsərrüfatçılığın həyata keçirilməsi üçün istifadə edirlər.

**b) Mütləq-nisbi əşya hüquq münasibətləri**.

Bu münasibətlərə AR Mülki Məcəlləsinin 263-268-ci maddələri ilə tənzimlənən uzufrukt, həmçinin AR Mülki Məcəlləsinin 700-705-ci maddələri ilə tənzimlənən icarə ilə bağlı münasibətlər aid edilə bilər. Onlar mütləq-nisbi hüquq münasibətlərdir. Çünki belə hüququn subyekti əmlak barəsində sahibliyi, istifadəni və sərəncamı «mütləq surətdə» həyata keçirir. Bu halda, öz imkanlarını nisbi hüquq münasibətində olduğu mülkiyyətçidən başqa heç kimlə uzlaşdırmır.

**c) xüsusi sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı mütləq hüquq münasibətləri.**

Belə hüquq münasibətləri üçün xarakterik cəhət bundan ibarətdir ki, onlar hüquq münasibətinin obyektini təşkil edən fəaliyyətlə bağlı təşəkkül tapır. Qanunla müəyyən edilmiş qaydalar üzrə təsərrüfatçılığı həyata keçirən subyektin konkret vəzifəli şəxsləri olmur. Bütün qalan subyektlər onların sahibkarlıq fəaliyyətini həyata keçirməsi imkanı ilə hesablaşmağa və onun realizəsinə maneçilik törətməməyə borcludur.

Sahibkarlığın normal gedişi üçüncü şəxslərin təsiri altında, yaxud müəyyən edilmiş fəaliyyət qaydasının hüquq subyektinin özü tərəfindən pozulması nəticəsində pozulduqda mütləq hüquq münasibəti nisbi hüquq münasibətinə çevrilir. Məsələn, təşkila-

tın öz fəaliyyətinin mühasibat uçotunun aparılması, mühasibat və statistik hesabatların təqdim edilməsi. Buraxılan məhsulun maya dəyərinin müəyyən edilmiş qaydalar üzrə formalaşdırılması normalarına riayət olunmaqla həyata keçirdikdə yaranan hüquq münasibətləri mütləq xarakter daşıyır. Subyekt müəyyən edilmiş normaları pozduqda səlahiyyətli dövlət orqanları yol verilmiş pozuntuların kökünün kəsilməsini və dövlət üçün yaranmış ziyanın əvəzinin ödənilməsini tələb edə bilərlər. Bu zaman hüquq münasibətləri nisbi xarakter kəsb edir.

**ç) Qeyri-əmlak kommersiya (sahibkarlıq) hüquq münasibətləri**.

Bu münasibətlər subyektlərin özlərinin fəaliyyətində istifadə etdikləri firma adı, əmtəə nişanı, xidmət nişanı, malın yarandığı yerin adı, kommersiya sirri və s. kimi qeyri-əmlak nemətləri ilə əlaqədar təşəkkül tapır. Əmlak hüquqlarının normal realizəsinin gedişində təşəkkül tapan hüquq münasibətləri mütləq xarakter daşıyır. Belə hüquqlar pozulduqda onların pozulmadan müdafiəsi üzrə konkret öhdəlik yaranır və hüquq münasibəti qeyri-əmlak hüquq münasibətindən əmlak hüquq münasibətinə çevrilir. Zərərçəkən özünün qeyri-əmlak hüquqlarını müdafiə edərkən pozucudan ziyanın əvəzinin ödənilməsini tələb edə bilər.

**d) təsərrüfat öhdəlikləri**.

Öhdəlik hüquq münasibətlərində iştirakçı başqasından müvafiq hərəkətlərin yerinə yetirilməsini tələb etmək hüququna malikdir. Vəzifə daşıyan subyekt onları icra etməlidir, yəni əmlakı ötürməli, işləri yerinə yetirməli, xidmətlər göstərməlidir. Təsərrüfat öhdəlikləri dörd növə ayrılır: təsərrüfat-idarəetmə (dövlət orqanlarının aktları nəticəsində yaranır); təsərrüfatdaxili (təsərrüfat subyektlərinin bölmələri arasında təşəkkül tapır); ərazi-təsərrüfat (ictimai təsisatların öz aralarında və təşkilatlarla münasibətləri); operativ-təsərrüfat.

## Mövzu üzrə nəticə:

**Kommersiya (sahibkarlıq) hüququ** - hüququn bir sahəsi olub, sahibkarlıq münasibətlərini, o cümlədən, onunla sıx bağlı olan qeyri-kommersiya münasibətlərini, dövlət və ictimai maraqların təmin edilməsi məqsədi ilə iqtisadiyyatın dövlət tərəfindən nizamlanması üzrə münasibətləri tənzim edən hüquq normalarının məcmusudur. Kommersiya (sahibkarlıq) hüquq normaları ilə tənzim olunan ictimai münasibətlər kommersiya (sahibkarlıq) hüququnun **predmetini** təşkil edir. Bu ictimai münasibətlərə aiddir: sahibkarlıq münasibətləri, sahibkarlıqla sıx bağlı olan qeyri-kommersiya münasibətləri, dövlət və ictimai maraqların təmin edilməsi məqsədi ilə iqtisadiyyatın dövlət tərəfindən nizamlanması üzrə münasibətlər. Sahibkarlıq münasibətləri sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi prosesində yaranır.

**Sahibkarlıq fəaliyyəti dedikdə -** şəxsin müstəqil surətdə həyata keçirdiyi, əsas məqsədi əmlak istifadəsindən, malların istehsalından və (və ya) satışından, işlər görülməsindən və ya xidmətlər göstərilməsindən mənfəət (fərdi sahibkarlar tərəfindən gəlir) götürülməsi olan fəaliyyətdir. Sahibkarlıq fəaliyyətinin **əlamətlərinə** daxildir: sahibkarlıq fəaliyyətinin müstəqilliklə xarakterizə olunması; sahibkarlıq fəaliyyətinin subyektləri tərəfindən əmlak istifadəsindən, malların istehsalından və (və ya) satışından, işlərin görülməsindən və ya xidmətlər göstərilməsindən gəlirin əldə edilməsi; sahibkarlıq fəaliyyətini həyata keçirən şəxslərin dövlət qeydiyyatına alınması. Kommersiya (sahibkarlıq) hüquq münasibətlərinin tənzimlənməsində **imperativ** və **dispozitiv** hüquqi nizamasalma metodları istifadə olunur.

**Kommersiya (sahibkarlıq) hüququnun prinsipləri** dedikdə, təsərrüfat fəaliyyətinin tənzimlənməsini təmin edən hüquq normalarının bütün kompleksinə şamil olunan əsas başlanğıc müddəalar başa düşülür. Kommersiya (sahibkarlıq) hüququnun **prinsiplərinə** aiddir: azad sahibkarlıq fəaliyyəti prinsipi; vahid

iqtisadi məkan prinsipi; sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsi prinsipi; inhisarlıqdan müdafiə və rəqabət prinsipi və qanunçuluq prinsipi.

**Kommersiya (sahibkarlıq) hüququnun mənbələri** dedikdə, sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi prosesində yaranan sahibkarlıq münasibətlərini və onlarla sıx bağlı olan digər münasibətləri tənzim edən bu münasibətlərin iştirakçılarının hüquq və vəzifələrini müəyyən edən, kommersiya (sahibkarlıq) hüququ normalarını təsbit edən səlahiyyətli dövlət orqanlarının hüquqyaradıcı (normayaradıcı) fəaliyyətinin nəticələri başa düşülür". Kommersiya ( sahibkarlıq) hüququnun mənbələrinə AR Konstitusiyası, AR Mülki Məcəlləsi, Vergi Məcəlləsi, "Haqsız rəqabət haqqında", "Antiinhisar fəaliyyəti haqqında", "Maliyyə-sənaye qruplar haqqında", "Kiçik sahibkarlığa dövlət köməyi haqqında", "İnvestisiya fəaliyyəti haqqında" və s. AR Qanunları, Azərbaycan Respublikası Prezidentinin Fərmanları, AR Nazirlər Kabinetinin Qərarları, mərkəzi icra hakimiyyəti orqanlarının qərarları, lokal normativ aktları, beynəlxalq müqavilələr və işgüzar adətlər aiddir. AR Konstitusiya Məhkəməsinin qərarları kommersiya (sahibkarlıq) hüququnun mənbəyi hesab olunur və normativ xarakterli aktlara aiddir. AR Ali məhkəməsinin Plenumunun qərarları isə tövsiyə xarakteri daşıyır.

**Kommersiya (sahibkarlıq) hüquq münasibətləri** dedikdə, sahibkarlıq fəaliyyətinin, onunla sıx surətdə bağlı olan qeyri-kommersiya xarakterli fəaliyyətin həyata keçirilməsi prosesində yaranan və kommersiya (sahibkarlıq hüquq normaları ilə tənzimlənən münasibətlər, habelə sahibkarlıq fəaliyyətinin dövlət tənzimi üzrə münasibətlər başa düşülür. Kommersiya (sahibkarlıq) hüququ münasibətləri subyekt tərkibindən asılı olaraq, **sadə** və **mürəkkəb** kommersiya (sahibkarlıq) hüququ münasibətlərinə, quruluşuna, obyektlərinə və məzmununa görə **mütləq (tam), mütləq-nisbi** əşya hüquq münasibətlərinə, **qeyri əmlak** kommersiya (sahibkarlıq) hüquq münasibətlərinə, **təsərrüfat öhdəliklərinə** təsnifatlaşdırılır.

## Mövzunun mənimsənilməsi üçün tövsiyə olunan ədəbiyyat:

### *a) əsas ədəbiyyat:*

1. "Dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi və sahibkarlığın inkişaf sahəsində süni maneələrin aradan qaldırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 7 yanvar 1999-cu il tarixli Fərmanı.

2. "Azərbaycan Respublikasında iqtisadi cinayətkarlığa qarşı mübarizə sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikasının Prezidentinin 27 yanvar 1998-ci il tarixli 730 nömrəli Fərmanı.

3. "Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 9 avqust 1994-cü il tarixli 181 nömrəli Fərmanı.

4. "İstehsal, xidmət, maliyyə-kredit fəaliyyətinə dövlət nəzarətinin qaydaya salınması və əsassız yoxlamaların qadağan edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 17 iyun 1996-cı il tarixli 463 nömrəli Fərmanı.

5. "Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında" Azərbaycan Respublikası Prezidentinin 28 sentyabr 2002-ci il tarixli 790 nömrəli Fərmanı.

6. "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət himayəsi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 10 sentyabr 2002-ci il tarixli 783 nömrəli Fərmanı.

7. "Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarlarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 21 dekabr tarixli 556 nömrəli Qərarı.

8. Məmmədov R. Y. Hüququn mənbələrinin növləri, onların ümumi əlamətləri və fərqləri. "Qanun" jurnalı, № 9, 2005,

səh. 3-11.

9. Məmmədov R.Y. Hüququn mənbələrinin anlayışı və mahiyyəti. Keçid dövründə Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri. Elmi məqalələr məcmuəsi. 13-cü buraxılış. Bakı, “Adiloğlu” nəşriyyatı, 2005, s.133-137

10. Xələfov E.A. Sahibkarlıq hüququnun mənbələri. “Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri. Elmi məqalələr məcmuəsi”. 21-ci buraxılış. Bakı, «Adiloğlu», 2008, səh.159-162.

11. Əliyev V. Sahibkarlıq fəaliyyətinin anlayışı və əlamətləri. “Qanun” jurnalı, № 11, 2007, səh. 21-28.

12. Xələfov E. Sahibkarlıq hüququnun mənbələri. “Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri. Elmi məqalələr məcmuəsi”. 21-ci buraxılış. Bakı, “Adiloğlu”, 2008, səh.159-162.

### *b) əlavə ədəbiyyat:*

13. Aslanov S.X. Hüquqda dualizm – sahibkarlıq hüququnun formalaşması və inkişafının bəzi məsələləri. “Hüquqi dövlət və qanun” jurnalı, № 9, 1999, səh. 35-37.

14. Səmədov G. Правовой обычай как источник права. “Qanun” jurnalı, № 11, 2007, səh. 9-13.

15. Бобылев А.И. Современное толкование системы права и системы законодательства // Государство и право, 1998, № 2.

16. Гаджиев Г.А. Конституционные принципы ры-ночной экономики. М., 2002.

17. Губин Е. П. Законодательство о предпринимательской деятельности: состояние и направления совершенствования / Е. П. Губин // Предпринимат. право. Прил. «Бизнес и право в России и за рубежом». 2010. № 3. с. 18-25.

18. Каширина Ю.П. Понятие и признаки предприни-

мательской деятельности: экономический и правовой аспекты // Современное право. 2008, № 6, с. 19.

19. Кванина В.В. Понятие и признаки предпринимательской деятельности // Вестник ЮУрГУ. Серия: Право. 2004, № 11(40), с. 129–140.

20. Кванина В.В. О структуре предмета предпринимательского права // Предпринимательское право. 2016, № 1, с. 3-9.

21. Попондопуло В.Ф. Понятие коммерческого права. Журнал «Государство и право», № 8, 1993, с. 72-80.

22. Ручкина Г. Ограничения права на осуществление предпринимательской деятельности // Законность. 2004, №4, с.14.

23. Степанов П.В. Корпоративные отношения в гражданском праве // Законодательство. 2002, №6, с. 27.

# II FƏSİL
# KOMMERSİYA (SAHİBKARLIQ) HÜQUQUNUN SUBYEKTLƏRİ VƏ ONLARIN ƏMLAKININ HÜQUQİ REJİMİ

## 2.1. Kommersiya (sahibkarlıq) hüququnun subyektlərinin anlayışı, əlamətləri və təsnifatı

**Kommersiya hüququnun subyektləri** – qanunla müəyyən olunmuş qaydada yaradılmış və hüquqi (və ya) dövlət qeydiyyatından keçmiş, sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki və hüquqi şəxslərdir. Buraya fərdi sahibkarlar, kommersiya hüquqi şəxsləri və sahibkarlıq fəaliyyəti ilə məşğul olan qeyri-kommersiya hüquqi şəxsləri daxildirlər. Hüquq münasibətlərinin subyektlərindən fərqli olaraq **hüququn subyekti** – hüquq münasibətində iştirak edən və ya istirak edə bilən şəxsdir. Deməli, kommersiya (sahibkarlıq) hüququnun subyekti – ona xas olan əlamətlərlə kommersiya (sahibkarlıq) hüquq münasibətlərinin iştirakçısı ola bilən şəxsdir. V.V.Laptenin fikrincə isə “sahibkarlıq hüququnun subyektləri – sahibkarlıq hüquq və vəzifələrin daşıyıcılarıdırlar”.[1]

Lakin, bu halda hesab edirik ki, “kommersiya (sahibkarlıq) hüququnun subyektləri” ilə “sahibkarlıq fəaliyyətinin subyektləri” anlayışlarının eyniləşdirməsi, onlar arasında bərabərlik işarəsinin qoyulması heç də doğru olmaz. Çünki sahibkarlıq fəaliyyətinin subyektləri qismində bilavasitə sahibkarlıq fəaliyyətini həyata keçirilməsi üçün dövlət qeydiyyatından keçən fiziki və hüquqi şəxslər çıxış edir. Lakin kommersiya (sahibkarlıq) hüququnun subyektləri dedikdə isə burada nəinki sahibkarlıq fəaliyyətinin subyektləri, hətta bu fəaliyyəti həyata keçirən subyektlərə dövlət nəzarətini həyata keçirən dövlət orqanları aiddir.

---

[1] Предпринимательское (хозяйственное) право. Учебник. Под ред. В.В. Лаптева и С.С. Занковского. М. Волтерс Клувер. 2006. с. 41.

AR Mülki Məcəlləsinin 43-cü maddəsinə görə, Azərbaycan dövləti mülki hüquq münasibətlərində, o cümlədən, kommersiya hüquq münasibətlərində eynilə digər hüquqi şəxslər kimi iştirak edir.

Kommersiya (sahibkarlıq) hüququnun subyektləri aşağıdakı əlamətlərə malik olan sahibkarlıq hüquq və vəzifələrinin daşıyıcıları sayılır:

- ✓ *müəyyən edilmiş qaydada qeydiyyatından keçmə və ya başqa şəkildə qanuniləşdirilmə;*
- ✓ *təsərrüfat səlahiyyətlərinin mövcudluğu;*
- ✓ *sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün təcrid olunmuş əmlaka malik olma;*
- ✓ *müstəqil əmlak məsuliyyətini daşıma.*

Sahibkarlıq fəaliyyətinin qanuniləşdirilməsi (legitimi) onun **dövlət qeydiyyatına** alınması ilə başlanır. Azərbaycan Respublikasında qeydiyyat konstitutiv əhəmiyyətə malikdir. Yəni sahibkar statusunu şəxs dövlət qeydiyyatından keçdikdən sonra əldə edir. Qeydiyyatdan keçdiyi andan hüquqi şəxslər və yaxud fərdi sahibkarlar yaranır və öz adından sahibkarlıq fəaliyyətini həyata keçirmək hüququnu əldə edir.

Ümumi qaydaya əsasən yalnız dövlət qeydiyyatından keçmiş sahibkarlıq fəaliyyətinin subyekti kommersiya (sahibkarlıq) hüquq münasibətlərində iştirak edə bilər. Dövlət qeydiyyatı sahibkarlıq fəaliyyətinin subyektləri üçün məcburidir. Qeydiyyatsız sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi hüquq pozuntusu hesab olunur. Belə fəaliyyətdən əldə edilmiş gəlir dövlət büdcəsinə keçirilir. Sahibkarlıq fəaliyyətinin subyekti kimi yalnız dövlət qeydiyyatından keçməsinə ehtiyac yoxdur.

Hüquq subyektliliyinin mühüm elementi kimi **təsərrüfat səlahiyyəti dedikdə,** subyektin qanuna və təsis sənədlərinə müvafiq olaraq bəzi hallarda isə – lisenziya əsasında sahibkarlıq fəaliyyəti subyektinin malik olduğu hüquqların məcmusu başa düşülür. Bu subyekt tərəfindən əqdlərin bağlanması, sahibkarlıq

fəaliyyətinin müəyən növlərinin həyata keçirilməsi imkanıdır. Təsərrüfat səlahiyyətlərinin aşağıdakı növlərini təsnifləşdirmək olar:

- ✓ *ümumi təsərrüfat səlahiyyətləri;*
- ✓ *məhdud təsərrüfat səlahiyyətləri;*
- ✓ *xüsusi təsərrüfat səlahiyyətləri;*
- ✓ *müstəsna təsərrüfat səlahiyyətləri.*

**Ümumi təsərrüfat səlahiyyətlərinin** mövcudluğu subyektlərə qanunla qadağan edilməyən sahibkarlıq fəaliyyətinin istənilən növlərinin həyata keçirilməsi üçün zəruri olan hüquqlara malik olmaq və vəzifələr daşımaq imkanı verir. Ümumi təsərrüfat səlahiyyətinə – kommersiya təşkilatları malik olurlar.

Ümumi təsərrüfat səlahiyyətinin daşıyıcısı kimi hər bir subyekt öz səlahiyyətlərini müstəqil şəkildə təsis sənədlərində məhdudlaşdıra bilər. Belə halda isə **məhdud səlahiyyətdən** danışılır. Hüquqi şəxsin nizamnaməsində müəyyənləşdirilmiş fəaliyyət məqsədlərinə zidd olaraq bağladığı əqd, əgər əqddə iştirak edən digər tərəfin onun qanunsuz olduğunu bildiyi və ya bilməli olduğu sübuta yetirilərsə, həmin hüquqi şəxs və ya onun təsisçisi tərəfindən mübahisələndirilə bilər.

Qanunvericilik kommersiya (sahibkarlıq) hüququnun bəzi subyektlərini **xüsusi səlahiyyətlərlə** təmin edir. Yəni onlar nizamnamələrində nəzərdə tutulmuş fəaliyyət məqsədlərinə uyğun gələn hüquqlara malik olub və bu fəaliyyətlə əlaqədar vəzifələr daşıyır. Bu cür səlahiyyətlərə qeyri-kommersiya təşkilatları malikdir.

**Müstəsna səlahiyyətə** elə subyektlər malikdir ki, onların başqa növ sahibkarlıq fəaliyyətini həyata keçirmələri üzərində qanunverici müəyyən qadağalar qoyur. Məsələn, sığorta fəaliyyətini həyata keçirmək məqsədilə yaradılan hüquqi şəxslər istehsal, ticarət və ya başqa fəaliyyətlə məşğul ola bilməz. Subyektlərin təsərrüfat səlahiyyəti lisenziyalaşdırma ilə də məhdudlaşır. Belə ki, AR Mülki Məcəlləsinin 42.2-ci maddəsinə əsasən, siyahısı

qanunvericiliklə müəyyənləşdirilən ayrı-ayrı fəaliyyət növləri ilə hüquqi şəxslər yalnız xüsusi icazə (lisenziya) əsasında məşğul ola bilər. Şəxsin lisenziya alması vacib olan fəaliyyəti həyata keçirmək hüququ bu lisenziyanı əldə etdiyi gündən və ya lisenziyada nəzərdə tutulan gündən yaranır və lisenziyanın qüvvədə olduğu müddət bitdikdən sonra xitam olunur.

Kommersiya (sahibkarlıq) hüququ subyektinin mühüm əlaməti kimi – onun **təcrid olunmuş əmlaka** malik olmasında əks olunur. Bunun hüquqi əsası birbaşa sahibkarlıq fəaliyyəti ilə məşğul olmağa maksimum imkanlar verən mülkiyyət hüququna malik olmasında təzahür edir, o cümlədən, yaratdığı müəssisələrə rəhbərlik etməkdə, onların fəaliyyət istiqamətlərini və onun həyata keçirilməsi şərtlərini müəyyən etməkdə əks olunur. Əmlakın təcrid olunması mülkiyyət hüququndan törəmə xarakter daşıyan formalarda da əks oluna bilər: təsərrüfat idarəçiliyi, əməli idaretmə və s.

Onu da nəzərə almaq lazımdır ki, qüvvədə olan qanunvericilik kommersiya (sahibkarlıq) hüququ subyektinin yaranmasının zəruri şərti kimi şəxsin mülkiyyətində, təsərrüfat idarəçiliyində və ya əməli idarəetməsində təcrid olunmuş əmlakın mövcudluğunu nəzərdə tutur. Belə ki, yalnız bu əmlak bazasında gəlir əldə etmək məqsədilə işlərin aparılmasına şəxsi iqtisadi maraq yaranır. Subyekt tərəfindən təcrid olunmuş əmlak balansda qeydiyyata alınır və müstəqil əmlak məsuliyyətinin əsasını təşkil edir.

**Müstəqil əmlak məsuliyyəti əlaməti isə** onu bildirir ki, təsərrüfat subyekti dövlət və tərəf müqabili (kontragent) olan şəxslər qarşısında öz əmlakı ilə məsuliyyət daşıyır. Hüquqi şəxsin təsisçisi (iştirakçısı) və ya onun əmlakının mülkiyyətçisi hüquqi şəxsin öhdəliklərinə görə cavabdeh deyil, hüquqi şəxs isə təsisçinin (iştirakçının və ya mülkiyyətçinin) öhdəlikləri üzrə cavabdehlik daşımır. Bu qaydalardan yalnız qanunda və ya təsis sənədlərində müstəsna hal nəzərdə tutula bilər. Məsələn, AR Mülki Məcəllənin 75-ci maddəsinin 1-ci bəndinə əsasən, «tam

ortaqlığın iştirakçıları (tam ortaq olan şəxslər) ortaqlığın öhdəlikləri üzrə özlərinin əmlakı ilə birgə subsidiar məsuliyyət daşıyırlar».

AR Mülki Məcəlləsinin 110-cu maddəsinin 4-cü bəndində isə kooperativlərin məsuliyyətini nəzərdə tutaraq qeyd edir ki, «kooperativ üzvləri onun öhdəlikləri üçün kooperativin hər bir üzvünün əlavə haqqının verilməmiş hissəsi həddində birgə subsidiar məsuliyyət daşıyırlar. Ümumiləşdirici norma isə AR Mülki Məcəlləsinin 52-ci maddəsinin 1-ci bəndində nəzərdə tutulur: hüquqi şəxs öz öhdəlikləri üçün ona mənsub əmlakla cavabdehdir».

**Kommersiya (sahibkarlıq) hüquq subyektlərinin yaradılması** dedikdə şəxsə kommersiya (sahibkarlıq) hüququ subyekti kimi hüquqi statusunun verilməsinə yönəlmiş müvafiq aktların qəbul edilməsi və ya hüquqi əhəmiyyətli hərəkətlərin həyata keçirilməsi başa düşülür.

Müasir hüquq nəzəriyyəsi kommersiya (sahibkarlıq) hüququ subyektlərinin yaradılmasının üsullarını aşağıdakı kimi təsnifləşdirir:

- ✓ ***Təsis – sərəncam üsulu*** *dövlət və bələdiyyə müəssisələrinin yaradılması zamanı tətbiq olunur.*
- ✓ ***Təsis üsulu*** *- bir nəfərin iştirakçısı olduğu kommersiya təşkilatının yaranması, o cümlədən fərdi sahibkarlıq fəaliyyətinin qanunilaşdirilməsi zamanı tətbiq olunur.*
- ✓ ***Müqavilə – təsis üsulu*** *bir nəfərdən artıq şəxsin iştirakı ilə kommersiya təşkilatının yaradılması zamanı istifadə olunur.*
- ✓ ***İcazə – təsis üsulu*** *isə – subyektin yaradılmasının şərti kimi dövlət orqanlarından müvafiq icazənin alınmasının zəruriliyini nəzərdə tutur.*

AR Mülki Məcəlləsinin 43.1-ci maddəsinə əsasən, hüquqi şəxs dövlət qeydiyyatından keçdikdən sonra yaradılmış sayılır. Qeyd etmək lazımdır ki, 1 yanvar 2008-ci il tarixinədək kom-

mersiya təşkilatlarının dövlət qeydiyyatı bir qayda olaraq "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun aparılırdı. Lakin "Sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinin "bir pəncərə" prinsipi üzrə təşkilinin təmin edilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 25 oktyabr 2007-ci il tarixli 2458 nömrəli Sərəncamının 1-ci bəndinə əsasən sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinin "bir pəncərə" prinsipi üzrə vahid dövlət qeydiyyat orqanı Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Vergi Xidməti müəyyən edilmişdir.

**Kommersiya təşkilatlarının təsisçiləri.** Kommersiya təşkilatının yaradılması sahəsində ilk addım onun təsisçilərinin tərkibinin müəyyən edilməsi, ümumi yığıncağın keçirilməsi, təsis sənədlərinin işlənib-hazırlanması və imzalanmasıdır.

Qüvvədə olan mülki qanunvericilikdə kommersiya təşkilatlarının tərkibi və təsisçilərinin sayı barədə xüsusi qaydalar nəzərdə tutulur. AR Mülki Məcəlləsinin 64-cü maddəsinin 1-ci hissəsinə əsasən, təsərrüfat ortaqlığını bir şəxs yarada bilər. Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 98.5-ci maddəsində isə qeyd olunur ki, səhmdar cəmiyyəti bir şəxs (fiziki və ya hüquqi şəxs) tərəfindən yaradıla bilər və ya cəmiyyətin bütün səhmlərini bir səhmdarın əldə etdiyi halda bir şəxsdən (fiziki və ya hüquqi şəxsdən) ibarət ola bilər. Bu barədə məlumat cəmiyyətin nizamnaməsində göstərilməli, qeydə alınmalı və hamısının tanış olması üçün dərc edilməlidir.

AR Mülki Məcəlləsinin 100.2-ci maddəsinə əsasən, qapalı səhmdar cəmiyyətinin iştirakçılarının sayı AR Nazirlər Kabineti tərəfindən müəyyənləşdirilmiş həddi keçməməlidir, əks halda o, bir il ərzində açıq səhmdar cəmiyyətinə çevrilməli, bu müddət bitdikdən sonra isə əgər onların sayı azaldılıb müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilmiş həddə endirilməzsə, məhkəmə qaydasında ləğv edilməlidir.

AR Mülki Məcəlləsinin 109.11-ci maddəsinə əsasən, koope-

rativ qanunla qadağan olmayan istənilən sahədə qanunvericiliklə müəyyənləşdirilmiş qaydada sahibkarlıq fəaliyyətini həyata keçirə bilər. Fəaliyyət xarakterinə görə kooperativlər istehsal, istehlak, qarışıq (istehsal-istehlak) və digər növlərdə ola bilər. AR Mülki Məcəlləsinin 109.1.1-ci maddəsinə müvafiq olaraq kooperativ beşdən az olmayan fiziki və (və ya) hüquqi şəxslər tərəfindən yaradılır.

AR Mülki Məcəlləsinin 64.4.-cü maddəsində göstərildiyi kimi yalnız fərdi sahibkarlar və (və ya) kommersiya təşkilatları tam ortaqlıqların iştirakçıları və kommandit ortaqlıqlarında tam ortaqlar ola bilər. Təsərrüfat cəmiyyətlərinin iştirakçıları və kommandit ortaqlıqların maya qoyanları fiziki və hüquqi şəxslər ola bilər. Dövlət orqanları və yerli özünüidarə orqanları təsərrüfat ortaqlıqların və cəmiyyətlərin iştirakçıları kimi çıxış edə bilməz.

Təsərrüfat ortaqlıqları və cəmiyyətləri AR-nın Mülki Məcəlləsində nəzərdə tutulan hallar istisna olmaqla, başqa təsərrüfat ortaqlıqlarının və cəmiyyətlərinin təsisçiləri (iştirakçıları) ola bilərlər. Belə ki, "Əmtəə birjası haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinin 2-ci hissəsinə əsasən, bankların, kredit və sığorta təşkilatlarının birjanın üzvü olması qadağan edilir.

Həmçinin, qanunvericilikdə bəzi kateqoriyalı şəxslərə təsərrüfat cəmiyyətlərinin və ortaqlıqlarının yaradılmasında və onun fəaliyyətində iştirakına məhdudiyyətlər qoyulur. Buna misal olaraq, "Polis haqqında" Azərbaycan Respublikasının 28 oktyabr 1999-cu il tarixli 727-IQ nömrəli Qanunu, "Prokurorluq haqqında" Azərbaycan Respublikasının 7 dekabr 1999-cu il tarixli 767-IQ nömrəli Qanunu və s. göstərmək olar. Belə ki, "Polis haqqında" Azərbaycan Respublikası Qanununun 32-ci maddəsinə əsasən, polis əməkdaşı heç bir başqa seçkili və təyinatlı vəzifə tuta bilməz, elmi, pedaqoji və yaradıcılıq fəaliyyətindən başqa heç bir sahibkarlıq, kommersiya və digər ödənişli fəaliyyətlə məşğul ola bilməz, əmək haqqından habelə, elmi, pedaqoji və yaradıcılıq fəaliyyətinə görə aldıqları vəsaitdən başqa məva-

cib ala bilməz.[1] "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 30-cu maddəsinə əsasən, prokuror, prokurorluğun müstəntiqi və ya əməliyyatçısı heç bir seçkili və ya digər təyinatlı vəzifələr tuta bilməz, elmi, pedaqoji və yaradıcılıq fəaliyyətindən başqa heç bir sahibkarlıq, kommersiya və digər ödənişli fəaliyyətlə, həmçinin siyasi fəaliyyətlə məşğul ola və siyasi partiyalara üzv ola bilməz.[2]

Təsisçilərin həll etməli olduğu ən əsas məsələ sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün kommersiya təşkilatının hansı təşkilati-hüquqi formada yaradılması məsələsidir. Təsisçilər qanunvericiliklə müəyyən edilmiş qaydada istənilən təşkilati-hüquqi formada kommersiya təşkilatını yarada bilər. Məsələn, "Banklar haqqında" AR Qanununun 19.1-ci maddəsinə müvafiq olaraq, bank ən azı üç hüquqi və (və ya) fiziki şəxs tərəfindən açıq səhmdar cəmiyyəti formasında yaradılır.

Kommersiya təşkilatının yaradılmasının ilkin mərhələsi kimi onun **təsis sənədlərinin** işlənib-hazırlanması və təsdiq edilməsi çıxış edir. Kommersiya təşkilatının seçilmiş təşkilati-hüquqi formasından asılı olaraq, onun təsis sənədləri **nizamnamə** (kooperativlər, səhmdar cəmiyyətlər) və ya **təsis müqaviləsi, nizamnamə** (məhdud və əlavə məsuliyyətli cəmiyyətlər) və yaxud yalnız **təsis müqaviləsi** (ortaqlıqlar) ola bilər.

**Təsis müqaviləsi** hüquqi şəxsin təsisçiləri arasında bağlanılır. Bu müqavilədə təsisçilər müqavilədə hüquqi şəxs yaratmağı öz öhdələrinə götürür, onun yaradılması üzrə birgə fəaliyyət qaydasını, öz əmlaklarının ona verilməsi və onun fəaliyyətində iştirak etmək şərtlərini müəyyən edirlər. Əgər müqavilə, ortaqlıqlarda olduğu kimi yeganə sənəddirsə, onda iştirakçılar arasında mənfəət və zərərin bölüşdürülməsi qaydaları, onun fəaliyyətinin ida-

---

[1] "Azərbaycan Respublikası Qanunvericilik Toplusu", 30 noyabr 1999-cu il, № 11, maddə 611.

[2] "Azərbaycan Respublikası Qanunvericilik Toplusu", 31 dekabr 1999-cu il, № 12, maddə 688.

rə edilməsi qaydaları, onun tərkibindən iştirakçıların çıxması və s. müqavilədə müəyyən olunur.

Bundan başqa, tam ortaqlığın təsis müqaviləsində ortaqlığın şərikli kapitalının miqdarı və tərkibi haqqında, hər bir iştirakçının şərikli kapitalındakı payının miqdarı və dəyişdirilməsi qaydası haqqında, onların mayalarının tərkibi və maya qoyması qaydası haqqında, maya qoyulması üzrə vəzifələrin pozulmasına görə iştirakçıların məsuliyyəti haqqında şərtlər göstərilməlidir.

Hüquqi şəxsin təsis müqaviləsinə digər mülki-hüquqi müqavilələrə aid olan tələblər tətbiq edilir. Vahid sənədin tərtib edilməsi yolu ilə təsis müqaviləsi sadə yazılı formada bağlanılır. Təsis müqaviləsində onun bağlanma vaxtı, yeri və qüvvədə olma müddəti göstərilməlidir. Təsis müqaviləsi bütün təsisçilər tərəfindən şəxsən imzalanır, hüquqi şəxsin təsisçisinin-nümayəndəsinin imzası həmin hüquqi şəxsin möhürü ilə təsdiqlənməlidir.

Səhmdar cəmiyyətinin yaradılması zamanı təsisçilər öz aralarında cəmiyyətin nizamnamə kapitalının miqdarı, buraxılan səhmlərin kateqoriyalarını, onların nominal dəyərini və miqdarını, cəmiyyətin yaradılması üzrə birgə fəaliyyətin həyata keçirilməsi qaydasını müəyyən edən müqavilə bağlanılır. Səhmdar cəmiyyətinin yaradılması haqqında müqavilə səhmdar cəmiyyətin təsis sənədlərinə aid edilmir.

**Nizamnamə** məhdud və əlavə məsuliyyətli cəmiyyətlərin ikinci, səhmdar cəmiyyətlərinin, dövlət və bələdiyyə müəssisələrinin, istehsal kooperativlərinin isə birinci təsis sənədidir. **Nizamnamənin əsas təyinatı -** kommersiya təşkilatı ilə münasibətlərə daxil olan tərəf müqabilini (kontragenti) və başqa şəxsləri, onun fəaliyyət dairəsi, hüquq və vəzifələri barədə məlumatlandırmaqdan ibarətdir. Nizamnamədə kommersiya təşkilatının təşkilati-hüquqi forması, onun adı, daimi yeri, nizamnamə kapitalının məbləği, iştirakçıların məsuliyyəti, idarəetmə orqanlarının tərkibi və səlahiyyətləri, qərarların qəbul edilməsi qaydası müəyyən olunur.

Bundan əlavə, **məhdud məsuliyyətli cəmiyyətin nizamnaməsində** iştirakçılardan hər birinin payı haqqında, **əlavə məsuliyyətli cəmiyyətin nizamnaməsində**-cəmiyyətin iştirakçıları onun öhdəlikləri üzrə öz mayalarının dəyərinin cəmiyyətin nizamnaməsi ilə müəyyənləşdirilən, hamısı üçün eyni olan misli miqdarında özlərinin əmlakı ilə birgə subsidiar məsuliyyət daşıyır, **səhmdar cəmiyyətinin nizamnaməsində** buraxılan səhmlərin kateqoriyaları, nominal dəyəri və miqdarı, **kooperativin nizamnaməsində** kooperativ üzvlərinin pay haqlarının miqdarı haqqında, pay haqlarının verilməsi qaydası və onların verilməsi öhdəliyinin pozulmasına görə kooperativ üzvlərinin məsuliyyəti haqqında, kooperativin idarəetmə orqanlarının tərkibi və səlahiyyəti, onların qərarlar qəbul etməsi, o cümlədən, barəsində qərarların yekdilliklə və ya şərtləşdirilmiş səs çoxluğu ilə qəbul olunduğu məsələlərə dair qərarlar qəbul etməsi qaydası haqqında, kooperativin üzləşdiyi zərərin ödənilməsi qaydası haqqında şərtləri, sənədlərin tərtibi qaydaları (kooperativə qəbulun, üzvlərin siyahısının və pay haqlarının qəbulunun rəsmiləşdirilməsi, kooperativ üzvlərinin ümumi yığıncağının və digər idarəetmə orqanlarının protokollarının tərtibi və sair) göstərilməlidir.

AR Mülki Məcəlləsinin 50-ci maddəsinə əsasən, hüquqi şəxsin öz təşkilati-hüquqi formasını göstərən adı olur. Qeyri-kommersiya təşkilatının adında hüquqi şəxsin adı göstərilməlidir. Kommersiya təşkilatı olan hüquqi şəxsin firma adı olmalıdır. Firma adı qanunla müəyyənləşdirilmiş qaydada qeydə alınmış hüquqi şəxsin həmin addan istifadəyə müstəsna hüququ vardır.

Hüquqi şəxsin daimi fəaliyyət göstərən orqanının yerləşdiyi yer hüquqi şəxsin olduğu yer sayılır (AR Mülki Məcəlləsinin 51-ci maddəsi).

**Vətəndaşların sahibkarlıq fəaliyyəti.** Vətəndaşlar hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə dövlət qeydiyyatından keçdiyi andan məşğul ola bilərlər**. Ümumi qaydaya görə vətəndaşlar 16 yaşından sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilərlər**. Belə

göstəriş AR Mülki Məcəlləsinin 28-ci maddəsinin 4-cü bəndində nəzərdə tutulub. Lakin həmin normada nəzərdə tutulduğu kimi azyaşlılar yalnız valideynlərinin və ya digər qanuni nümayəndələrinin razılığı ilə belə fəaliyyətlə məşğul ola bilərlər. Hərçənd onlar tam olmayan (qismən) fəaliyyət qabiliyyətli sayılırlar. Sahibkarlıq fəaliyyəti ilə məşğul olan yetkinlik yaşına çatmamış şəxslər AR Mülki Məcəlləsinin 28-ci maddəsinin 4-cü bəndində göstərildiyi kimi tam fəaliyyət qabiliyyətli sayıla bilərlər. Bu qayda "emansipasiya" (ata hakimiyyətindən azad olma) adlanılır. Hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin dövlət qeydiyyatını (uçotunu) onların yaşadıqları və ya fəaliyyət göstərdikləri ərazi üzrə vergi orqanları aparır.

Sahibkarlıq fəaliyyətinin subyektləri sahibkar kimi qeydiyyata alınması üçün qanunvericiliklə müəyyən olunmuş sənədləri Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Vergi Xidmətinə təqdim etdikdən sonra onların qeydiyyata alınması haqqında qərar qəbul edilir və vergi ödəyicisinin eyniləşdirmə nömrəsini (VÖEN) verir. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Vergi Xidmətinin Kollegiyasının 19 may 2015-ci il tarixli qərarı ilə təsdiq edilmiş "Fiziki şəxslərin vergi uçotuna alınması, yenidən uçota alınması və uçotdan çıxarılması Qaydaları"nın 1.2.1-ci bəndinə əsasən **VÖEN** – Azərbaycan Respublikasında vergi ödəyicisinin eyniləşdirmə nömrəsidir. VÖEN on rəqəmli olur və birinci iki rəqəm ərazi inzibati vahidinin kodunu, sonrakı altı rəqəm sıra sayını göstərir. Proqram təminatı VÖEN-in doqquzuncu rəqəmini xüsusi alqoritm vasitəsilə, onuncu rəqəmini isə vergi ödəyicisinin hüquqi statusuna (fiziki və ya hüquqi şəxs olmasına) uyğun olaraq müəyyən edir.[1]

"Sahibkarlıq fəaliyyəti haqqında" AR Qanununun 6-cı və 7-ci

---

[1] "Fiziki şəxslərin vergi uçotuna alınması, yenidən uçota alınması və uçotdan çıxarılması Qaydaları". Azərbaycan Respublikası Vergilər Nazirliyinin Kollegiyasının 19 may 2015-ci il tarixli 1517050000003100 nömrəli qərarı ilə təsdiq edilmişdir.

http://www.taxes.gov.az/uploads/qanun/2015/qayda/19052015.pdf

maddələrində sahibkarlıq fəaliyyəti subyektlərinin hüquq və vəzifələri təsbit olunmuşdur. Qanunun 6-cı maddəsinə əsasən, sahibkarlıq fəaliyyətinin subyekti öz fəaliyyətini həyata keçirmək üçün Azərbaycan Respublikasının qanunvericiliyinə əməl etməklə aşağıdakı hüquqlara malikdir:

- ✓ *istənilən müəssisələr yaratmaq, onların idarəetmə orqanlarında vəzifə tutmaq və bu orqanların işində iştirak etmək;*
- ✓ *dövlət və digər mülkiyyət formalarına əsaslanan müəssisələrin əmlakının, başqa əmlakı və əmlak hüquqlarını tamamilə və ya qismən əldə etmək;*
- ✓ *başqa müəssisələrin fəaliyyətində öz sərəncamında olan əmlakla iştirak etmək;*
- ✓ *tərəflərin razılığı ilə başqa fiziki və hüquqi şəxslərin əmlakından və intellektual mülkiyyət obyektlərindən istifadə etmək;*
- ✓ *işçiləri işə qəbul etmək və işdən azad etmək;*
- ✓ *işçilərin əməyinin ödənilməsinin forma və sistemini, onların əmlakının məbləğini və gəlirinin digər növlərini müəyyənləşdirmək;*
- ✓ *təsərrüfat-maliyyə fəaliyyətini müstəqil həyata keçirmək, məhsul göndərənləri və istehsal olunan məhsulun (işlərin, xidmətlərin) istehlakçılarını seçmək, dövlət ehtiyacları üçün müqavilə əsasında iş görmək və məhsul göndərmək;*
- ✓ *öz məhsulları (işləri, xidmətləri) üçün qiymətlər (tariflər) müəyyənləşdirmək;*
- ✓ *pul vəsaitinin saxlanılması, hesablaşma, kredit və kassa əməliyyatlarının bütün növlərinin həyata keçirilməsi üçün banklarda hesablar açmaq;*
- ✓ *sahibkarlıq fəaliyyətindən əldə edilən mənfəətdən (gəlirdən) vergilər və digər icbari ödənişlərdən sonra onun qalan hissəsindən sərbəst istifadə etmək. Sahibkarlıq fəaliyyəti bağlaşma əsasında həyata keçirilərkən mənfəətin (gə-*

*lirin) bölüşdürülməsi qaydası bağlaşmada müəyyən edilir;*

- ✓ *məbləğinə məhdudiyyət qoyulmayan şəxsi gəlir əldə etmək;*
- ✓ *dövlət sosial təminatı sistemindən istifadə etmək;*
- ✓ *könüllü sığorta növünü sərbəst surətdə seçmək;*
- ✓ *hüquqlarına və qanuni mənafeyinə xələl gətirən dövlət orqanlarının və digər orqanların, təsərrüfat subyektlərinin və fiziki şəxslərin hərəkətlərindən şikayət etmək;*
- ✓ *xarici iqtisadi münasibətlərdə iştirak etmək;*
- ✓ *valyuta əməliyyatları aparmaq;*
- ✓ *ictimai fondlara, səhiyyəyə, xeyriyyəçilik, maarifçilik məqsədlərinə, elmi və mülki məqsədlərə, müharibə və başqa fövqəladə hadisələr zamanı isə dövlətə lazımi yardım göstərilməsinə ianələr vermək;*
- ✓ *həmkarlar ittifaqında və digər birliklərdə iştirak etmək.*

“Sahibkarlıq fəaliyyəti haqqında” AR Qanununun 7-ci maddəsində sahibkarlıq fəaliyyəti subyektlərinin vəzifələri təsbit olunmuşdur. Bu vəzifələr aşağıdakılardan ibarətdir:

- ✓ *qüvvədə olan qanunvericilikdən və bağladığı müqavilələrdən irəli gələn bütün vəzifələri yerinə yetirmək;*
- ✓ *işə qəbul edilən vətəndaşlarla müqavilələr (bağlaşmalar), habelə lazım gəldikdə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun surətdə əmək kollektivlərinin adından çıxış edən həmkarlar ittifaqları ilə kollektiv müqavilələr bağlamaq;*
- ✓ *işçilərin həmkarlar ittifaqlarında birləşməsinə mane olmamaq;*
- ✓ *işçilərin əmək haqqını Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş minimum məbləğindən az olmayan səviyyədə ödəmək;*
- ✓ *Dövlət Sosial Müdafiə Fonduna, habelə işçilərin sosial müdafiəsi məqsədilə yaradılan digər fondlara müəyyən edilmiş qaydada və həcmdə ayırmalar vermək;*

- ✓ *qanunvericilikdə müəyyən edilmiş vergilər ödəmək;*
- ✓ *işçilərə qüvvədə olan qanunvericiliyə və müqavilələrə (bağlaşmalara) müvafiq əmək şəraiti yaratmaq;*
- ✓ *qüvvədə olan normativ aktları rəhbər tutaraq ekoloji təhlükəsizliyin, əməyin mühafizəsinin, təhlükəsizlik texnikasının, istehsal gigiyenasının və sanitariyasının təmin edilməsi, arxitektura abidələrinin və digər tarixi abidələrin mühafizəsi sahəsində tədbirlər görmək;*
- ✓ *istehsal olunan məhsulların (işlərin, xidmətlərin) rəqabət qabiliyyətliliyinə nail olmaq;*
- ✓ *müəlliflik hüququnun qorunmasının qanunvericiliklə müəyyən olunmuş tələblərinə əməl etmək;*
- ✓ *əmtəə nişanları və coğrafi göstəricilər haqqında qanunvericiliyin tələblərinə əməl etmək;*
- ✓ *istehsal etdiyi məhsulları markalaşdırmaq;*
- ✓ *qüvvədə olan qanunvericiliyə müvafiq surətdə lisenziyalaşdırılmalı olan sahələrdə fəaliyyət üçün xüsusi razılıq (lisenziya) almaq;*
- ✓ *antiinhisar qanunvericiliyinə riayət etmək;*
- ✓ *haqsız rəqabət metodlarından istifadə olunmasına yol verməmək;*
- ✓ *öz fəaliyyəti haqqında dövlət, statistika və maliyyə orqanlarına müəyyən edilmiş formada hesabatlar vermək;*
- ✓ *müharibə şəraitində və ya başqa fövqəladə hallarda səlahiyyətli dövlət orqanlarının göstərişi ilə təsis sənədlərində nəzərdə tutulmayan və ya həmin sənədlərdə qeyd olunan məqsədlərə uyğun gəlməyən hər hansı qanuni fəaliyyət forması ilə məşğul olmaq.*

Sahibkarlıq fəaliyyətinin subyektləri “Sahibkarlıq fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda təsbit olunan hüquq və vəzifələrlə yanaşı, həm də “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının 2 iyul

2013-cü il tarixli Qanununda nəzərdə tutulmuş hüquq və vəzifələrə də malikdir.

Sahibkarlıq fəaliyyətinin subyektləri göstərilən hüquqların realizəsini və vəzifələrin icrasını yalnız qanunla müəyyən edilmiş qaydada sahibkar statusunu əldə etdikdən sonra həyata keçirə bilər.

## 2.2. Dövlət orqanları kommersiya (sahibkarlıq) hüququnun subyektləri kimi

Hüquq elmində kommersiya (sahibkarlıq) hüququnun subyektlərini müxtəlif əsaslara görə təsnifatlaşdırmaq olar. Belə ki, İ.V. Yerşovanın fikrincə, kommersiya (sahibkarlıq) hüququ subyektlərin səlahiyyətlərinin xarakterindən asılı olaraq qruplaşdırmaq olar. Müəllif fikrini əsaslandıraraq qeyd edir ki, kommersiya (sahibkarlıq) hüququnun subyektləri yalnız sahibkarlıq fəaliyyətini həyata keçirmir, həm də bu fəaliyyətə rəhbərlik edir, belə fəaliyyət dövlət tənzimlənməsini həyata keçirir.[1] Eyni zamanda, İ.V. Yerşova kommersiya (sahibkarlıq) hüququnun subyektlərinin mülkiyyət formasından və hüquqi statusundan asılı olaraq təsnifatlaşdırılmasını təklif edir.[2]

Müəllifin irəli sürdüyü fikirdən belə qənaətə gəlmək olar ki, kommersiya (sahibkarlıq) hüququnun subyektləri qismində yalnız sahibkarlıq fəaliyyətini həyata keçirən subyektlər deyil, həm də bu fəaliyyətə dövlət nəzarətini həyata keçirən dövlət orqanları da çıxış edir.

Hal-hazırda Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyətinə dövlət nəzarətini həyata keçirən əsas səlahiyyətli dövlət orqanı kimi – **Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyini göstərmək olar.** Azərbaycan Respublikası Prezidentinin 2019-cu il

---

[1] Ершова И.В. Предпринимательское право. Учебник. Изд. 4-е, перераб. и доп. - М.: Изд. «Юриспруденция», 2006. с. 83.

[2] Yenə orada.

23 oktyabr tarixli, 845 nömrəli Fərmanının 1-ci hissəsinə əsasən Azərbaycan Respublikasının Vergilər Nazirliyi, Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi və Azərbaycan Respublikasının Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi müvafiq dövlət xidmətləri statusunda Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin strukturuna daxil edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli, 911 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin 1.1-ci bəndinə əsasən, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi (bundan sonra – Nazirlik) Azərbaycan Respublikasının iqtisadi siyasətinin formalaşdırılması, makroiqtisadi proqnozların hazırlanması, iqtisadi inkişafın və iqtisadi artımın təmin edilməsi üçün əlverişli şərait yaradılması, investisiya fəaliyyətinin təşviqi, sahibkarlığın və sənayenin inkişafı, lisenziya və icazə sisteminin tənzimlənməsi, inhisarçılığın qarşısının alınması, haqsız rəqabətin aradan qaldırılması, istehlakçıların hüquqlarının qorunması, dövlət vəsaiti hesabına malların (işlərin və xidmətlərin) satın alınması, dövlət büdcəsinə vergilərin, habelə qanunla və Azərbaycan Respublikası Prezidentinin aktı ilə Nazirliyin səlahiyyətlərinə aid edilmiş digər icbari ödənişlərin vaxtında və tam yığılması, dövlət əmlakının idarə edilməsi, onun özəlləşdirilməsi, torpaqların dövlət idarəetməsinin təşkili, daşınmaz əmlakın dövlət reyestrinin və vahid dövlət kadastrının aparılması sahələrində (bundan sonra – müvafiq sahə) dövlət siyasətini və tənzimləməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyət istiqamətləri aşağıdakılardan ibarətdir:

- ✓ *ölkənin sosial-iqtisadi inkişaf strategiyasının hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;*
- ✓ *dayanıqlı və inklüziv iqtisadi inkişafın və davamlı iqtisadi artımın təmin edilməsi üçün əlverişli şərait yaradılması ilə bağlı təkliflər hazırlamaq;*

- ✓ *ölkə iqtisadiyyatının inkişaf prioritetlərinə uyğun olaraq, dövlət iqtisadi idarəetmə, maliyyə, o cümlədən dövlət və icmal büdcələrin gəlir və xərclərinin əsaslandırılmasında, vergi, pul-kredit, valyuta, bank, sığorta, qiymətli kağızlar bazarı, qiymət-tarif, cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısını almaq sahələrində dövlət siyasətinin formalaşdırılmasında iştirak etmək;*
- ✓ *aidiyyəti dövlət orqanları və qurumları (bundan sonra – dövlət orqanları) ilə birlikdə sosial-iqtisadi inkişaf konsepsiyalarının və dövlət proqramlarının hazırlanmasını, icrasının əlaqələndirilməsini və nəzarətini (monitorinqini) həyata keçirmək;*
- ✓ *ölkədə sosial-iqtisadi inkişaf sahəsində gedən proseslərin qiymətləndirilməsini, sosial-iqtisadi (makroiqtisadi) proqnozların hazırlanmasını həyata keçirmək;*
- ✓ *dövlətin iqtisadi təhlükəsizliyinin təmin edilməsinə və iqtisadi maraqlarının qorunmasına, davamlı iqtisadi artım əldə edilməsinə yönəldilmiş tədbirlərin hazırlanmasını və həyata keçirilməsini aidiyyəti dövlət orqanları ilə birlikdə təmin etmək;*
- ✓ *iqtisadiyyatda şəffaflıq səviyyəsinin artırılmasına və ölkədə biznes mühitinin yaxşılaşdırılmasına yönəldilmiş fəaliyyəti həyata keçirmək;*
- ✓ *ölkə iqtisadiyyatına investisiyaların cəlb edilməsi, qorunması və təşviqi sahəsində dövlət siyasətinin aidiyyəti dövlət orqanları ilə birlikdə formalaşdırılmasında iştirak etmək və həyata keçirilməsini təmin etmək;*
- ✓ *sahibkarlığın inkişafı, təşviqi və sahibkarlığa dövlət dəstəyi, habelə lisenziya və icazə sisteminin tənzimlənməsi sahələrində dövlət siyasətinin formalaşdırılmasında iştirak etmək və aidiyyəti dövlət orqanları ilə birlikdə həyata keçirilməsini təmin etmək;*
- ✓ *ölkədə davamlı iqtisadi yüksəlişin insan kapitalının məq-*

*sədyönlü inkişafı hesabına əldə olunması məqsədilə bu sahədə uzunmüddətli proqramların işlənib hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;*

- ✓ *dövlət əmlakının, o cümlədən, dövlət mənzil fondunun və torpaqların idarə olunması və özəlləşdirilməsi, həmçinin daşınmaz əmlakın dövlət reyestrinin və vahid dövlət kadastrının aparılması sahəsində dövlət siyasətinin formalaşdırılmasında iştirak etmək və həyata keçirilməsini təmin etmək;*
- ✓ *istehlakçıların hüquqlarının qorunması və istehlak mallarının (işlərin, xidmətlərin) keyfiyyətinin təmin olunması sahəsində dövlət siyasətinin aidiyyəti dövlət orqanları ilə birlikdə formalaşdırılmasında iştirak etmək və həyata keçirilməsini təmin etmək;*
- ✓ *dövlət vəsaiti hesabına malların (işlərin və xidmətlərin) satın alınması sahəsində dövlət siyasətinin aidiyyəti dövlət orqanları ilə birlikdə formalaşdırılmasında iştirak etmək və həyata keçirilməsini təmin etmək;*
- ✓ *reklam (açıq məkanda reklam istisna olmaqla) fəaliyyətinə dövlət nəzarətini həyata keçirmək;*
- ✓ *standartlaşdırma, metrologiya, texniki tənzimləmə, uyğunluğun qiymətləndirilməsi, akkreditasiya və keyfiyyətin idarə edilməsi sahələrində dövlət siyasətinin aidiyyəti dövlət orqanları ilə birlikdə formalaşdırılmasında iştirak etmək və həyata keçirilməsini təmin etmək və s.*

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin yanında **Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti** fəaliyyət göstərir. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 may tarixli 1017 nömrəli Fərmanı ilə təsdiq edilmiş Xidmətin fəaliyyətini tənzimləyən Əsasnamənin 1.1.-ci bəndinə əsasən, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti antiinhisar, haqsız rəqabət, dövlət satınalmaları, reklam (açıq məkanda

reklam istisna olmaqla), standartlaşdırma, metrologiya, texniki tənzimləmə, uyğunluğun qiymətləndirilməsi, akkreditasiya, keyfiyyətin idarə edilməsi, istehlakçıların hüquqlarının müdafiəsi və istehlak bazarına nəzarət sahələrində (bundan sonra – müvafiq sahə) dövlət nəzarətinin və tənzimlənməsinin həyata keçirilməsini təmin edən, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin strukturuna daxil olan qurumdur.

Xidmətin əsas fəaliyyət istiqamətləri aşağıdakılardır:

- ✓ *müvafiq sahədə dövlət siyasətinin formalaşdırılmasında iştirak etmək və həmin siyasətin həyata keçirilməsini təmin etmək;*
- ✓ *müvafiq sahəni tənzimləyən normativ hüquqi aktların layihələrinin hazırlanmasında iştirak etmək, onlara dair rəy və təkliflər vermək;*
- ✓ *istehlakçıların hüquqlarının və qanuni maraqlarının qorunması, istehlak mallarının (işlərin, xidmətlərin) keyfiyyətinin təmin olunması sahəsində aidiyyəti dövlət orqanları ilə birlikdə dövlət siyasətinin həyata keçirilməsində iştirak etmək, eləcə də ticarət, ictimai iaşə, məişət və digər növ xidmət sahələrində norma və qaydalara riayət olunmasına, istehlak bazarında malların (işlərin, xidmətlərin) keyfiyyətinə və təhlükəsizliyinə dövlət nəzarətinin həyata keçirilməsini təmin etmək;*
- ✓ *dövlət vəsaiti hesabına malların (işlərin və xidmətlərin) satın alınması sahəsində dövlət siyasətinin aidiyyəti dövlət orqanları ilə birlikdə həyata keçirilməsində iştirak etmək, bu sahədə dövlət nəzarətinin həyata keçirilməsini təmin etmək;*
- ✓ *standartlaşdırma, metrologiya, texniki tənzimləmə, uyğunluğun qiymətləndirilməsi, akkreditasiya və keyfiyyətin idarə olunması sahələrində dövlət siyasətinin aidiyyəti dövlət orqanları ilə birlikdə həyata keçirilməsini təmin etmək;*
- ✓ *reklam (açıq məkanda reklam istisna olmaqla) fəaliyyətinə dövlət nəzarətini həyata keçirmək və s.*

AR İqtisadiyyat Nazirliyinin tabeliyində yaradılmış **Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondu** fəaliyyət göstərir. Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondu Azərbaycan Respublikası Prezidentinin 31 iyul 2018-ci il tarixli 224 nömrəli Fərmanının 2-ci bəndinə əsasən təsis edilmişdir. Fondun fəaliyyəti Azərbaycan Respublikası Prezidentinin 31 iyul 2018-ci il, 224 nömrəli Fərmanı ilə təsdiq edilmiş Nizamnamə ilə tənzim olunur. Fondun fəaliyyətinin məqsədi Azərbaycan Respublikasında sahibkarlığın inkişafına maliyyə dəstəyi verməkdən ibarətdir. Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondu Azərbaycan Respublikasında sahibkarlığın inkişafına maliyyə dəstəyi verən publik hüquqi şəxsdir. Bu zamana qədər isə bu fəaliyyəti Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondu həyata keçirirdi. Lakin Azərbaycan Respublikası Prezidentinin 31 iyul 2018-ci il tarixli 224 nömrəli Fərmanının 1-ci bəndinə əsasən Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondu ləğv edilmişdir.

Fondun fəaliyyətini tənzim edən Əsasnamənin 2.2.-ci bəndinə əsasən Fondun fəaliyyət istiqamətləri aşağıdakılardır:

- ✓ *Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının prioritet istiqamətləri üzrə sahibkarlıq subyektlərinin investisiya layihələrini güzəştli kredit vəsaiti hesabına maliyyələşdirmək;*
- ✓ *Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilən hallarda və qaydada sahibkarlıq subyektlərinin manatla aldıqları kreditlərə zəmanət və faiz subsidiyası vermək;*
- ✓ *sahibkarlığın inkişafına dəstək sahəsində proqramların (o cümlədən dövlət proqramlarının) hazırlanmasında, həyata keçirilməsində və maliyyələşdirilməsində iştirak etmək;*
- ✓ *müasir texnologiyalara əsaslanan investisiya layihələri üzrə qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə müvafiq təhlil və araşdırmalar aparmaq və s.*

Digər bir subyekt kimi Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən **Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyini** göstərmək olar. Agentliyin fəaliyyəti Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanı ilə təsdiq edilmiş Nizamnamə ilə tənzimlənir. Nizamnamənin 1.1.-ci bəndinə əsasən Agentlik ölkədə mikro, kiçik və orta sahibkarlığın inkişafını dəstəkləyən, onun tənzimlənməsində, mikro, kiçik və orta sahibkarlıq subyektlərinin (bundan sonra - sahibkar) maraqlarının qorunmasında və problemlərinin həllində iştirak edən, sahibkarlara bir sıra xidmətlər göstərən, dövlət qurumlarının və özəl qurumların bu sahədə xidmətlərini əlaqələndirən və səlahiyyətli qurum kimi çıxış edən publik hüquqi şəxsdir.

Agentliyin fəaliyyətinin məqsədi mikro, kiçik və orta sahibkarlıq fəaliyyətinin tənzimlənməsində iştirak etməkdən, bu sahədə beynəlxalq təcrübədə geniş tətbiq olunan və müasir tələblərə cavab verən çevik idarəetmə sisteminin və səmərəli əlaqələndirmə mexanizminin tətbiqi yolu ilə mikro, kiçik və orta sahibkarlıq subyektlərinin ölkə iqtisadiyyatında rolunu möhkəmləndirməkdən, xüsusi çəkisini və rəqabət qabiliyyətini artırmaqdan, maliyyə resurslarına çıxış imkanlarını genişləndirməkdən və onlara institusional dəstək mexanizmlərini təkmilləşdirməkdən, dövlət və özəl qurumlarının bu sahədə fəaliyyətini əlaqələndirməkdən, regionlarda sahibkarlığın inkişafına əlverişli şərait yaradılmasına, bu sahəyə yerli və xarici investisiyaların cəlb edilməsinə nail olmaqdan ibarətdir.

Agentliyin fəaliyyət istiqamətləri aşağıdakılardır:

- ✓ *mikro, kiçik və orta sahibkarlıq sahəsində (bundan sonra – müvafiq sahə) vahid dövlət siyasətinin formalaşdırılmasında və tənzimlənməsində iştirak etmək;*
- ✓ *müvafiq sahədə sahibkarların hüquqlarının müdafiəsi məqsədilə zəruri tədbirləri həyata keçirmək;*
- ✓ *müvafiq sahədə dövlət qurumlarının sahibkarlara vahid məkanda daha keyfiyyətli, rahat, yeni üslubda və müasir*

*innovasiyaları tətbiq etməklə xidmət (o cümlədən zəruri səyyar xidmətlər) göstərmələrini təmin etmək;*

- ✓ *kiçik və orta biznes evlərində (bundan sonra – KOB evlərində), kiçik və orta biznesin inkişafı mərkəzlərində, Dövlət-Sahibkar Tərəfdaşlığının İnkişafı Mərkəzində, kiçik və orta biznesin inkişafı fondlarında göstərilən xidmətlərin operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri əsasında həyata keçirilməsinə nəzarət etmək;*
- ✓ *KOB evlərində hər bir xidmətin qanuna uyğun olaraq həyata keçirilməsinə, keyfiyyətinə və şəffaflığına dair qiymətləndirmələr aparılmasını təmin etmək və s.*

Sahibkarlıq fəaliyyəti sahəsində digər səlahiyyətli orqanı kimi Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında **Vergi Xidməti** çıxış edir. Xidmətin fəaliyyəti Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 may tarixli 1017 nömrəli Fərmanı ilə təsdiq edilmiş Əsasnamə ilə tənzimlənir. Vergi Xidməti Azərbaycan Respublikasında aparılan vahid maliyyə və büdcə siyasəti çərçivəsində vergilərin, məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqlarının, habelə qanunla və Azərbaycan Respublikası Prezidentinin aktı ilə Xidmətin səlahiyyətlərinə aid edilmiş digər icbari ödənişlərin vaxtında və tam yığılmasının təmin edilməsi sahəsində dövlət nəzarətinin həyata keçirilməsini təmin edən, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin strukturuna daxil olan qurumdur.

Xidmətin əsas fəaliyyət istiqamətləri aşağıdakılardır:

- ✓ *dövlət vergi siyasətinin formalaşmasında iştirak etmək və həyata keçirilməsini təmin etmək;*
- ✓ *müvafiq sahəni tənzimləyən normativ hüquqi aktların layihələrinin hazırlanmasında iştirak etmək, onlara dair rəy və təkliflər vermək;*
- ✓ *vergilərin, məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqlarının, habelə qanunla və Azərbaycan Respublikası Prezidentinin aktı ilə Xidmətin*

*səlahiyyətlərinə aid edilmiş digər icbari ödənişlərin vaxtında və tam yığılmasını təmin etmək;*

- ✓ *qanunla müəyyən olunmuş qaydada kommersiya hüquqi şəxslərinin və publik hüquqi şəxslərin dövlət qeydiyyatının həyata keçirilməsini və dövlət reyestrinin aparılmasını təmin etmək;*
- ✓ *Vergi Məcəlləsi ilə müəyyən edilmiş hallarda və qaydada vergi nəzarətinin həyata keçirilməsini təmin etmək və s.*

Kommersiya (sahibkarlıq) hüququnun subyektləri kimi digər dövlət orqanlarının sahibkarlıq fəaliyyətinə dövlət nəzarətinin həyata keçirilməsində rolunu, onların fəaliyyət istiqamətlərini, hüquq və vəzifələrini sadalamaq mümkündür.

## 2.3. Kommersiya (sahibkarlıq) hüququnun subyektlərinin ayrı-ayrı növlərinin hüquqi vəziyyəti

**Maliyyə-sənaye qruplarının hüquqi vəziyyəti.** "Maliyyə-sənaye qrupları haqqında" Azərbaycan Respublikasının 23 aprel 1996-cı il tarixli 69-IQ nömrəli Qanunu ilə müəyyən olunur.[1] "Maliyyə-sənaye qrupları haqqında" AR Qanununun 1-ci maddəsində maliyyə-sənaye qrupunun anlayışı verilmişdir: maliyyə-sənaye qrupu Qanunda nəzərdə tutulmuş qaydada və şərtlərə uyğun olaraq, maliyyə-sənaye qrupunun yaradılmasına dair müqavilə əsasında öz aktivlərini tamamilə və ya qismən birləşdirmiş hüquqi şəxslərin (əsas və törəmə müəssisələrin) məcmusudur.

Maliyyə-sənaye qrupunun yaradılmasının əsas məqsədi istehsalın rəqabət qabiliyyətini və səmərəliliyini yüksəltmək, əlverişli texnoloji və kooperasiya əlaqələri yaratmaq, ixracat potensialını artırmaq, elmi-texniki tərəqqini sürətləndirmək, investisiya layihələri və proqramlarını birgə həyata keçirmək məqsədi ilə qrup

---

[1] "Azərbaycan Respublikasının Qanunvericilik Toplusu" 31 avqust 1997-ci il, № 2, maddə 101.

iştirakçılarının maddi və maliyyə ehtiyatlarını müqavilə əsasında birləşdirmək və invenstisiyalar cəlb etməsindən ibarətdir.

Maliyyə-sənaye qruplarının iştirakçıları qismində maliyyə-sənaye qrupunun yaradılmasına dair müqaviləni imzalayan hüquqi şəxslər və onlar tərəfindən təsis edilən maliyyə-sənaye qrupunun baş şirkəti və ya qrupu formalaşdıran əsas və törəmə müəssisələr çıxış edirlər.

“Maliyyə-sənaye qrupları haqqında” AR Qanununun 3-cü maddəsinin 2-ci hissəsinə əsasən, maliyyə-sənaye qruplarının tərkibinə ictimai və dini təşkilatlar istisna olmaqla, istənilən hüquqi şəxslər, o cümlədən xarici hüquqi şəxslər daxil ola bilər. Dövlət və yerli özünüidarə orqanları maliyyə-sənaye qrupunun iştirakçıları ola bilməzlər. Maliyyə-sənaye qrupunun iştirakçısı olan müəssisə və təşkilatlar digər maliyyə-sənaye qruplarına daxil ola bilməz.

Yuxarıda qeyd etdiyimiz kimi maliyyə-sənaye qruplarının tərkibinə kommersiya və qeyri-kommersiya təşkilatları, o cümlədən xarici hüquqi şəxslər daxil ola bilər. Əgər maliyyə-sənaye qrupunun tərkibində xarici hüquqi şəxslər iştirak edirlərsə, onda maliyyə-sənaye qrupu qanunvericiliyə əsasən **transmilli** maliyyə-sənaye qrupu hesab olunur. Əgər hökümətlərarası sazişlər əsasında maliyyə-sənaye qrupları yaradılıbsa, onlar **dövlətlərarası** (beynəlxalq) maliyyə-sənaye qrupu hesab olunur.

Maliyyə-sənaye qruplarının statusu onun dövlət qeydiyyatına alınmasından sonra əldə edilir. Maliyyə-sənaye qruplarının baş şirkəti dövlət qeydiyyatından keçmək üçün Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Vergi Xidmətinə aşağıdakı sənədləri təqdim edir:

- ✓ *maliyyə-sənaye qrupunun yaradılmasına dair ərizə;*
- ✓ *maliyyə-sənaye qrupunun yaradılmasına dair müqavilə;*
- ✓ *təşkilati-layihə;*
- ✓ *antiinhisar siyasətini həyata keçirən Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin rəyi.*

Yuxarıda göstərdik ki, baş şirkət maliyyə-sənaye qrupunun dövlət qeydiyyatına alınmasından ötrü «maliyyə-sənaye qrupu-

nun yaradılmasına dair müqavilə»ni təqdim edir. "Maliyyə-sənaye qrupları haqqında" AR Qanununun 7-ci maddəsinə əsasən maliyyə-sənaye qrupunun yaradılmasına dair müqavilə aşağıdakıları müəyyən etməlidir:

- ✓ *maliyyə-sənaye qrupunun adını;*
- ✓ *müəyyən təşkilati-hüquqi formaya malik olan və maliyyə-sənaye qrupunun işlərini həyata keçirməyə müvəkkil edilmiş hüquqi şəxs kimi qrupun baş şirkətinin təsis edilməsinin qayda və şərtləri;*
- ✓ *maliyyə-sənaye qrupu iştirakçılarının tərkibində dəyişikliklərin edilməsi qaydalarını;*
- ✓ *aktivlərin birləşdirilməsinin qayda və şərtlərini;*
- ✓ *nizamnamə fondunu və qrup iştirakçılarının hər birinin bu fondakı payını;*
- ✓ *qrup iştirakçılarının birləşməsinin məqsədini;*
- ✓ *mənfəətin qrup iştirakçıları arasında bölüşdürülməsi qaydalarını;*
- ✓ *qrup iştirakçılarının öhdəliklərini və məsuliyyətini;*
- ✓ *müqavilənin fəaliyyət müddətini.*

Maliyyə-sənaye qrupunun fəaliyyəti ilə yaradılan və baş şirkətin balansında əks etdirilən mallar (xidmətlər və işlər) maliyyə-sənaye qrupunun son məhsuludur.

**Kiçik sahibkarlıq subyektlərinin hüquqi vəziyyəti.** Kiçik sahibkarlıq subyektlərinin hüquqi vəziyyəti "Kiçik sahibkarlığa dövlət köməyi haqqında" Azərbaycan Respublikasının 4 iyun 1999-cu il tarixli 673-IQ nömrəli Qanunu ilə müəyyən olunur.[1] "Kiçik sahibkarlığa dövlət köməyi haqqında" AR Qanununun 3-cü maddəsinə əsasən, **kiçik sahibkarlıq subyektləri dedikdə,** kiçik və mikro sahibkarlıq subyektləri başa düşülür. Diqqət yetirsək görərik ki, bu bölgüdə mikro sahibkarlar əks olunmuşdur.

---

[1] "Azərbaycan Respublikası Qanunvericilik Toplusu", 31 avqust 1999-cu il, № 8, maddə 469.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 21 dekabr tarixli 556 nömrəli Qərarı ilə sahibkarlıq subyektlərinin mikro, kiçik, orta və iri sahibkarlıq subyektləri kimi bölgüsü meyarları təsdiq edilmişdir. Belə ki, mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları aşağıdakı kimi müəyyən olunur:

| **Sahibkarlıq subyektlərinin ölçüsünə görə kateqoriyaları** | **İşçilərinin orta siyahı sayı (nəfər)** | **İllik gəliri (ig) (min manat)** |
|---|---|---|
| Mikro sahibkar | 1 - 10 | ig ≤ 200 |
| Kiçik sahibkar | 11 - 50 | 200 < ig ≤ 3 000 |
| Orta sahibkar | 51 - 250 | 3 000 < ig ≤ 30 000 |
| İri sahibkar | 251 və ondan yuxarı | 30 000 < ig |

Qeyd edək ki, kiçik sahibkarlıq subyektlərinin dövlət qeydiyyatını Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Vergi Xidməti həyata keçirir. Kiçik sahibkarlıq subyektləri statusunun alması, onlara dövlət maliyyə yardımının almasına hüququ yaradır. Kiçik sahibkarlığa dövlət maliyyə yardımı məqsədli proqramlar çərçivəsində güzəştli kreditlər, subsidiyalar, kompensasiyalar, qrantlar, kreditlərə təminatlar verilməsi, lizinqin təşkili, sahibkarlara xidmət göstərən maliyyə-kredit qurumlarına stimullaşdırıcı tədbirlərin tətbiqi formasında həyata keçirilir.

Kiçik sahibkarlıq subyektlərinə dövlət köməyi kiçik sahibkarlığın dəstəklənməsinin və inkişafının infrastrukturunun formalaşdırılması, kiçik sahibkarlığa kömək proqramlarının hazırlanması və həmin proqramların həyata keçirilməsinin təşkili, kiçik sahibkarlıq subyektlərinə maliyyə, maddi, elmi-texniki və informasiya resurslarının əldə etmələri üçün güzəştli şəraitin yaradılması, kadrların hazırlanması, yenidən hazırlanması və ixtisaslarının artırılması sahəsində kiçik sahibkarlıq subyektlərinə kömək

göstərilməsi, kiçik sahibkarlıq subyektlərinin xarici-iqtisadi fəaliyyətinə, o cümlədən xarici tərəf-müqabilləri ilə istehsalat, maliyyə-kredit, ticarət, elmi-texniki və informasiya əlaqələrinin inkişafına kömək göstərilməsi, kiçik sahibkarlıq subyektləri üçün dövlət qeydiyyatının (uçotunun), statistik və *maliyyə* hesabatlarının təqdim edilməsinin, onların istehsal etdikləri məhsulun (işin, xidmətin) sertifikatlaşdırılmasının sadələşdirilmiş sisteminin tətbiqi, kiçik sahibkarlığın inkişafı üzrə tədqiqatların təşkili və s. istiqamətlərdə həyata keçirilir.

"Kiçik sahibkarlığa dövlət köməyi haqqında" AR Qanununun 7-ci maddəsinin məzmunundan çıxış edərək qeyd etmək olar ki, kiçik sahibkarlığa dövlət köməyi - dövlət büdcəsi, yerli büdcələr və qanunda nəzərdə tutulmuş digər mənbələr hesabına maliyyələşdirilən dövlət, regional və sahə proqramları vasitəsilə həyata keçirilir.

Kiçik sahibkarlığa dövlət köməyi aşağıdakı tədbirləri əhatə edir:

- ✓ *sahibkarlığın normativ hüquqi bazasının təkmilləşdirilməsi;*
- ✓ *mərkəzi, regional və yerli səviyyələrdə kiçik sahibkarlığın inkişafına dəstək verən infrastrukturun yaradılması;*
- ✓ *əhalinin sosial cəhətdən daha az təmin olunan təbəqələrinin, o cümlədən işsizlərin, qaçqınların və məcburi köçkünlərin əlillərin, şəhid ailələrinin, təqaüdçülərin, qadınların və gənclərin sahibkarlıq fəaliyyətinə cəlb edilməsi;*
- ✓ *kiçik sahibkarlığın həvəsləndirmə sisteminin formalaşdırılması və ona maliyyə köməyinin göstərilməsi;*
- ✓ *kiçik sahibkarlıq strukturlarının inkişafı üzrə tədqiqatların aparılması;*
- ✓ *istehsal yönümlü kiçik sahibkarlığa dövlət himayədarlığının təmin edilməsi.*[1]

---

[1] "Azərbaycan Respublikası Qanunvericilik Toplusu", 31 avqust 1999-cu il, № 8, maddə 469.

Kiçik sahibkarlığa dövlət maliyyə yardımının formaları və mexanizmi Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən müəyyən olunur. Həmçinin, kiçik sahibkarlıq subyektlərinin maliyyə qaynaqlarından istifadə imkanlarını genişləndirmək məqsədilə kredit təminatı fondu yaradılır.

Kommersiya (sahibkarlıq) hüququnun subyektləri kimi investisiya fondlarının yaradılması və fəaliyyətinin hüquqi əsasları İnvestisiya fondları haqqında Azərbaycan Respublikasının 22 oktyabr 2010-cu il tarixli 1101-IIIQ nömrəli Qanununda öz əksini tapıb.[1] "İnvestisiya fondları haqqında" AR Qanununun 1-ci maddəsinə müvafiq olaraq **investisiya fondu** səhmdar və ya paylı investisiya fondu formasında yaradılan, vəsaitlərin cəlb edilib mənfəət əldə edilməsi məqsədi ilə investisiya bəyannaməsində nəzərdə tutulmuş qaydada yatırılması ilə məşğul olan maliyyə qurumudur. Qanunvericiliyə əsasən investisiya fondlarını **səhmdar investisiya fondları** və **paylı investisiya fondlarına** təsnifatlaşdırmaq olar. İnvestisiya fondları barədə daha ətraflı 10-cu mövzuda danışılacaqdır.

**Kredit təşkilatlarının hüquqi vəziyyəti.** Kredit təşkilatları barədə danışarkən ilk növbədə banklar və bank olmayan kredit təşkilatları nəzərdə tutulur. Kredit təşkilatının leqal anlayışı "Banklar haqqında" AR Qanununda öz əksini tapmışdır. Belə ki, "Banklar haqqında" AR Qanununun 1-ci maddəsinə müvafiq olaraq **kredit təşkilatı** – bank, xarici bankın yerli filialı və ya bank olmayan kredit təşkilatıdır.

"Banklar haqqında" AR Qanununda kredit təşkilatlarının **iki növü** təsbit olunub: **bank** və **bank olmayan kredit təşkilatı**. **Bank** – fiziki və hüquqi şəxslərdən depozitlərin və digər qaytarılan vəsaitlərin cəlb edilməsini, öz adından və öz hesabına kreditlərin verilməsini, habelə müştərilərin tapşırığı ilə köçürmə və hesablaşma – kassa əməliyyatlarını məcmu halda həyata keçirən hüquqi şəxsdir. Bank ən azı üç hüquqi və fiziki şəxs tərəfindən açıq səhmdar cəmiyyəti formasında yaradılır.

[1] "Azərbaycan" qəzeti, 21 noyabr 2010-cu il, № 255.

**Bank olmayan kredit təşkilatı** (bundan sonra BOKT) isə öz vəsaiti və (və ya) cəlb edilmiş vəsait hesabına (depozitlər istisna olmaqla) yalnız pul formasında kreditlər verməklə məşğul olan hüquqi şəxsdir. Azərbaycan Respublikasında bank olmayan kredit təşkilatlarının yaradılması, onların fəaliyyəti və ləğvi "Bank olmayan kredit təşkilatları haqqında" Azərbaycan Respublikasının 25 dekabr 2009-cu il tarixli 933-IIIQ nömrəli Qanunları ilə tənzim olunur.[1]

Ölkədə bankların və bank olmayan kredit təşkilatlarının yaradılması və fəaliyyət göstərilməsinə nəzarəti Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən həyata keçirilir. Azərbaycan Respublikası Mərkəzi Bankının fəaliyyəti "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" 10 dekabr 2004-cü il tarixli 802-IIQ nömrəli Qanunu ilə tənzim olunur. [2]

Bank və bank olmayan kredit təşkilatlarının hüquqi vəziyyəti barədə IX fəsildə daha ətraflı danışılacaqdır.

**Birjaların hüquqi vəziyyəti.** Azərbaycan Respublikasında əmtəə və fond birjalarının fəaliyyəti müvafiq qanunlarla və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının qərarları ilə tənzim olunur. Belə ki, əmtəə birjalarının təsis edilməsi, dövlət qeydiyyatı, fəaliyyət istiqamətləri, onun iştirakçıları və onların hüquq və vəzifələri, əmtəə birjasında ticarətin təşkili qaydaları "Əmtəə birjası haqqında" Azərbaycan Respublikasının 25 may 1994-cü il tarixli 803 nömrəli Qanunu ilə tənzimlənir.[3]

**Əmtəə birjası** dedikdə, müəyyən edilmiş birja qaydaları əsasında əvvəlcədən təyin olunmuş yerdə və vaxtda aşkar kütləvi sövdələşmə şəklində həyata keçirilən topdansatış ticarət bazarını

---

[1] Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 2, maddə 72.

[2] Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, №12, maddə 984;

[3] "Azərbaycan Respublikasının Ali Sovetinin Məlumatı", 1994-cü il, № 16, maddə 211.

təşkil etmək məqsədi güdən hüquqi və (və ya) fiziki şəxslərin könüllü birliyi əsasında yaradılan hüquqi şəxs statuslu təşkilatdır. Əmtəə birjası (bundan sonra birja) müstəqil hüquqi şəxsdir və fəaliyyətinin əsas məqsədi - birja ticarətinin təşkili və tənzimlənməsidir. Birja hüquqi və (və ya) fiziki şəxslərin könüllü birliyi əsasında yaradılır və müəyyənləşdirilmiş qaydada dövlət qeydiyyatından keçməlidir. Birjanın təsisçiləri eyni zamanda onun üzvləri sayılır.

**Əmtəə birjasının hüquqları aşağıdakılardır:**

- ✓ *qanunvericiliyə uyğun bütün birja iştirakçıları üçün məcburi sayılan birja ticarəti qaydasını müəyyənləşdirmək;*
- ✓ *dövlət standartlarını nəzərə almaqla nümunəvi kontraktlar işləyib hazırlamaq;*
- ✓ *gün ərzində birja əqdlərinin qiyməti birja komitəsi (birja şurası) tərəfindən müəyyənləşdirilmiş həddən çox dəyişilərsə, birja ticarətini müvəqqəti dayandırmaq;*
- ✓ *birjada qeyri-birja əqdləri bağlanmasını həyata keçirən birja iştirakçılarına qarşı nizamnamədə nəzərdə tutulmuş sanksiyaları tətbiq etmək;*
- ✓ *birja əqdlərində mübahisələri həll etmək üçün münsiflər məhkəməsi səlahiyyətində arbitraj komissiyası yaratmaq;*
- ✓ *digər birjalarda, o cümlədən xarici ölkə birjalarında öz nümayəndəsini saxlamaq;*
- ✓ *birja bülleteni, soraq kitabçaları və digər məlumat və reklam informasiyaları dərc etmək.*

Əmtəə birjasının vəzifələri aşağıdakılardır:

- ✓ *birja ticarətinin həyata keçirilməsi üçün şərait yaratmaq;*
- ✓ *birja üzvlərinə və iştirakçılarına təşkilati və digər xidmətlər göstərmək;*
- ✓ *birja iştirakçılarının tələbi ilə birjada alqı-satqı obyekti olan real əmtəənin keyfiyyətinin ekspertizasını təşkil etmək.*

**Birjanın üzvləri** - birjanın nizamnamə fondunun yaradılmasında iştirak edən və (və ya) birjanın nizamnaməsi ilə müəyyən-

ləşdirilmiş qaydada üzvlük haqqı və ya digər məqsədli ödənişlər verən hüquqi və fiziki şəxslərdir.

"Əmtəə birjası haqqında" AR Qanununun 11-ci maddəsinin 2-ci hissəsinə görə aşağıda göstərilən şəxslər birjanın üzvü ola bilməzlər:

- ✓ *bu və ya digər əmtəə birjasının qulluqçuları;*
- ✓ *rəhbərləri birjanın qulluqçusu olan müəssisə və təşkilatlar;*
- ✓ *ali və yerli dövlət hakimiyyəti və idarəetmə orqanları;*
- ✓ *banklar, kredit və sığorta təşkilatları;*
- ✓ *siyasi partiyalar, həmkarlar ittifaqları, ictimai birliklər, dini və xeyriyyə təşkilatları və fondları;*
- ✓ *qanunla sahibkarlıq fəaliyyəti hüququndan məhrum edilmiş fiziki şəxslər.*

Əmtəə birjasının üzvlüyünə qəbul və onun tərkibindən çıxma qaydası əmtəə birjasının nizamnaməsi ilə tənzimlənir. Əmtəə birjasının üzvləri aşağıdakı kimi təsnifatlaşdırılır:

- ❖ ***əmtəə birjasının tam üzvləri** - birjanın bütün bölmələrində (şöbələrində) birja ticarətində iştirak etmək hüququ vardır;*
- ❖ ***əmtəə birjasının natamam üzvləri** – birjanın müəyyən bölmələrində (şöbələrində) birja ticarətində iştirak etmək hüququ vardır.*

Əmtəə birjasının ali və idarəetmə orqanı - **ümumi yığıncaqdır.** Ümumi yığıncaqlar arasındakı müddətdə əmtəə birjasına rəhbərliyi **birja komitəsi (birja şurası)** həyata keçirir. **Əmtəə birjasının nəzarət orqanı -** nəzarət (təftiş) komissiyasıdır. Birja komitəsi (birja şurası) və nəzarət (təftiş) komissiyası əmtəə birjası üzvlərinin ümumi yığıncağı tərəfindən seçilir, onların səlahiyyəti və hüquqları əmtəə birjasının nizamnaməsi ilə müəyyənləşdirilir. **İdarə heyəti** isə əmtəə birjasının fəaliyyətinə operativ rəhbərliyi həyata keçirir. İdarə heyəti birja komitəsi (birja şurası) tərəfindən təyin edilir. İdarə heyəti birjanın fəaliyyət göstərməsini təmin edir və onun bütün struktur bölmələrinə rəhbərlik edir.

Birjanın əsas subyektləri **diler** və **brokerdir**. Broker (ing. sözü *broker* olub)-bazarın iştirakçısı, birja işçisi, alıcılarla satıcı-

lar arasında vasitəçidir. Diller isə (lat. sözü *dealer* olub) ticarətçi, agent, öz adından öz hesabına müəyyən hərəkətləri edən şəxsdir. "Əmtəə birjası haqqında" AR Qanununun 2-ci maddəsində təsbit olunmuş anlayışlar aparatında broker və dilerə leqal anlayış verilmişdir. **Broker** - birja əqdlərinin müəyyənləşdirilmiş qaydada müştərinin adından onun hesabına, müştərinin adından öz hesabına, yaxud öz adından müştərinin hesabına bağlanmasını həyata keçirən birja vasitəçisidir. **Diler** - birja əqdlərinin müəyyənləşdirilmiş qaydada öz adından, öz hesabına bağlanmasını həyata keçirən və sonradan onu birjada satmaqla məşğul olan birja vasitəçisidir.

Birjanın digər bir növü **fond birjasıdır**. Fond birjalarının təsis edilməsi və dövlət qeydiyyatı, fəaliyyət istiqamətləri, onun iştirakçıları və onların hüquq və vəzifələri, fond birjasında ticarətin təşkili qaydaları Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə tənzimlənirdi.[1] Lakin 15 may 2015-ci il tarixli 1285-IVQD nömrəli Azərbaycan Respublikasının Qanunu ilə AR Mülki Məcəlləsinin 54-cü fəslinin 15-ci paraqrafı ləğv edilmişdir.[2]

Bu gün Fond birjasının fəaliyyəti "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının 15 may 2015-ci il tarixli 1284-IVQ nömrəli Qanunu ilə tənzim olunur. Adı çəkilən Qanunun 44.3.-cü maddəsinə əsasən **fond birjası -** fond birjası fəaliyyəti üçün lisenziyaya malik olan, fəaliyyətinin müstəsna predmeti tənzimlənən bazarların təşkili və idarə edilməsi olan, səhmdar cəmiyyəti formasında yaradılan hüquqi şəxsdir.

Fond birjasının aşağıda göstərilən vəzifələri vardır:

---

[1] Azərbaycan Respublikasının Mülki Məcəlləsi Azərbaycan Respublikasının 28 dekabr 1999-cu il tarixli, 779-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş və Azərbaycan Respublikasının 26 may 2000-ci il tarixli, 886-IQ nömrəli Qanununa əsasən 2000-ci il sentyabr ayının 1-dən qüvvəyə minmiş "Azərbaycan Respublikasının Qanunvericilik Toplusu", 30 aprel 2000-ci il, № 4, maddə 250.

[2] "Azərbaycan" qəzeti, 15 iyul 2015-ci il, № 151, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 07, maddə 814)

- ✓ *təşkil etdiyi ticarətin ədalətliliyinin və şəffaflığının təmin edilməsi;*
- ✓ *öz daxili qaydaları ilə üzvlərinin ticarətdə birbaşa və (və ya) məsafədən qoşulmaqla iştirakının təmin edilməsi;*
- ✓ *qiymətli kağızlarla və törəmə maliyyə alətləri ilə ticarətin təşkili və keçirilməsi;*
- ✓ *ticarət sistemlərinin istismarı və dəstəklənməsi;*
- ✓ *qiymətli kağızların kütləvi təklifinin və yerləşdirilməsinin təşkili;*
- ✓ *fond birjasında ticarətə qəbul edilən törəmə maliyyə alətlərinə, qiymətli kağızlara və onların emitentlərinə tələblərin müəyyən edilməsi;*
- ✓ *öz üzvlərinə fond birjasında ticarət aparmaq üçün ticarət sistemlərinə çıxış verilməsi;*
- ✓ *ticarət sistemində bağlanmış əqdlərin monitorinqinin aparılması;*
- ✓ *öz üzvlərinin fond birjasında fəaliyyəti ilə bağlı maliyyə vəziyyətinin monitorinqinin aparılması və s.*

Fond birjasının ən azı 3 üzvü olmalıdır və onun üzvləri fond birjasının daxili qaydalarına uyğun olaraq birja ticarətində bilavasitə iştirak etmək hüququna malik olan investisiya şirkətləridir.

Fond birjasında üzvlüyə aşağıdakı hallarda xitam verilir:

- ✓ *üzvün müraciəti əsasında;*
- ✓ *fond birjasının üzvü olan investisiya şirkətinin lisenziyası ləğv edildikdə;*
- ✓ *fond birjasının müvafiq orqanının qərarı ilə birja üzvünün birja qaydalarını pozduğu və ya birjanın tələblərinə cavab vermədiyi müəyyən edildikdə;*
- ✓ *fond birjasının üzvü fond birjası qarşısında maliyyə öhdəliklərini yerinə yetirmədikdə;*
- ✓ *fond birjasının fəaliyyətinə xitam verildikdə.*

Fond birjası maliyyə bazarlarına nəzarət orqanı olan Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən verilən lisenziya əsasında fəaliyyət göstərir.

## 2.4. Sahibkarlıq fəaliyyəti subyektlərinin əmlakının hüquqi rejimi

Sahibkarlıq fəaliyyətinin subyekti üzərinə götürdüyü öhdəliklərə görə əmlak məsuliyyətini daşımalıdır. Bunun üçün isə sahibkarlıq fəaliyyətinin subyekti ayrıca əmlaka malik olmalıdır. AR Konstitusiyasının 59-cu maddəsinə əsasən, "hər kəs qanunla nəzərdə tutulmuş qaydada öz imkanlarından, qabiliyyətindən və əmlakından sərbəst istifadə edərək… azad sahibkarlıq fəaliyyəti və ya … ilə məşğul ola bilər". Demək, sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün sahibkar ayrıca əmlaka malik olmalıdır ki, gələcəkdə öz öhdəliklərinə görə kontragentlər qarşısında öz əmlakı ilə məsuliyyət daşımaq imkanı olsun.

Sahibkarlığın əmlak əsasını mülkiyyət hüququ təşkil edir. Mülkiyyətçiyə əmlaka sahiblik, ondan istifadə və öz əmlakı üzərində sərəncam vermək hüquqları mülkiyyətçiyə məxsusdur. Mülkiyyət hüququnun məzmununu üç element təşkil edir. Bunlar mülkiyyətə sahiblik, ondan istifadə və mülkiyyətə sərəncam vermək hüququdur. AR Mülki Məcəlləsinin 152-ci maddəsinə müvafiq olaraq **mülkiyyət hüququ**—subyektin ona mənsub əmlaka (əşyaya) öz istədiyi kimi sahib olmaq, ondan istifadə etmək və ona dair sərəncam vermək üzrə dövlət tərəfindən tanınan və qorunan hüququdur. **Sahiblik hüququ**—əmlaka (əşyaya) faktik sahibliyi həyata keçirməyin hüquqi cəhətdən təmin edilmiş imkanıdır. **İstifadə hüququ**—əmlakdan (əşyadan) onun faydalı təbii xassələrini hasil etməyin, habelə ondan fayda götürməyin hüquqi cəhətdən təmin edilmiş imkanıdır. İstifadədən fayda gəlir, artım, bəhər, törəmə şəklində və başqa formalarda ola bilər. **Sərəncam hüququ**—əmlakın (əşyanın) hüquqi müqəddəratını təyin etməyin hüquqi cəhətdən təmin edilmiş imkanıdır.

Mülkiyyət hüququnun anlayışını və məzmununu açıqlayan AR Mülki Məcəlləsinin 152.5-ci maddəsində qeyd olunur ki, mülkiyyətçi qanunvericiliklə və ya başqa şəkildə, o cümlədən, müqavilə məhdudiyyətləri ilə müəyyənləşdirilmiş hədlərdə əm-

laka (əşyaya) sərbəst surətdə sahib ola bilər, ondan istifadə edə bilər və ona dair sərəncam verə bilər, həmin əmlaka başqa şəxslərin sahibliyinə yol verməyə bilər, ona mənsub əmlak barəsində öz mülahizəsi ilə istənilən hərəkətləri edə bilər, bir şərtlə ki, əgər həmin hərəkətlər qonşuların və ya üçüncü şəxslərin hüquqlarını pozmasın, yaxud hüquqdan sui-istifadə olmasın.

Hüquq ədəbiyyatlarında müəlliflər qeyd edirlər ki, "... mülkiyyət hüququnun yaranması üçün hər şeydən əvvəl şəxsin özünə mənsub əmlakı (əşyası) olmalıdır. Şübhəsiz ki, şəxsin müəyyən əmlakı olmalıdır ki, onunla hər hansı münasibətə girə bilsin. Əşyanın şəxsə mənsub olması isə onun iqtisadi mənada mənimsənilməsi ilə, hüquqi mənada ona mülkiyyət hüququnun əldə edilməsi ilə baş verir. Hüquq elmində mülkiyyət hüququnun yaranmasının əsaslarını ilkin və törəmə olmaqla iki qrupa ayırırlar. Mülkiyyət hüququnun yaranmasının ilkin əsasına o hallar daxildir ki, əşya üzərində mülkiyyət hüququ əvvəllər heç kimə məxsus olmasın, ilk dəfə yaranmış olsun... . Mülkiyyət hüququnun yaranmasının törəmə üsuluna başqalarının mülkiyyət hüququ əsasında əmələ gələn hüquqları aiddir. Bura milliləşdirmə, özəlləşdirmə, habelə müqavilələr üzrə mülkiyyət hüququnun əldə edilməsi halları aid edilir".[1]

Bütün bunlarla yanaşı mülkiyyət və mülkiyyət hüququ konstitusion müddəalardır: Azərbaycan Respublikasında mülkiyyət toxunulmazdır və dövlət tərəfindən müdafiə olunur. Mülkiyyət dövlət mülkiyyəti, xüsusi mülkiyyət və bələdiyyə mülkiyyəti növündə ola bilər (AR-nın Konstitusiyası, maddə 13). Hər kəsin mülkiyyət hüququ vardır. Mülkiyyətin heç bir növünə üstünlük verilmir. Mülkiyyət hüququ, o cümlədən, xüsusi mülkiyyət hüququ qanunla qorunur (AR-nın Konstitusiyası, maddə 29).

Əmlak üzərində mülkiyyət hüququnun əldə edilməsinin və ona xitam verilməsinin, ondan istifadə və onun barəsində sərəncam ver-

---

[1] Əsgərov İ.Q., Əsədov B.H. Azərbaycan Respublikası Mülki Məcəlləsinin Kommentariyası. I kitab, Bakı, Qanun, 2004. Səh. 309; S.X.Aslanov. Sahibkarlıq hüququ. əlavə və dəyişikliklərlə ikinci nəşr. Bakı, "Digesta" nəşriyyatı, 2013, səh. 247-248.

mək hüququ, mülkiyyətin formasından asılı olaraq ancaq qanunla müəyyən edilir. Qanun, həmçinin yalnız dövlət, yaxud bələdiyyə mülkiyyətində ola biləcək əmlak növlərini müəyyən edir.[1] «Bütün növlərdən olan daşınar və daşınmaz əmlaka mülkiyyət hüququnun subyektləri hüquqi və fiziki şəxslər, bələdiyyələr və Azərbaycan Respublikası ola bilər. Qanunvericiliklə yalnız dövlət mülkiyyətində və ya bələdiyyələrin mülkiyyətində ola bilən əmlak növləri müəyyənləşdirilir» (AR Mülki Məcəlləsinin 153-cü maddəsi).

Dövlət və bələdiyyə mülkiyyətlərinin **subyektləri** Azərbaycan Respublikası və bələdiyyələrin özləridir. AR Mülki Məcəlləsinin 153-cü maddəsinə əsasən bütün növlərdən olan daşınar və daşınmaz əmlaka mülkiyyət hüququnun subyektləri hüquqi və fiziki şəxslər, bələdiyyələr və Azərbaycan Respublikası ola bilər. Qanunvericiliklə yalnız dövlət mülkiyyətində və ya bələdiyyələrin mülkiyyətində ola bilən əmlak növləri müəyyənləşdirilir.

Əmlakın fiziki və ya hüquqi şəxslərin, Azərbaycan Respublikasının və ya bələdiyyələrin mülkiyyətində olmasından asılı olaraq əmlaka mülkiyyət hüququnu, əmlaka sahiblik, ondan istifadə və ona dair sərəncam hüququnun əldə edilməsi və ona xitam verilməsi xüsusiyyətləri yalnız qanunla müəyyənləşdirilə bilər. Bütün mülkiyyətçilərin hüquqları bərabər şəkildə müdafiə edilir.

AR Mülki Məcəlləsinin 155-ci maddəsinə müvafiq olaraq, Azərbaycan Respublikasına mülkiyyət hüququ ilə mənsub olan əmlak **dövlət mülkiyyətidir**. Fiziki, hüquqi şəxslərin və ya bələdiyyələrin mülkiyyətində olmayan torpaq və digər təbii ehtiyatlar dövlət mülkiyyətidir. Dövlət büdcəsi Azərbaycan Respublikasının mülkiyyətidir. Dövlət əmlakının özəlləşdirilməsi haqqında qanunvericilikdə nəzərdə tutulmuş qaydada dövlət öz mülkiyyətində olan əmlakı fiziki və hüquqi şəxslərin mülkiyyətinə verə bilər.

AR Mülki Məcəlləsinin 156-cı maddəsinə əsasən isə bələdiyyələrə mülkiyyət hüququ ilə mənsub olan əmlak onların mülkiyyətidir. Yerli büdcənin vəsaiti **bələdiyyənin mülkiyyətidir.**

---

[1] E.A. Xələfov. Sahibkarlıq hüququ. Dərs vəsaiti. Bakı, 2007. Səh. 39.

Xüsusi mülkiyyətin subyektləri **fiziki** və **hüquqi şəxslərdir**. Vətəndaşlara (fiziki şəxslərə) – fərdi sahibkarlar və kommersiya təşkilatları sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün onlara məxsus olan əmlak, digər şəxslərin (sahibkarlıqla məşğul olmayan şəxslərin) əmlakından təcriddir və həmin əmlak öhdəliklər üzrə məsuliyyət bazası rolunu oynayır. Hüquqi şəxslərin əmlakının təcridliyinin hüquqi forması həmin əmlakın kommersiya təşkilatlarının müstəqil balansına, qeyri-kommersiya təşkilatlarının isə smetasına daxil edilməsidir.

Sahibkarlıq fəaliyyəti subyektləri qarşısında duran və həlli bir qədər mürəkkəb olan problemlərdən biri də sahibkarlıq fəaliyyətinin həyata keçirilməsində istifadə olunan **əmlakın hüquqi rejiminin** düzgün və optimal müəyyən edilməsidir. Bu çətin problemin həlli eyni ilə həm mülkiyyətçi, həm də titul sahibi üçün vacibdir.

E.A. Xələfovun qeyd etdiyi kimi əmlakın hüquqi rejiminin müəyyən edilməsi sahibkarlar qarşısında duran mühüm məsələlərdən biridir. Bu baxımdan ilk növbədə "əmlak" anlayışını vermək zəruridir. Bu anlayış iki mənada qiymətləndirilə bilər. Əmlak kimi əşyalar və maddi nemətlər, həmçinin pul və qiymətli kağızlar başa düşülə bilər. Əmlakın anlayışı qanunvericilikdə məhz bu mənada istifadə edilir. Həmçinin, əmlak əşyaların və əmlak hüquqlarının məcmusu kimi də başa düşülür. AR MM-in 135-ci maddəsində göstərilir ki, yalnız fiziki obyektlər əşya sayılır. Pullar və qiymətli kağızlar da əşyadır. Əmlak istənilən əşyaların qeyri-maddi əmlak nemətlərinin məcmusudur.[1]

Əmlakın təsnifatını bir neçə əsaslarla vermək olar və onların sırasında əsasən aşağıdakılarını ayırmaq lazımdır:

- ✓ *daşınar və daşınmaz əmlak;*
- ✓ *istehsal fəaliyyətində iştirak edən və qeyri-istehsal təyinatlı əmlak;*
- ✓ *dövriyyə qabiliyyətinə görə – dövriyyədən çıxarılmış, dövriyyəsi məhdudlaşdırılmış, tam dövriyyə qabiliyyətli*

---

[1] E.A. Xələfov. Sahibkarlıq hüququ. Dərs vəsaiti. Bakı, 2007, səh. 39.

*(sərbəst özgəninkiləşdirilə bilən, birindən digər şəxsə keçən) əmlak;*

- ✓ *istehsal prosesində iştirakından, istifadə müddətindən, obyektlərin dəyərindən asılı olaraq – əsas və dövriyyə vasitələri;*
- ✓ *maddi aktivlər (əsas və dövriyyə vəsaitləri) və qeyri-maddi aktivlər.*

Əmlakın hüquqi rejimi subyektin ancaq sərəncamverici səlahiyyətləri prizmasından qiymətləndirilməməlidir. Təsərrüfat fəaliyyətində əmlakın hüquqi rejimi özünü bu əmlakın uçotunun xüsusi qaydalarının, onun dəyərinin ödənilməsi qaydasının mövcudluğu baxımından göstərir.[1] Əmlakın hüquqi rejimi ona təsərrüfat prosesində əldə olunması, istifadəsi zamanı qoyulan tələblərdir. Təşkilatın əmlakı və öhdəlikləri **mühasibat balansında** əks olunur. Bu hal AR Mülki Məcəlləsinin 121 və 122-ci maddələrində göstərilmişdir.

## Mövzu üzrə nəticə:

**Kommersiya (sahibkarlıq) hüququnun subyektləri** – qanunla müəyyən olunmuş qaydada yaradılmış və hüquqi (və ya) dövlət qeydiyyatından keçmiş, sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki və hüquqi şəxslərdir. Kommersiya (sahibkarlıq) hüququnun subyektləri aşağıdakı **əlamətlərə** malik olan sahibkarlıq hüquq və vəzifələrinin daşıyıcıları sayılır: müəyyən edilmiş qaydada qeydiyyatdan keçmə və ya başqa şəkildə qanuniləşdirilmə; təsərrüfat səlahiyyətlərinin mövcudluğu; sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün təcrid olunmuş əmlaka malik olma, müstəqil əmlak məsuliyyətini daşıma. Kommersiya (sahibkarlıq) hüququnun subyektlərinin xüsusi və müstəsna səlahiyyətlərə təcrid olunmuş əmlaka malik olması, müstəqil əmlak məsuliyyəti daşıması əlamətini göstərmək olar. Kommersiya

---

[1] E.A. Xələfov. Sahibkarlıq hüququ. Dərs vəsaiti. Bakı, 2007, səh. 40.

(sahibkarlıq) hüquq subyektləri təsis – sərəncam, təsis, müqavilə – təsis və icazə – təsis üsulu ilə yaradılır.

Vətəndaşlar hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə dövlət qeydiyyatından keçdiyi andan məşğul ola bilərlər. AR MM-nə əsasən vətəndaşlar **16 yaşından** sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilərlər.

Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyətinə dövlət nəzarətini həyata keçirən əsas səlahiyyətli dövlət orqanı – **Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və onun strukturuna daxil olan qurumlardır.**

Sahibkarlıq fəaliyyəti subyektləri mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə bölünür.

Kommersiya (sahibkarlıq) hüququna subyektlərin ayrı-ayrı növlərinə kredit təşkilatları, maliyyə-sənaye qrupları, investisiya fondları, əmtəə və fond birjaları da aiddir.

**Maliyyə-sənaye qruplarının 2 növü var:** maliyyə-sənaye qrupunun tərkibində xarici hüquqi şəxslər iştirak edirlərsə, onda **transmilli** maliyyə-sənaye qrupu, əgər hökümətlərarası sazişlər əsasında maliyyə-sənaye qrupları yaradılıbsa, onda **dövlətlərarası** (beynəlxalq) maliyyə-sənaye qrupu hesab olunur.

**İnvestisiya fondu** səhmdar və ya paylı investisiya fondu formasında yaradılan, vəsaitlərin cəlb edilib mənfəət əldə edilməsi məqsədi ilə investisiya bəyannaməsində nəzərdə tutulmuş qaydada yatırılması ilə məşğul olan maliyyə qurumudur. İnvestisiya fondları iki növə ayrılır: **səhmdar** və **paylı** investisiya fondları.

**Kredit təşkilatı** dedikdə bank, xarici bankın yerli filialı və ya bank olmayan kredit təşkilatı başa düşülür.

**Əmtəə birjası** dedikdə müəyyən edilmiş birja qaydaları əsasında əvvəlcədən təyin olunmuş yerdə və vaxtda aşkar kütləvi sövdələşmə şəklində həyata keçirilən topdansatış ticarət bazarını təşkil etmək məqsədi güdən hüquqi və (və ya) fiziki şəxslərin könüllü birliyi əsasında yaradılan hüquqi şəxs statuslu təşkilatdır. Əmtəə birjası müstəqil hüquqi şəxsdir və fəaliyyətinin əsas məqsədi - birja ticarətinin təşkili və tənzimlənməsidir. Birjanın əsas subyektləri **di-**

**ler** və **brokerdir**. **Fond birjası** dedikdə fond birjası fəaliyyəti üçün lisenziyaya malik olan, fəaliyyətinin müstəsna predmeti tənzimlənən bazarların təşkili və idarə edilməsi olan, səhmdar cəmiyyəti formasında yaradılan hüquqi şəxs başa düşülür.

Sahibkarlığın əmlak əsasını mülkiyyət hüququ təşkil edir. M**ülkiyyət hüququ**—subyektin ona mənsub əmlaka (əşyaya) öz istədiyi kimi sahib olmaq, ondan istifadə etmək və ona dair sərəncam vermək üzrə dövlət tərəfindən tanınan və qorunan hüququdur. **Sahiblik hüququ**—əmlaka (əşyaya) faktik sahibliyi həyata keçirməyin hüquqi cəhətdən təmin edilmiş imkanıdır. **İstifadə hüququ**—əmlakdan (əşyadan) onun faydalı təbii xassələrini hasil etməyin, habelə ondan fayda götürməyin hüquqi cəhətdən təmin edilmiş imkanıdır. İstifadədən fayda gəlir, artım, bəhər, törəmə şəklində və başqa formalarda ola bilər. **Sərəncam hüququ**—əmlakın (əşyanın) hüquqi müqəddəratını təyin etməyin hüquqi cəhətdən təmin edilmiş imkanıdır.

## Mövzunun mənimsənilməsi üçün tövsiyə olunan ədəbiyyat:

### *a) əsas ədəbiyyat:*

1. "Maliyyə-sənaye qrupları haqqında" Azərbaycan Respublikasının 23 aprel 1996-cı il tarixli, 69-IQ nömrəli Qanunu.

2. "Əmtəə birjası haqqında" Azərbaycan Respublikasının 25 may 1994-cü il tarixli, 803 nömrəli Qanunu.

3. "Sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinin "bir pəncərə" prinsipi üzrə təşkilinin təmin edilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 25 oktyabr 2007-ci il tarixli 2458 №li Sərəncamı.

4. "Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarlarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 21 dekabr tarixli 556 nömrəli Qərarı.

5. İmanov K. Kiçik və orta sahibkarlığın inkişafı və əqli

mülkiyyət hüquqları. “Hüquqi dövlət və qanun” jurnalı, № 4, 2000, səh. 33-36.

6. Белов В.А., Пестерева Е.В. Хозяйственные общества. М., 2002.

7. Зинченко С.А., Шапсугов Д.Ю., Корх С.Э. Предпринимательство и статус его субъектов в современном российском праве. Ростов н/Д.: СКАГС, 1999.

8. “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnaməsi”nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanı.

9. “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Əsasnaməsi”nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 may tarixli 1017 nömrəli Fərmanı.

10. “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin Əsasnaməsi”nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 may tarixli 1017 nömrəli Fərmanı.

11. “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin Əsasnaməsi”nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 may tarixli 1017 nömrəli Fərmanı.

12. “Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondunun Nizamnaməsi”nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 31 iyul tarixli 224 nömrəli Fərmanı.

13. “Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin Nizamnaməsi”nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanı.

### *b) əlavə ədəbiyyat:*


14. Qasımov Z. Açıq tipli səhmdar cəmiyyəti. "Qanun" jurnalı, № 12, 2005. Səh. 42-43.

15. Алешкин А. И. Понятие субъекта малого предпринимательства и законодательство, регулирующее правоотношения в данной сфере /А. И. Алешкин // Предпринимат. право. – 2010. – № 4. с. 23–27.

16. Власова А.С. Отказ в государственной регистрации юридического лица в связи с пороком формы представ-ленных документов и недостоверностью содержащихся в них све-дений // Юрист. 2015. N 11. с.42.

17. Григоренко С. Проблемы гражданско-правового статуса индивидуального предпринимателя // Хозяйство и право. 1999. № 5, с. 18–20.

18. Ершова И.В. Предпринимательское право: неравнодушный взгляд // Предпринимательское право. Приложение «Бизнес и право в России и за рубежом». 2012, №2, с. 2–9.

19. Закупень Т.В. Государственная регистрация юридических лиц и индивидуальных предпринимателей. М.: Норма: Инфра-М, 2001.

20. Костров А.В., Николаев В.В. Законы – о малом бизнесе // Журнал российского права. 2002, № 2, с. 106-108.

21. Курбангалеева О.А. Индивидуальные предприниматели: Правовые основы деятельности, учет, налогообложение. М.: Главбух, 2003.

22. Лаптев В.В. Субъекты предпринимательского права: учеб. пособие. М.: Юристъ, 2003.

23. Моисеев М. Предпринимательская деятельность граждан: понятие и конститутивные признаки // Хозяйство и право. 1997. № 3, с. 72–80.

24. Ручкина Г.Ф. Предпринимательская правосубъектность как элемент правового статуса гражданина // Юрист. 2003, № 10, с. 2–6.

# III FƏSİL
# MÜFLİSLƏŞMƏ VƏ İFLASIN HÜQUQİ TƏNZİMLƏNMƏSİ

## 3.1. Müflisləşmə və iflasın anlayışı, əlamətləri və xüsusiyyətləri

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra qəbul edilmiş ilk "Müflisləşmə və iflas haqqında" Azərbaycan Respublikasının 22 iyul 1994-cü il tarixli Qanunu müəssisənin müflisləşməsinin, iflasının və iflas haqqında işlərə dair icraata başlanması üsullarını, şərtlərini və qaydasını, kreditorların tələblərinin ödənilməsinin təşkilati və hüquqi əsaslarını müəyyənləşdirir. Lakin sonradan Azərbaycan Respublikasında aparılan köklü demokratik, iqtisadi-hüquqi islahatlar nəticəsində, habelə ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası və yeni bazar münasibətlərinin yaranması və inkişafı mövcud ictimai münasibətlərin hüquqi tənzimlənməsi üçün yeni normativ-hüquqi aktın qəbul edilməsini zəruri etmişdir. Nəticədə, "Müflisləşmə və iflas haqqında" Azərbaycan Respublikasının 13 iyun 1997-ci il tarixli 326-IQ nömrəli Qanunu qəbul edilmişdir.[1] Qəbul edilmiş qanun əvvəllər qüvvədə olan qanuna nisbətdə yeni ictimai münasibətlər sistemini özündə ehtiva etdi. "Müflisləşmə və iflas haqqında" AR Qanunu 61 maddəni özündə birləşdirən 14 fəsildən ibarətdir.

Adı çəkilən Qanun əvvəllər qüvvədə olan qanunu bir çox xüsusiyyətlərinə görə xeyli üstələyir. **Birincisi,** bu qanun həcm etibarı ilə geniş olsa da sadə quruluşa malikdir. **İkincisi,** bu qanun əhəmiyyətli dərəcədə müflisləşmə və iflas prosesinin yeni ideologiyasını müəyyən edir. **Üçüncüsü,** bu Qanunun müddəaları nəinki kommersiya və qeyri-kommersiya təşkilatlarına,

---

[1] "Azərbaycan" qəzeti, 27 iyun 1997-ci il, № 132.

həmçinin hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərə də şamil olunur. Halbuki, əvvəlki Qanunun müddəaları yalnız müəssisələrə şamil olunurdu. Belə ki, qüvvədən düşmüş "Müflisləşmə və iflas haqqında" AR Qanununun 2-ci maddəsinə əsasən qeyd olunmuşdur ki, "Bu Qanun xüsusi təyinatlı dövlət müəssisələri, büdcə təşkilatları, ictimai təşkilatlar (kommersiya fəaliyyəti ilə məşğul olanlar istisna edilməklə) və fəaliyyəti mənfəət əldə etmək məqsədi güdməyən təşkilatlar (müəssisələr) istisna olmaqla Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən, kreditorlar və büdcə qarşısında öz öhdəliklərini yerinə yetirməyən müəssisələrə şamil edilir". Göründüyü kimi qüvvədən düşmüş Qanunun normaları hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərə şamil edilmirdi.

Lakin 1997-ci il Qanunu isə təkcə kommersiya və qeyri-kommersiya təşkilatlarına deyil, həm də hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərə şamil edilir. Həmin Qanunun 1-ci maddəsində təsbit olunmuş anlayışlar aparatı xüsusilə diqqəti cəlb edir. Belə ki, adı çəkilən Qanunun tam və dərindən mənimsənilməsi və tətbiq edilməsi üçün bu anlayışlar aparatından "açar" kimi istifadə etmək olar.

Onu da qeyd etmək yerinə düşər ki, müflisləşmə və iflas institutunun təkcə bir hüquq sahəsinə aid edilməsi heç də doğru hesab edilə bilməz. Bu hüququn kompleks institutudur və özündə müxtəlif hüquq sahələrinin normalarını birləşdirir. Əgər müflisləşmə və iflasın mülki hüquqi tənzimlənməsi aspektindən çıxış etsək görərik ki, müflisləşmə və iflas hüquqi şəxsin ləğv edilməsinin əsaslarından biridir. Məhkəmə qaydasında sahibkarlıq fəaliyyəti subyektinin müflis elan olunması ilə bağlı məsələlər isə mülki prosessual hüquq normaları ilə nizama salınır.

Müflisləşmə və iflasın hüquqi tənzimlənməsini özündə əks etdirən hüquq sistemləri bir-birindən bu və ya digər dövlətin qanunvericiliyinin qarşısına qoyduğu konkret məqsədlərinə görə

fərqlənir. Bu məqsədlər müxtəlif ola bilər. Nəticə etibarı ilə bir hüquq sistemi üçün prioritet məsələlərdən biri kimi kreditorlara vəsaitin qaytarılmasının təmin edilməsi **(Manfred Balts modeli),** digər hüquq sistemi üçün isə borclu müəssisənin müflis olmaqdan xilas edilməsi və iş yerlərinin saxlanılmasıdır (İngilis modeli). Həmçinin, üçüncü model də mövcuddur. Adı çəkilən model makroiqtisadi funksiyaların səmərəli bölgüsü və icrası kimi əsas vəzifəni qarşısına qoyur.[1]

Hüquq ədəbiyyatlarında müflisləşməyə və iflasa müxtəlif yanaşmalardan çıxış edərək anlayışlar verilmişdir. Fikrimizcə, müflisləşmə və iflasın anlayışının təhlilinə keçməzdən əvvəl bu iki terminin etimoloji mənalarını və onların bir-birinə nisbəti məsələlərinin araşdırılması daha məqsədəuyğun olardı. Çünki "müflisləşmə" və "iflas" terminlərinin etimoloji mənasını, mahiyyətini nəzərdən keçirtmədən müflisləşmə və iflas institutunun məzmununu açıqlamada, onu dərk etməkdə çətinliklər yarana bilər.

Azərbaycan dilinin izahlı lüğətinə diqqət yetirsək görərik ki, "iflas" – müflis olma, sınıq çıxma, bankrot olma mənasında ifadə olunur.[2] "Müflis" sözü isə – varı-yoxu əlindən çıxmış, iflas etmiş kimi başa düşülür.[3] Deyilənlərdən belə qənaətə gəlmək olar ki, müəllif bu anlayışların eyni mənalı olduğunu hesab edir. Amma bu heç də o demək deyil ki, qanunvericilikdə də bu iki anlayış eynimənalı, sinonim kimi işlədilir.

İstər hüquq ədəbiyyatlarında, istərsə də xarici ölkələrin qanunvericilik aktlarında "müflisləşmə" və "iflas" eyni mənalı və ya fərqli mənalarda işlədilir. "Müflisləşmə və iflas haqqında" 1997-ci il AR Qanununun 1-ci maddəsində müflisləşməyə anlayış verilsə də, iflasın anlayışı təsbit olunmamışdır. Həmin nor-

---

[1] Степанов В.В. Несостоятельность (банкротство) в России, Англии, Франции и Германии. М., 1999, с. 22-23.

[2] Axundov A. Azərbaycan dilinin izahlı lüğəti. Bakı, "Elm" nəşriyyatı, 2005, səh. 144.

[3] Yenə orada, səh. 269.

maya əsasən, müflisləşmə - borclunun öz öhdəliklərinin ödəmə qabiliyyətinin olmamasıdır”. Lakin qüvvədən düşmüş 1994-cü il “Müflisləşmə və iflas haqqında” AR Qanununa əsasən iflas borclunun öhdəliklərini mütləq ödəmə qabiliyyətinin olmamasının məhkəmə tərəfindən təsdiq edilməsidir. Deyilənlərdən belə bir qənaətə gəlmək olar ki, qüvvədən düşmüş Qanun “müflisləşmə” və “iflas” anlayışlarını eyni mənalı hesab etmir, əksinə onları bir-birindən fərqləndirir. Amma qüvvədə olan “Müflisləşmə və iflas haqqında” AR Qanunu “iflas” termininin leqal anlayışını təsbit etməsə də, bu heç də o demək deyildir ki, qanunverici bu iki termini eyni mənalı, sinonim sözlər, ifadə və anlayış kimi təsbit edir. İlk baxışdan belə görünsə də, əslində qanunvericilik bu iki ifadəni adı çəkilən Qanunun elə özündə bir-birindən fərqləndirir. Qanunun ikinci və üçüncü fəsillərinin müddəalarına diqqət yetirdikdə belə bir qənaətə gəlmək olar ki, qanunverici iflası bir proses kimi nəzərdən keçirir ki, bu prosesin nəticəsində borclu müflis elan olunur.

Digər tərəfdən isə əgər qanunvericilik müflisləşmə və iflas münasibətlərini tənzimləyən qanunu “Müflisləşmə (iflas) haqqında” qanun kimi adlandırsa idi, onda belə anlaşılacaqdır ki, qanunvericilik müflisləşməni iflas, iflası isə müflisləşmə kimi nəzərdən keçirir. Halbuki bəzi xarici ölkələrin qanunvericiliyində müflisləşmə və iflas münasibətlərini tənzimləyən qanun “Müflisləşmə (iflas) haqqında” və ya “İqtisadi müflisləşmə haqqında” qanun kimi yaxud “Müflisləşmə haqqında” qanun kimi adlandırılır.

Belə ki, Rusiya Federasiyası,[1] Belarusiya və Moldova Respublikalarının qanunvericiliklərinə diqqət yetirsək, müxtəlif yanaşmaların mövcud olduğunun şahidi olarıq. RF-nın «Müflisləşmə (iflas) haqqında» 26 oktyabr 2002-ci il tarixli, 127-FZ nömrəli Qanununun belə adlandırılması bizə belə bir qənaətə gəlməyə imkan verir ki, Rusiya qanunvericiliyi «müflisləşmə»

[1] Карелина С.А. Правовое регулирование несостоятельности (банкротства). М, 2002. с. 21.

və «iflas» anlayışları arasında heç bir fərq qoymur. Bir sözlə desək, bu anlayışları eyni mənalı, sinonim sözlər kimi qəbul edir. Adı çəkilən Qanunun 2-ci maddəsinə diqqət yetirməklə bunu görmək olar.[1]

"Müflisləşmə haqqında" Moldova Respublikasının 29 iyun 2012-ci il tarixli, 149 nömrəli Qanununda isə tamamilə fərqli yanaşma müşahidə olunur. İlk növbədə Qanunun 2-ci maddəsinə əsasən yalnız müflisləşmənin anlayışı verilir və qeyd olunur ki, müflisləşmə-məhkəmənin sərəncam aktı ilə təsdiq edilən pul öhdəliklərinin icra etmək qabiliyyətinin olmaması ilə xarakterizə olunan borclunun maliyyə vəziyyətidir. Bu Qanunda maraq doğuran digər bir məqam ondan ibarətdir ki, Moldova qanunvericiliyi müflisləşmə və iflas prosedurları terminlərindən istifadə edir və onları bu qaydada fərqləndirir: iflas proseduru - borclunun öhdəliklərinin ödənilməsi üçün onun (yəni borclunun) əmlakı ləğv edilir; müflisləşmə proseduru borclunun, müşahidə dövrü bitdikdən sonra yenidənqurulma proseduruna və ya iflas proseduruna keçidini nəzərdə tutur.[2] Diqqət yetirsək görərik ki, yuxarıda göstərilən ölkələrin qanunvericiliyi müxtəlif yanaşmalardan çıxış edərək müflisləşmə və iflas ilə bağlı normativ-hüquqi aktları qəbul etmişdirlər.

Hüquq elmində "müflisləşmə" və "iflas" anlayışlarının məsələsi bu gün də mübahisəli olaraq qalmaqdadır. Belə ki, bu sahədə tədqiqat aparan V.N. Tkaçev belə bir sual qoyaraq yazır ki, "həqiqətənmi müflisləşmə iflas mənasını verir və əksinə, yaxud bu terminlər müstəqil mənaya malikdir və onları fərqləndirmək zəruridir?".[3]

S.A.Karelina bu halda haqlı olaraq qeyd edir ki, "müflisləş-

---

[1] Собрание законодательства Российской Федерации от 28 октября 2002 г. №43, ст. 4190.

[2] Monitorul Oficial от 14 сентября 2012 года №193-197 статья №663.

[3] Ткачев В.Н. Конкурсное право. Правовое регулирование несостоятельности (банкротства) в России. М.,2006. с.42.

mə" və "iflas" anlayışlarını qüvvədə olan qanunvericilikdə fərqli anlayışlar kimi təsbit olunması nəinki terminoloji cəhətdən dəqiq olacaq, həm də müflisləşmənin nəticələrinin hüquqi tənzimlənməsinin mahiyyətini də dəyişəcək".[1]

Bu məsələ ilə bağlı hüquq ədəbiyyatlarında alimlərin müxtəlif fikirlərini üç qrupa ayırmaq olar. **Birinci qrupa** daxil olan alimlər hesab edirlər ki, müflisləşmə elə iflasdır və ya əksinə, iflas-müflisləşmə deməkdir.[2] Belə ki, P.D. Barenboym Rusiyanın qanunvericiliyi əsasında müfisləşmə (iflas) institutunu araşdırarkən qeyd edirdi ki, "yeni termin "müflisləşmə"ni geniş yayılmış və kifayət qədər enerjili olan "iflas" terminınə əlavə etməklə qanunverici doğru addım atmışdır".[3]

**İkinci qrup** alimlər isə "müflisləşmə" və "iflas" anlayışlarının fərqləndirilməsi zəruriliyini qeyd edirlər. M.B.Telyukinanın fikrincə, "iflas" anlayışı kreditorlara ziyan vuran borclunun hüquqazidd davranışında tətbiq edilməlidir ki, bu da göstərilən anlayışların dəqiq hüquqi təsnifatına imkan yaradacaqdır".[4] Analoji mövqedə duran digər rus hüquqşünası L. Şennikovada qanunda "müflisləşmə" və "iflas" terminlərinin eyni mənalı anlayış kimi istifadə edilməsi ilə bağlı Rusiya qanunvericisinin

---

[1] Карелина С.А. Правовое регулирование несостоятельности (банкротства). Учебно–практическое пособие. М.: ИКД «Зерцало-М», 2002, с. 22.

[2] Тихонова С. С. Инновационный общетеоретический лекционный курс «Юридическая техника»: взгляд отраслевика. Рецензия на курс лекций «Юридическая техника» под редакцией В.М.Баранова и В.А.Толстика. М., 2013; Юридическая наука и практика: Вестник Нижегородской академии МВД России. 2013. №23. с. 244-245; Тихонова С.С. Юридическая техника в уголовном праве: Курс лекций. Н.Новгород: Деком, 2008, с.117-119.

[3] Баренбойм П.Д. Правовые основы банкротства. Учеб. Пособие. М., 1995. с. 22.

[4] Телюкина М.Б. Соотношение понятий «несостоятельность и «банкротство» в дореволюционном и современном праве. Юрист. 1997. №12. с. 42.

mövqeyi ilə razılaşmır.[1]

İnqilaba qədərki dövrdə də tanınmış rus alimləri Q.F.Şerşeneviç və A.F.Traynin müflisləşmə və iflas anlayışlarını fərqli anlayışlar kimi nəzərdən keçirirdilər. Belə ki, Q.F. Şerşeneviç hesab edirdi ki, iflas-müflis borclu tərəfindən əmlakın azaldılması və ya gizlədilməsi yolu ilə ehtiyatsızlıqla və ya qəsdən kreditorlara zərərin vurulmasıdır.[2] Müəllifin fikirlərini dəstəkləyən A.F. Traynin isə yazırdı: "iflas-özünəməxsus deliktdir: iki elementi özündə birləşdirir, onlardan biri müflisləşmə - mülki-hüquqi anlayışdır, digəri isə iflas – cinayət-hüquqi anlayışdır. İflasın belə mürəkkəb tərkibi onun hüquqi təbiətini açmır".[3]

"İflas" anlayışını cinayət-hüquqi kateqoriya kimi, "müflisləşmə" anlayışını isə mülki-hüquqi kateqoriya kimi nəzərdən keçirən rus hüquqşünası E.A. Vasilyev hesab edir ki, "iflas" termini dar mənalı olub, borclu tərəfindən kreditorlara zərər vuran cinayət əməlinin törədilməsini nəzərdə tutur. Daha sonra müəllif qeyd edir ki, "Müflisləşmə" termini isə "iflas" terminինə nisbətdə daha geniş mənaya malik olub, borclunun öz borc öhdəliklərinin ödəmə qabiliyyətinin olmamasının müvafiq məhkəmənin qərarı ilə təsdiqini nəzərdə tutur.[4]

Bu mübahisəli məsələyə münasibət bildirən M.İ. Kulaqin yuxarıda iqtibas gətirilən fikirləri dəstəkləyərək yazırdı: "Müflisləşmə institutu çox vaxt iqtisadi və hüquq ədəbiyyatında iflas institutu ilə qarışıq salınır. Həqiqi mənada isə iflas müflisləşmənin yaranmasının mümkün nəticələrindən biridir. İflas cinayət-hüquqi kateqoriya kimi nəzərdən keçirildiyi halda, müflisləşmə

---

[1] Щенникова Л., Банкроство в гражданском праве России: традиции и перспективы // Российская юстиция. 1998. №10, с.39

[2] Шершеневич Г.Ф. Курс торгового права. М., 1912, с. 151.

[3] Трайнин А.Ф. Несостоятельность и банкротство. СПб.,1913. с.27

[4] Васильев Е.Н. Правовое регулирование конкурсного производства в капиталистических странах. М., 1989. с. 22.; Лоркинанидзе А.Г. Гарантии платежеспособности по законодательству Англии И Франции. // Законодательство зарубежных стран. Выпуск 162 // М., 1979. с. 32.

xüsusi hüququn institutu hesab olunur”.[1]

Analoji mövqedə duran digər müəlliflər[2] V.V.Zaytseva[3] və V.V. Stepanov[4] “müflisləşməni” mülki-hüquqi kateqoriya kimi, “iflası” isə cinayət-hüquqi kateqoriya kimi fərqləndirirlər.

**Üçüncü qrup** müəlliflərin fikirləri də böyük maraq kəsb edir. Onların fikrincə, “iflas” anlayışının müflisləşmə hüquq münasibətlərinin cinayət-hüquqi aspektinə aid edilməsi məqsədəuyğun deyil. Belə bir mövqeyi dəstəkləyən alimlər hesab edirlər ki, müflisləşmə-borclunun əmlak çatışmazlığı ilə bağlı yaranan hüquq münasibətlərinin kompleksi kimi başa düşülür. İflas isə yalnız borclunun müflisləşməsi prosesinin aparılmasıdır.[5] Hətta E.A. Maxneva hesab edir ki, “sırf cinayət-hüquqi əməl kimi iflasın anlaşılması zərurəti haqqında məsələ müsabiqə hüququnun inkişafı üçün əsas sayılmır”.[6] B.S. Brusko isə yazır, “hüquq normasının məzmununa digər hüquq sahəsinə (cinayət-hüquqi) aid olan kateqoriyanın daxil edilməsi bizim fikrimizcə, əsassızdır”.[7]

E.S.Yulovanın fikirləri də böyük maraq doğurur. Belə ki, müəllif müflisləşməni borclunun müəyyən maliyyə vəziyyəti ki-

---

[1] Кулагин М.И. «Избранные труды». М., 1997. с. 172.

[2] Смирнова Е.В. Банкротство несостоятельности рознь? // ЭКО. 1993. № 9.

[3] Зайцева В.В. Правовые проблемы конкурсного производства в процессе банкротства банков: Дис. … канд. юрид. наук. М., 2002, с. 5.

[4] Степанов В.В. Несостоятельность (банкротство) в России, Англии, Франции, Германии. М., 1999. с. 13-14.

[5] Семеусов В.А., Пахаруков А.А. Банкротство предприятий. Внешнее управление. Иркутск, 1999. с. 21-22; Бруско Б.С. Защита прав и законных интересов кредиторов в конкурсном праве: Дис. ... канд. юрид. наук. Иркутск, 2004. с. 26; Кращенко Д.А. Банкротство субъектов предпринимательства в РФ: Проблемы правового регулирования: Дис. ... канд. юрид. наук. Волгоград, 2001. с.10.

[6] Махнева Е.А. Развитие гражданских правоотношений в процедурах банкротства: Дис. ... канд. юрид. наук. с. 119.

[7] Бруско Б.С. Защита прав и законных интересов кредиторов в конкурсном праве. Иркутск, 2004, с. 26.

mi, iflası isə iflas haqqında qanunvericilikdə nəzərdə tutulan və borcluya tətbiq edilən tədbirlərin məcmusu kimi şərh edir.[1]

Yuxarıda göstərilən müəlliflərin mövqelərinin təhlilindən çıxış edərək, qeyd etmək lazımdır ki, müflisləşmə və iflas terminləri heç də eyni mənalı anlayışlar deyil, hər birinin özünəməxsus müstəqil əhəmiyyəti var. Aparılmış təhlillər nəticəsində belə qənaətə gəlmək olar ki, yuxarıda qeyd olunan üçüncü qrup alimlərin fikirləri daha dolğun və əsaslıdır. "Müflisləşmə və iflas haqqında" AR qanunvericiliyi də bu baxımdan çıxış edərək iflası proses kimi nəzərdən keçirir ki, onun nəticəsində borclu müflis elan olunur.

Müasir hüquq ədəbiyyatında ödəmə qabiliyyətsizliyi **nisbi** və **mütləq ödəmə qabiliyyətsizliyinə** fərqləndirilir. V.F Popondopulonun fikrincə, **nisbi ödəmə qabiliyyətsizliyi** - ödəniş üçün vəsaitin müvəqqəti olaraq çatışmazlığı zamanı borclunun əmlakının dəyəri onun öhdəliklərinin həcmindən artıq olması ilə xarakterizə olunur.[2] **Mütləq ödəmə qabiliyyətsizliyi** borclunun əmlak vəziyyətinin qeyri-kafi (borclunun passivi aktivindən çoxdur) olmasıdır. Bu halda şəxs ödəniş vaxtı çatmış öhdəliklərini ödəyə bilmir. Söhbət borclunun öz borcunu ödəmək və ödəmə qabiliyyətinin bərpa edilməsi imkanının itirilməsindən gedir. V.F. Popondopulo və E.A. Vasilyev hesab edirlər ki, mütləq ödəmə qabiliyyətsizliyi ilə nisbi ödəmə qabiliyyətsizliyinin fərqləndirilməsinin zərurəti ondan ibarətdir ki, məhkəmə tərəfindən təsdiq edilən borclunun mütləq ödəmə qabiliyyətsizliyi elə

[1] Юлова Е.С. Правовое регулирование несостоятельности (банкротства) кредитных организаций. Автореф. дис. … канд. юрид. наук. М., 2004. с. 13.

[2] Попондопуло В.Ф. Понятие и субъекты несостоятельности (банкротства ) // Правоведение . 1995. №3; Коммерческое право: В 2 ч.: Учебник /Под ред. В.Ф. Попондопуло, В.Ф. Яковлевой; СПбГУ. 3-е изд., перераб. и доп. М., 2002, с. 124.

müflisləşmədir.[1]

Müflisləşmə və iflasın əlamətlərinin anlayışı ilə bağlı hüquq ədəbiyyatlarında iki yanaşma mövcuddur. Birinci yanaşmanın tərəfdarları hesab edirlər ki, müflisləşmənin əlamətləri şəxsin müflis olmuş hesab edilməsi üçün məhkəməyə imkan verən maddi və formal faktların məcmusunun zəruri və kifayət qədər olmasıdır.[2] Digər yanaşmanın müəllifləri isə hesab edirlər ki, müflisləşmənin əlamətləri dedikdə, müflis olma ehtimalına imkan verən borclunun xarici xüsusiyyətləri sistemi nəzərdə tutulur.[3]

Deyilənləri ümumiləşdirib hesab edirik ki, **müflisləşmə və iflasın əlamətləri dedikdə,** məhkəməyə müflisləşmə haqqında işin başlanmasına və nəticədə müəyyən əsasların mövcudluğu zamanı borclunun müflis olması haqqında qərarın çıxarılmasına imkan verən hüquqi faktların məcmusudur.

## 3.2. Müflisləşmə və iflasın subyektləri və iflas prosesi

Müflisləşmə və iflas haqqında işlərdə iştirak edən şəxslərin tərkibi kifayət qədər genişdir. Bunlara əsasən aiddir: borclu müəssisə; fərdi borclu; əmlak inzibatçısı; müvəqqəti əmlak inzibatçısı; müdir; təminatlı kreditor; təminatsız kreditor; kreditorlar komitəsi və s.

AR Mülki Məcəlləsinin 385-ci maddəsinə müvafiq olaraq qeyd olunmuşdur ki, öhdəliyə əsasən bir şəxs (borclu) başqa

---

[1] Гражданское и торговое право капиталистических государств: Учебник для вузов / Отв. ред. Е.А. Васильев. М., 1993, с. 441; Коммерческое право: В 2 ч.: Учебник / Под ред. В.Ф. Попондопуло, В.Ф.Яковлевой; СПбГУ. 3-е изд., перераб. и доп. М., 2002, с. 124.

[2] Ткачев В.Н. Правовое регулирование несостоятельности (банкротства) в РФ. М., 2002. с. 53; Предпринимательское (хозяйственное ) право : В 2 т.: Учебник. // Отв. ред. О.М. Олейник. М., 1999. Т.1, с.377. Семеусов В.А., Пахаруков А.А. Банкротство предприятий. Внешнее управление: Учеб. пособие. Иркутск, 1999, с. 11

[3] Телюкина М.В. Признаки и критерии несостоятельности юридического лица // Юридический мир . 1997, №11.

şəxsin (kreditorun) xeyrinə müəyyən hərəkəti etməlidir. Məsələn, pul ödəməli, əmlak verməli, iş görməli, xidmətlər göstərməli və ya müəyyən hərəkətdən çəkinməli, kreditorun isə borcludan vəzifəsinin icrasını tələb etmək hüququ vardır. Lakin, "Müflisləşmə və iflas haqqında" AR Qanununda istifadə olunan, "borclu" anlayışı yuxarıda göstərilən anlayışdan (yəni, mülki-hüquqi anlayışdan) əhəmiyyətli dərəcədə fərqlənir. Belə ki, müflisləşmə və iflasda borclu kreditorların tələblərini ödəyə bilmir və bu səbəbdən müflis elan olunması üçün iflas prosesi keçirilir.

Qanunvericiliyə görə borclu şəxs **iki kateqoriyaya** ayrılır: **borclu müəssisə** və **fərdi borclu**. **Borclu müəssisə** dedikdə – Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən və ya keçmişdə fəaliyyət göstərmiş və borcu olan hüquqi şəxsdir. **Fərdi borclu** isə öz fəaliyyətini hüquqi şəxs yaratmadan həyata keçirən və borcu olan sahibkar, fiziki şəxs başa düşülür. Onu da qeyd edək ki, xarici ölkə qanunvericiliklərində bu məsələ ilə bağlı fərqli mövqe müəyyən edilir. Məsələn, "Müflisləşmə (iflas) haqqında" Rusiya Federasiyasının Qanununda fərdi borclu qismində nəinki sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər, həmçinin bu fəaliyyəti həyata keçirməyən fiziki şəxslər də məşğul ola bilər.

"Müflisləşmə və iflas haqqında" AR Qanunu kreditorları təsnifatlaşdıraraq **təminatlı** və **təminatsız kreditorlara** bölür. Adı çəkilən Qanunun 1-ci maddəsinə əsasən **təminatlı kreditor** – girov (ipoteka) saxlayan kreditordur. Təminatlı kreditor iflas prosesinə başlanılıb-başlanılmamasından asılı olmayaraq təminat barəsində öz hüquqlarını həyata keçirə bilər. Həmçinin, təminatlı kreditor iflas prosesinə başladıqda tələbi təminatın hesabına yönəltmək hüquqlarını itirmir. Əmlak inzibatçısı təminatlı kreditorun tələblərini həmin kreditorun seçdiyi aşağıdakı üsullarla ödəyir:

- *təminat predmetinin hərrac yolu ilə (və ya başqa yolla) satılması və onun təmin etdiyi öhdəliyin ödənilməsi;*
- *təminat predmeti üzərində mülkiyyət hüququnun təminatlı kreditora verilməsi;*

❖ *təminat predmetinin təminatlı kreditorun göstərdiyi üçüncü şəxsə satılması.*

Təminatın satışından götürülən pul təminatlı kreditora tam kompensasiya ödənilməsinə kifayət etmədikdə təminatlı kreditor müflisolma zamanı təminatsız kreditor kimi çatışmayan məbləğdə tələb irəli sürə bilər.

**Təminatsız kreditor** isə təminatlı kreditor olmayan, “Müflisləşmə və iflas haqqında” AR Qanununa müvafiq surətdə tələbləri beşinci növbədə ödənilən kreditordur.

Müflisləşmə və iflasın digər subyekti **əmlak inzibatçısı** və **müvəqqəti əmlak inzibatçısıdır**. Onu da qeyd edək ki, əmlak inzibatçısının müvəqqəti əmlak inzibatçından fərqi ondan ibarətdir ki, iflas prosesinə yalnız **məhkəmənin iştirakı ilə** başlanıldığı halda müvəqqəti əmlak inzibatçısı təyin edilə bilər. “Müflisləşmə və iflas haqqında” AR Qanununun 32-ci maddəsinin 3-cü hissəsinə əsasən müvəqqəti əmlak inzibatçısının təyin edilməsinin məqsədləri təsbit olunmuşdur. Belə ki, müvəqqəti əmlak inzibatçısının təyin edilməsi aralıq tədbiri kimi aşağıdakı məqsədlərlə həyata keçirilir:

❖ *borclunun əmlakını təşkil edən aktivlərin həmin borclunun müflis elan olunmasına qədər hüquqazidd qaydada özgəninkiləşdirilməməsinin təmin edilməsi;*

❖ *borclunun vəziyyətinin ilkin maliyyə təhlilinin aparılması.*

**Əmlak inzibatçısı** isə borclunun ödəmə qabiliyyətsizliyi halında məhkəmə və kreditorlar tərəfindən vəkil edilə bilər. Əgər borclu dövlət müəssisəsi olduqda əmlak inzibatçısının məhkəmə tərəfindən təyin edilməsi bu barədə müvafiq icra hakimiyyəti orqanının rəyi nəzərə alınmaqla həyata keçirilir. Məhkəmə və ya kreditorlar tərəfindən fiziki və ya hüquqi şəxs, o cümlədən müvafiq icra hakimiyyəti orqanı tərəfindən vəkil edilən orqan habelə, rezident və ya qeyri-rezident əmlak inzibatçısı təyin edilə bilər.

“Müflisləşmə və iflas haqqında” AR Qanununun 19-cu maddəsinə əsasən əmlak inzibatçısı təyin edilmiş şəxs təyinatını qə-

bul etməzdən əvvəl onu təyin edənlər qarşısında belə təyinatda şəxsi marağının olmadığını yazılı şəkildə bəyan etməlidir. Qanunvericilikdə birbaşa qeyd olunur ki, borclunun müdiri və ya keçmiş müdiri, mülkiyyətçiləri, borcluları və ya kreditorları, o cümlədən iflas prosesinə **başlanması məqamından əvvəlki bir il ərzində** borclu müəssisənin rəhbərliyindən uzaqlaşmış şəxslər borcluya aidiyyəti olan şəxslər əmlak inzibatçısı seçilə bilməzlər. AR Mülki Məcəlləsinin 49-1.1-ci maddəsində göstərilən şəxslər borcluya aidiyyəti olan şəxslər hesab olunur:

- ✓ *hüquqi şəxsin direktorlar şurasının (müşahidə şurasının) və icra orqanının rəhbəri və üzvləri;*
- ✓ *hüquqi şəxsin struktur bölməsinin (filial, nümayəndəlik, idarə və s.) rəhbəri;*
- ✓ *hüquqi şəxsin direktorlar şurasının (müşahidə şurasının) və icra orqanının rəhbəri və üzvlərin, hüquqi şəxsin struktur bölməsinin (filial, nümayəndəlik, idarə və s.) rəhbərinin qohumları (əri (arvadı), valideynləri, o cümlədən ərinin, arvadının valideynləri, babaları və nənələri, övladları, övladlığa götürənləri (götürülənləri), qardaşları və bacıları);*
- ✓ *hüquqi şəxsin direktorlar şurasının (müşahidə şurasının) və icra orqanının rəhbəri və üzvlərin, hüquqi şəxsin struktur bölməsinin (filial, nümayəndəlik, idarə və s.) rəhbərinin və hüquqi şəxsin nizamnamə kapitalında* ***ən azı 10 faiz*** *və daha çox paya birbaşa və ya dolayı yolla malik olan hər hansı şəxslərin birbaşa və ya dolayısı ilə iştirak etdiyi hüquqi şəxslər;*
- ✓ *hüquqi şəxsin nizamnamə kapitalında* ***ən azı 20 faiz*** *payla iştirak etdiyi hüquqi şəxs;*
- ✓ *müvafiq olaraq banklara və investisiya fondlarına aidiyyəti olan şəxslər və s.*

Qanunvericilikdə əmlak inzibatçısının təyin edildikdən sonra həm kreditorlar, həm də məhkəmə qarşısında hesabatla çıxış etməsi təsbit olunmuşdur. Belə ki, əmlak inzibatçısı təyin olun-

duqdan **ən azı 14 gün** sonra hesabat hazırlayıb kreditorlara təqdim edir. Hesabatda aşağıdakılar göstərilir:

- ***borclu müəssisəyə aid halda:***
  - ✓ *borclunun sonuncu hesabat tarixinə olan mühasibat balansı;*
  - ✓ *kreditorlara tələblərini ödəmək üçün mövcud pul vəsaitinin axını barəsində məlumat;*
  - ✓ *hesabların alınma maddələri üzrə bölgüsü və borclunun etibarsız aktivləri barəsində məlumat;*
- ***istər borclu müəssisəyə, istərsə də fərdi borcluya aid halda:***
  - ✓ *iflas prosesinə başlananadək kreditorlarla aparılmış hesablaşmalar haqqında məlumat.*

"Müflisləşmə və iflas haqqında" AR Qanununun 28-ci maddəsinə əsasən təyin olunmasından **ən azı 14 gün** sonra əmlak inzibatçısı məhkəməyə öz fəaliyyəti barəsində hesabat təqdim edir. Hesabatda aşağıdakılar göstərilir:

- ✓ *əmlak inzibatçısının fəaliyyətinə dair hesabat;*
- ✓ *maliyyə hesabatları, o cümlədən balans dəyəri üzrə aktivlərin siyahısı;*
- ✓ *kreditorların tələblərinin ilkin reyestri və əmlak inzibatçısının həmin tələblərə verdiyi dəyərin pulla ifadəsi, habelə ödənilmiş tələblərin məbləğləri;*
- ✓ *əmlak inzibatçısına ödənilən haqq və xərclər barəsində məlumat;*
- ✓ *kreditorların bütün tələbləri ödənildikdən sonra qalan vəsaitdən istifadəyə dair hesabat;*
- ✓ *borclu müəssisənin müdirinin hər hansı qanuna zidd hərəkəti və ya bağladıqları əqdlər barəsində müfəssəl məlumat;*
- ✓ *fərdi borcluya dair müəyyən edilməli şərtlər, habelə iflas prosesinin xitamınadək keçməli olan müddət haqqında tövsiyələr;*
- ✓ *əmlak inzibatçısının qənaətinə görə məhkəməyə lazım ola bilən digər məlumat.*

Bundan başqa əmlak inzibatçısının hesabatında nəzərdə tutulmuş tövsiyələr aşağıdakılardan ibarət ola bilər:

- *borclu öz gəlirinin bir hissəsini əmlak inzibatçısının hesabına köçürməlidir;*
- *borclu müəyyən öhdəliklər (alimentlər və s.) üzrə ödənişi tam həyata keçirməlidir.*

Əmlak inzibatçısı sonrakı hesabatlarını məhkəməyə **3 aylıq fasilə ilə** və ya məhkəmənin müəyyən etdiyi başqa qaydada təqdim edir.

İflas prosesinə məhkəmənin iştirakı ilə başlanıldığı hallarda borclunun əmlakını təşkil edən aktivlərin həmin borclunun müflis elan olunmasına qədər hüquqazidd qaydada özgəninkiləşdirilməməsinin təmin edilməsi və borclunun vəziyyətinin ilkin maliyyə təhlilinin aparılması məqsədi ilə məhkəmə tərəfindən borclunun müflis elan olunması məqamınadək istənilən vaxt aralıq tədbir kimi **müvəqqəti əmlak inzibatçısı** təyin edilir. Müvəqqəti əmlak inzibatçısı təyin edildikdən sonra **14 gün ərzində** borclunun maliyyə vəziyyəti barədə məhkəməyə hesabat təqdim etməlidir.

Müvəqqəti əmlak inzibatçısının təyinatına aşağıdakı halların hər birində xitam verilir:

- *əmlak inzibatçısı təyin edildikdə;*
- *borclu və ya kreditorun hər hansı birinin müvafiq müraciəti məhkəmə tərəfindən təmin edildikdə;*
- *müvəqqəti əmlak inzibatçısı istefa verdikdə, vəzifədən kənarlaşdırıldıqda və ya dəyişdirildikdə.*

Qanunvericiliyə görə borclunun təsis sənədlərinə müvafiq olaraq onun təsərrüfat fəaliyyəti barəsində məcburi qüvvəyə malik olan qərarlar qəbul etmək səlahiyyəti verilmiş şəxs, o cümlədən, prezident, direktor, onların müavinləri və baş mühasib, habelə müntəzəm sərəncamlar vermək və ya hər hansı başqa yolla borclunun fəaliyyətini faktiki idarə edən şəxs – **müdir** adlanır.

"Müflisləşmə və iflas haqqında" AR Qanununun 57-ci mad-

dəsinə əsasən, müdir borclunun təsərrüfat fəaliyyətinə aid bütün mühüm faktlar barəsində məlumatlara malik olmalı və kreditorları lüzumsuz itkilərdən qorumaq məqsədi ilə həmin faktlar əsasında hərəkət etməlidir.

Əmlak inzibatçısı məhkəməyə müdir tərəfindən öz vəzifələrinin pozulması nəticəsində kreditorların məruz qaldığı əlavə itkilərin ödənilməsi üçün onların dəyərinə bərabər əmlakın müdir tərəfindən şəxsən borclunun əmlakı tərkibinə daxil edilməsi (ödənilməsi) barədə müraciət edə bilər. Məhkəmə qaydasında vəziyyətə uyğun hər hansı qərar çıxarıla bilər.

Kreditor etibarnamə ilə öz nümayəndəsini hər hansı kreditorlar yığıncağında öz adından iştirak etməyə və səs verməyə vəkil edə bilər. Kreditorlar yığıncağında eyni tələblər üzrə kreditorlar qrupu formalaşdırıldıqda, hər bir qrupdan, üzv iştirak edir. “Müflisləşmə və iflas haqqında” AR Qanununun 48-ci maddəsinə əsasən bütün məlum olan kreditorlara **azı 14 gün qabaqcadan** yazılı bildiriş göndərmək şərti ilə **kreditorlar yığıncağı** qanuni şəkildə aşağıdakılar tərəfindən çağırıla bilər:

- ✓ *əmlak inzibatçısı və ya müvəqqəti əmlak inzibatçısı;*
- ✓ *borcun məbləğinin üçdə birindən az olmayan hissəsini təmsil edən kreditorlar;*
- ✓ *məhkəmə;*
- ✓ *məhkəmənin müəyyən etdiyi başqa qaydada.*

Onu da qeyd edək ki, kreditorların yığıncağında bütün kreditorların tələblərinin ümumi məbləğinin **azı 50%-ni** təşkil edən kreditorlar iştirak etdikdə həmin yığıncaq səlahiyyətli sayılır.

Əgər yığıncaqda iştirak edən və ödəmə qabiliyyəti olmayan borclunun yığıncaq iştirakçılarına olan borcunun məbləğinin **75 faizini** və ya daha çox hissəsini təmsil edən bir və ya bir neçə kreditor hər hansı tədbirlərin görülməsi əleyhinə (əmlak inzibatçısına etimadsızlıq göstərilməsi istisna olmaqla) səs verirsə, onların qərarı kreditorların say çoxluğu tərəfindən müdafiə edilib-edilməməsindən asılı olmayaraq hüquqi cəhətdən etibarlı sayılır.

Kreditorlar yığıncağının məhkəmə tərəfindən təsdiq edilməli olan bütün qərarları yalnız məhkəmə tərəfindən təsdiq edildikdən sonra hüquqi qüvvəyə minir.

Əmlak inzibatçısının fəaliyyətinin həyata keçirilməsində ona yardım etmək, həm də bu fəaliyyətə nəzarət etmək məqsədi ilə kreditorların yığıncağı istənilən vaxt **kreditorlar komitəsini** seçə bilər. Kreditorlar komitəsi **azı 3 və çoxu 5 üzvdən** ibarət tərkibdə seçilə bilər. Lakin qanunvericilik belə bir şərti də müəyyən edir ki, borcun ümumi məbləğinin çox hissəsini təmsil edən kreditorlar şəxsən və ya öz nümayəndələri vasitəsi ilə həmin yığıncaqda iştirak etsinlər. Kreditorlar komitəsinin iclasları aşağıdakı hallarda səlahiyyətli sayılır:

- ✓ *iclasın keçirilməsi vaxtı, günü və yeri haqqında bildiriş komitəsinin üzvlərinə həmin iclasların keçirilməsinə* ***ən azı 14 gün*** *qalmış göndərilsin;*
- ✓ *həmin komitənin ən azı iki üzvü iclasda iştirak etsin.*

Kreditorlar komitəsinin əmlak inzibatçısına tövsiyələr vermək hüququ vardır. Əmlak inzibatçısı bu tövsiyələri bütün kreditorların mənafelərinə uyğun gəldikdə nəzərə alır.

"Müflisləşmə və iflas haqqında" AR Qanununa görə iflas prosesi həm **məhkəmə**, həm də **məhkəmədən kənar** formada keçirilə bilər. "Müflisləşmə və iflas haqqında" AR Qanununa görə borclunun müflis hesab edilməsi haqqında ərizə ilə məhkəməyə müraciət etmək hüququna borclu özü, kreditorlar və qanunla müəyyən edilmiş hallarda isə dövlət orqanları malikdir.

AR Mülki Prosessual Məcəlləyə və "Müflisləşmə və iflas haqqında" AR Qanununa müvafiq olaraq, rəsmiləşdirilən borclunun iflas haqqında ərizəsi məhkəmədə iflas haqqında işin qaldırılması üçün əsas sayılır. İflas haqqında işlərə fərdi borclunun yaşadığı və ya borclu müəssisənin olduğu yer üzrə məhkəmələr tərəfindən baxılır. AR Mülki Məcəlləsinin 27-ci maddəsinin 1-ci hissəsinə müvafiq olaraq, "fiziki şəxsin adətən yaşadığı yer onun yaşayış yeri sayılır". AR Mülki Məcəlləsinin 51-ci maddəsinə

əsasən isə “hüquqi şəxsin daimi fəaliyyət göstərən orqanın yerləşdiyi yer hüquqi şəxsin olduğu yer sayılır”.[1]

“Müflisləşmə və iflas haqqında” AR Qanununun 2-ci maddəsinin 5-ci hissəsinə əsasən ərizənin məhkəməyə təqdim edilməsi tarixi iflas prosesinə məhkəmə vasitəsilə başlanmasının **məqamıdır**.

Borclunun ərizəsinin formasına, məzmununa olan tələblər “Müflisləşmə və iflas haqqında” AR Qanununun 4-cü maddəsində dəqiqliklə təsbit olunmuşdur. Belə ki, borclunun iflas haqqında məhkəməyə verilən ərizədə aşağıdakılar göstərilməlidir:

- ✓ *ərizənin verildiyi məhkəmənin adı;*
- ✓ *borclunun (fərdi borclunun) və ya onun nümayəndəsinin adı, atasının adı, soyadı və ünvanı;*
- ✓ *bütün məlum kreditorların adları, atalarının adları, soyadları, poçt ünvanı və onların borcluya qarşı irəli sürdüyü tələblərin məbləğləri;*
- ✓ *borclu məhkəməyə iflas haqqında ərizə verdikdən sonra bir il ərzində onun vaxtı çatacaq borc öhdəliklərinə dair məlumat;*
- ✓ *borclunun ödəmə qabiliyyətsizliyinin özü tərəfindən qanuna müvafiq surətdə təsdiq edilməsi və ya sübut olunması;*
- ✓ *borclunun ərizəsinə qoşulan sənədlərin siyahısı.*

“Müflisləşmə və iflas haqqında” AR Qanununun 5-ci maddəsinə əsasən borclunun iflas haqqında ərizəsinə aşağıdakı sənədlər əlavə olunmalıdır:

- ✓ *qanunvericiliklə müəyyən edilmiş məhkəmə rüsumlarının ödənilməsini təsdiq edən sənəd;*
- ✓ *ödənilməli və alınmalı məbləğlər müfəssəl göstərilməklə, borclunun kreditorlarının və debitorlarının siyahısı;*
- ✓ *tələblərin müəyyənləşdirilmiş məbləğini göstərən sənəd.*

---

[1] Azərbaycan Respublikasının Qanunvericilik Toplusu 30 aprel 2000-ci il, № 4, maddə 250.

- ✓ *iflas prosesinə başlanılması üçün məhkəməyə müraciət etmək barəsində borclu müəssisənin səlahiyyətli orqanının qərarının surəti;*
- ✓ *borclu dövlət müəssisəsidirsə, iflas prosesinə başlanması üçün məhkəməyə müraciət etmək barəsində borclunun səlahiyyətli orqanının qərarının surəti;*
- ✓ *sonuncu hesabat tarixinə olan maliyyə hesabatları.*

Qeyd edək ki, borclu müəssisə və fərdi borclu kimi kreditorların da iflas prosesinə başlaması üçün məhkəməyə müraciət etməsi "Müflisləşmə və iflas haqqında" AR Qanununda təsbit olunub. Kreditorlar və ya onların nümayəndələri tərəfindən iflas prosesinə başlanması haqqında verilmiş ərizədə göstərilən məlumatlar "Müflisləşmə və iflas haqqında" AR Qanununun 6-cı maddəsinin 2-ci hissəsində, iflas prosesinə başlanması haqqında kreditorun və yaxud onun nümayəndəsinin ərizəsinə əlavə ediləcək sənədlərin siyahısı "Müflisləşmə və iflas haqqında" AR Qanununun 7-ci maddəsində öz əksini tapmışdır.

Belə ki, kreditorlar məhkəməyə verilən iflas haqqında ərizədə aşağıdakı məlumatları göstərməlidirlər:

- ✓ *ərizənin (iddia ərizəsinin) verildiyi məhkəmənin adı;*
- ✓ *borclunun adı (adı, atasının adı və soyadı) və ünvanı;*
- ✓ *ərizəçinin (kreditorun) adı (adı, atasının adı və soyadı) və ünvanı;*
- ✓ *ərizəçiyə məlum olan digər kreditorların adları (adları, atalarının adları və soyadları) və ünvanları;*
- ✓ *ərizəçinin borcluya qarşı irəli sürdüyü tələbin əsasları və məbləği;*
- ✓ *borclunun ödəmə qabiliyyətsizliyinin təsdiqi;*
- ✓ *borclunun aktivləri barəsində ərizəçidə olan məlumat;*
- ✓ *iflas haqqında ərizəyə qoşulan sənədlərin siyahısı.*

"Müflisləşmə və iflas haqqında" AR Qanununun 7-ci maddəsinə müvafiq olaraq, kreditorun iflas haqqında iddia ərizəsinə aşağıdakı sənədlər əlavə edilir:

- *məhkəmə rüsumunun ödənilməsini təsdiq edən sənəd;*
- *iflas haqqında iddia ərizəsinin və ərizəyə əlavə edilmiş bütün sənədlərin surətlərinin borcluya verildiyini təsdiq edən sənəd.*[1]

Eyni zamanda, Qanun kreditorun da iflas prosesinə başlanmasını təsbit edir. Belə ki, Qanunun 6-cı maddəsinə əsasən, kreditorun iflas haqqında iddia ərizəsi Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin 149-cu maddəsində müəyyən edilmiş formada tərtib edilməli və imzalanmalıdır. Kreditorun nümayəndəsi tərəfindən verilən ərizəsinə etibarnamə və ya həmin nümayəndənin səlahiyyətini, yaxud qulluq mövqeyini təsdiq edən başqa sənəd əlavə edilməlidir.

İflas haqqında iş üzrə ərizəyə məhkəmə daxil olduğu gündən **1 (bir) ay müddətində** baxır və həmin işin həllinə dair müvafiq qərar çıxarır. Çıxarılan qərardan şikayət verildiyi halda həmin şikayətə sonrakı instansiya məhkəmələrində ərizənin daxil olduğu gündən **1 (bir) ay müddətində** baxılır və həmin işin həllinə dair müvafiq qərar çıxarılır. İşdə iştirak edən şəxslər məhkəmə iclası barədə həmin iclasa **ən azı 5 (beş) iş günü** qalmış xəbərdar edilməlidir. Ərizəçi eyni zamanda məhkəmə baxışının tarixinə **5 (beş) iş günü** qalanadək həmin məhkəmə baxışı haqqında müvafiq icra hakimiyyəti orqanının rəsmi internet səhifəsində və rəsmi dövri mətbu nəşrdə elan dərc etdirməlidir.

İflas haqqında işə məhkəmə iclasında baxıldıqdan sonra məhkəmə qanunvericiliklə müəyyən edilmiş qaydada aşağıdakılar barədə müvafiq qərar çıxardır:

- ✓ *borclunun müflis elan olunması və əmlak inzibatçısının təyin edilməsi barədə;*
- ✓ *müvəqqəti əmlak inzibatçısının təyin edilməsi və ya təyinatının uzadılması barədə;*
- ✓ *borclunun müflis elan etməkdən imtina barədə.*

---

[1] Azərbaycan Respublikasının qanunvericilik toplusu. 1997-ci il, № 6, mad. 460.

Məhkəmə borclu barəsində iflas prosesinə aşağıdakı hallarda xitam verir:

- ✓ *əmlak inzibatçısının son hesabatı məhkəməyə təqdim edildikdə və əmlak inzibatçısını dinlədikdən sonra məhkəmə heç bir edilməli hərəkətin qalmadığına əmin olduqda;*
- ✓ *bütün kreditorların tələbləri tamamilə ödənildikdə;*
- ✓ *əmlak inzibatçısı kreditorlar ilə güzəştli sazişin tamamilə yerinə yetirildiyi və ya sağlamlaşdırmanın başa çatdırıldığı barədə məhkəməyə bildiriş göndərildikdə;*
- ✓ *məhkəmənin buna müvafiq saydığı başqa hallar olduqda.*

Qeyd etdiyimiz kimi iflas prosesinə məhkəmənin iştirakı olmadan da başlanıla bilər. Belə ki, "Müflisləşmə və iflas haqqında" AR Qanununun 14-cü maddəsinə müvafiq olaraq məhkəmənin iştirakı olmadan iflas prosesinə yalnız borclu müəssisə (borclu dövlət müəssisəsi olduğu halda həmçinin müvafiq icra hakimiyyəti orqanı) tərəfindən qəbul edilmiş müvafiq qərara əsasən başlanıla bilər. Bu qərar qəbul olunduğu zaman ehtimal olunan əmlak inzibatçısı da təyin edilir.

Borclu müəssisə kreditorların yığıncağı barədə kreditorlara bildiriş göndərir. Kreditorların yığıncağı borclu müəssisə tərəfindən iflas prosesinə başlamaq qərarının qəbul edildiyi gündən ən geci **21 günü ərzində** keçirilməlidir. Bildiriş yığıncağın keçirilməsi tarixinə **ən geci 14 gün** qalmış poçt vasitəsilə (sifarişli məktubla) bütün məlum kreditorlara göndərilməli, həmçinin, Azərbaycan Respublikasında rəsmi dövri mətbu nəşrində iki dəfə dərc olunmalı, həm də ikinci dəfə yığıncağın keçirilməsi tarixinə **ən geci 7 gün** qalmış dərc olunmalıdır.

Məhkəmənin iştirakı olmadan borclu müəssisə tərəfindən iflas prosesi başlanarkən kreditorların ilkin yığıncağında borclunun müdiri "Müflisləşmə və iflas haqqında" AR Qanununun 16-cı maddəsində təsbit olunan məlumatları təqdim etməlidir. Bu məlumatlara aiddir:

- ❖ *bütün məlum kreditorların adı (adı, atasının adı, soyadı) və ünvanı, onlara məxsus hər hansı təminat barəsində məlumat;*
- ❖ *borclunun əmlakı və passivləri haqqında məlumat;*
- ❖ *borclunun maliyyə vəziyyətinin aydınlaşdırılması üçün kreditorlara lazım gələ biləcək əlavə məlumat.*

Kreditorların ilkin yığıncağında kreditorların iflas prosesinə başlamaq barəsində borclunun qərarını təsdiq etməli və borclunun müflis elan olunmasına dair səsvermə keçirməli, ehtimal olunan əmlak inzibatçısının təyinatını təsdiq etməli və ya yeni əmlak inzibatçısının seçməlidirlər.

Borclunun müflis elan olunması haqqında məhkəmə qərarının qanuni qüvvəyə minməsi tarixi və ya qanunun tələblərinə müvafiq olaraq kreditorların ilkin yığıncağında borclu müəssisənin müflis elan olunması barədə müvafiq qərarın qəbul edilməsi tarixi borclunun müflis olması məqamıdır.

Borclunun müflis olunması məqamından etibarən məhkəmə araşdırmalarına və borcludan alınmalı məbləğlərin tutulması üçün digər hərəkətlərə son qoyulur və borcluya qarşı tələblər yalnız "Müflisləşmə və iflas haqqında" AR Qanununda nəzərdə tutulmuş iflas prosesi çərçivəsində irəli sürülə bilər. Bundan başqa qanunvericiliyə zidd olmayan hallarda bu məqamdan əvvəl borclunun əmlakına dair çıxarılmış hər hansı məhkəmə qərarlarının icrası dayandırılır, əmlak inzibatçısı tərəfindən verilən səlahiyyətlər istisna olmaqla borclu müəssisənin müdiri bütün digər səlahiyyətlərini itirir və borclu müəssisə öz əmlakı barəsində hər hansı sərəncam vermək və hərəkətlər etmək səlahiyyətini itirir.

"Müflisləşmə və iflas haqqında" AR Qanununun 35-ci maddəsinə əsasən iflas haqqında iş üzrə icraatın qurtarması məqsədilə borclu ona ödənişlər üçün möhlət vermək, ödənişləri hissələrə bölmək və borcları güzəşt etmək imkanı verən **barışıq sazişi** bağlamaq təklifi ilə kreditorlara müraciət edə bilər.

Barışıq sazişinin bağlanması formasını qanunvericilik məh-

dudlaşdırmır, habelə onun məzmununa aşağıda göstərilən müddəaların daxil edilməsini nəzərdə tutur:

- *borclu müəssisənin strukturunun və ya borclunun fəaliyyətinin yenidən təşkili üçün əsas götürülən müddəalar;*
- *borclunun əmlakının hamısının və ya hər hansı hissəsinin, o cümlədən səhmlərinin satılması və ya verilməsi haqqında müddəalar;*
- *hər hansı təşkilati-hüquqi formalı yeni müəssisənin yaradılması haqqında müddəalar;*
- *təminatsız kreditorların tələblərinin hamısının və ya bir hissəsinin birdəfəlik və ya hissə-hissə ödənilməsini nəzərdə tutan müddəalar.*

Sazişlə əlaqədar kreditorların yığıncağı kreditorlar ilə sazişin layihəsi mühasibat balansı ilə birlikdə ilkin maliyyə hesabatı və kreditorlara çatası məbləğlər göstərilməklə bütün kreditorların siyahısını, kreditorların yığıncağının keçirilməsi vaxtı, tarixi və yeri barəsində bildirişin kreditorlara göndərildiyi tarixdən etibarən **28 gündən gec olmayaraq**, lakin həmin tarixdən **14 gündən tez olmayaraq** keçirilməlidir.

Qanunvericilik iflas prosesi zamanı borc tələblərinin irəli sürülməsinin qaydası və şərtlərini müəyyən edir. Belə ki, kreditorlar borcluya öz tələblərini borclunun müflis olması barədə bildirişin dərc edildiyi tarixdən **ən geci 60 gün keçənədək** yazılı şəkildə verə bilərlər. Əmlak inzibatçısı həmin tələblərə yalnız o halda baxır ki, bunlara aşağıdakı məlumatlar daxil edilmiş olsun:

- ✓ *kreditorun adı (adı, atasının adı, soyadı) və ünvanı;*
- ✓ *iflas prosesinə başlanılması məqamınadək olan tələbin ümumi məbləği;*
- ✓ *tələbin məbləğinə ödənilməmiş faizlərin daxil olması;*
- ✓ *tələbin məbləğinə hər hansı cərimələr və ya vergilər daxil edilməsi;*
- ✓ *borclunun necə və nə vaxt borca düşdüyü barədə məlumat;*

- ✓ *hər hansı mövcud təminat barəsində məlumat, bu cür təminatın verilməsi tarixi və təminat zamanı kreditorun nəzərdə tutduğu məbləğ;*
- ✓ *tələbi imzalamış şəxsin soyadı, ünvanı və səlahiyyəti (əgər həmin şəxs kreditorun özü deyildirsə);*
- ✓ *tələbin hüquqi etibarlığını sübut edən sənədlər (əgər bu cür sənədlər varsa).*

Onu da qeyd edək ki, kreditorların verdiyi tələbə əmlak inzibatçısı həmin tələbi aldığı vaxtdan **ən azı 10 gün** müddətində baxır və kreditorların tələblərinin reyestrini tərtib edir. Əmlak inzibatçısı kreditorların irəli sürdüyü borc tələbini tamamilə və ya qismən qəbul və ya rədd edə bilər. Bu qərarlardan hər hansı birini qəbul etdikdə özünün əsaslandığı səbəblərin yazılı izahını hazırlayıb dərhal poçtla kreditora göndərməlidir. Kreditor öz tələbi barəsində əmlak inzibatçısının qərarı ilə razı olmadıqda həmin qərarın ləğvi və ya dəyişdirilməsi barədə məhkəməyə müraciət edərsə, onda əmlak inzibatçısının göndərilmiş izahını aldığı gündən **21 gün müddətində** məhkəməyə təqdim edilməlidir.

"Müflisləşmə və iflas haqqında" AR Qanununun 52-ci maddəsinə görə kreditorların irəli sürdüyü borc tələbləri əmlak inzibatçısı tərəfindən hər növbənin kreditorlarının tələbləri yalnız özündən əvvəlki növbənin kreditorlarının tələbləri tamamilə ödənildikdən sonra ödənilməlidir.

Borclunun əmlakını təşkil edən aktivlər aşağıdakı **növbəlik** qaydasında bölünməlidir:

- ➢ ***birinci növbədə*** *iflas prosesinə çəkilən bütün məsrəflər və xərclər (o cümlədən müflisolmanın kütləvi informasiya vasitələrində elan edilməsi xərcləri, məhkəmə xərcləri, əmlak inzibatçısının və müvəqqəti əmlak inzibatçısının haqqı və xərcləri, habelə müflisolma məqamından sonra əmlak inzibatçısının qəbul etdiyi və ya davam etdirdiyi öhdəliklərdən irəli gələn tələblər) ödənilir;*
- ➢ ***ikinci növbədə*** *həyata və ya sağlamlığa vurulmuş zərərin ödənilməsi haqqında tələblərin, habelə alimentlərin tutulması barəsində tələbləri ödənilir;*

- ***üçüncü növbədə*** *əmək müqaviləsi ilə işləyən şəxslərə işdənçıxma müavinətlərinin və əmək haqqının ödənilməsi üzrə və müəlliflik müqaviləsinə görə haqların ödənilməsi barədə tələblər ödənilir, həm də bu tələblər borclunun müflisolma məqamından əvvəlki 6 ayadək müddətlə məhdudlaşdırılır;*
- ***dördüncü növbədə*** *aşağıdakılar ödənilir:*
  - ✓ *dövlət büdcəsinə, məcburi dövlət sosial sığorta haqları və işsizlikdən sığorta haqları üzrə büdcədənkənar dövlət fonduna, icbari tibbi sığorta haqları üzrə icbari tibbi sığorta fonduna və bələdiyyələrin büdcələrinə ödənişlər. Bu tələblər borclunun müflis elan olunması tarixindən əvvəlki bir il ərzində yaranmış öhdəlikləri əhatə edir;*
  - ✓ *kredit təşkilatlarının, o cümlədən qeyri-rezidentlərin "Müflisləşmə və iflas haqqında" AR Qanununun qüvvəyə mindiyi tarixədək ödənilməmiş təminatsız borcları və onların faizləri barəsində tələbləri;*
- ***beşinci növbədə*** *təminatsız kreditorların tələbləri ödənilir;*
- ***altıncı növbədə****, borclu müəssisənin mülkiyyətçilərinin tələbləri ödənilir.*

Sahibkarlıq fəaliyyətinin subyektləri kontragentlərini aldatmaq və ya onların əmlakının mənimsənilməsi yaxud da pul öhdəliklərinin yerinə yetirməkdən yayınmaq üçün bu institutdan istifadə edə bilərlər. Buna əsasən də Azərbaycan Respublikasının Cinayət Məcəlləsi müflisləşmə zamanı qanunsuz hərəkətlərə, qəsdən və saxta müflisləşməyə görə cinayət məsuliyyətini nəzərdə tutur.

## 3.3. Sağlamlaşdırmanın anlayışı və sağlamlaşdırma prosesi

"Müflisləşmə və iflas haqında" AR Qanununun 1-ci maddəsinə əsasən **sağlamlaşdırma** – borclunun ləğv edilməsinin qarşısını almaq məqsədilə onun mülkiyyətçisi, kreditorlar və digər

hüquqi və fiziki şəxslər tərəfindən maliyyə yardımı göstərilməsi yolu ilə borclunun ödəmə qabiliyyətinin bərpası üsuludur. Verilən anlayışdan görünür ki, sağlamlaşdırma ifadəsi özü-özlüyündə maliyyə yardımının göstərilməsini ifadə edir. Digər tərəfdən isə "sağlamlaşdırma" ifadəsi ilk baxışdan tibbi terminologiya kimi anlaşılır. Hətta hüquq ədəbiyyatında qeyd olunur ki, "hüquqi şəxs "xəstələnmiş" vəziyyətdədir və onu bu vəziyyətdən sağlamlaşdırıcı və reabilitasiya tədbirləri sistemi nəticəsində çıxarmağa zərurət var".[1] Lakin bu halda "Müflisləşmə (iflas) haqqında" Rusiya Federasiyasının Qanununa nəzər yetirsək görərik ki, qanunverici "maliyyə sağlamlaşdırılması" terminologiyasından istifadə edir. Rusiya Federasiyasının "Müflisləşmə (iflas) haqqında" AR Qanununun 2-ci maddəsinə əsasən maliyyə sağlamlaşdırması – borclunun ödəmə qabiliyyətinin bərpa etmək və borcun qaytarılması cədvəlinə uyğun olaraq borcun qaytarılması məqsədi ilə iflasa dair borcluya tətbiq olunan prosesdir. M.B. Telyukina, V.N. Tkaçyov və V.İ. Tarasov qeyd edirlər ki, "mahiyyətinə görə maliyyə sağlamlaşdırılması üçüncü şəxslərin, yəni əmlak inzibatçılarının müdaxiləsi olmadan borclunun müəyyən müddət ərzində kreditorların tələblərini müstəqil ödəmək imkanına malik olan borcluya tətbiq edilən passiv sağlamlaşdırma prosesidir.[2] Öz növbəsində S.V.Sarbaş isə qeyd edir ki, maliyyə sağlamlaşdırılması borclunun ödəmə qabiliyyətinin bərpasına yönələn reabilitasiya prosesləri kompleksidir".[3]

---

[1] Фролов И.В. Управление процедурами банкротства: теория и юридическая практика: Учеб. пособие. Новосибирск, 2013. с. 208.

[2] Телюкина М.В., Ткачев В.Н., Тарасов В.И. Финансовое оздоровление как пассивная оздоровительная процедура // Адвокат. 2003, №12 (СПС «КонсультантПлюс».

[3] Несостоятельность (банкротство): Научно-практический комментарий новелл законодательства и практики его применения / В.В.Витрянский, В.В. Бациев, А.В. Егоров и др.; под ред. В.В. Витрянского. М.: Статут, 2010. с. 142−143.

Beləliklə, yuxarıda göstərilənlərdən belə qənaətə gəlmək olar ki, sağlamlaşdırma mahiyyət və məzmun etibarı ilə özündə borclunun ödəmə qabiliyyətinin bərpa edilməsi məqsədi ilə maliyyə yardımının göstərilməsini ehtiva edir.

Sağlamlaşdırma bir **prosesdir**. Sağlamlaşdırma prosesinin leqal anlayışı təsbit olunmasa da "Müflisləşmə və iflas haqqında" AR Qanununun 40-cı maddəsinə müvafiq olaraq sağlamlaşdırma prosesi elə tədbirlərdən ibarətdir ki, onun nəticəsində borclunun bütün öhdəlikləri yerinə yetirilir. Ehtimal olunan hər hansı sağlamlaşdırmanı məhkəmə təsdiq etməlidir. Borclu və ya kreditor (kreditorlar) sağlamlaşdırma məsələsinə baxılması məqsədi ilə iflas prosesinin dayandırılması barədə istənilən vaxt məhkəməyə müraciət edə bilər. Məhkəmə **iki həftə müddətində** vəsatətə baxır və onun təmin edilməsi, yaxud rədd edilməsi barədə qərar qəbul edir.

Ümumiyyətlə, hüquq elmində sağlamlaşdırma reabilitasiyanın bir növü kimi nəzərdən keçirilir. Reabilitasiya latın sözü "*Reabilitatio*" olub, mənası bərpa etmək deməkdir. Müfləsləşmə və iflas sahəsində apardığı tədqiqatları ilə tanınan S.A.Karelinanın fikrincə, "bu proses məhkəmənin və kreditorların nəzarəti" altında bərpaedici tədbirlərin keçirilməsi məqsədi ilə həyata keçirilir...".[1] Reabilitasiya anlayışı ilə yanaşı maliyyə sağlamlaşdırılması terminologiyasından istifadə olunur. Belə ki, V.Q. Borodin hesab edir ki, maliyyə sağlamlaşdırılması kreditorlara hüquqi təminatlar sistemini təqdim edilməklə borclu müəssisənin maliyyə böhranının aradan qaldırılmasına yönələn reabilitasiya prosedurlarının növlərindən biridir.[2] Hətta hüquq ədəbiyyatında qeyd olunur ki, borcluya münasibətdə onun müflisləşməsinə dair

---

[1] Карелина С.А. Правовое регулирование несостоятельности (банкротства): Учебно-практич. пособие. М., 2006. с. 142.

[2] Бородкин В.Г. Введение финансового оздоровления и столкновение конкурирующих интересов // Право и экономика. 2014. № 11. с. 2-26; Несостоятельность (банкротство): Научно-практический комментарий новелл законодательства и практики его применения / Под ред. В.В. Витрянского. М.: Статут, 2010 (автор главы − С.В. Сарбаш). с. 142.

iş qaldırılmasından sonra belə prosedur birbaşa kreditorların və arbitraj məhkəməsinin nəzarəti altında həyata keçirilir.[1]

Borclunun sağlamlaşdırılması **sağlamlaşdırma planına** uyğun olaraq həyata keçirilir. "Müflisləşmə və iflas haqqında" AR Qanununun 1-ci maddəsinə müvafiq olaraq **sağlamlaşdırma planı** – borclunun ödəniş qabiliyyətinin bərpası və iş yerlərinin saxlanması məqsədilə kreditorun (kreditorların) tələblərinin ödənilməsi cədvəli, həmçinin əldə olunan nəticələr, istifadə olunan resurslar və mümkün risklər göstərilməklə sağlamlaşdırma prosesinin tətbiqi zamanı borclunun sağlamlaşdırılmasına yönələn və borclu ilə kreditor (kreditorlar) arasında qarşılıqlı razılıq əsasında həyata keçirilən tədbirlər kompleksini özündə əks etdirən sənəddir.

Borclu və kreditorlar arasında sağlamlaşdırma haqqında qərar qəbul edildiyi gündən **2 (iki) ay müddətində** borclu sağlamlaşdırma planını tərtib etməlidir. Sağlamlaşdırma planının məzmunu Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən müəyyən edilir. Belə ki, borclunun sağlamlaşdırılması planının məzmunu Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 26 sentyabr tarixli 416 nömrəli Qərarı ilə təsdiq edilmişdir.

Borclunun sağlamlaşdırılması planının məzmununda aşağıdakılar göstərilir:

- ✓ *borclunun sağlamlaşdırılmasında iştirak edən kreditorun (kreditorların) tələblərinin ödənilməsi üçün tələb olunan pul vəsaitlərinin məbləğləri, bu tələblərin icrası qaydası və müddəti;*
- ✓ *borclunun sağlamlaşdırılması planının icrası və icrasına nəzarət ilə bağlı tədbirlər;*
- ✓ *borclunun sağlamlaşdırılması planının xitamı üçün əsaslar və onun nəticələri.*

---

[1] Карелина С.А. Правовое регулирование несостоятельности (банкротства): Учебно-практич. пособие. М., 2007. с.142; Карелина С.А. Принципы правового регулирования отношений, возникающих в связи с несостоятельностью (банкротством) должника // Предпринимательское право. 2008. № 2.

Borclunun tərtib etdiyi sağlamlaşdırma planı kreditorların yığıncağında qanunvericiliklə müəyyən edilmiş qaydada qəbul edilir və məhkəmə tərəfindən təsdiq edilir. Məhkəmə borclu müəssisə barəsində sağlamlaşdırma tədbirlərinə baxaraq bu prosesdə maraqlı hüquqi və fiziki şəxslərin iştirakı üçün açıq müsabiqə elan edə bilər. Bir ay ərzində müsabiqədə iştirak etmək istəyən hüquqi və fiziki şəxslər olmadıqda və ya sağlamlaşdırma barəsində onların şərtləri ilə borclu razılaşmadıqda həmin borclunun iflası haqqında iş ümumi qaydada davam etdirilir.

Həmçinin məhkəmə sağlamlaşdırma planının mümkün və ya məqsədəuyğun olduğunu müəyyənləşdirmək üçün müstəqil ekspertlər cəlb edə bilər. Ekspertlərin fəaliyyəti ilə bağlı xərclər sağlamlaşdırma barədə məhkəməyə ərizə verənin (borclunun və ya kreditorun (kreditorların)) üzərinə qoyulur. Məhkəmə tərəfindən sağlamlaşdırma imkanına baxılan dövrdə ödəmə qabiliyyəti olmayan borclunun işlərinin idarə olunması üçün **müvəqqəti əmlak inzibatçısı** təyin edilir.

"Müflisləşmə və iflas haqqında" AR Qanununun 41-ci maddəsinin 6-cı hissəsinə görə sağlamlaşdırmaya başlanılması ilə əlaqədar məhkəmənin müvafiq qərarında aşağıdakılar nəzərdə tutulmalıdır:

- ❖ *sağlamlaşdırma müddəti 24 aydan çox ola bilməz;*
- ❖ *bütün kreditorların tələblərinin ümumi məbləğinin azı üçdə bir hissəsi həmin qərarın qəbul edildiyi tarixdən 12 ay ərzində ödənilməlidir;*
- ❖ *müvəqqəti əmlak inzibatçısı həmin qərarda müəyyən edilən qaydaya uyğun olaraq sağlamlaşdırmaya nəzarət edir.*

Deyilənlərdən belə bir nəticəyə gəlmək olar ki, qanunverici sağlamlaşdırma prosesinin maksimal müddətini 24 ay müəyyən etmişdir. Analoji mövqedə Rusiya qanunvericiliyi də durur. Lakin hüquq ədəbiyyatında sağlamlaşdırma prosesinin müddəti ilə bağlı məsələ günü gündən aktuallaşır və bu müddətin iki ildən artıq müddətə artırılmasına dair fikirlər daha geniş yer tutur. Belə ki, İ.N. Uman, L.T. Gilyarovskaya və A.A. Vexoreva maliyyə

sağlamlaşdırmasının müddətinin iki ildən artıq müddətə uzadılmasını təklif edərək hesab edirlər ki, əksər hallarda maliyyə sağlamlaşdırması geniş miqyaslı tədbirlər sistemi ilə əlaqədardır, buna görə də iki illik müddət bu prosesin tam şəkildə aparılmasına imkan vermir.[1]

Bu məsələ ilə əlaqədar daha tutarlı əsaslar irəli sürən O.M.Sviridenkonun qeyd edir ki, "bütün müəssisələr üçün maliyyə sağlamlaşdırmasına qanunverici tərəfindən iki illik maksimal müddətin müəyyən edilməsi kifayət qədər zəif əsaslandırılmışdır, çünki müəssisələr fərqli statusa malik ola bilər (strateji, fermer təsərrüfatları) və onların maliyyə sağlamlaşdırması ölkə iqtisadiyyatı üçün mühüm əhəmiyyətə malikdir.[2] Bu mövqeyi dəstəkləyən P.S. Zamalayev isə xarici ölkələrin təcrübəsinə istinad etməklə qeyd edir ki, maliyyə sağlamlaşdırması planının realizəsi müddəti Fransada - ümumilikdə 10 il, bəzi borclular üçün isə 15 il, ABŞ-da İspaniyada və Belçikada isə maliyyə sağlamlaşdırmasının normativ müddəti 5 ilə qədər (uzadılma halları nəzərə alınmadan) müəyyən edilmişdir".[3]

Borclunun sağlamlaşdırılması sağlamlaşdırma planına uyğun olaraq həyata keçirilir. Borclu sağlamlaşdırma planını borclu və kreditorlar arasında sağlamlaşdırma haqqında qərar qəbul edildiyi gündən **2 (iki) ay müddətində** tərtib etməlidir.

---

[1] Умань И.Н. Финансовое оздоровление как реабилитационная процедура, условия, порядок и процессуальные проблемы его применения при банкротстве юридических лиц // Российский судья. 2010. № 5. с.34-37; Гиляровская Л.Т., Вехорева А.А. Анализ и оценка финансовой устойчивости. СПб., 2003. с. 246; Карелина С.А. Правовое регулирование несостоятельности (банкротства): Учебно-практич. пособие. М., 2006. с. 144.

[2] Свириденко О.М. Институт несостоятельности (банкротства) в системе гражданского права // Журнал российского права. 2011. № 1. с.44-45.

[3] Замалаев П.С. Совершенствование законодательства о несостоятельности // Арбитражный управляющий. 2011. № 2. с. 31–32.

Borclu tərtib etdiyi sağlamlaşdırma planını kreditorların yığıncağına təqdim etməlidir. Sağlamlaşdırma planı və ona edilən dəyişikliklər kreditorların yığıncağının qərarı ilə qəbul edilir və məhkəmə tərəfindən təsdiq edilir.

Sağlamlaşdırma planının qəbul edilməsi ilə əlaqədar kreditorlar yığıncağında borcluya qarşı eyni tələbləri olan və tələblərin ödənilməsində bir-birinin qarşısında üstünlükləri olmayan kreditorlar qrupu iştirak etməlidir. Kreditorlar qrupu kreditorların aşağıdakı bölgüsü nəzərə alınmaqla formalaşdırılır:

- ✓ *girov və ya ipoteka ilə təmin edilən öhdəliklər üzrə kreditorlar;*
- ✓ *həyata və ya sağlamlığa vurulmuş zərərin ödənilməsi haqqında tələblər, habelə alimentlərin tutulması barəsində tələblər üzrə kreditorlar;*
- ✓ *əmək müqaviləsi ilə işləyən şəxslərə işdənçıxma müavinətlərinin və əməkhaqqının ödənilməsi üzrə və müəlliflik müqaviləsinə görə haqların ödənilməsi barədə tələblər üzrə kreditorlar;*
- ✓ *dövlət büdcəsinə, məcburi dövlət sosial sığorta haqları və işsizlikdən sığorta haqları üzrə büdcədənkənar dövlət fonduna və bələdiyyələrin büdcələrinə ödənişlər, kredit təşkilatlarının təminatsız borcları və onların faizləri üzrə kreditorlar;*
- ✓ *qanundan və ya müqavilədən irəli gələn tələblər üzrə digər təminatsız kreditorlar (o cümlədən mal, iş və xidmət müqavilələri üzrə təminatsız kreditorlar);*
- ✓ *borclu hüquqi şəxsin təsisçiləri (iştirakçıları).*

Sağlamlaşdırma planı hər bir kreditorlar qrupu daxilində səsvermə yolu ilə qəbul edilir. Kreditorlar qrupu daxilində sağlamlaşdırma planının səsvermə yolu ilə qəbulunda həmin qrupun kreditorlarının üçdə ikisindən artıq hissəsi iştirak etməlidir. Kreditorlar qrupu daxilində səsvermə zamanı kreditorlar bərabər hüquqa malikdirlər. Hər bir kreditorlar qrupu özünün seçdiyi bir üzv vasitəsilə kreditorlar yığıncağının səsverməsində iştirak etməlidir.

Kreditorlar yığıncağının qərarı səsvermədə iştirak edən üzvlərin sadə səs çoxluğu ilə qəbul edilir. Səslər bərabər olduqda kreditorların yığıncağının sədrinin səsi həlledici hesab olunur. Sədr kreditorların yığıncağı tərəfindən seçilir.

Borclu sağlamlaşdırma planını kreditorların yığıncağı tərəfindən qəbul edildiyi gündən **3 gün müddətində** təsdiq üçün məhkəməyə təqdim etməlidir. Borclu müvəqqəti əmlak inzibatçısına kreditorların yığıncağının iclasından sonrakı gündən gec olmayaraq tərtib etdiyi və kreditorlar yığıncağı tərəfindən qəbul edilən sağlamlaşdırma planını təqdim etməlidir. Müvəqqəti əmlak inzibatçısı sağlamlaşdırma planının səmərəliliyini təsdiq etməlidir.

Sağlamlaşdırma prosesinə başlanılması haqqında məhkəmənin qərarı qəbul edildiyi andan aşağıdakı hüquqi nəticələr yaranır:

- ✓ *əmlak inzibatçısının borclunun təsisçilərinə (iştirakçılarına), digər idarəetmə və nəzarət orqanlarına borcluya məxsus əmlakların istifadəsi və onların üzərində sərəncam verilməsi qadağan edilir;*
- ✓ *borclunun bütün kreditorlarının, borclunun təsisçilərinin (iştirakçılarının), habelə digər idarəetmə və nəzarət orqanlarının üzvlərinin borcluya qarşı iddiaları üzrə məhkəmələrin qəbul etdiyi qərarların icrası dayandırılır;*
- ✓ *borclunun bütün kreditorlarının, borclunun təsisçilərinin (iştirakçılarının), habelə digər idarəetmə və nəzarət orqanlarının üzvlərinin ərizəsi əsasında borcluya münasibətdə iflas haqqında işin qaldırılmasına yol verilmir;*
- ✓ *borclunun bütün kreditorlarının tələbləri, o cümlədən mübahisəsiz (akseptsiz) qaydada ödənilməli olan tələblər üzrə borclunun bank hesablarından pulların çıxarılmasına, habelə tələblərin borclunun əmlakına yönəldilməsinə yol verilmir.*

Göstərilən hüquqi nəticələr sağlamlaşdırma müddəti ərzində qüvvədə olur, bu şərtlə ki, məhkəmənin qərarı ilə həmin hüquqi nəticələr aradan qaldırılmamış olsun. Sağlamlaşdırma planında eyni kreditorlar qrupu daxilində bütün kreditorların hüquqları növbəlilik qaydasında bərabər təmin edilir.

Sağlamlaşdırma barədə məhkəməyə müraciət edən borclu öz ərizəsində aşağıdakıları təsdiq etməlidir:

- *borcu və onun mülkiyyətçiləri məhkəmə tərəfindən sağlamlaşdırma imkanına baxılan müddət ərzində kreditorların bununla əlaqədar məruz qalacağı əlavə itkilər barəsində hər hansı öhdəlikləri. Sağlamlaşdırma haqqında müvafiq məhkəmə qərarı qəbul olunmadıqda, qəbul edir və tamamilə ödəməyə qadirdilər;*
- *borclunun ödəmə qabiliyyəti sağlamlaşdırma əsasında bərpa oluna bilər.*

Sağlamlaşdırma müvəffəqiyyətlə başa çatdıqda məhkəmə həmin borclu barəsində iflas prosesinə qanunvericilikdə müəyyən edilmiş qaydada xitam verir.

## Mövzu üzrə nəticə:

Müflisləşmə və iflas eyni mənalı, sinonim anlayışlar deyil və bu anlayışlar arasında bərabərlik işarəsinin qoyulmasını doğru hesab etmək olmaz. Bu anlayışların hər birinin özünəməxsus əhəmiyyəti var. İflas bir prosesdir ki, onun nəticəsində borclu müflis elan olunur. Müflisləşmə isə borclunun ödəmə qabiliyyətinin olmamasıdır. İflas isə elə bir prosesdir ki, həm məhkəmə, həm də məhkəmədənkənar formada həyata keçirilə bilər. Ərizənin məhkəməyə təqdim olunması tarixi iflas prosesinə məhkəmə vasitəsilə başlamasının məqamıdır.

**Müflisləşmə və iflasın əlamətləri dedikdə,** məhkəməyə müflisləşmə haqqında işin başlanmasına və nəticədə müəyyən əsasların mövcudluğu zamanı borclunun müflis olması haqqında qərarın çıxarılmasına imkan verən hüquqi faktların məcmusudur.

Ödəmə qabiliyyətsizliyi **nisbi** və **mütləq ödəmə qabiliyyətsizliyinə** fərqləndirilir. **Nisbi ödəmə qabiliyyətsizliyi** ödəniş üçün vəsaitin müvəqqəti olaraq çatışmazlığı zamanı borclunun əmlakının dəyəri onun öhdəliklərinin həcmindən artıq olması ilə

xarakterizə olunur. **Mütləq ödəmə qabiliyyətsizliyi** borclunun əmlak vəziyyətinin qeyri-kafi (borclunun passivi aktivindən çoxdur) olmasıdır.

Müflisləşmə və iflas haqqında işlərdə borclu müəssisə, fərdi borclu, müdir, təminatlı və təminatsız kreditor, müdir, əmlak inzibatçısı və müvəqqəti əmlak inzibatçısı iştirak edir.

Kreditorlarda öz növbəsində iki növə ayrılır: təminatlı və təminatsız kreditorlar. **Təminatlı kreditor** girov (ipoteka) saxlayan kreditordur. **Təminatsız kreditor** isə təminatlı kreditor olmayan və tələbləri beşinci növbədə ödənilən kreditordur.

Borclu şəxs **iki kateqoriyaya** ayrılır: **borclu müəssisə** və **fərdi borclu**. **Borclu müəssisə** dedikdə Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən və ya keçmişdə fəaliyyət göstərmiş və borcu olan hüquqi şəxsdir. **Fərdi borclu** isə öz fəaliyyətini hüquqi şəxs yaratmadan həyata keçirən və borcu olan sahibkar – fiziki şəxs başa düşülür.

**Müdir** – borclunun təsərrüfat fəaliyyətinə aid bütün mühüm faktlar barəsində məlumatlara malik olması və kreditorları lüzumsuz itkilərdən qorumaq məqsədi ilə həmin faktlar əsasında hərəkət etməli olan şəxsdir.

Müflisləşmə və iflasın digər subyektləri əmlak inzibatçısı və müvəqqəti əmlak inzibatçısıdır. Əmlak inzibatçısı borclunun ödəmə qabiliyyətsizliyi halında məhkəmə və kreditorlar tərəfindən təyin edilir. Müvəqqəti əmlak inzibatçısı iflas prosesinə məhkəmənin iştirakı ilə başlandığı halda aralıq tədbiri kimi məhkəmə tərəfindən təyin edilir.

**Sağlamlaşdırma** – borclunun ləğv edilməsinin qarşısını almaq məqsədilə onun mülkiyyətçisi, kreditorlar və digər hüquqi və fiziki şəxslər tərəfindən maliyyə yardımı göstərilməsi yolu ilə borclunun ödəmə qabiliyyətinin bərpası üsuludur. Borclunun sağlamlaşdırılması sağlamlaşdırma planına uyğun həyata keçirilir.

**Sağlamlaşdırma planı** – borclunun ödəniş qabiliyyətinin bərpası və iş yerlərinin saxlanması məqsədilə kreditorun (kreditorların) tələblərinin ödənilməsi cədvəli, həmçinin əldə olunan

nəticələr, istifadə olunan resurslar və mümkün risklər göstərilməklə sağlamlaşdırma prosesinin tətbiqi zamanı borclunun sağlamlaşdırılmasına yönələn və borclu ilə kreditor (kreditorlar) arasında qarşılıqlı razılıq əsasında həyata keçirilən tədbirlər kompleksini özündə əks etdirən sənəddir.

## Mövzunun mənimsənilməsi üçün tövsiyə olunan ədəbiyyat:

### *a) əsas ədəbiyyat:*


1. "Müflisləşmə və iflas haqqında" Azərbaycan Respublikasının 13 iyun 1997-ci il tarixli 326-IQ nömrəli Qanunu.
2. "Müflisləşmə və iflas haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikasının 23 iyun 1997-ci il tarixli 604 nömrəli Qanunu.
3. Баренбойм П.Д. Правовые основы банкротства. Учеб. Пособие. М., 1995.
4. Андреев С.Е. Комментарий к Федеральному Закону «О несостоятельности (банкротстве)». М.: Изд. г-на Тихомирова М.Ю.: Юринформцентр, 2003.
5. Шишмарева Т.П. Институт несостоятельности в России и Германии. М.: Статут, 2015.
6. Карелина С.А. Правовое регулирование несостоятельности (банкротства). М.: Зерцало, 2002.
7. Кузнецов С.А. Основные проблемы правового института несостоятельности (банкротства): монография. М.: Инфотропик Медиа, 2015.
8. Попондопуло В.Ф., Слепченко Е.В. Производство по делам о банкротстве в арбитражном суде. СПб.: Юридический центр Пресс, 2004.
9. Споры при банкротстве: сборник документов / сост. О.М. Оглоблина. М.: Изд. г-на Тихомирова М.Ю.: Юринформцентр, 2004.
10. Ткачев В.Н. Несостоятельность (банкротство) в РФ: правовое регулирование конкурсных отношений. М.: Книж-

ный мир, 2004. 249 с.

11. Шишмарева Т.П. Институт несостоятельности в России и Германии. М.: Статут, 2015.

12. Семина А.Н. Банкротство: вопросы правоспособности должника – юридического лица. М.: Экзамен, 2003.

13. Попондопуло В.Ф. Конкурсное производство: правовое регулирование несостоятельности (банкротства). М.: Юристъ, 2001.

14. Новоселов Е.В. Банкротство: путеводитель по принятию решений. М.: Юстицинформ, 2014.

### *b) əlavə ədəbiyyat:*

15. Ткачев В.Н. Правовое регулирование несостоятельности (банкротства) стратегических предприятий и организаций // Законодательство. 2005. №6, с. 14-29.

16. Белоликов А.И. Принципы банкротства // Право и экономика. 2004. № 8. с. 43-48.

17. Витрянский В.В. Пути совершенствования законодательства о банкротстве // Вестник ВАС РФ. 2001. № 3. с. 91–104.

18. Дорохина Е.Г. Процессуальное право и дееспособность арбитражного управляющего //Законодатель-ство. 2004. № 4. с. 53-61.

19. Дубинчин А.А. Дифференциация условий для объявления юридических лиц банкротами // Хозяйство и право. 2003. № 7. с. 35-42.

20. Егоров А. Некоторые текущие проблемы бан-кротства // Хозяйство и право. 2004. № 10. с. 92-103; №12. с. 85–94.

21. Лейба А. Негативные последствия банкротства ТСЖ. // ЭЖ-Юрист. 2014. № 46. с. 10.

22. Свириденко О.М. Назначение и цели института банкротства в хозяйственном обороте // Право и экономика. 2003. № 3. с. 10–15.

# IV FƏSİL
# SAHİBKARLIQ FƏALİYYƏTİNİN DÖVLƏT TƏNZİMLƏNMƏSİ

## 4.1. Sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsinin anlayışı, forma və metodları

Sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsini milli iqtisadiyyatın müxtəlif sahələrində bu və ya digər münasibətlərə dövlət təsirinin dərəcəsindən asılı olaraq təsnifatlaşdırmaq olar. Belə ki, S.S. Zankovskiy iqtisadiyyatın dövlət təsirinin maksimal, orta və minimal səviyyələrinin (rejimlərinin) müəyyən edilməsini təklif edir. Dövlət təsirinin **maksimal səviyyəsi**-dövlət tənzimlənməsinin bütün və ya əksər üsul və ya vasitələrindən istifadə edilməsini nəzərdə tutur. Dövlət təsirinin **minimal səviyyəsi** isə yaradıcılıq fəaliyyəti ilə bağlı olan sahibkarlıq fəaliyyətinə münasibətdə mövcud olur.[1]

Bununla belə, bütövlükdə iqtisadiyyatın, xüsusilə də sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsinin əsas istiqamətləri aşağıdakılardan ibarətdir:

- ✓ *sahibkarlıq fəaliyyətinin antiinhisar tənzimlənməsi;*
- ✓ *dövlət normalaşdırılması və planlaşdırılmasının forma və metodlarından istifadə edilməsi;*
- ✓ *milli bazarın dövlət tənzimlənməsi;*
- ✓ *beynəlxalq iqtisadi münasibətlərin dövlət tənzimlənməsi;*
- ✓ *sahibkarlıq fəaliyyətinə dövlət nəzarətinin həyata keçirilməsi.*

**Dövlət tənzimlənməsi** dedikdə, ölkədə mövcud olan sosial-iqtisadi sistemin sabitliyini (stabilliyini) təmin etmək məqsədi ilə qanunverici, icra və məhkəmə hakimiyyəti orqanlarının normativ hüquqi aktlar əsasında həyata keçirilən kompleks tədbirlərdir.

---

[1] Занковский С.С. Предпринимательское (хозяйственное) право и 21 веке. Преемственность и развитие. М. 2001, с. 226.

Sahibkarlıq subyektlərinin sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsi üç əsas funksiya vasitəsilə realizə olunur:

- **bazarın normal fəaliyyəti üçün zəruri şərtlərin yaradılması:**
  - ✓ *sahibkarlıq subyektlərin mülkiyyət formalarının və onun idarə edilməsi qaydalarının müəyyən edilməsi;*
  - ✓ *sahibkarlıq müqavilələrinin icrasının təmin edilməsi mexanizminin yaradılması;*
  - ✓ *sahibkarlıq subyektləri arasında yaranmış mübahisələrin məhkəmə qaydasında həll edilməsi;*
  - ✓ *istehlakçıların hüquqlarının və qanuni mənafelərinin müdafiəsi;*
  - ✓ *pul sisteminin müəyyənləşdirilməsi;*
  - ✓ *məhsula standartların müəyyən edilməsi.*
- **elmin və elmi-texniki inkişafın strateji planlaşdırılması;**
- **makroiqtisadi problemlərin həll edilməsi:**
  - ✓ *milli istehsalın həcmi;*
  - ✓ *iqtisadiyyatın proporsional inkişafı;*
  - ✓ *ölkənin əmək qabiliyyətli əhalisinin məşğul səviyyəsi;*
  - ✓ *sosial müdafiə.*[1]

Bazar münasibətlərinin müəyyən xüsusiyyətləri sahibkarlıq subyektlərinin fəaliyyətinin idarə edilməsini, tənzimlənməsini, dövlət nəzarətinin formalarını, metodlarını və hədlərini şərtləndirir. Bazar münasibətlərinə dövlət-hüquqi təsir vasitələrinin seçilməsi zamanı sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyət göstərdikləri **iqtisadi mühit** (daxili və xarici) də xüsusilə mühüm əhəmiyyət kəsb edir. **İqtisadi mühit** dedikdə, sahibkarlıq subyektinin fəaliyyətinə təsir edən şərtlər və amillər başa düşülür.

Sahibkarlıq subyektlərinin sahibkarlıq fəaliyyətinə dövlətin müdaxiləsi bir sıra hallarla şərtlənir:

---

[1] Мырзалиев Б.С. Государственное регулирование экономики: Учебник. – Алматы: «Нур-Пресс», 2007, с. 342.

- ✓ *ekoloji problemlərin həll edilməsi;*
- ✓ *sahibkarlıq sahəsində cinayətlərə qarşı mübarizə;*
- ✓ *iqtisadi böhranın qarşısının alınması;*
- ✓ *ümummilli ehtiyatlardan istifadəyə nəzarət;*
- ✓ *əhalinin az təminatlı təbəqəsinin sosial müdafiəsi.*

Əksər hallarda təcrübədə və nəzəriyyədə belə hesab olunur ki, sahibkarlıq fəaliyyəti subyektləri ilə dövlət arasında yaranan münasibətlər partnyorluq kimi özünü göstərir. Əslində isə bu heç də belə deyil. Belə ki, əgər dövlət siyasi və hakimiyyət orqanı kimi çıxış edirsə, onda onun "partnyorları" (burada partnyor dedikdə, sahibkarlıq fəaliyyətinin subyektləri başa düşülür) dövlətin iradəsinə uyğun hərəkət etməyə məcburdur. Əgər dövlət sahibkarlıq fəaliyyətinin subyekti qismində çıxış edirsə, onda onlar bir-birilə rəqabət aparırlar. Bununla yanaşı E.Y. Şeynin haqlı olaraq qeyd edir ki, ümummilli məsələlərin həllində dövlətlə sahibkarlıq fəaliyyətinin subyektləri bir-birindən asılıdır, birgə hərəkət edirlər.[1]

Hüquq və iqtisadi ədəbiyyatlarda sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsinin zəruriliyi müxtəlif mövqelərdən çıxış edilərək əsaslandırılır. Bu halda əsas məsələ kimi şəxsi və ümumi maraqların mühafizəsinin zəruriliyini göstərmək lazımdır. E.P. Qubin haqlı olaraq qeyd edir ki, dövlət tənzimlənməsinin məqsədlərinə çatmaq üçün şəxsi və ümumi maraqların birləşdirilməsi belə tənzimləmənin əsas, başlanğıc vəzifəsidir.[2]

Dövlət tənzimlənməsi iqtisadi və iqtisadi-sosial fəaliyyətlə bağlı olan bazar iqtisadi sisteminin fəaliyyət şərtlərini təmin edən dövlətin, demək olar ki, bütün funksiyalarıdır. Dövlət tənzimlənməsi ictimai istehsalın bütün istiqamətlərini əhatə edir. Lakin ilk növbədə diqqət sahibkarlıq və mülkiyyət münasibətlə-

---

[1] Шейнин Е.Я. Предпринимательство и бизнес. Учебное пособие, - Ростов-на-Дону: «Феникс», 2002. с.189.

[2] Губин Е.П. Государственное регулирование рыночной экономики и предпринимательства: правовые проблемы. М. 2005, с. 9-30, 32-33.

rinə, investisiyaların, sosial inkişafın və əmək bazarının, maliyyə bazarının və pul dövriyyəsinin tənzimlənməsinə yönəlir. Bütün bu məsələlər dövlət tənzimlənməsinin əsas məzmununu təşkil edir.

Sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsinin **məqsədi** ölkə iqtisadiyyatının normal fəaliyyətini təmin edən zəruri şərtlərin yaradılmasıdır. Dövlət tənzimlənməsinə ümumiləşdirilmiş şəkildə aşağıdakı vəzifələr daxildir:

- ✓ *sahibkarların hüquqlarının və qanuni mənafelərinin müdafiəsini təmin edən qanunvericiliyinin işlənilib-hazırlanması, qəbul edilməsi və ona nəzarət;*
- ✓ *dövlət tənzimlənməsinin səmərəliyinin yüksəldilməsi;*
- ✓ *sahibkarlıq fəaliyyətinin inkişafına mane olan bürokratik əngəllərin aradan qaldırılması;*
- ✓ *sahibkarlıq subyektlərinin fəaliyyətinə yönələn birbaşa müdaxilələrin məhdudlaşdırılması;*
- ✓ *bazarda azad və vicdanlı rəqabətin dəstəklənməsi və təmin edilməsi;*
- ✓ *vergi, maliyyə siyasəti vasitəsilə əmtəə-pul və büdcə tarazlığının təmin edilməsi.*

Göstərilən sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsinin **məqsədlərini** aşağıdakı kimi qruplaşdırmaq olar:

- ➢ **əhalinin məşğulluğunun normal səviyyəsinin təmin edilməsi;**

Bu vəzifənin əsas məqsədi ondan ibarətdir ki, sahibkarlara dövlət tərəfindən geniş imkanlar verilməklə yanaşı, həmçinin onların yeni iş yerlərinin açılması, əhalinin işsiz hissəsinin işlə təmin edilməsi vəzifəsini güdür. Belə ki, AR Konstitusiyasının 35-ci maddəsinin VIII hissəsinə müvafiq olaraq, dövlət ölkədə işsizliyin aradan qaldırılmasından ötrü bütün imkanlarından istifadə edəcəyi vəzifəsini öz üzərinə götürmüşdür.

Bu gün isə əminliklə qeyd edə bilərik ki, dövlət bu vəzifənin öhdəsindən layiqincə gəlib. Ona görə ki, qanunverici və mərkəzi

icra hakimiyyəti orqanları tərəfindən məşğulluq sahəsində müvafiq qanuvericilik aktları, dövlət proqramları qəbul edilmişdir ki, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsini təmin etmişdir. Məşğulluq sahəsində yaranan münasibətlərin hüquqi tənzimlənməsində "Məşğulluq haqqında" Azərbaycan Respublikasının 29 iyun 2018-ci il tarixli 1196-VQ nömrəli Qanununun əhəmiyyəti danılmazdır. Məhz, bu Qanun Azərbaycan Respublikasında məşğulluq sahəsində dövlətin vəzifələrini, o cümlədən işaxtaran və işsiz şəxslərin qeydiyyatı qaydalarını, onların sosial müdafiəsi sahəsində dövlət təminatlarının dairəsini müəyyən edir.

- **Vətəndaşların həyatının və sağlamlığının mühafizəsi;**

Dövlət tərəfindən ölkədə sahibkarlığı inkişaf etdirməklə yanaşı, həm də onların istehsal etdiyi və yaxud da ölkəyə idxal etdikləri məhsulların əhalinin həyat və sağlamlığına təhlükə törədib-törədilməməsi yoxlanılır. Yoxlanışdan keçən məhsul həqiqətən də əhalinin sağlamlığına və həyatına heç bir mənfi təsir göstərmirsə, onda həmin məhsulun ölkə bazarına çıxarılmasına icazə verilir. Eyni zamanda Respublikamızda fəaliyyət göstərən sahibkarlıq fəaliyyətinin subyektlərinin istehsal etdiyi və satışa çıxarılan məhsullar (əmtəələr), göstərilən xidmətlər və görülən işlər bu gün Respublikamızda işlənib-hazırlanan, qəbul və təsdiq edilən standartlara uyğun olmalıdır. Müvafiq dövlət orqanlarının işləyib hazırladığı və təsdiq etdiyi standartlara uyğun istehsal etməli, xidmət göstərilməlidir.

- **Bazarda rəqabətin dəstəklənməsi;**

Bu vəzifənin təsbit olunması isə onu göstərir ki, dövlət bir tərəfdən sahibkarlara geniş imtiyazlar yaradır, digər tərəfdən isə onların istehsal etdiyi eyni məhsulla bağlı sağlam şəkildə rəqabət aparmalarını qanunvericilik aktları ilə təmin edir. Yəni, sahibkarlıq fəaliyyətini həyata keçirən subyektlər, istehsal etdiyi məhsulun öz maraqlarına uyğun deyil, əksinə istehlakçıların, əhalinin maraqlarına uyğun şəkildə realizə etməlidirlər. Dövlət sahibkarlıq fəaliyyətini həyata keçirən subyektlərin inhisarçılıq

fəaliyyətinin qarşısını alır və bu sahədə muvafiq orqanların fəaliyyətinin təşkilini və səlahiyyətlərinin dairəsini müəyyən edən qanunvericilik aktlarını qəbul edir.

- **Kiçik sahibkarlığın inkişaf etdirilməsi;**

Bu vəzifənin əsas məqsədi də ondan ibarətdir ki, hər kəsin - Azərbaycan Respublikası Konstitusiyası ilə müəyyən olunmuş azad sahibkarlıq fəaliyyəti və qanunla qadağan edilməyən digər iqtisadi fəaliyyət növü ilə məşğul olmaq hüququnun həyata keçirilməsinə şərait yaratmaqdır. Məhz, bu səbəbdən qəbul edilmiş "Kiçik sahibkarlığa dövlət köməyi haqqında" AR Qanunu Azərbaycan Respublikasında kiçik sahibkarlığa dövlət köməyinin iqtisadi, hüquqi, təşkilati əsaslarını, forma və üsullarını müəyyən edir.

Hüquq ədəbiyyatlarında sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsi institutuna müxtəlif aspektlərdən çıxış edərək anlayış verilmişdir. Lakin hüquq elmində sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsinə verilən anlayışları ümumiləşdirib aşağıdakı kimi təqdim edirik: **sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsi** dedikdə, sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi sahəsində dövlət siyasətinin realizəsinə yönəlmiş dövlətin və onun orqanlarının fəaliyyəti başa düşülür.

Dövlət, sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinə zəruri şərtlər olduğu halda müdaxilə edə bilər. Bu şərtlər **müsbət** və **mənfi** şərtlərə ayrılır. **Mənfi şərtlər** dedikdə, bütövlükdə ölkə iqtisadiyyatına və sahibkarlıq fəaliyyətinə mənfi təsir göstərə bilən, sahibkarlıq fəaliyyətinin müxtəlif sahələrində yaranan mənfi təzahürlər başa düşülür. Bu halda, dövlətin rolu ondan ibarətdir ki, bu təzahürlərin, onların yaranması səbəblərinin vaxtlı-vaxtında müəyyən edib, onların aradan qaldırılması üçün müvafiq tədbirlərin tətbiqindən ibarətdir. Dövlətin sahibkarlıq subyektlərinin fəaliyyətinə müdaxiləsi aşağıdakı şərtlər olduqda mümkün ola bilər:

- ✓ *milli təhlükəsizliyə təhlükə yarandıqda;*
- ✓ *cəmiyyətdə sosial gərginlik olduqda;*

- ✓ *iqtisadiyyatda mənfi təzahürlərin mövcudluğu (istehsalın azalması, inflyasiya, işsizliyin səviyyəsinin yüksəlməsi, büdcə kəsirinin olması, dünya bazarında milli məhsulun rəqabət qabiliyyətinin olmaması və s.);*
- ✓ *ətraf mühitin vəziyyətinin pisləşməsi və s.*

**Müsbət şərtlər** dedikdə isə, sahibkarlıq fəaliyyətinin müxtəlif sahələrində yaranan müsbət təzahürlər başa düşülür. Bu halda dövlətin rolu müsbət təzahürlərin müəyyən edilməsi və onların dəstəklənməsindən ötrü müvafiq tədbirlərin tətbiqindən ibarətdir.

İctimai maraqların müdafiəsi məqsədi ilə A.S.Pelixina dövlət təsirinin zəruriliyini aşağıdakılarla xarakterizə olunduğunu qeyd edir:

- ✓ *dövlət və ictimai ehtiyacların təmin edilməsi;*
- ✓ *dövlət büdcəsinin formalaşdırılması;*
- ✓ *əhalinin məşğulluğunun təmin edilməsi;*
- ✓ *ölkənin müdafiəsinin və təhlükəsizliyinin təmin edilməsi;*
- ✓ *inhisarçılıqdan müdafiənin təmin edilməsi;*
- ✓ *azad sahibkarlıq və rəqabətin realizəsi.*[1]

Hüquq ədəbiyyatlarında dövlət tənzimlənməsinin əsasən iki metodu müəyyən edilir: **düzünə (inzibati) və dolayı (iqtisadi) metodlar.** İqtisadiyyatın **düzünə** və **dolayı metodla** tənzimlənməsini israr edən bir çox alimlərin fikirləri təsbit olunmuşdur. Demək olar ki, düzünə və inzibati, dolayı və iqtisadi metodlar arasında bərabərlik işarəsi qoyulur. Bu yanaşma nə dərəcədə doğrudur? Bu barədə hüquq elmində vahid bir fikir bugünədək formalaşmamışdır. Əgər alimlərin fikirlərini nəzərdən keçirsək aydın olar ki, belə bir yanaşma heç də məqsədəmüvafiq hesab olunmur. **Birincisi,** istənilən metod təsiretmə vasitələrinin sistemidir. Öz növbəsində vasitə üsul və hərəkətlərdən ibarətdir.[2]

---

[1] Организация предпринимательской деятельности: Учебное пособие. Под ред. А.С. Пелихина. Ростов-на-Дону, издательский центр «Март», 2002. с. 336.

[2] Бахрах Д.Н. Административное право России: Учебник для вузов. М., 2000, с. 354-355.

**İkincisi**, inzibati metod ifadəsi heç bir iqtisadiyyata inzibati-hüquqi təsiretmə barədə fikrini nəzərdə tutmur. İnzibati metodun əsas xüsusiyyəti ondan ibarətdir ki, səlahiyyətli dövlət orqanlarının timsalında iqtisadi proseslərə birbaşa (düzünə) təsir edir. **Üçüncüsü**, əgər düzünə metod inzibati-hüquqi metod kimi nəzərdən keçirilirsə, onda dolayı metod xüsusi-hüquqi metod kimi nəzərdən keçirilməsi məntiqi görünür. **Dördüncüsü**, dövlət tənzimlənməsinin metodları ilə hüquqi tənzimlənmənin metodları arasında bərabərlik işarəsinin qoyulması, heç də doğru hesab oluna bilməz. Bu barədə S.N. Şişkin yazır ki, sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsi metodlarına gəldikdə, tamamilə kifayət edir ki, sahibkarlıq (təsərrüfat) hüququnda istifadə olunan metodları göstərək (razılaşdırma metodu, məcburi göstərişlər metodu, tövsiyə metodu).[1] Bu mövqeyi tənqir edən V.S. Belıx haqlı olaraq göstərir ki, istənilən halda dövlət tənzimlənməsinin metodları ilə hüquqi tənzimlənmənin metodları anlayışları məzmununa görə üst üstə düşmür.[2]

Y.P. Qubin dövlət tənzimlənməsinin düzünə metodlarına sahibkarlıq fəaliyyəti subyektlərinin dövlət qeydiyyatını, sahibkarlıq fəaliyyətinin lisenziyalaşdırılmasını və s. aid edir.[3] Müvafiq olaraq dolayı metodlara pul-kredit və büdcə siyasətinin vasitələri, planlaşdırma, qiymətləndirmə vasitəsi aiddir.

Müqayisə üçün V.F. Popondopulonun fikirləri böyük maraq doğurur. Belə ki, müəllif iqtisadiyyata düzünə (inzibati) dövlət tənzimlənməsinin metodlarını hakimiyyət iradəsinin dəqiq və sürətli realizəsinin təmin edilməsinə yönələn vasitə kimi nəzər-

---

[1] Предпринимательское (хозяйственное) право. Учебник. Под ред. В.В.Лаптева, С.С. Занковского. М., 2006, с. 347.

[2] Предпринимательское право России: учеб. / В.С.Белых, Г.Э.Берсункаев, С. И. Виниченко и др.// отв. ред. В. С. Белых. – М.: Проспект, 2009, с. 322.

[3] Предпринимательское право Российской Федерации. Под ред. Е.П. Губина, П.Г. Лахно. М., 2007, с. 407.

dən keçirərək (məsələn, hərbi vəziyyət zamanı) qeyd edir ki, "bu metodların dinc dövrdə geniş şəkildə tətbiq edilməsi cəmiyyətin inkişafına mənfi təsir edir. Kifayətdir ki, sovet dövründə iqtisadiyyatın total direktiv planlaşdırılması təcrübəsini yada salaq".[1] Bu məqamda belə bir sual yaranır ki, bazar iqtisadiyyatında dövlət tənzimlənməsinin düzünə metodları tətbiq edilmir?[2]

Bütövlükdə iqtisadiyyatın, xüsusilə də sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsinin düzünə (inzibati) və dolayı (iqtisadi) metodlara bölgüsü ilə bağlı kifayət qədər tədqiqat aparılmayıb və təsviri xarakter daşıyır. Daha düzgün olardı ki, "düzünə metodlar" və "dolayı metodlar" fərqləndirilsin.

Beləliklə, **düzünə (inzibati) dövlət tənzimlənməsi metodlarına** aşağıdakılar aid edilir:

- ✓ *iqtisadi inkişafın strateji məqsədlərinin müəyyən edilməsi;*
- ✓ *müəyyən növ məhsulların dövlət sifarişləri və müqavilələri üzrə alınması;*
- ✓ *ayrı-ayrı məhsulların istehsalı və satışı üzrə hüquqi və inzibati məhdudiyyətlər və qadağaların müəyyən edilməsi;*
- ✓ *məhsul və texnologiyaların keyfiyyətinə və sertifikatlaşdırılmasına olan normativ tələblər və s.*[3]

İqtisadi proseslərin **dolayı dövlət tənzimlənməsi metodlarına** aiddir:

- ✓ *vergitutma;*
- ✓ *vergi güzəştləri sistemi;*
- ✓ *kredit güzəştləri, kredit faizləri.*[4]

---

[1] Попондопуло В.Ф. Коммерческое (предпринимательское) право: Учебник. 2-е изд. Перераб. и доп. М., 2006. с. 303-304.

[2] Предпринимательское право России: учеб. / В.С.Белых, Г.Э.Берсункаев, С.И.Виниченко и др.// отв. ред. В.С.Белых. – М.: Проспект, 2009. с. 323.

[3] Yenə orada, c. 322.

[4] Государственное регулирование экономики: Учебное пособие /Под ред. Т.Г. Морозовой. М. 2011, с. 16.

Elmi ədəbiyyatlarda "vasitə" termini geniş mənalı anlayışdır. Sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsinin vasitəsi dedikdə, sahibkarlıq sahəsində yaranan münasibətlərə dövlət təsirinin üsulusur. Vasitələr iki qrupa bölünür: hüquqi və qeyri-hüquqi vasitələr. Qeyri-hüquqi vasitələrə siyasi, təşkilati-texniki və iqtisadi vasitələr aiddir. Sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsinin iqtisadi vasitələri müvafiq hüquqi formalarda təcəssüm olunur. Başqa sözlə desək, pul, kreditlər, vergi, qiymətlər və tariflər iqtisadi-hüquqi vasitələrdir.

**Sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsinin forması** dedikdə, qanunla nəzərdə tutulmuş nəticələrlə bağlı olan aktdır (planlı akt, məqsədli proqramlar, icazələr, kvotalar, lisenziyalar, göstərişlər və s.). Göründüyü kimi burada ikili forma müşahidə olunur (birinci forma – dövlət tənzimlənməsi, ikinci forma-aktdır.)

Sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsi mexanizmində sahibkarlıq fəaliyyətinin və iqtisadiyyatın dövlət tənzimlənməsinin vasitələrindən biri kimi **dövlət nəzarəti** mühüm yer tutur. N.D. Baxrax qeyd edir ki, üç tip nəzarət mövcuddur: a) məhkəmə, b)prokuror, c) inzibati nəzarət. Sonuncusu isə müxtəlifliyinə və həcminə görə daha genişdir.[1] Polis Akademiyasının əməkdaşları tərəfindən hazırlanmış "İnzibati hüquq" dərs vəsaitində qeyd olunur ki, inzibati nəzarət – dövlət idarəetməsinin bir sıra orqanlarının hüquq-mühafizəedici fəaliyyətinin xüsusi növüdür.[2]

Beləliklə, **sahibkarlıq fəaliyyəti sahəsində dövlət nəzarəti dedikdə**, sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi, o cümlədən onun idarə edilməsi zamanı normativ-hüquqi aktların tələblərinə dövlət hakimiyyəti orqanları və sahibkarlıq fəaliyyətinin

---

[1] Бахрах Д.Н. Административное право России:Учебник. М.2000. с. 395.

[2] İnzibati hüquq. Dərs vəsaiti. Xüsusi hissə. // M.B.Əhmədovun elmi redaktorluğu ilə. Bakı, Azərbaycan Respublikası DİN-in Polis Akademiyası. "MBM" nəşriyyatı, 2011. Səh. 224.

subyektləri tərəfindən əməl olunmasına nəzarət və müşahidə sistemidir.

Tətbiqi sahəsindən asılı olaraq dövlət nəzarətinin müxtəlif növləri vardır:

- ✓ *bank nəzarəti;*
- ✓ *büdcə nəzarəti;*
- ✓ *valyuta nəzarəti;*
- ✓ *dövlət metroloji nəzarət;*
- ✓ *maliyyə nəzarəti;*
- ✓ *gömrük nəzarəti;*
- ✓ *nəqliyyat nəzarəti;*
- ✓ *vergi nəzarəti və s.*

Nəzarətin mərhələsindən və yoxlamanın məqsədlərindən asılı olaraq **ilkin**, **cari**, **sonrakı** nəzarət növləri fərqləndirilir:

- ✓ ***ilkin nəzarət*** *– sahibkarlıq fəaliyyətinin parametrlərinə əməl edilməsinin profilaktikası və xəbərdar edilməsi məqsədini güdür;*
- ✓ ***cari nəzarət*** *– həqiqətən həyata keçirilən sahibkarlıq fəaliyyətinin qiymətləndirilməsidir;*
- ✓ ***sonrakı nəzarət*** *– sahibkarlıq fəaliyyəti sahəsində dövlət orqanlarının bu və ya digər qərarlarının icrasının yoxlanılmasını nəzərdə tutur;*[1]

Dövlət nəzarəti haqqında bəhs edərkən, onun növlərindən biri olan vergi nəzarətinin xüsusiyyətləri haqqında danışmaq məqsədəmüvafiq olardı. Belə ki, **vergi nəzarəti** dedikdə, vergi orqanları vergilərin tam və vaxtında yığılmasının təmin etmək məqsədi ilə vergi nəzarətinin həyata keçirilməsi başa düşülür. Vergi nəzarətinin formaları aşağıdaılardır:

- ✓ *vergi ödəyicilərinin və vergi tutma obyektlərinin uçotu;*
- ✓ *uçot və hesabat məlumatlarını yoxlama;*

---

[1] Предпринимательское право России: учеб. / В.С.Белых, Г.Э.Берсункаев, С.И.Виниченко и др.// отв. ред. В.С.Белых. – М.: Проспект, 2009. с. 331.

✓ *vergi ödəyiciləri və digər şəxslər arasında sorğu aparma;*
✓ *gəlir əldə etmək üçün istifadə olunan binalara baxış keçirmə.*

Qanunvericiliyə görə vergi nəzarətinin tərkib hissəsini vergi yoxlaması təşkil edir. Vergi yoxlamasının müxtəlif növləri Azərbaycan Respublikasının 11 iyul 2000-ci il tarixli, 905-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Vergi Məcəlləsində təsbit olunmuşdur.[1] Bunlar aşağıdakılardır:

**1. Kameral vergi yoxlaması;**

Kameral vergi yoxlamasında vergi əməkdaşı yoxlamağa getmədən vergilərin hesablanmasını və ödənilməsini əks etdirən, o cümlədən vergi ödəyicisinin fəaliyyəti haqqında vergi orqanında olan sənədlər və mənbəyi məlum olan məlumatlar əsasında müvafiq yoxlamanı həyata keçirir.

**2. Səyyar vergi yoxlaması:**

Səyyar vergi yoxlaması isə kameral vergi yoxlamasından fərqli olaraq, vergi orqanı əməkdaşının bilavasitə sahibkarın müəssisəsində müvafiq yoxlamaları həyata keçirir. Səyyar vergi yoxlaması özündə iki növü təsbit edir:

➢ ***növbəti səyyar vergi yoxlaması** – növbəti səyyar vergi yoxlaması keçirildikdə vergi orqanı tərəfindən vergi ödəyicisinə, vergi yoxlamasının başlanmasından **azı 15 gün əvvəl** yazılı bildiriş göndərilir. Bildirişdə vergi yoxlamasının əsası, tarixi, habelə vergi ödəyicisinin və vergi orqanlarının hüquq və vəzifələri təsbit olunur. Növbəti səyyar vergi yoxlaması ildə bir dəfədən çox keçirilə bilməz və **30 gündən artıq** davam etdirilə bilməz. Yalnız müstəsna hallarda yuxarı vergi orqanının rəhbərinin qərarına əsasən vergi yoxlaması **90 gün** müddətinə qədər uzadıla bilər;*

➢ ***növbədənkənar səyyar vergi yoxlaması** – bu növ yoxlama aşağıdakı hallarda aparıla bilər:*

---

[1] "Azərbaycan Respublikasının Qanunvericilik Toplusu", 31 avqust 2000-ci il, № 8, I kitab, maddə 583.

- ✓ *verginin hesablanması və ödənilməsi üçün zəruri olan vergi hesabatı sənədləri təqdim edilmədikdə;*
- ✓ *vergi yoxlamasının nəticələri üzrə tərtib edilmiş aktda dürüst olmayan və ya təhrif olunmuş məlumatlar aşkar edildikdə;*
- ✓ *ƏDV üzrə artıq ödənilmiş vergi, faiz və maliyyə sanksiyası digər vergilərin, faizlərin və maliyyə sanksiyalarının ödənilməsi hesabına və ya sonrakı öhdəliklər üzrə ödəmələrin hesabına aid edildikdə. Bu halda növbədənkənar vergi yoxlaması yalnız vergi ödəyicisinin ƏDV-yə cəlb edilən əməliyyatları üzrə aparıla bilər;*
- ✓ *artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının qaytarılması barədə vergi ödəyicisinin ərizəsi daxil olduqda;*
- ✓ *vergi orqanının əldə etdiyi mənbəyi bəlli olan hər hansı məlumat əsasında vergi ödəyicisinin gəlirlərinin və ya vergitutma obyektinin gizlədilməsinin (azaldılmasının) əlamətləri müəyyən edildikdə və s.*

Yoxlamanın gedişatı barədə protokol tərtib olunur. Protokol, onu tərtib etmiş vəzifəli şəxs və yoxlamada iştirak edən şəxslər tərəfindən imzalanır. Vergi orqanının rəhbəri yoxlamanın materialları ilə tanış olduqdan sonra **10 gün müddətində** aşağıdakı qərarlardan birini qəbul edir:

- ❖ *vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb edilməsi;*
- ❖ *məsuliyyətə cəlb etməkdən imtina olunması;*
- ❖ *əlavə vergi yoxlamalarının keçirilməsi.*

## 4.2. Sahibkarlıq fəaliyyətinin ayrı-ayrı növlərinin lisenziyalaşdırılmasının anlayışı və məqsədi

Sahibkarlıq fəaliyyətinin ayrı-ayrı növlərinin lisenziyalaşdırılması sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsinin təşkilati formalarına aiddir. K.B.Tolstoşein qeyd edir ki, "Bazar strukturların formalaşdırılması proseslərində dövlətin yeri dəyişməzdir: yalnız o xaotik hərəkəti nizamlaya bilir, ona ardıcıllıq və tamlıq verir."[1]

Lisenziyalaşdırma geniş yayılmış və hüquq elmində istifadə olunan termindir. Lakin lisenziyalaşdırma barədə yalnız o məlumdur ki, lisenziyalaşdırma – dövlət orqanı tərəfindən bu və ya digər hərəkətə icazə verilməsidir.

Çünki Azərbaycan Respublikasının "Lisenziya və icazələr haqqında" AR Qanununda "lisenziyalaşdırma"nın leqal anlayışı təsbit olunmayıb. Bir sıra normativ hüquqi aktlarda lisenziyalaşdırma dövlət hakimiyyəti orqanlarının funksiyasına aid edilmişdir, digər normativ-hüquqi aktlarda isə dövlət orqanlarının vəzifələrinə aid edilmişdir. Əksər hallarda isə, «lisenziyalaşdırma» terminini "müəyyən növ fəaliyyətlə məşğul olmaq hüququna dövlət sənədinin verilməsi (lisenziya)" ifadəsi ilə əvəzlənir.

Lakin, hüquq ədəbiyyatlarında lisenziyalaşdırmaya aşağıdakı kimi anlayış verilmişdir: **lisenziyalaşdırma dedikdə** – lisenziyaların verilməsi, rəsmiləşdirilməsi, dayandırılması, təkrar verilməsi, ləğv edilməsi, o cümlədən lisenziya qaydalarına əməl olunmasına nəzarət üzrə lisenziya orqanlarının hərəkətləri başa düşülür. Lisenziyalaşdırma üzrə münasibətlərin subyektləri qismində lisenziya verən dövlət orqanı və fərdi sahibkar və ya hüquqi şəxs qismində **lisenziya alan** (lisenziant) çıxış edir.

Hüquq doktrinasında lisenziyalaşdırmanın mahiyyəti haqqında müxtəlif fikirlər mövcuddur. Əksər alimlər belə hesab edirlər ki, lisenziyalaşdırmanın hüquqi təbiəti əsasında dövlət idarəçili-

---

[1] Толстошеин К.Б. Предпринимательство в условиях развития рыночных отношений. М., 1997.

yinin forması, üsulu, vasitəsi, metodu durur. Belə ki, A.P. Alyoxin, A.N.Karmolitskiy və Y.M.Kozlov lisenziyalaşdırmanı idarəçiliyin hüquqi formalarının növlərindən biri kimi nəzərdən keçirirlər. Onların fikrincə, lisenziyalaşdırma hüquqi aktın əsasında rəsmiləşdirilir və həyata keçirilir ki, bunun nəticəsində lisenziya alan ilə icra hakimiyyəti orqanı arasında inzibati-hüquqi münasibətləri yaranır.[1]

N.İ. Kleynin redaktorluğu ilə nəşr olunmuş "Sahibkarlıq hüququ" dərsliyinin müəllifləri hesab edirlər ki, lisenziyalaşdırma – sahibkarlıq fəaliyyətinə dövlət nəzarətinin bir növüdür.[2]

Bu halda Y.N.Milşin haqlı olaraq qeyd edir ki, lisenziyalaşdırma bir tərəfdən vətəndaşların qanunla qadağan olunmayan fəaliyyət növləri ilə məşğul olmaq hüququnun realizəsi mexanizmini, digər tərəfdən isə qanunçuluğun təmin edilməsi üsullarından biridir. [3] Qeyd etmək lazımdır ki, bu vaxta qədər əksər alimlər lisenziyalaşdırmanı icazə sistemi ilə eyniləşdirib və onun **lisenziya** – icazə adlandırırdılar. Sovet inzibati hüququnda **icazə sistemi** dedikdə, bəzi əşyaların və predmetlərin daşınması, istifadəsi, əldə edilməsi, istehsalını, o cümlədən bəzi müəssisələrin açılması və fəaliyyətini nizamlayan qaydaların məcmusu başa düşülür.[4]

**Lisenziyalaşdırma**–dövlətin təhlükəsizliyinin və ölkənin müdafiəsinin, vətəndaşların həyat və sağlamlığının, qanuni maraqlarının, hüquqlarının müdafiəsinin təmin edilməsinə yönələn dövlət nəzarətinin növüdür.

F.V. Knutov hesab edir ki, "... lisenziyalaşdırma - dövlətin,

---

[1] Алехин А.П., Кармолицкий А.Н., Козлов Ю.М. Административное право Российской Федерации. М., 1997.

[2] Предпринимательское право. Курс лекций/Под ред. Н.И. Клейн. М., 1993. с. 208.

[3] Мильшин Ю.Н. Лицензирование как способ обеспечения прав и законных интересов граждан. Круглый стол: Приоритеты правовой политики современной России (окончание) // Правоведение. 1998. № 1.

[4] Советское административное право. Управление в области административно-политической деятельности. М., 1978.

sahibkarların və istehlakçıların maraqların balansını qorumağa imkan verən, hüquqi və fiziki şəxslərin hüquqlarının və qanuni mənafelərini tənzimləyən bir təsir mexanizmidir”.[1]

Lisenziyalaşdırmanın məqsədlərinə dair N.V. Subanovanın fikirləri böyük maraq kəsb edir. Müəllifin fikrincə, lisenziyalaşdırmanın əsas məqsədi işin ayrı-ayrı növlərinin yerinə yetirilməsi nəticəsində yarana biləcək zərərin vurulmaması, qarşısının alınması, o cümlədən aradan qaldırılmasının təminatıdır. Bu məqsədə çatmaqdan ötrü, lisenziya tələblərinə riayət edilməsi məcburidir, lakin əməl edilmədiyi halda sahibkarın sahibkarlıq fəaliyyəti ilə məşğul olmasına icazə verilməyəcək. Bu isə bir növ sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinin təhlükəsizliyinə zəmanət olaraq xidmət edir.[2]

Lisenziyalaşdırmanın **mahiyyəti** lisenziya alana konkret fəaliyyət növünün həyata keçirilməsinə xüsusi razılığın – lisenziyanın verilməsindən ibarətdir. **Lisenziyalaşdırmanın məqsədi** – vətəndaşların sağlamlığının, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi, dövlətin təhlükəsizliyini və ölkənin müdafiəsinin təmin edilməsidir. Lisenziyalaşdırmanın təyinatlarından biri də – azad dövriyyəyə keyfiyyətsiz, saxtalaşdırılmış məhsulların buraxılmasına mane olmaqdır.

İ.S.Lamkinanın fikrincə, lisenziyalaşdırmanın məqsədinə çatmaq üçün öhdəlik hesab edilən lisenziya tələblərinə ciddi şəkildə riayət olunmalı və bu tələblər sahibkar tərəfindən pozulduğu halda əsaslı olaraq öz fəaliyyətinin həyata keçirilməsinə buraxılmayacaq”.[3] Əks mövqedə duran O.M.Oleynik isə hesab edir ki, “li-

---

[1] Кнутов А.В. «Лицензирование отдельных видов экономической деятельности»//Вопросы государственного и муниципального управления, №1, 2014 г.

[2] Субанова Н.В. Вопросы правового регулирования лицензирования предпринимательской деятельности. Вестник академии генеральной прокуратуры Российской Федерации, Изд: Академия Генеральной прокуратуры Российской Федерации (Москва). № 4 (12). 2009. с. 42-47.

[3] Ламкина, И.С. Правовые проблемы лицензирования. – М., 2016. – с.5–11.

senziyalaşdırma məqsədinə çatmağın ən əsas cəhəti lisenziya nəzarətidir, lisenziya verən orqanların fərdi sahibkarlar tərəfindən qanunvericiliyin pozulmasının aşkar edilməsi üsuludur”.[1] Göstərilən mövqelərin təhlilindən çıxış edərək qeyd etmək lazımdır ki, bu mövqelərin hər biri ilə ayrı-ayrılıqda razılaşmaq olar. Belə ki, lisenziya tələblərinə əməl olunması sahibkarlıq fəaliyyətinin təhlükəsiz şəkildə həyata keçirilməsinə zəmanət verir. Digər tərəfdən isə lisenziya tələblərinə əməl olunmasına səlahiyyətli dövlət orqanları tərəfindən lisenziya nəzarətinin həyata keçirilməsi zəruridir.

Bu gün hüquq ədəbiyyatlarında lisenziyalaşdırma anlayışının mahiyyətinə dair vahid bir mövqe formalaşmayıb. Hətta belə bir fikir də qeyd olunur ki, lisenziya müəyyən bir fəaliyyətlə məşğul olmaq üçün maraqlı şəxsə verilən icazə və ya hüquqdur. Belə ki, A.V.Baqandov lisenziyanı “lisenziyalaşdırma orqanı tərəfindən hüquqi şəxsə və ya fərdi sahibkara lisenziya tələblərinə və şərtlərinə məcburi riayət olunmaqla lisenziyalı fəaliyyət növü ilə məşğul olmasına verilən hüquq” kimi başa düşüldüyünü qeyd edir.[2]

A.V. Quşin isə qeyd edir ki, “lisenziya, lisenziyalaşdırma orqanı tərəfindən təsərrüfat subyektinə müəyyən bir fəaliyyət növünu həyata keçirmək hüququnun verilməsi və yaxud müəyyən tələb və şərtlərə riayət olunmasına lisenziyalaşdırma orqanı tərəfindən ilkin və sonrakı nəzarətin həyata keçirilməsi ilə bağlı müəyyən tədbirlərin görülməsidir”.[3] Digər qrup alimlər isə lisenziyanı şəxsin sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq hüququnu təsdiq edən sənəd kimi şərh edirlər. Məsələn, O.S.Sobol müəyyən fəaliyyət növlərinə verilən lisenziyanı – lisenziya tə-

---

[1] Олейник, О.М. Лицензирование предпринимательской деятельности: Проблемы теории и практики. – М., 2015. – с. 1–12.

[2] Багандов А.Б. Общий порядок выдачи лицензий / А.Б. Багандов // Современное право. - 2006. -№ 4. – с. 6-8.

[3] Гущин А.В. Лицензирование в РФ: Правовые и организационные основы / А.В. Гущин. - М.: Дашков и К, 2004.

ləbləri və şərtləri nəzərə almaqla müəyyən və ya qeyri-müəyyən müddət ərzində göstərilən fəaliyyət üçün səlahiyyətli orqan tərəfindən verilən icazə sənədi kimi müəyyən olunmasını təklif edir.[1] Bu mövqeyi dəstəkləyən Y.S.Yuryevin fikrincə isə lisenziyalaşdırma – qanunla müəyyən edilmiş qaydada və müəyyən müddətə (müddət müəyyən edilmədən də) hüquqi şəxsə və fərdi sahibkara lisenziya orqanı tərəfindən müəyyən fəaliyyət növünün həyata keçirilməsinə icazə verən hüquqi sənəddir.[2]

**Lisenziya** dedikdə, konkret fəaliyyət növünün həyata keçirilməsinə lisenziyalaşdırma orqanı tərəfindən verilən xüsusi razılıqdır. Qeyd etmək lazımdır ki, bizim qanunvericilikdə "lisenziya" termini xüsusi sənəd və ya hüquq mənalarında işlədilə bilər. Belə ki, lisenziyanın verilməsi haqqında danışarkən müəyyən fəaliyyət növünün həyata keçirilməsi hüququnu təsdiq edən lisenziya sənədi kimi nəzərdə tutulur. Digər hallarda isə lisenziyanın verilməsi hüquq kimi nəzərdə tutulur. Bu fikrin praktik əhəmiyyəti ondan ibarətdir ki, lisenziya, onun alındığı andan lisenzianta müvafiq müddətədək qanuni fəaliyyət göstərmək hüququ verir.

Hal-hazırda Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyətinin ayrı-ayrı növlərinin həyata keçirilməsi üçün lisenziya və icazələrin verilməsi "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının 15 mart 2016-cı il tarixli 176-VQ nömrəli Qanunu ilə tənzim olunur.

"Lisenziyalar və icazələr haqqında" AR Qanunu lisenziya və icazə sahəsində əsas anlayışları, prinsipləri, lisenziya tələblərini, lisenziyaların və icazələrin verilməsi, dayandırılması, ləğvi, yenidən rəsmiləşdirilməsi qaydalarını təsbit edir.

---

[1] Соболь, О.С. Лицензирование предпринимательской деятельности (правовой аспект): автореф. дис. ...канд. юрид. наук: 12.00.03 / О.С. Соболь; Московск. госуд. юрид. академия. -М., 2004. -34 с.

[2] Юрьева, Ю.С. Лицензирование как форма деятельности органов исполнительной власти: автореф. дис. ...канд. юрид. наук: 12.00.14 / Ю.С. Юрьева; Саратовск. госуд. академия права. - Саратов: 2008. -22 с.

“Lisenziyalar və icazələr haqqında” AR Qanununun 1-ci maddəsində təsbit olunan anlayışlar aparatında lisenziya və icazənin anlayışları təsbit olunmuşdur. Göstərilən normaya əsasən **lisenziya dedikdə,** müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi üçün ərizəçiyə lisenziya verən orqan tərəfindən verilən rəsmi sənəd başa düşülür.

**İcazə** dedikdə isə, müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün icazə verən orqan tərəfindən verilən rəsmi sənəd (icazə, razılıq, sertifikat, şəhadətnamə, akkreditasiya və s.), ərizəçi ilə bağlanılan müqavilə və ərizəçiyə münasibətdə edilən hər hansı digər hərəkət başa düşülür.

Lisenziya və icazə anlayışlarının nisbətini nəzərdən keçirdikdə belə qənaətə gəlmək olar ki, lisenziya ümumilikdə sahibkarlıq fəaliyyəti həyata keçirən şəxsə verilir. Başqa sözlə desək, sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün lisenziya verilir. İcazə isə nəinki sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi, həm də bu fəaliyyətin həyata keçirilməsi ilə bağlı olan müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün verilir. Digər tərəfdən, qanunvericiliyə görə lisenziya birmənalı olaraq, lisenziya verən dövlət orqanı tərəfindən verilən rəsmi sənəd ola bilər. İcazə isə - icazə verən orqan tərəfindən verilən həm rəsmi sənəd, həm də ərizəçi ilə bağlanılan müqavilə və ərizəçiyə münasibətdə edilən hər hansı digər hərəkət ola bilər.

Qanunvericiliyə görə lisenziyanın iki növü fərqləndirilir:

- *ümumi lisenziya;*
- *xüsusi lisenziya.*

Belə ki, “Lisenziyalar və icazələr haqqında” Qanununun 1.0.9.-cu maddəsinə görə **ümumi lisenziya** – lisenziya tələb olunan fəaliyyət növünü onun bütün alt növlərinin hər biri üçün ayrılıqda xüsusi lisenziya almadan həyata keçirmək hüququ verən lisenziyadır. Həmin Qanunun 1.0.10.- cu maddəsinə əsasən **xüsusi**

**lisenziya** – lisenziya tələb olunan fəaliyyət növünün bir və ya bir neçə alt növünü həyata keçirmək hüququ verən lisenziyadır.

"Lisenziyalar və icazələr haqqında" AR Qanununun 4.1.-ci maddəsinə müvafiq olaraq, lisenziya tələb olunan fəaliyyət növləri və icazələr müəyyən fəaliyyət sahəsi istisna olmaqla yalnız "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edildikdən sonra müvafiq sahəni tənzimləyən Azərbaycan Respublikasının digər qanunlarında əks edilir. Burada istisna təşkil edən fəaliyyət sahəsi maliyyə bazarlarıdır. Belə ki, maliyyə bazarlarında fəaliyyət göstərən banklara və bank olmayan kredit təşkilatlarına lisenziyaların verilməsi bankların fəaliyyətini tənzim edən "Banklar haqqında" AR Qanunu ilə tənzim olunur.

Qanunvericilikdə lisenziya tələb olunan fəaliyyət növləri və icazələr aşağıdakı meyarlardan biri nəzərə alınmaqla müəyyən edilir:

- ❖ *fəaliyyət növü dövlət təhlükəsizliyinə təsir edir;*
- ❖ *fəaliyyət növü məhdud təbii ehtiyatlardan istifadəni nəzərdə tutur;*
- ❖ *fəaliyyət növü ətraf mühitin ekoloji vəziyyətinə mənfi təsir göstərə bilər;*
- ❖ *fəaliyyət növü qeyri-məhdud sayda şəxslərin həyatı, sağlamlığı və əmlakı üçün təhlükə doğurur.*

Azərbaycan Respublikasında verilmiş lisenziya və icazə onun bütün ərazisində qüvvədədir.

## 4.3. Lisenziya və icazə sisteminin dövlət tənzimlənməsinin prinsipləri və subyektləri

"Lisenziyalar və icazələr haqqında" AR Qanununun 10-cu maddəsinə müvafiq olaraq, lisenziya və icazə sisteminin **dövlət tənzimlənməsinin prinsipləri** təsbit olunub**:**

❖ **lisenziya tələb olunan fəaliyyət növlərinin və icazələrin müəyyən edilməsinin qanuniliyi, qərəzsizliyi və aşkarlığı**

**prinsipi** – bu prinsip öz əksini "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun **11-ci maddəsində tapmışdır. Adı çəkilən normaya əsasən,** lisenziya və icazə verən orqanlar ictimai iştirakçılığı təmin etməklə lisenziya və icazə sisteminin tənzimlənməsi ilə bağlı hazırladıqları hüquqi aktların layihələrini "Lisenziyalar və icazələr" portalında yerləşdirmək üçün səlahiyyətli orqana elektron qaydada təqdim edirlər.

Sahibkarlıq sahəsinə aid hüquqi aktının layihəsini hazırlayan orqan "Lisenziyalar və icazələr" portalında yerləşdirilmiş layihələrə dair verilən təkliflərə 1 ay müddətində baxılmasını və təklifin qəbul edilmədiyi halda təklif verənə əsaslandırılmış cavab göndərilməsini təmin edir.

❖ **lisenziya tələb olunan fəaliyyət növlərinə və icazələrə, lisenziyanın və icazənin şərtlərinə və verilməsi prosedurlarına dair məlumatların açıqlığı prinsipi** – lisenziya tələb olunan fəaliyyət növlərinin və icazələrin, lisenziya və icazə şərtlərinin siyahısı, onları müəyyən edən hüquqi aktlar (o cümlədən, texniki normativ hüquqi aktlar), lisenziyanın və icazənin, onun dublikatının və əlavəsinin verilməsi, yenidən rəsmiləşdirilməsi, dayandırılması, bərpa edilməsi və ləğvi qaydaları, lisenziya və icazə verən orqan tərəfindən qəbul olunan inzibati aktlardan şikayət verilməsi qaydası, lisenziya və icazə verən orqanın səlahiyyətlərini əks etdirən məlumatlar, lisenziyalara və icazələrə dair hüquqi aktların tətbiqinə dair verilən izahatlar, tez-tez verilən suallara cavablar, habelə sahibkarlıq fəaliyyətinin səmərəliliyinin yüksəldilməsinə xidmət edə biləcək məlumatlar lisenziya və icazə verən orqanların internet saytlarında yerləşdirilməli və "Lisenziyalar və icazələr" portalında yerləşdirmək üçün səlahiyyətli orqana göndərilməlidir.

Sahibkar lisenziya və icazə məsələlərinə dair metodiki yardım göstərilməsi, məsləhət almaq və müvafiq sahədə vəziyyəti qiymətləndirmək üçün lisenziya və icazə verən orqana müraciət etmək və onu yerləşdiyi və ya faktiki fəaliyyət göstərdiyi ünvana

dəvət etmək hüququna malikdir.

Lisenziya və icazə verən orqan sahibkarların daha operativ məlumatlandırılması məqsədi ilə ödənişsiz çağrı xidməti yaratmalıdır.

❖ **lisenziyanın və icazənin "bir pəncərə" prinsipi əsasında verilməsi prinsipi** – lisenziyanın və icazənin verilməsinin sadələşdirilməsi, bununla bağlı inzibati prosedurların, tələb olunan sənədlərin sayının, müddətin və xərclərin azaldılması məqsədi ilə "bir pəncərə" prinsipi tətbiq edilir. Xüsusilə vurğulanmalıdır ki, Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyəti sahəsində "bir pəncərə" prinsipi 2008-ci ilin yanvar ayının 1-dən tətbiq edilir. "Lisenziyalar və icazələr haqqında" AR Qanununun 11-ci maddəsinə görə "bir pəncərə" prinsipi – lisenziyanın və icazənin verilməsi ilə bağlı sadələşdirilmiş inzibati icraatdır.

Qeyd etmək lazımdır ki**, l**isenziyanın və icazənin verilməsinin "bir pəncərə" prinsipi əsasında həyata keçirilməsi aşağıdakıları nəzərdə tutur:

- ✓ *lisenziyanın və icazənin, onun dublikatının və əlavəsinin verilməsinin, yenidən rəsmiləşdirilməsinin, dayandırılmasının, bərpasının və ya ləğvinin ərizəçinin (lisenziya və icazə sahibinin) müraciət etdiyi orqan tərəfindən həyata keçirilməsi;*
- ✓ *lisenziyanın və icazənin, onun dublikatının və əlavəsinin verilməsi, yenidən rəsmiləşdirilməsi, dayandırılması, bərpası və ya ləğvi üçün qanunvericiliyə uyğun olaraq, aidiyyəti dövlət orqan və müəssisələrinin tələb olunan rəyinin (razılığının) və verməli olduqları sənədlərin (icazələrin, aktların və s.) lisenziya və icazə verən orqan tərəfindən alınması;*
- ✓ *lisenziya və icazə verən orqan tərəfindən "Lisenziyalar və icazələr haqqında" AR Qanununun 18.3-cü maddəsində nəzərdə tutulmuş vəzifələrin yerinə yetirilməsi.*

❖ **lisenziyanın və icazənin verilməsinə, yenidən rəsmiləşdirilməsinə, dayandırılmasına, bərpasına və ya ləğvinə susmaqla razılıq prinsipi** – "Lisenziyalar və icazələr haqqında" AR Qanununa əsasən lisenziya və icazə, onun dublikatı və əla-

vəsi, yenidən rəsmiləşdirilmiş lisenziya və icazə, lisenziyanın və icazənin dayandırılması və bərpası haqqında lisenziya verən orqan tərəfindən inzibati akt qəbul edilir. İnzibati akt "Lisenziyalar və icazələr haqqında" AR Qanununda göstərilən müddətdə təqdim edilmədikdə, tələb olunan lisenziya və icazə, onun dublikatı və əlavəsi verilmiş, yenidən rəsmiləşdirilmiş və ya yenidən rəsmiləşdirilməmiş, dayandırılmamış və ya dayandırılmış və ya bərpa olunmuş hesab edilir və ərizəçi barəsində müraciət etdiyi fəaliyyət növünü həyata keçirmək və hərəkəti icra etmək hüququna malikdir, lisenziyanın (icazənin) sahibi isə lisenziyada göstərilən fəaliyyət növünü həyata keçirmək və icazədə göstərilən hərəkəti icra etmək hüququna malikdir.

❖ **lisenziya və icazə tətbiq edilərkən, sahibkarların, cəmiyyətin və dövlətin maraqlarının mütənasibliyi prinsipi -** "Lisenziyalar və icazələr haqqında" AR Qanununun 15-ci maddəsinə əsasən, lisenziya və icazə tətbiq edilərkən sahibkarların, cəmiyyətin və dövlətin maraqlarının balanslaşdırılması təmin edilməlidir. Sahibkarlıq fəaliyyətinin hər hansı növünün həyata keçirilməsi və hərəkət ilə bağlı lisenziyanın və icazənin tətbiqinə yalnız həmin fəaliyyət və hərəkət növünün tənzimlənməsi məqsədlərinə başqa vasitələrlə nail olmaq mümkün olmadığı halda yol verilir. Lisenziyanın və icazənin tətbiqi sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi sahəsində rəqabətin məhdudlaşdırılmasına yönələ bilməz.

❖ **lisenziya və icazə verilməsinin tətbiqi sahəsində tənzimləyici təsirin təhlili prinsipi -** tənzimləyici təsir səlahiyyətli orqan və lisenziya və icazə verən orqan tərəfindən təhlil olunur. Tənzimləyici təsirin təhlili özündə aşağıdakıları ehtiva edir:

- ✓ *lisenziya tələb olunan fəaliyyət növlərinin və icazələrin müəyyən edilməsinə dair qanun layihələrinin qəbul edilməsinin sahibkarlıq fəaliyyətinə mümkün təsirinin qiymətləndirilməsi;*
- ✓ *lisenziya və icazə sisteminin dövlət tənzimlənməsinin prinsipləri, lisenziya tələb olunan fəaliyyət növlərinin və icazə-*

*lərin müəyyənləşdirilməsi meyarları, habelə sahibkarların və dövlətin maraqlarının qorunması amili nəzərə alınmaqla, lisenziya tələb olunan fəaliyyət növlərini və icazələri müəyyən edən qanunların sahibkarlıq fəaliyyətinə təsirinin və qarşıya qoyulan məqsədlərə nail olunmasının qiymətləndirilməsi.*

Tənzimləyici təsirin təhlili qaydası Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 2 noyabr tarixli 432 nömrəli Qərarı ilə təsdiq edilmişdir.

"Lisenziyalar və icazələr haqqında" AR Qanununa müvafiq olaraq, lisenziya və icazə sisteminin dövlət tənzimlənməsinə lisenziyanın və icazənin verilməsi ilə bağlı ərizəçidən yalnız qanunla müəyyən edilmiş hallarda dövlət rüsumunun və ödənişin alınması prinsipi, qanunvericiliyin pozulmasına və bu pozuntular nəticəsində sahibkara dəyən zərərə görə lisenziya və icazə verən orqanın və onun vəzifəli şəxslərinin məsuliyyəti prinsipi, habelə "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının 21 oktyabr 2005-ci il tarixli 1036-IIQ nömrəli Qanununun II və III fəsillərində nəzərdə tutulmuş prinsiplər aid edilə bilər.

Lisenziya və icazələrin verilməsi üzrə münasibətlərin subyektləri qismində ərizəçi, lisenziya verən orqan, icazə verən orqan çıxış edir. "Lisenziyalar və icazələr haqqında" AR Qanununun 1-ci maddəsinə görə **ərizəçi** – lisenziyanın və icazənin alınması üçün lisenziya və icazə verən orqana ərizə ilə müraciət edən, təşkilati hüquqi formasından asılı olmayaraq, hüquqi şəxs, xarici hüquqi şəxsin filialı, nümayəndəliyi və fərdi sahibkardır. Verilən anlayışın təhlilindən çıxış edərək belə nəticəyə gəlmək olar ki, lisenziya və icazə nəinki sahibkarlıq fəaliyyətinin həyata keçirəcək subyektlərə verilir, həm də belə fəaliyyəti həyata keçirməyən subyektlərə də verilə bilər. Buna səbəb kimi anlayışda istifadə olunan "hüquqi şəxs" ifadəsini göstərmək olar. Bildiyimiz kimi "hüquqi şəxs" anlayışı geniş anlayışdır və buraya kommersiya təşkilatları ilə yanaşı qeyri-kommersiya təşkilatlarını, publik hüquqi şəxsləri aid etmək olar. Lakin qanunla müəyyən

edilmiş hallar istisna olmaqla, qeyri-kommersiya təşkilatları, publik hüquqi şəxslər sahibkarlıq fəaliyyətini həyata keçirmir.

"Lisenziyalar və icazələr haqqında" AR Qanununun preambulasında birbaşa qeyd olunur ki, "Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 10-cu bəndlərinə uyğun olaraq, Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyətinin (maliyyə bazarları sahəsində istisna olmaqla) həyata keçirilməsi ilə bağlı lisenziya və icazə sisteminin tənzimlənməsinin hüquqi, iqtisadi və təşkilati əsaslarını müəyyən edir". Deməmk buradan belə qənaətə gəlmək olar ki, **lisenziya və icazələrin verilməsi üzrə münasibətlərdə** ərizəçi qismində sahibkarlıq fəaliyyətini həyata keçirən kommersiya təşkilatları və fərdi sahibkarlar çıxış edə bilər.

Lisenziya və icazələrin verilməsi üzrə münasibətlərin digər subyektlərindən biri də **lisenziya verən orqandır**. "Lisenziyalar və icazələr haqqında" AR Qanununun 1-ci maddəsinə müvafiq olaraq, lisenziya verən orqan lisenziya vermək səlahiyyətinə malik olan dövlət orqanıdır. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının 2016-cı il 15 mart tarixli 176-VQ nömrəli Qanununun tətbiqi barədə Azərbaycan Respublikasi Prezidentinin 20 aprel 2016-cı il tarixli 866 nömrəli Fərmanının 2.3.-cü bəndinə görə dövlət təhlükəsizliyindən irəli gələn hallar istisna olmaqla lisenziya tələb olunan fəaliyyət növlərinə lisenziya Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən verilir. Dövlət təhlükəsizliyindən irəli gələn hallarla əlaqədar lisenziya tələb olunan fəaliyyət növlərinə isə Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Milli Televiziya və Radio Şurası tərəfindən lisenziya verilir. İcazə verən orqan dedikdə isə icazə vermək səlahiyyətinə malik olan inzibati orqan başa düşülür.

"Lisenziyalar və icazələr haqqında" AR Qanununun 7-ci maddəsinə əsasən lisenziya və icazə sisteminin tənzimlənməsi ilə əlaqədar səlahiyyətli orqanın funksiyaları aşağıdakılardır:

- ✓ *lisenziya və icazə sahəsində dövlət siyasətinin işlənib hazırlanmasında iştirak edir və həmin siyasətin həyata keçirilməsini təmin edir;*
- ✓ *lisenziyalar və icazələr haqqında Azərbaycan Respublikası qanunvericiliyinin təkmilləşdirilməsi ilə bağlı təkliflər verir və hüquqi aktların layihələrini hazırlayır;*
- ✓ *lisenziya və icazə verən orqanlar, habelə digər dövlət orqanları və təsərrüfat subyektləri tərəfindən lisenziyalar və icazələr haqqında Azərbaycan Respublikası qanunvericiliyinə riayət olunmasına nəzarət edir, habelə lisenziyaların və icazələrin tətbiqinə dair izahatlar verir;*
- ✓ *lisenziya və icazə verən orqanlara bu sahədə metodiki rəhbərliyi və onların informasiya təminatını həyata keçirir;*
- ✓ *ölkədə verilmiş lisenziyaların və icazələrin vahid reyestrini aparır;*
- ✓ *"Lisenziyalar və icazələr" portalının fəaliyyətinin təmin edilməsində və idarə olunmasında iştirak edir;*
- ✓ *tənzimləyici təsirin təhlilində iştirak edir;*
- ✓ *Azərbaycan Respublikasının Nazirlər Kabinetinin təsdiq etdiyi formada lisenziya blanklarının və əlavələrinin Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada hazırlanmasına sifariş verir, onların bölgüsünü həyata keçirir, blanklardan istifadənin uçotunu və hesabatını aparır.*

## 4.4. Lisenziya və icazələrin verilməsi, dayandırılması və ləğvi

"Lisenziyalar və icazələr haqqında" AR Qanununun 18-ci maddəsinə görə ərizəçi lisenziyanın və icazənin alınması üçün lisenziya və icazə verən orqana ərizəni və qanunvericiliklə müəyyən edilmiş aşağıda göstərilən sənədləri təqdim edir:

- ✓ *ərizəçi hüquqi şəxs, xarici hüquqi şəxsin filialı, nümayəndəliyi olduqda, hüquqi şəxslərin dövlət reyestrindən çıxarışın surəti;*

- ✓ *ərizəçi fərdi sahibkar olduqda, şəxsiyyət vəsiqəsinin surəti;*
- ✓ *ərizəçinin vergi ödəyicisi kimi uçota alınması haqqında şəhadətnamənin surəti;*
- ✓ *ərizədə qeyd olunan obyektlərdən hər biri üzərində ərizəçinin mülkiyyət, istifadə və ya icarə hüququnu təsdiq edən sənədin surəti (əgər lisenziya tələb olunan fəaliyyətin həyata keçirilməsi və icazə tələb olunan hərəkətin yerinə yetirilməsi obyektlə bağlıdırsa);*
- ✓ *lisenziya və icazə şərtlərinin (qanunla nəzərdə tutulduqda) yerinə yetirilməsini təsdiq edən sənədlər.*

Lisenziya və icazə verən orqan ərizəçinin təqdim etdiyi ərizənin və ona əlavə edilmiş sənədlərin “Lisenziyalar və icazələr haqqında” AR Qanununun tələblərinə uyğunluğunu yoxlayır. Lisenziya və icazə verən orqan ərizəçi tərəfindən təqdim olunan ərizədə və ona əlavə edilmiş sənədlərdə aradan qaldırılması mümkün olan və lisenziyanın və icazənin verilməsindən imtinaya səbəb olmayan çatışmazlıqlar aşkar etdikdə, ərizənin qeydiyyata alındığı tarixdən **5 iş günündən gec olmayaraq** lisenziya və icazə verən orqan aşkar edilmiş çatışmazlıqların aradan qaldırılması barədə məlumatı ərizəçiyə təqdim edir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərir və formal tələblərə əməl olunmamasının hüquqi nəticələrini ona izah edir. Ərizəçi həmin çatışmazlıqları məlumatı aldığı vaxtdan **ən geci 10 iş günü ərzində** aradan qaldırmalıdır. Bu zaman lisenziyanın və icazənin verilməsi ilə bağlı müddətin axımı dayandırılır və dayandırılmış müddət lisenziyanın və icazənin verilməsi müddətinə daxil edilmir.

“Lisenziyalar və icazələr haqqında” AR Qanununun 19.6.-cı maddəsinə müvafiq olaraq, lisenziya və icazə verən orqan tərəfindən təqdim edilən ərizəyə baxılarkən:

- ❖ *sahibkarlıq fəaliyyəti növünün xüsusiyyətlərindən asılı olaraq, qanunvericiliklə nəzərdə tutulmuş qaydada aidiyyəti dövlət orqan və müəssisələrinin rəyini (razılığını) alır;*

- *lisenziyanın və icazənin, onun dublikatının və əlavəsinin verilməsi, yenidən rəsmiləşdirilməsi, dayandırılması, bərpası və ya ləğvi üçün qanunvericiliyə uyğun olaraq, aidiyyəti dövlət orqan və müəssisələrinin verməli olduqları sənədlərin (icazələrin, aktların və s.) alınması üçün tədbirlər görür;*
- *sahibkarlıq fəaliyyəti növünün və hərəkətin xüsusiyyətlərindən asılı olaraq, faktiki hallarla bağlı sualları izah etmək üçün qanunvericiliyə uyğun olaraq, ekspert və ya mütəxəssis cəlb edə bilər;*
- *lisenziya tələb olunan fəaliyyət növünün həyata keçirilməsi və icazə tələb olunan hərəkətin yerinə yetirilməsi obyektlə bağlı olduqda, həmin obyektin lisenziya (icazə) alınması üçün təqdim edilən ərizəyə əlavə olunan sənədlərdə göstərilən məlumatlara uyğunluğunu yerində qiymətləndirir.*

Lisenziya və icazə verən orqan ərizəçinin təqdim etdiyi ərizənin və ona əlavə edilmiş sənədlərin qanunvericiliyin tələblərinə uyğunluğunu yoxlayır və Azərbaycan Respublikasının qanunvericiliyində daha qısa müddət müəyyən edilməyibsə, lisenziya verən orqan təqdim olunmuş ərizəyə və ona əlavə edilmiş sənədlərə baxılmasının nəticəsi əsasında ərizənin qeydiyyata alındığı tarixdən **10 iş günündən gec olmayaraq** lisenziyanı verir və ya verilməsindən imtina haqqında inzibati akt qəbul edir.

Xüsusilə qeyd olunmalıdır ki, sellülar (mobil) rabitə xidmətlərinin göstərilməsi üzrə sahibkarlıq fəaliyyətinin növünə lisenziyanın verildiyi tarixdən **30 gün müddətində** lisenziya sahibi ilə lisenziya verən orqan arasında lisenziya müqaviləsi bağlanılmalıdır. Əks halda, yəni lisenziya müqaviləsi bağlanılmadıqda, sellülar (mobil) rabitə xidmətlərinin göstərilməsi üzrə sahibkarlıq fəaliyyətinin növünə növünə verilmiş lisenziya hüquqi nəticələr yaratmır.

İcazələrin verilməsinə gəldikdə isə qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının qanunvericiliyində daha qısa

müddət müəyyən edilməyibsə, icazə verən orqan təqdim olunmuş ərizəyə və ona əlavə edilmiş sənədlərə baxılmasının nəticəsi əsasında ərizənin qeydiyyata alındığı tarixdən **7 iş günündən gec olmayaraq** icazəni verir və ya verilməsindən imtina haqqında inzibati akt qəbul edir. Lisenziya və icazə verən orqanın rəhbəri və ya onun həvalə etdiyi vəzifəli şəxs tərəfindən lisenziya və icazə imzalanır və möhürlə təsdiq edilir.

"Lisenziyalar və icazələr haqqında" AR Qanununun 19.12.-ci maddəsinə görə lisenziyada və icazədə aşağıdakılar göstərilir:

- ❖ *lisenziyanın və icazənin verilmə tarixi və qeydiyyat nömrəsi;*
- ❖ *lisenziya və icazə verən orqanın adı və ünvanı;*
- ❖ *lisenziyanın (icazənin) sahibi barədə məlumatlar (hüquqi şəxsin, xarici hüquqi şəxsin filialının və nümayəndəliyinin adı və hüquqi ünvanı, fərdi sahibkarın soyadı, adı, atasının adı və fəaliyyət ünvanı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi);*
- ❖ *əgər varsa, lisenziyanın (icazənin) müddəti (başlama və başa çatma tarixləri göstərilməklə);*
- ❖ *lisenziya verilən fəaliyyət növü və icazə verilən hərəkət.*

Aşağıda göstərilən hallar olduqda lisenziya və icazə verən orqan lisenziyanın və icazənin verilməsindən imtina edir:

- ➢ *ərizədə və ona əlavə olunmuş sənədlərdə qanuna uyğun olmayan məlumatlar olduqda;*
- ➢ *ərizəçi lisenziya və icazə verilməsi şərtlərini yerinə yetirmədikdə.*

Lisenziyanın və icazənin verilməsindən imtina haqqında inzibati akt imtina hallarına istinad edilməklə, əsaslandırılmalıdır. Ərizəçi həmin inzibati aktdan inzibati qaydada və məhkəməyə şikayət verə bilər.

"Lisenziyalar və icazələr haqqında" AR Qanununun 1 və 2 nömrəli əlavələrində təsbit olunan sahibkarlıq fəaliyyətinin növlərinə lisenziyalar **müddətsiz verilir.** Yalnız sellülar (mobil) rabitə xidmətlərinin göstərilməsi üzrə sahibkarlıq fəaliyyətinin növünə lisenziya **10 il müddətinə verilir.** Qanunvericilik aktla-

rında müddət müəyyən edilməyibsə, icazələr də müddətsiz verilir. Müddəti bitmiş lisenziya və icazə etibarsız hesab olunur.

Aşağıda göstərilən hallarda lisenziya və icazə verən orqanın inzibati aktı ilə verilmiş lisenziya və icazə dayandırılır:

- ✓ *lisenziya (icazə) sahibi tərəfindən müvafiq ərizə təqdim edildikdə;*
- ✓ *lisenziyanın (icazənin) sahibi lisenziya və icazə şərtlərinin pozulması hallarının aradan qaldırılmasına dair lisenziya və icazə verən orqanın, həmçinin müvafiq nəzarət orqanının göstərişlərini yerinə yetirmədikdə;*
- ✓ *Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş digər hallarda.*

Həmin inzibati aktda dayandırılmaya əsas verən hallar və lisenziyanın və icazənin dayandırıldığı müddət göstərilməlidir. İnzibati aktda həmçinin dayandırılmaya əsas verən halların aradan qaldırılması üçün görülməli olan tədbirlər və lisenziyanın və icazənin dayandırıldığı müddətdə həmin halların aradan qaldırılmamasının nəticəsi göstərilməlidir.

Lisenziyanın (icazənin) sahibi lisenziyanın və icazənin dayandırıldığı müddət bitənədək inzibati aktda göstərilən halları aradan qaldırmalı və nəticəsi barədə **3 iş günü müddətində** lisenziya və icazə verən orqana yazılı məlumat verməlidir. Lisenziya (icazə) sahibinin təqdim etdiyi yazılı məlumata əsasən lisenziya və icazə verən orqanın inzibati aktı ilə bərpa olunur.

Lisenziyanın və icazənin dayandırılması və bərpa olunması haqqında inzibati akt qəbul olunduğu tarixdən **2 iş günü müddətində** lisenziyanın (icazənin) sahibinə təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir. Lisenziyanın (icazənin) sahibi lisenziyanın və icazənin dayandırılması haqqında inzibati aktdan inzibati qaydada və məhkəməyə şikayət verə bilər.

Aşağıda göstərilən hallarda lisenziya və icazə verən orqanın inzibati aktı ilə verilmiş lisenziya və icazə ləğv edilir:

- ✓ *lisenziyanın (icazənin) sahibi tərəfindən müvafiq ərizə təqdim edildikdə;*
- ✓ *lisenziyanın (icazənin) müddəti bitdikdə;*
- ✓ *lisenziyanın (icazənin) sahibi olan hüquqi şəxs, xarici hüquqi şəxsin filialı, nümayəndəliyi ləğv edildikdə;*
- ✓ *lisenziyanın (icazənin) sahibi olan fiziki şəxsin fərdi sahibkar kimi fəaliyyətinə xitam verildikdə;*
- ✓ *məhkəmənin müvafiq qərarı olduqda;*
- ✓ *lisenziyanın və icazənin verilməsi üçün təqdim edilmiş sənədlərdə sonralar düzgün olmayan məlumatlar aşkar edildikdə;*
- ✓ *"Lisenziyalar və icazələr haqqında" AR Qanununun 25.4-cü maddəsində göstərilən məsələ ilə bağlı lisenziya və icazə verən orqana yazılı məlumat verilmədikdə;*
- ✓ *lisenziyada göstərilmiş fəaliyyət növü və icazə lisenziya tələb olunan fəaliyyət növlərinin və icazələrin siyahısından çıxarıldıqda;*
- ✓ *Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş digər hallarda.*

Məhkəmənin müvafiq qərarı əsasında lisenziya və icazənin ləğv edilməsi halı istisna olmaqla yuxarıda göstərilən hallar əsasında lisenziya və icazə verən orqanın inzibati aktı ilə lisenziya və icazə ləğv edilir. Həmin inzibati akt qəbul olunduğu tarixdən **2 iş günü müddətində** lisenziyanın (icazənin) sahibinə təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir. Lisenziyanın (icazənin) sahibi lisenziyanın və icazənin ləğvi haqqında inzibati aktdan inzibati qaydada və məhkəməyə şikayət verə bilər.

## 4.5. Sahibkarlıq fəaliyyəti sahəsində yoxlamaların aparılmasının hüquqi tənzimlənməsi

Dövlət sahibkarlıq fəaliyyəti subyektlərinə dövlət nəzarətini həyata keçirməklə yanaşı, onların hüquqlarının və qanuni maraqlarının müdafiəsini təmin edilməsi ilə bağlı tədbirlər görür. Belə ki, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının 2 iyul 2013-cü il tarixli 714-IVQ nömrəli Qanunu qəbul olunmuşdur.[1]

Yoxlamaların məqsədi sahibkarlıq fəaliyyətinə dair məcburi tələblərə sahibkarlar tərəfindən riayət olunmasının təmin edilməsi, o cümlədən bu sahədə yoxlayıcı orqan tərəfindən sahibkarlara kömək göstərilməsi yolu ilə insanların həyat və ya sağlamlığının, ətraf mühitin və dövlətin əmlak maraqlarının təhlükəsizliyinin təmin edilməsindən ibarətdir.

Sahibkarlıq fəaliyyəti sahəsində yoxlamalar yoxlayıcı orqan və onun vəzifəli şəxsi tərəfindən aparılır. Qanunun 1-ci maddəsinə əsasən, yoxlayıcı orqan – qanun əsasında sahibkarlıq sahəsində yoxlama aparmaq səlahiyyəti verilmiş dövlət orqanıdır. Yoxlayıcı isə yoxlayıcı orqanın məsuliyyət daşıdığı nəzarət sahəsi üzrə yoxlama aparmaq səlahiyyəti verilmiş vəzifəli şəxsdir. Qanun sahibkarlıq sahəsində yoxlamaların aparılması sahəsində yoxlama aparmaq səlahiyyəti verilmiş yoxlayıcıya dair müəyyən tələbləri, habelə yoxlayıcının yoxlama aparılmasını qadağan edən halları müəyyən edir. Belə ki, yoxlayıcı yüksək peşəkarlıq tələblərinə cavab verməlidir. Yoxlayıcı orqana işə qəbul olunmuş şəxslər yoxlamaya buraxılmamışdan əvvəl yoxlama prosedurlarına dair təlim keçməlidirlər. Təlim yoxlayıcı orqan tərəfindən yoxlayıcıların peşəkarlığının artırılması məqsədi ilə **ildə ən azı bir dəfə** təşkil edilir. Yoxlayıcı aşağıdakı hallarda yoxlama apara bilməz:

---

[1] Azərbaycan qəzeti, 29 avqust 2013-cü il, №188

- ❖ *yoxlanılan hüquqi şəxsin təsisçisi (iştirakçısı) olduqda;*
- ❖ *yoxlanılan fərdi sahibkarın, hüquqi şəxsin təsisçisinin (iştirakçısının), idarəetmə orqanlarının üzvlərinin (rəhbərinin) yaxın qohumu olduqda.*[1]

Qanunda risk qrupunun meyarları təsbit olunub ki, onların əsasında yoxlayıcı **yüksək**, **orta** və **aşağı** risk qrupunu müəyyənləşdirir. **Risk qruplarının müəyyənləşdirilməsi meyarları** – sahibkarın fəaliyyətinin xüsusiyyətləri ilə bağlı olan və sahibkarların müxtəlif risk qruplarına aid olunması üçün istifadə edilən kəmiyyət və (və ya) keyfiyyət göstəricilərinin məcmusudur.

Qanunun 9.3-cü maddəsinə əsasən, risk qruplarının müəyyənləşdirilməsi meyarları sahibkarların fəaliyyətinin kəmiyyət və (və ya) keyfiyyət göstəriciləri (xüsusiyyətləri) əsasında müəyyən edilir və bu zaman aşağıdakı amillər nəzərə alınır:

- ✓ *sahibkarın fəaliyyətinin miqyası;*
- ✓ *sahibkarın müvafiq sahədə fəaliyyət göstərdiyi müddət;*
- ✓ *sahibkar tərəfindən istehsal edilən məhsulun (görülən işin, göstərilən xidmətin) xüsusiyyətləri və (və ya) onun fəaliyyət sahəsi;*
- ✓ *müxtəlif statistik məlumatlar (sahibkarın fəaliyyət sahəsində mənfi fəsadların baş verməsi, sahibkarın fəaliyyət göstərdiyi sahədə məcburi tələblərin pozulması vəziyyəti və s.);*
- ✓ *sahibkarda əvvəllər aparılmış yoxlamaların nəticələri;*
- ✓ *sahibkarın icbari hesabatlılığında uyğunsuzluqların və ziddiyyətlərin olması.*

Yoxlayıcı orqan sahibkarları risk qrupları üzrə bölüşdürərkən aşağıdakı şərtlərə əməl etməlidir:

- ✓ *yoxlanılan sahibkarların ümumilikdə 10 faizindən çox olmayan hissəsi **yüksək risk qrupuna** aid edilməlidir;*
- ✓ *yoxlanılan sahibkarların ümumilikdə 30 faizindən çox olmayan hissəsi **orta risk qrupuna** aid edilməlidir;*

---

[1] **yaxın qohum** dedikdə, valideynlər, babalar, nənələr, doğma və ögey qardaşlar və bacılar, övladlığa götürənlər, ər-arvad, uşaqlar və nəvələr nəzərdə tutulur.

- ✓ *yüksək və orta risk qruplarına aid edilməyən sahibkarlar* ***aşağı risk qrupuna*** *aid edilməlidir.*

Sahibkarın iki və ya daha artıq risk qrupuna aid edilməsi mümkün olduqda, o, daha yüksək risk qrupuna aid edilir. Risk qruplarının müəyyənləşdirilməsi meyarlarına (onların məzmunu və seçilməsi) üç ildə bir dəfədən az olmayaraq təhlil edilərək yenidən baxılır. Sahibkarda plan üzrə (növbəti) yoxlamaların aparılması dövriliyi onun aid olduğu risk qrupundan asılıdır və hər risk qrupu üçün müəyyən edilmiş dövrilikdən artıq dövriliklə aparıla bilməz.

Yeyinti məhsullarının təhlükəsizliyinə nəzarət sahəsi istisna olmaqla, digər sahələrdə plan üzrə (növbəti) yoxlamalar aşağıdakı dövriliklə aparılır:

- ✓ *yüksək risk qrupuna aid edilən sahibkara münasibətdə - ildə bir dəfədən çox olmayaraq;*
- ✓ *orta risk qrupuna aid edilən sahibkara münasibətdə - iki ildə bir dəfədən çox olmayaraq;*
- ✓ *aşağı risk qrupuna aid edilən sahibkara münasibətdə - üç ildə bir dəfədən çox olmayaraq.*

Qanun sahibkarlıq sahəsində yoxlamaları iki növünü müəyyən etmişdir: **plan üzrə (növbəti) yoxlama** və **plandankənar (növbədənkənar) yoxlama**. Plan üzrə (növbəti) yoxlama yoxlayıcı orqanın tərtib etdiyi və vahid məlumat reyestrinə daxil edilmiş illik plan əsasında və həmin planda göstərilən tarixlərdə aparılır.

Plandankənar (növbədənkənar) yoxlama aşağıdakı hallarda aparılır:

- ✓ *yoxlayıcı orqan məhdudlaşdırıcı tədbirin tətbiqi barədə qərarda göstərilən tədbirlərin yerinə yetirilməsi barədə xəbərdarlığı aldığı tarixdən üç iş günü ərzində həmin tədbirlərin yerinə yetirilməsi vəziyyətinin yoxlanıldıqda;*
- ✓ *sonuncu yoxlama nəticəsində aşkar edilmiş pozuntuların və ya onların nəticələrinin müəyyən edilmiş müddət ərzin-*

*də aradan qaldırılmasına dair çıxarılmış qərarın yerinə yetirilməsi haqqında sahibkar tərəfindən yoxlayıcı orqana məlumat verilmədikdə və ya verilmiş məlumatın yanlış olduğu müəyyən edildikdə;*

- ✓ *insanların həyat və ya sağlamlığına, ətraf mühitə və dövlətin əmlak maraqlarına birbaşa və mühüm təhlükənin olması və ya mühüm zərərin vurulması barədə hüquqi və fiziki şəxslərdən, dövlət və yerli özünüidarəetmə orqanlarından yoxlayıcı orqana konkret faktlara əsaslanan rəsmi müraciətlər (məlumatlar) daxil olduqda, habelə kütləvi informasiya vasitələrində məlumatlar yayıldıqda;*
- ✓ *sahibkar plandankənar (növbədənkənar) yoxlamanın aparılması barədə yoxlayıcı orqana müraciət etdikdə.*

Yoxlama yoxlayıcı orqanın rəhbəri və ya onu əvəz edən şəxs tərəfindən imzalanan qərar əsasında aparılır. Yoxlayıcı orqan tərəfindən plan üzrə (növbəti) yoxlamanın başlanmasına **ən azı beş iş günü** qalmış sahibkara yoxlamanın aparılması haqqında qərarın surəti, həmçinin yoxlama zamanı sahibkarın və yoxlayıcı orqanın hüquq və vəzifələrinin izahı göndərilir. Plandankənar (növbədənkənar) yoxlamanın aparılması haqqında qərar sahibkara yoxlamanın **başlandığı an** təqdim edilir.

Qanunun 18.1.-ci maddəsinə əsasən, sahibkarların iri, orta və kiçik olmasından asılı olaraq plan üzrə (növbəti) və plandankənar (növbədənkənar) yoxlamaların müddəti müəyyən edilir. Plan üzrə (növbəti) yoxlamanın müddəti iri sahibkarlarda **on iş günündən**, orta və kiçik sahibkarlarda **beş iş günündən** artıq olmamalıdır. Plandankənar (növbədənkənar) yoxlamanın müddəti iri sahibkarlarda **beş iş günündən**, orta və kiçik sahibkarlarda **üç iş günündən** artıq olmamalıdır.

Yoxlamanın nəticələri iki nüsxədə tərtib edilmiş **yoxlama aktı** ilə rəsmiləşdirilir. Yoxlama aktı yoxlamada iştirak etmiş yoxlayıcılar tərəfindən imzalandıqdan sonra sahibkara və ya onun səlahiyyətli nümayəndəsinə imzalanmaq üçün təqdim edilir. Yoxlama aktının və ona əlavə edilmiş sənədlərin bir nüsxəsi sa-

hibkara və ya onun səlahiyyətli nümayəndəsinə təqdim edilir, digər nüsxəsi isə yoxlayıcı orqanda qalır. Yoxlama aktının sahibkar və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən imzalanması sahibkarın yoxlama aktının məzmunu ilə və ona əlavə edilmiş sənədlərlə razı olması faktını deyil, tanış olması faktını təsdiq edir.

Qanunun 33.2.-ci maddəsinə əsasən, yoxlama materiallarına baxılmasının nəticələri üzrə aktın rəsmiləşdirilməsindən sonra ən geci **15 iş günü müddətində** yoxlayıcı orqan tərəfindən aşağıdakılar barəsində qərar çıxarılır:

- ✓ *sahibkarlıq fəaliyyətinə dair məcburi tələblərin pozulması aşkar olunmadıqda qanun pozuntusunun aşkar olunmaması haqqında;*
- ✓ *inzibati xətanın əlamətləri aşkar olunduqda, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində müəyyən edilmiş müddətlərdə və qaydada inzibati xəta haqqında iş üzrə icraata başlanılması və aşkar olunmuş pozuntuların aradan qaldırılması haqqında;*
- ✓ *cinayət əlamətləri aşkar edildikdə, toplanmış materialların aidiyyəti üzrə prokurorluğa, təhqiqat və ya istintaq orqanlarına göndərilməsi və aşkar olunmuş pozuntuların aradan qaldırılması haqqında;*
- ✓ *məsuliyyətə səbəb olan digər qanun pozuntuları aşkar edildikdə qanunla müəyyən edilən məsuliyyət tədbirləri və aşkar olunmuş pozuntuların aradan qaldırılması haqqında.*

Yoxlamanın nəticələri üzrə qərar yoxlayıcı orqanın rəhbəri və ya onu əvəz edən şəxs tərəfindən imzalanır və yoxlamanın nəticələri üzrə qərarın surəti çıxarıldığı vaxtdan üç iş günündən gec olmayaraq sahibkara təqdim edilir, qərarın əsli isə yoxlayıcı orqanda saxlanılır.

Əgər sahibkar yoxlayıcı orqanın qərarından şikayət verərsə, onda bu şikayətə yuxarı dövlət orqanı tərəfindən **15 iş günü müddətində** baxılır və aşağıdakı qərarlardan biri qəbul edilir:

- ✓ *yoxlayıcı orqanın qərarının qüvvədə saxlanılması haqqında;*
- ✓ *yoxlayıcı orqanın qərarının ləğv edilməsi haqqında;*
- ✓ *yoxlayıcı orqanın qərarında dəyişiklik edilməsi haqqında.*

**Mövzu üzrə nəticə:**

**Sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsi** dedikdə, sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi sahəsində dövlət siyasətinin realizəsinə yönəlmiş dövlətin və onun orqanlarının fəaliyyəti başa düşülür. Sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsinin **məqsədi** ölkə iqtisadiyyatının normal fəaliyyətini təmin edən zəruri şərtlərin yaradılmasıdır. Dövlət tənzimlənməsinin əsasən iki metodu müəyyən edilir: **düzünə və dolayı metodlar.**

**Sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsinin forması** dedikdə, qanunla nəzərdə tutulmuş nəticələrlə bağlı olan aktdır (planlı akt, məqsədli proqramlar, icazələr, kvotalar, lisenziyalar, göstərişlər və s.).

**Sahibkarlıq fəaliyyəti sahəsində dövlət nəzarəti dedikdə**, sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi, o cümlədən onun idarə edilməsi zamanı normativ hüquqi aktların tələblərinə dövlət hakimiyyəti orqanları və sahibkarlıq fəaliyyəti subyektləri tərəfindən əməl olunmasına nəzarət və müşahidə sistemidir. Nəzarətin mərhələsindən və yoxlamanın məqsədlərindən asılı olaraq **ilkin**, **cari**, **sonrakı** nəzarət növləri fərqləndirilir.

Vergi yoxlamasının iki növü var: **kameral** vergi yoxlaması və **səyyar** vergi yoxlaması. Səyyar vergi yoxlaması özü də iki növə ayrılır: **növbəti** səyyar vergi yoxlaması və n**övbədənkənar** səyyar vergi yoxlaması.

**Lisenziyalaşdırma dedikdə** – lisenziyaların verilməsi, rəsmiləşdirilməsi, dayandırılması, təkrar verilməsi, ləğv edilməsi, o cümlədən lisenziya qaydalarına əməl olunmasına nəzarət üzrə lisenziya orqanlarının hərəkətləri başa düşülür. **Lisenziyalaşdırmanın məqsədi** – vətəndaşların sağlamlığını, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi, dövlətin təhlükəsizliyinin və

ölkənin müdafiəsinin təmin edilməsidir. **Lisenziya dedikdə,** müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi üçün ərizəçiyə lisenziya verən orqan tərəfindən verilən rəsmi sənəd başa düşülür. Lisenziyanın iki növü var: **ümumi və xüsusi lisenziya. Ümumi lisenziya** – lisenziya tələb olunan fəaliyyət növünü onun bütün alt növlərinin hər biri üçün ayrılıqda xüsusi lisenziya almadan həyata keçirmək hüququ verən lisenziyadır. **Xüsusi lisenziya** – lisenziya tələb olunan fəaliyyət növünün bir və ya bir neçə alt növünü həyata keçirmək hüququ verən lisenziya. **İcazə dedikdə,** müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün icazə verən orqan tərəfindən verilən rəsmi sənəd üzrə, razılıq, sertifikat, şəhadətnamə, akkreditasiyası və s.), ərizəçi ilə bağlanılan müqavilə və ərizəçiyə münasibətdə edilən hər hansı digər hərəkət başa düşülür.

Sahibkarlıq sahəsində yoxlamaları iki növünü müəyyən etmişdir: **plan üzrə (növbəti) yoxlama** və **plandankənar (növbədənkənar) yoxlama**.

## Mövzunun mənimsənilməsi üçün tövsiyə olunan ədəbiyyat:

### *a) əsas ədəbiyyat:*


1. Azərbaycan Respublikasının Vergi Məcəlləsi. Bakı, 2010. IV fəsil.
2. “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının 2 iyul 2013-cü il tarixli, 714-IVQ nömrəli Qanunu.
3. “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının 15 mart 2016-cı il tarixli, 176-VQ nömrəli Qanunu.
4. Багандов А.Б. Лицензированное право РФ: теория, практика, законодательство: учебник / под ред. Ю.А. Дми-

триева. М.: Эксмо, 2004. 640 с.

5. Государственное регулирование экономики /Под ред. А.Н. Петрова. Ч. 1, 2. СПб., 1999.

6. Государственное регулирование рыночной экономики /Под общей ред. В.И. Кушлина, Н А. Волгина. М., 2000.

7. Гущин А.Б. Лицензирование в РФ: правовые и организационные основы. М.: Дашков и К, 2004. 70 с.

8. Миронов В.Ф. Федеральное законодательство о лицензировании отдельных видов деятельности в России. М.: Норма: Инфра-М, 2001. 416 с.

9. Шишкин С.Н. Предпринимательско-правовые (хозяйственно-правовые) основы государственного регу-лирования экономики: монография. М.: Инфотропик Медиа, 2011. 328 с.

### *b) əlavə ədəbiyyat:*

10. Макаров О. В. Правовой режим государствен-ного регулирования экономики и предпринимательской деятельности: содержание, проблемы, формы / О.В. Макаров // Рос. Юстиция. 2011, №8, с. 50-54.

11. Гущин А.В. Лицензионное право // Право и экономика. 2004, №2, с. 8-12.

12. Попов Н. Лицензирование деятельности в облас-ти связи и информатизации // Закон. 1999, № 2, с. 110.

13. Спектор А. А. Предпринимательская деятель-ность как объект государственного контроля (надзора) / А. А. Спектор // Государств. Власть и мест. самоупр. 2013, №8, с. 44-46.

14. Спектор А. А. Особенности государственного контроля (надзора) при регулировании отдельных видов деятельности / А. А. Спектор // Предпринимат. право. Прил. «Бизнес и право в России и за рубежом». 2013, № 4, с. 31-34.

15. Якушева С. Соотношение лицензирования и специальной правоспособности // Российская юстиция. 2003. №11. с. 16-17.

# V FƏSİL
# DÖVLƏT ƏMLAKININ ÖZƏLLƏŞDİRİLMƏSİNİN HÜQUQİ TƏNZİMLƏNMƏSİ

## 5.1. Dövlət əmlakının özəlləşdirilməsinin anlayışı, subyektləri və obyektləri

Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsi sahəsində yaranan münasibətlər "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikasının 16 may 2000-ci il tarixli 878-IQ nömrəli Qanunu, "Azərbaycan Respublikasında Dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 10 avqust 2000-ci il tarixli 383 nömrəli Fərmanı, "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun icrası ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 23 dekabr 2000-ci il tarixli 432 nömrəli Fərmanı ilə tənzim olunur.

"Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dövlət əmlakının özəlləşdirilməsinə dair təsbit olunmuş anlayışın təhlilinə keçməzdən əvvəl özəlləşdirməyə anlayış vermək, onun mahiyyətini və əlamətlərini açıqlamaq daha məqsədəmüvafiq olardı.

İlk növbətdə qeyd edilməlidir ki, "özəlləşdirmə" termini latın sözü *"privatus"* olub, mənası xüsusi, xüsusi mülkiyyətdə olan deməkdir. Bu terminin elmi dövriyyəyə daxil edilməsi amerika alimləri Piter Druker (1969) və Robert U.Pul (1976) ilə bağlıdır. Xarici ədəbiyyatda fərqli fikirlər də mövcuddur. Belə ki, Uebsterin lüğətində qeyd olunur ki, elmi anlayış kimi "özəlləşdirmə"

termini 1948-ci ildə istifadə edilmişdir.[1] E.A. Tyapkina qeyd edir ki, “özəlləşdirmə” anlayışı ilk dəfə Uebsterin lüğətinin 1983-cü il nəşrində təsbit olunmuşdur və “ayrı bir müəssisənin və ya sahənin ictimai idarəetmə formasının və ya mülkiyyətin özəl, xüsusi hala çevrilməsi” kimi açıqlaması verilmişdir.[2] Başqa sözlə desək, klassik mənada özəlləşdirmə dövlət mülkiyyətinin hökmranlığından uzaqlaşaraq xüsusi mülkiyyətə keçididir.

Elmi ədəbiyyatlarda özəlləşdirməyə verilən anlayşların təhlilindən çıxış edərək belə qənaətə gəlmək olar ki, özəlləşdirmə dar və geniş mənalarda nəzərdən keçirilir. Geniş mənada özəlləşdirmənin anlayışını əsasən iqtisadiyyat elminin nümayəndələri, dar mənada isə hüquq elminin nümayəndələri təsbit edir.[3]

Belə ki, V.M. İqnatov hesab edir ki, geniş mənada özəlləşdirmə təsərrüfatın inkişafında özəl sektorun payının artırılması və dövlət sektorunun azaldılması vasitəsilə iqtisadiyyatı tənzimləyən institutlardan biri kimi başa düşülür. Dar mənada özəlləşdirmə isə fiziki və hüquqi şəxslərin kapitalına mülkiyyət hüququnun tam və ya qismən verilməsi kimi nəzərdən keçirdir.[4] S.İ. Komaritskiy isə hesab edir ki, özəlləşdirmə mülkiyyət hüququnun hüquqi tənzimlənməsi sahəsinə aid olan və müəyyən əmlaka mülkiyyət hüququnun xitamı və xüsusi mülkiyyət hüququnun yaranmasını təsbit edən hüquq institutu kimi başa düşülür.[5] Da-

---

[1] Тяпкина Е.А. Способы приватизации // Гражданин и право. 2003. №2. с. 9-14, с.11.

[2] Privatize | Definition of Privatize by Merriam-Webster. URL: https://www.merriamwebster. com/dictionary/privatization

[3] Трофимова А.Х. Особенности правового регулирования приватизации государственного и муниципального имущества: дис. … канд. юрид. наук. М., 2012. 212 с., с. 69.

[4] Игнатов В.М. Приватизация государственной собственности в РФ: проблемы правового регулирования: автореф. дис. … канд. юрид. наук. М., 2002. 19 с., с. 11.

[5] Комарицкий С.И. Приватизация: Правовые проблемы: курс лекций // Исследовательский центр частного права: Российская школа частного права. М.: Статут, 2000. 94 с., с.7.

ha sonra S.İ.Komaritskiy qeyd edir ki, özəlləşdirmədə dövlət mülkiyyət hüququnun xitamının nəzərdə tutulduğu halda, onda bu tipli münasibətlərə publik elementlər xasdır.[1]

D.A. Gertsev isə özəlləşdirməyə hüquqi yanaşmadan çıxış edərək qeyd edir ki, özəlləşdirmə dedikdə, özəlləşdirmə haqqında qanunvericilikdə təsbit edilmiş formalarda həyata keçirilən dövlət və bələdiyyə mülkiyyətində olan əmlakın fiziki və ( və ya) hüquqi şəxslərin mülkiyyətinə ödənişli və ya əvəzsiz olaraq verilməsi qaydasının hüquq normaları ilə tənzimlənməsi başa düşülür ... .[2] A.X. Trofimova özəlləşdirməyə dar mənada verilən anlayışlarla razılaşmayaraq həm hüquqi, həm də iqtisadi aspektdən yanaşaraq özəlləşdirməyə universal anlayış formalaşdırmağa cəhd göstərir. Müəllif qeyd edir ki, "iqtisadiyyatın səmərəliyinin artırmaq məqsədi ilə Rusiya Federasiyasının, Rusiya Federasiyasının subyektlərinin və bələdiyyə qurumlarının mülkiyyətində olan əmlakın fiziki və hüquqi şəxslərin mülkiyyətinə əvəzli olaraq özgəninkiləşdirilməsindən ibarət, hüquqi və iqtisadi baxımdan qarşılıqlı əlaqəli olan əsaslandırılmış təzahürdür.[3]

Özəlləşdirmənin anlayışını dar mənada nəzərdən keçirən V.S. Belıx haqlı olaraq qeyd edir ki, "hüquqi nöqteyi nəzərdən özəlləşdirmə qanunla ciddi şəkildə çəkilmiş sərhədlərə malik olmalıdır (dar mənada özəlləşdirmənin anlayışı, onun əsas məqsədləri, tənzim olunan münasibətlərin dairəsi).[4]

---

[1] Комарицкий С.И. Приватизация: правовые проблемы : курс лекций. М., 2000. с.7

[2] Герцев Д.А. Гражданско-правовое регулирование отношений по приватизации предприятий, находящихся в государственной собственности: дис. ... канд. юрид. наук. М., 2008. 200 с. с. 15.

[3] Трофимова А.Х. Особенности правового регулирования приватизации государственного и муниципального имущества: дис. … канд. юрид. наук. М., 2012. 212 с., с. 94.

[4] Белых В.С. Приватизация государственных и муниципальных предприятий в Российской Федерации: экономико-пра-вовые вопросы // Государство и право. 1996. № 10. с. 28.

Yuxarıda göstərilən anlayışlarda diqqət tələb edən məqamlardan biri də ondan ibarətdir ki, bu anlayışlarda özəlləşdirmə "əmlakın verilməsi", "hüquq institutu", "əmlakın əvəzli özgəninkiləşdirməsindən ibarət olan təzahür" kimi nəzərdən keçirilir. Hətta, hüquq ədəbiyyatında özəlləşdirmənin fəaliyyət kimi nəzərdən keçirilməsinə dair fikirlərə də rast gəlinir. Belə ki, V.P. Kamışanski qeyd edir ki, özəlləşdirmə qanunla başqa hal nəzərdə tutulmayıbsa, müəyyən edilmiş qaydada və formada xüsusi orqanların qərarı və bilavasitə iştirakı ilə həyata keçirilən dövlət və bələdiyyə mülkiyyətində olan obyektlərin vətəndaşların və hüquqi şəxslərin mülkiyyətinə verilməsi üzrə əvəzli, təşkilati və məqsədyönlü fəaliyyətdir.[1] Bu halda hesab edirik ki, əvəzli olaraq əmlakın dövlət mülkiyyətindən xüsusi mülkiyyətə keçməsi" kimi ifadədən istifadə olunması daha məqsədəmüvafiq olar.

Hüquq ədəbiyyatında "özəlləşdirmə" anlayışı ilə yanaşı "dövlətsizləşdirmə" anlayışı da istifadə olunur. "Özəlləşdirmə" ilə "dövlətsizləşdirmə" anlayışlarının nisbəti məsələsinə dair hüquq ədəbiyyatında bir neçə mövqe formalaşmışdır. Belə ki, **birinci mövqedə** duran müəlliflər hesab edirlər ki, "özəlləşdirmə" və "dövlətsizləşdirmə" eyni mənalı anlayışlardır, eyni təzahürün adlandırılması üçün müxtəlif terminlərdən istifadə olunur – dövlət mülkiyyətinin xüsusi mülkiyyətə keçməsidir.[2]

**İkinci mövqedə** duran müəlliflər hesab edirlər ki, "dövlətsizləşdirmə" - dövlət mülkiyyətindən imtina prosesidir və məzmununa görə "dövlətsizləşdirmə" "özəlləşdirmə"yə nisbətdə geniş anlayışdır və özündə dövlət sektorunun genişlənməsini yavaşlatmaq və iqtisadiyyatda özəl başlanğıcların inkişafına yönələn təd-

---

[1] Камышанский В.П. Приватизация как способ распоряжения государственным и муниципальным имуществом // За-кон. 2005. № 11. с. 72

[2] Миронов И. Приватизация в СССР: поиск оптимального варианта // Вопросы экономики. 1991. № 4. с. 70.

birləri də özündə ehtiva edir.[1]

**Üçüncü mövqe** isə özəlləşdirmə daha geniş bir prosesin yəni, hüquqi, siyasi, təşkilati və sosial məqsədləri özündə ehtiva edən dövlətsizləşdirmənin bir hissəsidir. Dövlətsizləşdirmə bəzi hallarda özəlləşdirmə yolu ilə mülkiyyət formalarının diversifikasiyası[2] ilə müşayiət olunan dövlət müəssisələrinin və digər təsərrüfat strukturlarının dövlət idarəetmə orqanlarının inzibati təsirindən çıxarılmasını normativ şəkildə tənzimləyən bir prosesdir.[3]

Belə ki, N.M.Korşunov dövlətsizləşdirmə altında "dövlət inhisarçılığının ləğvi, çoxukladlı qarışıq iqtisadiyyatın formalaşması, onun mərkəzsizləşdirilməsi, dövlətin birbaşa iqtisadi idarəetmə funksiyalarından azad edilməsi" kimi başa düşməyi təklif edir.[4]

Deyilənlərdən belə qənaətə gəlmək olar ki, dövlətsizləşdirmə bir tərəfdən, inzibati-amirlik metodlarından iqtisadi metodlara keçidi, digər tərəfdən isə mülkiyyət münasibətlərinin məzmun və formaların dəyişilməsi deməkdir. Yəni, özəlləşdirmə dövlətsizləşdirmənin bir forması kimi nəzərdən keçirilir. V.S. Belıx haqlı olaraq qeyd edir ki, özəlləşdirmə olmadan da dövlətsizləşdirmə mümkün ola bilər. Özəlləşdirmədən fərqli olaraq, dövlətsizləşdirmə zamanı dövlət mülkiyyəti xüsusi mülkiyyətə çevrilmir.[5]

---

[1] Арупов А.А. Приватизация государственной собственности: сравнительный анализ мирового опыта и Республики Казахстан. Дисс. на соиск. доктора экономических наук. СПб., 2000. с. 48.

[2] Diversifikasiya – latın sözü *diversificatio* olub, dəyişkənlik, müxtəliflik deməkdir. Yəni, kapitalın və ya gəlirlərin mümkün itkiləri riskinin azaldılması məqsədi ilə təsərrüfat fəaliyyətinin müxtəlif sferalara yayılmasıdır. Русско-азербайджанский толковый юридический словарь. Баку, «НУРЛАР»Издательско-Полиграфический Центр, 2015, с. 173.

[3] Малая приватизация в Российской Федерации. Нижегородская модель. Пособие для должностных лиц муниципального уровня. Подготовлено Международной финансовой корпорацией. Washington, 1992. с. 25.

[4] Коршунов Н.М. Процесс приватизации в России. Методология правового регулирования. Н. Новгород: НЮИ МВД России, 1998. с. 56.

[5] Белых В.С. Правовое регулирование предпринимательской деятельности в России. М.: Проспект, 2008. с. 313.

Özəlləşdirməyə verilən anlayşları nəzərdən keçirsək onun aşağıdakı əsas əlamətlərini müəyyən etmək olar:

- ✓ *özəlləşdirmənin obyekti-dövlət mülkiyyətində olan əmlak;*
- ✓ *özəlləşdirmənin subyektləri qanunvericiliklə özəlləşdirmənin subyektləri müəyyən olunur;*
- ✓ *özəlləşdirmənin məzmunu – özəlləşdirmənin məqsəd və vəzifələrinin, şərtlərinin, qaydasının hüquqi tənzimlənməsi;*
- ✓ *dövlət hakimiyyəti orqanları tərəfindən qəbul edilən qərarlarda ifadə olunan dövlət hakimiyyətinin iradəsi əsasında xüsusi mülkiyyət hüququnun yaranması.*

Hüquq ədəbiyyatlarında özəlləşdirmənin mahiyyətini tam açıqlamaqdan ötrü ilk növbədə, onun təşkilati-texniki, iqtisadi və hüquqi aspektləri nəzərdən keçirilir.

**Təşkilati-texniki aspektdə** özəlləşdirmə dedikdə, dövlət mülkiyyətində olan əmlakın xüsusi mülkiyyətə verilməsi üzrə özəlləşdirmənin subyektlərinin məqsədyönlü və qarşılıqlı əlaqədə olan hərəkətlərin məcmusu başa düşülür. İdarəetmə fəaliyyəti kimi özəlləşdirmə iki elementdən ibarətdir. Bu barədə bir az sonra geniş danışılacaqdır.

**İqtisadi aspektdə** isə özəlləşdirmə "mülkiyyət" kateqoriyası ilə sıx bağlıdır. İqtisadi nəzəriyyədə mülkiyyət – əşya ilə bağlı insanlar arasında yaranan münasibətlərdir. Mülkiyyətin iqtisadi məzmununun dərk edilməsi, yalnız onun məzmununa daxil olan istehsal münasibətlərinin tam təhlilindən sonra mümkün ola bilər.

**Hüquqi aspektdə** özəlləşdirmə bir sıra xüsusiyyətlərlə xarakterizə olunur. **Birincisi,** özəlləşdirmə üzrə işlərin təşkili və aparılması hüquq normaları ilə tənzim olunur. Belə ki, hüquqi aktlarda özəlləşdirmənin əsas prinsipləri, məqsəd və vəzifələri, özəlləşdirmənin aparılması qaydası, onun iştirakçılarının məsuliyyəti, hüquq və vəzifələri təsbit olunur. **İkincisi,** AR Mülki Məcəlləsi özəlləşdirməni mülkiyyət hüququnun əldə olunmasının törəmə üsulu kimi nəzərdən keçirir. Özəlləşdirilən obyektlər üzərində mülkiyyət hüququnun keçməsi alqı-satqı müqaviləsi əsasında müəyyən olunur.

Başqa sözlə desək, **özəlləşdirmə** – mülkiyyət hüququnun əldə olunmasının törəmə üsuludur. Məsələn, özəlləşdirilmiş əmlakın alqı-satqısı haqqında müqavilə – mülki hüquqların yaranması, dəyişməsi və xitam olunmasının əsasıdır (hüquqi faktdır).[1]

Özəlləşdirmənin metodoloji əsaslarını nəzərdən keçirərkən müəlliflər qeyd edirlər ki, dövlət orqanlarının bilavasitə təsiri altında istehsal vasitələri üzərində mülkiyyət formalarının dəyişməsi ilə əlaqədar yaranan münasibətlər özəlləşdirmənin məzmununu açıqlamağa imkan verir.[2]

Rus hüquqşünası V.F.Popondopulonun özəlləşdirmə ilə bağlı məsələlərə yanaşması böyük maraq kəsb edir. Belə ki, müəllif özəlləşdirmənin anlayışı ilə yanaşı milliləşdirmə anlayışını da nəzərdən keçirərək qeyd edir ki, "milliləşdirmə özəlləşdirmənin əksidir. Bu proses zamanı xüsusi mülkiyyətdə olan əmlak dövlətin mülkiyyətinə keçir". Özəlləşdirməni və milliləşdirməni iqtisadiyyatın dövlət tənzimlənməsinin metodları hesab edən V.F.Popondopulo, onları bazar təsiretməsinin incə alətləri olduğunu haqlı olaraq qeyd etmişdir.[3]

Hüquq ədəbiyyatlarında müəlliflər tərəfindən özəlləşdirməyə çoxlu sayda və müxtəlif məzmunlu anlayışlar verilsə də, onların içərisində daha optimal, özəlləşdirmənin əsas əlamətlərini əks etdirən və onun mahiyyətini açıqlayan anlayışı göstərmək olar: **özəlləşdirmə** – dövlət əmlakının hüquqi və fiziki şəxslərin mülkiyyətinə (xüsusi mülkiyyətə) verilməsi yolu ilə dövlət mülkiyyətinin reformasiya prosesidir.[4]

"Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı"nın əsas məqsədi aşağıda göstəri-

---

[1] Предпринимательское право России: учеб. / В.С.Белых, Г.Э.Берсункаев, С. И. Виниченко и др. // отв. ред. В.С.Белых. М.: Проспект, 2009, с. 302-303.

[2] Yenə orada.

[3] Попондопуло В.Ф. Коммерческое (прелпринимательское) право. Учебник. М., Юристь, 2004. с. 391.

[4] Предпринимательское право Российской Федерации: учебник/под ред. Е.П.Губина, П.Г. Лахно. М., 2003. с. 455.

lənlərdən ibarətdir:

- ✓ *"Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq dövlət əmlakının özəlləşdirilməsini həyata keçirmək;*
- ✓ *iqtisadiyyatın strukturununn təkmilləşdirilməsi və rəqabət mühitinin formalaşdırılması əsasında milli iqtisadiyyatın səmərəliliyini yüksəltmək;*
- ✓ *bazar münasibətlərinin iqtisadi əsası kimi özəl mülkiyyətçilər təbəqəsini genişləndirmək;*
- ✓ *iqtisadiyyata investisiyalar, o cümlədən xarici investisiyalar cəlb etmək yolu ilə onun inkişafına nail olmaq;*
- ✓ *dövlət əmlakını dövlət özəlləşdirmə çeklərinə satmaqla özəlləşdirmə prosesinə əhalinin maksimum geniş təbəqələrini cəlb etmək;*
- ✓ *I Dövlət Proqramı çərçivəsində özəlləşdirmə üçün açıq elan edilmiş müəssisə və obyektlərin özəlləşdirilməsini başa çatdırmaq.*

Yuxarıda sadalanan "Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı"nın əsas məqsədlərindən göründüyü kimi dövlət əmlakının özəlləşdirilməsi nəticəsində ölkədə sahibkarlıq fəaliyyətinin inkişaf etdirilərək onun dairəsinin genişləndirilməsinin, ölkə iqtisadiyyatının daha da dayanıqlı olmasının, bazarda sağlam rəqabətin formalaşdırılmasının və qabiliyyətli məhsulların istehsalının dövlət tərəfindən təmin edilməsidir.

Dövlət əmlakının özəlləşdirilməsinin **əsas məqsədi** isə iqtisadiyyatın liberallaşdırılması[1], sahibkarlığın genişləndirilməsi, rəqabət mühitinin formalaşdırılması, iqtisadiyyata investisiyaların

---

[1] S.İ.Ojyoqov və N.Y.Şvedovanın "Rus dilinin izahlı lüğəti"ndə **liberallaşdırma** – məhdudiyyətlərin aradan qaldırılması, hərəkətlərə azadlıq vermək mənasını verir. С.И. Ожегов, Н. Ю. Шведова. Толковый словарь русского языка. http://ozhegov.slovaronline.com/%D0%9B/%D0%9B%D0%98/-14250-liberalizovat; Azərbaycan dilinin izahlı lüğətində isə liberallaşdırma sözünün kökü liberal – azad fikirli, ifrat dərəcədə iltifatlı, güzəştə gedən mənasını verir. A.Axundov. Azərbaycan dilinin izahlı lüğəti. Bakı, "Elm" nəşriyyatı, 2005, səh. 224.

cəlb olunması yolu ilə onun səmərəliyinin artırılmasına, struktur dəyişikliklərinə və əhalinin həyat səviyyəsinin yüksəldilməsinə nail olmaqdan ibarətdir.

Özəlləşdirmə haqqında qanunvericilik, xüsusilə də “Dövlət əmlakının özəlləşdirilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu dövlət orqanlarının özəlləşdirmə sahəsində fəaliyyətini tənzim edən normaları əks etdirir. Bu normalar dövlət orqanlarının özəlləşdirmə sahəsində hüquq və vəzifələrini, habelə təşkilati-idarəçilik fəaliyyəti ilə bağlı olan səlahiyyətlərin həyata keçirilməsini müəyyən edir.

Özəlləşdirmə haqqında qanunvericiliyin normaları ilə tənzim olunan ictimai münasibətləri iki qrupa ayırmaq olar. Belə ki, idarəetmə sahəsində müxtəlif dövlət orqanları arasında yaranan bu münasibətlər – **inzibati münasibətlərdir** və hakimiyyət-tabelik metodu ilə xarakterizə olunur.

Özəlləşdirmə haqqında qanunvericilikdə tənzim olunan digər qrup münasibətlər – **mülki hüquq münasibətləridir**. Bu hüquq münasibətləri özəlləşdirilən əmlaka mülkiyyət hüququnun keçməsi ilə bağlı olan bərabər hüquqlu subyektlər arasında yaranır.

Rus hüquqşünas alimi O.S.İoffe dövlət orqanlarının öz fəaliyyətinin həyata keçirilməsi zamanı yaranan mülki və inzibati hüquq münasibətlərinin fərqli cəhətlərini təsbit edir. Müəllif, əsasən aşağıdakı cəhətlərə görə mülki və inzibati hüquq münasibətlərini fərqləndirmişdir:

- ❖ mülki və inzibati hüquq münasibətlərinin ümumi xarakterinə görə;
- ❖ subyekt tərkibinə görə;
- ❖ hüquq münasibətinin obyektinə görə;
- ❖ səlahiyyət və vəzifələrin həcminə görə.[1]

---

[1] Иоффе О.С. «Правоотношения по советскому праву». М., 1949, с. 35.

Dövlət əmlakının özəlləşdirilməsi zamanı subyekt tərkibindən asılı olmayaraq yaranan mülki hüquq münasibətləri bərabərliklə xarakterizə olunur. Dövlətin mülki hüquq münasibətlərində iştirakından bəhs edərkən rus hüquqşünas alimi M.İ.Braqinskiy haqlı olaraq qeyd edirdi ki, «hər bir hüquq münasibəti dövlətin müəyyən etdiyi hüquq normaları ilə tənzim olunur. Mülki-hüquqi əmlak münasibətlərinə daxil olan dövlət elə özünün müəyyənləşdirdiyi rejimə tabe olur. Bu özünü aşağıdakılarda əks etdirir: **birincisi**, mülki-hüquqi əmlak münasibətlərində dövlət ayrıca əmlakı olan subyekt qismində çıxış etməlidir, **ikincisi**, dövlət digər tərəflə bərabər şəkildə mülki-hüquqi əmlak münasibətlərində iştirak etməlidir.[1]

Özəlləşdirmənin ***subyektləri*** qismində **alıcılar** və dövlət əmlakının **mülkiyyətçiləri (satıcılar)** çıxış edir.

"Dövlət əmlakının özəlləşdirilməsi haqqında" AR Qanununun 8-ci maddəsinə müvafiq olaraq, Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsi prosesində dövlət əmlakının satıcısı qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti çıxış edir. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin fəaliyyəti Azərbaycan Respublikası Prezidentinin 12 may 2020-ci il tarixli 1017 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin Əsasnaməsi" ilə tənzim olunur. Əsasnamənin 1.1.-ci bəndinə müvafiq olaraq, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti dövlət əmlakının idarə edilməsi, onun özəlləşdirilməsi, daşınmaz əmlakın dövlət reyestrinin, daşınmaz əmlakın vahid dövlət kadastrının tərtibi və aparılması, ünvan reyestrinin aparılması, dövlət torpaq kadastrı,

---

[1] М.И.Брагинский. Участие советского государства в гражданских правоотношениях. М., 1981, səh. 16.

yerquruluşu, torpaqların dövlət idarəetməsi, torpaq bazarının təşkili sahəsində dövlət siyasətini, habelə torpaqlardan istifadəyə və onların mühafizəsi sahəsində dövlət nəzarətini həyata keçirən, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin strukturuna daxil olan qurumdur.

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin əsas fəaliyyət istiqamətləri aşağıdakılardır:

- ✓ *müvafiq sahədə dövlət siyasətinin formalaşdırılmasında iştirak etmək və onun həyata keçirilməsini təmin etmək;*
- ✓ *müvafiq sahənin inkişafı üçün tədbirlər görmək;*
- ✓ *müvafiq sahəni tənzimləyən normativ hüquqi aktların layihələrinin hazırlanmasında iştirak etmək, onlara dair rəy və təkliflər vermək;*
- ✓ *Azərbaycan Respublikasının ərazisində və xarici ölkələrdə yerləşən dövlət əmlakının idarə edilməsi və onun barəsində sərəncam verilməsi sahəsində tədbirlər görülməsini təmin etmək;*
- ✓ *dövlət əmlakının, o cümlədən dövlət mənzil fondunun və dövlət mülkiyyətində olan torpaqların özəlləşdirilməsini həyata keçirmək;*
- ✓ *daşınmaz əmlakın dövlət reyestrini tərtib etmək və aparmaq, daşınmaz əmlaka mülkiyyət və digər əşya hüquqlarının dövlət qeydiyyatını həyata keçirmək;*
- ✓ *ünvan reyestrinin aparılmasını həyata keçirmək, daşınmaz əmlak obyektlərinə ünvan verilməsini təmin etmək;*
- ✓ *daşınmaz əmlakın, o cümlədən torpaqların, tikililərin, binaların, qurğuların, yaşayış və qeyri-yaşayış sahələrinin, yaşayış və bağ evlərinin, habelə özəlləşdirilən müəssisələrin qiymətləndirilməsini təşkil etmək;*
- ✓ *daşınmaz əmlakın vahid dövlət kadastrının, dövlət torpaq kadastrının tərtib edilməsini və aparılmasını həyata keçirmək;*

- ✓ *dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu işlərinə, torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarətini həyata keçirmək, torpaqların münbitliyinin təmin olunmasına (münbitliyin bərpasına və artırılmasına nəzarət istisna olmaqla) dövlət nəzarətinin həyata keçirilməsində iştirak etmək və s.*

Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsi prosesində dövlət əmlakının satıcısı olan Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti aşağıdakı funksiyaları həyata keçirir:

- ✓ *müəyyən olunmuş qaydada dövlət əmlakının registrini aparır;*
- ✓ *qanunvericilikdə müəyyən edilmiş qaydaya uyğun olaraq dövlət əmlakının özəlləşdirilməsi üzrə komissiya yaradır;*
- ✓ *özəlləşdirməyə açıq elan edilmiş dövlət əmlakını satılan anadək müəyyən edilmiş qaydada idarə edir;*
- ✓ *özəlləşdirmədən qabaq müəssisələrin restrukturizasiya və sağlamlaşdırılması ilə bağlı təkliflər hazırlayır və bu sahədə öz səlahiyyətləri çərçivəsində tədbirlər həyata keçirir;*
- ✓ *özəlləşdirmə qabağı dövlət müəssisələrinin idarəetməyə verilməsi barədə təkliflər irəli sürür;*
- ✓ *məqsədəuyğun hallarda özəlləşdirilməsi nəzərdə tutulan dövlət müəssisələrinin müflis elan olunmasına dair təkliflər irəli sürür;*
- ✓ *özəlləşdirmə prosesində yaradılan səhmdar cəmiyyətlərinin təsisçisi və dövlətə məxsus səhmlər zərfinin saxlayıcısı kimi çıxış edir;*
- ✓ *dövlət əmlakının özəlləşdirilməsi nəticəsində əldə edilən pul vəsaitinin uçotunu aparır və onun dövlət büdcəsinə köçürülməsini təmin edir, habelə mühasibat uçotunu aparmaqla, maliyyə və statistik hesabatları tərtib edir;*
- ✓ *səhmdar cəmiyyətlərində (və ya müştərək müəssisələrdə) dövlət əmlak payının, həmçinin dövlət əmlakının satışı za-*

*manı alıcıların alqı-satqı müqaviləsində müəyyən edilmiş öhdəliklərinin uçotunu aparır;*
- ✓ *müəssisələrin nizamnamə kapitalında dövlətə məxsus paya və səhmlərə görə dövlət büdcəsinə dividend köçürülməsini təmin edən tədbirlər həyata keçirir.*

Dövlət əmlakının özəlləşdirilməsinin digər tərəfi isə **dövlət əmlakının alıcısıdır.** Dövlət əmlakının alıcısı dedikdə, Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış bütün hüquqi şəxslər və xarici hüquqi şəxslər başa düşülür.

Belə ki, "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" AR Qanununun 9-cu maddəsinə əsasən, dövlət əmlakının özəlləşdirilməsi zamanı aşağıdakı şəxslər alıcı qismində çıxış edir:

- ✓ *Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər;*
- ✓ *Azərbaycan Respublikasında qeydiyyata alınan bütün hüquqi şəxslər;*
- ✓ *xarici hüquqi şəxslər.*

Dövlət əmlakının özəlləşdirilməsi prosesində alıcı qismində çıxış etmələrinə məhdudiyyətlər qanunvericilikdə təsbit olunmuşdur. "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" AR Qanununun 9.3-cü maddəsinə əsasən, aşağıdakılar alıcı qismində çıxış edə bilməz:

- ✓ *səhmlərin və ya nizamnamə fondundakı payın 20%-dən çoxu dövlət mülkiyyətində olan hüquqi şəxslər;*
- ✓ *icra hakimiyyəti orqanları;*
- ✓ *bələdiyyə orqanları.*

Dövlət əmlakının özəlləşdirilməsi zamanı alıcılıq hüququnun sübut edilməsi vəzifəsi alıcının üzərinə düşür.

Dövlət əmlakının özəlləşdirilməsinin **obyektləri** dedikdə, özəlləşdirmə haqqında qanunvericiliyə uyğun özəlləşdirilə bilən dövlət əmlakı başa düşülür. "Dövlət əmlakının özəlləşdirilməsi

haqqında" AR Qanununun 1.0.3-cü maddəsinə müvafiq olaraq, **özəlləşdirmənin obyekti** – özəlləşdirilməsi qadağan olunan dövlət əmlakı istisna olmaqla, Azərbaycan Respublikasının ərazisində və onun hüdudlarından kənarda Azərbaycan Respublikasının dövlət mülkiyyətində olan əmlak, müştərək müəssisələrin nizamnamə fondundakı dövlətin payı, dövlətə məxsus səhmlər, özəlləşdirilən müəssisələrin altında yerləşən torpaq sahələridir.

"Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramını"na görə dövlət mülkiyyətində olan əmlak özəlləşdirmə baxımından aşağıdakı kimi təsnifatlaşdırılır:

- ✓ *özəlləşdirilməsi qadağan olunan əmlak;*
- ✓ *özəlləşdirilməsi barədə qərar qəbul edilən anadək dövlət mülkiyyətində saxlanılan əmlak;*
- ✓ *Azərbaycan Respublikası Prezidentinin qərarı ilə özəlləşdirilən əmlak;*
- ✓ *Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin yanında Əmlak Məsələləri Dövlət Xidmətinin qərarı ilə özəlləşdirilən əmlak.*

Özəlləşdirilməsi qadağan olunan əmlakın siyahısı "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" AR Qanununun 6.2.-ci maddəsində təsbit olunmuşdur. Beləliklə, Azərbaycan Respublikasının dövlət mülkiyyətində saxlanılan aşağıdakı əmlak növlərinin özəlləşdirilməsi qadağandır:

- ✓ *yerin təki, meşə fondu, su ehtiyatları, dövlət sərhəd zolaqları və üzərindəki daşınmaz əmlak, hava məkanı, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına məxsus olan sektorunun suları, geostasionar orbitlərdəki peyk rabitəsi vasitələri;*
- ✓ *qorunan və xüsusi qaydada istifadə olunan təbiət əraziləri;*
- ✓ *"Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, dünya təbii və mədəni irs siyahısına daxil edilmiş, həmçinin milli mədəni və təbii irsə aid dövlət əmlakı, o cümlədən Azərbaycan xalqının tarix və mədəniyyət abidələri (yerli əhəmiyyətli tarix və mədəniyyət*

*abidələri istisna olmaqla), dövlət muzeyi, dövlət arxivi və mərkəzi dövlət kitabxanasının eksponatları və fondu;*

- ✓ *Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi əmlakı, gömrük orqanlarının operativ istifadəsində olan əmlak;*
- ✓ *sanitar-epidemioloji, meşə idarələri;*
- ✓ *patent xidməti;*
- ✓ *dövlət əhəmiyyətli meliorasiya və su təsərrüfatı obyektləri və qurğuları;*
- ✓ *ümumi istifadədə olan respublika və yerli əhəmiyyətli, habelə şəhər avtomobil yollarının yerləşdiyi torpaq sahələri və dəmir yolları, körpülər və tunellər;*
- ✓ *narkotik və zəhərli maddələr istehsal edən, habelə onları əkən, becərən, emal edən və saxlayan müəssisələr;*
- ✓ *islah-əmək və ixtisaslaşdırılmış müalicə-istehsalat müəssisə və obyektləri;*
- ✓ *qəbirstanlıq və krematoriyalar;*
- ✓ *ixtisaslaşdırılmış dövlət uşaq, körpələr və qocalar evləri;*
- ✓ *dövlət təhsil müəssisələri (məktəbəqədər təhsil müəssisələri istisna olmaqla);*
- ✓ *psixiatriya, psixonevroloji. yoluxucu, onkoloji və dəri-zöhrəvi xəstəliklərin, İÇV-na yoluxmuşların və QİÇS xəstələrin müalicə və profilaktikası üzrə dövlət müəssisələri.*
- ✓ *İctimai Televiziya və Radio Yayımları Şirkətinin əmlakı və s.*

Azərbaycan Respublikası Prezidentinin qərarı ilə özəlləşdirilən müəssisə və obyektlərin siyahısı II Dövlət Proqramının 2.2.-ci bəndində təsbit olunmuşdur. Azərbaycan Respublikası Prezidentinin qərarı ilə özəlləşdirilən müəssisə və obyektlərə aiddir:

- ✓ *Azərbaycan Respublikasının hüdudlarından kənarda azərbaycan respublikasının dövlət mülkiyyətində olan obyektlər;*
- ✓ *mülki müdafiə və səfərbərlik təyinatlı obyektlərə xidmət edən müəssisə və obyektlər;*
- ✓ *dövlət mülkiyyətində olan sosial-mədəni təyinatlı müəssisə və obyektlər;*

- ✓ *xalq bədii sənət müəssisələri, "Azərkinovideo" istehsalat birliyinin müəssisə və obyektləri;*
- ✓ *dövlət elmi müəssisələri;*
- ✓ *dövlət mülkiyyətində olan təhsil müəssisələri (dövlət icbari ümumi orta təhsil müəssisələri istisna olmaqla);*
- ✓ *limanlar, liman qurğuları və obyektləri;*
- ✓ *yanacaq-energetika kompleksi müəssisə və birlikləri o cümlədən elektroenergetika, neft, təbii qaz çıxaran və emal edən müəssisələr, neft və neft məhsullarının satış bazaları;*
- ✓ *ümummilli əhəmiyyətə malik qaz təsərrüfatı müəssisə və obyektləri, habelə onlara xidmət edən təşkilatlar;*
- ✓ *kimya, neft-kimya və biokimya müəssisələri;*
- ✓ *rabitə müəssisələri, dövlət informasiya və teleqraf agentlikləri;*
- ✓ *televiziya və radioötürücü mərkəzlər;*
- ✓ *hava, dəniz və çay nəqliyyatı müəssisələri;*
- ✓ *qara və əlvan metallurgiya, maşınqayırma və metal emalı sənayesi, təkrar metal emalı müəssisə və obyektləri;*
- ✓ *poliqrafiya müəssisələri və nəşriyyatlar;*
- ✓ *balıqçılıq, damazlıq və cins toxumçuluq təsərrüfatları;*
- ✓ *dövlət əhəmiyyətli tikinti və tikinti materialları sənayesi müəssisə və obyektləri;*
- ✓ *dövlət kommersiya bankları və sığorta təşkilatları;*
- ✓ *standartlaşdırma və metrologiya müəssisələri və s.*

Bu siyahıda göstərilən müəssisə və obyektlərin özəlləşdirilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin təqdimatı ilə Azərbaycan Respublikasının Prezidenti tərəfindən qəbul edilmiş qərar əsasında həyata keçirilir. Göstərilən normaya diqqət yetirsək aydın olar ki, həm Azərbaycan Respublikasının hüdudları daxilində, həm də ölkənin hüdudlarından kənarda Azərbaycan Respublikasının dövlət mülkiyyətində olan obyektlər Azərbaycan Respublikası Prezidentinin qərarı ilə özəlləşdirilə bilər.

AR İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət

Xidmətinin qərarı ilə özəlləşdirilən əmlakın siyahısı isə II Dövlət Proqramının 2.3-cü bəndində təsbit olunmuşdur. Onlara aiddir:

- ✓ *ictimai iaşə və məişət xidməti müəssisələri və obyektləri (idarə tabeli açıq pərakəndə ticarət, ictimai iaşə və xidmət obyektləri daxil olmaqla);*
- ✓ *xarici ticarət birlikləri və dövlət təchizatının topdansatış müəssisələri;*
- ✓ *tikinti və təmir-tikinti idarələri, inşaat materialları sənayesi müəssisə və obyektləri (dövlət əhəmiyyətli tikinti və tikinti materialları sənayesi müəssisə və obyektləri istisna olmaqla), yerli sənaye kombinatları;*
- ✓ *tikintisi dondurulmuş obyektlər, tikintisinin normativ müddətləri ötmüş və tikintisi başa çatdırılmamış obyektlər;*
- ✓ *yeyinti sənaye müəssisələri;*
- ✓ *şərab, şampan və konyak zavodları, pambıqtəmizləmə zavodları, tütün fermentləşdirici fabriklər və tütün kombinatları, çay və çayçəkici fabrikləri;*
- ✓ *çörək və çörək məhsulları, qarışıq yem və qida konsentratları istehsalı üzrə müəssisələr;*
- ✓ *kənd təsərrüfatı istehsalına xidmət edən və onu istehsal-texniki və təyinatlı məhsullarla təmin edən müəssisələr;*
- ✓ *yüngül sənaye müəssisələri;*
- ✓ *ağac emalı və kağız-sellüloz sənaye müəssisə və obyektləri, tara istehsalı və qablaşdırma müəssisələri də daxil olmaqla;*
- ✓ *yun emalı müəssisələri;*
- ✓ *avtomobil nəqliyyatı müəssisələri;*
- ✓ *ümumi istifadədə olan yolları təmir edən və xidmət göstərən müəssisələr;*
- ✓ *mərasim xidmətləri göstərən müəssisə və obyektlər;*
- ✓ *lombardlar;*
- ✓ *turizm təşkilatları;*
- ✓ *apteklər və aptek bazaları (anbarları), tibb texnikası bazaları və s.*

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Prezidentinin qərarı ilə özəlləşdirilən müəssisə və obyektlərin siyahısı ilə AR İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin qərarı ilə özəlləşdirilən müəssisə və obyektlərin siyahısını müqayisə etsək görərik ki, Azərbaycan Respublikası Prezidentinin qərarı ilə ölkə iqtisadiyyatı üçün mühüm strateji əhəmiyyət kəsb edən müəssisə və obyektlər özəlləşdirilir.

## 5.2. Dövlət əmlakının özəlləşdirilməsinin üsulları

Dövlət əmlakının özəlləşdirilməsi aşağıdakı **üsullarla** həyata keçirilir:

- ✓ *dövlət müəssisələrinin fərdi layihələr üzrə özəlləşdirilməsi;*
- ✓ *özəlləşdirilən dövlət müəssisələrinin əmlakının əmək kollektivi üzvlərinə və onlara bərabər tutulan şəxslərə güzəştli satışı;*
- ✓ *dövlət əmlakının ixtisaslaşdırılmış çek və pul hərraclarından satışı;*
- ✓ *dövlət əmlakının hərraclar vasitəsilə satışı;*
- ✓ *dövlət əmlakının investisiya müsabiqəsi vasitəsilə satışı;*
- ✓ *icarəyə verilmiş dövlət əmlakının satışı;*
- ✓ *dövlət müəssisələrinin müflis elan olunması yolu ilə satışı.*

Bu üsulların ayrı-ayrı izahını vermək üçün isə mütləq Azərbaycan Respublikası Prezidentinin 23 dekabr 2000-ci il tarixli, 432 nömrəli Fərmanı ilə təsdiq edilmiş Əsasnamələrə diqqət yetirmək lazımdır. Bu əsasnamələrə əsasən dövlət əmlakının özəlləşdirilməsi üsullarının məzmununu açıqlamaq fikrimizcə, daha məqsədəmüvafiq olar.

**1. Dövlət müəssisələrinin fərdi layihələr üzrə özəlləşdirilməsi.** Ölkə iqtisadiyyatı üçün böyük əhəmiyyət kəsb edən dövlət müəssisə və obyektləri fərdi layihələr üzrə özəlləşdirilir və bu zaman həmin müəssisəyə strateji investor cəlb etmək məqsədi ilə satışa onun səhmlərinin 51%-i və ya daha çox hissəsi çıxarı-

lır, səhmlərin yerdə qalan hissələri (əmək kollektivinə güzəştli satışa yönəldilən hissə istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin və ya AR İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin qərarı ilə pul hərraclarına və ixtisaslaşdırılmış çek hərraclarına yönəldilir və ya investisiya müsabiqəsi vasitəsilə satılır.

Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 23 dekabr tarixli 432 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət müəssisələrin fərdi layihələr üzrə özəlləşdirilməsi Qaydaları"nın 2-ci bəndinə müvafiq olaraq, dövlət müəssisələrinin fərdi layihələr üzrə özəlləşdirilməsinin **əsas mərhələləri** aşağıdakılardır:

- ✓ *müəssisələrin fərdi layihələr üzrə özəlləşdirilməsi və zəruri hallarda bu məqsədlə maliyyə məsləhətçisinin cəlb edilməsi barədə əsaslandırılmış təkliflərin Azərbaycan Respublikasının Prezidentinə təqdim olunması;*
- ✓ *müvafiq qərar qəbul edildikdən sonra müəssisənin iqtisadi və maliyyə vəziyyətinin təhlili, onun qiymətləndirilməsi və səhmlərinin satış nisbəti barədə təkliflərin hazırlanması;*
- ✓ *müəssisənin özəlləşdirmə planının (emissiya prospektinin) AR İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən təsdiq olunması;*
- ✓ *özəlləşdirmə planına uyğun dövlət müəssisəsinin satışının həyata keçirilməsi.*

Fərdi layihələr üzrə özəlləşdirilən müəssisələrin səhmlərinin satışı nisbəti Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilir. Fərdi layihələr üzrə özəlləşdirmə prosesində AR İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti maliyyə məsləhətçisi qismində cəlb edə bilər. Mülkiyyət hüququ alıcıya alqı-satqı müqaviləsində müəyyən edilmiş məbləğ tam ödənildikdən sonra keçir. AR İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti müsabiqənin nəticələrinə müvafiq olaraq satılmış səhmlər üzərində mülkiyyət hüququnu təsdiq edən sənədi alıcıya verir.

**2. Özəlləşdirilən dövlət müəssisələrinin əmlakının əmək kollektivi üzvlərinə və onlara bərabər tutulan şəxslərə güzəştli satışı.** II Dövlət Proqramına əsasən özəlləşdirilən dövlət müəssisələrinin işçilərinin həmin müəssisənin əmlakının və ya səhmlərinin 15%-ni güzəştli şərtlərlə almaq hüququ vardır. Səhmlərin güzəştli satışını özəlləşdirilən müəssisədə yaradılan özəlləşdirmə komissiyası həyata keçirir.

"Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa və II Dövlət Proqramına uyğun olaraq dövlət müəssisəsinin özəlləşdirilməsi zamanı səhmləri güzəştli almaq hüququ aşağıdakılara aid edilir:

- ✓ *əsas iş yeri həmin müəssisə hesab edilən işçilərə;*
- ✓ *Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq həmin müəssisədə əvvəlki iş yerinə qayıtmaq hüququ olan şəxslərə;*
- ✓ *özəlləşdirmənin müəssisədə 7 (yeddi) ildən çox çalışmış və həmin müəssisədən pensiyaya çıxmış şəxslərə;*
- ✓ *1995-ci il yanvarın 1-dən sonra işçilərin sayı və ştatların ixtisarı nəticəsində işdən azad olunmuş və işsiz kimi qeydiyyata alınmış şəxslərə.*

Əmək kollektivinə və onlara bərabər tutulan şəxslərə güzəştli satışa yönəldilən səhmlərin həcmi səhmdar cəmiyyətinin səhmlərinin 15 faizi həcmində müəyyən olunur.

**3. Dövlət əmlakının ixtisaslaşdırılmış çek və pul hərraclarından satışı.** Dövlət əmlakının pul hərraclarından satışı Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 22 iyun tarixli, 283 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət əmlakının ixtisaslaşdırılmış pul hərraclarında satışı Qaydaları” ilə tənzim olunur.

AR İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti hərrac haqqında məlumatın İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəsmi mətbu orqanı olan “Mülkiyyət” qəzetində hərrac gününə **ən azı 30 (otuz) gün qalmış** dərc olunması və hərracların keçirilməsi üzrə komissiya

təşkil edir. Hərracda iştirak etmək istəyən şəxslər Qaydalarda təsbit olunan sənədləri sifarişə əlavə etməlidirlər. Onlara aiddir:

- ✓ *hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surətləri;*
- ✓ *fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərraclarda iştirak etmək üçün sifarişçi satıcının müəyyən etdiyi formada sifarişi tərtib edir. Sifarişlər **5 (beş) gün müddətində** qəbul edilir.

Sifarişçi aşağıdakı hallarda hərraclarda iştirak etməyə buraxılmır:

- ✓ *sifariş vermiş şəxs qanunvericiliyə müvafiq olaraq alıcı kimi tanınmadıqda;*
- ✓ *sifarişçinin nümayəndəsinin səlahiyyəti qanunvericiliklə müəyyən edilmiş qaydada təsdiq edilmədikdə;*
- ✓ *hərracın keçirilməsi haqqında məlumatda göstərilən siyahı üzrə sənədlər tam şəkildə təqdim olunmadıqda, yaxud onlar düzgün tərtib edilmədikdə.*

Hərracın nəticələrinə görə iki nüsxədən ibarət yekun protokolu tərtib edilir, hərrac komissiyasının üzvləri tərəfindən imzalanır və təsdiq olunmaq üçün satıcıya verilir. Həmin protokol **10 (on) gün müddətində** AR İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən təsdiq edilir. Hərracın nəticələri hərrac başa çatdığı gündən **15 (on beş) gün müddətində** AR İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəsmi mətbu orqanı olan "Mülkiyyət" qəzetində dərc olunur. Alıcı hərraclarda aldığı səhmlərə mülkiyyət hüququnu hərracın nəticələri haqqında protokolun təsdiq edildiyi gündən əldə edir və bu barədə AR İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti ona müvafiq sənəd verir.

İxtisaslaşdırılmış çek hərracında bir özəlləşdirmə çekinə düşəcək səhm üçün sifarişçi tərəfindən minimum hədd qoyulmadıqda sifariş birinci növ, belə hədd qoyulduqda isə ikinci növ sifariş adlanır.

**4. Dövlət əmlakının hərraclar vasitəsilə satışı.** Bu üsul özəlləşdirilən əmlakın onun barəsində alıcıdan hər hansı bir şərtin yerinə yetirilməsi tələb olunmadan özəlləşdirmədə alıcı kimi tanınan fiziki və ya hüquqi şəxslərin mülkiyyətinə qanunvericiliklə müəyyən edilmiş qaydada pul müqabilində özgəninkiləşdirilməsidir. Bu zaman əmlak üzərində mülkiyyət hüququ hərracın gedişində maksimum qiymət təklif etmiş alıcının mülkiyyətinə verilir. Hərracın keçirilməsi məqsədilə dövlət əmlakının satıcısı tərəfindən **komissiya yaradılır** və onun iş reqlamenti təsdiq olunur. Komissiya **5 (beş) nəfərdən** ibarət olmaqla, onun tərkibinə satıcının, satışa çıxarılan əmlakın yerləşdiyi ərazi üzrə yerli icra hakimiyyəti orqanının, yerli maliyyə və ədliyyə orqanlarının nümayəndələri daxil edilir.

Həmçinin, onu da qeyd edək ki, dövlət əmlakının satışı üzrə keçirilən ilk iki hərracda sifariş verilmədikdə (və ya əmlak satılmadıqda) AR İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən üçüncü hərracda həmin əmlakın start qiyməti ilkin start qiymətinin **10%-i həcmində**, dördüncü hərracda dövlət əmlakının ilkin start qiymətinin **25%-i həcmində**, beşinci hərracda dövlət əmlakının ilkin start qiymətinin **50%-i həcmində** aşağı salına bilər.

Hərrac başa çatdıqdan sonra hərrac komissiyası tərəfindən hərracın yekunları barədə iki nüsxədən ibarət protokolu tərtib edilir və təsdiq olunmaq üçün satıcıya verilir. Həmin protokol **3 (üç) gün müddətində satıcı tərəfindən təsdiq** edilir. Hərracın yekunları haqqında protokolun bir nüsxəsi alıcıya verilir. Bu protokol obyekt üzrə alqı-satqı müqaviləsi bağlanması üçün alıcının hüququnu təsdiq edən sənəddir. Hərracın qalibi hərrac başa çatdıqdan sonra həmin gün hərracın yekunları haqqında protokola imza etməlidir. Hərracın qalibi müqavilənin bağlandığı andan ən geci **30 (otuz) bank günü müddətində** ödənilməli olan pul vəsaitini satıcının müəyyən etdiyi hesaba köçürür.

**5. Dövlət əmlakının investisiya müsabiqəsi vasitəsilə satışı.** Bu üsul həm II Dövlət Proqramında, həm də "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" AR Qanununda təsbit olunmaqla yanaşı "İnvestisiya müsabiqəsinin keçirilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 17 iyul 2001-ci il tarixli, 533 nömrəli Fərmanı ilə tənzim olunur.[1] Dövlət əmlakının investisiya müsabiqəsi vasitəsilə satışı zamanı dövlət əmlakı barəsində investisiya proqramının yerinə yetirilməsi tələb olunur. İnvestisiya müsabiqəsi vasitəsilə özəlləşdirmə - alıcı qarşısında dövlət əmlakı barəsində investisiya proqramına müvafiq olaraq investisiya qoyuluşu və digər şərtlərin yerinə yetirilməsi tələb olunan satış üsuludur.

İnvestisiya müsabiqəsinə özəlləşdirilən müəssisənin səhm zərfinin 25,5%-dən az olmamaq şərti ilə istənilən hissəsi çıxarılır. Müsabiqə iştirakçılar üzrə açıq, təkliflərin verilməsi üzrə isə qapalı (yəni iddiaçıların investisiya təklifləri möhürlənmiş zərflərdə verilir) keçirilir.

Aşağıdakı hallarda iddiaçı müsabiqəyə buraxılmır:

- ✓ *iddiaçı Azərbaycan Respublikasının qanunvericiliyə əsasən alıcı kimi tanınmadıqda;*
- ✓ *müsabiqədə iştirak üçün ərizə və digər sənədlər məlumatda göstərilən müddət bitdikdən sonra verildikdə;*
- ✓ *müəyyən edilmiş sənədlər tam həcmdə təqdim olunmadıqda və ya düzgün tərtib edilmədikdə.*

Müsabiqə aşağıdakı qaydada və ardıcıllıqda keçirilir:

- ✓ *müsabiqə iştirakçıları tərəfindən təqdim edilən zərflər açılmamışdan əvvəl komissiya onların bütövlüyünü yoxlayır və bu barədə müsabiqənin nəticələri haqqında tərtib olunan protokolda qeyd edilir;*
- ✓ *müəyyən edilmiş gün və saatda komissiya daxil olmuş təkliflərdən ibarət zərfləri açır;*

---

[1] "Azərbaycan" qəzeti, 19 iyul, 2001-ci il, №161.

- ✓ *komissiya müsabiqə iştirakçılarının təkliflərinə müsabiqənin müəyyən edilmiş şərtlərini və qalibi müəyyən etmə meyarlarını rəhbər tutaraq baxır.*

Müsabiqənin iştirakçıları tərəfindən təqdim edilmiş təkliflər iştirakçıların özü və ya onların nümayəndələri tərəfindən imzalanmalıdır. İnvestisiyanın həcmi rəqəmlə və yazı ilə göstərilməlidir. Yazı ilə rəqəm arasında fərq aşkar edildikdə, Komissiya yazı variantını əsas götürür.

Müsabiqənin nəticələri haqqında komissiyanın protokolu 3 (üç) nüsxədə tərtib olunur, komissiyanın sədri və onun iclasında iştirak edən üzvləri və müsabiqənin qalibi tərəfindən imzalanır və həmin gün təsdiq olunmaq üçün AR İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinə təqdim edilir. Protokol AR İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən **3 (üç) gün müddətində** təsdiq edilir.

İnvestisiya müsabiqələrinin qalibi investisiya proqramının şərtləri daxilində investisiyanın maksimum həcmini və onun səmərəli qoyuluşunu özündə əks etdirən investisiya proqramını təqdim edən hesab olunur. İnvestisiya müsabiqəsinin qalibi alqı-satqı müqaviləsi imzalandığı tarixdən AR İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən müəyyən edilmiş müddətdə investisiya həcminin ümumi məbləğinin 5 (beş) faizə qədərinin pul vəsaiti şəklində müəssisənin hesablaşma hesabına ödənilməsini təmin etməlidir (bu pul vəsaitinin məbləği və istifadə istiqaməti təqdim olunan investisiya proqramında öz əksini tapmalıdır). İnvestisiya müsabiqəsi AR İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən təşkil olunur və keçirilir. Müsabiqənin keçirilməsi haqqında məlumat müsabiqənin keçirildiyi gündən **ən azı 30 (otuz) gün əvvəl** kütləvi informasiya vasitələrində və ya xüsusi nəşrlərdə dərc edilməlidir.

**6. İcarəyə verilmiş dövlət əmlakının satışı.** İcarəyə verilmiş dövlət əmlakının satışı tərəflər arasında bağlanan icarə müqavi-

ləsinin şərtlərindən (satınalma hüququndan, icarə müddətindən və s.) asılı olaraq, müxtəlif üsullarla həyata keçirilir.

Dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı qəbul edilənədək bağlanılmış və müvafiq qaydada AR İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətində qeydiyyatdan keçmiş icarə müqaviləsi əsasında fəaliyyət göstərən müəssisələr aşağıdakı qaydada özəlləşdirilir:

❖ **orta və iri müəssisənin səhmlərinin:**
- ✓ *15%-i əmək kollektivinə güzəştli şərtlərlə satışa yönəldilir;*
- ✓ *30%-i nominal dəyəri ilə ilk növbədə icarəçiyə təklif olunur;*
- ✓ *55%-i ixtisaslaşdırılmış çek hərraclarında satılır.*

❖ **kiçik müəssisələrinin dəyərinin:**
- ✓ *15%-i əmək kollektivinə güzəştli şərtlərlə satışa yönəldilir;*
- ✓ *85%-i isə ilkin start qiyməti ilə ilk növbədə icarəçiyə təklif olunur.*

İcarəçinin icarəyə götürdüyü əmlakdan istifadə nəticəsində əldə etdiyi məhsul və gəlir, habelə icarəyə götürülmüş əmlakdan alınan gəlir hesabına əldə etdiyi əmlak onun mülkiyyətidir və özəlləşdirilən əmlakın tərkibinə daxil edilmir.

Dövlət əmlakını alan icarəçilərin hüquqları daşınmaz əmlakın dövlət reyestrində dövlət qeydiyyatına alınır və bu barədə onlara reyestrdən çıxarış verilir. AR İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti hərracın nəticələri haqqında məlumatı hərracın **keçirildiyi gündən 15 (on beş) gün müddətində** onun rəsmi mətbu orqanı olan "Mülkiyyət" qəzetində dərc etdirir.

**7. Dövlət müəssisələrinin müflis elan olunması yolu ilə satışı.** Dövlət müəssisələrinin beş dəfə hərrac vasitəsilə satışı baş tutmadıqda və ya dövlət müəssisələrinin özəlləşdirilməsinə hazırlıq mərhələsində onun ödəmə qabiliyyətinin olmadığı halda, AR Prezidentinin qərarı ilə, digər müəssisələr isə Dövlət Komissiyasının qərarı ilə qanunvericiliyə uyğun olaraq müflis elan edilə bilər. Bu zaman müəssisənin əmlakı hərrac vasitəsilə satılır.

Dövlət əmlakının özəlləşdirilməsi barədə məlumat rəsmi kütləvi informasiya vasitələrində həmin əmlakın satışının həyata keçirilməsi gününə **azı 30 gün qalmış** dərc edilməlidir. Dövlət müəssisələrinin (obyektlərinin) özəlləşdirilməsinin nəticələri haqqında məlumat isə **15 gün müddətində** kütləvi informasiya vasitələrində dərc olunmalıdır.

## 5.3. Dövlət əmlakının özəlləşdirilməsi qaydası

**Dövlət əmlakının özəlləşdirilməsi qaydası** dedikdə – dövlət əmlakının özəlləşdirilməsi haqqında qərarın qəbul edilməsi və realizəsi ilə bağlı qanunvericilikdə nəzərdə tutulmuş proses başa düşülür.

Dövlət əmlakının özəlləşdirilməsinin 2 mərhələsi nəzərdə tutulur:

1. Dövlət əmlakının özəlləşdirilməsi haqqında AR İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən qərar qəbul edilir. Bu qərarda obyektin özəlləşdirilməsinin məqsədəuyğunluğu əsaslandırılır və üsulları göstərilir. Qərar qəbul edildikdən sonra özəlləşdirmə komissiyası yaradılır. Bu komissiya ən geci **3 ay müddətində** müəssisənin (obyektin) özəlləşdirilməsi planını işləyib hazırlamalıdır. Planda özəlləşdirilən müəssisənin (obyektin) satışı qaydası və üsulu, satış müddəti, obyektin ilkin (start) qiyməti göstərilir və Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən təsdiq olunur.
2. Qanunvericiliklə müəyyən edilmiş üsullarla dövlət əmlakının özəlləşdirilməsi. “Dövlət əmlakının özəlləşdirilməsi haqqında” AR Qanununun 16-cı maddəsində dövlət əmlakının özəlləşdirilməsi üsulları təsbit olunub.

Özəlləşdirmənin qaydaları barədə danışarkən ilk öncə onun müddətinə toxunmaq daha müqsədəmüvafiq olar. Çünki özəlləşdirmənin aparılması müddəti barədə hüquq və iqtisadi ədəbiyyatlarda yekdil fikir formalaşmayıb. Bəzi mütəxəssislər hesab

edirlər ki, özəlləşdirmə bir neçə onilliyi əhatə etməlidir. Digər qrup alimlər isə düşünürlər ki, özəlləşdirmə surətli olmalıdır. Bu məsələyə münasibətini bildirən ulu öndər Heydər Əliyev qeyd edirdi ki, ***"özəlləşdirmə ağılla, kamalla, təmkinlə, ancaq sürətlə həyata keçirilməlidir".***

Ölkəmizdə həyata keçirilən islahatlarla bağlı münasibətini bildirərək ulu öndər Heydər Əliyev deyirdi ki, ***"iqtisadi islahatların həyata keçirilməsi asan məsələ deyildir. Kim isə hesab edir ki, iqtisadi islahatları bir günə, iki günə, bir aya, iki aya, üç aya həyata keçirmək, ondan istədiyimiz nəticəni əldə etmək olar. Şübhəsiz ki, bu, səhv fikirdir. İqtisadi islahatlar keçirmiş ölkələrin təcrübəsi də bunu sübut edir. Əvvələn, bu təcrübə iqtisadi islahatların həyata keçirilməsinin necə çətin olduğunu, ikincisi, onun nə qədər vaxt tələb etdiyini göstərir. Üçüncüsü isə bu islahatların aparılması dövründə müsbət nəticə alana qədər nə qədər yeni çətinliklərin meydana çıxdığını göstərir. Biz bunların hamısını nəzərə almalıyıq".***[1]

Ümumən özəlləşdirmə bir tərəfdən iqtisadi islahatların bir elementi, digər tərəfdən isə uzunmüddətli dövlət tənzimlənməsinin əsas aləti kimi çıxış etməlidir.

"Dövlət əmlakının özəlləşdirilməsi haqqında" AR Qanununun 15-ci maddəsinə müvafiq olaraq, dövlət əmlakının özəlləşdirilməsi haqqında qərar AR İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən qəbul edilir. Özəlləşdirmə haqqında qərarda obyektin özəlləşdirilməsinin məqsədəuyğunluğu əsaslandırılır və üsulları göstərilir. Dövlət əmlakının özəlləşdirilməsi barədə qərar qəbul edildikdən sonra qanunvericiliyə uyğun olaraq özəlləşdirmə komissiyası yaradılır.

Azərbaycan Respublikasının Prezidentinin 23 dekabr 2003-cu il tarixli 432 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət müəssisəsini özəlləşdirmə komissiyasının fəaliyyəti haqqında Əsasna-

---

[1] Vahid Novruzov. "Azərbaycan" qəzeti, 2011, 26 oktyabr, səh. 10

mə"nin 2.1-ci bəndinə müvafiq olaraq, dövlət əmlakının özəlləşdirilməsi zamanı onun səhmdar cəmiyyətinə çevrilməsi haqqında qərar qəbul edildiyi gündən **10 (on) gün ərzində** müəssisə rəhbəri tərəfindən əmək kollektivinin rəyi nəzərə alınmaqla müəssisədə komissiya yaradılır. Müəssisə rəhbəri komissiyanın yaradılması barədə AR İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinə **3 (üç) gün ərzində** yazılı məlumat verməlidir.

Komissiya dövlət müəssisəsinin səhmdar cəmiyyətinə çevrilməsi haqqında qərar qəbul edildiyi gündən etibarən ən geci 3 (üç) ay müddətində II Dövlət Proqramının 5.4.-cü bəndində göstərilən sənədləri hazırlayıb təsdiq olunmaq üçün AR İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinə təqdim edir.

II Dövlət Proqramının 5.4-cü bəndinə əsasən, dövlət müəssisəsinin səhmdar cəmiyyətinə çevrilməsi haqqında müvafiq qərar qəbul edildiyi gündən etibarən **10 gün ərzində** özəlləşdirməyə hazırlıq məqsədi ilə hər müəssisədə özəlləşdirmə komissiyası yaradılır. Komissiya aşağıdakı sənədləri işləyib hazırlayır və təsdiq olunmaq üçün AR İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinə təqdim edir:

- ✓ *özəlləşdirmə planı ( emissiya prospekti);*
- ✓ *müəssisənin əmlakının inventarlaşdırılması və qiymətləndirilməsi haqqında akt;*
- ✓ *kommersiya banklarının, müştərək və digər müəssisələrin nizamnamə kapitalında özəlləşdirilən müəssisənin iştirak payının (səhmlərinin, hissələrinin) tərkibi və dəyəri barədə arayış və həmin payın özəlləşdirilməsi barədə təklif;*
- ✓ *son 3 (üç) ilin illik hesabat balansları, həmçinin son hesabat dövrünün balansı;*
- ✓ *səhmdar cəmiyyətin nizamnaməsi (dövlət müəssisələrinin çevrilməsi nəticəsində yaradılan səhmdar cəmiyyətlərin nizamnaməsinə müvafiq olaraq hazırlanılır).*

Onu da qeyd edək ki, müəssisənin rəhbəri və baş mühasibi AR İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət

Xidmətinə təqdim olunan əmlakın inventarlaşdırılması və qiymətləndirilməsi aktının, habelə digər sənədlərin dürüstlüyü üçün şəxsən məsuliyyət daşıyırlar.

Dövlət müəssisəsini özəlləşdirmə komissiyası fəaliyyəti dövründə aşağıdakı hüquq və vəzifələrə malikdir:

- ✓ *göstərilmiş sənədlərin işlənib hazırlanmasını təmin etmək və təsdiq olunmaq üçün AR İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinə təqdim etmək;*
- ✓ *özəlləşdirilən dövlət müəssisələrinin səhmlərinin (hissələrinin) 15 %-ni güzəştli şərtlərlə satın almaq hüququ olan şəxslərin siyahısını tərtib etmək;*
- ✓ *kütləvi informasiya vasitələri üçün özəlləşdirilən müəssisələr haqqında II Dövlət Proqramında nəzərdə tutulmuş məlumatları hazırlamaq və AR İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinə təqdim etmək;*
- ✓ *normativ hüquqi aktlarla müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək;*
- ✓ *göstərilən sənədlərin işlənib hazırlanması üçün müəssisə rəhbərliyindən lazımi sənədləri tələb etmək;*
- ✓ *özəlləşdirmə zamanı müəssisənin infrastruktur obyektlərindən istifadə olunması barədə təkliflər hazırlayıb AR İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinə təqdim etmək;*
- ✓ *zəruri hallarda öz işinə müstəqil auditor məsləhətləri, ekspert cəlb etmək;*
- ✓ *ona həvalə olunmuş vəzifələrin həyata keçirilməsini təmin etmək məqsədilə özəlləşdirilən müəssisənin rəhbərliyinə lazımi tapşırıqlar vermək və s.*

Komissiyanın iclasları həftədə bir dəfədən az olmayaraq keçirilir. Komissiyanın hər bir üzvü komissiyanın iclaslarında iştirak etməyə borcludur. Əgər komissiyanın üzvü müəyyən səbəblərdən komissiyanın iclaslarında iştirak edə bilmirsə onda o, səbəbini bildirməklə komissiyanın sədrini xəbərdar etməlidir.

Komissiyanın iclaslarında baxılacaq məsələlər üzrə materialların surətləri və qərar layihələri komissiyanın bütün üzvlərinə iclasa azı iki gün qalmış paylanmalıdır. Komissiyanın iclası komissiya üzvlərinin üçdə iki hissəsinin iştirakı təmin olunduqda səlahiyyətli hesab olunur. Komissiyanın iclasının protokolu və qəbul olunmuş qərarlar iclasın keçirildiyi gündən sonrakı üç gün müddətində rəsmiləşdirilir, komissiyanın sədri və katibi tərəfindən imzalanır.

Dövlət əmlakının özəlləşdirilməsində iştirak etmək üçün təqdim edilməli sənədlərin siyahısı və qaydası haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 fevral 2001-ci il tarixli 32 №li Qərarının 2-ci bəndinə müvafiq olaraq, dövlət əmlakının özəlləşdirilməsində iştirak etmək üçün sifarişçi AR İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin müəyyən etdiyi formada ərizəni tərtib edir, ərizə iki nüsxədə tərtib olunur.

Dövlət əmlakının özəlləşdirilməsi üsullarından asılı olaraq özəlləşdirmədə iştirak etmək istəyən şəxslər ərizəyə aşağıdakı sənədləri əlavə edirlər:

❖ ***dövlət müəssisələrinin fərdi layihələr üzrə özəlləşdirilməsi zamanı:***
✓ *hüquqi şəxsin təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*
✓ *müsabiqə təklifi;*

❖ ***özəlləşdirilən dövlət müəssisələrinin əmlakının əmək kollektivi üzvlərinə və onlara bərabər tutulan şəxslərə güzəştli satışı zamanı:***
✓ *dövlət özəlləşdirmə payları;*

❖ ***dövlət əmlakının ixtisaslaşdırılmış çek və pul hərraclarında satışı zamanı:***
✓ *satışa çıxarılan səhmlərin dəyərinin ödənilməsi (pul və ya özəlləşdirmə çekləri ilə) haqda sifariş;*
✓ *hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surətləri;*

- ✓ *fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti;*
- ✓ *səhmlərin dəyəri özəlləşdirmə çekləri ilə ödənildikdə – özəlləşdirmə çekləri;*
- ✓ *ixtisaslaşdırılmış pul hərraclarında pul vəsaitinin AR İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən müəyyən edilmiş hesaba ödənildiyini təsdiq edən sənəd;*
- ✓ *hərracda iştirak etmək üçün sifariş hüquqi və ya fiziki şəxsin nümayəndəsi tərəfindən verildiyi təqdirdə – nümayəndənin sifarişçi adından hərəkət etmək hüququnu təsdiq edən etibarnamə;*
- ❖ ***dövlət əmlakının hərraclar vasitəsi ilə satışı zamanı:***
- ✓ *hərraclarda iştirak etmək üçün sifariş;*
- ✓ *AR İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən müəyyən edilmiş hesaba behin köçürülməsini təsdiq edən ödəmə sənədinin surəti;*
- ✓ *hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surətləri;*
- ✓ *fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti;*
- ✓ *hərracda iştirak etmək üçün sifariş hüquqi və ya fiziki şəxsin nümayəndəsi tərəfindən verildiyi təqdirdə – nümayəndənin sifarişçi adından hərəkət etmək hüququnu təsdiq edən etibarnamə;*
- ❖ ***dövlət əmlakının invenstisiya müsabiqəsi vasitəsi ilə satışı zamanı:***
- ✓ *iddiaçı tərəfindən müsabiqənin şərtlərinin icrasının təmin olunmasını təsdiq edən və müvafiq qaydada tərtib olunmuş sənəd (bank zəmanəti, zaminlik müqaviləsi, girov müqaviləsi və s.)*
- ✓ *invenstisiya proqramı;*
- ✓ *icarəyə verilmiş dövlət əmlakının satışı zamanı;*
- ✓ *icarə müqaviləsinin surəti;*

- ✓ *hüquqi şəxslər üçün hüquqi şəxsin nizamnaməsinin və dövlət qeydiyyatı haqqında şəhadətnaməsinin müəyyən edilmiş qaydada təsdiq olunmuş surəti;*
- ✓ *fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti;*
- ✓ *qeyri-yaşayış sahəsinin texniki pasportu;*
- ✓ *dövlət müəssisələrinin müflis elan olunması yolu ilə satışı zamanı:*
- ✓ *AR İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən müəyyən edilmiş hesaba behin köçürülməsini təsdiq edən ödəmə sənədinin surəti;*
- ✓ *hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surətləri (fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti);*
- ✓ *hərracda iştirak etmək üçün sifariş hüquqi və ya fiziki şəxsin nümayəndəsi tərəfindən verildiyi təqdirdə – nümayəndənin sifarişçi adından hərəkət etmək hüququnu təsdiq edən etibarnamə.*

Dövlət əmlakının özəlləşdirilməsində iştirak etmək istəyən şəxslərdən bu Qaydalarla nəzərdə tutulmuş sənədlərdən başqa digər sənədlərin tələb olunmasına yol verilmir.

AR İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən sənədləri qəbul etməyə vəkil edilmiş şəxs qəbul edilmiş hər bir ərizəyə və sənədlərə nömrə və tarix qoyur və onların qəbul edilməsi barədə ərizənin digər nüsxəsində müvafiq qeyd aparır. Həmin nüsxə ərizə və sənədləri vermiş şəxsə və ya onun nümayəndəsinə qaytarılır.

Sənədlər tam tərkibdə təqdim edilmədikdə və ya qanunvericiliyə uyğun olaraq tərtib edilmədikdə onlar sifarişçinin tələbi ilə **bir iş günü müddətinə** geri qaytarılır. Bu halda həmin sənədləri təqdim edən şəxslər (və ya onların nümayəndələri) müəyyən edilmiş çatışmazlıqları aradan qaldırdıqdan sonra, elanda göstərilən müddət ərzində sənədləri təkrarən təqdim edə bilərlər.

Dövlət əmlakının alıcılar tərəfindən təqdim edilən sənədlərin

siyahısı və qaydaları ilə bağlı vəzifəli şəxslərin qərarlarından və hərəkətlərindən (hərəkətsizliyindən) Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada məhkəməyə şikayət verilə bilər.

## Mövzu üzrə nəticə:

**Özəlləşdirmə** – dövlət əmlakının hüquqi və fiziki şəxslərin mülkiyyətinə (xüsusi mülkiyyətə) verilməsi yolu ilə dövlət mülkiyyətinin reformasiya prosesidir.

**Dövlət əmlakının özəlləşdirilməsi** - dövlət əmlakının "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" AR Qanunu ilə müəyyən edilmiş qaydalara uyğun alıcıların mülkiyyətinə verilməsidir. Dövlət əmlakının özəlləşdirilməsinin **əsas məqsədi** isə iqtisadiyyatın liberallaşdırılması, sahibkarlığın genişləndirilməsi, rəqabət mühitinin formalaşdırılması, iqtisadiyyata investisiyaların cəlb olunması yolu ilə onun səmərəliyinin artırılmasına, struktur dəyişikliklərinə və əhalinin həyat səviyyəsinin yüksəldilməsinə nail olmaqdan ibarətdir.

Dövlət əmlakının özəlləşdirməsinin **obyekti** – özəlləşdirilməsi qadağan olunan dövlət əmlakı istisna olmaqla, Azərbaycan Respublikasının ərazisində və onun hüdudlarından kənarda Azərbaycan Respublikasının dövlət mülkiyyətində olan əmlak, müştərək müəssisələrin nizamnamə fondundakı dövlətin payı, dövlətə məxsus səhmlər, özəlləşdirilən müəssisələrin altında yerləşən torpaq sahələridir.

Dövlət əmlakının özəlləşdirməsinin **subyektləri** qismində **alıcılar** və dövlət əmlakının **mülkiyyətçiləri (satıcılar)** çıxış edir. Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsi prosesində dövlət əmlakının satıcısı qismində **Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti** çıxış edir. Dövlət əmlakının özəlləşdirilməsinin digər tərəfi isə **dövlət əmlakının alıcısıdır.** Dövlət əm-

lakının alıcısı dedikdə – Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış bütün hüquqi şəxslər və xarici hüquqi şəxslər başa düşülür.

Dövlət əmlakının özəlləşdirilməsi üsullarına aiddir: dövlət müəssisələrinin fərdi layihələr üzrə özəlləşdirilməsi; özəlləşdirilən dövlət müəssisələrinin əmlakının əmək kollektivi üzvlərinə və onlara bərabər tutulan şəxslərə güzəştli satışı; dövlət əmlakının ixtisaslaşdırılmış çek və pul hərraclarından satışı; dövlət əmlakının hərraclar vasitəsilə satışı; dövlət əmlakının investisiya müsabiqəsi vasitəsilə satışı;icarəyə verilmiş dövlət əmlakının satışı; dövlət müəssisələrinin müflis elan olunması yolu ilə satışı.

Dövlət əmlakının özəlləşdirilməsi haqqında qərar qəbul edildikdən sonra özəlləşdirmə komissiyası yaradılır. Bu komissiya ən geci **3 ay müddətində** müəssisənin (obyektin) özəlləşdirilməsi planını işləyib hazırlamalıdır.

## Mövzunun mənimsənilməsi üçün tövsiyə olunan ədəbiyyat:

### *a) əsas ədəbiyyat:*


1. “Dövlət əmlakının özəlləşdirilməsi haqqında” Azərbaycan Respublikasının 16 may 2000-ci il tarixli 878-IQ nömrəli Qanunu.
2. “Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramının təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 10 avqust 2000-ci il tarixli 383 nömrəli Fərmanı.
3. “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin Əsasnaməsi”nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 12 may 2020-ci il tarixli 1017 nömrəli Fərmanı.

4. “Dövlət əmlakının özəlləşdirilməsi haqqında Azərbaycan Respublikası Qanununun icrası ilə bağlı əlavə tədbirlər barədə” Azərbaycan Respublikası Prezidentinin 23 dekabr 2000-ci il tarixli 432 nömrəli Fərmanı.

5. “Dövlət əmlakının özəlləşdirilməsində iştirak etmək üçün təqdim edilməli sənədlərin siyahısı və qaydaları haqqında” Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2 fevral 2001-ci il tarixli 32 nömrəli Qərarı.

6. Комарицкий С.И. Приватизация: правовые проблемы. Курс лекций. М., 2000.

7. Котликов Я.С. Приватизация: теоретический курс. М., 1995.

8. Скворцов О.Ю. Приватизационное право. Учебное пособие. М., 2000. Государственное регулирование рыночной экономики / Под общ. ред. В.И. Кушлина, Н.А. Волгина. М., 2000.

9. Скворцов О. Ю. Приватизационное право: учебное пособие / О. Ю. Скворцов. М., 2019.

### *b) əlavə ədəbiyyat:*

10. Козырин Н. А. Приватизация в России: правовое измерение/А. Н. Козырин//Реформы и право. 2019. № 2.

11. Коптев В. П. Российская приватизация и формирование национальной модели управления предприятием//Вестник Челябинского государственного университета. 2018, № 31, с. 88-92.

12. Косинов В.А. Проблемы государственного регулирования приватизации государственного и муниципального имущества // Административное и муниципальное право. 2015. № 1, с. 5 - 7.

13. Лебедев А. Приватизация по новому // Коллегия. 2002. № 4.

14. Никитина О. Приватизация предприятий. Зако-

нодательство и судебно-арбитражная практика // Бизнес-адвокат. 1997. № 10.

15. Мочальников В. Приватизация в России: пробле-мы и последствия//Вестник Института экономики Россий-ской академии наук. 2017. № 4. с.132-134.

16. Новикова С.В. Понятие и способы приватизации государственного и муниципального имущества// Политематический сетевой электронный научны журнал Кубанского государственного аграрного университета. 2018. № 100. с. 1-14.

17. Перепелкина Н.В. К вопросу о приватизации имущества в Российской Федерации // Законы России: опыт, анализ, практика. 2017. N 3. с. 69 - 81.

18. Сабирова Л.Л. Отдельные аспекты приватизации государственного и муниципального имущества на современном этапе//Вестник Казанского юридического института МВД России. 2017. № 9.

19. Трофимова А. Х. Актуальность правового регулирования гражданского и приватизационного законодательства//Юрист. 2019. № 1. с. 20-25.

# VI FƏSİL
# SAHİBKARLIQ FƏALİYYƏTİ SAHƏSİNDƏ İNHİSAR FƏALİYYƏTİNİN MƏHDUDLAŞDIRILMASI VƏ RƏQABƏTİN HÜQUQİ TƏMİNATI

## 6.1. Haqsız rəqabətin anlayışı və formaları

Rəqabət latınca "*concurrere*" tərcümədə *"toqquşma"*, "*yüyürüşüb toplaşmaq", "axışıb gəlmək"* mənasını verir. Rəqabət bazarın iştirakçılarının bir-biri ilə yarışması kimi qəbul olunur. Rəqabət iqtisadi kateqoriyadır və bir məqsədə nail olmaqdan ötrü bazarın iştirakçıları arasında aparılan mübarizə, rəqabət deməkdir.

Hüquq ədəbiyyatlarında qeyd olunur ki, rəqabət mürəkkəb və çoxşaxəli təzahürdür. İqtisadi ədəbiyyatlarda rəqabətin əhəmiyyətinə dair iki əsas nəzəriyyə mövcuddur. Birinci nəzəriyyəyə əsasən, rəqabət – nəticədir (vəziyyətdir), ikinci nəzəriyyəyə görə isə proses və metoddur.[1] Bu fikirləri tənqid edən alimlərin fikirləri daha dolğun və əsaslıdır. Belə ki, birinci nəzəriyyənin tərəfdarları "vəziyyət" və "nəticə" anlayışları arasında bərabərlik işarəsi qoyur. Öz növbəsində rəqabəti proses, metod kimi qəbul edən alimlər bu iki fərqli kateqoriyaları birləşdirirlər. Halbuki, metod başqa, proses başqa əhəmiyyət kəsb edir. Çətin ki, bu iki anlayışı sinonim kimi nəzərdən keçirmək mümkün olsun.[2]

Hüquq ədəbiyyatlarında rəqabətə onun iqtisadi təbiətini nəzərə almaqla tərif verirlər. S.E. Jilinskiy rəqabəti geniş mənada nəzərdən keçirərək hesab edir ki, rəqabət – hər hansı bir məqsədə çatmaq üçün müxtəlif şəxslər arasında yarışmadır. Sahibkarlığa

---

[1] Тотьев К.Ю. Конкурентное право (правовое регулирование деятельности субъектов конкуренции и монополий): Учебник для вузов. 2-е изд., перераб. и доп. М., 2003, с. 17-19.

[2] Предпринимательское право России: учеб. / В.С.Белых, Г.Э.Берсункаев, С.И.Виниченко и др. отв. ред. В.С.Белых. М.: Проспект, 2009, с. 338.

tətbiq edildikdə isə rəqabət – əmtəələrin realizəsi və istehsalın ən yaxşı şərtləri uğrunda iqtisadi dövriyyə iştirakçıları arasında mübarizədir.[1] Sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi prosesində istehsalın və məhsulun realizəsi, xidmətlərin göstərilməsi, işlərin görülməsinin ən yaxşı şərtləri uğrunda sahibkarlıq fəaliyyətinin subyektləri bir-birilə rəqabət aparır. Sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi prosesində rəqiblərin bir-biri ilə mübarizə aparmasının əsas məqsədi - yüksək gəlirin və yaxud bazarda üstünlüklərin əldə edilməsidir. Bu məqsədə nail olmaq üçün bir-birilə mübarizə aparan rəqiblər həm qanuni, həm də qeyri-qanuni vasitələrdən istifadə edə bilərlər: məsələn, hökmran mövqeyindən sui-istifadə etmək.

Rəqabətin leqal anlayışı "Haqsız rəqabət haqqında" Azərbaycan Respublikasının 2 iyun 1995-ci il tarixli 1049 nömrəli Qanununun 1-ci maddəsində verilmişdir.[2] Göstərilən normaya əsasən **rəqabət** - bazar subyektləri arasında sahibkarlıq fəaliyyətinin ən əlverişli şərtləri uğrunda mübarizənin elə formasıdır ki, bu zaman onların müstəqil fəaliyyəti hər birinin bazarda əmtəə (məhsul, iş, xidmət) dövriyyəsinin ümumi vəziyyətinə təsir etmək imkanını əsaslı surətdə məhdudlaşdırır və istehlakçıya lazım olan əmtəələrin istehsalını stimullaşdırır.

Beləliklə**,** bazar iqtisadiyyatı inkişaf etmiş xarici ölkələr üçün əsas şərt hesab olunur. Xüsusi mülkiyyətlə və azad sahibkarlıqla yanaşı, rəqabət də iqtisadi inkişafın əsas faktorlarından biri hesab olunur. Məhz, rəqabət nəticəsində məhsulun keyfiyyəti və bu məhsulun aşağı qiymətlərlə realizəsi təmin edilir. Azərbaycan Respublikasında rəqabət haqqında qanunvericiliyin məqsədi rəqabət əsasında iqtisadi fəaliyyət subyektlərinin və bazar iqtisa-

---

[1] Жилинский С. Э. Предпринимательское право (правовая основа предпринимательской деятельности): Учебник для вузов. 2-е изд. Перераб. и доп. М.,1999, с. 330.

[2] "Azərbaycan Respublikasının Ali Sovetinin Məlumatı", 1995-ci il, №23-24, maddə 366.

diyyatının səmərəli fəaliyyətini təmin etməkdir. Belə ki, AR Konstiusiyasının 15-ci maddəsinin 2-ci hissəsinə müvafiq olaraq, "Azərbaycan dövləti…, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir". Qeyd etmək lazımdır ki, belə dəstək inhisar və rəqabət haqqında qanunvericiliyin müxtəlif normalarında nəzərdə tutulmuş hüquqi üsul və vasitələrlə həyata keçirilir.

Rəqabət – iqtisadi yarışmadır və aşağıdakı xüsusiyyətləri özündə birləşdirir:

- *müstəqil (rəqabət) hərəkətlərlə ifadə olunur;*
- *rəqabət aparan subyektlər arasında həyata keçirilir;*
- *bazar adlanan, sahibkarlıq fəaliyyətinin müəyyən iqtisadi-hüquqi sahələrində olur.*

Qeyd etmək lazımdır ki, antiinhisar tənzimləmə əksər inkişaf etmiş ölkələrdə iqtisadiyyatın dövlət tənzimlənməsinin əsas formalarından biridir. Həmçinin rəqabətin dəstəklənməsi, haqsız rəqabətə və inhisarçılığa yönələn iqtisadi fəaliyyətə yol verilməməsi kommersiya (sahibkarlıq) hüququnun əsas prinsiplərindən biridir. "Haqsız rəqabət haqqında" AR Qanunu əmtəələrin azad hərəkətinin, rəqabətin dəstəklənməsinin, Azərbaycan Respublikasında azad iqtisadi fəaliyyətin təmin edilməsinə, habelə əmtəə bazarlarının səmərəli fəaliyyəti üçün şəraitin yaradılması və rəqabətin müdafiəsinə yönəlmişdir.

"Haqsız rəqabət haqqında" AR Qanununun 1-ci maddəsində təsbit olunan anlayışlar aparatında haqsız rəqabətin leqal anlayışı təsbit olunmuşdur. Həmin normaya görə **haqsız rəqabət** - bazar subyektinin sahibkarlıq fəaliyyətində mövcud qanunvericiliyə zidd və ədalətsiz üsullarla üstünlük əldə etməyə yönəlmiş, bununla da digər bazar subyektlərinə (rəqiblərinə) zərər vura bilən, yaxud onların işgüzar nüfuzuna xələl yetirə bilən hərəkətlərdir.

Qanunvericilikdə verilən haqsız rəqabətin anlayışına nəzər yetirsək onun məzmununda aşağıdakı əlamətləri göstərmək olar:

- ❖ *haqsız rəqabət sahibkarlıq subyektlərinin yalnız aktiv hərəkətlərinin vasitəsilə həyata keçirilə bilər. Bu halda sahibkarlıq fəaliyyəti subyektlərinin hərəkətləri sahibkarlıq fəaliyyətində üstünlüklər əldə edilməsinə yönəlir. Sahibkarlıq subyektlərinin hərəkətlərini haqsız rəqabət kimi qiymətləndirmək üçün bu hərəkətlərin hüquqazidd olduğu mütləq sübut edilməlidir.*
- ❖ *təsərrüfat subyektinin hərəkətlərinin daha geniş yayılmış və daim sahibkarlıq fəaliyyətində istifadə olunan sosial normalarla qiymətləndirilməsi. Belə ki, təsərrüfat subyektinin davranışı qanunvericiliyə, işgüzar adətlərə, vicdanlılıq, ədalətlilik tələblərinə zidd olmamalıdır.*
- ❖ *sadalanan sosial normaları pozan təsərrüfat subyektinin hərəkətləri nəticəsində zərərli nəticələrin yaranması. Haqsız rəqabətin mövcudluğunu təsdiq etməkdən ötrü göstərilən hərəkətlərin digər təsərrüfat subyektlərinə-rəqiblərinə zərər vurması (və ya zərər vura biləcəyi) və ya onların işgüzar nüfuzuna xələl gətirilməsi sübut olunmalıdır.*

"Haqsız rəqabət haqqında" AR Qanununun 3-cü maddəsi haqsız rəqabətin aşağıdakı konkret formalarını müəyyən edir:

- ✓ *rəqibin təsərrüfat fəaliyyətinin təqlidi;*
- ✓ *rəqibin təsərrüfat fəaliyyətinin nüfuzdan salınması;*
- ✓ *rəqibin təsərrüfat fəaliyyətinə müdaxilə;*
- ✓ *haqsız sahibkarlıq fəaliyyəti;*
- ✓ *haqsız işgüzarlıq davranışı;*
- ✓ *istehlakçıların çaşdırılması.*

Adı çəkilən Qanun rəqibin təsərrüfat fəaliyyətinin təqlidi adlı formanı təsbit edir. Azərbaycan dilinin izahlı lüğətində təqlid bənzətmə, yamsılama kimi mənaları verir.[1]

---

[1] A.Axundov. Azərbaycan dilinin izahlı lüğəti. Bakı, "Elm" nəşriyyatı, 2005. Səh. 398.

**Rəqibin təsərrüfat fəaliyyətini təqlid edən** aşağıdakı hərəkətlərə yol verilmir:

- ✓ *rəqibin əmtəəsinin, həmçinin onun əmtəə formasının, qablaşdırılma-sının və xarici tərtibatının, əmtəənin texniki xassələrindən irəli gələn xarici görünüşü istisna olmaqla, özbaşına təqlid edilməsi;*
- ✓ *digər təsərrüfat subyektinin patent-lisenziya hüququnu pozmaq yolu ilə onun məhsulunun birbaşa təkrarlanması;*
- ✓ *eyni adlı subyekt tərəfindən öz adını hər hansı fərqləndirici nişanla firma adı kimi istifadə etməsi halları istisna olmaqla, digər bazar subyektinin əmtəə nişanının, coğrafi göstəricilərinin, firma adının, əmtəə markasının, həmçinin adının qanunsuz istifadə edilməsi.*

Haqsız rəqabətin digər forması olan **rəqibin təsərrüfat fəaliyyətinin nüfuzdan salınmasına** gətirib çıxaran aşağıdakı hərəkətlərə yol verilmir:

- ✓ *digər bazar subyektlərinin işgüzar nüfuzu və maliyyə vəziyyəti haqqında yalan və təhrif olunmuş məlumatların yayılması;*
- ✓ *rəqibin elmi-texniki və istehsal imkanları haqqında məlumatların təhrif olunmuş şəkildə açıqlanması.*

**Rəqibin təsərrüfat fəaliyyətinə müdaxilə** məqsədi güdən aşağıdakı hərəkətlərə yol verilmir:

- ✓ *rəqibin işgüzar münasibətlərinin qanunsuz vasitələrlə qəsdən pozulması, kəsilməsi və dayandırılması;*
- ✓ *rəqibin işçilərini öz xidməti vəzifələrini yerinə yetirməməyə sövq etmək məqsədilə onlara qanunsuz vasitələrlə təsir göstərilməsi.*

Haqsız rəqabətin digər forması **haqsız sahibkarlıq fəaliyyətidir**. Qanuna görə sahibkarlıq fəaliyyəti sahəsində aşağıdakı hərəkətlərə yol verilmir:

- ✓ *bazar subyektinin elmi-texniki, istehsalat və ya ticarət fəaliyyətinə dair məlumatların, o cümlədən kommersiya sirrinin qanunsuz əldə edilməsi, istifadə olunması və yayılması;*

- ✓ *rəqibin üzərində əsassız üstünlük qazanmaq məqsədilə onun təsərrüfat qərarlarının qəbul edilməsinə və icrasına qanunsuz vasitələrlə təsir göstərilməsi;*
- ✓ *əmtəələrin məcburi əlavə çeşidlə satışı;*
- ✓ *müqavilələrdə əsassız birtərəfli üstünlüklərin nəzərdə tutulması;*
- ✓ *qiymətlərinin artırılması nəzərdə tutulduğu günədək, yaxud qiymətlərin artmasına şərait yaratmaq məqsədilə əmtəələrin təsərrüfat dövriyyəsindən çıxarılması və ya dövriyyəyə buraxılmaması.*

Sonuncu hərəkət iqtisadi nəzəriyyədə **demping** adlandırılır. Demping (latın sözü "*dumpinq*" olub mənası **"aşağı salma"** deməkdir) – əmtəələrin süni şəkildə aşağı salınmış qiymətlərlə satışıdır. Demping qiymətləri bazar qiymətlərindən əhəmiyyətli şəkildə aşağıdır, habelə əmtəənin və ya xidmətin özünün dəyərindən də aşağı ola bilər.

Dempinqin aşağıdakı növləri var:

- ✓ ***daimi demping*** – *əmtəələrin, onların dəyərindən aşağı qiymətə daimi ixracıdır;*
- ✓ ***qabaqcadan düşünülmüş demping*** – *inhisar qiymətlərinin müəyyən edilməsi və rəqiblərini bazardan çıxarmaq məqsədi ilə ixracat qiymətlərinin müvəqqəti olaraq aşağı salınmasıdır;*
- ✓ ***təsadüfi demping*** – *aşağı qiymətlərlə xarici bazarlara əmtəə ehtiyatlarının epizodik satışıdır.*

Haqsız rəqabətin formalarından biri də **haqsız işgüzarlıq davranışıdır.** İşgüzarlıq davranışı sahəsində aşağıdakı hərəkətlərə yol verilmir:

- ✓ *müəyyən vaxt ərzində rəqabətdən və ya onun müəyyən formasından əl çəkmək haqqında tərəf müqabili ilə (kontragentlə) bağlanmış və bazar subyektlərinin təsərrüfat fəaliyyətinə ciddi məhdudiyyətlər yaratmayan sazişin pozulması;*

- ✓ *rəqibin işgüzarlıq əlaqələrini pozmaq məqsədilə digər bazar subyektlərinə əsassız çağırışlar (müraciətlər) edilməsi və belə əlaqələrin yaradılmasına maneçilik törədilməsi.*

Bazar subyektlərinin **istehlakçıları çaşdırmağa** yönədilmiş aşağıdakı hərəkətlərinə yol verilmir:

- ✓ *əmtəənin mənşəyi, hazırlanması üsulu, istifadə üçün yararlılığı, keyfiyyəti və başqa xassələri, sahibkarın şəxsiyyəti və ya onun təsərrüfat fəaliyyətinin xüsusiyyəti barədə istehlakçını çaşdıra bilən hər hansı məlumatlardan istifadə edilməsi;*
- ✓ *əmtəənin alınması, yaxud sövdələşmə zamanı istehlakçının seçmə sərbəstliyinə təsir göstərən qanunsuz reklam üsullarından istifadə olunması;*
- ✓ *əmtəənin istehlakçını çaşdıra bilən yanlış müqayisə edilməsi və onun reklam və ya informasiya materialı kimi açıqlanması;*
- ✓ *əmtəənin istehlak və digər vacib xassələri barədə istehlakçını çaşdırmaq məqsədilə uyğun olmayan fərqləndirici nişanla və ya marka ilə təchiz edilməsi;*
- ✓ *əmtəənin öz təyinatına və ya ona qoyulan tələblərə uyğun olmadığının gizlədilməsi.*

"Haqsız rəqabət haqqında" AR Qanununun 12-ci maddəsinə görə qanunun tələblərinin pozulmasına görə bazar subyektlərinə aşağıdakı maliyyə sanksiyaları tətbiq edilir:

- ❖ *rəqibin təsərrüfat fəaliyyətinin təqlidinə aid olan hərəkətlərə yol verdikdə – haqsız rəqabətə yol verilməklə, satılmış mallardan (göstərilmiş iş və xidmətlərdən)* ***əldə edilmiş gəlirin*** *(əlavə dəyər, sadələşdirilmiş və aksiz vergiləri çıxılmaqla)* ***bir misli həcmində****, bundan sonrakı il ərzində bu hərəkətə təkrar yol verdikdə —* ***iki misli həcmində*** *maliyyə sanksiyaları;*
- ❖ *rəqibin təsərrüfat fəaliyyətinin nüfuzdan salınmasına, rəqibin təsərrüfat fəaliyyətinə müdaxiləsinə, haqsız sahib-*

*karlıq fəaliyyətinə, haqsız işgüzarlıq davranışına və istehlakçıların çaşdırılmasına yönələn hərəkətlərə yol verdikdə – haqsız rəqabətə yol verilməklə, satılmış mallardan (göstərilmiş iş və xidmətlərdən)* ***əldə edilmiş gəlirin*** *(əlavə dəyər, sadələşdirilmiş və aksiz vergiləri çıxılmaqla)* ***10 faizinədək****, bundan sonrakı il ərzində bu hərəkətə təkrar yol verdikdə* ***20 faizinədək*** *maliyyə sanksiyası;*

- *Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti icrası məcburi olan göstərişlərini yerinə yetirməməyə və ya vaxtında icra etməməyə görə bütün fəaliyyət növləri üzrə* ***son üç ayda*** *əldə edilmiş ümumi gəlirin (əlavə dəyər, sadələşdirilmiş və aksiz vergiləri çıxılmaqla)* ***10 faizinədək*** *maliyyə sanksiyaları;*
- *Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə qəsdən düzgün olmayan məlumat verdikdə və ya lazımi məlumatı vermədikdə bütün fəaliyyət növləri üzrə* ***son üç ayda əldə*** *edilmiş ümumi gəlirin (əlavə dəyər, sadələşdirilmiş və aksiz vergiləri çıxılmaqla)* ***5 faizinə qədər*** *maliyyə sanksiyaları.*

Beləliklə, rəqabət "bazar" kateqoriyasının əsas tərkib hissəsidir. Rəqabət yoxdursa "təmiz" bazar da yoxdur. Məhz, rəqabət olduqda istehlakçılar öz tələbatını ödəməkdən ötrü daha keyfiyyətli və münasib qiymətə əmtəəni (malı) ala bilərlər. Görkəmli iqtisadçı alimlər R.K. Makkonnell və S.L. Bryu qeyd etmişdirlər ki, "rəqabət zamanı alıcılar – sahibkar, bazar – onların agenti, müəssisələr isə – onların qullarıdır".[1] Bununla da müəlliflər göstərirlər ki, rəqabət zamanı sahibkarlıq fəaliyyətinin subyekti alıcıların təlabatını ödəyə biləcək məhsul istehsal etməlidir. Bazarda rəqib sahibkarların sayı nə qədər çox olarsa, bir o qədər də onlar arasında "qızğın" rəqabət olacaq. Rəqabətdə olan sahibkar-

[1] Макконнелл К.Р., Брю С.Л. Экономикс. М., 1993. Т. I. с. 95.

lıq fəaliyyətinin subyektləri əzmlə çalışacaqlar ki, daha da keyfiyyətli məhsul istehsal edib bazara çıxartsınlar və daha çox alıcını öz məhsullarına cəlb etsinlər. Digər tərəfdən bu məhsulun qiymətinə də öz təsirini göstərmiş olacaq. Beləliklə, bazarda sahibkarlıq fəaliyyətinin subyektləri arasında sağlam rəqabətin mövcudluğu və onun dövlət tərəfindən dəstəklənməsi ölkə vətəndaşlarının maraqlarına xidmət edir: istehsal olunan məhsul sərfəli qiymətə realizə olunur və keyfiyyətli məhsul alınır.

## 6.2. İnhisar fəaliyyətinin anlayışı və növləri

**İnhisar**[1] dedikdə, müvafiq bazarda bir və ya bir neçə sahibkarlıq subyektinin hökmran mövqeyi başa düşülür.

Qeyd edək ki, Azərbaycan Respublikasında inhisarçılıq fəaliyyətinin qarşısının alınmasının, məhdudlaşdırılmasının və aradan qaldırılmasının təşkilati və hüquqi əsaslarını "Antiinhisar fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 4 mart 1993-cü il tarixli 526 nömrəli Qanunu müəyyən edir.[2]

İlk antiinhisar aktı kimi Bizans imperatoru Zenonun 483-cü ildə qiymətlər haqqında imzaladığı konstitusiyanı göstərmək olar. Bu konstitusiyada deyilirdi ki, «mən hər bir şəxsə geyim və ya balığa və yaxud digər məhsula və ya digər istifadə üçün nəzərdə tutulmuş hər hansı bir əşyaya inhisarın həyata keçirilməsinə yol verməməsini əmr edirəm». Bu aktda ilk dəfə olaraq «inhisar» sözü meydana gəlmişdir.

Daha sonra İngiltərədə XVII əsrdə qəbul edilmiş qanun şəhər ticarətində mövcud inhisarçılığı aradan qaldırdı. Almaniyada isə 1886-cı ildə haqsız rəqabət haqqında qanun qəbul edilmişdir.

---

[1] İnhisar – yalnız bir şəxsə mənsub olma, bir malı istehsal və ya satmaq üçün müstəsna hüquqdur. A.Axundov. Azərbaycan dilinin izahlı lüğəti. Bakı, "Elm" nəşriyyatı, 2005, səh. 150.

[2] "Azərbaycan Respublikasının Ali Sovetinin Məlumatı", 1993-cü il, № 9, maddə 224 .

Kanadada isə 1889-cu ildə ticarətdə məhdudiyyətlərlə bağlı olan birliklərin qadağan edilməsi haqqında qanun qəbul edilmişdir.

Fikrimizcə, daha ətraflı Amerika antitrest qanunvericiliyin üzərində dayansaq daha məqsədəmüvafiq olar. Belə ki, 1883-cü ildə antiinhisar qanunu ilk dəfə Amerikanın Alabama ştatında qəbul olunmuşdur. Bu qanun ticarətin məhdudlaşdırılmasını və sıradan çıxarılmasına yönələn əməlləri hüquqazidd hesab edir və belə hərəkətlərə yol verdiklərinə görə sahibkarlıq fəaliyyəti subyektlərinə müxtəlif cəzalar tətbiq edilirdi.

Antiinhisar qanunvericiliyinin federal səviyyədə tətbiqinə yalnız 1890-cı ildə başlanılmışdır. Qəbul edilmiş qanun ticarətin və sənayenin qanunsuz məhdudiyyətlərdən və inhisardan müdafiəsinə yönəlmişdir. Məsələn: Amerikada alüminium istehsalı üzrə inhisarçı olan «Düpon» şirkəti əhalinin, onun istehsal etdiyi məhsula olan tələbatını bildiyindən qiymətlərin süni şəkildə artırılması (şişirdilməsi) üçün alüminium bazarında istehsal etdiyi məhsula süni şəkildə qıtlıq yaratdı. Buna görə də, prezident Franklin dövlət büdcəsi hesabına «Düpon» şirkəti ilə rəqabət apara biləcək bir şirkət yaratdı. Sonradan isə bu şirkəti «Düpon» şirkətinin sahibinin qan düşməni olan şəxs özəlləşdirdi. Bununla da alüminium bazarında qiymətlərlə bağlı sabitllik yaranmış oldu.[1]

Hüquq nəzəriyyəsində antiinhisar qanunvericiliyinin **üç modelinə** rast gəlmək olar:

**Amerika modeli** – bütün inhisarçılığı qanunazidd hesab edir. Bu modelli qanunvericilik hal-hazırda Kanada, ABŞ, Argentina və Yaponiyada tətbiq edilir.

**Avropa modeli** – inhisarçılığı qanunazidd hesab etmir, lakin inhisarçılığa nəzarəti həyata keçirir, inhisar xarakterli sui-istifadə hallarına qarşı mübarizə aparır. Bu modelli qanunvericilik Böyük Britaniya, Fransa və Qərbi Avropa dövlətlərində tətbiq edilir.

---

[1] Дойников И.В. Предпринимательское право. М.: «Изд.: ПРИОР», 1998. с. 142-144.

**Qarışıq modeldə** – inhisarçılıq həm qanunazidd hesab olunur, həm də inhisarçılığa yol verilir. Məsələn, təbii inhisarçılıq. Bu modelli qanunvericilik Almaniya, Azərbaycan, Rusiya və MDB-yə daxil olan digər dövlətlərdə tətbiq olunur.

**Bazarda hökmran mövqe** – qüvvədə olan qanunvericilik bütün təsərrüfat subyektləri sırasında bazarda hökmran mövqe tutan şəxslərin hüquqi vəziyyətini ayırır. Hüquq ədəbiyyatında belə subyektləri çox zaman inhisarçılar (monopolistlər) adlandırırlar. Hökmran mövqe-bazarda əvəzləyicisi olmayan və ya qarşılıqlı surətdə dəyişdirilən əmtəəyə malik olan təsərrüfat subyektinin və ya bir neçə təsərrüfat subyektlərinin müstəsna mövqeyidir.

"Antiinhisar fəaliyyəti haqqında" AR Qanununun 4-cü maddəsində isə hökmran mövqeyə belə bir anlayış verilmişdir: **hökmran mövqe** – təsərrüfat subyektinin öz iqtisadi potensialının üstünlüyünə əsaslanaraq rəqabətə həlledici təsir göstərməyə imkan verən və bununla da bazarın digər iştirakçılarının bazara daxil olmasını çətinləşdirən müstəsna vəziyyətidir. Bazarda payı 35%-in və ya qanunvericilikdə müəyyən olunmuş digər həddən çox olan təsərrüfat subyekti hökmran mövqe tutan hesab olunur.

Bundan əlavə, hökmran mövqe rəqabət aparanlar arasında bağlanmış sazişdən, həm də inhisarçı ilə onun alıcı və ya istehlakçısı arasında bağlanmış sazişdən yarana bilər.

Hökmran mövqeyin anlayışını müəyyən edərkən qanunvericilik hökmran mövqeyin keyfiyyət və kəmiyyət əlamətlərindən istifadə edir. Təsərrüfat subyektinin hökmran mövqeyi həm **daxili,** həm də **xarici** faktorların nəticəsi, o cümlədən də aşağıdakılar ola bilər:

- ✓ *fərqləndirici vergi sistemi;*
- ✓ *təsərrüfat subyektlərinin birləşdirilməsi və ləğv olunması;*
- ✓ *yeniliyin tətbiqi, istehsal və ya elmi-texniki strategiya;*
- ✓ *qeyri-rəqabət metodu ilə bazardan rəqibin uzaqlaşdırılması üçün təsərrüfat subyektinin fəaliyyəti;*
- ✓ *təsərrüfat subyektləri arasındakı saziş (açıq və gizli) və digər faktorlar.*

Hüquq ədəbiyyatlarında müxtəlif meyarlara əsaslanaraq **inhisarın tipləri** göstərilmişdir. İnhisarın bu tiplərini ümumiləşdirərək aşağıdakı kimi qruplaşdırmaq olar:

❖ **Bilavasitə dövlət tənzimlənməsi nəticəsində yaranan inhisarçılıq.**

Bu tip inhisarçılıq dövlət və ictimai maraqların təmin edilməsi məqsədilə dövlətin iradəsi əsasında yaradılır. Bu tip inhisarçılığı, onun hüquqi təbiəti nəzərə alınmaqla dövlət inhisarçılığı adlandırmaq olar.

❖ **Bilavasitə dövlət tənzimlənməsi olmadan və sahibkarlıq fəaliyyəti subyektlərinin müstəqil hərəkətləri nəticəsində yaranan inhisarçılıq.** Bu tip inhisarçılıq aşağıdakı hallarda ola bilər:

- ✓ *sahibkarlıq fəaliyyəti subyektlərinin birinin digəri üzərində haqlı rəqabət nəticəsində üstünlük əldə etməsi;*
- ✓ *rəqiblərin öz təşəbbüsləri ilə bazardan çıxması.*

❖ **Sahibkarlıq subyektlərinin müstəqil yaratdıqları inhisarçılıq.**

Bu inhisarlar süni inhisarçılıq adlandırılır.

Sosial-iqtisadi təbiətinə görə inhisarın aşağıdakı növlərini fərqləndirmək olar:

- ✓ *Təbii inhisarçılıq;*
- ✓ *Qanuni (leqal) inhisarçılıq;*
- ✓ *Süni inhisarçılıq.*

Bazarda azad rəqabət üçün daha təhlükəli və geniş yayılmış **süni inhisarçılıqdır**. Bu növ inhisarçılığın təbii inhisarçılıqdan fərqi ondan ibarətdir ki, süni inhisarçılıq daha çox gəlir əldə etmək üçün inhisar subyektlərinin birləşməsidir. Bu növ inhisarçılıq bazarın quruluşunu qəsdən, bilərəkdən dəyişir, yəni:

- ✓ *yeni sahibkarlıq fəaliyyəti subyektlərinin bazara daxil olmasına maneələr yaradır;*
- ✓ *daha böyük kapitaldan istifadə olunur;*
- ✓ *yeni sahibkarlıq fəaliyyəti subyektləri ilə müqayisədə daha yüksək səviyyədə texnologiyadan istifadə olunur.*

Süni inhisarçılıq aşağıdakı kimi təşkil olunur:

- ✓ ***kartel;***
- ✓ ***sindikat;***
- ✓ ***trest;***
- ✓ ***konsern.***

**Kartel**[1] - inhisarın daha çox dayanaqlı formasıdır. Hər bir müəssisə kartelə daxil olduqda maliyyə və istehsal müstəqilliyini saxlayır. Kartel bir sahə çərçivəsində fəaliyyət göstərir. İnhisar sazişləri nəticəsində kartelə daxil olan subyektlər bazarda ümumi siyasət işləyib-hazırlayır, məhsulun istehsalının ümumi həcmi müəyyənləşdirilir və vahid qiymət müəyyən edilir.

**Sindikat**[2] - inhisar birliyinin təşkilati formasıdır. Sindikatda məhsulun satışı, sifarişlərin bölgüsü mərkəzləşdirilmiş qaydada həyata keçirilir. Bir sözlə desək, sindikat birgə sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və istehsal cəhətdən müstəqil olan sahibkarların birliyidir.

**Trest**[3] - inhisar birliyinin formasından biridir. Trestə daxil olan sahibkarlıq fəaliyyətinin subyektləri istehsal, kommersiya və hüquqi müstəqilliyini itirir. Bu növ inhisarçılıq XIX əsrdə daha çox yayılmışdır. Keçmiş SSRİ-də trestlər, ilk dəfə 1923-cü il aprel ayının 10-dan yeni iqtisadi siyasət nəticəsində yaranmışdır.

**Konsern**[4] – istehsalın və kapitalın yüksək səviyyədə mərkəzləşdirilmiş müxtəlif müəssisələrin birliyidir. Bu, inhisar birliyinin daha üstün və mürəkkəb formasıdır.

**İnhisarçılıq fəaliyyəti**-inhisarçılığın bu və ya digər forması

---

[1] A.Axundova görə kartel – saziş, müqavilə, iri kapitalist sənayesinin inhisarçı birləşməsidir. A.Axundov. Azərbaycan dilinin izahlı lüğəti. Bakı, “Elm” nəşriyyatı, 2005, səh.165.

[2] Sindikat yun. sözü *sindikos* olub, mənası bir-birinə xəbərdarlıq etməklə hərəkət etmək deməkdir.

[3] Trest – ingilis sözü *trust* olub, mənası etibar etmək deməkdir.

[4] A.Axundova görə konsern – ticarət və sənaye müəssisələrinin birliyidir. A.Axundov. Azərbaycan dilinin izahlı lüğəti. Bakı, “Elm” nəşriyyatı, 2005, səh.178.

olub, təsərrüfat subyektlərinin, yaxud icra hakimiyyəti və idarəetmə orqanlarının rəqabətə yol verməməyə, onu məhdudlaşdırmağa, yaxud aradan qaldırmağa yönəldilmiş fəaliyyətdir.

İnhisar fəaliyyətinin **son məqsədi** – sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi zamanı gəlirin artırılmasıdır. İnhisar fəaliyyətini müxtəlif əsaslara görə təsnif etmək olar:

❖ ***ifadə fərqindən asılı olaraq:***
- ✓ *müqavilə üzrə inhisarçılıq fəaliyyəti;*
- ✓ *müqavilədənkənar inhisarçılıq fəaliyyəti;*

❖ ***inhisarçılıq fəaliyyəti iştirakçılarının sayından asılı olaraq:***
- ✓ *fərdi inhisarçılıq fəaliyyəti;*
- ✓ *kollektiv inhisarçılıq fəaliyyəti.*

❖ ***inhisarçıların subyektiv tərkibindən asılı olaraq:***
- ✓ *sahibkarlıq subyektlərinin inhisar fəaliyyəti;*
- ✓ *dövlət orqanlarının inhisar fəaliyyəti;*
- ✓ *yerli özünüidarəetmə orqanlarının inhisar fəaliyyəti.*

Sahibkarlıq subyektlərinin inhisar fəaliyyətinin aşağıdakı növləri vardır:

❖ **fərdi inhisar fəaliyyəti** – sahibkarlıq subyektinin bazardakı öz vəziyyətindən sui-istifadəsi kimi başa düşülür. Sui-istifadə aşağıdakı hallarda özünü göstərə bilər:
- ✓ *bazarda malların qıtlığını (defisitini) yaratmaq və ya qiymətləri artırmaq məqsədi ilə malların dövriyyədən çıxarılması;*
- ✓ *tərəf müqabili olan şəxslərə, onun üçün əlverişli olmayan müqavilə şərtlərinin təklif edilməsi və ya müqavilənin predmetinə aid olmayan şərtlərin təklif edilməsi;*
- ✓ *digər sahibkarlıq subyektlərinin bazara daxil olması üçün süni maneələrin yaradılması;*
- ✓ *bazarda üstünlük əldə etmək məqsədilə qiymət manipulyasiyasının həyata keçirilməsi;*
- ✓ *istehlakçıların ehtiyacı olan malların istehsalının azaldılması və ya dayandırılması.*

❖ **kollektiv inhisarçılıq** fəaliyyəti sahibkarlıq subyektləri arasında özünü sazişlərdə biruzə verir. Bu kimi sazişlər bağlanması nəticəsində kartellər, sindikatlar, konsernlər və s. inhisarçı birliklər yaradılır. "Antiinhisar fəaliyyəti haqqında" AR Qanunu sazişlərin iki növünü nəzərdə tutur: **üfüqi** və **şaquli sazişlər**. Belə ki, Qanunun 4-cü maddəsinə əsasən, **üfüqi sazişlər -** istehsal silsiləsinin eyni səviyyəsində olan yaxud eyni bazarda bir-biri ilə rəqabətə yol verməmək məqsədilə fəaliyyət göstərən təsərrüfat subyektləri arasında bağlanılan sazişlərdir. Ş**aquli sazişlər isə -** istehsal silsiləsinin müxtəlif səviyyələrində olan təsərrüfat subyektləri arasında, yaxud təsərrüfat subyektləri ilə onların müştəriləri və mal göndərənləri arasında bağlanan sazişlərdir.

"Antiinhisar fəaliyyəti haqqında" AR Qanunu inhisar fəaliyyətinin aşağıdakı növlərini müəyyən edir:

- ✓ *dövlət inhisarçılığı;*
- ✓ *sahə inhisarçılığı;*
- ✓ *yerli inhisarçılıq;*
- ✓ *təsərrüfat subyektlərinin inhisarçılığı;*
- ✓ *maliyyə-kredit inhisarçılığı;*
- ✓ *bazar subyektlərinin üfüqi və şaquli sazişləri nəticəsində yaranan inhisarçılıq;*
- ✓ *təbii inhisarçılıq;*
- ✓ *patent-lisenziya inhisarçılığı;*
- ✓ *yerin təkindən istifadə inhisarçılığı.*

"Antiinhisar fəaliyyəti haqqında" AR Qanununun 2-ci fəslində inhisar fəaliyyətinin hər bir növünə aid olan hallar təsbit olunmuşdur.

Antiinhisar, haqsız rəqabət, dövlət satınalmaları, reklam (açıq məkanda reklam istisna olmaqla), standartlaşdırma, metrologiya, texniki tənzimləmə, uyğunluğun qiymətləndirilməsi, akkreditasiya, keyfiyyətin idarə edilməsi, istehlakçıların hüquqlarının müdafiəsi və istehlak bazarına nəzarət sahələrində (bundan sonra – müvafiq sahə) dövlət nəzarətinin və tənzimlənməsinin həya-

ta keçirilməsini təmin edən Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında **Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətidir**. Xidmətin fəaliyyəti Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 may tarixli 1017 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin Əsasnaməsi" ilə tənzim olunur. Əsasnamənin 2-ci bəndinə görə Xidmətin əsas fəaliyyət istiqamətləri aşağıdakılardır:

- ✓ *müvafiq sahədə dövlət siyasətinin formalaşdırılmasında iştirak etmək və həmin siyasətin həyata keçirilməsini təmin etmək;*
- ✓ *müvafiq sahənin inkişafı üçün tədbirlər görmək;*
- ✓ *müvafiq sahəni tənzimləyən normativ hüquqi aktların layihələrinin hazırlanmasında iştirak etmək, onlara dair rəy və təkliflər vermək;*
- ✓ *istehlakçıların hüquqlarının və qanuni maraqlarının qorunması, istehlak mallarının (işlərin, xidmətlərin) keyfiyyətinin təmin olunması sahəsində aidiyyəti dövlət orqanları ilə birlikdə dövlət siyasətinin həyata keçirilməsində iştirak etmək, eləcə də ticarət, ictimai iaşə, məişət və digər növ xidmət sahələrində norma və qaydalara riayət olunmasına, istehlak bazarında malların (işlərin, xidmətlərin) keyfiyyətinə və təhlükəsizliyinə dövlət nəzarətinin həyata keçirilməsini təmin etmək;*
- ✓ *dövlət vəsaiti hesabına malların (işlərin və xidmətlərin) satın alınması sahəsində dövlət siyasətinin aidiyyəti dövlət orqanları ilə birlikdə həyata keçirilməsində iştirak etmək, bu sahədə dövlət nəzarətinin həyata keçirilməsini təmin etmək;*
- ✓ *standartlaşdırma, metrologiya, texniki tənzimləmə, uyğunluğun qiymətləndirilməsi, akkreditasiya və keyfiyyətin idarə olunması sahələrində dövlət siyasətinin aidiyyəti dövlət orqanları ilə birlikdə həyata keçirilməsini təmin etmək;*

- ✓ *reklam (açıq məkanda reklam istisna olmaqla) fəaliyyətinə dövlət nəzarətini həyata keçirmək;*
- ✓ *aidiyyəti dövlət orqanları ilə birlikdə dövlətin qiymət-tarif siyasətinin həyata keçirilməsində iştirak etmək.*

Yuxarıda göstərilən fəaliyyət istiqamətlərinə uyğun olaraq, Xidmət aşağıdakı **vəzifələri** yerinə yetirir:

- ✓ *antiinhisar qanunvericiliyinin tələblərinə riayət olunmasına dövlət nəzarətinin həyata keçirilməsini təmin etmək, inhisarçılıq və haqsız rəqabət fəaliyyətinin qarşısının alınması, məhdudlaşdırılması və aradan qaldırılması, sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki və hüquqi şəxslərin (bundan sonra – təsərrüfat subyektləri) və istehlakçıların mənafelərinin pozulmasına gətirib çıxaran və ya gətirib çıxara bilən hərəkətlərin qarşısının alınması ilə bağlı antiinhisar qanunvericiliyi ilə səlahiyyətlərinə aid edilmiş tədbirləri görmək;*
- ✓ *antiinhisar qanunvericiliyində nəzərdə tutulmuş hallarda və qaydada hüquqi şəxslərin, o cümlədən dövlətə və bələdiyyəyə məxsus olan hüquqi şəxslərin yaradılması, yenidən təşkili, ləğv edilməsi, fiziki və hüquqi şəxslər arasında əqdlər bağlanması və nizamnamə kapitalındakı səhmlərin (payların) alqı-satqısı zamanı antiinhisar qanunvericiliyinə uyğun olaraq razılıq vermək;*
- ✓ *rəqabətin vəziyyətini araşdırmaq, təsərrüfat subyektlərinin hökmran mövqeyini müəyyən etmək və əmtəə bazarında payı antiinhisar qanunvericiliyi ilə müəyyən edilmiş həddən çox olan təsərrüfat subyektlərinin dövlət reyestrini aparmaq;*
- ✓ *antiinhisar qanunvericiliyinin pozulması və sahibkarlıq fəaliyyətinin ədalətsiz üsullarla aparılması haqqında işlərə baxmaq, bazar subyektlərinin tətbiq etdiyi haqsız rəqabət hallarının, təsərrüfat subyektlərinin kartel sövdələşmələrinin aşkarlanması və aradan qaldırılması, bazarda ilkin*

*vəziyyətin bərpa edilməsi, həmçinin qanun pozuntusuna yol vermiş şəxslərin antiinhisar qanunvericiliyi ilə müəyyən olunmuş qaydada məsuliyyətə cəlb edilməsi üçün tədbirlər görmək;*

- ✓ *təsərrüfat subyektlərinin, icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının xarici ölkələrin hüquqi və fiziki şəxsləri ilə bağladıqları saziş və müqavilələrin daxili bazarda rəqabətin məhdudlaşdırılmasına gətirib çıxardığı hallarda tədbirlər görmək;*
- ✓ *qiymətlərlə süni şəkildə manipulyasiya edilməsinə, qiymət ayrı-seçkiliyinə və dempinqə qarşı antiinhisar qanunvericiliyi ilə müəyyən edilmiş qaydada tədbirlər görmək;*
- ✓ *antiinhisar, istehlakçıların hüquqlarının müdafiəsi, standartlaşma və akkreditasiya haqqında qanunvericiliyin pozulması ilə əlaqədar təsərrüfat subyektinə verilmiş lisenziyanın və ya icazənin qüvvəsinin dayandırılması üçün onu vermiş icra hakimiyyəti orqanlarına təqdimat göndərmək;*
- ✓ *təbii inhisar subyektlərinin fəaliyyətinə dövlət nəzarətini həyata keçirmək, onların istehlakçıların mənafeyinə və rəqabətə mənfi təsir göstərə bilən hərəkətlərinin qarşısının alınması və aradan qaldırılması üçün antiinhisar qanunvericiliyi ilə müəyyən edilmiş qaydada tədbirlər görmək;*
- ✓ *təbii inhisar subyektlərinin siyahısına dair Nazirliyə təkliflər vermək;*
- ✓ *təbii inhisar subyektlərinin dövlət nəzarətində olan hərəkətlərinin həyata keçirilməsinə razılıq vermək;*
- ✓ *təbii inhisar subyektlərinin hər biri üçün tətbiq edilməli olan tənzimləmə üsullarını qanuna uyğun müəyyənləşdirmək və tətbiq etmək və s.*

Öz vəzifələrini yerinə yetirmək üçün Xidmətin aşağıdakı **hüquqları** vardır:

- ✓ *müvafiq sahədə islahatların aparılmasına dair Nazirliyə təkliflər vermək;*

- ✓ *müvafiq sahədə Azərbaycan Respublikasının beynəlxalq müqavilələrə tərəfdar çıxması barədə Nazirlik qarşısında təşəbbüslə çıxış etmək;*
- ✓ *Nazirliklə razılaşdırmaqla, beynəlxalq tədbirlərdə iştirak etmək və belə tədbirlərin, habelə konfransların, seminarların və treyninq kurslarının ölkədə və ya xaricdə keçirilməsini təşkil etmək;*
- ✓ *müvafiq sahə üzrə dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək, onlardan belə məlumatları (sənədləri) almaq;*
- ✓ *müstəqil ekspert və mütəxəssisləri, məsləhətçi şirkətləri, elmi təşkilatları müqavilə əsasında, bu məqsəd üçün nəzərdə tutulmuş vəsait çərçivəsində öz fəaliyyətinə cəlb etmək, ictimai əsaslarla işçi qruplar və komissiyalar yaratmaq;*
- ✓ *fəaliyyət istiqamətlərinə aid məsələlər üzrə qeyri-normativ metodiki və təlimat xarakterli göstərişlər, məsləhətlər və izahlar vermək;*
- ✓ *maliyyə-sənaye qruplarından, təbii inhisar subyektlərindən, inhisarçı mövqe tutan şəxslərdən fəaliyyətləri haqqında qanunla müəyyən edilmiş hesabat və məlumatları, o cümlədən təbii inhisar subyektlərinin investisiya layihələrini almaq;*
- ✓ *fəaliyyət istiqamətlərinə aid məsələlər üzrə müqavilələr bağlamaq, strukturuna daxil olmayan tabeliyindəki qurumların fəaliyyət istiqamətləri üzrə göstərdiyi xidmətlərə görə alınan xidmət haqlarından daxil olan vəsaitdən istifadəni, Nazirliklə razılaşdırmaqla təmin etmək və s.*

"Antiinhisar fəaliyyəti haqqında" AR Qanununun tələblərinin pozulmasına görə təsərrüfat subyektləri, onların rəhbərləri və müvafiq icra hakimiyyəti orqanlarının vəzifəli şəxsləri məsuliyyət daşıyırlar. Belə ki, təsərrüfat subyektləri Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında **Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin** qanuni göstərişlə-

rini müəyyən edilmiş müddətdə yerinə yetirmədikdə hər gecikdirilmiş günə görə **əlli beş manatadək**, lakin **iyirmi iki min manatdan çox** olmamaq şərti ilə cərimə olunurlar. Cərimənin miqdarı müəyyən edilərkən təsərrüfat subyektlərinin iqtisadi vəziyyəti nəzərə alınır. Həmçinin, təsərrüfat subyektləri **Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə qanunvericilikdə təsbit olunan** məlumatları və sənədləri vermədikdə, yaxud düzgün olmayan məlumatlar verdikdə — **beş min beş yüz manatadək** maliyyə sanksiyası şəklində cərimə olunurlar. Təsərrüfat subyektləri cəriməni vaxtında ödəmədiyi və ya qismən ödədiyi halda, **Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti** cərimənin, yaxud onun ödənilməmiş hissəsinin məcburi qaydada ödənilməsi üçün tələbin icraya yönəldilməsi haqqında qərar qəbul edir və bu qərarın məcburi qaydada icrası qanunvericiliyə əsasən icra məmurları tərəfindən həyata keçirilir.

### 6.3. Təbii inhisar subyektlərinin fəaliyyətinin hüquqi tənzimlənməsi

Təbii inhisar subyektlərinin fəaliyyəti "Təbii inhisarlar haqqında" Azərbaycan Respublikasının 15 dekabr 1998-ci il tarixli 590-IQ nömrəli Qanunu ilə tənzim olunur.[1] Təbii inhisarlar haqqında AR Qanununun 4-cü maddəsində təbii inhisara anlayış verilmişdir: **təbii inhisar** – istehsalın texnoloji xüsusiyyətlərinə görə rəqabətin olmadığı şəraitdə tələbatın ödənilməsi daha səmərəli olan və inhisar subyektlərinin istehsal etdiyi (satdığı) əmtəə istehlakda başqa əmtəə ilə əvəz edilə bilməyən əmtəə bazarının vəziyyətidir. Qeyd etmək lazımdır ki, iqtisadi nəzəriyyənin inkişafı dövrü ərzində təbii inhisarların mahiyyətini və onların fəaliyyətinin tənzimlənməsi metodlarını əks etdirən anlayışın müəyyənləşdirilməsinə cəhdlər edilmişdir. Hal-hazırda, iqtisadi və

---

[1] "Azərbaycan Respublikasının Qanunvericilik Toplusu", 31 mart 1999-cu il, № 3, maddə 155.

hüquqi ədəbiyyatlarda “təbii inhisar” anlayışının tərifinə müxtəlif yanaşmalar mövcuddur. Belə ki, İ.M. Plyaçkayteneyə görə təbii inhisarın mövcudluğu ictimai xərcləri minimuma endirməklə iqtisadi cəhətdən əsaslandırılır.[1] E.İ.İvankova isə hesab edir ki, təbii inhisar dedikdə, ictimai maraqlar baxımından mövcudluğu obyektiv cəhətdən faydalı olan inhisarın bir növü başa düşülür, çünki bu, minimal xərclər şəraitində yüksək məcmu tələbatı (ictimai nemətlərə və ilkin zəruri xidmətlərinə) təmin etməyə imkan verir və buna görə də onun fəaliyyəti dövlət tərəfindən qanunilәşdirilir.

Təbii inhisarı inhisarçılığın xüsusi bir forması olduğunu hesab edən A.Y. Juçkov isə qeyd edir ki, təbii inhisar bir tərəfdən məhsulun həcminə və qiymətinə nəzarət edir, digər tərəfdən isə firmaların bazara daxil olmasına imkan vermir, həm də təbii inhisar informasiyanın yeganə sahibidir.[2]

İqtisadi və hüquq ədəbiyyatlarında təbii inhisar əsasən iki aspektdən nəzərdən keçirilir. Bir qrup müəlliflər hesab edirlər ki, təbii inhisar əmtəə və xidmətlərin istehsalı və satışı üzrə rəsmi olaraq tanınan qaçılmaz inhisar ya inhisarçının təbii hüquqları ilə yaxud da bütövlükdə dövlət və əhali üçün iqtisadi səmərə mülahizələri ilə şərtlənir Digər tərəfdən, dövlətin maraqları naminə vahid boru kəmərləri, enerji şəbəkələri, dəmir yolları magistrallarının olması faydalıdır.[3]

---

[1] Плячкайтене И.М. Исторический обзор подходов к понятию естественная монополия //Актуальные проблемы гуманитарных и естественных наук. 2011. № 8. с. 78.

[2] Жучков А.Ю. Роль естественных монополий в национальной экономике социально-экономические явления и процессы. № 9 (055), 2013. с. 42-46.

[3] Райзберг Б.А. Современный экономический словарь / Б.А.Райзберг, Л. Ш. Лозовский, Е. Б. Стародубцева. 5-е изд., перераб. и доп. Москва: ИНФРА-М, 2007. 495с.; Борисов А.Б. Большой экономический словарь / А. Б. Борисов. Москва: Книжный мир, 2003. 895с.; Естественная монополия [Электронный ресурс]: //Академик. Юридическая энциклопедия. http://goo.gl/mNS31n; Естественная монополия [Электронный ресурс]: //Академик. Финансовый словарь. –http://goo.gl/5JE9vt.

Digər qrup müəlliflər isə qeyd edirlər ki, təbii inhisar istehsalın texnoloji xüsusiyyətlərinə görə rəqabətin olmadığı şəraitdə tələbin təmin edilməsi daha səmərəli olan bazar vəziyyətidir. Təbii inhisar subyektlərinin istehsal etdiyi mallar isə istehlakda başqa mallarla əvəz edilə bilməz. Təbii inhisarın subyekti qismində unikal ehtiyatlar (adətən təbii) üzərində müstəsna hüquqa malik olan və ya istehsal xərcləri o qədər kiçikdir ki (səmərəli texnologiyalar sayəsində), rəqiblərin bazara daxil olması qeyri-mümkünsüz edən təsərrüfat subyektidir (bazar strukturudur). Patentlərə müstəsna sahibliklə əsaslanan inhisar təbii inhisar hesab olunmur.[1]

V.V.Qalperin və V.M. Qalperin təbii inhisarın mahiyyətini açıqlayaraq qeyd edirlər ki, onun mövcudluğu müəyyən dilemma[2] yaradır: cəmiyyət daha az məsrəflə məhsul istehsalından faydalana bilər ki, bu da sənayedə vahid firmanın olmasına imkan yarada bilər, lakin eyni zamanda inhisar mövqeyindən istifadə edən bu firma, özünün inhisar mövqeyindən istifadə edərək daha yüksək qiymətlər təyin etmək və istehlakçıların artıqlığının bir hissəsini geri götürmək imkanına malikdir. Təbii inhisarın dövlət tənzimlənməsinin vəzifəsi ondan ibarətdir ki, inhisar qiymətlərinin müəyyən edilməsindən (tamamilə və ya qismən) imtina edərək firmanı daha az xərclə daha çox məhsul istehsal etməyə stimullaşdırmaqdır.[3]

---

[1] Естественная монополия [Электронный ресурс]: //Академик. Энциклопедический словарь. – Режим доступа: http://goo.gl/3wBSYX; Естественная монополия [Электронное издание]: //Академик. Политология. Словарь. http://dic.academic.ru/dic.nsf/politology/1016; Естественная монополия [Электронное издание]: //Академик. Политология. Словарь-справочник. http://goo.gl/76Lgud.

[2] Dilemma (Yunan δί-λημμα "ikiqat lemma"), bir-birini istisna edən və üçüncünün mümkünlüyünə imkan verməyən iki əks mövqedə duran polemik mövqedir.

[3] Гальперин В. В. Лекция 48. Монопольная власть [Электронный ресурс] / В. В. Гальперин, В. М. Гальперин // 50 лекций по микроэкономике: [электронный учебник]. http://goo.gl/TFaMy0.

İqtisadi və hüquq ədəbiyyatında şərti olaraq təbii inhisarların iki tipi fərqləndirilir: təbii və texniki-iqtisadi. Təbii inhisar, təbiətin özü tərəfindən qoyulan rəqabət üçün maneələrin olduğu yerdə yaranır.[1] Təbii inhisar nadir təbiət hadisələrinin (iqlim, təbii sərvətlər, müəyyən xammalın nadirliyi) mövcudluğu nəticəsində yaranmışdır, yəni təbiət özü sənayeyə giriş üçün maneələr yaratmışdır.

Texniki-iqtisadi inhisarların meydana gəlməsi miqyas iqtisadiyyatının təzahürü ilə əlaqəli olan texniki və ya iqtisadi səbəblərlə bağlıdır.

Təbii inhisarın bir növü olan texnoloji inhisar müəyyən məhsulların istehsalına və satışına nəzarət edən, istehsal texnologiyasının spesifikliyinin böyük ölçüsünü müəyyən edən müəssisədir (birlikdir). Onun obyektləri ola bilər: məhsulların istehsal üsulu; dar mövzu ixtisası. Müəyyən bir məhsula olan tələb bir və ya bir neçə müəssisə tərəfindən təmin edilə bilər.

Təbii inhisar fəaliyyətinin subyekti təbii inhisar şəraitində əmtəə istehsalı (satışı) ilə məşğul olan təsərrüfat subyektidir. Qanun təbii inhisar subyektlərinin fəaliyyət sahələrini müəyyən etmişdir. Belə ki, "Təbii inhisarlar haqqında" AR Qanununun 5-ci maddəsinə əsasən, təbii inhisar subyektlərinin fəaliyyət sahələri aşağıdakılardır:

- ✓ *neft və neft məhsullarının magistral boru kəmərləri ilə nəqli;*
- ✓ *təbii qazın boru kəmərləri ilə nəqli, saxlanması və paylanması xidmətləri;*
- ✓ *elektrik və istilik enerjisinin ötürülməsi və paylanması xidmətləri;*
- ✓ *magistral və yerli dəmir yolu xətlərinin, yol qurğu və tikililərin istismarı, hərəkəti idarəetmə və hərəkət təhlükəsizliyi*

[1] Назаренко, Л.И. Понятие естественной монополии, ее основные черты и классификация /Л.И. Назаренко// Фундаментальные и прикладные исследования в современном мире. 2016. № 14-2. с. 50-57.

*fəaliyyəti, dəmir yolu stansiyaları və sərnişin vağzalları xidmətləri;*

- ✓ *aeroport xidmətləri, aeroportların, uçuş zolaqları və qurğuların istismarı, hava gəmilərinə aviasiya və aeronaviqasiya xidmətləri;*
- ✓ *metro nəqliyyatında yolların, tunellərin və stansiyaların istismarı, hərəkəti idarəetmə və hərəkət təhlükəsizliyi fəaliyyəti;*
- ✓ *su limanı xidmətləri, liman qurğularının istismarı, yükaşırma və dəniz üzgüçülüyünün təhlükəsizliyi fəaliyyəti;*
- ✓ *ümumi istifadədə olan elektrik və poçt rabitəsi xidmətləri, qəbuledici – verici radio və televiziya stansiyaların, yüksəktezlikli qurğuların istismarı və nəzarət fəaliyyəti;*
- ✓ *baş su təmizləyici qurğular, magistral borular, su kəməri şəbəkəsi və onların üzərindəki təzyiq və tənzimləyici qurğuların istismarı;*
- ✓ *kanalizasiya təsərrüfatında aerasiya, mexaniki təmizləmə stansiyaları, nasosxanalar, baş və yağış kollektorları və kanalizasiya xətlərinin istismarı;*
- ✓ *meliorasiya və irriqasiya sahələrinə aid olan su anbarları, kanallar, kollektorlar, boru kəmərləri və bəndlərin istismarı;*
- ✓ *istintaq təchizatı xidmətləri.*

Sadalanmış fəaliyyət sahələrində mövcud olan təsərrüfat subyektlərinə rəqib subyektlər yarandıqda rəqabət şəraitində fəaliyyət göstərən subyektlər təbii inhisar subyekti sayılmır və “Təbii inhisarlar haqqında” AR Qanunu onlara şamil edilmir.

Qanunvericilik təbii inhisar subyektlərinin fəaliyyətini əsasən iki metodla tənzim edir:

1. Əmtəə qiymətlərinin (tariflərinin) tənzimlənməsi. Təbii inhisar subyektlərinin məhsuluna qiymətlərin dövlət tənzimlənməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 28 sentyabr 2005-ci il tarixli 178 №li Qərarı ilə nizama salınır. Həmin qərara əsasən, qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) siyahısı təsdiq olunmuşdur.

2. Xidmət göstərilməsi məcburi olan istehlakçıların müəyyən edilməsi və təbii inhisar subyektlərinin istehlakçıların əmtəə üzrə ehtiyacını tam həcmdə ödəyə bilmədiyi hallarda onların həmin əmtəə ilə təmin olunmasının minimum səviyyəsinin müəyyən edilməsi.

Bu metodların tətbiq edilməsi üçün Qanunun 7-ci maddəsində təsbit olunmuş əsaslar olmalıdır. Belə ki, təbii inhisarları tənzimləyən orqanlar tənzimlənmə üsullarının tətbiq edilməsi haqqında qərarı konkret olaraq hər bir təbii inhisar subyekti üçün, belə bir tənzimləmənin istehsal edilmiş və ya satılmış əmtəənin keyfiyyətinin artırılmasında və bu əmtəəyə tələbatın ödənilməsində stimullaşdırıcı rolu nəzərə almaqla qəbul edir. Bu zaman məsrəflərin nə dərəcədə əsaslandırılmış olması müəyyən edilir və aşağıdakılar nəzərə alınır:

- ✓ *əmtəənin istehsal və ya satış xərcləri, o cümlədən əmək haqqı, xammal və materialların dəyəri, üstəlik xərclər;*
- ✓ *vergilər və digər ödənişlər;*
- ✓ *əsas istehsal vasitələrinin dəyəri, onların təkrar istehsalı üçün zəruri olan investisiya tələbat və amortizasiya ayırmaları;*
- ✓ *faktiki və proqnozlaşdırılan mənfəət;*
- ✓ *istehsal olunan və ya satılan əmtəənin keyfiyyətinin və kəmiyyətinin istehlakçıların tələbatına uyğunluğu;*
- ✓ *dövlət dotasiyaları və dövlət yardımı ilə bağlı tədbirlər.*

"Təbii inhisarlar haqqında" AR Qanununun 11-ci maddəsinə əsasən, təbii inhisar subyektlərinə aşağıdakı cərimələr (maliyyə sanksiyaları) tətbiq edilir:

- ✓ *təbii inhisarları tənzimləyən orqanların səlahiyyətlərinin həyata keçirilməsi üçün tələb olunan sənədlərin və ya başqa məlumatın vaxtında təqdim edilməməsinə görə –* ***beş yüz əlli manatadək****;*
- ✓ *təbii inhisar subyektlərinin nizamnamə kapitalında səhmlərin (payların) əldə edilməsi və ya başqa əqdlər (girov,*

*idarəetmənin etibar edilməsi və s.) nəticəsində təbii inhisar subyektinin nizamnamə kapitalını təşkil edən bütün səhmlərə (paylara) düşən səslərin 10%-dən çoxunu əldə edən və onlara məxsus səslərin həcminin bütün hallarda dəyişməsi zamanı şəxs və şəxslər qrupu təbii inhisarları tənzimləyən orqana 15 gün müddətində məlumatın təqdim edilməməsinə görə – **altı yüz altmış manatadək;***

- ✓ *təbii inhisarları tənzimləyən orqanlara düzgün olmayan məlumatın verilməsinə görə – **min yüz manatadək;***
- ✓ *AR İqtisadiyyat Nazirliyi tərəfindən müəyyən edilmiş qiymətlərin (tariflərin) dəyişdirilməsinə görə – **on altı min beş yüz manatadək;***
- ✓ *qanunvericiliyə uyğun olaraq təbii inhisarları tənzimləyən orqanların qərarlarının pozulmasına görə – **on bir min manatadək.***

Yuxarıda göstərilən cərimələrin tətbiq edilməsi haqqında qərar qəbul edildikdən sonra cərimələr **30 gün ərzində** dövlət büdcəsinə ödənilir. Təbii inhisar subyektləri cəriməni vaxtında ödəmədiyi və ya qismən ödədiyi halda, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında **Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti** cərimənin, yaxud onun ödənilməmiş hissəsinin məcburi qaydada ödənilməsi üçün tələbin icraya yönəldilməsi haqqında qərar qəbul edir və bu qərarın məcburi qaydada icrası əsasən icra məmurları tərəfindən həyata keçirilir.

Təbii inhisara malik olan hüquqi şəxslər malların və xidmətlərin təklif edilməsi şərtlərinə və onların qiymətlərinə, həmin şərtlərdə və qiymətlərdə dəyişikliklərə aid informasiyaları şərtlərin təklif edilməsinə və ya həmin şərtlərdə və qiymətlərdə dəyişiklik edilməsinə **azı 30 gün qalmış** qanunvericiliklə müəyyən edilmiş üsullarla açıqlamalıdırlar.

## Mövzu üzrə nəticə:

**Rəqabət** - bazar subyektləri arasında sahibkarlıq fəaliyyətinin ən əlverişli şərtləri uğrunda mübarizənin elə formasıdır ki, bu zaman onların müstəqil fəaliyyəti hər birinin bazarda əmtəə (məhsul, iş, xidmət) dövriyyəsinin ümumi vəziyyətinə təsir etmək imkanını əsaslı surətdə məhdudlaşdırır və istehlakçıya lazım olan əmtəələrin istehsalını stimullaşdırır. Rəqabət-iqtisadi yarışmadır və özündə bu xüsusiyyətləri birləşdirir: müstəqil (rəqabət) hərəkətlərlə ifadə olunur; rəqabət aparan subyektlər arasında həyata keçirilir; bazar adlanan, sahibkarlıq fəaliyyətinin müəyyən iqtisadi-hüquqi sahələrində olur.

Haqsız rəqabətin **formalarına** aiddir: rəqibin təsərrüfat fəaliyyətinin təqlidi; rəqibin təsərrüfat fəaliyyətinin nüfuzdan salınması; rəqibin təsərrüfat fəaliyyətinə müdaxilə; haqsız sahibkarlıq fəaliyyəti; haqsız işgüzarlıq davranışı; istehlakçıların çaşdırılması. Dempinq (latın sözü olub dumpinq mənası **“aşağı salma”** deməkdir) – əmtəələrin süni şəkildə aşağı salınmış qiymətlərlə satışıdır. Dempinqin növləri: **daimi dempinq, qabaqcadan düşünülmüş dempinq, təsadüfi dempinq.**

**Hökmran mövqe** – təsərrüfat subyektinin öz iqtisadi potensialının üstünlüyünə əsaslanaraq rəqabətə həlledici təsir göstərməyə imkan verən və bununla da bazarın digər iştirakçılarının bazara daxil olmasını çətinləşdirən müstəsna vəziyyətidir. Bazarda payı 35%-in və ya qanunvericilikdə müəyyən olunmuş digər həddən çox olan təsərrüfat subyekti hökmran mövqe tutan hesab olunur.

**İnhisarçılıq fəaliyyəti** – inhisarçılığın bu və ya digər forması olub, təsərrüfat subyektlərinin, yaxud icra hakimiyyəti və idarəetmə orqanlarının rəqabətə yol verməməyə, onu məhdudlaşdırmağa, yaxud aradan qaldırmağa yönəldilmiş fəaliyyətdir. İnhisar fəaliyyətinin **son məqsədi** – sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi zamanı gəlirin artırılmasıdır.

Sosial-iqtisadi təbiətinə görə inhisarın növlərinə aiddir: **təbii inhisarçılıq; qanuni (leqal) inhisarçılıq; süni inhisarçılıq.**

Bazarda azad rəqabət üçün daha təhlükəli və geniş yayılmış **süni inhisarçılıqdır**. Süni inhisarçılığa aiddir: **kartel; sindikat; trest; konsern.**

İnhisarçılıq fəaliyyətinin **növlərinə** aiddir: dövlət inhisarçılığı, sahə inhisarçılığı, yerli inhisarçılıq, təsərrüfat subyektlərinin inhisarçılığı, maliyyə-kredit inhisarçılığı, bazar subyektlərinin üfüqi və şaquli sazişləri nəticəsində yaranan inhisarçılıq, təbii inhisarçılıq, patent-lisenziya inhisarçılığı.

**Təbii inhisar** – istehsalın texnoloji xüsusiyyətlərinə görə rəqabətin olmadığı şəraitdə tələbatın ödənilməsi daha səmərəli olan və inhisar subyektlərinin istehsal etdiyi (satdığı) əmtəənin istehlakda başqa əmtəə ilə əvəz edilə bilməyən əmtəə bazarının vəziyyətidir.

## Mövzunun mənimsənilməsi üçün tövsiyə olunan ədəbiyyat:

### *a) əsas ədəbiyyat:*

1. "Təbii inhisarlar haqqında" Azərbaycan Respublikasının 15 dekabr 1998-ci il tarixli 590-IQ nömrəli Qanunu.

2. "Antiinhisar fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 4 mart 1993-cü il tarixli 526 nömrəli Qanunu.

3. "Haqsız rəqabət haqqında" Azərbaycan Respublikasının 2 iyun 1995-ci il tarixli 1049 nömrəli Qanunu.

4. Тотьев К.Ю. Конкурентное право. М., 2000.

5. Паращук С.А. Конкурентное право (правовое регулирование конкуренции и монополии). М., 2002.

6. Конкурентное право: учеб. пособие / под ред. Н.И. Клейн, Н.Е. Фонаревой. М.: Логос, 1999.

7. Тотьев К.Ю. Конкурентное право: правовое регулирование деятельности субъектов конкуренции и монополий: учебник. М.: РДЛ, 2003.

### *b) əlavə ədəbiyyat:*

8. Татаринова С.С. Современное антимонопольное регулирование: достижения и перспективы / С.С. Татари-нова

// Конкурент. право. – 2013. – № 3. с. 6–9.

9. Шевченко О.М. Защита конкуренции на товарных и финансовых рынках. // Предпринимательское право №1/2006

10. Залеская М. Недобросовестная конкуренция на товарных рынках: особенности защиты прав хозяйствующих субъектов. //Законодательство и экономика № 1/2001.

11. Бруско Б.С. Пределы антимонопольного регулирования предпринимательских правоотношений / Б.С.Бруско // Право и экономика. – 2012. № 8. с. 75–78.

12. Бурмистрова Т.В., Мартыненко Г.И. Основные тенденции антимонопольного регулирования в условиях переходной экономики России // Право и экономика. 2003. № 5. с. 10–15; № 6. с. 24-28.

13. Гаврилов Д.А. Некоторые вопросы взыскания убытков вследствие нарушения антимонопольного законодательства: текущая практика и перспективы с учетом зарубежного опыта // Вестник Арбитражного суда Московского округа. 2015. № 3. с. 19-27.

14. Еременко В.И. Пресечение недобросовестной конкуренции в Российской Федерации // Государство и право. 1998. № 1. с. 25-31.

15. Мартыненко Г.И., Мартыненко И.П. Правовое регулирование конкуренции и ограничения монополистической деятельности. // Право и экономика. 2004. № 9. с.3-8.

16. Рыженков А.Я. Российское антимонопольное законодательство: вопросы целеполагания // Власть Закона. 2015. № 4. с. 25–33.

17. Серебруев И.В. Правовая природа недобросовестной конкуренции: понятие, признаки, формы // Бизнес, менеджмент и право. 2015. № 1. с. 146–149.

18. Тотьев К.Ю. Регулирование деятельности субъектов естественных монополий // Закон. 1997.№12. с.14-20.

# VII FƏSİL
# SAHİBKARLIQ FƏALİYYƏTİ SUBYEKTLƏRİNİN HÜQUQLARININ VƏ QANUNİ MƏNAFELƏRİNİN MÜDAFİƏSİ

## 7.1. Sahibkarların hüquqlarının və qanuni mənafelərinin müdafiəsinin anlayışı, forma və üsulları

"Sahibkarlıq fəaliyyəti haqqında" AR Qanununun 12-ci maddəsinə əsasən, mülkiyyət və təşkilati-hüquqi formalarından asılı olmayaraq öz fəaliyyətini Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun surətdə həyata keçirən sahibkarların hüquqlarının və qanuni mənafelərinin müdafiəsini dövlət təmin edir.

Azərbaycan Respublikasının Konstitusiyası təsbit edir ki, insan və vətəndaş hüquq və azadlıqlarının, Azərbaycan Respublikası vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir.

Qüvvədə olan qanunvericilikdə sahibkarların hüquqları və qanuni mənafelərinin dövlət təminatı kifayət qədər ətraflı təsbit olunub. Bu təminatları, habelə sahibkarlıq fəaliyyəti subyektlərinin hüquq və vəzifələrinin təhlilindən çıxış edərək qeyd etmək lazımdır ki, dövlət, sahibkarlıq fəaliyyətinin subyektlərinə bir tərəfdən bu fəaliyyətin həyata keçirilməsi ilə bağlı qanunvericilik səviyyəsində geniş təminatları, digər tərəfdən isə dövlət və ictimai maraqlara zidd olan fəaliyyətin həyata keçirilməsinin qarşısının alınmasına dair tədbirlər sistemini müəyyən edir. Sahibkarlıq fəaliyyətini tənzim edən qanunvericilik aktlarına əsasən, dövlət tərəfindən sahibkarlıq fəaliyyətinin subyektlərinə aşağıdakı təminatları müəyyən edir:

- ✓ *sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq hüququ;*
- ✓ *bu fəaliyyət üçün zəruri olan əmlakın əldə edilməsi;*
- ✓ *qanunvericiliklə müəyyən edilmiş qaydada fəaliyyət sahəsinin azad seçimi;*

- ✓ *əmlak, istehsal olunan məhsul və gəlirlər üzərində sərəncam verilməsi;*
- ✓ *ayrı-ayrı müəssisələrin və ya birliklərin inhisar fəaliyyətinin təsirindən müdafiəsi;*
- ✓ *məhsulun realizəsinin forma və vasitələri, qiymətləndirmə ilə bağlı məsələlərin həll edilməsi hüququ;*
- ✓ *işçilərin ştatını müstəqil müəyyən etmək hüququ.*

Həmçinin, dövlət vətəndaşlara sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün də geniş imkanlar yaradır. Sahibkarlar bütün banklarda, o cümlədən valyuta birjalarında müqavilə əsasında valyuta vasitələrini azad şəkildə almaq və satmaq hüququna malikdirlər. Sahibkarlar şərəf, ləyaqət və işgüzar nüfuzun müdafəsi hüququna malikdirlər. Sahibkarların fəaliyyətinə dövlətin müdaxiləsinə yalnız qanunvericiliklə müəyyən edilmiş qaydada yol verilir.

Rus hüquqşünası V.S.Anoxinin fikrincə, sahibkarların hüquqlarının və qanuni maraqlarının müdafiəsi hüququn əsas funksiyalarından biridir.[1] Sahibkarlıq fəaliyyəti subyektlərin hüquqlarının və qanuni mənafelərinin müdafiəsinin əhəmiyyətini qeyd edən bəzi müəlliflər hesab edirlər ki, hüquqların müdafiəsi bir tərəfdən müvafiq şəxsin əsas subyektiv hüquqlarından biri kimi çıxış edir, digər tərəfdən isə bu hüququn realizəsi tabeçilik xarakteri daşıyır.[2]

Sahibkarlar müstəqil şəkildə öz konstitusion hüquq və azadlıqlarından, o cümlədən müdafiə hüququndan istifadə edirlər. Sahibkarların hüquqlarının və maraqlarının dövlət müdafiəsindən o zaman söhbət gedə bilər ki, bu hüquq və maraqlar hüquqazidd şəkildə pozulsun.

Sahibkarların maraqlarının və hüquqlarının müdafiəsinin

---

[1] Анохин В.С. Предпринимательское право. М,: «Владос», 2003, с.170.

[2] Предпринимательское право Российской Федерации. Отв. ред. Е.П.Губин, П.Г. Лахно. М.: Юристь, 2004, с. 946.

hüquqi mexanizmlərinin ümumi xarakteristikası şərti olaraq hüquqi təhlükəsizliyin təmin edilməsinin **daxili** və **xarici** tədbirlər sisteminə bölünür.

Hüquqi təhlükəsizliyin **daxili tədbirlərinə** – hüquq, maliyyə şöbələrinin nəzarəti, təhsil və mühafizə xidmətlərinin fəaliyyəti aiddir. **Xarici tədbirlər** isə – hüquq mühafizə orqanlarına (prokurorluq, polis, vergi, gömrük orqanlarına, məhkəmələrə və inzibati-iqtisad məhkəmələrə) müraciət edilməsini nəzərdə tutur.

Qüvvədə olan müasir qanunvericilik sahibkarların hüquqlarının müdafiəsini nizama salan kifayət qədər forma, üsul və vasitələri təsbit edir. Sahibkarların hüquqlarının müdafiəsi ***üsulu*** dedikdə, qanunla müəyyən edilmiş məcburi xarakterli maddi – hüquqi və prosessual tədbirlər başa düşülür. Bu tədbirlər vasitəsilə sahibkarların pozulmuş (mübahisələndirilmiş) hüquqları bərpa (etiraf) olunur və qanunu pozan şəxsə hüquqi təsir tədbirləri həyata keçirilir.

A.P.Verşininin fikrincə, qanunvericilik – müdafiə üsullarının hüquqi tənzimlənməsinin əsas mənbəyidir.[1] Azərbaycan Respublikasının qanunvericiliyində sahibkarların hüquqlarının və qanuni mənafelərinin müdafiəsi üsulları öz təsbitini tapmışdır.

Hüquq ədəbiyyatlarında, habelə qanunvericilik aktlarında hüquqların müdafiəsi üzrə hərəkətlər "növ" və "metodlar", müdafiə "tədbirləri", "vasitələri" və "formaları" terminlərdən istifadə olunur. "Müdafiənin növləri" anlayışından istifadə edilməsi A.P. Verşininə görə səhv hesab oluna bilməz, lakin bu termin konkretliyi ifadə etmir və bu səbəbdən "növ" termininin müdafiə üsullarının təsnifatı üçün istifadə edilməsi daha doğru olardı.[2] M.İ. Braqinskinin məsul redaktoru olduğu "Rusiya Federasiyasının Mülki Məcəlləsinin birinci hissəsinin kommentariyası"nda qeyd olunur ki, Rusiya Federasiyasının Mülki Məcəllə-

---

[1] Вершинин А.П. Выбор способа защиты гражданских прав. СПб., 2000, с. 15.

[2] Yenə orada, c. 32.

sinin 12-ci maddəsində sadalanan metodlarla yanaşı, əgər qanunda birbaşa göstəriş varsa digər müdafiə metodlarından istifadə oluna bilər".[1] Bu məqamda A.P. Verşinin haqlı olaraq qeyd edir ki, "metod" terminindən istifadə olunması heç də doğru deyil, çünki metod – hər hansı üsul və vasitələrin məcmusudur".[2]

Sahibkarlıq fəaliyyəti subyektlərinin hüquqlarının və qanuni mənafelərinin müdafiəsi aşağıdakı üsullarla həyata keçirilir:

❖ **hüququn tanınması**. Məsələn, müəllifliyə, əmtəə nişanına, xidmət nişanına, firma adına hüququn tanınması, müasir dövrdə sahibkarlıq münasibətlərinin daha çox, müxtəlif və mürəkkəb olduğundan sahibkarların hüquqlarının və qanuni mənafelərinin müdafiəsinin bu üsulunun əhəmiyyəti kəskin surətdə artmağa başladı.

❖ **hüququn pozulduğu ana qədər mövcud olan vəziyyətin bərpa edilməsi və hüququ pozan və yaxud onun pozulmasına təhlükə yaradan hərəkətlərin qarşısını alma** – hüququn, pozulduğu ana qədər mövcud olan vəziyyətin bərpa edilməsi şəxsin öz hüquqlarının tanınması ilə yanaşı, həm də onları tam həcmdə bərpa etməsini tələb etmək hüququna malikdir. Məsələn, müəssisə tərəfindən qanunsuz olaraq zəbt edilən yerin, bu yerin mülkiyyətçisinin tələbi ilə azad edilməsi, pul və əmtəələrin qaytarılması və s.

❖ **hüququ pozan və ya onun pozulması üçün təhlükə yaradan hərəkətlərin qarşısını almaq üsulu** hüququ pozulduğu ana qədər mövcud olan vəziyyətin bərpa edilməsi üsulu ilə əhəmiyyətinə görə sıx bağlıdır. Düşünürük ki, hüququn pozulduğu ana qədər mövcud olan vəziyyəti yalnız bu hüququ pozan hərəkətlərin qarşısını almaq yolu ilə bərpa edilməsilə bağlı nəticə səhv olardı. Məsələ ondadır ki, bəzən tərəflər əvvəlki vəziyyəti

---

[1] Комментарий части первой Гражданского кодекса российской Федерации // Под ред. М.И.Брагинского и др. М. 1995, с. 67.

[2] Вершинин А.П. Выбор способа защиты гражданских прав. СПб., 2000, с. 32.

könüllü şəkildə bərpa edirlər.

Əvvəlki vəziyyətin bu cür bərpası mümkün olmadığı hallarda qanun hüququ pozan hərəkətin qarşısının alınmasına imkan verir. Qarşısınıalma forması, müxtəlif ola bilər: hər-hansı hərəkətlərin həyata keçirilməsinə məcbur etmə (podrat müqaviləsinin vaxtını uzatmaq) Sahibkarların hüquqlarının müdafiəsi üsulu kimi qarşısıalınma kömək üçün müvafiq səlahiyyətli orqana müraciət etməkdə ifadə olunur. Yalnız hüququ real şəkildə pozan hərəkətlər deyil, həm də bu hüququn pozulmasına təhlükə yaradan şəraitin də qarşısı alınır. Məsələn, icarəyə verilmiş əmlakdan təyinatı üzrə istifadə etməyən icarəçi əmlak üçün təhlükə yarada bilər. Belə hərəkətlərin qarşısının alınmasını icarəyəverən tələb edə bilər. Başqa sözlə desək, qarşısınıalma vasitəsi ilə icarəverənin əmlak hüquqları müdafiə olunur;

❖ **öhdəliklərin natura şəklində icrasının məcburiliyi**. Bu üsul inzibati-iqtisadi və münsiflər məhkəmələrinə müraciət edilməsini nəzərdə tutur. Öhdəliklərin natura şəklində icra edilməsi dedikdə, müəyyən hərəkətlərin edilməsi başa düşülür. Məsələn, inzibati-iqtisadi məhkəmə dəbbə pulunun ödənilməsindən asılı olmayaraq malların göndərilməsi vəzifəsini mal göndərənin üzərinə, keyfiyyətsiz əşyanın keyfiyyətlisinə dəyişdirilməsi vəzifəsini isə satıcının üzərinə qoya bilər;

❖ **dövlət və yerli özünüidarəetmə orqanının aktlarının etibarsız hesab edilməsi**. Qeyd etmək lazımdır ki, əvvəllər dövlət və yerli özünüidarəetmə orqanlarının aktlarının etibarsız hesab edilməsi ilə bağlı iddia ərizələrinə AR MPM-in normaları əsasında baxılması və həll edilməsi rayon (şəhər) məhkəmələrinin səlahiyyəti çərçivəsinə aid edilmişdirsə, hal-hazırda isə AR İnzibati Prosessual Məcəlləsinin normaları əsasında ixtisaslaşmış kommersiya və inzibati məhkəmələr tərəfindən baxılır və həll edilir.

❖ **özünümüdafiə.** Özünümüdafiəyə qanunvericilikdə anlayış verilməsə də, hüquq ədəbiyyatlarında verilən anlayışı ümumiləş-

dirib aşağıdakı kimi təqdim edirik: “müdafiə üsulu kimi **özünümüdafiə dedikdə**, şəxsin öz şəxsi və ya əmlak hüquqlarının və yaxud mənafeyinin qorunmasına yönələn, qanunla qadağan edilməyən faktiki xarakterli hərəkətlər etməsi başa düşülür.

Özünümüdafiə aşağıdakı şərtlərə əməl olunmaqla həyata keçirilə bilər:

- ✓ *özünümüdafiə yalnız qanunla qadağan edilməyən hərəkətlərin vasitəsilə həyata keçirilə bilər. Bu üsul qanunla müəyyən edilmiş qaydada şəxsin öz hüquqlarının müdafiəsi üçün tətbiq etdiyi istənilən tədbirləri nəzərdə tutur;*
- ✓ *özünümüdafiə hərəkətləri qanuna, ictimai qaydaya və əxlaqa zidd olmamalı, hamılıqla qəbul edilən qaydalara uyğun gəlməlidir;*
- ✓ *ətrafdakıların həyat və sağlamlığına təhlükə törətməməli, digər şəxslərin hüquq və qanunla qorunan mənafeyinə xələl gətirməməli və onları məhdudlaşdırmamalıdır. Məsələn, sahibkar müəssisənin ərazisinin cinayətkar qəsdlərdən qorunması üçün hasarları elektrik cərəyanına birləşdirmək yolu ilə əhatə edə və yaxud kənd təsərrüfatı məhsullarını istehsal edən sahibkar alma bağlarını mühafizə etmək üçün yırtıcı heyvanlardan istifadə edə bilməz;*
- ✓ *şəxsin hüquqlarının müdafiəsi hüquq pozuntusuna mütənasib olmalıdır. İnsanların həyatına təhlükə yaradan üsullarla öz əmlakının müdafiəsi yol verilməzdir (məsələn, nəqliyyat vasitəsini oğurlayan (qaçıran), mənzildən əşyaları oğurlayan azyaşlıya odlu silahdan atəş açmaq). Şəxsin bu hərəkəti hüquq pozuntusuna mütənasib deyildir.*

**Mənəvi ziyanın kompensasiyası.** Bu üsul mülki müdafiə üsullarından biridir. Mənəvi ziyan qeyri-maddi, qeyri-əmlak zərəri hesab edilir. Bu üsul yalnız fiziki şəxslərə tətbiq edilir. Hüquqi şəxslərə münasibətdə isə mənəvi ziyanın kompensasiya edilməsi üsulundan istifadə olunmur.

Sahibkarlar öz hüquqlarını qanunla müəyyən edilmiş qaydada

digər üsullarla da həyata keçirə bilər. Amma tətbiq olunan bu üsullar qanuna, ictimai qaydaya və əxlaq normalarına zidd olmamalıdır.

Onu da qeyd edək ki, hüquq ədəbiyyatlarında sahibkarların hüquqlarının və qanuni mənafelərinin müdafiəsi üsulları müxtəlif əsaslara görə təsnifatı aparılır.[1] Sahibkarlıq fəaliyyətində hüquqların və qanuni maraqların müdafiəsini – pozulmuş və ya mübahisələndirilmiş hüququn bərpası üçün hüquq mühafizə xarakterli tədbirlərin tətbiq edilməsi imkanının hüquqi və fiziki şəxslərə verilməsi kimi nəzərdən keçirən rus hüquqşünsaları Y.P. Qubinin və P.Q. Laxnonun verdikləri təsnifat daha əsaslıdır. Belə ki, müdafiə hüququnun məzmunu aşağıdakılardan ibarətdir:

- ❖ *öz hüquqlarının müdafiəsi üçün səlahiyyətli subyektlərin müstəqil şəkildə tətbiq edə biləcəyi kompleks hüquq mühafizə tədbirləri;*
- ❖ *hüquq pozuntusunu törədən şəxsə bilavasitə müxtəlif növlü tədbirlərin tətbiqi;*
- ❖ *əlahiyyətli şəxsin hərəkətləri gözlənilən nəticəni verməzsə onda o, dövlət məcburetmə kompleks tədbirlərindən istifadə edə bilər.*[2]

**Maddi-hüquqi məzmunda** müdafiə hüququ konkret şəxsə bir sıra imkanlar verir:

- ❖ *özünümüdafiə hüququ;*
- ❖ *əməli təsir tədbirlərindən istifadə etmək hüququ;*
- ❖ *məcburi dövlət xarakterli tədbirlərin tətbiqi üçün səlahiyyətli dövlət orqanlarına müraciət etmək hüququ.*

---

[1] Витрянский В.В. Проблемы арбитражно-судебной защиты гражданских прав участников имущественного оборота: Дисс. … докт. юрид. Наук. М., 1996, с. 8-9. Предпринимательское право Российской Федерации // Отв. ред. Губин Е.П., Лахно П.Г. М.: Юристь, 2004, с. 947.

[2] Предпринимательское право Российской Федерации. Отв. ред. Е.П.Губин, П.Г. Лахно. М.: Юристь, 2004, с.947.

Müdafiə hüququnun **prosessual mənada** məzmunu isə aşağıdakılardan ibarətdir:

❖ *iqtisadi mübahisələrin və ixtilafların həll edilməsi üçün müqavilə qaydasında səlahiyyətli orqanın müəyyən edilməsi;*

❖ *öz pozulmuş hüquq və maraqlarının müdafiəsi üzrə səlahiyyətli orqana müraciət edilməsinin maddi-hüquqi imkanının realizəsi.*[1]

Sahibkarların hüquqlarının müdafiəsi vasitələri:

❖ **Hüquqların maddi-hüquqi müdafiəsi üsulları.** Bu üsullar müxtəlif meyarlara görə (hüquqların müdafəsinin növündən, xarakterindən, şərtlərindən asılı olaraq) fərqlənirlər. Məqsədinə görə maddi-hüquqi üsullar **qarşısıalınma**, **bərpaedici** və **cərimə** üsullarına bölünür.

**Qarşısıalınma üsulları** - ziyan vuran və ya neqativ nəticələrin yaranmasına və yaxud da belə nəticələrin yaranmasına təhlükə yaradan hüquqazidd hərəkətlərin məcburi dayandırılması ilə bağlı hərəkətlər aiddir. Aşağıdakı hərəkətlər qarşısıalınmaya aiddir:

❖ *dövlət orqanının və yerli özünüidarəetmə orqanının aktının etibarsız hesab edilməsi;*

❖ *dövlət orqanının və yerli özünüidarəetmə orqanının qanunazidd olan aktının məhkəmə tərəfindən tətbiq edilməməsi;*

Hüququn pozulduğu ana qədər mövcud olan vəziyyətin bərpa edilməsi və subyektlərin müəyyən hüquqlarının tanınmasına yönələn vasitələr **bərpaedici hərəkətlərə** aiddir. Bərpaedici hərəkətlərə aşağıdakılar aiddlir:

❖ *hüququn tanınması;*

❖ *mübahisələndirilən əqdin etibarsızlığının tanınması;*

❖ *mənəvi ziyanın kompensasiyası və vurulmuş ziyanın ödənilməsi;*

---

[1] Предпринимательское право Российской Федерации. Отв. ред. Е.П.Губин, П.Г. Лахно. М.: Юристь, 2004, səh.947.

Hüquqazidd davranışa görə hüququ pozan şəxsə normativ qaydada müəyyən edilmiş sanksiyaların tətbiqinə yönələn üsullar **cərimə üsullarına** aiddir. Bura aiddir: dəbbə pulunun, digər şəxsin pul vəsaitlərindən istifadəyə görə faizlərin tutulması, müsadirə və s.

❖ **Hüquqların prosessual müdafiəsi üsulları**. Bu üsullar hüquqi əhəmiyyətli faktların və hüquqların müəyyən edilməsi, tanınması və ya təsdiq edilməsi, o cümlədən hüquq münasibətləri subyektlərinin pozulmuş hüquqlarının və qanuni maraqlarının bərpa edilməsi məqsədilə aidiyyəti orqanların qanunvericiliklə müəyyən edilmiş səlahiyyətləri çərçivəsində aktların dərc etdirilməsi yolu ilə realizəsini nəzərdə tutur.

**Hüquqların müdafiəsinin prosessual üsulları** məqsədlərindən, prosessual fəaliyyətin xarakterindən asılı olaraq təsnifatlaşdırılır. Xüsusilə də, hüquqların müdafiəsinin prosessual üsullarına hüququn tanınması, hər hansı bir hərəkətin yerinə yetirilməsinə məcbur edilməsi və s. aid edilir.[1]

Hüquq ədəbiyyatlarında "hüququn müdafiəsi üsulu" və "hüququn müdafiəsi forması" hüquq kateqoriyalarının nisbəti məsələsinə dair yekdil fikir formalaşmayıb. Lakin, bu sahədə tədqiqat aparan alimlər "müdafiə forması" və "müdafiə üsulu" anlayılarının fərqləndirilməsinin zəruriliyini qeyd edirlər.[2] Bu mövqedən çıxış edən digər rus alimi M.K. Treuşnikov hesab edir ki, "hüququn müdafiəsi üsulu" – maddi (tənzimləyici) hüquqi kateqoriyadır, "hüququn müdafiəsi forması" isə hüquqların müdafiəsi üzrə səlahiyyətli dövlət orqanlarının qanunla müəyyən edilmiş fəaliyyətidir.[3] Müəllifin mövqeyini dəstəklə-

---

[1] Предпринимательское право Российской Федерации. Отв. ред. Е.П.Губин, П.Г. Лахно. М.: Юристь, 2004, с.952.

[2] Грибанов В.П. Осуществление и защита гражданских прав. М.: Изд-во МГУ, 1972, с. 37.

[3] Треушников М.К. Судебная защита гражданских прав: учебник гражданского процесса. М.: 1996. с. 20.

yən A.P.Verşinin isə qeyd edir ki, "müdafiə forması" bütövlükdə hüquqların müdafiəsi üzrə fəaliyyətin müxtəlifliyi və qaydası başa düşülürsə, "müdafiə üsulları" isə maraqlı şəxslərin öz hüquqlarının həyata keçirilməsi üçün maneələrin aradan qaldırılmasına yönələn hərəkətlərdir.[1] Bu fikirlərə həmrəy olan Q.A. Sverdlık və E.L. Strauninq haqlı olaraq qeyd edirlər ki, "hüququn müdafiə üsulları hüququn müdafiəsinin necə həyata keçirildiyini, hüququn müdafiə forması isə hüquqların müdafiəsinin kim tərəfindən keçirildiyini bildirir".[2] Fikrimizcə, müəlliflərin irəli sürdüyü arqumentlər daha əsaslıdır. Belə ki, yuxarıda göstərdiyimiz müdafiə üsulları maddi-hüquqi xarakterlidir və bu üsulların bir neçəsindən və ya hamısından hüquqları və qanuni mənafeləri pozulmuş sahibkarlıq fəaliyyətinin subyekti eyni zamanda istifadə edə bilər. "Hüquqların müdafiəsi forması" isə sahibkarlıq fəaliyyətinin subyekti müvafiq orqana müraciət etməklə öz pozulmuş hüquqlarını və qanuni mənafelərini müdafiə edə bilər. Məhz, hüquqların müdafiəsi forması bu orqanların fəaliyyətini əhatə edir.

Hüquq ədəbiyyatlarında sahibkarlıq fəaliyyəti subyektlərinin hüquqlarının və qanuni mənafelərinin müdafiəsi formalarının təsnifatı aşağıdakı kimi verilir:

- *sahibkarlıq fəaliyyəti subyektlərinin hüquqlarının və qanuni mənafelərinin müdafiəsinin məhkəmə forması;*
- *sahibkarlıq fəaliyyəti subyektlərinin hüquqlarının və qanuni mənafelərinin müdafiəsinin məhkəmədənkənar forması.*

Sahibkarlıq fəaliyyəti subyektlərinin hüquqlarının və qanuni mənafelərinin müdafiəsinin məhkəmə forması – sahibkarlıq fəaliyyəti subyektlərinin pozulmuş və ya mübahisələndirilmiş hüquqların müdafiəsi üzrə dövlət tərəfindən səlahiyyətlər veril-

---

[1] Вершинин А.П. Выбор способа защиты гражданских прав. СПб., 2000. с. 32.

[2] Свердлыг Г.А. Страунинг Э.Л. Защита и самозащита гражданских прав: Учебное пособие. М., 2002. с. 35.

miş müvafiq orqanların fəaliyyətidir.

Sahibkarlıq fəaliyyəti subyektlərinin hüquqlarının və qanuni mənafelərinin müdafiəsinin məhkəmədənkənar formasına isə pretenziya qaydasında, notarial, münsiflər məhkəməsində müdafiə aiddir.

Sahibkarlıq fəaliyyəti subyektlərinin hüquqlarının və qanuni mənafelərinin müdafiəsinin formaları barədə bu fəslin paraqraflarında geniş, ətraflı danışılacaqdır.

## 7.2. Sahibkarların hüquqlarının və qanuni mənafelərinin məhkəmə müdafiəsi

Qeyd etdiyimiz kimi, sahibkarlıq fəaliyyəti subyektlərinin hüquqlarının və qanuni mənafelərinin müdafiəsi məhkəmə formasında həyata keçirilir. Sahibkarlıq fəaliyyəti subyektlərinin hüquqlarının və qanuni mənafelərinin **müdafiəsinin məhkəmə forması** dedikdə, pozulmuş və ya mübahisələndirilmiş hüquqların mühafizəsi üzrə dövlət orqanlarının fəaliyyəti başa düşülür.

Hüquqazidd hərəkətlərlə hüquqları və qanuni maraqları pozulmuş sahibkarlıq fəaliyyətinin subyekti bu hüquq pozuntusunun qarşısının alınması və pozulmuş hüququn bərpa edilməsi və müdafiəsi üçün zəruri tədbirlərin tətbiq edilməsi ilə əlaqədar səlahiyyətli dövlət və ya digər orqanlara müraciət edir.

Azərbaycan Respublikasında kommersiya mübahisələri üzrə ədalət mühakiməsi yalnız məhkəməyə aiddir və sahibkarlıq fəaliyyəti subyektlərinin hüquqlarının və qanuni mənafelərinin məhkəmə müdafiəsi qanunla müəyyən olunmuş qaydada kommersiya məhkəmələri tərəfindən həyata keçirilir.

"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının 10 iyun 1997-ci il tarixli 310-IQ nömrəli Qanununun 19-cu maddəsinə əsasən, Azərbaycan Respublikasında ədalət mühakiməsini Azərbaycan Respublikasının məhkəmə sisteminə daxil

olan aşağıdakı məhkəmələr həyata keçirirlər:[1]

- ✓ *rayon (şəhər) məhkəmələri;*
- ✓ *ağır cinayətlər məhkəmələri;*
- ✓ *Naxçıvan Muxtar Respublikasının ağır cinayətlər məhkəməsi;*
- ✓ *hərbi məhkəmələr;*
- ✓ *inzibati məhkəmələr;-*
- ✓ *kommersiya məhkəmələri;*
- ✓ *Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi;*
- ✓ *apellyasiya məhkəmələri;*
- ✓ *Azərbaycan Respublikasının Ali Məhkəməsi.*

Bu təsnifata diqqət yetirsək aydın olar ki, ədalət mühakiməsini həyata keçirən məhkəmələr sırasında kommersiya məhkəmələri ixtisaslaşmış məhkəmələr kimi özünəməxsus yer tutur. Belə ki, "Məhkəmələr və hakimlər haqqında" AR Qanununun VIII-I fəslində kommersiya məhkəmələri, onun səlahiyyətləri, təşkili və tərkibi barədə müddəalar təsbit olunub. Kommersiya məhkəməsi birinci instansiya məhkəməsi kimi qanunla səlahiyyətlərinə aid edilmiş kommersiya mübahisələrinə dair işlərə baxır. Kommersiya məhkəməsi Azərbaycan Respublikasının inzibati ərazi vahidləri üzrə təşkil olunur. Kommersiya məhkəməsi sədrdən və hakimlərdən ibarətdir. Tərkibində 12 və daha çox hakim olan kommersiya məhkəməsində sədr müavini vəzifəsi təsis edilir.

Xüsusilə qeyd olunmalıdır ki, Azərbaycan Respublikasının məhkəmə sistemində islahatlar bu günə qədər də dayanmadan həyata keçirilir. Belə ki, 2010-cu ilə qədər Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı yaranan mübahisələr iqtisad məhkəmələri tərəfindən baxılır və həll edilirdi. Lakin Azərbaycan Respublikası apellyasiya instansiyası məhkəmələrinin, ağır cinayətlər məhkəmələrinin, inzibati-

---

[1] "Azərbaycan Respublikasının Qanunvericilik Toplusu", 30 noyabr 1997-ci il, № 5, maddə 413.

iqtisadi məhkəmələrinin və hərbi məhkəmələrinin ərazi yurisdiksiyası haqqında" Azərbaycan Respublikası Prezidentinin 9 avqust 2010-cu il tarixli 310 nömrəli Fərmanına əsasən, Azərbaycan Respubliasının ərazisində regionlar üzrə ixtisaslaşmış inzibati-iqtisadi məhkəmələr yaradılmışdır. Bu məhkəmələrdə bir tərəfdən sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı yaranan mübahisələri mülki prosessual qanunvericiliyə əsasən mülki məhkəmə icraatı qaydasında, digər tərəfdən isə inzibati münasibətlərdən yaranan mübahisələri inzibati prosessual qanunvericiliyə əsasən baxılır və həll edilirdi. Sonradan, daha dəqiq desək, "İnzibati məhkəmələrin və kommersiya məhkəmələrinin təşkili və "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 9 iyul tarixli 1632-VQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin 19 iyul 2019-cu il tarixli 1325 nömrəli Sərəncamına əsasən Azərbaycan Respublikasında ixtisaslaşmış həm kommersiya, həm də inzibati məhkəmələr yaradılmışdır. Belə ki, adı çəkilən Sərəncamın 2-ci hissəsinə görə Azərbaycan Respublikasında aşağıda göstərilən kommersiya məhkəmələri təşkil edilmişdir:

- ✓ Naxçıvan Muxtar Respublikasının Kommersiya Məhkəməsi;
- ✓ Bakı Kommersiya Məhkəməsi;
- ✓ Gəncə Kommersiya Məhkəməsi;
- ✓ Sumqayıt Kommersiya Məhkəməsi;
- ✓ Şirvan Kommersiya Məhkəməsi;
- ✓ Şəki Kommersiya Məhkəməsi.

Sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar yaranan mübahisələr kommersiya məhkəmələri tərəfindən Azərbaycan Respublikasının 28 dekabr 1999-cu il tarixli 779-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş və Azərbaycan Respublikasının 26 may 2000-ci il tarixli 886-IQ nömrəli Qanununu ilə sentyabr

ayının 1-dən qüvvəyə minmiş Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin (*bundan sonra* AR MPM) normaları əsasında baxılır və həll edilir.[1] Başqa sözlə desək, kommersiya mübahisələrinə mülki məhkəmə icraatı qaydasında baxılır və həll edilir. AR MPM-in 1-ci maddəsinin "qeyd" hissəsinə müvafiq olaraq, **kommersiya mübahisələri dedikdə,** sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar olan mübahisələr başa düşülür. Kommersiya mübahisələri üzrə məhkəmə icraatı AR MPM ilə müəyyən edilmiş ümumi prosessual qaydalara uyğun olaraq "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə aparılır.

Kommersiya mübahisələri üzrə məhkəmə icraatı, habelə "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə mülki işlər üzrə məhkəmə icraatı, o cümlədən ərizə, şikayət və digər sənədlərin göndərilməsi, qəbulu, habelə məhkəmə sənədlərinin məhkəməyə və proses iştirakçılarına çatdırılması "Elektron məhkəmə" informasiya sistemində yaradılan elektron kabinet vasitəsilə həyata keçirilir.

AR MPM-in 26-cı maddəsinə əsasən, sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar olan mübahisələrə (kommersiya mübahisələrinə) dair işlərə mülki məhkəmə icraatı qaydasında kommersiya məhkəmələri baxır. Kommersiya məhkəmələri tərəfindən AR MPM-də nəzərdə tutulmuş "Bankın öhdəliklərinin könüllü restrukturizasiyası haqqında işlər üzrə icraat" ilə bağlı işlərə, habelə sahibkarlıq fəaliyyəti ilə əlaqədar olduqda AR MPM-də nəzərdə tutulmuş "Vergi ödəyicisi və ya sığortaedən olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması haqqında işlər üzrə icraat" və "İtirilmiş sənədlər üzrə onları təqdim edən şəxsin hüquqlarının bərpa edilməsi (çağırış ic-

[1] "Azərbaycan Respublikasının qanunvericilik toplusu", 2000-ci il, № 1, maddə 17.

raatı) ilə bağlı işlərə" və qanunla onların səlahiyyətlərinə aid edilən digər işlərə də baxılır.

Qeyd olunmalıdır ki, bir-biri ilə əlaqədar olan bir neçə tələbi birləşdirərkən, onlardan bir qismi ümumi məhkəməyə, digərləri isə kommersiya məhkəməsinə aiddirsə, tələblərə kommersiya məhkəməsində baxılmalıdır.

Kommersiya mübahisələri üzrə işdə iştirak edən şəxslərin məhkəmə sənədləri onların "Elektron məhkəmə" informasiya sistemində yaradılmış "elektron kabinet"lərində yerləşdirilir və onlara bu barədə məlumat həmin sistem vasitəsilə elektron qaydada (elektron poçt, SMS və s. vasitəsilə) çatdırılır.

Sahibkarlıq fəaliyyətinin subyekti öz pozulmuş və ya mübahisələndirilmiş hüququnun və qanuni mənafelərinin müdafiəsi üçün kommersiya məhkəməsinə **iddia ərizəsi ilə** müraciət edir.

**İddia** – pozulmuş hüququn müdafiəsi üçün məhkəməyə edilən müraciətdir. Qeyd etmək lazımdır ki, iddia – mülki prosessual hüququn ən mürəkkəb institutlarından biridir. Hüquq elmində iddianın anlayışına yanaşmalar birmənalı deyil. Bəzi müəlliflər iddianın iki müstəqil anlayışını fərqləndirirlər: maddi-hüquqi mənada iddia və prosessual mənada iddia. M.A.Qurviçin və N.B. Zeyder fikrincə, maddi –hüquqi mənada iddia – maraqlı şəxsin subyektiv hüquqların və qanuni maraqlarının pozulmasının dayandırılması haqqında cavabdehə yönəltdiyi tələbdir, prosessual mənada iddia isə maraqlı şəxsin mübahisəli subyektiv mülki hüquqların və ya qanunla qorunan maraqların müdafiəsi haqqında tələbi ilə məhkəməyə müraciətidir.[1]

A.F. Kleynman, A.A. Dobrovolskiy və başqaları isə iddianı iki tərəfi olan vahid anlayış kimi nəzərdən keçirirlər: prosessual və maddi-hüquqi. Onların fikrincə, hüquqlarının və qanunla qorunan mənafelərinin müdafiəsi üçün iddiaçının məhkəməyə irəli

---

[1] Гурвич М.А. Учение об иске (состав, виды). М., 1981. с. 5-11; Елисейкин П.Ф. Предмет судебной деятельности в советском гражданском процессе. Автореф. дис. д-ра юрид. наук. Л., 1974. с. 9;

sürdüyü tələb – iddianın prosessual tərəfidir, iddiaçının cavabdehə irəli sürdüyü tələb isə iddianın maddi-hüquqi tərəfidir.[1] Bu məsələyə münasibətini bildirən M.L.Vikut qeyd edir ki, "iddianın anlayışı necə müəyyən olunursa olsun hüquqşünasların da, qanunvericinin də fikirləri bir yerdə kəsişir: iddia icraatı varsa, iddia da var. İddianın verilməsi – iddia icraatının başlanılması üçün əsasdır".[2]

Hesab edirik ki, ikinci mövqenin müəlliflərinin fikirləri daha əsaslıdır. Belə halda, iddianın elementlərini nəzər yetirmək lazımdır. İddianın əsas elementlərindən biri onun predmetidir. İddianın predmetini – mübahisəli hüquq münasibətindən yaranan iddiaçının cavabdehə qarşı irəli sürdüyü maddi-hüquqi tələbidir.

Kommersiya mübahisələrinə birinci instansiya məhkəmələrində hakim tərəfindən təkbaşına baxılır. Apellyasiya qaydasında işlərə sədrlik edənin və digər iki hakimin, kassasiya qaydasında isə sədrlik edənin iki və ya daha çox hakimin iştirakı ilə baxılır. Kommersiya mübahisələri üzrə məhkəmə icraatı Azərbaycan Respublikasının dövlət dilində — Azərbaycan dilində və ya müəyyən ərazi əhalisinin əksəriyyətinin dilində aparılır.

İddia ərizəsində iddiaçı digər şəxsə qarşı, yəni cavabdehə qarşı öz tələblərini irəli sürür. İddianın verilməsi AR MPM-in 149-cu maddəsinin tələblərinə riayət etməklə iddia ərizəsinin yazılı şəkildə kommersiya məhkəməsinə təqdim olunması yolu ilə həyata keçirilir. AR MPM-in 149-cu maddəsinə görə iddia ərizəsində iddiaçı aşağıdakıları göstərməlidir:

- ✓ *ərizənin verildiyi məhkəmənin adı;*
- ✓ *iddiaçının, onun nümayəndəsinin (əgər iddia ərizəsini nümayəndə təqdim edirsə), cavabdehin və işdə iştirak edən*

---

[1] Клейнман А.Ф. Советский гражданский процесс. М., 1954. с. 147; Добровольский А.А., Иванова С.А. Основные проблемы исковой формы защиты права. М., 1979. с. 18-19;

[2] Гражданский процесс России. Учебник. Под ред. М.Л. Викут. М.: Юристь, 2005. с. 131-132.

*digər şəxslərin, şahidin və məhkəmə iclasına dəvət etmək istədiyi digər şəxslərin soyadı, adı, atasının adı (hüquqi şəxsə münasibətdə adı), şəxsiyyəti eyniləşdirməyə imkan verən digər məlumatlar, yaşayış yeri və ya olduğu yer (həm faktiki, həm də rəsmi qeydə alındığı ünvanı), yazışmaların aparılmasının istənildiyi digər ünvan, olduğu halda – iş yerinin ünvanı, telefon nömrələri, o cümlədən mobil telefon nömrələri, elektron poçt ünvanı, cavabdehin və işdə iştirak edən digər şəxslərin eyniləşdirmə məlumatları (şəxsiyyət vəsiqəsinin seriya nömrəsi və ya VÖEN, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin, xarici hüquqi şəxslərin və ya onların nümayəndəsinin eyniləşdirmə məlumatları);*

- ✓ *iddianın predmeti və qiyməti, iddiaçının və ya ərizəçinin tələbləri, onların öz tələblərinin əsası kimi istinad etdiyi fakt və hallar və onları təsdiq edən sübutların siyahısı, iddia bir neçə cavabdehə verildikdə isə onların hər birinə qarşı yönələn tələb;*
- ✓ *müqavilə ilə və ya həmin kateqoriya işlər üçün qanunla bu nəzərdə tutulmuşsa, cavabdehlə mübahisənin məhkəməyə qədər (pretenziya qaydasında) nizama salınmasına riayət edilməsinə dair məlumat;*
- ✓ *"Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tərəflərin məhkəməyə müraciət etməzdən əvvəl mediasiya prosesində iştirakı tələb olunduğu halda, həmin tələbə riayət edilməsinə dair məlumat;*
- ✓ *ərizəyə əlavə edilən sənədlərin siyahısı.*

İddia ərizəsini tərtib edən iddiaçı AR MPM-in 150-ci maddəsinə əsasən, aşağıda göstərilən sənədləri iddia ərizəsinə əlavə etməlidir:

- ✓ *cavabdehlərin və üçüncü şəxslərin sayına görə iddia ərizəsinin surətləri (iddia ərizəsi elektron formada verildiyi hal istisna olmaqla);*

- ✓ *dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd;*
- ✓ *iddia ərizəsinin səlahiyyətli şəxs tərəfindən imzalanmasını təsdiq edən sənəd (iddia ərizəsi elektron qaydada verildiyi halda belə səlahiyyətin elektron imza ilə təsdiq edildiyi hal istisna olmaqla);*
- ✓ *kommersiya mübahisələri üzrə işdə iştirak edən digər şəxslər tərəfindən iddia ərizəsinin surətinin və ona əlavə edilmiş sənədlərin alınması haqqında sənəd;*
- ✓ *iddia ərizəsi elektron qaydada verildiyi hal istisna olmaqla, iddia ərizəsində göstərilən bütün yazılı sübutların işdə iştirak edən şəxslərin sayına görə surətləri;*
- ✓ *müqavilə ilə və ya həmin kateqoriya mübahisələr üçün qanunda bu nəzərdə tutulmuşsa, cavabdehlə mübahisənin məhkəməyə qədər və ya pretenziya qaydasında nizama salınmasına riayət edilməsini təsdiq edən sənəd;*
- ✓ *"Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tərəflərin məhkəməyə müraciət etməzdən əvvəl mediasiya prosesində iştirakı tələb olunduğu halda, həmin tələbə riayət edilməsini təsdiq edən sənəd.*

Kommersiya mübahisələri üzrə elektron qaydada verilən iddia ərizəsi və ona əlavə edilmiş sənədlər işdə iştirak edən digər şəxslərin "Elektron məhkəmə" informasiya sistemində yaradılmış elektron kabinetinə göndərilir və bu barədə məlumat elektron qaydada (elektron poçt və SMS vasitəsilə) onlara çatdırılır. Əgər sahibkar olan cavabdeh "Elektron məhkəmə" informasiya sistemində qeydiyyatdan keçməmişsə, bu halda kommersiya mübahisələri üzrə elektron qaydada verilən iddia ərizəsi barədə bildiriş və "Elektron məhkəmə" informasiya sistemində qeydiyyatdan keçmə qaydasına dair məlumat həmin şəxsin Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemində yaradılmış elektron kabinetinə göndərilir və bu barədə məlumat elektron qaydada (elektron poçt və SMS vasitəsilə) ona çatdırı-

lır. Cavabdeh qeyri-rezident olduğu halda iddia ərizəsi və ona əlavə edilmiş sənədlər onun nümayəndəsinin "Elektron məhkəmə" informasiya sistemində yaradılmış elektron kabinetinə göndərilir.

Onu da qeyd edək ki, mülki, ailə, əmək münasibətlərindən yaranan mübahisələrdən fərqli olaraq, kommersiya mübahisələrində iddia ərizəsinin surəti və ona əlavə olunmuş sənədlərin cavabdehə göndərilməsi yalnız iddiaçı tərəfindən təmin edilir.

AR MPM-in 151-ci maddəsinə əsasən, məhkəmə iddia ərizəsini (kiçik iddialara dair işlər üzrə sadələşdirilmiş icraat qaydasında baxılan iddia ərizələri istisna olmaqla), daxil olmasından **5 gün müddətində** qaytarmayıbsa və ya onu qəbul etməkdən imtina etməyibsə, o, qəbul edilmiş sayılır.

Hakim iddia ərizəsini icraata qəbul etdikdən sonra çəkişmə prinsipinə əməl etməklə işin məhkəmə baxışına hazırlanması ilə bağlı AR MPM-in 167-ci maddəsində təsbit olunan aşağıdakı hərəkətləri edir:

- ✓ *işdə iştirak edən şəxslərə işin icraatı barədə məlumat verir, onların iştirakı ilə işin məhkəmə baxışına təyin edilməsi məsələsi müzakirə edilir;*
- ✓ *tərəflərə təqdim olunmuş yazılı sənədləri tamamlamağı, zərurət olduqda təqdim olunmuş yazılı materiallarla bağlı izahlar verməyi, habelə iş üçün əhəmiyyətli olan sənədləri və digər sübutları işin məhkəmədə baxılmağa hazırlanması yekunlaşana qədər təqdim etməyi təklif edir;*
- ✓ *birgə cavabdehlərin və birgə iddiaçıların və ya üçüncü şəxslərin işə daxil olması məsələsini, habelə əsl olmayan tərəfin əvəz edilməsi məsələsini həll edir;*
- ✓ *mübahisəni həll etmək üçün tərəflərin münsiflər məhkəməsinə müraciət etmək hüququnu və bu hərəkətin nəticələrini onlara izah edir;*
- ✓ *tərəflərə mübahisənin mediasiya vasitəsilə ilə həllinə dair təklif verir;*

- ✓ *tərəflərin barışması üçün tədbirlər görür;*
- ✓ *işin nəticəsində maraqlı olan fiziki və hüquqi şəxslərə onun baxılma yeri və vaxtı barədə məlumat verir;*
- ✓ *şahidlərin çağırılması məsələsini həll edir;*
- ✓ *tərəflərin vəsatəti və ya öz təşəbbüsü ilə ekspertiza təyin edir, habelə prosesdə iştirak etmək üçün mütəxəssis və tərcüməçi cəlb edilməsi məsələsini həll edir;*
- ✓ *işdə iştirak edən şəxslərin əsaslandırılmış vəsatəti ilə fiziki və hüquqi şəxslərdən və ya orqanlardan sübutlar tələb edir;*
- ✓ *işdə iştirak edən şəxslərə xəbər verməklə maddi və yazılı sübutların yerində müayinəsini aparır;*
- ✓ *məhkəmə tapşırıqları göndərir;*
- ✓ *iddianın təmin edilməsi üçün tədbirlər görür.*
- ✓ *hakim işin düzgün və vaxtında həll edilməsinə yönələn digər hərəkətləri də edir.*

Məhkəmə işin məhkəmə baxışının hazırlıq mərhələsini başa çatdırdıqdan sonra məhkəmə baxışını təyin edir. AR MPM-in 172.1.3.-cü maddəsinə görə kommersiya məhkəmələrində mübahisələrə dair işlərə - **4 ay müddətində** baxılır. Lakin, işdə iştirak edən şəxslərin sayının çoxluğu və ya baxışın təşkilinin xüsusilə mürəkkəb olması ilə əlaqədar bu müddət məhkəmənin əsaslandırılmış qərardadı ilə **2 aydan artıq olmayan müddətə** uzadıla bilər.

Kommersiya mübahisələri üzrə, həmçinin "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə məhkəmə iclaslarının fasiləsiz video-audio yazısı aparılır. Məhkəmə iclasında sədrlik edən tərəfləri və işdə iştirak edən digər şəxsləri bu barədə xəbərdar edir. Məhkəmə iclasının video-audio yazısına dair məlumat məhkəmə iclasının protokolunda göstərilir və həmin yazı maddi daşıyıcıda protokola əlavə olunur. İşdə iştirak edən şəxslər məhkəmə iclasının video-audio yazısı ilə tanış olmaq hüququna malikdirlər.

Məhkəmə baxışı başa çatdıqdan sonra hakim qətnaməni qəbul edir və elan edir, həmçinin qətnamənin məzmununu, ondan şikayət etmə qaydası və müddətini izah edir. Kommersiya məhkəməsinin qətnaməsindən şikayət verilməmişdirsə, qətnamənin rəsmi qaydada işdə iştirak edən şəxslərə rəsmi qaydada verildiyi gündən **1 ay keçdikdən sonra** qanuni qüvvəyə minir.

Tərəflərdən biri kommersiya məhkəməsinin qəbul etdiyi qətnamə ilə razılaşmadıqda, həmin qətnamədən, **onun rəsmi qaydada verildiyi gündən 1 ay müddətində** apellyasiya şikayəti verə bilər. Apellyasiya şikayəti və ona əlavə olunan yazılı sənədlər işdə iştirak edən şəxslərin sayına görə işə baxmış kommersiya məhkəməsinə təqdim olunur.

Həmçinin, onu da qeyd edək, ki, qanunverici AR MPM-ə əmr icraatı ilə yanaşı, digər bir sadələşdirilmiş icraat növünü daxil etmişdir. Bu, "**Kiçik iddialara dair işlər üzrə sadələşdirilmiş icraat"** adlanır. Belə ki, AR MPM-in 284-1-ci maddəsinə əsasən kommersiya mübahisələrinə dair işlər üzrə iddianın qiyməti **on min manatdan az olan iddialar** (kiçik iddialar) üzrə işlərə sadələşdirilmiş qaydada baxılmasına yol verilir.

Bu icraat üzrə ərizə məhkəməyə ümumi qaydada verilir. "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə ərizə həmin sistemdə qeydiyyatdan keçmiş mülki işlər üzrə işdə iştirak edən şəxslər, habelə kommersiya mübahisələri üzrə işdə iştirak edən şəxslər tərəfindən "Elektron məhkəmə" informasiya sistemində yaradılmış elektron kabinet vasitəsilə göndərilir.

Ərizənin qəbulundan imtina olunmamışdırsa, onun məhkəməyə daxil olduğu vaxtdan **5 (beş) iş günü ərzində** işə baxan hakim cavabdehə rəsmi qaydada bildiriş göndərir. Bildirişdə iddiaçının tələbinə dair cavabdehin əsaslandırılmış etirazının olduğu halda öz dəlillərini və onları təsdiq edən sənədləri təqdim etməli olduğu qeyd edilir. Cavabdeh bildirişi rəsmi qaydada aldığı gündən **10 (on) iş günü müddətində** iddiaya qarşı əsaslandırılmış etirazını və ona əlavə olunmuş sənədləri, elektron qaydada

verildikdə isə elektron imza ilə təsdiq edilmiş etirazını və ona əlavə olunmuş elektron sənəd formasında tərtib edilmiş sənədləri məhkəməyə göndərə bilər. Ərizə məhkəməyə **daxil olduğu gündən 30 (otuz) iş günü ərzində** işə tərəflərin təqdim etdiyi sənədlər əsasında, məhkəmə baxışı keçirilmədən və tərəflər izahatları dinlənilmək üçün çağırılmadan baxılmalı və həmin işin həllinə dair qətnamə çıxarılmalıdır.

Birinci instansiya məhkəməsi olaraq kommersiya məhkəmələrinin qətnamələrindən - yurisdiksiya üzrə apellyasiya məhkəmələrinin kommersiya kollegiyalarına və ya Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin kommersiya kollegiyasına şikayət verilə bilər. Apellyasiya şikayəti və ona əlavə olunan yazılı sənədlər məhkəmə qətnaməsi **rəsmi qaydada verildiyi gündən 1 ay müddətində** işdə iştirak edən şəxslərin sayına görə işə birinci instansiyada baxmış məhkəməyə təqdim edilir. Apellyasiya şikayəti kommersiya məhkəməsi tərəfindən AR MPM-in 367-ci maddəsinin tələblərinə uyğunluğu yoxlanılır və **7 gün müddətində** Apellyasiya instansiyası məhkəməsinə göndərilir.

AR MPM-in 366-cı madəsinə müvafiq olaraq, apellyasiya instansiyası məhkəməsi, iş məhkəməyə **daxil olduqdan sonra 15 gün müddətində** apellyasiyanın mümkünlüyünü yoxlayır və apelyasiya mümkünlüyü üzrə məhkəmə qərardad çıxarır. Apellyasiya instansiyası məhkəməsində işə onun məhkəməyə **daxil olduğu gündən 3 ay müddətində** baxılmalı və müvafiq məhkəmə aktı qəbul edilməlidir.

Birinci instansiya məhkəməsi tərəfindən qəbul edilmiş qətnamənin apellyasiya qaydasında ləğv olunması əsaslarına aşağıdakı göstərilənlər aiddir:

- *maddi hüquq normalarının və ya prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq edilməməsi;*
- *məhkəmənin gəldiyi nəticə üçün mühüm əhəmiyyəti olan bütün faktiki halların aydınlaşdırılmaması;*
- *birinci intansiya məhkəməsi tərəfindən müəyyən edilmiş, iş üçün əhəmiyyəti olan halların sübut edilməməsi;*

- *birinci instansiya məhkəməsinin qətnamədə göstərilmiş nəticələrinin işin hallarına uyğun gəlməməsi.*

Apellyasiya instansiyası məhkəməsi işə mahiyyəti üzrə baxır və qətnamə qəbul edir. Apellyasiya instansiyası məhkəməsinin qətnaməsindən şikayət verilməmişdirsə, qətnamə işdə iştirak edən şəxslərə **rəsmi qaydada verildiyi gündən 2 ay keçdikdən sonra** qanuni qüvvəyə minir.

Kommersiya mübahisələrinə dair işlər üzrə qəbul edilmiş qətnamənin mübahisələndirilən hissəsində iddianın qiyməti on min manatdan az olan əmlak xarakterli iddialar üzrə qətnamələr istisna olmaqla, apellyasiya məhkəmələrinin kommersiya kollegiyalarının və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki və kommersiya kollegiyalarının qətnamələrindən kassasiya şikayəti verilə bilər. Apellyasiya məhkəmələrinin kommersiya kollegiyalarının və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Kommersiya kollegiyasının qətnamələrindən və qərardadlarından - Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya kollegiyasına şikayət verilə bilər. Apellyasiya instansiyası məhkəməsinin qətnaməsindən şikayəti işdə iştirak edən şəxslərə qətnamənin **rəsmi qaydada verildiyi gündən 2 ay müddətində** verilə bilər.

Kassasiya şikayəti yazılı formada apellyasiya instansiyası məhkəməsi vasitəsilə verilir. Apellyasiya instansiyası məhkəməsi kassasiya şikayətinin qanunvericiliyin tələblərinə cavab verən kassasiya şikayəti ona əlavə olunmuş sənədlərlə və işlə birlikdə kassasiya şikayətinin **verilmə müddəti bitdikdən sonra 7 gün müddətində** kassasiya instansiyası məhkəməsinə göndərilir. İşlə birlikdə daxil olmuş kassasiya şikayətinə onun **daxil olduğu gündən 3 ay müddətində** baxılır. Kassasiya instansiyası məhkəməsinin qərarı qəbul edildiyi andan qüvvəyə minir.

Eyni zamanda onu da qeyd edək ki, mülki prosessual qanunvericiliyinə əsasən, Azərbaycan Respublikasında xarici məhkəmələrin və arbitrajların qətnamələri tanınır və icra olunur. Belə

ki, AR MPM-in 463-cü maddəsinə əsasən xarici dövlətlərin məhkəmələrinin və arbitrajlarının qətnamələri dedikdə, mülki işlər və iqtisadi mübahisələr üzrə qətnamələr, cinayət işləri üzrə hökmlərin cinayət nəticəsində vurulmuş ziyanın ödənilməsi barədə hissələri, arbitraj məhkəmələrinin qətnamələri, habelə xarici dövlətlərin digər aktları başa düşülür.

Xarici dövlət məhkəmələri və arbitrajlarının qətnamələrinin məcburi qaydada icra olunması və tanınması barədə ərizələrə Azərbaycan Respublikasının Ali Məhkəməsi baxır. Xarici münsiflər məhkəməsi qətnaməsinin icra edilməsi və tanınması üçün Mülki Prosessual Məcəllənin maddələri müvafiq olaraq tətbiq edilir. Bundan əlavə, xarici münsiflər məhkəməsi qətnaməsinin tanınması və icra edilməsi barədə BMT-nin "Xarici arbitraj qərarlarının tanınması və icra edilməsi barədə" Konvensiyası tətbiq edilir. Adı çəkilən Konvensiya 10 iyun 1958-ci ildə qəbul edilib və 7 iyun 1959-cu ildən qüvvəyə minib. "Xarici arbitraj qətnamələrinin tanınması və icra edilməsi barədə" Konvensiyasına Azərbaycan Respublikası tərəfindən 9 noyabr 1999-cu il tarixli 734-IQ nömrəli Qanunu ilə qoşulmuşdur.

Adı çəkilən Konvensiyanın 1-ci maddəsində qeyd olunur ki, mövcud Konvensiya tərəflərin həm fiziki, həm də hüquqi şəxslər arasında yaranan mübahisələr üzrə arbitraj qərarlarının tanınması və icra edilməsi tələb olunan dövlətdən fərqli olan dövlətin ərazisində çıxarılmış beynəlxalq arbitraj qərarlarının tanınması və icra edilməsi sahəsində tətbiq edilir. Bu Konvensiya həmçinin arbitraj qərarlarının tanınması və icra edilməsi tələb olunan dövlətin daxili qərarları hesab olunmayan arbitraj qərarlarına da tətbiq edilir.

«Arbitraj qərarları» termini hər bir konkret iş üzrə təyin edilmiş arbitrlərin arbitraj qərarlarından əlavə həmçinin, tərəflərin müraciət etdiyi daimi arbitraj orqanlarının arbitraj qərarlarına da şamil edilir.

Hər bir Razılaşan Dövlət arbitraj qərarlarını mütləq şəkildə tanıyır və təsbit edilmiş şərtlərə uyğun olaraq bu qərarların ta-

nınması və icra edilməsi tələb olunan ərazinin prosedura normalarına müvafiq şəkildə həmin qərarları icraya yönəldir.

Konvensiyanın 10-cu maddəsinə əsasən, hər bir dövlət mövcud Konvensiyaya qoşularkən və ya onu təsdiq yaxud ratifikasiya edərkən bəyan etməlidir ki, mövcud Konvensiya həmin dövlətin beynəlxalq münasibətlərə görə məsuliyyət daşıdığı bütün və yaxud müəyyən ərazilərə şamil edilir. Belə bəyanat mövcud Konvensiyanın qanuni qüvvəyə mindiyi vaxtdan qüvvəyə minir.

## 7.3. Sahibkarların hüquqlarının və qanuni mənafelərinin məhkəmədənkənar müdafiəsi

Hüquq ədəbiyyatlarında sahibkarlıq fəaliyyəti subyektlərinin hüquqlarının və qanuni mənafelərinin məhkəmədənkənar müdafiəsinə adətən pretenziya qaydasında müdafiə, notarial müdafiə, beynəlxalq kommersiya arbitrajında və münsiflər məhkəməsində müdafiə aid edilir.

**Pretenziya verilməsi əsasında mübahisələrin nizamlanması qaydası** – mübahisələrin, xüsusilə indiki bazar iqtisadiyyatı şəraitində sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi zamanı yaranan mübahisələrin ədalətli həllinə, sahibkarlıq fəaliyyəti ilə məşğul olan subyektlərin qanunun gücünə, ədalət mühakiməsinin obyektivliyinə inamını artırır və eyni zamanda mübahisə yarandığı halda məhkəmələrə müraciət etməyə onları sövq edir.

Sahibkarlıq mübahisələrinə baxılması və həlli üçün qanunvericiliyin nəzərdə tutduğu əsaslardan biri də pretenziyadır. Hüquq ədəbiyyatlarında da mübahisələrin həllinin alternativ formalarına mübahisələrin pretenziya qaydasında həlli aid edilib.[1] Onu da qeyd edək ki, qüvvədə olan qanunvericilik pretenziyanın leqal anlayışını təsbit etmir. Lakin, qanunvericilikdə "pretenziya" ifa-

---

[1] Зайцев А.И., Кузнецов Н.В., Савельева Т.А. Негосударственные процедуры урегулирование правовых споров. Саратов, 2000. с. 17.

dəsi ilə yanaşı “mübahisənin məhkəməyə qədər nizama salınması” ifadəsi də istifadə olunur. Məsələn, AR MPM-in 152-ci maddəsinə diqqət yetirsək görərik ki, iddiaçı cavabdehlə mübahisənin məhkəməyə qədər (pretenziya qaydasında) nizama salınmasına riayət edilməsinə dair sənəd təqdim etmədikdə iddiaçı tərəfindən verilən iddia ərizəsi geri qaytarılır. Amma, AR Ticarət Gəmiçiliyi Məcəlləsinin 25-ci fəslində isə qanunverici yalnız “pretenziya” ifadəsindən istifadə edir.

Pretenziya (latın sözü “*praetensio*” olub mənası pretenziya, tələbdir) kreditorun borcun, zərərin, cərimənin ödənilməsi və ya görülən işin çatışmazlıqlarının aradan qaldırılması barədə borcluya olan tələbi deməkdir.

**Pretenziya** öhdəliklərin icrası zamanı pozuntuların aradan qaldırılması barədə borcluya ünvanlanmış yazılı tələbdir. Pretenziya mübahisənin məhkəməyə qədər olan mərhələdə həllini nəzərdə tutan sənəddir. Pretenziyada kreditorun tələblərinin mahiyyəti, onların səbəbləri və təmin edilməsi müddətləri, o cümlədən tələbin borclu tərəfindən icra olunmadığı təqdirdə məhkəməyə müraciət edilməsi mümkünlüyü barədə xəbərdarlıq göstərilir.

Sahibkarlıq fəaliyyəti subyektləri arasında yaranan mübahisələrin həll edilməsinin pretenziya qaydası pozulmuş hüquqların və qanuni maraqları müdafiəsi üsullarına aiddir. Sahibkarlıq fəaliyyətinin subyekti pretenziya qaydasına əməl edərək onun hüquqlarını və qanuni mənafelərinin pozulmasına səbəb olan hüquqazidd hərəkətləri törədən şəxsə etiraz və tələbini bildirir.

Məhkəmə pretenziya qaydalarına əməl edilməklə qaldırılmış işlərə baxır, kommersiya məhkəməsi tərəflər arasında sahibkarlıq mübahisələrinin həlli ilə əlaqədar saziş əldə olunmasına kömək edir və bu sazişə əsasən də qərar qəbul edir.

Pretenziya qaydası öz mahiyyətini aşağıdakı keyfiyyətdə saxlayıb:

❖ *tərəflərin maraqlarını barışdıra biləcək qərarların qəbul edilməsi imkanı;*

- *tərəflərin irəli sürdüyü təkliflər əsasında mübahisənin həll edilməsi imkanı;*
- *yurisdiksiya orqanında həll edilməli olan əsaslı fərqlərin müəyyən olunması.*

Pretenziya qaydasının əhəmiyyəti ondan ibarətdir ki, tərəflər öz aralarında yaranan mübahisənin kompromislə həll olunmasını təmin edən qərarlar qəbul etmək imkanına malikdirlər. Əgər buna baxmayaraq, razılıq əldə olunmursa, tərəf (tərəflər) öz mülahizələrini (suallarını, tələblərini) formalaşdırır və mübahisənin mahiyyəti üzrə həll olunması haqqında yurisdiksiya orqanına müraciət edir.

Pretenziyanın verilməsi və onun əsasında tədbirlərin görülməsi qanunvericiliklə müəyyənləşdirilir. Məsələn, Azərbaycan Respublikası Ticarət Gəmiçiliyi Məcəlləsinin 315-ci maddəsinə əsasən, pretenziya yazılı şəkildə verilir. Yükün itirilməsi və ya zədələnməsi barədə pretenziyaya daşınma sənədlərindən başqa, pretenziyanı vermək üçün hüququ, habelə göndərilən yükün miqdarını və dəyərini təsdiqləyən sənədlər əlavə olunmalıdır. Daşınma sənədlərinin əsli təqdim olunur.

**Notarial müdafiə.** "Notariat haqqında" Azərbaycan Respublikasının 26 noyabr 1999-cu il tarixli 762-IQ nömrəli Qanununun 3-cü maddəsinə əsasən, notariat fəaliyyəti ilə peşəkarcasına məşğul olan şəxs **notarius** adlanır. Adı çəkilən Qanun həm dövlət, həm də xüsusi notariusu fərqləndirir.[1]

"Notariat haqqında" AR Qanununun 9-cu maddəsində təsbit olunan notariusun vəzifələrindən biri də fiziki və hüquqi şəxslərlə aparılan notariat hərəkətləri ilə bağlı onların hüquq və vəzifələrini izah etməsi, bu hüquqların həyata keçirilməsi və qanuni münafelərin qorunması üçün köməklik göstərilməsidir.

Sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı mübahisələri həll edən inzibati-iqtisadi məhkəmədən fərqli olaraq, notariat

---

[1] "Azərbaycan Respublikasının Qanunvericilik Toplusu", 31 yanvar 2000-ci il, №1, maddə 10.

fəaliyyətinin predmetini mübahisə edilməyən işlər təşkil edir.

Sahibkarların hüquqlarının və qanunla qorunan maraqlarının notarial müdafiəsi aşağıdakı vasitələrlə həyata keçirir:

- ✓ *gələcəkdə hüquqların pozula biləcəyi ehtimalı ilə bağlı xəbərdar edilməsi məqsədilə mülki hüquqların hüquqi təsdiqi vasitəsi ilə (mübahisə edilməyən hüquqların və faktların təsdiqi, sənədlərin təsdiqi və s.);*
- ✓ *artıq pozulmuş hüququn müdafiəsi vasitəsi ilə (məsələn, icra qeydlərinin verilməsi, çeklərin ödənilməsi üçün təqdim olunması və çeklərin ödənilmədiyinin təsdiq edilməsi və.s).*

**İcra qeydlərinin aparılması** - borclunun olduğu yer üzrə notariuslar borcludan pul məbləğlərini tutmaq və ya əmlakı tələb edib almaq üçün əlaqədar şəxslərin ərizələrinə əsasən borcu müəyyən edən sənədlərdə icra qeydləri aparırlar.

Sahibkarlıq fəaliyyəti ilə bağlı mübahisələrə kommersiya məhkəmələri ilə yanaşı **münsiflər məhkəməsində** də baxıla bilər. V.F. Popondopulonun və V.F. Yakovlevanın fikrincə, münsiflər məhkəmələri xüsusi-hüquqi institutdur, onlar məhkəmə sisteminə aid edilmir, ədalət mühakiməsini həyata keçirmir, məhkəmə hakimiyyəti orqanı deyil.[1] V.F. Popondopulo qeyd edir ki, "münsiflər məhkəməsi" və "kommersiya arbitrajı" anlayışları bir-biri ilə qarşılıqlı bağlı olan fərqli anlayışlardır: kommersiya mübahisələri həll edilən müəssisələr; bu sayaq mübahisələrə baxan arbitrlərin tərkibi; kommersiya mübahisələrinin həlli proseduru. İstənilən halda hüquq münasibəti subyektlərinin onların arasında yaranmış mübahisənin həlli üçün özlərinin seçdikləri qeyri-dövlət məhkəməsidir".[2]

Münsiflər məhkəməsi – mübahisənin münsiflər məhkəməsinə

---

[1] Коммерческое право: Учебник. В 2 ч. / Под ред. В.Ф. Попондопуло и В.Ф. Яковлевой. СПб., 1997. Ч.1. с. 491.

[2] Коммерческое право зарубежных стран: Учебник / Под ред. В.Ф.Попондопуло. СПб., изд. Дом С. Петерб. Гос. ун-та, 2005. с. 448.

verilməsi barədə mübahisə edən tərəflərin qarşılıqlı razılığı əsasında məhkəmə orqanı qismində seçilən qeyri-dövlət orqanıdır.

AR MPM-in 29-cu maddəsində mübahisələrin münsiflər məhkəməsinə verilməsi barədə birbaşa göstəriş təsbit olunmuşdur. Göstərilən normaya əsasən, məhkəməyə aid olan mübahisə qanunla, beynəlxalq müqavilələrlə və ya tərəflərin sazişi ilə nəzərdə tutulan hallarda, işdə iştirak edən şəxslərin yazılı razılığı ilə münsiflər məhkəməsinin həllinə verilə bilər. Eyni zamanda, AR MPM-in 167.1.5.-ci maddəsində isə qeyd olunur ki, mübahisəni həll etmək üçün tərəflərin münsiflər məhkəməsinə müraciət etmək hüququnu və bu hərəkətin nəticələrini onlara izah edilməsi işin məhkəmədə baxılmağa hazırlamaq üçün hakim tərəfindən həyata keçirilən hərəkətlərdən birinə aiddir. Göründüyü kimi, AR MPM-də belə normalar təsbit olunsa da, onların realizəsi mexanizmi yoxdur. Daha dəqiq desək, münsiflər məhkəməsi hansı qaydada yaradılır, arbitrlər necə seçilir, onların hüquq və vəzifələri, münsifələr məhkəməsində işə baxılması qaydası, qərarın qəbul edilməsi və s. kimi məsələləri tənzim edən normalara rast gəlinmir. Belə olan halda, mübahisələr münsiflər məhkəməsinə hansı qaydada verilir, hansı formada bu mübahisəyə baxılır, arbitrlərin seçilməsi hansı qaydada həyata keçirilir, qərarlar hansı qaydada qəbul və icra edilir? Bütün bu göstərilənlər qanunvericilik səviyyəsində tənzim olunmur.

Bu məsələyə dair Rusiya qanunvericiliyinin mövqeyini daha uğurlu hesab etmək olar. “Münsiflər məhkəməsi haqqında” Rusiya Federasiyasının 24 iyul 2002-ci il tarixli 104-FZ nömrəli Qanunu ilə münsiflər məhkəməsinin təşkili, mübahisənin münsiflər məhkəməsinə verilməsi, münsiflər məhkəməsinin tərkibi, səlahiyyətləri, münsif qeydinin forma və məzmunu, münsiflər məhkəməsi tərəfindən qərarların qəbul edilməsi, onların icrası, münsiflər məhkəməsinin səlahiyyətləri və s. məsələlər ilə bağlı

qaydalar müəyyən edilmişdir.[1] İlk baxışdan belə təsəvvür formalaşacaq ki, "Beynəlxalq arbitraj haqqında" Azərbaycan Respublikasının 18 noyabr 1999-cu il tarixli 757-IQ nömrəli Qanununun normaları münsiflər məhkəməsinin fəaliyyətini tənzim edir, münsiflər məhkəməsində arbitrlərin seçilməsi, mübahisəyə baxılması, qərarların qəbul edilməsi qaydalarını müəyyən edir.[2] Lakin "Beynəlxalq arbitraj haqqında" AR Qanununun 1-ci maddəsində təsbit olunub ki, "Bu Qanun Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrə əməl edilməklə beynəlxalq ticarət arbitrajına tətbiq edilir".

Hesab edirik ki, Azərbaycan Respublikasında münsiflər məhkəməsinin fəaliyyətini tənzim edən ayrıca qanunvericilik aktının qəbul edilməsi gələcəkdə münsiflər məhkəməsinin fəaliyyətinin nizamlanmasına imkan yaradacaqdır.

**Beynəlxalq kommersiya arbitrajı.** Beynəlxalq kommersiya arbitrajı – beynəlxalq kommersiya fəaliyyətinin həyata keçirilməsi zamanı yaranan mübahisələrə baxılmasının qeyri-dövlət mexanizmidir. Məhz beynəlxalq kommersiya arbitrajının qeyri-dövlət təbiəti onu Azərbaycan Respublikasında fəaliyyət göstərən kommersiya məhkəmələrindən fərqləndirir.

"Xarici ticarət arbitrajı haqqında" 21 aprel 1961-ci il Avropa Konvensiyasını nəzərdən keçirdikdə belə qənaətə gəlmək olar ki, adı çəkilən Avropa Konvensiyası beynəlxalq kommersiya arbitrajının iki növünü fərqləndirir: **institusional (daimi)** və **ad hoc** arbitrajı.[3] Belə ki, Avropa Konvensiyasının 1-ci maddəsində əks olunmuş anlayışlar aparatı içərisində "arbitraj" termininin

---

[1] «Собрание законодательства Российской Федерации», 2002, № 30. Ст. 3019.

[2] "Azərbaycan" qəzeti, 15 fevral 2000-ci il, № 35.

[3] Azərbaycan Respublikası "Xarici ticarət arbitrajı haqqında" 21 aprel 1961-ci il Avropa Konvensiyasına 31 may 1996-cı il tarixli, 108-IQ nömrəli Azərbaycan Respublikasının Qanunu ilə qoşulmuşdur. "Azərbaycan Respublikasının Qanunvericilik Toplusu", 31 avqust 1997-ci il, №2, maddə 135.

izahı verilərkən qeyd olunur ki, mübahisələrin həm hər bir ayrıca iş üzrə təyin edilən arbitrlər (ad hoc arbitraj), həm də daimi arbitraj orqanları tərəfindən araşdırılması deməkdir.

Arbitraj sazişinin tərəfləri öz istəklərinə görə mübahisələrin araşdırılmaq üçün daimi arbitraj orqanına verilməsini nəzərdə tuta bilərlər, bu halda mübahisələrin araşdırılması belə orqanın reqlamentinə uyğun olaraq aparılacaqdır. Tərəflər mübahisələrin araşdırılmaq üçün bu iş üzrə arbitraja (ad hoc arbitraj) verilməsini nəzərdə tuta bilərlər və bu halda konkret olaraq arbitrlər təyin edə, yaxud hər hansı mübahisə yaranacağı halda onların təyin edilməsi metodlarını, arbitraj məhkəməsinin yerini və arbitrlərin riayət etməli olduqları prosedur qaydalarını müəyyənləşdirə bilərlər.

Azərbaycan Respublikasında beynəlxalq arbitrajın fəaliyyəti, işlərə baxılması və qərarların qəbul edilməsi “Beynəlxalq arbitraj haqqında” AR Qanunu ilə tənzim olunur.[1] “Beynəlxalq arbitraj haqqında” AR Qanununun 1-ci maddəsinə əsasən arbirtraj aşağıdakı hallarda beynəlxalq sayılır:

- ✓ *arbitraj razılaşması (sazişi) (bundan sonra "arbitraj sazişi adlandırılacaq") bağlananda onun tərəflərinin müəssisələri ayrı-ayrı dövlətlərdə yerləşirlər;*
- ✓ *aşağıdakı yerlərdən biri tərəflərin öz müəssisələrinin olduğu dövlətin hüdudlarından kənarda yerləşir;*
- ✓ *arbitrajın yeri, əgər bu yer arbitraj sazişində və yaxud ona uyğun müəyyən edilmişdirsə;*
- ✓ *ticarət münasibətlərindən irəli gələn öhdəliklərin əsas hissəsinin icra edilməli olduğu hər hansı yer və yaxud mübahisə predmetinin sıx əlaqəli olduğu yer;*
- ✓ *tərəflər qəti razılığa gəlmişlər ki, arbitraj sazişinin predmeti birdən çox dövlət ilə əlaqəlidir.*

Beynəlxalq arbitraj haqqında AR Qanununun II fəsli arbitraj sazişinin bağlanmasına, onun forması və məzmununa həsr olun-

---

[1] “Azərbaycan” qəzeti, 15 fevral 2000-ci il, № 35.

muşdur. **Arbitraj sazişi** - müqavilə xarakteri və yaxud başqa xarakter daşıyıb-daşımamasından asılı olmayaraq, hər hansı bir konkret hüquq münasibəti ilə əlaqədar tərəflər arasında yarana biləcək mübahisələrin hamısının və ya müəyyən mübahisələrin arbitraja verilməsi barəsində tərəflərin sazişidir.

Arbitraj sazişi yazılı formada bağlanılmaqla yanaşı, həm də müqavilədə arbitraj qeyd-şərti kimi və yaxud ayrıca saziş kimi bağlanıla bilər.

Mübahisə edən tərəflər öz mülahizəsinə uyğun olaraq, arbitrlərin sayını müəyyən edə bilərlər, əgər tərəflər bu sayı müəyyən etmirlərsə, onda üç arbitr təyin edilir. Arbitrlərin təyin edilməsi barədə razılıq olmadıqda isə arbitrajda üç arbitr olacağı təqdirdə, mübahisə edən hər bir tərəf bir arbitr təyin edir, təyin edilmiş iki arbitr isə üçüncü arbitri təyin edir. Arbitrlərin təyin edilməsi barədə qarşı tərəfdən müraciət almış tərəf **30 gün müddətində** arbitr təyin etməzsə və yaxud tərəflərin təyin etdiyi iki arbitr təyin edildikləri gündən **30 gün müddətində** üçüncü arbitrin seçilməsi haqqında razılığa gələ bilməmişlərsə, tərəflərdən hər hansı birinin müraciəti əsasında Azərbaycan Respublikasının Ali Məhkəməsi tərəfindən arbitr təyin edilir.

"Beynəlxalq arbitraj haqqında" AR Qanununun 29-cu maddəsinə görə tərəflər arasında digər razılaşma yoxdursa, arbitraj baxışında birdən artıq arbitr olduqda arbitraj məhkəməsinin hər hansı bir qərarı arbitraj məhkəməsinin üzvlərinin səs çoxluğu ilə çıxarılmalıdır.

Lakin tərəflər və ya arbitraj məhkəməsinin bütün üzvləri sədrlik edən arbitrə belə səlahiyyət vermişlərsə, prosedur məsələlərini təkbaşına həll edə bilər. Həmçinin, arbitraj baxışının gedişində tərəflər mübahisəni aradan qaldırarlarsa, arbitraj məhkəməsi baxışa xitam verir və tərəflərin xahişi əsasında və öz tərəfindən etirazı olmadıqda razılaşdırılmış şərtlər əsasında arbitraj qərarı formasında mübahisənin aradan qalxmasını rəsmiləşdirir. Arbitraj qərarı yazılı formada çıxarılır, arbitrlər tərəfindən imza-

lanmalı və imzalanmış surətləri hər bir tərəfə verilməlidir.

“Beynəlxalq arbitraj haqqında" AR Qanununun 32-ci maddəsinin 2-ci hissəsinə əsasən arbitraj məhkəməsi aşağıdakı hallarda arbitraj baxışına xitam verilməsi haqqında qərar çıxarır:

❖ *iddiaçı öz tələbindən imtina edir (cavabdeh baxışa xitam verilməsinə etiraz etmirsə və arbitraj məhkəməsi mübahisənin qəti aradan qalxmasında cavabdehin qanuni mənafeyini tanımırsa);*

❖ *tərəflər baxışa xitam verilməsi haqqında razılığa gəlirlər;*

❖ *arbitraj məhkəməsi baxışın davam etdirilməsini hər hansı səbəbdən mümkünsüz və lazımsız sayır.*

Arbitraj məhkəməsinin qərarından şikayət yalnız Azərbaycan Respublikasının Ali Məhkəməsinə verilir. Arbitraj qərarı Azərbaycan Respublikasının Ali Məhkəməsi tərəfindən aşağıdakı hallarda ləğv edilə bilər:

➢ ***əgər vəsatət qaldıran tərəf sübutlar təqdim etsə ki:***

✓ *arbitraj sazişinin tərəflərindən biri bu və ya digər dərəcədə fəaliyyət qabiliyyəti olmayan olmuşdur və yaxud arbitraj sazişi tərəflərin onu tabe etdirdikləri qanuna görə, sazişdə bu barədə göstəriş olmadıqda isə Azərbaycan Respublikasının qanunvericiliyinə görə etibarsızdır;*

✓ *və yaxud arbitrin təyin edilməsi və yaxud arbitraj baxışı haqqında lazımi qaydada xəbərdar edilməmiş və yaxud başqa səbəblərdən öz izahatlarını təqdim edə bilməmişdir;*

✓ *yaxud qərar arbitraj sazişində nəzərdə tutulmayan və ya onun şərtlərinə aid olmayan mübahisə üzrə çıxarılmışdır; yaxud qərar arbitraj sazişinin bəndlərindən kənara çıxan məsələləri əhatə edir (belə halda arbitraj sazişinin predmetinə aid olmayan məsələləri əhatə edən arbitraj qərarının müvafiq hissələri ləğv edilə bilər);*

✓ *və yaxud arbitraj məhkəməsinin tərkibi və ya arbitraj prosedurası tərəflərin bağladıqları sazişə uyğun olmamışdır (belə saziş tərəflərin yerinə yetirməyə məcbur olduqları*

*"Beynəlxalq arbitraj haqqında" AR Qanununun müddəalarına zidd olmasa) və yaxud tərəflər belə sazişi bağlamadıqları halda, arbitraj məhkəməsinin tərkibi və yaxud arbitraj prosedurası "Beynəlxalq arbitraj haqqında" AR Qanununa uyğun olmamışdır;*

- ***və yaxud əgər məhkəmə müəyyən etsə ki:***
  - ✓ *Azərbaycan Respublikasının qanunvericiliyinə görə mübahisə obyekti arbitraj baxışının predmeti ola bilməz;*
  - ✓ *və yaxud arbitraj qərarı Azərbaycan Respublikasının Konstitusiyasına ziddir.*

Hansı ölkədə çıxarılmasından asılı olmayaraq, arbitraj qərarının icrası məcburidir və səlahiyyətli məhkəməyə yazılı vəsatət verildikdə icra edilir (müəyyən hallar istisna olmaqla).

## 7.4. Sahibkarlıq fəaliyyəti subyektləri arasında yaranan mübahisələrin həllində mediasiyanın rolu

Beynəlxalq aləmdə münaqişələrin həllində mediasiya institutu mühüm yer tutur. Mediasiya latın sözü *"Mediatio"* olub mənası vasitəçilik deməkdir. Mediasiyanın klassik Amerika variantı Harvard Hüquq Məktəbinin professorları Rocer Fisher və Uilliam Urinin 1981-ci ildə öz tədqiqatlarının nəticələrini dərc etdirən əsərlərinə əsaslanır.[1] Lakin, XX əsrin 40-cı illərində D.N. Uşakovun lüğətində mediasiya anlayışına rast gəlinir. Belə ki, D.N.Uşakov qeyd edir ki, mediasiya – daha çox beynəlxalq münasibətlərdə mübahisələrin sülh yolu ilə həllinə üçüncü tərəfin köməklik göstərilməsi, vasitəçiliyidir.[2]

Azərbaycan Respublikasında mediasiyanın təşkili sahəsində ictimai münasibətlər "Mediasiya haqqında" Azərbaycan Respublikasının 29 mart 2019-cu il tarixli 1555-VQ nömrəli Qanu-

---

[1] Ортлофф К. Европейская культура разрешения споров // Медиация и право. 2007. № 3 (5).

[2] Ушаков Д.Н. Толковый словарь. М., 1940.1502 s. Səh. 274.

nu ilə tənzimlənilir. Adı çəkilən Qanun nəinki mübahisələrin alternativ həlli üsullarından olan mediasiyanın təşkili sahəsində ictimai münasibətlər tənzimləyir, həm də mediasiyanın məqsədlərini, prinsiplərini, həyata keçirilməsi qaydalarını və mediatorların statusunu müəyyən edir.[1]

"Mediasiya haqqında" AR Qanununun 1-ci maddəsində təsbit olunan anlayışlar aparatında mediasiyanın anlayışı aşağıdakı kimi verilmişdir: **mediasiya -** mediatorun (mediatorların) vasitəçiliyi ilə tərəflər arasında yaranmış mübahisənin qarşılıqlı razılıq əsasında həlli ilə bağlı "Mediasiya haqqında" AR Qanunu ilə müəyyən olunan prosesdir.

Hüquq ədəbiyyatlarında isə mediasiyanın anlayışına dair müxtəlif fikirlər təsbit olunsa da, məzmun və mahiyyət baxımından oxşardır. Belə ki, T.A. Şamlikaşvili hesab edir ki, mediasiya - mübahisənin vasitəçinin iştirakı ilə həlli prosedurudur və onun məqsədi mübahisəni açıq qarşıdurmaya gətirilməsi deyil. Mediasiyanın əsas xüsusiyyəti tərəflərə yalnız qəbul ediləcək qərarın məzmununa deyil, həm də onun axtarışı və işlənib-hazırlanması prosesinə nəzarət etmək imkanı və hüququ verilməsindən ibarətdir.[2] Bu mövqeyə yaxın olan A.İ.Panteleyevanın fikrincə isə mediasiya, mübahisə üzrə müəyyən razılaşmanın işlənməsinə kömək edən neytral, qərəzsiz, mübahisədə marağı olmayan üçüncü tərəfin - mediatorun iştirakı ilə mübahisənin alternativ həlli texnologiyasıdır, bu zaman mübahisənin həlli ilə bağlı qərarın qəbul edilməsi prosesinə və onun həlli şərtlərinə tamamilə tərəflər nəzarət edir.[3] Mediasiyanı mübahisənin həllinin universal texnologiyası

---

[1] "Mediasiya haqqında" Azərbaycan Respublikasının 29 mart 2019-cu il tarixli Qanunu. "Azərbaycan" qəzeti, 5 aprel 2019-cu il, № 72.

[2] Шамликашвили Ц.А. Основы медиации как процедуры урегулирования споров. Учебное пособие. М.: МЦУПК, 2013, 128 с.

[3] Пантелеева И.А. Семейная медиация как альтернативная процедура разрешения споров // Вестник Нижегородского университета им. Лобачевского. 2014. № 1(2). с. 452.

kimi nəzərdən keçirən V. Taymazov isə qeyd edir ki, mediasiya iki və ya daha çox tərəf arasında mübahisələrin kompromis həllini hazırlayan üçüncü tərəfin iştirakı ilə alternativ həlli üçün universal texnologiya hesab olunur.[1] Beləliklə, mediasiya - bitərəf olan və yalnız tərəflərin öz aralarında yaranan mübahisəsini (münaqişəsini) mübahisə tərəfləri üçün ən əlverişli şəkildə həll etməsində maraqlı olan üçüncü tərəfin iştirakı ilə aparılan danışıqlardır. Mediasiyanın mahiyyəti ondan ibarətdir ki, mübahisənin tərəflərindən biri işin nəticəsində marağı olmayan mediatora müraciət edərək mübahisənin digər tərəfi ilə əlaqə yaratmağı və mübahisənin qarşılıqlı məqbul həlli yolunu tapmağı ümid edir.

Hüquq ədəbiyyatında mediasiya bəzən mübahisələrin həlli metodu kimi nəzərdən keçirilməsinə dair fikirlərə də rast gəlinir. Belə ki, E.N. İvanova qeyd edir ki, “mediasiya - tərəflərin həm prosesin özünü, həm də onun nəticəsini nəzarətdə saxlaması və idarə edilməsi metodudur”.[2] S.V.Lazarev haqlı olaraq qeyd edir ki, işə baxan hakim, işin nə qədər mürəkkəb olmasına baxmayaraq, onun həllini tapmalıdır - bu, onun gündəlik işidir. Mediasiya prosesində isə mübahisənin həlli zamanı qərarın sabit olması üçün onun hakim deyil, tərəflərin özləri tapmalıdır”.[3]

Onu da qeyd edək ki, mübahisələrin və fikir ayrılıqlarının həllinin müasir vasitəsi kimi mediasiya mübahisələrin məhkəmə yolu ilə həllindən bir sıra əhəmiyyətli xüsusiyyətlərinə görə fərqlənir. **Birinci əsas fərq və üstün cəhət** ondan ibarətdir ki, mübahisə tez bir zamanda həll olunur. Qanunvericilikdə mediasiya prosedurunun aparılması üçün bir aylıq müddət müəyyən edilmişdir ki, onun davamlığı tərəflərin mülahizəsindən asılıdır.

---

[1] Таймазов В. Медиация в России: первые шаги // Расчёт. 2008. №12. Səh. 1.

[2] Ракитина, Л. Н., Львова О. А. Медиация (посредничество): Как урегулировать спор, не обращаясь в суд. — М.: Эксмо, 2008. с. 27.

[3] Понасюк, А. М. Медиация как альтернативна и дополнение судопроизводству // Мировой судья. 2012, № 9. с. 8-9.

**İkinci üstün ondan ibarətdir ki,** mediasiya prosesinin keçirilməsi zamanı məxfiliyin ciddi şəkildə qorunmasıdır.

Mediasiyanın üstün cəhətlərini daha geniş şəkildə xarakterizə edən A.N.Çumikov qeyd edir ki, "mediasiya iştirakçılar arasında ünsiyyətin qurulmasına mane olan əngəlləri zəiflətməsinə; alternativ yolların tədqiq edilməsi imkanlarını maksimum dərəcədə artırılmasına; prosesə cəlb edilən bütün tərəflərin maraqlarını nəzərə alınmasına; gələcəkdə mübahisələrin həlli üçün bir model yaradılmasına kömək edir".[1]

Bu gün hüquq elmində mediasiyanın hüquqi təbiətinin müəyyən edilməsinə dair bir neçə yanaşma formalaşmışdır. Belə ki, M.O.Vladimirova mediasiya institutunu mülki-hüquqi xarakterli təzahür kimi, mediasiya sazişini isə mülki-hüquqi müqavilə kimi nəzərdən keçirir. Müəllif öz mövqeyini tərəflərin qərar qəbul edilməsinin müstəqilliyinə, məcburetmə mexanizminin olmamasına, mediasiya prosesinin həyata keçirilməsində müqavilə azadlığı prinsipinə işarə edərək belə əsaslandırır. Belə ki, müəllif qeyd edir ki, mediasiya mübahisənin bütün tərəflərinin razılaşdırılmış hərəkətləri tələb edən xüsusi mülki-hüquqi prosedurdur və müqavilələr sisteminə əsaslanan ardıcıl olaraq yaranan müqavilə hüquq münasibətlərin məcmusundan ibarətdir.[2]

Mediasiyanın maddi-hüquqi təbiətinin tərəfdarları kimi E.A.Dobrolyubova, M.S.İvanova və başqaları mediasiyanı hüquqların müdafiəsi üsulu qismində, yəni, pozulmuş (mübahisələndirilən) hüquqların bərpasına (tanınmasına) yönələn maddi-hüquqi tədbir qismində nəzərdən keçirilməsi imkanına dair

---

[1] Чумиков А.Н. Связи с общественностью: Учеб. Пособие. — 2-е изд., испр. и доп. – М.: Дело, 2001. с. 223.

[2] Владимирова М.О. Медиативное соглашение в системе гражданско-правового регулирования: специальность 12.00.03 «Гражданское право; предпринимательское право; семейное право; международное частное право»: диссертация на соискание ученой степени кандидата юридических наук / Маргарита Олеговна Владимирова. Казань, 2014. 199 с.

mövqeyi dəstəkləyirlər.[1] Hesab edirik ki, bu mövqe ilə razılaşmaq olmaz. Buna əsas səbəb kimi isə göstərmək olar ki, pozulmuş və ya mübahisələndirilən hüquqların bərpası və ya tanınması və yaxud da müdafiəsi mediasiyanın əsas məqsədi deyil. Digər qrup müəlliflər isə hesab edirlər ki, mübahisənin həll edilməsinə görə mediasiya mülki prosessual hüquqa aid edilir. Belə ki, M.S. Naxov mediasiyanı mülki məhkəmə icraatı çərçivəsində hüquqi mexanizm, məhkəmənin ədalət mühakiməsi funksiyalarından istifadə etmədən öz məqsədinə çatmasını təmin etmək üsulu, yəni ədalət mühakiməsinə alternativ kimi müəyyən edir.[2]

Göstərilənlərdən belə qənaətə gəlmək olar ki, müəlliflər tərəfindən irəli sürülən mövqeləri özünəməxsus şəkildə əsaslandırılmışdır. Lakin, bu gün mediasiyanın hər hansı bir sahəyə aid olması sualını qoyduqda ona birmənalı şəkildə cavab verilməsi obyektiv cəhətdən müəyyən çətinlik yaradacaq. Bu halda M.E.Morozovun mövqeyini daha məqbul hesab etmək olar. Belə ki, müəllif qeyd edir ki, mübahisələrin (münaqişələrin) həllinə mediasiyanın yönəldilməsi onun prosesə yaxınlığını, eyni zamanda bu institutun tənzimlənməsinin dispozitiv metodları onun

---

[1] Иванова, М.С. Медиация как способ защиты прав и интересов супругов при расторжении брака: специальность 12.00.03 «Гражданское право; предпринимательское право; семейное право; международное частное право»: автореферат диссертации на соискание ученой степени кандидата юридических наук / Мария Сергеевна Иванова. Тверь, 2014. 27 с., с. 14; Добролюбова, Е.А. Медиация в системе способов защиты прав предпринимателей: специальность 12.00.03 «Гражданское право; предпринимательское право; семейное право; международное частное право»: автореферат диссертации на соискание ученой степени кандидата юридических наук / Елена Анатольевна Добролюбова. Москва, 2012. 25 с., с. 9-12;

[2] Нахов, М.С. Медиация как механизм реализации цели гражданского судопроизводства: специальность 12.00.15 «Гражданский процесс; арбитражный процесс»: диссертация на соискание ученой степени кандидата юридических наук / Максим Сергеевич Нахов. Саратов, 2015. 203 с., с.13, 25.

xüsusi-hüquqi xarakter daşımasını göstərir.[1]

Mediasiya prosesinin iştirakçıları mediator və tərəflərdir. Qanunun 1-ci maddəsinə müvafiq olaraq, **mediator** – peşəkar əsasda mediasiya prosesinin həyata keçirilməsi üçün tərəflərin cəlb etdiyi və ya mediasiya təşkilatı tərəfindən təyin olunmuş, "Mediasiya haqqında" AR Qanununun tələblərinə cavab verən fiziki şəxsdir. "Mediasiya haqqında" AR Qanununun 10-cu maddəsinə əsasən, mediator olmaq istəyən fiziki şəxs aşağıdakı tələblərə cavab verməlidir:

- ✓ *ali təhsilə malik olmalıdır;*
- ✓ *yaşı tamam olmalıdır;*
- ✓ *ən azı 3 illik iş stajına malik olmalıdır;*
- ✓ *mediatorların ilkin hazırlığı üzrə təlimi bitirərək bu "Mediasiya haqqında" AR Qanununda nəzərdə tutulmuş sertifikatı əldə etməlidir;*
- ✓ *"Mediasiya haqqında" AR Qanununda nəzərdə tutulmuş hallarda müvafiq müddətin keçməsi gözlənilməlidir.*

Aşağıdakı fiziki şəxslər mediator ola bilməzlər:

- ✓ *məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş şəxslər;*
- ✓ *barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olan şəxslər;*
- ✓ *məhkumluğu ödənilməmiş və ya götürülməmiş şəxslər.*

Mediasiya prosesində **tərəflər** dedikdə**,** hüquqi və fiziki şəxslər (o cümlədən, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər), habelə mediasiya prosesinin tətbiqinə razılıq vermiş inzibati orqanlardır. Həmçinin, mediasiya prosesində vəkillər, nümayəndələr, tərcüməçilər, ekspert və mütəxəssislər, mediasiya təşkilatının əməkdaşları, habelə tərəflərin razılığı ilə mediasiya prosesində iştirak edən digər şəxslər iştirak edə bilər.

Mediasiya aşağıdakılar üzrə tətbiq edilir:

---

[1] Морозов М.Э. Частное процессуальное право: тупиковая ветвь права или новый вектор его развития? / М.Э. Морозов // Третейский суд. 2010. №6. с. 80-84. с. 81.

- ✓ *mülki işlər və kommersiya mübahisələri (xarici elementli mübahisələr də daxil olmaqla);*
- ✓ *ailə münasibətlərindən irəli gələn mübahisələr;*
- ✓ *əmək münasibətlərindən irəli gələn mübahisələr;*
- ✓ *inzibati hüquq münasibətlərindən irəli gələn mübahisələr.*

Mübahisənin mediasiya prosesi vasitəsilə həll edilməsi məqsədi ilə tərəflər arasında mediasiya prosesinin tətbiqi barədə müqavilə bağlanılır. Bu halda qeyd etmək lazımdır ki, “Mediasiya haqqında” AR Qanununda "mediasiya prosesinin tətbiqi barədə müqavilə” və "mediasiya xidmətlərinin göstərilməsinə dair müqavilə” anlayışlarından istifadə edilir ki, bu anlayışları eyni mənalı anlayış kimi və yaxud da bu anlayışlar arasında bərabərlik işarəsinin qoyulması heç də doğru olmaz. Belə ki, mediasiya prosesinin tətbiqi barədə müqavilə kommersiya mübahisəsinin mediasiya prosesi vasitəsilə həlli üçün tərəflər arasında bağlanılırsa, mediasiya xidmətlərinin göstərilməsinə dair müqavilə isə mediator və ya mediasiya təşkilatı ilə tərəflər arasında mediasiya xidmətlərinin göstərilməsi üçün bağlanılır.

Mediasiyanın **prinsipləri** aşağıdakılardır:

❖ ***könüllülük prinsipi*** *– məhkəmə prosesindən fərqli olaraq, mediasiya prosesində mübahisə edən tərəflər könüllü iştirak edir, mediator isə sərbəst seçilir. Qanunvericilikdə təsbit olunan müstəsna hallar istisna olmaqla, heç bir halda mübahisə üzrə tərəflərin mediasiya prosesində iştirak etməsinə məcbur edilə bilməz. Belə ki, kommersiya, ailə və əmək mübahisələri üzrə tərəflər məhkəməyə müraciət etməmişdən əvvəl ilkin mediasiya sessiyasında iştirakı tələb olunur. Bu prinsipə görə mübahisə üzrə qərarlar tərəflərin qarşılıqlı razılığı ilə qəbul olunur və mediasiya prosesinin istənilən mərhələsində mediasiyadan imtina etmək hüquqlarına malikdirlər;*

❖ ***tərəflərin bərabərliyi və əməkdaşlığı prinsipi – mediasiya prosesində*** *heç bir tərəfin* ***müvafiq*** *mübahisə üzrə bir-birinin üzərində üstünlüyü yoxdur. Bir sözlə, mübahisə üzrə tərəflər öz fikirlərinin ifadə edilməsində, danışıqların gündəliyinin müəy-*

*yən edilməsində, sazişin şərtlərinin və təkliflərin qəbul olunmasında bərabər hüquqlara malikdir, həmçinin bərabər vəzifələr daşıyırlar. Mediasiya mübahisənin həllində tərəflərin əməkdaşlığına, habelə ünsiyyət və danışıqlara əsaslanır;*

❖ ***mediatorun qərəzsizliyi, müstəqilliyi və mediasiya prosesinə müdaxilənin yolverilməzliyi prinsipi*** *- mediator, mübahisə üzrə hər bir tərəflə qərəzsiz, müstəqil münasibət qurur və onların danışıqlarda bərabər hüquqlu iştirakını təmin edir. Mediator mediasiya zamanı hər iki tərəfə bərabər yanaşmalı, tərəflərin mediasiya zamanı bərabər iştirakını təmin etməli və hər iki tərəfə proses zamanı tələblərini təqdim etmək üçün bərabər imkanlar yaratmalıdır. Mediator mediasiya prosesini həyata keçirən zaman tərəflərdən, dövlət və yerli özünüidarəetmə orqanlarından, hüquqi və fiziki şəxslərdən asılı olmamalıdır və mediasiya zamanı adıçəkilən orqanların və şəxslərin mediatorun fəaliyyətinə müdaxiləsinə yol verilmir.*

❖ ***konfidensiallıq prinsipi*** *- mediasiya prosesində danışılan və müzakirə edilən bütün məsələlərin məxfiliyi qorunub saxlanılmalıdır. Tərəflər arasında ayrı şərt müəyyən edilməyibsə, mediasiya qapalı keçirilir. Hüquq ədəbiyyatlarında belə bir fikir də yer alıb ki, əgər mediator mübahisə tərəflərini ümumi razılığın əldə olunması vəziyyətinə gətirə bilmirsə və mübahisəyə baxılması üçün mübahisə edən tərəflər məhkəməyə müraciət etsələr, onda mediator məhkəmə prosesində şahid qismində dindirilə bilməz. "Mediasiya haqqında" AR Qanununun 8.3.-cü maddəsinə müvafiq olaraq, mediasiya iştirakçılarının və mediasiyada iştirak edən digər şəxslərin onlara mediasiya zamanı məlum olan məlumatları məhkəmə və arbitraj (münsiflər məhkəməsi) proseslərində, başqa mediasiya zamanı və ya hər hansı digər hallarda açıqlamaq və ya onlara istinad etmək hüququ yoxdur (həmin məlumatı verən tərəfin yazılı razılığı olduğu hallar istisna olmaqla) və belə məlumatlarla bağlı həmin şəxslər şahid qismində iştirak edə bilməzlər.*

"Mediasiya haqqında" AR Qanununun 28-ci maddəsinə əsasən, kommersiya mübahisələri üzrə məhkəməyə müraciət etmə-

mişdən əvvəl tərəflər ilkin mediasiya sessiyasında iştirak etməlidirlər. İlkin mediasiya sessiyasını tərəflərin qarşılıqlı razılaşdırdığı mediator və ya mediator təşkilatı aparır. Tərəfin mediasiya prosesinin tətbiqi barədə təklifi digər tərəfə təqdim edildikdən sonra **10 iş günü ərzində** qəbul edilmədikdə və ya tərəflər mediator və ya mediasiya təşkilatı barədə razılığa gəlmədikdə, ilkin mediasiya sessiyası tərəflərdən hər hansı birinin ilkin müraciət etdiyi, mübahisənin aidiyyəti üzrə aid olduğu məhkəmə ilə eyni şəhər və ya rayonda yerləşən mediasiya təşkilatı, həmin şəhər və ya rayonda mediasiya təşkilatı olmadıqda isə həmin məhkəmənin yerləşdiyi inzibati ərazi vahidinə ən yaxın şəhər və ya rayonlardan birində yerləşən mediasiya təşkilatı tərəfindən aparılır. Bu halda tərəflər mediator barədə razılığa gəlmədikdə, mediatoru mediasiya təşkilatı təyin edir.

İlkin mediasiya sessiyası zamanı mediasiya xidmətinin göstərilməsinə görə haqqın və digər xərclərin məbləğinin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 15 iyul tarixli 308 nömrəli Qərarına görə kommersiya mübahisələri üzrə ilkin mediasiya sessiyası zamanı mediasiya xidmətinin göstərilməsinə görə haqqın və digər xərclərin məbləği aşağıdakı kimi müəyyən edilmişdir:

| **Sıra №-si** | **Kommersiya mübahisələri üzrə** | **Haqqın məbləği** |
|---|---|---|
| **1.** | iddia qiyməti 500 manatadək olduqda | 20 manat |
| **2.** | iddia qiyməti 501 manatdan 1000 manatadək olduqda | 40 manat |
| **3.** | iddia qiyməti 1001 manatdan 5000 manatadək olduqda | 60 manat |
| **4.** | iddia qiyməti 5001 manatdan 10000 manatadək olduqda | 100 manat |
| **5.** | iddia qiyməti 10001 manatdan 50000 manatadək olduqda | 200 manat |
| **6.** | iddia qiyməti 50000 manatdan çox olduqda | 400 manat |

“Mediasiya prosesinin həyata keçirilməsi Qaydası”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 5 sentyabr tarixli 385 nömrəli Qərarına görə danışıqlar şəraitində həyata keçirilir və aşağıdakı mərhələlərdən ibarətdir:

- ✓ *mediasiya prosesinə hazırlıq;*
- ✓ *mediasiya prosesinin başlanılması;*
- ✓ *tərəflərin mübahisənin mahiyyətini açıqlaması;*
- ✓ *tərəflərin hər biri ilə ayrı-ayrılıqda danışıq;*
- ✓ *mübahisənin həlli üçün təkliflərin hazırlanması;*
- ✓ *mediasiya prosesinin yekunlaşdırılması;*
- ✓ *mediasiya prosesinə xitam verilməsi;*
- ✓ *barışıq sazişinin icrası.*

Mübahisə üzrə tərəflər mediasiya nəticəsində barışıq əldə edirlərsə, mediator tərəflərin qarşılıqlı razılığı ilə barışıq sazişinin şərtlərini müəyyən edir və tərəflərə bildirir. Barışıq sazişi tərəflər arasında yazılı formada bağlanılır. Tərəflər və mediator tərəfindən imzalanır. Barışıq sazişi, əgər sazişdə ayrı şərt nəzərdə tutulmayıbsa, imzalandığı gündən tərəflər üçün məcburi xarakter daşıyır və tərəflər arasında ayrı müddət müəyyən edilməyibsə imzalandığı gündən **10 gün müddətində** könüllü şəkildə icra olunmalıdır.

## Mövzu üzrə nəticə:

Sahibkarların hüquqlarının müdafiəsi üsullarına aiddir: h**üquqların maddi-hüquqi müdafiəsi üsulları və hüquqların prosessual müdafiəsi üsulları.** Sahibkarların hüquqlarının müdafiəsi formalarına sahibkarların hüquqlarının və qanuni mənafelərinin **məhkəmə və məhkəmədənkənar müdafiəsi** formaları aiddir**.** Sahibkarlıq fəaliyyəti subyektlərinin hüquqlarının və qanuni mənafelərinin **müdafiəsinin məhkəmə forması** dedikdə, pozulmuş və ya mübahisələndirilmiş hüquqların mühafizəsi üzrə

dövlət orqanlarının fəaliyyəti başa düşülür. K**ommersiya mübahisələri dedikdə,** sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar olan mübahisələr başa düşülür.

Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar yaranan mübahisələr **kommersiya məhkəmələrində** baxılır və həll edilir. Kommersiya mübahisələri üzrə məhkəmə icraatı AR Mülki Prosessual Məcəllə ilə müəyyən edilmiş ümumi prosessual qaydalara uyğun olaraq "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə kommersiya məhkəməsində aparılır. Sahibkarlıq fəaliyyətinin subyekti öz pozulmuş və ya mübahisələndirilmiş hüququnun və qanuni mənafelərinin müdafiəsi üçün inzibati-iqtisadi məhkəməyə **iddia ərizəsi ilə** müraciət edir.

**Sahibkarların hüquqlarının və qanuni mənafelərinin məhkəmədənkənar müdafiəsinə** aiddir: pretenziya qaydasında müdafiə, notarial müdafiə, beynəlxalq kommersiya arbitrajında müdafiə və kommersiya mübahisəsinin mediasiya vasitəsilə həlli.

**Pretenziya verilməsi əsasında mübahisələrin nizamlanması qaydası** – mübahisələrin, xüsusilə indiki bazar iqtisadiyyatı şəraitində sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi zamanı yaranan mübahisələrin ədalətli həlli, sahibkarlıq fəaliyyəti ilə məşğul olan subyektlərin qanunun gücünə, ədalət mühakiməsinin obyektivliyinə inamını artırır və eyni zamanda mübahisə yarandığı halda məhkəmələrə müraciət etməyə onları sövq edir. Pretenziya öhdəliklərin icrası zamanı pozuntuların aradan qaldırılması barədə borcluya ünvanlanmış yazılı tələbdir.

Sahibkarlıq fəaliyyəti ilə bağlı mübahisələrə kommersiya məhkəmələri ilə yanaşı **münsiflər məhkəməsində** də baxıla bilər. Beynəlxalq kommersiya arbitrajı – beynəlxalq kommersiya fəaliyyətinin həyata keçirilməsi zamanı yaranan mübahisələrə baxılmasının qeyri-dövlət mexanizmidir. Məhz beynəlxalq kommersiya arbitrajının qeyri-dövlət təbiəti onu Azərbaycan Respublikasında fəaliyyət göstərən inzibati-iqtisadi məhkəmələrdən

fərqləndirir. Beynəlxalq kommersiya arbitrajının iki növünü fərqləndirir: **institusional (daimi)** və **ad hoc** arbitrajı.

**Mediasiya -** mediatorun (mediatorların) vasitəçiliyi ilə tərəflər arasında yaranmış mübahisənin qarşılıqlı razılıq əsasında həlli ilə bağlı "Mediasiya haqqında" AR Qanunu ilə müəyyən olunan prosesdir. Mediasiya prosesinin iştirakçıları **mediator** və **tərəflərdir.** Mediator – peşəkar əsasda mediasiya prosesinin həyata keçirilməsi üçün tərəflərin cəlb etdiyi və ya mediasiya təşkilatı tərəfindən təyin olunmuş, "Mediasiya haqqında" AR Qanununun tələblərinə cavab verən fiziki şəxsdir. Mediasiya prosesində **tərəflər** dedikdə**,** hüquqi və fiziki şəxslər (o cümlədən, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər), habelə mediasiya prosesinin tətbiqinə razılıq vermiş inzibati orqanlardır. Mediasiya prosesinin mərhələlərinə aiddir: mediasiya prosesinə hazırlıq; mediasiya prosesinin başlanılması; tərəflərin mübahisənin mahiyyətini açıqlaması; tərəflərin hər biri ilə ayrı-ayrılıqda danışıq; mübahisənin həlli üçün təkliflərin hazırlanması; mediasiya prosesinin yekunlaşdırılması; mediasiya prosesinə xitam verilməsi; barışıq sazişinin icrası.

## Mövzunun mənimsənilməsi üçün tövsiyə olunan ədəbiyyat:

### *a) əsas ədəbiyyat:*

1. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi. Bakı, 2021, Mad. 26, 29, 149-156.

2. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının 10 iyun 1997-ci il tarixli 310-IQ nömrəli Qanunu. Mad.19, 42-45.

3. "Notariat haqqında" Azərbaycan Respublikasının 26 noyabr 1999-cu il tarixli 762-IQ nömrəli Qanunu. Mad. 33, 34, 77.

4. "Beynəlxalq arbitraj haqqında" Azərbaycan Respublikasının18 noyabr 1999-cu il tarixli 757-IQ nömrəli Qanunu.

5. “Mediasiya haqqında” Azərbaycan Respublikasının 29 mart 2019-cu il tarixli 1555-VQ nömrəli Qanunu.

6. “Mediasiya haqqında” Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1555-VQ nömrəli Qanununun tətbiqi barədə 3 aprel 2019-cu il tarixli 607 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı.

7. “Mediasiya prosesinin həyata keçirilməsi Qaydası”nın təsdiq edilməsi haqqında zərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 5 sentyabr tarixli 385 nömrəli Qərarı.

8. “İlkin mediasiya sessiyası zamanı mediasiya xidmətinin göstərilməsinə görə haqqın və digər xərclərin məbləği”nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 15 iyul tarixli 308 nömrəli Qərarı.

9. Гаджиев Г.А. Защита основных экономических прав и свобод предпринимателей за рубежом и в Россий-ской Федерации. М., 1995.

10. Вершинин А.П. Способы защиты прав предпринимателей в арбитражном суде. СПб., 1996.

11. Полтавская Н. Нотариат (курс лекций). М., 1999.

12. Свердлык Г.А., Страунинг Э.Л. Защита и само-защита гражданских прав: Учебное пособие. М., 2002.

13. Тихомиров М.Ю. Претензии и иски: Практическое пособие. М.: Изд. г-на Тихомирова М.Ю.: Юринформцентр, 2003. 271 с.

14. Гражданин и предприниматель в российском и зарубежном суде: Правовая помощь / Т.Н. Нешатаева и др. М.: Деловой экспресс, 2002. 448 с.

15. Агеева Е.Ш. Институт охраны и защиты прав предпринимателей: Сравнительно-правовое исследование законодательств России и Англии. М.: Статут, 2015. 144 с.

### *b) əlavə ədəbiyyat:*


16. Əliyev V. Mənəvi zərərin kompensasiyası sahibkarlıq fəaliyyəti subyektlərinin şərəfinin, ləyaqətinin və işgüzar nüfuzunun mülki-hüquqi müdafiəsinin üsulu kimi. “Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri. Elmi məqalələr məcmuəsi”. 21-ci buraxılış. Bakı, “Adiloğlu”, 2008, səh.283-288.

17. Абрамов А. М. Третейский суд как основной вид альтернативных способов разрешения и урегулирования способов разрешения и урегулирования споров / А. М. Абрамов // Вестн. арбитраж. практики. 2012. № 6, с. 5-8.

18. Зайцев А. И. Взаимодействие государственных и третейских судов: история вопроса / А.И.Зайцев // Вестн. гражд. процесса. 2013. № 5. с. 79-115.

19. Кузьмак Р. Оставить без рассмотрения / Р.Кузьмак // ЭЖ-Юрист. 2013, № 36, с.10.

20. Летута Т. В. Правовая природа решения третейского суда / Т.В.Летута // Соврем. право. 2013. № 5. с.72-75.

21. Назарова Т. Дело до суда не доводи! / Т. Назаро-ва // ЭЖ-Юрист. 2012. № 40, с.9.

22. Кирилловых А.А. Уполномоченный по правам предпринимателей: основы правового статуса в системе правозащитных институтов // Законодательство и экономи-ка. 2013. № 11. с. 26.

23. Микова Е.Б. Государственная защита субъектов предпринимательской деятельности как приоритетное направление развития законодательства о бизнесе в России: на примере учреждения уполномоченных по защите прав предпринимателей в Российской Федерации // Предпринимательское право. Приложение «Бизнес и право в России и за рубежом». 2013. № 4. с.27-30.

# VIII FƏSİL
# SAHİBKARLIQ FƏALİYYƏTİ SUBYEKTLƏRİNİN İSTEHSAL FƏALİYYƏTİNİN HÜQUQİ TƏNZİMLƏNMƏSİ

## 8.1. Standartlaşdırmanın anlayışı, məqsədi və prinsipləri

Azərbaycan Respublikasında standartlaşdırma sahəsində yaranan münasibətlər "Standartlaşdırma haqqında" Azərbaycan Respublikasının 17 may 2019-cu il tarixli 1587-ci nömrəli Qanunu ilə tənzim olunur.[1] Qeyd olunan Qanun qüvvədən düşmüş 16 aprel 1996-cı il tarixli № 60-IQ nömrəli Qanunu xeyli dərəcədə üstələyir. Belə ki, yeni Qanunda ilk növbədə standartlaşdırma sahəsində subyektlərin dairəsi genişlənmişdir. Yeni Qanunda standartlaşdırma üzrə normativ sənədlərin maraqlı tərəflərin konsensusu əsasında hazırlanması və qəbul edilməsi prinsipinə daha geniş yer verilmişdir. Məsələn, adı çəkilən Qanunun 7.12.-ci maddəsinə müvafiq olaraq, texniki komitədə dövlət standartları konsensus əsasında qəbul olunmalıdır.

Digər bir üstün cəhət ondan ibarətdir ki, standartlaşdırma sahəsində beynəlxalq standartlara üstünlük verilir. Belə ki, Qanunun 5.2.-ci maddəsinə müvafiq olaraq, standartlaşdırma sahəsində sənədlərdə nəzərdə tutulan tələblər beynəlxalq standartlara uyğun olmalı, elm, texnika və texnologiyanın müasir nailiyyətlərinə əsaslanmalı, malın (xidmətin, işin), prosesin, istehsal metodunun şərtlərini nəzərə almalı, habelə Azərbaycan Respublikasının normativ hüquqi aktlarının tələblərini pozmamalıdır.

Standartlaşdırma haqqında qanunvericiliyin təhlilindən çıxış edərək qeyd etmək lazımdır ki, standartlara münasibətdə könüllülük prinsipi tətbiq olunur (qanunvericilikdə müəyyən hallar is-

---

[1] "Azərbaycan" qəzeti, 16 iyul 2019-cu il, №152.

tisna olmaqla), texniki tənzimləmənin isə icrası məcburidir. Hüquq elmində belə bir mövqe mövcuddur ki, texniki tənzimləmə - standartlaşdırmanın bir növüdür.[1] "Standartlaşdırma haqqında" AR Qanununun 19-cu maddəsinə müvafiq olaraq, texniki tənzimləmənin şamil olunduğu malın (işin, xidmətin), onunla əlaqəli prosesin (o cümlədən idarəetmə sisteminin), istehsal metodunun əhatə dairəsi müəyyən edilənədək və həmin mala (işə, xidmətə), prosesə (o cümlədən idarəetmə sisteminə), istehsal metoduna dair müvafiq texniki reqlamentlər qüvvəyə minənədək, mövcud standartlara dair normativ hüquqi aktlar öz hüquqi qüvvəsini saxlayırlar və təsərrüfat subyektləri tərəfindən həmin standartların və normativ hüquqi aktların tələblərinə riayət olunmalıdır.

Həmçinin, onu da qeyd etmək yerinə düşər ki, standartlaşdırma haqqında qanunvericilikdə texniki reqlament terminologiyasından istifadə olunsa da, onun leqal anlayışı təsbit olunmayıb. Belə ki, "Standartlaşdırma haqqında" AR Qanununun 13-cü maddəsinin 1-ci hissəsinə müvafiq olaraq, uyğunluğun könüllü qiymətləndirilməsi üçün mal (iş, xidmət), onunla əlaqəli proses (o cümlədən idarəetmə sistemi), istehsal metodu, ilk növbədə, texniki reqlamentlərin tələblərinə uyğun olmalıdır. Texniki reqlamentlərin tələblərinə cavab verən və ya texniki reqlamentlərlə tənzimlənməyən malın (işin, xidmətin), onunla əlaqəli prosesin (o cümlədən idarəetmə sisteminin), istehsal metodunun standartlaşdırma üzrə normativ sənədlərin tələblərinə uyğunluğunun qiymətləndirilməsi sertifikatlaşdırma yolu ilə həyata keçirilir. Sertifikatlaşdırma sifarişçinin təşəbbüsü ilə akkreditasiya edilmiş uyğunluğu qiymətləndirən qurumlar tərəfindən təmin edilir və bu barədə uyğunluq sertifikatı verilir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 2 iyul tarixli 252 nömrəli Qərarı ilə təsdiq edilmiş "Uyğunluğun qiymətləndirilməsi fəaliyyətləri üzrə akkreditasiya

---

[1] Брославский Л.И. Техническое регулирование качества и безопасности продукции и окружающей среды: проблемы теории и практики // Доступ из справ. правовой системы «КонсультантПлюс».

Qaydaları"nın 2.1.1.–ci bəndinə əsasən, **uyğunluğu qiymətləndirən qurum dedikdə,** malın (xidmətin, işin), prosesin, idarəetmə sisteminin və işçi heyətinin müvafiq standartda, texniki reqlamentdə və digər normativ hüquqi aktda müəyyən olunmuş tələblərə uyğunluğunun qiymətləndirilməsini təmin edən təşkilatlar (dövlət orqanları), hüquqi və fiziki şəxslər başa düşülür.

"Standartlaşdırma haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci maddəsində təsbit olunan anlayışlar aparatında standartlaşdırmanın leqal anlayışı verilmişdir: **standartlaşdırma** – standartlaşdırma obyektlərinin təhlükəsizliyinin və keyfiyyətinin yüksəldilməsinə yönəlmiş, kütləvi və təkrar istifadə üçün nəzərdə tutulan normativ sənədlərin hazırlanması, qəbulu və tətbiqi prosesindən ibarət fəaliyyətdir.

Azərbaycan hüquq doktrinasında isə standartlaşdırma üzrə tədqiqatlara demək olar ki, ümumiyyətlə rast gəlinmir. Hüquq ədəbiyyatlarından fərqli olaraq, iqtisadi ədəbiyyatlarda standartlaşdırmaya və beynəlxalq standartlara həsr olunmuş çoxlu sayda tədqiqatlara rast gəlmək mümkündür.[1] Lakin onu da qeyd etmək lazımdır ki, hüquqi müstəvidə standartlaşdırma üzrə tədqiqatlar olduqca əhəmiyyətlidir.[2] Hüquq elmində standartlaşdırmaya dair, onun anlayışı və məzmunu barədə fikirlər müxtəlifdir. Standartlaşdırmanın könüllü təbiətinə görə ətraflı tədqiqatlardan kənarla qalmasını göstərən P.Delimatsis qeyd edir ki, dövlət tərəfindən dəstəyin olmaması səbəbindən əksər tədqiqatçılar üçün standartları maraqsız etmişdir".[3]

İngiltərə alimləri N. Brunsson və V.Y. Cakobsson standart-

---

[1] Blind K. The economics of standards: theory, evidence, policy// Edward Elgar Pub, 2004; Slowak A. Standard-setting capabilities in industrial automation: a collaborative process //Journal of Innovation Economics and Management. 2008, № 2, p. 147-169.

[2] Delimatsis P. The Law, Economics and Politics of International Standardisation// Cambridge University Press, 2015. p. 4.

[3] Yenə orada.

laşdırmanı özünütənzimləmənin kvazi-hüquqi forması kimi nəzərdən keçirirlər.[1] Müəlliflərin fikrincə, özünü tənzimləmənin kvazi-hüquqi forması şəraitindən asılı olaraq özünütənzimləmə formasında və ya tərəfdaşlığı publik-xüsusi (hibrid) formasında ola bilər.[2] Bu fikirləri dəstəkləyən F.Caffaggi və H. Muir Vatt buna misal olaraq standartlaşdırma üzrə Avropa Komitəsini göstərirlər. Hətta, belə bir fikir də irəli sürülür ki, standartlaşdırma ənənəvi tənzimlənməyə münasibətdə tamamlayıcı funksiyanı yerinə yetirir.[3]

"Standartlaşdırma haqqında" AR Qanununun 4-cü maddəsinin 1-ci hissəsinə müvafiq olaraq, standartlaşdırmanın aşağıdakı məqsədləri müəyyən edilir:

- ✓ *malın (xidmətin, işin), onunla əlaqəli prosesin (o cümlədən idarəetmə sisteminin), istehsal metodunun sərbəst hərəkəti üçün şərait yaradılması və beynəlxalq ticarətdə lüzumsuz texniki maneələrin aradan qaldırılması;*
- ✓ *daxili və xarici bazarda rəqabətə davamlılığı artırmaq məqsədi ilə malın (xidmətin, işin), onunla əlaqəli prosesin (o cümlədən idarəetmə sisteminin), istehsal metodunun keyfiyyətinin və işçi heyətinin bacarıqlarının təkmilləşdirilməsi;*
- ✓ *malların və onlara dair ehtiyat hissələrinin texniki, texnoloji və informasiya uyğunluğunun, eləcə də qarşılıqlı əvəz olunmasının təmin edilməsi;*
- ✓ *mallarda və onların ehtiyat hissələrində olan müxtəlifliyin aradan qaldırılmasını və onların qarşılıqlı əvəz olunmasını təmin etməklə resurslara qənaət olunması və mallara çəkilən istehsal xərclərinin azaldılması;*

---

[1] Brunsson N., Jacobsson B. A World of Standards//Oxford University Press, 2000. p. 200.

[2] Yenə orada.

[3] Caffagi F., Muir Watt H. The regulatory Function of European Private Law// electron resurs// URL://bookre.org/reader?file=1174040andpg=11

- ✓ *istehlakçıların mallara (xidmətə, işə) dair tələb və gözləntilərinin müvafiq mallarda öz əksini tapmasına, eləcə də istehlakçılarda malların (işlərin, xidmətlərin) keyfiyyətinə dair etibarın formalaşdırılmasına və malın (xidmətin, işin) keyfiyyəti haqqında dəqiq informasiya əldə etməsinə dəstək göstərilməsi, malın (xidmətin, işin) təhlükəsizliyinə və keyfiyyətinə dair istehlakçılara yanlış məlumatların verilməsinin qarşısının alınması;*
- ✓ *dövlət standartlarının beynəlxalq standartlara uyğunlaşdırılması və regional və beynəlxalq standartlaşdırmada milli iqtisadiyyatın maraqlarının nəzərə alınması;*
- ✓ *innovasiyaların səmərəli tətbiqinin və yüksək texnologiyalı malların istehsalının dəstəklənməsi;*
- ✓ *təbii ehtiyatlardan və enerji resurslarından səmərəli istifadənin təmin edilməsi;*
- ✓ *satınalmalar zamanı dövlətin maraqlarının qorunması.*

"Standartlaşdırma haqqında" AR Qanununun 4-cü maddəsinin 2-ci hissəsinə müvafiq olaraq standartlaşdırmanın aşağıdakı prinsipləri müəyyən edilir:

- ✓ *bütün maraqlı tərəflərin standartlaşdırma prosesində bərabər şərtlər əsasında könüllü iştirakı;*
- ✓ *standartlaşdırma üzrə normativ sənədlərin maraqlı tərəflərin konsensusu əsasında hazırlanması və qəbul edilməsi;*
- ✓ *standartlaşdırmanın şəffaflığı;*
- ✓ *dövlət standartlarının hazırlanmasında beynəlxalq və regional standartlardan istifadə edilməsi və onların həmin standartlara uyğunlaşdırılması;*
- ✓ *standartlaşdırma üzrə normativ sənədlərin hazırlanmasında elm və texnikanın nailiyyətlərinin, bilik, qabaqcıl təcrübə və texnologiyaların tətbiqi;*
- ✓ *standartlaşdırma üzrə normativ sənədlərin bir-birinə ziddiyyət təşkil etməməsi;*

- ✓ *standartlaşdırmanın sistemliliyinin və kompleksliliyinin təmin edilməsi;*
- ✓ *insanların həyat və ya sağlamlığına, ətraf mühitə, əmlaka və dövlətin maraqlarına zərər vuracaq standartlaşdırma üzrə normativ sənədlərin hazırlanmasının qarşısının alınması;*
- ✓ *istehlakçıların gözləntilərinin və bazarın tələblərinin nəzərə alınması;*
- ✓ *istehsalçıların və istehlakçıların ehtiyaclarının ödənilməsi;*
- ✓ *şəxsi maraqların ümumi maraqlardan üstün tutulmasının qarşısının alınması;*
- ✓ *standartlaşdırma üzrə normativ sənədlərin Azərbaycan Respublikasının texniki reqlamentlərinə uyğunluğu;*
- ✓ *standartların könüllü xarakter daşıması.*

**Standartlaşdırmanın subyektləri qismində aşağıdakılar çıxış edir:**

- ➢ *milli standartlaşdırma qurumu;*
- ➢ *standartlaşdırma üzrə texniki komitələr;*
- ➢ *standartlaşdırma fəaliyyəti ilə məşğul olan digər subyektlər (dövlət orqanları (qurumları), hüquqi və fiziki şəxslər).*

"Standartlaşdırma haqqında" AR Qanununun 1.0.18.-ci maddəsinə görə **milli standartlaşdırma qurumu** - standartlaşdırma sahəsində dövlət siyasətindən irəli gələn işləri həyata keçirən, standartlaşdırma üzrə işlərin əlaqələndirilməsini təmin edən və standartlaşdırma üzrə beynəlxalq və regional təşkilatlarda Azərbaycan Respublikasının maraqlarını təmsil edən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandır (qurumdur). Standartlaşdırma haqqında Azərbaycan Respublikasının 2019-cu il 17 may tarixli 1587-VQ nömrəli Qanununun tətbiqi barədə Azərbaycan Respublikasının Prezidentinin 12 iyul 2019-cu il tarixli 780 nömrəli Fərmanının 2.3.-cü bəndinə əsasən, "orqan (qurum)" dedikdə "Azərbaycan Standartlaşdırma İnstitutu" publik hüquqi şəxs nəzərdə tutulur.

"Standartlaşdırma haqqında" Azərbaycan Respublikası Qanu-

nunun 1.0.9.-cu maddəsinə əsasən, **texniki komitə** - standartlaşdırma üzrə normativ sənədlərin hazırlanması məqsədi ilə maraqlı tərəflərin iştirakı ilə yaradılan məşvərətçi qurumdur. Dövlət standartlarının hazırlanması işlərinin planlaşdırılması milli standartlaşdırma qurumu tərəfindən formalaşdırılan, təsdiq edilən və nəşr edilən 3 illik milli standartlaşdırma proqramı əsasında həyata keçirilir. Proqramda dövlət standartlarının müəyyənləşdirilməsi, qəbul edilməsi, onların siyahısının dərc edilməsi və müntəzəm olaraq yenilənməsi üçün milli standartlaşdırma qurumu, müvafiq sahədə dövlət orqanları (qurumları) və standartlaşdırma üzrə texniki komitələr tərəfindən görüləcək tədbirlər əks olunur. Standartlaşdırma üzrə milli proqram standartlaşdırma ilə əlaqəli olan texniki reqlamentlərin və digər normativ hüquqi aktların tələbləri, standartlaşdırma üzrə texniki komitələrin iş planları nəzərə alınmaqla hazırlanır.

Standartlaşdırma fəaliyyətinin məqsədlərinə nail olmaq üçün əsaslı iqlim, coğrafi və ya texnoloji amillər səbəbindən uyğun gəlmədiyi hallarda, müvafiq beynəlxalq, dövlətlərarası və regional standartlar və ya onların müvafiq hissələri dövlət standartının hazırlanması üçün texniki komitələr tərəfindən təhlil və istifadə mənbəyi kimi götürülməyə bilər. Dövlət standartının ilkin layihəsini dövlət orqanları (qurumları), hüquqi və ya fiziki şəxslər hazırlaya və müvafiq texniki komitəyə təqdim edə bilər.

Dövlət standartlarının işlənilib hazırlanması prosedurları standartlaşdırma üzrə texniki komitələr vasitəsilə həyata keçirilir. Milli standartlaşdırma qurumu, səlahiyyətinə standartlaşdırma obyektləri daxil olan dövlət orqanları (qurumları) və standartlaşdırma üzrə texniki komitələr hər il standartlaşdırma üzrə normativ sənədlərin yoxlanılmasını həyata keçirməlidirlər.

“Standartlaşdırma haqqında” AR Qanununun 16-cı maddəsinə görə standartlaşdırma üzrə texniki komitələr dövlət, beynəlxalq, regional, dövlətlərarası standartların hazırlanmasında maraqlı tərəflərin iştirakını təmin etmək məqsədi ilə təsis edilir.

Texniki komitələr hüquqi şəxs deyil və könüllülük, tərəflərin bərabər iştirakı, standartlaşdırmanın məqsədləri və prinsiplərinə riayət olunması, komitə haqqında məlumatın açıqlığı və əlçatanlığı prinsipləri əsasında formalaşdırılır. Texniki komitələr dövlət orqanlarının (qurumlarının), fiziki və hüquqi şəxslərin təşəbbüsü və müvafiq müraciəti əsasında milli standartlaşdırma qurumu tərəfindən təsis edilir, qeydiyyata alınır və fəaliyyətləri əlaqələndirilir.

Texniki komitənin formalaşdırılması ilə bağlı məlumat ictimaiyyətə açıq olmalıdır. Standartlaşdırma üzrə texniki komitələr dövlət standartlarının vaxtında işlənilib hazırlanmasını təmin etməlidirlər. [1]

Avropa İttifaqında standartlaşdırma prosesi fərqlidir. Əsas fərqli cəhət ondan ibarətdir ki, Avropa İttifaqının strukturunun xüsusiyyətindən asılı olaraq standartlaşdırma sahəsində tənzimləmənin iki səviyyəli modeli tətbiq olunur: Avropa İttifaqı ölkələrinin reqlamentləri, standartları, qaydaları və digər normativ-hüquqi aktları Avropa İttifaqların reqlametlərinə zidd olmamalıdır. Avropa İttifaqında standartlaşdırma üzrə üç orqan tərəfindən standartlar qəbul olunur: Standartlaşdırma üzrə Avropa Komitəsi, Elektrotexniki standartlaşdırma üzrə Avropa Komitəsi, Telekomunikasıya standartları üzrə Avropa İnstitutu.[2]

Avropa İttifaqının standartları “Avropa standartlaşdırma haqqında” A1025/2012 saylı reqlamentində təsbit olunduğu kimi, könüllü xarakter daşıyır. Lakin düzünə göstəriş olduğu halda məcburi xarakter daşıyır. Hətta qeyd olunur ki, Avropa İttifaqına üzv olan dövlətlərin standartları ümumavropa standartlarına zidd olmamalıdır.

Avropa İttifaqında standartlaşdırmanın digər fərqləndirici bir xüsusiyyəti ondan ibarətdir ki, standartlaşdırma üzrə Avropa Komitəsi və Beynəlxalq Standartlaşdırma Təşkilatı, onlar tərə-

---

[1] http://azstand.gov.az/az/static/13

[2] URL: https://europa.eu/youreurope/business/product/standardisation-in-europe/index_en.htm

findən qəbul edilən standartların təkrarlanması hallarının aradan qaldırılmasına yönələn saziş bağlanılmışdır.[1] Bu səbəbdən də bu gün tətbiq olunan avropa standartlarının əksəriyyətini məhz Beynəlxalq Standartlaşdırma Təşkilatı (İSO) tərəfindən qəbul olunan standartlar təşkil edir. Standartlaşdırma məsələləri ilə məşğul olan beynəlxalq təşkilatlar içərisində ən iri təşkilat İSO adlanır. Bu təşkilat tərəfindən standartlaşdırma sahəsində əsas terminləri işlənib hazırlamış və qəbul edilmişdir.[2]

Azərbaycan Respublikasında mallar, onlarla əlaqəli proseslər və istehsal metodları üzrə texniki tənzimləmənin hüquqi əsaslarını, məqsəd və prinsiplərini və tətbiqi qaydaları "Texniki tənzimləmə" haqqında Azərbaycan Respublikasının 30 sentyabr 2019-cu il tarixli 1669-VQ nömrəli Qanunu ilə tənzim olunur. Qanunun 1-ci maddəsinə əsasən, **texniki tənzimləmə** – mallara, onlarla əlaqəli proseslərə və istehsal metodlarına dair məcburi tələblərin müəyyən olunması, qəbulu və tətbiqi, habelə uyğunluğun qiymətləndirilməsi ilə əlaqədar münasibətlərin hüquqi tənzimlənməsidir.

Texniki tənzimləmənin **məqsədlərinə** aşağıdakılar aiddir:

- ✓ *insanların həyat və sağlamlığının, ətraf mühitin, əmlakın və dövlətin maraqlarının mühafizəsinin təmin edilməsi;*
- ✓ *istehlakçıların hüquqlarının və qanuni maraqlarının müdafiəsi;*
- ✓ *ticarətdə texniki maneələrin aradan qaldırılması;*
- ✓ *malların rəqabət qabiliyyətliyinin artırılması;*
- ✓ *təbii ehtiyatlardan və enerji resurslarından səmərəli istifadənin təmin edilməsi.*

---

[1] URL: http://docs.cntd.ru/document/1200054151

[2] İSO təşkilatı 1926-cı ildə Praqa şəhərində yaradılmışdır. Bu beynəlxalq assosiasiyaya o vaxt standartlaşdırma üzrə 20 dövlət daxil idi. İkinci dünya müharibəsi dövrü İSO öz fəaliyyətini dayandırdı. O zaman bu təşkilat İSA adlanırdı. Müharibədən sonra 14 oktyabr 1946-cı ildə **Londonda** faktiki olaraq yeni İSO təşkilatı yarandı. Həmin gün «Beynəlxalq standartlaşdırma günü» adlanır. Burada həmin təşkilatın nizamnaməsi (konstitusiyası) və embleması qəbul olundu.

Malların, onlarla əlaqəli proseslərin və istehsal metodlarının müvafiq texniki reqlamentin tələblərinə uyğunluğunun müəyyən edilməsi prosesi **uyğunluğun qiymətləndirilməsi adlanır.** Texniki reqlamentlərin tələblərinə uyğunluğun qiymətləndirilməsi aşağıdakı üsullarla təmin olunur:

❖ sertifikatlaşdırma;

❖ uyğunluq bəyannaməsinin tərtibi.

**Texniki reqlament dedikdə,** mallara, onlarla əlaqəli proseslərə və istehsal metodlarına dair məcburi tələbləri müəyyən edən texniki-normativ hüquqi akt başa düşülür. Yalnız yüksək riskli mallar məcburi sertifikatlaşdırılır. Yüksək riskli malların sertifikatlaşdırılması təsərrüfat subyektinin sərbəst seçdiyi akkreditasiya olunmuş uyğunluğu qiymətləndirən quruma müraciəti əsasında həyata keçirilir və sertifikatlaşdırmanın müsbət nəticələri əsasında uyğunluq sertifikatı verilir. Orta və aşağı riskli malların uyğunluğunun qiymətləndirilməsi təsərrüfat subyekti tərəfindən qanunvericiliyə uyğun olaraq həmin malın uyğunluq bəyannaməsinin tərtibini nəzərdə tutur.

Uyğunluğu qiymətləndirən qurumlar hər bir uyğunluğun qiymətləndirilməsi fəaliyyətinin nəticələri, uyğunluq sertifikatının qüvvəsinin dayandırılması və ya ləğv edilməsi barədə həmin gün **Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə** məlumat verməlidirlər**. Uyğunluq sertifikatı** – malların, onlarla əlaqəli proseslərin və istehsal metodlarının texniki reqlamentin tələblərinə uyğunluğunu təsdiq edən müəyyən formalı sənəddir.

Təsərrüfat subyekti uyğunluğun qiymətləndirilməsi ilə bağlı texniki sənədləri, uyğunluq sertifikatını və ya uyğunluq bəyannaməsini müvafiq texniki reqlamentdə malın saxlanma müddəti və risk səviyyəsi əsasında müəyyən edilmiş müddət ərzində saxlamalıdır.

Malın texniki reqlamentdə nəzərdə tutulmuş üsulla uyğunluğunun qiymətləndirilməsi təmin olunduğu halda, uyğunluğu təsdiq etmək məqsədi ilə təsərrüfat subyekti tərəfindən malın üzəri-

nə uyğunluq nişanı vurulur. **Uyğunluq nişanı** – malın, onunla əlaqəli proseslərin və istehsal metodlarının texniki reqlamentdə müəyyən edilmiş tələblərə uyğunluğunu göstərən nişandır. Texniki reqlamentin tələblərinə uyğunluğu qiymətləndirilməmiş mala uyğunluq nişanı vurula bilməz. Uyğunluq nişanının verilməsi və ondan istifadə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 17 iyul tarixli 216 nömrəli Qərarı ilə təsdiq edilmiş "**Uyğunluq nişanının forması, uyğunluq nişanından istifadə və verilməsi Qaydaları**" ilə müəyyən olunur.

## 8.2. Standartın anlayışı və növləri

Standartın anlayışı standartlaşdırma haqqında qanunvericiliyin təhlilindən çıxış edərək qeyd etmək lazımdır ki, standartlara münasibətdə könüllülük prinsipi tətbiq edilir (qanunvericilikdə müəyyən hallar istisna olmaqla), texniki tənzimləmədə isə icrası məcburidir.

"Standartlaşdırma haqqında" AR Qanununun 1.0.2-ci maddəsinə əsasən isə standart - təkrar və ümumi istifadə üçün nəzərdə tutulan mala (işə, xidmətə), onunla əlaqədar prosesə (o cümlədən idarəetmə sisteminə) və istehsal metodlarına dair norma, qayda və tövsiyələri müəyyən edən, tətbiqi könüllü olan normativ sənəddir.

Ümumiyyətlə "standart" termini çoxmənalıdır. Azərbaycan dilinin izahlı lüğətində standart – digər obyektlərlə müqayisə üçün əsas kimi qəbul edilən nümunə, etalon, modeldir.[1] Hüquq ensiklopedik lüğətdə standarta aşağıdakı kimi anlayış verilir: standart – standartlaşdırma obyektinə kompleks tələbləri, qaydaları müəyyən edən normativ-texniki sənəddir.[2]

---

[1] Axundov A. Azərbaycan dilinin izahlı lüğəti. Bakı, "Elm" nəşriyyatı, 2005. Səh: 267-268.

[2] Юридический энциклопедический словарь // сост. У.А. Янин, В.А. Захагнина – М. АСТ, Владимир: ВКТ 2010. с. 235.

Əgər diqqət yetirsək görərik ki, birinci halda standart model qismində çıxış edir, ikinci halda isə normativ sənəddir. Göründüyü kimi, bu terminin müxtəlif şərh üsulları mövcuddur.

Məhsul müəyyən prosesin nəticəsidir. Bir çox məhsul bir neçə kateqoriyaya aid olan elementlərin mövcudluğu ilə səciyyələnir. Bu halda məhsulun xidmət, proqram vasitələri, texniki vasitələr və ya emal olunmuş mallara aid edilməsi onun xüsusiyyətləri arasında üstünlük təşkil edən elementlə şərtləndirilir. Proses isə xammalı (giriş parametrlərini) hazır məhsula (çıxış parametrlərinə) çevirən qarşılıqlı əlaqəsi və ya bağlantısı olan fəaliyyətlər kompleksidir. Xidmət - xarakteri, bir qayda olaraq, qeyri-maddi olmaqla, təchizatçı ilə müştəri arasındakı münasibətlər çərçivəsində həyata keçirilən ən azı bir fəaliyyətin nəticəsidir.[1]

Qanunda təsbit olunan standartın anlayışın nəzərdən keçirdikdə onun aşağıdakı tərkib elementlərini müəyyən etmək olar:

- standart – standartlaşdırma üzrə işlərin iştirakçıları tərəfindən işlənilib hazırlanır;
- ekspertiza nəticəsidir;
- standartlaşdırma sahəsində səlahiyyətli orqan tərəfindən təsdiq olunur.
- standartlaşdırma obyektinin ümumi xüsusiyyətlərini müəyyən edir.

A.A. Sergeyev hesab edir ki, standart, onda ehtiva olunan tələblərin tətbiqin zamanı hüquqi nəticələrin yarandığı halda, hüququn mənbəyidir. Dövlətdən irəli gələn standartlaşdırma sahəsində, sənədlər normativ-hüquqi aktlar formasında ifadə olunur. Ayrı-ayrı təşkilatların sənədləri isə lokal normativ aktlardır.[2]

---

[1] http://azstand.gov.az/upload/files/AZS%20ISO%20IEC%2017020-2020(1).pdf

[2] Сергеев А.А. Актуальные проблемы идентификации источников российского права // Доступ из справ.-правовой системы «КонсультантПлюс».

Materialların Sınağı üzrə Amerika Cəmiyyəti (ASTM) standartı - cəmiyyətin nizamnaməsinə və prosedur tələblərinə uyğun olan və təşkilatın konsensus prinsipinə müvafiq olaraq işlənib-hazırlanmış və təsdiq olunmuş sənəd kimi müəyyən edir.[1]

Standartlaşdırma üzrə Avropa Komitəsi isə standartı – müəyyən xidmətlərin, proseslərin, məhsulların, materialların istehsalçıları, sahibkarları daxil olmaqla bütün maraqlı tərəflərin konsensus nəticəsində qəbul edilən qaydaları istifadə edən texniki nəşrdir.[2] Diqqət yetirsək bu anlayış Britaniya qanunvericiliyində göstərilən anlayışla oxşardır.

Maraq doğuran Avstraliyada standarta verilən anlayışdır: standart-sistemə, məhsula və xidmətə uyğunluğunun zəmanəti üçün sertifikasiya prosedurlarını təsbit edən nəşr olunmuş sənəddir. Bu sənəd təhlükəsizliyin və kəmiyyətin kriteriyalarını müəyyən etmək üçün ümumi dili təsbit edir.[3] Hətta, bəzi ölkələrin qanunvericiliyində standartların qeyri-məcburi xarakter daşıması da təsbit olunub.[4]

Qeyd etmək lazımdır ki, BMT-nin Baş Assambleyasının "İstehlakçıların maraqlarının müdafiəsi haqqında" 22 dekabr 2015-ci il tarixli 70/186 nömrəli Qətnaməsində istehlakçıların maraqlarının müdafiəsi üçün BMT-nin rəhbər prinsipləri təsbit olunmuşdur.[5] Bildiyimiz kimi, BMT-nin Baş Assambleyasının Qətnamələri tövsiyə xarakteri daşıyır, lakin onun məzmununda təsbit olunan müddəalara dünya ictimaiyyəti tərəfindən laqeyd ya-

---

[1] www.astm.org/ABOUT/faqs.html

[2] www.bsigroup/com/en/ standard-and Publications /About – is-a-standard/ What-is-a-standard

[3] www.standards/org/an/ Standards Development/What-is-a-standard/Pages/default/aspx

[4] Вах: Закон Малайзии о стандартах. 1996. Maddə 549.

[5] https://documents-dds-ny.un.org/doc/UNDOC/GEN/N15/449/13/PDF/ N1544913.pdf?OpenElement

naşıla bilməz.[1] Adı çəkilən Qətnamənin 2-ci maddəsində istehlakçıların hüquqularının və maraqlarının müdafiəsinə yönəlmiş özəl sektorun qeyd olunan standartları və tövsiyələri sırasında istehlakçıların maraqlarının müdafiəsinə yönələn siyasətin zəruri elemetləri sadalanır.

Beynəlxalq Standartlaşdırma Təşkilatının və Beynəlxalq Elektrotexniki Komissiyanın 2004-cü il tarixli Təlimatına əsasən, standart – müxtəlif növ fəaliyyətə və onun nəticələrinə aid olan ümumi və təkrar istifadə üçün qaydaları, ümumi prinsipləri və xüsusiyyətləri özündə təsbit edən, konsensus əsasında hazırlanmış və tanınmış bir qurum tərəfindən təsdiq olunan və müəyyən sahədə optimal dərəcədə qaydaya salınmasına nail olmasına yönələn sənəddir.[2] Həmçinin Beynəlxalq Telekommunikasiya İttifaqının Nizamnamə və Konsepsiyasına əsasən qeyd olunur ki, standartlar elmin, texnikanın və təcrübənin ümumiləşdirilmiş nəticələrinə əsaslanmalı və cəmiyyət üçün optimal qaydanın nail olmasına yönəlməlidir.[3]

Ümumdünya Ticarət Təşkilatı 2005-ci ilin Məruzəsində "standart"ın iqtisadi və hüquqi anlayışları fərqləndirilir.[4] Qeyd etmək lazımdır ki, iqtisadi nəzəriyyədə publik və xüsusi standartların fərqli cəhəti bu standartların müəyyən edilməsi zamanı kimin maraqlarının nəzərə alınmasından ibarətdir. İqtisadi və hüquqi ədəbiyyatlarda standartın məzmununun əhəmiyyəti və təbiəti müxtəlif baxışlardan çıxış edərək nəzərdən keçirilir. Belə ki, publik standartlar bütün iştirakçıların maraqları nəzərə alınmaqla qəbul edildiyi halda, xüsusi standartlar isə ayrı-ayrı təşki-

---

[1] Международное публичное право: учебник для бакалавров / отв. ред. К.А. Бекяшев. 5-е изд., перераб. и доп. Москва: Проспект, 2013. с. 422-423; Право международных организаций: учебник/ Под ред. И.П. Блищенко, А.Х. Абашидзе. М.: РУДН, 2013. с. 217.

[2] http://www.iso.org/iso/iso_iec_guide_2_2004.pdf

[3] http://www.itu.int/dms_pub?itu-s/opb/conf/S-CONF-PLEN-2015-PDF-R.pdf

[4] World Trade Raport 2005// URL.:https://www.wto.org/english/res_e/anrep_e/wtr 05-2b_e.pdf.

latların maraqları nəzərə alınmaqla qəbul edilir.

Beləliklə, xarici ölkələr və Avropa İttifaqının standart anlayışına yanaşmaları demək olar ki, oxşardır. Hər bir halda standartı "sənəd" olaraq nəzərdən keçirilir, sadəcə olaraq, standart anlayışının məzmununda bəzi halda onun könüllü xarakter daşıması, bəzi hallarda isə konsensus nəticəsində qəbul edilməsinə dair birbaşa göstərişin olması müəyyən olunur.

Standartlaşdırma haqqında qanunvericilikdə standartların aşağıdakı növləri təsbit olunub:

- ❖ **dövlət standartı;**
- ❖ **regional standart;**
- ❖ **beynəlxalq standart.**

"Standartlaşdırma haqqında" AR Qanununun 1.0.5.-ci maddəsinə əsasən, **dövlət standartı** - milli standartlaşdırma qurumu tərəfindən qəbul edilən standartdır. Dövlət standartları "AZS" nişanı ilə nişanlanır.

Azərbaycan Respublikasının dövlət standartlarında aşağıdakılar müəyyən edilə bilər:

- ✓ *texniki reqlamentlərlə müəyyən edilmiş tələblərə əməl edilməsini təmin etmək məqsədi ilə standartlaşdırma obyektləri üzrə zəruri tələblər;*
- ✓ *malın (xidmətin, işin), onunla əlaqəli prosesin (o cümlədən idarəetmə sisteminin), istehsal metodunun təsnifatlaşdırılmasına dair tələblər;*
- ✓ *malın unifikasiya, uyğunluq və qarşılıqlı əvəzolunma göstəriciləri;*
- ✓ *termin və təriflər;*
- ✓ *istehlak xassələri və malın (xidmətin, işin), onunla əlaqəli prosesin (o cümlədən idarəetmə sisteminin), istehsal metodunun keyfiyyət səviyyəsini müəyyən edən funksional təyinatlı göstəriciləri (xarakteristikaları da daxil olmaqla);*
- ✓ *qəbul, qablaşdırılma, markalanma, daşınma, saxlanma, utilizasiya və məhvetmə qaydaları;*

- ✓ *sınaq üsulları və qaydaları;*
- ✓ *bütün növ resursların qənaət olunmasına və resurslardan səmərəli istifadə edilməsinə dair tələblər;*
- ✓ *idarəetmə sistemləri və onların tətbiqinə dair tələblər;*
- ✓ *müəyyən fəaliyyət sahəsi üzrə təşkilati-metodiki xarakterli müddəalar, eləcə də ümumi texniki norma və qaydalar.*

Azərbaycan Respublikasının dövlət standartları qanunvericiliyin tələbləri, beynəlxalq, dövlətlərarası və regional standartlar və standartlaşdırma obyektlərinə olan tələbləri müəyyənləşdirən digər normativ sənədlər, elmi tədqiqatların (sınaqların) və ölçmələrin nəticələri nəzərə alınmaqla hazırlanmalıdır. Dövlət standartının ilkin layihəsini dövlət orqanları (qurumları), hüquqi və ya fiziki şəxslər hazırlaya və müvafiq texniki komitəyə təqdim edə bilər. Dövlət standartının layihəsini hazırlayan subyektlər onun qəbul edilməsinin zəruriliyini əsaslandırmalıdırlar.

Dövlət standartlarının işlənilib hazırlanması prosedurları standartlaşdırma üzrə texniki komitələr vasitəsilə həyata keçirilir. Texniki komitədə dövlət standartları **konsensus** əsasında qəbul olunmalıdır. "Standartlaşdırma haqqında" AR Qanununun 1.0.19.-cu maddəsinə əsasən, **konsensus** - maraqlı tərəflərin əksəriyyətinin əhəmiyyətli məsələlər üzrə ciddi etirazının olmaması ilə xarakterizə edilən və bütün tərəflərin fikirlərinin nəzərə alınmasına və fərqli baxışların uzlaşdırılmasına yönəldilmiş prosedur nəticəsində əldə olunan ümumi razılıqdır. Bütün maraqlı tərəflərin layihə üzrə razılığı əldə edildikdən və nəzərə alınmamış rəylərlə əlaqədar rəy müəlliflərinə məlumat verildikdən sonra müvafiq texniki komitə dövlət standartını qəbul edilməsi üçün milli standartlaşdırma qurumuna təqdim etməlidir.

Milli standartlaşdırma qurumu "Standartlaşdırma haqqında" AR Qanununun tələblərinə uyğunluğu baxımından layihənin ekspertizasını aparır və uyğun olduğu halda hazırlanmış dövlət standartını qəbul edir və dövlət reyestrinə daxil edir. Dövlət reyestrinə daxil edilmiş dövlət standartı, eyni zamanda standartlaşdırma üzrə dövlət fonduna daxil edilir. Dövlət standartının

qüvvəyə minmə tarixi dövlət standartında göstərilir. Qəbul edilmiş dövlət standartları rəsmi nəşr edilir.

Aşağıdakı hallarda dövlət standartlarının qüvvədən düşməsi barədə milli standartlaşdırma qurumu tərəfindən qərar qəbul edilir:

- *eyni məsələ ilə bağlı yeni dövlət standartının qəbulu və qüvvəyə minməsi;*
- *qüvvəyə minən texniki reqlamentlərin tələblərinə zidd olması;*
- *aparılmış yoxlamanın nəticələrinə əsasən.*

"Standartlaşdırma haqqında" AR Qanununun 1.0.6.-cı maddəsinə görə **ilkin dövlət standartı** - tətbiqi müvəqqəti olan istifadəsi zamanı lazımi təcrübənin əldə olunması üçün nəzərdə tutulan standartlaşdırma üzrə normativ sənəddir. İlkin dövlət standartları innovasiyalı yeni mal (iş, xidmət), onunla əlaqəli proses (o cümlədən idarəetmə sistemi), istehsal metodu üçün hazırlanır. İlkin dövlət standartlarında göstərilən tələblər texniki reqlamentlərin və standartların tələblərinə zidd olmamalıdır.

"Standartlaşdırma haqqında" AR Qanununun 8.3.-cü maddəsinə müvafiq olaraq, **ilkin dövlət standartları** elmi tədqiqatların (sınaqların) və ölçmələrin nəticələri və innovasiyalı yeni növ malın (işin, xidmətin), onunla əlaqəli prosesin (o cümlədən idarəetmə sisteminin), istehsal metodunun tətbiqi ilə əldə edilən praktik təcrübələrin əsasında hazırlanır. İlkin dövlət standartlarının işlənilib hazırlanması standartlaşdırma sisteminin subyektlərinin təşəbbüsü ilə həyata keçirilir. İlkin dövlət standartlarını dövlət orqanları (qurumları), hüquqi və ya fiziki şəxslər hazırlaya və aidiyyəti texniki komitəyə göndərə bilərlər. İlkin dövlət standartı layihəsini hazırlayan subyektlər onun qəbul edilməsinin zəruriliyini əsaslandırmalıdırlar. İlkin dövlət standartlarının layihələrinin qəbul edilməsi üçün baxılması sahə üzrə texniki komitələrin çərçivəsində həyata keçirilir. İlkin dövlət standartları 2 (iki) il müddətinədək qəbul olunur və qüvvədəndüşmə müddətinə ən azı 3 (üç) ay qalmış aidiyyəti standartlaşdırma üzrə texniki komitə onun dövlət standartı kimi qəbulu məqsədi ilə yoxlanılma-

sını və onun tətbiqinin qiymətləndirilməsini təşkil edir.

"Standartlaşdırma haqqında" AR Qanununun 1.0.8.-ci maddəsinə müvafiq olaraq, **istinad edilmiş standart** - texniki reqlamentdə müəyyən edilmiş əsas tələblərin həyata keçirilməsi və texniki reqlamentin tətbiqi məqsədilə hazırlanmış standart;

"Standartlaşdırma haqqında" AR Qanununun 1.0.4.-cü maddəsinə əsasən, **regional standart** - standartlaşdırma üzrə regional təşkilatlar tərəfindən qəbul olunmuş standartdır. Qeyd etmək lazımdır ki, qanunverici dövlət standartlarının hazırlanmasında regional standartlardan istifadə edilməsi və onların həmin standartlara uyğunlaşdırılmasını standartlaşdırmanın əsas prinsiplərindən biri kimi təsbit edir. Dövlət standartları qanunvericiliyin tələbləri, beynəlxalq, dövlətlərarası standartlar və standartlaşdırma obyektlərinə olan tələbləri müəyyənləşdirən digər normativ sənədlər, elmi tədqiqatların (sınaqların) və ölçmələrin nəticələri ilə yanaşı regional standartları da nəzərə alınmaqla hazırlanmalıdır. Regional standartlaşdırma təşkilatlarında üzvlük haqqı, o cümlədən Azərbaycan Respublikasında təsis edilən texniki komitələr tərəfindən regional standartların layihələrinin hazırlanması və onların ekspertizalarının aparılması ilə bağlı görülmüş işlərə dair xərclər dövlət büdcəsindən maliyyələşdirilir.

Regional standartlaşdırma üzrə əsas standartların işlənib hazırlanması CEN və CENELEK təşkilatlarına həvalə edilmişdir.[1]

---

[1] Avropa Standartlaşdırma Komitəsi (CEN) Avropa İttifaqı tərəfindən rəsmən qəbul edilmiş standartlaşdırma sahəsində fəaliyyət göstərən 3 əsas təşkilatdan biridir (digərləri Avropa Elektrotexniki Standartlaşdırma Komitəsi (CENELEC) və Avropa Telekommunikasiya Standarları İnstitutudur (ETSİ)). CEN-in 34 tamhüquqlu üzvü var, təşkilatın 330 Texniki Komitəsi və 1530 İşçi Qrupunun sıralarında müxtəlif ölkələrindən 200000-dən çox beynəlxalq ekspert fəaliyyət göstərir. Azərbaycan Respublikası CEN-də Nazirlər Kabinetinin 17/17/4699-22 saylı 22 oktyabr 2008-ci il tarixli tapşırığına uyğun olaraq 2011-ci ildən assosiativ üzv statusunda təmsil olunur. Azərbaycan Standartlaşdırma İnstitutu 2018-ci ilin aprel ayından etibarən CEN-də Tərəfdaş Standartlaşdırma Orqanı (Companion Standardization Body-CSB) statusunda təmsil olunur. Bu təmsilçilik Avropa standartlarına maneəsiz çıxış əldə etmək, milli standartları Avropa standartları ilə harmonizasiya etmək, eləcə də yerli mütəxəssislərin təşkilatın istənilən texniki komitəsinin işində müşahidəçi statusunda iştirak etmək imkanı verir. http://azstand.gov.az/az/static/32

**Beynəlxalq standartlar.** Beynəlxalq səviyyədə beynəlxalq standartların tənzimlənməsinin xüsusiyyətlərinin düzgün başa düşülməsi üçün standartlaşdırmaya və standarta münasibətdə dövlətdaxili normaların və təcrübənin təhlil edilməsi daha məqsədəmüvafiq olardı.

"Standartlaşdırma haqqında" AR Qanununun 1.0.3-cü maddəsinə əsasən**, beynəlxalq standart** - standartlaşdırma üzrə beynəlxalq təşkilatlar tərəfindən qəbul olunmuş standartdır. Standartlaşdırma sahəsində sənədlərdə nəzərdə tutulan tələblər beynəlxalq standartlara uyğun olmalı, elm, texnika və texnologiyanın müasir nailiyyətlərinə əsaslanmalı, malın (xidmətin, işin), prosesin, istehsal metodunun şərtlərini nəzərə almalı, habelə Azərbaycan Respublikasının normativ hüquqi aktlarının tələblərini pozmamalıdır. Uyğunluğun könüllü qiymətləndirilməsi uyğunluğu qiymətləndirən qurumlar tərəfindən akkreditasiya tələblərinə, milli standartlaşdırma qurumu tərəfindən qəbul edilmiş normativ sənədlərə və müvafiq beynəlxalq standartların tələblərinə əsasən aparılır.

Göstərilən fikirlər belə nəticəyə gəlməyə imkan verir ki, beynəlxalq hüququ çərçivəsində beynəlxalq standatların anlayışı və mahiyyəti bir mənalı başa düşülmür. Beynəlxalq münasibətlərin ayrı-ayrı sahələrində "beynəlxalq standart" anlayışı konkret sahə üçün xas olan spesefik xüsusiyyətləri əldə edir. Qeyd etmək lazımdır ki, qloballaşma - dövlətlərin və təşkilatların beynəlxalq standartlardan istifadə edilməsinə imkan verir. Heç də bütün mövcud olan və ya hazırlanan beynəlxalq standartlar hüquqi qüvvəsinə görə məcburi xarakterə malik deyil.

## 8.3. İstehlakçıların hüquqlarının və qanuni mənafelərinin müdafiəsi

İstehlakçıların hüquqlarının müdafiəsi sahəsində yaranan münasibətlər "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" 19 sentyabr 1995-ci il tarixli 1113 nömrəli Azərbaycan Respub-

likasının Qanunu ilə tənzim olunur.[1] Adı çəkilən Qanunda istehlakçı, istehsalçı, icraçı və satıcı əsas subyektlər kimi çıxış edir. Bu subyektlər sırasında "istehlakçı" əsas və mərkəzi yer tutur. Belə bir sual yaranır ki, istehlakçı kimdir?

"İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" AR Qanununun 1-ci maddəsinə əsasən, istehlakçı malları alan xidmətdən istifadə edən işlər gördürən şəxsdir. Şəxsi tələbatını ödəmək məqsədi ilə mal iş və xidmətlərdən istifadə edən, onları alan, sifariş verən, yaxud almaq və ya sifariş vermək niyyəti olan şəxsdir.

Yüz ildən çox əvvəl yaradılan və V.İ. Dalın müəllifi olduğu izahlı lüğətdə isə istehlakçı "nə isə istehlak edən" kimi izah olunur. Həmçinin lüğətdə istehlakçılar istehsalçıları qarşı-qarşıya qoyulur.[2] Sovet dönəmində isə "istehlakçı" anlayışı təhqiramiz mənaya malik idi. Belə ki, bu anlayışı gündəlik həyatda mənfi səslənən "meşşan" (meşşanlıq) sözlərinə bərabər tutulurdu. Bu səbəbdən də hüquqi məlumat kitablarında, hüquq lüğətlərində, ensiklopediyalarda "istehlakçı" termininə rast gəlinmir.[3] Bu ifadə başqa ifadə ilə əvəz edilirdi: vətəndaşlar, vətəndaşlar-alıcılar, alıcılar.[4]

Azərbaycan dilində nəşr olunmuş "Hüquq ensiklopediyası"nda istehlakçıya verilən anlayış "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" AR Qanununun 1-ci maddəsində təsbit olunan anlayışla eynilik təşkil edir.[5] Azərbaycan dilində nəşr olu-

---

[1] Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1995, №23-24, maddə 368

[2] Владимир Даль. Толковый словарь живого великорусского языка. Т.1-4. Т. 3; П-Р. М. А\о издательская группа «Прогресс» «Универс», 1994. Səh. 935.

[3] Краткий юридический справочник. В помощь профактиву. М. Проф. издат. 1993. 431с.; Советский энциклопедически словарь. Гл. ред. А.Я. Сухарев. М. Сов. Энциклопедия. 1984. 415 с.; Советское гражданское право. Т. 2. М. Юрид. 1976. Səh. 14-15.

[4] Yedə orada səh. 14-15.

[5] Quliyev A.İ. Hüquq ensiklopediyası. Bakı – Qanun-2007. Səh. 560.

nan iqtisadi lüğətdə isə istehlakçı – şəxsi tələbatı üçün mal və xidmət əldə edən alıcı kimi şərh olunur.[1] Hüquq terminlərinin izahlı lüğətində isə istehlakçı dedikdə, şəxsi, ailə və məişət istifadəsi üçün satış məqsədi olmadan olan şəxsdir; nəinki kommersiya məqsədləri üçün daha çox şəxsi məqsədlər üçün əmtəədən istifadə edən şəxsdir.[2] Digər lüğətdə isə istehlakçı özü, ailəsi və gündəlik istifadə üçün satış məqsədi olmayan şəxsdir, əmtəə istifadəçisidir.[3]

Diqqət yetirsək görərik ki, həm qanunverici, həm də lüğətlərdə istehlakçı "şəxs" kimi nəzərdən keçirilir. Hüquq ədəbiyyatında "şəxs" anlayışı çoxmənalıdır. Belə ki, azərbaycan dilinin izahlı lüğətində şəxs - cəmiyyətdə ayrıca adam, fərd, kimsə.[4] Lakin AR Mülki Məcəlləsindən bilirik ki, şəxs anlayışı özü-özlüyündə geniş anlayışdır: fiziki şəxs, hüquqi şəxs, publik şəxs. Bu halda hesab edirik ki, istehlakçı anlayışına münasibətdə bir qədər konkretliyə ehtiyac var.

Steven H. Gifisin müəllifi olduğu "Hüquq lüğəti"ndə istehlakçıya verilən anlayışla razılaşmaq olar. Belə ki, müəllif istehlakçını iqtisadi anlayışı kimi nəzərdən keçirərək qeyd edir ki, istehlakçı – istehsal (sahibkarlıq) fəaliyyəti üçün deyil, şəxsi istifadə üçün mallardan və xidmətlərdən yararlanan fiziki şəxsdir. Hesab olunur ki, parakəndə satışda əldə olunan əmlaka sahiblənən sonuncu şəxs məhz "istehlakçı"dır.[5] Bu mövqeyi dəstəkləyən A.V. Aqafonov təklif edir ki, Rusiya Federasiyasının "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" AR Qanununda

---

[1] Mömsümov Camid. İqtisadi lüğət. Bakı: 2011. Səh. 180.

[2] Black's Law Dictionary. Abridged Seventh Edition. Bryan A. Garner. Editor in Chief. WEST GROUP. ST. PAUL, MINN., 2000. - Səh. 253.

[3] A Handbook of Business Law Terms. BRYAN A. GARNER. Editor. St. Paul, Minnesota. WEST GROUP. - 1999. Səh. 136.

[4] Azərbaycan dilinin izahlı lüğəti. Dörd clddə. IV cild. Bakı, "Şərq-Qərb" 2006. səh. 204.

[5] Steven H. Gifis. Law Dictionary. Printed in the United States of America. Barron's Educational Series, Inc. - 1996. p.102.

müvafiq dəyişikliklərin edilməsini və istehlakçı dedikdə, sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı olmayan, yalnız şəxsi, ev, ailə və digər ehtiyaclar üçün malları (xidmətləri, işləri) əldə edən və ya istifadə edən, yaxud sifariş edən, yaxud da sifariş vermək və ya əldə etmək niyyəti olan fiziki şəxsin başa düşülməsini təklif edir.[1] Belə olan halda A.E.Şerstobitovun haqlı olaraq qeyd etdiyi kimi hüquq elmində istehlakçı əmtəə və xidmət bazarında şəxsi istehlak məqsədi ilə əşyaları əldə edən qeyri-peşəkar kimi nəzərdən keçirilməlidir.[2]

İstehlakçıların hüquqlarının müdafiəsi sahəsində iştirak edən digər subyektləri istehsalçı, satıcı və icraçıdır. "İstehlakçılarım hüquqlarının müdafiəsi haqqında" AR Qanununda təsbit olunan istehsalçının, satıcının və icraçının leqal anlayışları əsasında bu subyektləri bir-birindən fərqləndirmək olar. Belə ki, **istehsalçı** – satış üçün mal istehsal edən, **satıcı** – alqı-satqı əməliyyatlarını aparan, mal satan, **içracı** isə - iş görən, xidmət göstərən müəssisə, idarə, təşkilat və ya sahibkardır.

İstehlakçıların hüquqlarının müdafiəsi sahəsində yaranan münasibətləri göstərməklə yanaşı, bu münasibətlərin zəruri elementlərindən biri olan obyektlər barəsində qeyd edilməsi məqsədəmüvafiq olardı. Çünki **obyekt** - istehlak hüquq münasibətlərinin zəruri elementidir. Fəlsəfi kateqoriya kimi obyekt – subyektin idrak və digər fəaliyyətin nəyə yönəldilməsidir.[3]İstehlakçıların hüquqlarının müdafiəsi sahəsində bir tərəfin (istehsalçıların, satıcıların, icraçıların) fəaliyyəti malların istehsalına, onların sa-

---

[1] Агафонов А.В. Ответственность за посягательства на безопасность жизни или здоровья потребителей (историко-правовой анализ). Под ред. докт. юрид. наук. проф. С.Н. Сабанина. СПб. Издательство, «Юридический центр Пресс» 2004. Səh. 107.

[2] Шерстобитов А.Е. Гражданско-правовые вопросы охраны прав потребителей. Автореферат диссертации на соискание ученой степени д.ю.н. М., 1992. с. 18.

[3] Философский словарь // Под ред. М.М.Розенталя и П.Ф. Юдина. М.: Издательство политической литературы, 1963. 544 с. с. 399.

tışına, xidmətilərin göstərilməsinə, işlərinə görülməsinə yönəldiyi halda, digər tərəfin isə fəaliyyəti malların əldə edilməsi, xidmətlərdən və işlərdən istifadə edilməsinə yönəlmişdir. Deyilənlərə əsasən qeyd etmək lazımdır ki, istehlakçıların hüquqlarının müdafiəsi sahəsində yaranan hüquq münasibətlərinin obyekti kimi iqtisadi və iqtisadi-hüquqi ədəbiyyatlarda "istehlak" kimi adlandırılan mallar, işlər, xidmətlər çıxış edir.[1] Mal (o cümlədən xidmət, iş) bütövlükdə - satış və ya mübadilə üçün nəzərdə tutulan fəaliyyətin məhsuludur.

"İstehlakçıların hüquqularının müdafiəsi haqqında" AR Qanununda "qüsur" və "mühüm qüsur" anlayışları fərqləndirilir. "Qüsur" terminin azərbaycan dilinin izahlı lüğətində izahı-çatışmazlıq, nöqsan kimi ifadə olunur. [2] Qüsur və mühüm qüsurun əsas fərqli cəhəti ondan ibarətdir ki, qüsur istehlakçının istəyinə uyğun olaraq aradan qaldırılması mümkün olduğu halda mühüm qüsurun aradan qaldırılması mümkün deyildir və yaxud aradan qaldırılsa da yenidən üzə çıxar və ya bu qüsurun aradan qaldırılması üçün çoxlu əmək, vaxt və xərc tələb olunur. İstehlakçıların hüquqlarının müdafiəsi haqqında qanunvericiliyin vəzifələrinə aiddir: malın satışı, xidmətin göstərilməsi, işlərin yerinə yetirilməsi zamanı istehlakçılar ilə istehsalçılar, icraçılar və satıcılar arasında yaranan mübasibətlərin tənzimlənməsi; istehlakçıların malların (işlərin, xidmətlərin) lazımi keyfiyyətdə və insan həyatı və sağlamlığı üçün təhlükəsiz olmasına, mallar (işlər,xidmətlər) barəsində, onların istehsalçıları, icraçıları, satıcıları barəsində dolğun və düzgün məlumatın əldə edilməsi, dövlət və ictimai müdafiə hüquqlarının müəyyən edilməsi; bu hüquqların həyata keçirilməsi mexanizminin müəyyən edilməsi.

---

[1] Маркетинг: Толковый терминологический словарь-справочник. с.92; Барихин А.И. Экономика и право. энциклопедический словарь . М. Книжный мир. 2000. с. 581.

[2] Axundov A. Azərbaycan dilinin izahlı lüğəti. Bakı, "Elm" nəşriyyatı, 2005. Səh.219.

Azərbaycan Respublikasında istehlakçıların hüquqlarının və qanuni maraqlarının qorunması funksiyalarını Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti yerinə yetirir. Dövlət Xidmətinin fəaliyyəti Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 may tarixli 1017 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin Əsasnaməsi" ilə tənzim olunur. Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin Əsasnaməsinin 2-ci bəndində təsbit olunan əsas fəaliyyət istiqamətlərindən biri də "istehlakçıların hüquqlarının və qanuni maraqlarının qorunması, istehlak mallarının (işlərin, xidmətlərin) keyfiyyətinin təmin olunması sahəsində aidiyyəti dövlət orqanları ilə birlikdə dövlət siyasətinin həyata keçirilməsində iştirak etmək, eləcə də ticarət, ictimai iaşə, məişət və digər növ xidmət sahələrində norma və qaydalara riayət olunmasına, istehlak bazarında malların (işlərin, xidmətlərin) keyfiyyətinə və təhlükəsizliyinə dövlət nəzarətinin həyata keçirilməsinin təmin edilməsidir.

"İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" AR Qanununun 3-cü maddəsinə müvafiq olaraq, Azərbaycan Respublikası ərazisində istehlakçılar aşağıdakı hüquqlara malikdir:

- ✓ *malların (işlərin, xidmətlərin) və onların istehsalçısının, icraçısının və satıcısının sərbəst seçilməsinə;*
- ✓ *istehlak etdikləri malların (işlərin, xidmətlərin) lazımi keyfiyyətdə olmasına;*
- ✓ *malların (işlərin, xidmətlərin) təhlükəsizliyinə;*
- ✓ *malların (işlərin, xidmətlərin) miqdarı, çeşidi və keyfiyyəti haqqında dolğun və düzgün məlumat əldə etməyə;*
- ✓ *qanunvericilikdə nəzərdə tutulan hallarda, lazımi keyfiyyəti olmayan, habelə insanların sağlamlığına, həyatına təhlükəli olan malların (işlərin, xidmətlərin) vurduğu zərərin ödənilməsinə;*

- ✓ *öz hüquqlarının və qanuni mənafelərinin müdafiəsi üçün səlahiyyətli dövlət orqanlarına və məhkəməyə müraciət etməyə;*
- ✓ *ictimai təşkilatlarda (istehlakçılar birliyində) birləşməyə.*

"İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" AR Qanununun 5-ci maddəsinə müvafiq olaraq, istehlakçı satıcıdan (istehsalçıdan, icraçıdan) alınmış malın (görülmüş işin, göstərilmiş xidmətin) keyfiyyətinin normativ sənədlərə, müqavilə şərtlərinə uyğunluğu barədə və həmçinin mal (iş, xidmət) haqqında satıcının (istehsalçının, icraçının) təqdim etdiyi məlumata cavab verməsini tələb etmək hüququna malikdir. Satıcı (istehsalçı, icraçı) istehlakçıya keyfiyyəti normativ sənədlərə, müqavilə şərtlərinə və həmçinin mal (iş, xidmət) haqqında istehsalçının (icraçının) təqdim etdiyi məlumata uyğun olan mal verməlidir.

İstehsalçı (icraçı) normativ sənəddə nəzərdə tutulan və ya istehlakçı ilə müqavilə əsasında malın (görülən işin, xidmətin nəticələrinin) xidmət müddəti ərzində, belə müddətin olmadığı halda isə **10 il müddətində** təyinatı üzrə istifadə edilməsinə təminat verməlidir. İstehsalçı, mallara texniki xidməti və onların zəmanətli təmirini, habelə texniki təmir və xidmət göstərən təşkilatlar üçün lazım olan həcmdə və çeşiddə ehtiyat hissələri ilə təchizini bütün istehsal müddəti ərzində, mal (iş, xidmət) istehsaldan çıxarıldıqdan sonra isə xidmət müddəti ərzində, bu müddət nəzərdə tutulmayan hallarda isə **10 il ərzində** təmin etməlidir.

Komplektləşdirici məmulatların zəmanət müddəti qanunvericilikdə və ya müqavilədə ayrı cür göstərilməyibsə, malın (işin, xidmətin) özünün zəmanət müddətindən az olmamalıdır. Zəmanət müddəti malın (işin, xidmətin) pasportunda və ya nişanlama kağızında (yarlıqda), yaxud mala (işə xidmətə) əlavə olunan digər sənəddə göstərilir. Tez xarab olan və insanların sağlamlığına, həyatına və əmlakına, habelə ətraf mühitə təhlükə kəsb edən ərzaq məhsullarının, dərmanların, ətriyyat-kosmetika vasitələrinin, kimya məhsullarının və başqa malların (işlərin, xidmətlərin)

üzərində (qablarında) və ya onlara əlavə edilən müvafiq sənədlərdə yararlılıq müddəti göstərilməlidir. Yararlılıq müddəti ötmüş malların satışı qadağan edilir.

Yalnız dolğun və dürüst məlumatlar əsasında istehlakçı ona lazım olan məhsulu (işi, xidməti) seçmək imkanına malikdir. Qeyd edək ki, qanunverici məlumatın tərkibini, dilini, keyfiyyətini istehlakçıya çatdırılma anını, o cümlədən müvafiq məlumatı təqdim etməyə borclu olan şəxslərin dairəsini təsbit edir. “İstehlakçıların hüquqlarının müdafiəsi haqqında” AR Qanununun 13-cü maddəsinə görə satıcı (icraçı) istehlakçını maraqlandıran malın (işin, xidmətin) qiyməti, istehlak xassələri (ərzaq malları barəsində isə; həm də tərkibi, yararlılıq müddəti, kaloriliyi, sağlamlıq üçün zərərli maddələrin normativ sənədlərin tələbləri ilə müqayisəli miqdarı), əldə edilməsi şərtləri, təminat öhdəlikləri və iddiaların irəli sürülməsi, malın işlədilməsi, saxlanılması və təhlükəsiz istifadəsi üsulları və qaydaları barəsində istehlakçıya zəruri və düzgün məlumat verməlidir.

Ümumiyyətlə, “İstehlakçılarım hüquqlarının müdafiəsi haqqında” AR Qanununun 13-cü maddəsinin təhlilindən çıxış edərək istehlakçılara çatdırılmalı olan məlumatları iki qrupa ayırmaq olar:

***1. İstehsalçı (satıcı, icraçı) barədə olan məlumatlar.***

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 3 aprel tarixli 94 nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında ticarət, ictimai iaşə, məişət və digər növ xidmət Qaydaları”nın 3.4.-cü bəndinə əsasən, ticarət (xidmət) obyektinin mülkiyyətçisi və ya rəhbəri (satıcısı) istehlakçının tələbi ilə dövlət qeydiyyatı və onu qeydə alan orqan haqqında, fəaliyyətinə lisenziya və ya icazə tələb olunduğu hallarda isə lisenziyanın və ya icazənin nömrəsi, əgər vardırsa icazənin müddəti və onu verən orqan haqqında məlumat verməlidir. Daimi yerləşdiyi yerdən kənarda ticarət fəaliyyəti həyata keçirilən hallarda da analoji məlumat istehlakçının nəzərinə çatdırılmalıdır. İctimai iaşə ob-

yektlərinin mülkiyyətçisi və ya rəhbəri (satıcısı) qida təhlükəsizliyi qeydiyyatına alan orqan və dövlət qeydiyyatı haqqında məlumat verməlidir.

***2. Məhsullar (işlər, xidmətlər) barədə məlumatlar.***

Satıcı (icraçı) istehlakçını maraqlandıran malın (işin, xidmətin) qiyməti, istehlak xassələri (ərzaq malları barəsində isə; həm də tərkibi, yararlılıq müddəti, kaloriliyi, sağlamlıq üçün zərərli maddələrin normativ sənədlərin tələbləri ilə müqayisəli miqdarı), əldə edilməsi şərtləri, təminat öhdəlikləri və iddiaların irəli sürülməsi, malın işlədilməsi, saxlanılması və təhlükəsiz istifadəsi üsulları və qaydaları barəsində istehlakçıya zəruri və düzgün məlumat verməlidir. Satıcı (icraçı) istehlakçıya müəssisənin satdığı malların ticarət qaydaları və xidmət növləri barəsində də dolğun və düzgün məlumat verməlidir.

Qaydaların 5.9.-cu bəndinə görə istehlakçının tələbinə görə satıcı mal haqqında məlumatı ona şifahi də verə bilər. Mal haqqında məlumat hər bir halda istehlakçını çaşdırmayan, malın xüsusiyyətləri barədə birmənalı və anlaşıqlı formada verilməlidir.

Satışda olan mallar haqqında aşağıdakı məlumatlar müvafiq qaydada istehlakçıların nəzərinə çatdırılmalıdır:

- ✓ *malın adı, onun qiyməti;*
- ✓ *istehsalçının yerləşdiyi yer (hüquqi ünvanı), firma adı, tələblərin (iradların) verildiyi, təmir və ya texniki xidmət göstərən təşkilatın adı, yerləşdiyi ünvan;*
- ✓ *malın məcburi tələblərə uyğunluğunu təsdiq edən sertifikatın və ya digər texniki normativ sənədin işarəsi;*
- ✓ *malın əsas xüsusiyyətləri və istehlak xassələri (tərkibi, kaloriliyi, sağlamlıq üçün zərərli maddələrin qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələbləri ilə müqayisəli miqdarı);*
- ✓ *malın səmərəli və təhlükəsiz istifadəsi qaydaları və şərtləri;*
- ✓ *zəmanət müddəti (əgər konkret mal üçün nəzərdə tutulmuşdursa);*

- ✓ *xidmət və yararlılıq müddəti (əgər konkret mala dair belə müddətlər müəyyən edilmişdirsə və ya müəyyən olunmalıdırsa), həmçinin xidmət və yararlılıq müddəti keçmişdirsə ehtimal olunan təhlükələr, təyinatı üzrə istifadənin mümkünsüzlüyü (insan həyatı, sağlamlığı, əmlakı və ətraf mühit üçün);*
- ✓ *təminat öhdəlikləri və iddiaların irəli sürülməsi qaydaları.*

Əgər satılan mal istifadədə olmuşdursa, istehlakçıya bu barədə düzgün məlumat verilməlidir. Malın qüsurları haqqında satıcı istehlakçını həm şifahi, həm də yazılı formada (malın yararlılığı, əmtəə çeki, etiketi və ya sair üsulla) məlumatlandırmalıdır.

Qaydaların 5.13.-cü bəndinə müvafiq olaraq, standartlarla və ya qanunvericiliklə ayrı-ayrı mal qrupları üzrə istehlakçıların nəzərinə aşağıdakı məlumatların da mütləq surətdə çatdırılması nəzərdə tutula bilər:

- ✓ *malın əsas və funksional təyinatı və ya tətbiqi dairəsi;*
- ✓ *malın təhlükəsiz istifadə qaydası və şərtləri, saxlanılması, daşınması, təmiri, bərpası, malın utilləşdirilməsi, basdırılması və məhv edilməsi qaydası və şərtləri;*
- ✓ *malın komplektliyi (komplektin tərkibi), kütləsi (çəkisi), əsas ölçüləri, həcmi və miqdarı;*
- ✓ *saxlanma və yararlılıq müddəti;*
- ✓ *tezalışan, partlayan, zəhərləyici və sair xüsusiyyətlərə malik mallar üzərində müvafiq qaydada göstərilən xəbərdaredici yazılar;*
- ✓ *malın ekoloji cəhətdən, enerjiyə qənaət baxımından xüsusiyyətləri.*

Satılan mal barəsində yanlış məlumatın və ya kifayət qədər dolğun olmayan məlumatın verilməsi, istehlakçının lazımi xassələrə malik olmayan malı (işi, xidməti) almasına səbəb olmuşdursa, onun müqaviləni ləğv etmək və itkilərin ödənilməsini tələb etmək hüququ vardır.

İstehlakçı malın alınma günü sayılmamaq şərti ilə **14 gün ər-**

**zində** həmin malı lazımi keyfiyyətli mala dəyişdirmək hüququna malikdir. Pərakəndə satılan malın dəyişdirilməsi üçün satıcı tərəfindən daha uzun müddət elan edilə bilər.

## Mövzu üzrə nəticə:

**Standartlaşdırma** – standartlaşdırma obyektlərinin təhlükəsizliyinin və keyfiyyətinin yüksəldilməsinə yönəlmiş, kütləvi və təkrar istifadə üçün nəzərdə tutulan normativ sənədlərin hazırlanması, qəbulu və tətbiqi prosesindəm ibarət fəaliyyətdir. Standartlaşdırmanın **subyektləri** qismində, **milli standartlaşdırma qurumu**, standartlaşdırma üzrə texniki komitələr və standartlaşdırma fəaliyyəti ilə məşğul olan **digər subyektlər** (dövlət orqanları (qurumlar), hüquqi və fiziki şəxslər) çıxış edir.

M**illi standartlaşdırma qurumu funksiyalarını** **"**Azərbaycan Standartlaşdırma İnstitutu" publik hüquqi şəxs həyata keçirir. **Milli standartlaşdırma qurumu** - standartlaşdırma sahəsində dövlət siyasətindən irəli gələn işləri həyata keçirən, standartlaşdırma üzrə işlərin əlaqələndirilməsini təmin edən və standartlaşdırma üzrə beynəlxalq və regional təşkilatlarda Azərbaycan Respublikasının maraqlarını təmsil edən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandır (qurumdur).

**Texniki komitə** - standartlaşdırma üzrə normativ sənədlərin hazrılanması məqsədi ilə maraqlı tərəflərin iştirak ilə yaradılan məşvərətçi qurumdur. Texniki komitələr hüquqi şəxs deyil və könüllülük, tərəflərin bərabər iştirakı, standartlaşdırmanın məqsədləri və prinsiplərinə riayət olunması, komitə haqqında məlumatın açıqlığı və əlçatanlığı prinsipləri əsasında formalaşdırılır. **Texniki tənzimləmə dedikdə** isə - mallara, onlarla əlaqəli proseslərə və istehsal metodlarına dair məcburi tələblərin müəyyən olunması, qəbulu və tətbiqi, habelə uyğunluğun qiymətləndirilməsi ilə əlaqədar münasibətlərin hüquqi tənzimlənməsi başa düşülür.

Standart - təkrar və ümumi istifadə üçün nəzərdə tutulan mala (işə, xidmətə), onunla əlaqədar prosesə (o cümlədən idarəetmə sisteminə) və istehsal metodlarına dair norma, qayda və tövsiyələri müəyyən edən, tətbiqi könüllü olan normativ sənəddir. Standartların növlərinə **dövlət, regional, beynəlxalq** standart aiddir. **Regional standart** - standartlaşdırma üzrə regional təşkilatlar tərəfindən qəbul olunmuş standartdır. B**eynəlxalq standart** - standartlaşdırma üzrə beynəlxalq təşkilatlar tərəfindən qəbul olunmuş standartdır.

Azərbaycan Respublikası ərazisində istehlakçıların hüquqlarına aiddir: malların (işlərin, xidmətlərin) və onların istehsalçısının, icraçısının və satıcısının sərbəst seçilməsinə; istehlak etdikləri malların (işlərin, xidmətlərin) lazımi keyfiyyətdə olmasına; malların (işlərin, xidmətlərin) təhlükəsizliyinə; malların (işlərin, xidmətlərin) miqdarı, çeşidi və keyfiyyəti haqqında dolğun və düzgün məlumat əldə etməyə; qanunvericilikdə nəzərdə tutulan hallarda, lazımi keyfiyyəti olmayan, habelə insanların sağlamlığına, həyatına təhlükəli olan malların (işlərin, xidmətlərin) vurduğu zərərin ödənilməsinə; öz hüquqlarının və qanuni mənafelərinin müdafiəsi üçün səlahiyyətli dövlət orqanlarına və məhkəməyə müraciət etməyə; ictimai təşkilatlarda (istehlakçılar birliyində) birləşməyə.

## Mövzunun mənimsənilməsi üçün tövsiyə olunan ədəbiyyat:

### *a) əsas ədəbiyyat:*

1. “Standartlaşdırma haqqında” Azərbaycan Respublikasının 17 may 2019-cu il tarixli 1587-VQ nömrəli Qanunu.
2. “İstehlakçıların hüquqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının 19 sentyabr 1995-ci il tarixli 1113 nömrəli Qanunu.
3. “Texniki tənzimləmə haqqında” Azərbaycan Respublikasinin 30 sentyabr 2019-cu il tarixli 1669-VQ nömrəli Qanunu.

4. “Azərbaycan Respublikasında ticarət, ictimai iaşə, məişət və digər növ xidmət Qaydaları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 3 aprel tarixli, 94 nömrəli Qərarı.

5. Айман Т.О. Защита прав потребителей / Т.О. Ай-ман. М.: РИОР, 2014. 303 с.

6. Гафарова Г.Р. Защита прав потребителей / Г.Р. Гафарова. М.: Юстицинформ, 2016. 376 с.

7. Зименкова О.Н., Левшина Т.Л., Тобис В.И., Шер-стобитов А.Е. Комментарий к Закону Российской Федерации "О защите прав потребителей". М.: Изд-во "Кросна-Лекс", 1997. 220 с.

8. Гончаров А.А. Метрология, стандартизация и сертификация: учебное пособие для вузов / А.А.Гончаров, В.Д. Копылов. 3-е изд., стер. М.: Академия, 2006.

9. Зорин Ю.В. Стандартизация, метрология и сертификация продукции, процессов и услуг: Метод. Пособие, 2009

10. Левшина Т.Л. Основы законодательства о защите прав потребителей. Курс лекций. М.: Юрид.лит., 1994.160 с.

11. Ломакина И. Г. Защита прав потребителей : учеб. пособие / И. Г. Ломакина, С. В. Матиящук ; РАНХиГС, Сиб. ин-т упр. 2-е изд., перераб. и доп. Новосибирск: Изд-во СибАГС, 2015. 180 с.

12. Лифиц И. М. Основы стандартизации, метрологии и сертификации: Учебник, М.:Юрайт, 2008. 285 с.

13. Международные и региональные организации по стандартизации и качеству продукции. М., 2010.

### *b) əlavə ədəbiyyat:*

14. Бандурин Р.А. Защита прав потребителей: правовой и товароведческий аспекты / Экономика. Социология. Право. 2017. № 4 (8). с. 9-14

15. Казиева А.М., Джиоева Л.Г. Актуальные пробле-мы защиты прав потребителей // Аллея науки. 2017. Т. 1. № 10. с. 20-25.

16. Конах, С.А. Гражданско – правовая защита прав потребителей в обязательствах розничной купли – продажи // In Situ. 2017. № 3. с. 17.

17. Сорокин Е. Терминология в области стандартизации и ее соответствие Федеральному закону «О техническом регулировании» // Стандарты и качество, 2003, № 9.

18. Мальков Г В Правовые основы подтверждения соответствия и аккредитации // Партнеры и конкуренты 2006, № 6.

19. Парций Я. Закон РФ "О стандартизации" // Хо-зяйство и право. 1995.№1. с. 29.

20. Петров Д Ю О добровольной и обязательной сертификации // Партнеры и конкуренты, 2006, № 2.

21. Чайка И.И., Теркель А.Л. Оценка и подтверждение соответствия. Терминологический аспект// Сертификация, 2011, № 3, с. 7.

# IX FƏSİL
# BANK FƏALİYYƏTİNİN HÜQUQİ TƏNZİMLƏNMƏSİ

## 9.1. Bank fəaliyyətinin anlayışı və məzmunu

"Bank" anlayışını təyin etmək üçün ilk olaraq onun etimoloji mənası nəzərdən keçirilməlidir. Belə ki, "bank" ifadəsi "masa" mənasını verən İtalyan sözü "banco"dan irəli gəlir və ya italyan sözü "*banko*" olub mənası "skamya" və yaxud fransız sözü "banque" olub mənası "sandıq" deməkdir.[1]

Sözün əsl mənasında ilk bank 1407-ci ildə İtalyanın Genuya şəhərində yaranmışdır (Bank di San Georgio)[2]. Bankların ilk və əsas funksiyası ödənişlərdə vasitəçilik idi. Bu vasitəçilik nəticəsində banklar azad pul kapitalını fəaliyyət göstərən və faiz gətirilməsinə çevirirdilər.[3]

Alqı-satqı zamanı insanlar müxtəlif əyalətlərin və şəhərlərin müxtəlif formalı və fərqli nominallı sikkələrini mübadilə etdilər. Belə bir şəraitdə, dövriyyədə olan bir çox sikkəni anlayan, onları qiymətləndirə bilən və sikkələrin mübadiləsi ilə bağlı məsləhət verə biləcək mütəxəssislərin köməyinə ehtiyac var idi. Ənənəvi etimoloji təhlil nəticəsində belə qənaətə gəlmək olar ki, "bank" anlayışı pul-kredit münasibətlərində vasitəçinin rolunu özündə ehtiva edir.

Maliyyə-kredit lüğətində bankı pul və əmanət cəlb edən, kredit verən, pul hesablaşmalarını həyata keçirən, qiymətli kağızları dövriyyəyə buraxan və onlarla əməliyyatlar aparan xüsusi bir təşkilat kimi anlayışı təsbit edir. Əmtəə-pul münasibətləri əsa-

---

[1] Гобузов В.Ф./ Финансово-кредитный словарь. М.: Финансы и статистика, 1994. Т.1 с. 511.

[2] Роде Э. Банки, биржи, валюты современного капитализма. М., 1986, с.13.

[3] Yenə orada, səh. 11.

sında yaranır və bu səbəbdən müxtəlif sosial-iqtisadi formalarda mövcuddur.[1]

Azərbaycan Respublikasında bank fəaliyyəti "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında", "Banklar haqqında", "Bank olmayan kredit təşkilatları haqqında" Azərbaycan Respublikasının Qanunları ilə tənzim olunur.

Baxmayaraq ki, bank fəaliyyətini tənzim edən qanunvericilikdə "bank fəaliyyəti" termininə dəfələrlə rast gəlinir, lakin bu terminin leqal anlayışı təsbit olunmamışdır. "Bank fəaliyyəti" termini sahələrarası anlayışlar kateqoriyasına aiddir. "Bank fəaliyyəti"nin leqal anlayışı qanunvericilikdə təsbit olunmaması onun düzgün dərk və tətbiq edilməsində müəyyən çətinliklər yarada bilər. Hüquq ədəbiyyatlarında isə bank fəaliyyətinə müxtəlif mövqelərdən çıxış edərək çoxlu sayda anlayışlar verilir. Belə ki, M.M. Aqarkov tərəfindən bank fəaliyyəti banklar tərəfindən yerinə yetirilən iqtisadi funksiyalar prizmasından təhlil edilir[2]. K.T.Trofimov isə hesab edir ki, bank fəaliyyəti - kapital dövriyyəsində və ödənişlərin, kreditlərin verilməsində vasitəçilik funksiyalarının yerinə yetirilməsi üzrə maliyyə və onunla bağlı olan digər xidmətlər bazarında kredit təşkilatlarının qanun və ya lisenziya əsasında həyata keçirdiyi sahibkarlıq fəaliyyətidir[3].

O.M.Oleynik isə qeyd edir ki, "bank fəaliyyəti gəlir götürülməsinə yönələn əqdlərin və əməliyyatların mütəmadi olaraq həyata keçirilməsidir[4]. A.Q.Bratkonun fikrincə isə, bank fəaliyyəti dedikdə, bank xidmətlərinin təhlükəsizliyinin yüksəldilməsi və səmərəliliyinin inkişafına bilavasitə yönələn kredit təşkilatla-

---

[1] Гобузов В.Ф. / Финансово-кредитный словарь. М.: Финансы и статистика, 1994. Т.1 с. 511.

[2] Агарков М.М. Основы банковского права: курс лекций. Учение о ценных бумагах: научное исследование. 2-е издание. М., 1994. с. 7-9.

[3] Трофимов К.Т. Проблемы правоспособности банка// Хозяйство и право, № 4. с. 89.

[4] Олейник О.М. Основы банковского права: курс лекций. М.: 1997, с.21.

rının bank əməliyyatları və əqdləri, habelə digər hərəkətlər başa düşülür[1]. Bank fəaliyyətini kommersiya fəaliyyəti kimi nəzərdən keçirən Y.V.Kuçer hesab edir ki, bank fəaliyyəti qüvvədə olan qanunvericiliyə müvafiq olaraq, kredit təşkilatının dövlət qeydiyyatından keçdikdən sonra Mərkəzi Bankdan aldığı lisenziya əsasında sistematik (mütəmadi) olaraq bank əməliyyatlarının həyata keçirilməsi yolu ilə gəlir əldə edilməsinə yönələn kredit təşkilatlarının kommersiya fəaliyyətidir[2].

Göstərilən anlayışların təhlilindən çıxış edərək qeyd edə bilərik ki, bank fəaliyyəti anlayışının əsas özəyini "bank əməliyyatları" və "bank əqdləri" təşkil edir. Həmçinin bank fəaliyyəti – kredit təşkilatları tərəfindən bank əməliyyatlarının həyata keçirilməklə bank xidmətlərinin göstərilməsindən mənfəət götürülməsinə yönələn fəaliyyətdir. Yəni, bank fəaliyyəti sahibkarlıq fəaliyyətinin bir növüdür, lakin qanunvericiliklə müəyyən edilmiş xüsusi qaydalar əsasında bu fəaliyyət həyata keçirilir.

Deyilənlər əsasında bank fəaliyyətinin əsas xüsusiyyətlərini aşağıdakı kimi göstərmək olar:

- *bank fəaliyyəti – gəlir əldə edilməsinə yönələn sahibkarlıq fəaliyyətidir;*
- *bank fəaliyyəti yalnız xüsusi subyektlər tərəfindən həyata keçirilir;*
- *kredit təşkilatları maliyyə bazarlarına nəzarət orqanın verdiyi lisenziya əsasında bank fəaliyyətini həyata keçirir;*
- *bank fəaliyyətinin əsas məzmununu mütəmadi olaraq bank əməliyyatlarının həyata keçirilməsi, bank əqdlərinin bağlanması təşkil edir.*[3]

Eyni zamanda hüquq ədəbiyyatlarında bank fəaliyyəti ilə əla-

---

[1] Братко А.Г. Банковское право (теория и практика). М.:2000. с. 25.

[2] Кучера Ю.В. Административно-правовое регулирование банковской деятельности в Российской Федерации: дисс. На соиск. Учен. Степ. Канд. Юрид. наук. Омск, 2004. с. 29.

[3] Тедеев А.А. Банковское право: учебник. М.: 2005, с. 17.

qədar müxtəlif növ hüquq münasibətlərinin yarandığı xüsusilə qeyd olunur:

- ❖ *kredit təşkilatları ilə onların müştəriləri arasında yaranan münasibətlər – mülki-hüquqi münasibətlər;*
- ❖ *kredit təşkilatları ilə Mərkəzi Bank arasında yaranan münasibətlər – publik-hüquqi münasibətlər;*
- ❖ *bank daxili yaranan münasibətlər - korporativ münasibətlər.*

Bu halda E.Y.Aduşkina haqlı olaraq qeyd edir ki, bank fəaliyyəti müxtəlif hüquq sahələrinin normaları ilə tənzim olunan çoxlu sayda ictimai münasibətlərdən ibarətdir, yəni kompleks tənzimləməyə malikdir.[1]

Beləliklə, bank fəaliyyəti həm geniş mənada, həm də dar mənada nəzərdən keçirilir. **Dar mənada bank fəaliyyəti dedikdə**, kredit təşkilatları tərəfindən bank əməliyyatlarını və bank əqdlərini məcmu halda həyata keçirilməsini özündə əks etdirən sahibkarlıq fəaliyyətinin bir növüdür. **Geniş mənada bank fəaliyyəti dedikdə**, həm əsas, həm də köməkçi bank fəaliyyəti aid edilir. **Əsas bank fəaliyyəti dedikdə,** bank əməliyyatlarını həyata keçirən və əqdləri bağlayan kredit təşkilatlarının fəaliyyəti başa düşülür. **Köməkçi bank fəaliyyəti dedikdə** isə əsas təhlükəsiz və əlverişli şəraitin təmin edilməsinə yönəlmiş fəaliyyət başa düşülür. Bu fəaliyyət dolayısı ilə əsas bank fəaliyyətinin nəticələri ilə əlaqədardır.

Bank fəaliyyətinə dair verilmiş anlayışları ümumiləşdirib belə bir anlayışı təklif edirik: **bank fəaliyyəti dedikdə,** bank xidmətlərinin təhlükəsizliyinin yüksəlməsinə və səmərəliyinin inkişafına bilavasitə yönələn və əsas məqsədi mənfəət götürülməsi olan kredit təşkilatları tərəfindən həyata keçirilən bank əməliyyatları və digər hərəkətlərdir.

Bank fəaliyyətinin anlayışı onun mühüm əlamət və element-

---

[1] Адушкина Е.Ю. Актуальные гражданско-правовые вопросы предпринимательской деятельности кредитных организаций. Дис. Канд. Юрид. Наук. Саратов, 2010. с.18-36.

ləri ilə müəyyən olunur. Fikrimizcə, bu əlamət və elementlər sırasına bank fəaliyyətinin predmeti, məqsədləri, subyektləri, məznunu və hüquqi tənzimlənməsi aiddir.

Banklar və digər kredit təşkilatları müəyyən bazar sektorunda – pul-kredit və maliyyyə münasibətləri sistemində fəaliyyət göstərir. Bu onların fəaliyyətinin **predmetini** müəyyən edir: pullar və maliyyə vəsaitləri.

Pul-kredit sisteminin (pulların emissiyası və pul dövriyyəsi, pulun akkumlyasiyası və onların yerləşdirilməsi) qanunauyğunluqları əhəmiyyətli dərəcədə pulun funksiyaları ilə şərtlənir. Bu funksiyaların səmərəli realizəsi kredit təşkilatlarının fəaliyyətinə aiddir.

Bank fəaliyyətində pulun dəyərinin hədləri funksiyası - bank hesabının açılması, bank hesabına pul vəsaitlərinin köçürülməsi və s. kimi formalarda kredit təşkilatları tərəfindən realizə olunur.

Mərkəzi Banka münasibətdə isə bu funksiya Mərkəzi Bankın pulun emissiyası, onun məzənnəsinin və alıcılıq qabiliyyətinin dəstəklənməsi kimi fəaliyyət növlərində özünü göstərir.

Növbəti funksiya – **pulun məlumat funksiyasıdır**. Qeyd etmək lazımdır ki, hesablaşmalarda istifadə olunan nağdsız pullar – bank məlumatının xüsusi növüdür. Hesabda qeydlər pulun dəyəri haqqında məlumatdır. Bu halda bank sistemində məlumatın rolu və onun hüquqi mühafizəsi mühüm rol oynayır.

Pullar **dövriyyə vasitəsi funksiyasını** yerinə yetirir. Buna uyğun qeyd etmək lazımdır ki, kredit təşkilatları pulun dövriyyəsini təmin edir. Pullar **sistem funksiyasına** malikdir. Bu funksiyanın mahiyyəti ondan ibarətdir ki, pullar **yığılma funksiyasını** yerinə yetirir. Bu funksiyaya müvafiq olaraq, banklar pulu əmanətə qəbul edir və kreditlər verir.

Bank fəaliyyətinin məqsədlərini keçməzdən əvvəl xüsusilə qeyd olunmalıdır ki, bank fəaliyyətinin subyektləri olan kredit təşkilatlarının və Azərbaycan Respublikası Mərkəzi Bakının məqsədləri müxtəlifdir və onlar arasında bərabərlik işarəsinin qoyulması düşünürük ki, doğru olmaz. Bu onların hüquqi statu-

su ilə, habelə pul-kredit və maliyyə sistemində olan funksiyaları ilə əlaqədardır. Belə ki, Azərbaycan Respublikasının Mərkəzi Bankı publik hüquqi şəxsdir və banklararası mərkəzləşdirilmiş və digər lisenziyalaşdırılmayan ödəniş sistemlərinin fəaliyyətini təşkil edir, əlaqələndirir, tənzimləyir və onların üzərində nəzarəti qanuna uyğun olaraq həyata keçirir. Kredit təşkilatlarının rolu isə iqtisadi tələbat və maraqlarla müəyyən olunur. Kredit təşkilatları həyata keçirdiyi bank əməliyyatlarından və əqdlərindən maksimal gəlir əldə etməsi məqsədi daşıyır. Bu mənada bank fəaliyyəti sahibkarlıq fəaliyyətinin növlərindən biri hesab edilir. Lakin, bu fəaliyyət yalnız bank əməliyyatlarının həyata keçirilməsi və əqdlərin bağlanılması ilə məhdudlaşır. Bunun əsas səbəbi isə ondan ibarətdir ki, kredit təşkilarlarının sığorta, ticarət və istehsal fəaliyyəti ilə məşğul olması qadağan edilir. Belə ki, "Banklar haqqında" Azərbaycan Respublikasının 16 yanvar 2004-cü il tarixli 590-IIQ nömrəli Qanununun 33-cü maddəsinə əsasən, "... heç bir bank topdansatış və ya pərakəndə ticarət, istehsal, nəqliyyat, kənd təsərrüfatı, yataqların işlənilməsi, tikinti və sığorta fəaliyyəti ilə məşğul ola və ya sığorta təşkilatları istisna olmaqla tərəfdaş, şərik və ya payçı kimi bunlarda iştirak edə bilməz. Öhdəlik üzrə tələblərini ödəmək məqsədilə bank yalnız maliyyə bazarlarına nəzarət orqanının icazəsi ilə və yalnız icazədə göstərilən müddət ərzində yuxarıda göstərilən fəaliyyət növlərini həyata keçirə və ya həmin fəaliyyət növlərini həyata keçirən hüquqi şəxslərdə tərəfdaş, şərik və ya payçı kimi iştirak edə bilər".[1]

**Azərbaycan Respublikasının bank sistemi və onun sturkturu.** Müasir bank sistemi istənilən milli iqtisadi sistemin əsas elementlərindən biridir. Bank sistemi bazar iqtisadiyyatının ən vacib halqalarından biridir. İstənilən bir təzahürün və prosesin,

---

[1] Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 3, maddə 130.

onların inkişafının öyrənilməsi onlarla əlaqəli olan anlayışların və kateqoriyaların mahiyyətini aydınlaşdırmaqla başlamaq zəruridir.

Bu baxımdan bank sisteminin mahiyyətini, onun komponentləri, müasir iqtisadiyyatda yeri və rolu barədə dəqiq başa düşülməsi, maliyyə qloballaşma proseslərinin təsiri altında milli bank sistemlərinin transformasiyasının məzmununun dərk edilməsi tələb olunur. Bank sisteminin mahiyyəti onunla müəyyən olunur ki, o ölkənin kredit sisteminin bir hissəsi, həmçinin ölkənin iqtisadi sisteminin bir elementidir.

"Banklar haqqında" AR Qanununun 2-ci maddəsinə görə Azərbaycan Respublikasının bank sistemini maliyyə bazarına nəzarət orqanından, Azərbaycan Respublikasının Mərkəzi Bankından və kredit təşkilatlarından ibarətdir. Baxmayaraq ki, bank fəaliyyətini tənzim edən qanunvericilikdə, xüsusilə də "Banklar haqqında" AR Qanununun 2-ci maddəsində "bank sistemi" terminindən istifadə olunur, lakin onun leqal anlayışı qanunvericilikdə təsbit olunmayıb. Bu problemi hüquq elminə də aid etmək olar. Çünki hüquq elmində də bank sisteminin anlayışına dair vahid yanaşma bu günə qədər formalaşmayıb.

Nəzəri planda bank sisteminin anlayışına aydınlıq gətirilməsi üçün Y.B. Zelenskiy təklif edir ki, iqtisadi nöqteyi-nəzərdən bank sisteminin ümumi elementlərini və funksiyalarını, idarəetmə baxımından sistem kimi təşkilinə xas olan xüsusiyyətləri, hüquqi baxımdan isə sistemin elementlərinin hüquqi statusu və hüquqi mühiti, onun elementləri arasında əlaqələrin tənzimlənməsini müəyyən edilməsinə ehtiyac duyulur.[1]

Bank ensiklopediyasına görə bank sistemi dedikdə, bir-biri ilə və xarici mühitlə sıx qarşılıqlı əlaqədə olan bankların, bank infrastrukturunun, bank qanunvericiliyinin və bank bazarının

---

[1] Зеленский Ю.Б. Банковская система Российской Федерации и реальный сектор экономики. Саратов: изд. центр Саратовского гос. социально-экономич. ун-та, 2002, с. 9.

məcmusudur[1]. Bu fikri tənqid edən S.A.Qolubev hesab edir ki, bu anlayış qeyri-dəqiqdir, çünki bank qanunvericiliyi bank sisteminin elementi deyildir. Müəllifin fikrincə, bank qanunvericiliyi bank sisteminin idarə edilməsinin aləti, üsulu, formasıdır.[2] Öz növbəsində onu da qeyd etməliyik ki, Azərbaycan Respublikasının bank sisteminə kredit təşkilatları daxildir ki, onlar da banklara və bank olmayan kredit təşkilatlarına bölünür.

O.M. Oleynik bank sistemi anlayışını geniş şəkildə nəzərdən keçirərək hesab edir ki, bank sisteminə yalnız müəyyən fəaliyyət növünü bilavasitə həyata keçirən təsisatları deyil, həmçinin bu fəaliyyətin infrastrukturunu təşkil edən və sistemin əsas funksiyasını təmin edən təşkilatları da aid etmək lazımdır.[3] Bank sisteminə tamamilə fərqli yanaşmadan çıxış edən Y.B.Zelenskiy isə hesab edir ki, bank sistemi dedikdə, bank əməliyyatlarını həyata keçirmək hüququ olan və vahid qanunvericilik əsasında fəaliyyət göstərən ölkənin banklarının və digər kredit institutlarının məcmusudur[4].

Hesab edirik ki, "bank sistemi" anlayışına dair bəzi dəqiqləşdirmələrə zərurət yaranır. Çünki bu, ölkənin bank sisteminin mahiyyətini, funksiyalarını və vəzifələrini aydın şəkildə anlamağa imkan vermiş olacaq. Bank sisteminin ən əsas vəzifələrindən biri kredit kapitalı bazarının yaradılmasına və fəaliyyət göstərilməsinə köməkliyin göstərilməsidir. Bu əmtəə, istehlak və əmək

---

[1] Российская банковская энциклопедия /под ред. О.И.Ловрушкина. М.: ЭТА.: 1995. с. 51.

[2] Голубев С.А. Правовое регулирование государственного управления банковской системой Российской Федерации и в зарубежных странах (сравнительно-правовой анализ): Дисс. на соискание ученой степени д-ра юрид. наук: 12.00.14. М.2004. с. 71.

[3] Олейник О.М. Основы банковского права: курс лекций. М., 1997, с.171.

[4] Зеленский Ю.Б. Банковская система Российской Федерации и реальный сектор экономики. Саратов: изд. центр Саратовского гос. социально-экономич. ун-та, 2002. с.28.

bazarının inkişafına təsir göstərən bazar iqtisadiyyatının əsas həlqəsidir. Onlardan hər hansı biri pul, kredit və maliyyə bazarları fəaliyyət göstərmədən mövcud ola bilməz.

Azərbaycan Respublikasının bank sistemində **birinci pilləsində** maliyyə bazarlarına nəzarət orqanı durur. Maliyyə bazarlarına nəzarət orqanı kimi maliyyə bazarlarında tənzimləmə və nəzarəti həyata keçirən Azərbaycan Respublikası Mərkəzi Bankı çıxış edir. Azərbaycan Respublikasında maliyyə bazarına nəzarət orqanının səlahiyyətləri Azərbaycan Respublikası Prezidentinin 3 fevral 2016-cı il tarixli 169 nömrəli Fərmanı ilə Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən həyata keçirilirdi. Azərbaycan Respublikası Prezidentinin 10 mart 2016-cı il tarixli 328 nömrəli Fərmanı ilə "Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının Nizamnaməsi təsdiq edilmişdir. Sonradan Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 4 oktyabr tarixli 288 nömrəli Fərmanına əsasən, Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının yeni Nizamnaməsi təsdiq edilmişdir. Lakin bir ildən sonra "Maliyyə xidmətləri bazarında tənzimləmə və nəzarət sisteminin idarəedilməsinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 28 noyabr 2019-cu il tarixli 1616 nömrəli Sərəncamına əsasən Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası ləğv edilmiş və Azərbaycan Respublikasının qanunlarında maliyyə bazarlarına nəzarət orqanının müəyyən edilmiş səlahiyyətləri, o cümlədən onun maliyyə xidmətləri bazarında lisenziyalaşdırma, tənzimləmə və nəzarət, investorların və maliyyə xidmətləri istehlakçılarının hüquqlarının qorunması sahəsində vəzifə və hüquqları, habelə əmlakı Azərbaycan Respublikasının Mərkəzi Bankına verilmişdir.

**İkinci pillədə** isə "Banklar haqqında" AR Qanununun 1-ci maddəsinə müvafiq olaraq, kredit təşkilatı – bank, xarici bankın yerli filialı və ya bank olmayan kredit təşkilatı yer tutur.

N.Y.Yerpılyova qeyd edir ki, iki pilləli bank sistemi, onun

müxtəlif səviyyələri arasında funksiyalarının və səlahiyyət dairəsinin bölüşdürülməsi təcrübəsini özündə əks etdirir.[1] Azərbaycan bank sistemininn birinci pilləsinin yeganə subyekti olan Azərbaycan Respublikası Mərkəzi Bankın statusu, funksiyaları və səlahiyyətləri Azərbaycan Respublikasının Konstitusiyası və "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" AR Qanunu ilə müəyyən olunur.

## 9.2. Azərbaycan Respublikasının Mərkəzi Bankının bank sistemində yeri

Mərkəzi Bankların tarixi inkişafı ilə bağlı danışarkən qeyd olunmalıdır ki, Mərkəzi Banklar XVII əsrin sonlarında meydana gəlmişdir. Əvvəllər mərkəzi bankların rolu o qədər də diqqəti cəlb etmirdi və sadəcə olaraq hökümətə kreditlər verən təşkilat kimi qəbul olunurdu. O dövrlərdə pulların emissiyası ilə özəl banklar məşğul olurdu.

İlk mərkəzi bank məhz İngiltərədə yaranmışdı. V.Smit qeyd edirdi ki, tamamilə təsadüfi xarakter daşıyan siyasi hadisə nəticəsində 1694-cü il taxidə İngiltərə Bankı yaradılmışdır. Baş verən bu siyasi hadisəni müəllif aşağıdakı kimi ifadə edir: "Öz maliyyə ehtiyaclarını təmin etmək üçün II Karl London banklarından pul borc almışdır. Onun borcu sürətli tempə artırdı və 1672-ci ildə II Kral borcun ödənilməsinin dayandırlması barədə xəzinədarlığa əmr verdi. Bununla da uzun on illiklərlə krala olan etimad itirilmişdir. Vəziyyətdən çıxmaq məqsədilə III Vilyam və onun höküməti Patterson adlanan maliyyəçinin sxeminə müraciət etməyə məcbur qaldı. Maliyyəçi Pattersonun sxeminə əsasən, İngiltərə Bankının nəzdində "İdarəçi və Ko" kimi tanınan insti-

[1] Ерпылева Н.Ю./ Правовые стандарты банковского регулирования и надзора: научная статья.-Законодательство и экономика №6, 1999. с. 54

tutun yaradılmasını nəzərdə tuturdu.[1]

Lakin qeyd etmək lazımdır ki, XIX əsrdə mərkəzi bankların kütləvi şəkildə yaradılmasının birinci dalğası XIX əsrdə başlanılmışdır. Belə ki, 1803-cü ildə Fransa Bankı, 1876-cı ildə Almaniyada Reyxsbank, 1860-cı ildə isə Rusiya imperiyasının dövlət bankı yaradılmışdır.[2]

Neft sənayesinin kreditləşməsi məqsədilə 1868-ci ildə Sankt-Peterburq Beynəlxalq Kommersiya Bankının Bakı filialı, 1870-ci ildə "Voljsko-kamsk" Kommersiya Bankının Bakı filialı, 1871-ci ildə isə Rusiya Xarici Ticarət Kommersiya bankının Bakı filialı fəaliyyətə başlamışdı. Lakin tədqiqatçıların ümumi rəyi belədir ki, ilk bank müəssisəsi olmaqla " Bakı kredit cəmiyyəti"nin 1874-cü ilin fevralın 28-də Bakıda fəaliyyətə başlaması Azərbaycanda kapitalist kredit sisteminin yaranmasının əsası kimi qiymətləndirilməlidir.[3]

1874-cü il iyunun 1-dən Bakıda ikinci bank müəssisəsi - dövlət bankının filialı fəaliyyətə başladı. Bundan sonra bir-birinin ardınca müxtəlif səhmdar kommersiya banklarının filialları açılmağa başladı. Belə ki, Bakıda 1881-ci ildə Bakı İctimai Şəhər Bankı, 1886-cı ildə Tiflis kommersiya bankının filialı, 1900-cü ildə Bakı şəhər kredit cəmiyyəti, İran Uçot-borc bankının filialı təsis edildi.[4]

Azərbaycanda mərkəzi bankçılığın tarixi XX əsrin əvvəllərindən başlamışdır. 1991-ci ildən başlayan müasir mərkəzi bankçılıq tarixinə qədər Azərbaycanda mərkəzi bankçılıq fəaliyyəti bir neçə mərhələdən ibarət olmuşdur: Xalq Cümhuriyyəti dövrü (1918-1920); sovet sosialist quruluşu dövrü (1920-1991).

---

[1] Смит В. Происхождение центральных банков: Пер. с англ. М.: ИНМЭ, 1996. с. 38.

[2] Братко А.Г. Центральный банк в банковской системе России. М.: Спарк, 2001. www.bratko.ru.

[3] A.Q. Mirzəyeva, Ə.Ə. Əliyeva. Bank hüququ. Dərs vəsaiti. Bakı, ADMİU-nun mətbəəsi, 2019. Səh. 12-15.

[4] https://banker.az/ bankcılığın inkişaf tarixi /C9-99 qısa ekskurs/

1918-ci il may ayının 28-də Azərbaycan öz müstəqilliyini elan edərək müsəlman aləmində ilk demokratik respublika – Azərbaycan Xalq Cümhuriyyətini yaratmışdır. İlk dövrdə müstəqil respublikada Rusiya pulları, həmçinin 1918-ci ilin yanvar ayından etibarən Bakı Xalq Komissarları Sovetinin qərarı ilə Bakı şəhər idarəsi və Bakı Sovetinin şəhər təsərrüfatı tərəfindən dövriyyəyə buraxılmış "Bakı bonları" ilə yanaşı Zaqafqaziya bonlarından da geniş istifadə olunurdu. Həmin vaxtda keçmiş Rusiya Dövlət Bankının Bakı bölməsi də öz fəaliyyətini davam etdirirdi. 1919-cu il mart ayının 7-də Azərbaycan Respublikası hökuməti Azərbaycan Dövlət Bankının (mərkəzi bankın) təşkil edilməsi haqqqında qərar qəbul etmişdir. Həmin il sentyabr ayının 16-da Azərbaycan Respublikasının parlamenti Azərbaycan Dövlət Bankının Nizamnaməsini qəbul etdi. 1919-cu il 30 sentyabr tarixində isə Azərbaycan Dövlət Bankının təntənəli açılışı oldu və həmin gündən etibarən fəaliyyətə başladı. "Banklar bankı" olan Azərbaycan Dövlət Bankı ölkədə mövcud olan kredit təşkilatlarının fəaliyyətinə nəzarət edirdi və pul nişanlarının emissiyasını həyata keçirirdi.

1920-ci il 28 aprel tarixində Azərbaycan Xalq Cumhuriyyəti süquta uğradıqdan sonra yeni dövlət quruluşu olan Azərbaycan Sovet Sosialist Respublikasının Maliyyə Komissarlığının 1920-ci il 31 may tarixli əmri ilə Azərbaycan Dövlət Bankı Azərbaycan Xalq Bankı adlandırıldı. Azərbaycan İnqilab Komitəsinin 1920-ci il 9 iyun tarixli qərarı ilə bütün banklar və digər kredit təşkilatları milliləşdirilərək Xalq Bankının tərkibinə qatıldı və bank işi dövlətin müstəsna inhisarına keçdi.

Azərbaycan Xalq Bankının əsas vəzifəsi kağız pulların emissiyası idi. Maliyyə Komissarlığının tərkibində olan Xalq Bankı xalq təsərrüfatını maliyyələşdirir və smeta-büdcə işi ilə məşğul olurdu. Xalq Bankı tərəfindən kredit əməliyyatlarının keçirilməsi dayandırıldı və o, maliyyə orqanları ilə yanaşı büdcə əməliyyatlarına xidmət göstərən orqana çevrildi.

1921-ci ilin sonlarında yeni iqtisadi siyasətin həyata keçirilməsi zamanı mərkəzi bankın da fəaliyyəti bərpa edildi. Azərbaycan Xalq Komissarları Şurasının 1921-ci il 16 oktyabr tarixli qərarı ilə Azərbaycan Dövlət Bankı yaradıldı və onun nizamnaməsi qəbul edildi.

Azərbaycan Xalq Komissarları Sovetinin 1923-cü il 3 iyul tarixli qərarı ilə isə Azərbaycan Dövlət Bankı Azərbaycan Dövlət Kənd Təsərrüfatı Bankı adlandırıldı və onun mərkəzi bank funksiyalarına xitam verildi. İlk dövrlərdə Azərbaycan Dövlət Kənd Təsərrüfatı Bankı kənd təsərrüfatının inkişafına yardım etməklə yanaşı pul və əmtəə dövriyyəsi məsələlərini də tənzimləyirdi.

1923-cü ildə SSRİ Dövlət Bankının yaradılması ilə əlaqədar onun Bakı bölməsi yaradıldı. 1936-cı ilin dekabrında qəbul edilmiş SSRİ Konstitusiyasına müvafiq olaraq, Azərbaycan SSRİ-nin tərkibinə "suveren" respublika kimi daxil oldu. Həmin ildən 1991-ci ilin sonlarına kimi mövcud olmuş SSRİ Dövlət Bankının Azərbaycan İdarəsi fəaliyyət göstərmişdir.[1]

Azərbaycan Respublikası Konstitusiyasının 19-cu maddəsinin II hissəsində qeyd olunduğu kimi Mərkəzi Bank dövlətin müstəsna mülkiyyətindədir. Yalnız Mərkəzi Bank ölkənin vahid pul-kredit sisteminin fəaliyyət göstərilməsi şəraitində bütün kommersiya banklarının və bank olmayan kredit təşkilatlarının fəaliyyətinin ümumi tənzimləmə funksiyasını həyata keçirir.

Ümumiyyətlə, Mərkəzi Bank dövlətin ən əsas, zəruri bankıdır və sonuncu instansiya kreditorudur (ingil. **lender of last resort**). XX əsrin əvvəllərində L.N. Yasnopolskiy qeyd edir ki, "Mərkəzi bank – ölkənin ümumi iqtisadiyyatında birinci dərəcəli bir sıra funksiyaları yerinə yetirən, əhəmiyyətinə görə böyük iqtisadi güc olan mərkəzi emissiya bankıdır".[2] Mərkəzi bank hər bir müasir dövlətin pul-kredit və maliyyə sisteminin əsas həlqəsidir.

---

[1] https://www.cbar.az/page-4/history

[2] Яснопольский Л.Н. Государственный банк // Вопросы государственного хозяйства и бюджетного права. СПб., 1907. с. 233.

D.V. Drobışev, A.V. Konov və D.V. Vasilyev haqlı olaraq bu halda qeyd edirlər ki, mərkəzi emissiya bankı hər bir müasir mədəni dövlətin ayrılmaz hissəsidir.[1]

Azərbaycan Respublikasının Mərkəzi Bankı ölkənin bank sistemində mühüm yer tutur. Mərkəzi Bankın statusunun müəyyən edilməsi ölkənin bank sisteminin səmərəli fəaliyyətini və dayanaqlığını təmin etmək üçün, habelə Mərkəzi Bankın səlahiyyətlərinin dövlət hakimiyyəti orqanlarının səlahiyyətlərindən fərqləndirilməsi üçün zəruridir.

Azərbaycan Respublikası Mərkəzi Bankın fəaliyyətinin **əsas məqsədi** qanunvericiliklə müəyyən edilmiş öz səlahiyyətləri daxilində qiymətlərin sabitliyinin təmin edilməsidir. Azərbaycan Respublikası Mərkəzi Bankın fəaliyyətinin məqsədi banklararası mərkəzləşdirilmiş və digər lisenziyalaşdırılmayan ödəniş sistemlərinin təşkili və fəaliyyətinin təmin edilməsi, habelə bank sisteminin sabitliyinə dəstəyin göstərilməsindən ibarətdir.

Mənfəət götürmək Mərkəzi Bankın əsas məqsədi deyildir. Lakin, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikasının 29 dekabr 2015-ci il tarixli 97-VQ nömrəli Qanununun 3-cü maddəsinin 1-ci hissəsinə nəzər yetirsək aydın olar ki, publik hüquqi şəxslər sahibkarlıq fəaliyyəti ilə yalnız o hallarda məşğul ola bilərlər ki, bu fəaliyyət onların yaradılması zamanı və nizamnaməsində qarşıya qoyulmuş məqsədlərə nail olmağa xidmət etsin və bu məqsədlərə uyğun gəlsin. Deyilənlərdən belə qənaətə gəlmək olar ki, Mərkəzi Bankın publik hüquqi şəxs olması heç də onun qarşıya qoyulmuş məqsədlərə nail olmaqdan ötrü sahibkarlıq fəaliyyəti ilə məşğul olmasına dəlalət etmir. Çünki Mərkəzi Bankın fəaliyyətini tənzim edən, onun məqsədlərini, funksiyalarını, səlahiyyətlərini təsbit edən Azərbaycan Res-

---

[1] Васильев Д.В., Дробышев П.Ю., Конов А.В. Объективные факторы коррупции, складывающиеся при осуществлении регулятивных и контрольно-надзорных полномочий Центральным банком Российской Федерации. М., 2002. с. 6.

publikasının "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" AR Qanununda bu barədə birbaşa göstəriş təsbit olunmuşdur.

"Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" AR Qanununun 4-cü maddəsi Azərbaycan Respublikası Mərkəzi Bankın qarşısında əsas **üç məqsədini** müəyyən etmişdir: qiymətlərin sabitliyinin təmin edilməsi, banklararası mərkəzləşdirilmiş və digər lisenziyalaşdırılmayan ödəniş sistemlərinin təşkili və fəaliyyətinin təmin edilməsi, habelə bank sisteminin sabitliyinə dəstəyin göstərilməsi.

**Birinci məqsəd** – monetardır.[1] Qanunvericiliklə, manatın sabitliyini təmin etmək üçün Mərkəzi Bankın istifadə edə biləcəyi çoxlu sayda vasitələr var. Belə ki, daxili bazarda Azərbaycan Respublikası Mərkəzi Bankı xarici valyutanın alqı- satqısını həyata keçirir, kredit təşkilatları üçün məcburi ehtiyatların həcmini müəyyən edir və s.

"Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" AR Qanununun 10-cu maddəsinə görə AR Mərkəzi Bankın kapitalı onun nizamnamə fondundan və kapital ehtiyatlarından ibarətdir. AR Mərkəzi Bankının nizamnamə fondu **500 (beş yüz) milyon manat** təşkil edir. Həmçinin, AR Mərkəzi Bankın kapital ehtiyatları onun nizamnamə fondundan az olmamaq şərti ilə hesabat ilinin mənfəətindən ayırmalar hesabına formalaşdırılır. Lakin tamamilə fərqli vəziyyətə Yaponiyanın qanunvericiliyində rast gəlmək mümkündür. Belə ki, Yaponiya Bankının nizamnamə kapitalı 100 (yüz) million iyen ( təqribən 916340 dollar) təşkil edir və Yaponiya Bankının 55% səhmi dövlətə məxsusdur, səhmlərin 45%-i isə Jasdaq birjasında azad şəkildə ticarəti aparılır.[2]

---

[1] monetarizm – fransız sözü *monétarisme* olub, mənası pul, maliyyə deməkdir. Monetarizm - dövriyyədə olan pul kütləsinin dövlətin həyata keçirdiyi iqtisadi siyasətdə həlledici rol oynadığı barədə iqtisadi nəzəriyyədir.

[2] Правовое регулирование финансового контроля в Российской Федерации: проблемы и перспективы: монография / отв. ред. Е.Ю.Грачева. М. НОРМА, ИНФРА-М, 2013. с. 184

AR Mərkəzi Bankın hüquqi statusu özündə aşağıdakı elementləri ehtiva edir:

➢ **Mərkəzi Bankın təşkilati-hüquqi forması** - "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanununun 2-ci maddəsinə görə Mərkəzi Bank publik hüquqi şəxsdir. "Publik hüquqi şəxslər haqqında" AR Qanununun 2-ci maddəsinə əsasən publik hüquqi şəxs-dövlət və bələdiyyə adından və ya publik hüquqi şəxs tərəfindən yaradılan, ümumdövlət və ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olan dövlət və ya bələdiyyə orqanı olmayan təşkilatdır.

Mərkəzi Bankın təşkilati-hüquqi forması ilə yanaşı hakimiyyətin bölgüsü sistemində Mərkəzi Bankın yeri barədə mübahisələr hüquq ədəbiyyatlarında geniş yer tutur. Burada xüsusilə vurğulanmalıdır ki, qanunverici uzun illərdən bəri Mərkəzi Bankın statusu ilə bağlı hüquq elmində gedən mübahisələrə son qoydu. Nəticə etibarilə, Azərbaycan Respublikasının Mərkəzi Bankı – publik hüquqi şəxsdir, onun Azərbaycan Respublikasının Dövlət gerbi təsvir edilmiş və adı yazılmış möhürü vardır.

"Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" AR Qanununun 6-cı maddəsində isə qeyd olunur ki, Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə müəyyən edilmiş funksiya və səlahiyyətlərini həyata keçirərkən Mərkəzi Bank müstəqildir və bu zaman hər hansı dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanları, fiziki və hüquqi şəxslər onun fəaliyyətinə hər hansı bir səbəbdən bilavasitə, yaxud dolayı yolla məhdudiyyət qoya bilməz, qanuna zidd təsir və müdaxilə edə bilməz".[1]

➢ **Mərkəzi Bankın səlahiyyəti** - Azərbaycan Respublikasının Mərkəzi Bankının **hüquqi statusunun** başlıca elementi kimi onun səlahiyyətləri çıxış edir. Y.A.Qeyvandovun fikrincə, funk-

---

[1] "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanunu. "Azərbaycan Respublikasının qanunvericilik toplusu", 31 dekabr 2004-cü il, № 12, maddə 984.

siyalar dedikdə, "...dövlət orqanlarının və ya hüquqi şəxslərin fəaliyyətinin əsas istiqamətləridir".[1] A.Q. Bratko isə qeyd edir ki, Mərkəzi Bankın funksiyalarında prudensial nəzarəti, valyuta tənzimləməsini, pul-kredit siyasətini həyata keçirən bir təşkilat kimi onun mahiyyəti ifadə olunur.[2] Mərkəzi Bankın funksiyaları onun digər subyektlərə münasibətdə ayrıca subyekt kimi fəaliyyət göstərməsini ifadə edir.

Mərkəzi Bankın qanunvericilikdə təsbit olunan səlahiyyətlərini nəzərdən keçirib qeyd etmək lazımdır ki, Mərkəzi Bankın səlahiyyətlərini aşağıda göstərilən iki qrupa ayırmaq olar:

- ❖ *pul sisteminin tənzimlənməsi sahəsində Mərkəzi Bankın səlahiyyətləri;*
- ❖ *pul-kredit siyasəti sahəsində Mərkəzi bankın səlahiyyətləri.*

"Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" AR Qanununun 5-ci maddəsinə əsasən, AR Mərkəzi Bankı öz məqsədlərinə nail olmaq üçün aşağıdakı **funksiyaları** həyata keçirir:

- ✓ *dövlətin pul və valyuta siyasətini müəyyən edir və həyata keçirir;*
- ✓ *nağd pul dövriyyəsini təşkil edir, Azərbaycan Respublikası Konstitusiyasının 19-cu maddəsinin II hissəsinə və "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" AR Qanuna müvafiq olaraq pul nişanlarının tədavülə buraxılmasını və tədavüldən çıxarılmasını həyata keçirir;*
- ✓ *manatın xarici valyutalara nisbətdə rəsmi məzənnəsini mütəmadi müəyyən edir və elan edir;*
- ✓ *"Valyuta tənzimi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq valyuta tənzimini və nəzarətini həyata keçirir;*

---

[1] Гейвандов Я.А, Центральный банк Российской Федерации. Юридический статус. Организация. Функции. Полномочия. М. Издательство МНИМП. 1997. с. 26

[2] Братко А.Г. Центральный банк м банковской системе России. М. Спарк, 2001. с. 150.

- ✓ *sərəncamında olan beynəlxalq qızıl-valyuta ehtiyatlarını saxlayır və idarə edir;*
- ✓ *qanunvericiliyə uyğun olaraq hesabat tədiyə balansını tərtib edir və ölkənin proqnoz tədiyə balansının hazırlanmasında iştirak edir;*
- ✓ *ölkənin icmal (dövlət və qeyri-dövlət) xarici borc statistikasını və beynəlxalq investisiya balansını tərtib edir, məlumatların ümumiləşdirilməsini və yayılmasını təmin edir;*
- ✓ *banklararası mərkəzləşdirilmiş və digər lisenziyalaşdırılmayan ödəniş sistemlərinin fəaliyyətini təşkil edir, əlaqələndirir, tənzimləyir və onların üzərində nəzarəti qanuna uyğun olaraq həyata keçirir;*
- ✓ *qanunlarla nəzərdə tutulmuş başqa funksiyaları həyata keçirir.*

Bütün göstərilən funksiyalar bank sisteminin fəaliyyətinin tənzimlənməsinə yönəlmişdir. Bu halda AR Mərkəzi Bankı yalnız nəzarət funksiyasını həyata keçirmir, eyni zamanda onun səlahiyyətləri bütün bank sisteminin sabitliyinin təmin edilməsinə yönəlmişdır.

Azərbaycan Respublikasının Mərkəzi Bankının hüquqi statusunun tərkib hissələrindən biri kimi Azərbaycan Respublikasının Mərkəzi Bankın hüquqi məsuliyyəti mühüm əhəmiyyət kəsb edir. “Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında” AR Qanununun 15-ci maddəsinə görə Mərkəzi Bank dövlətin öhdəlikləri üçün, dövlət isə Mərkəzi Bankın öhdəlikləri üçün cavabdeh deyildir.

“Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında” AR Qanununun 20-ci maddəsinə görə Mərkəzi Bankın **təşkilati strukturuna** İdarə Heyəti, mərkəzi aparat, ərazi idarələri daxildir. Mərkəzi Bankın mərkəzi aparatı daxili audit bölməsindən, habelə İdarə Heyətinin müəyyən etdiyi digər struktur bölmələrdən ibarətdir.

Azərbaycan Respublikasının Mərkəzi Bankı İdarə Heyəti tə-

rəfindən idarə olunur. İdarə Heyətinin tərkibi **yeddi nəfərdən** ibarətdir. İdarə Heyətinin tərkibinə sədr, Mərkəzi Bankda daimi əsaslarla işləyən **dörd üzv** və **iki kənar üzv** daxildir.

"Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" AR Qanununun 21–ci maddəsinə əsasən Mərkəzi Bankın İdarə Heyətinin üzvünə dair tələblərin dairəsi təsbit olunmuş, habelə Mərkəzi Bankın İdarə Heyətinin üzvü ola bilməyən şəxslərin dairəsi təsbit olunmuşdur.

Qanunverici Mərkəzi Bankın İdarə Heyətinin üzvünə dair tələbləri müəyyənləşdirməklə, eyni zamanda İdarə Heyətinin üzvü ola bilməyən şəxslərin dairəsini aşağıdakı kimi təsbit edir:

❖ *Azərbaycan Respublikası Milli Məclisinin deputatları;*
❖ *Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları;*
❖ *Azərbaycan Respublikası Nazirlər Kabinetinin üzvləri;*
❖ *Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin üzvləri;*
❖ *bələdiyyələrin seçkili üzvləri;*
❖ *dövlət hakimiyyəti orqanında qulluqda olan şəxslər*
❖ *bələdiyyə orqanında qulluqda olan şəxslər.*

Xüsusilə vurğulamaq lazımdır ki, Mərkəzi Bankın İdarə Heyətinin üzvləri, habelə onların aşağıda göstərilən yaxın qohumları Mərkəzi Bankın nəzarət etdiyi subyektlərdə mühüm iştirak payına malik ola bilməzlər:

✓ *ər-arvad;*
✓ *valideynlər;*
✓ *ər-arvadın valideynləri,*
✓ *baba və nənə;*
✓ *övlad və övladlığa götürülən;*
✓ *qardaş və bacı.*

Mərkəzi Bankın İdarə Heyətinin üzvləri Azərbaycan Respublikası Konastitusiyasının 109-cu maddəsinin 10-cu bəndinə müvafiq olaraq Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikası Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin 1-ci hissə-

sinin 15-ci bəndinə və 2-ci hissəsinə müvafiq Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyəti üzvlərinin vəzifəyə **5 il müddətinə** təyin edilirlər.

Azərbaycan Respublikası Kostitusiyasının 109-cu maddəsinin 10-cu bəndinə əsasən, Azərbaycan Respublikası Prezidenti AR Mərkəzi Bankının İdarə Heyətinin üzvləri sırasından Azərbaycan Respublikası Mərkəzi Bankının sədrini **5 il müddətinə** təyin edir.

## 9.3. Bankın anlayışı, təşkili və idarə olunması

Azərbaycan Respublikasında bank fəaliyyətini tənzim edən qanunvericiliyi nəzərdən keçirsək aydın olar ki, kredit təşkilatı anlayışı altında bankları və bank olmayan kredit təşkilatları başa düşülür. Kredit təşkilatının anlayışı "Banklar haqqında" AR Qanununun 1-ci maddəsində təsbit olunmuşdur. Belə ki, kredit təşkilatı dedikdə, bank, xarici bankın yerli filialı və ya bank olmayan kredit təşkilatı başa düşülür. Analoji mövqeyi Rusiya qanunvericiliyi də tutur. Belə ki, "Banklar və bank fəaliyyəti haqqında" Rusiya Federasiyası Qanununun 1-ci maddəsinin 4-cü hissəsində təsbit olunmuş "kredit təşkilatı" anlayışının tərkib elementi kimi xarici kredit təşkilatları da nəzərdən keçirilir.

"Banklar haqqında" AR Qanununun 1-ci maddəsinə müvafiq olaraq, bank fiziki və hüquqi şəxslərdən depozitlərin və ya digər qaytarılan vəsaitlərin cəlb edilməsi, öz adından və öz hesabına kreditlərin verilməsini, habelə müştərilərin tapşırığı ilə köçürmə və hesablaşma-kassa əməliyyatlarını məcmu halda həyata keçirən hüquqi şəxsdir.

Kredit təşkilatlarının əlamətləri – kredit təşkilatı anlayışının məzmununu təşkil edən elementlərdir. Kredit təşkilatlarına verilən anlayışlardan təhlilindən çıxış edərək qeyd etmək lazımdır ki, kredit təşkilatları aşağıdakı mühüm əlamətlərə malikdir:

❖ ***birincisi,*** *kredit təşkilatı - hüquqi şəxsdir. AR Mülki Məcəlləsinin 43-cü maddəsinə müvafiq olaraq, hüquqi*

*şəxs qanunla müəyyənləşdirilən qaydada dövlət qeydiyyatından keçmiş, xüsusi yaradılmış elə bir qurumdur ki, mülkiyyətində ayrıca əmlakı vardır, öz öhdəlikləri üçün bu əmlakla cavabdehdir, öz adından əmlak və şəxsi qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək, vəzifələr daşımaq, məhkəmədə iddiaçı və ya cavabdeh olmaq hüququna malikdir. Hüquqi şəxsin müstəqil balansı olmalıdır;*

❖ ***ikincisi,*** *kredit təşkilatının məqsədi – gəlir götürməkdir. Demək, kredit təşkilatı kommersiya təşkilatıdır;*

❖ ***üçüncüsü,*** *kredit təşkilatları xüsusi hüquq qabiliyyətinə malikdir. Sahibkarlıq fəaliyyətinin subyekti kimi kredit təşkilatının* ***xüsusi hüquq qabiliyyəti*** *dedikdə, qanunla və ya nizamnamə ilə müəyyən edilmiş fəaliyyət növlərinin həyata keçirilməsi başa düşülür.*

İqtisadi ədəbiyyatlarda bankların təsnifatı bank fəaliyyətini tənzim edən qanunvericilikdən fərqli qaydada verilir. Belə ki, E. Sadıqovun fikrincə, kommersiya banklarının aşağıdakı növlərini qeyd edilir:

✓ *universal (geniş bank əməliyyatlarını həyata keçirən) və ixtisaslaşmış (əsasən, hər-hansı bir növ bank əməliyyatını həyata keçirən, məsələn, depozit əməliyyatları) banklar. Azərbaycanda əsasən universal banklar üstünlük təşkil edir;*

✓ *filialları olan və filialsız banklar;*

✓ *müxtəlif məqsədli proqramların maliyyələşdirilməsi üçün yaranan banklar (inkişaf bankları adlanan) və fəaliyyəti bir təsərrüfat sahəsi və ya konkret proqram miqyası ilə məh- dudlaşmayan banklar;*

✓ *səhmdar və pay bankları;*

✓ *iri, orta və kiçik banklar;*

✓ *nizamnamə kapitalı rezidentlərin – Azərbaycan Respublikasının fiziki və hüquqi şəxslərinin vəsaiti hesabına və qeyri-rezidentlərin – xarici fiziki və hüquqi şəxslərin vəsaiti hesabına yaranan banklar («müştərək banklar»);*

- ✓ *nizamnamə kapitalı qeyri-rezidentlərin – xarici fiziki və hüquqi şəxslərin vəsaiti hesabına yaranan banklar (şərti olaraq «xarici banklar» adlandırılır);*
- ✓ *qeyri-rezident bankların filialları («AR ərazisində xarici investisiyaların iştirakı ilə açılan banklar»). Mərkəzi Bank xarici investisiyanın ölkənin bank sistemində iştirakına limit tətbiq etmişdir. Bu limit Azərbaycan Respublikasında qeydiyyata alınmış xarici investisiyalı bankların ümumi kapitalının bir hissəsi olaraq hesablanır. Bu limitin keçməsi halında Mərkəzi Bank xarici investisiyalı bankları bank əməliyyatlarını keçirmək hüququna verilmiş lisenziyadan məhrum edir;*
- ✓ *istənilən müştəri ilə kredit əməliyyatları aparan banklar və qarşılıqlı kredit bankları. Bu təşkilatların fəaliyyəti kredit kooperasiyası prinsiplərinə əsaslanır. Onlar öz iştirakçılarının (payçılarının, səhmdarlarının) vəsaitlərini cəlb edərək yalnız həmin şəxslərin kreditləşdirilməsini həyata keçirir);*
- ✓ *regional (fəaliyyəti konkret ərazi ilə məhdudlaşır) və qeyri-ərazi bankları (fəaliyyəti konkret ərazi ilə məhdudlaşmayan).*[1]

Bu halda qeyd etmək lazımdır ki, müəllif “kommersiya bankları” ifadəsindən istifadə edir ki, ilk baxışdan belə bir fikir formalaşır ki, banklar kommersiya və qeyri-kommersiya təşkilati-hüquqi formada yaradılır ki, hüquqi nöqteyi-nəzərdən bunu doğru olaraq qəbul etmək olmaz. Belə ki, Azərbaycan Respublikasında banklar açıq səhmdar cəmiyyəti təşkilati formada yaradılır. Səhmdar cəmiyyətləri də öz növbəsində kommersiya təşkilatlarına aiddir.

Bank nəzarətinin təşkili məqsədilə bütün kredit təşkilatları maliyyə vəziyyətindən asılı olaraq aşağıdakı kimi təsnifatlaşdırılır:

---

[1] Elnur Sadıqov. Bank əməliyyatları. Dərs vəsaiti. Bakı: “İqtisad Universiteti” Nəşriyyatı, 2010. Səh.14-15.

- *maliyyə sabitliyi olan kredit təşkilatları;*
- *problemli kredit təşkilatları;*
- *ciddi maliyyə çətinlikləri olan kredit təşkilatları;*
- *kritik maliyyə vəziyyətində olan kredit təşkilatları.*

Bankın onun nizamnaməsi ilə müəyyən edilmiş firma adında mütləq qaydada "bank" sözü olmalıdır. "Bank" sözünün işlədildiyi mətndən bu sözün bank fəaliyyətinə aid edilmədiyi tam aydın olduğu hallardan başqa, bank fəaliyyəti ilə məşğul olmayan hüquqi şəxsin adında "bank" sözünün ("bank" sözü olan söz birləşməsinin) istifadəsi qadağandır.

Bank ən azı **üç hüquqi və ya fiziki şəxs** tərəfindən açıq səhmdar cəmiyyəti formasında yaradılır və fəaliyyət göstərir. Siyasi partiyalar, ictimai birliklər, fondlar və digər qeyri-kommersiya təşkilatları bankın səhmdarı ola bilməzlər. Bank yalnız adlı səhmlər buraxa bilər.

Bankın təsisçiləri AR Mülki Məcəlləsinə müvafiq olaraq nizamnaməsini tərtib edir və təsdiq edir. Bankın nizamnaməsində dəyişikliklər maliyyə bazarlarına nəzarət orqanının qabaqcadan yazılı icazəsi ilə edilir. Bankın nizamnaməsinin notariat qaydada təsdiqlənmiş surəti, bank tərəfindən təsdiqlənmiş daxili reqlamenti, habelə bankın bank fəaliyyəti ilə əlaqədar müqavilələri imzalamaq səlahiyyəti verilmiş vəzifəli şəxslərin siyahısı bank tərəfindən maliyyə bazarlarına nəzarət orqanına bir nüsxədə təqdim edilir və maliyyə bazarlarına nəzarət orqanında saxlanılır.

Hər bir bank ali idarəetmə orqanı olan səhmdarların ümumi yığıncağı, onun idarə olunmasına və işinə nəzarəti həyata keçirən orqan olan Müşahidə Şurası, bankda audit işini təşkil edən Audit Komitəsi və məsul icra orqanı olan İdarə Heyəti tərəfindən idarə olunur.

Bank səhmdarlarının ümumi yığıncağının **müstəsna səlahiyyətlərinə** aşağıdakılar aiddir:

- ✓ *bankın nizamnaməsini qəbul etmək, nizamnaməyə əlavə və dəyişikliklər etmək;*

- ✓ *bankın reqlamentini qəbul etmək və reqlamentə əlavə və dəyişikliklər etmək;*
- ✓ *bankın faiz dərəcələri, aktivlərin yerləşdirilməsi və kateqoriyaları barəsində siyasətini, habelə bankın ümumi maliyyə, uçot, inzibati və kadr siyasətini müəyyənləşdirmək;*
- ✓ *digər hüquqi şəxslərin kapitalında bankın iştirakı barədə qərarlar qəbul etmək, bankın filiallarını və nümayəndəliklərini yaratmaq və fəaliyyətlərinə xitam vermək, onların əsasnamələrini təsdiq etmək;*
- ✓ *növbəti və tələb olunduğu hallarda növbədənkənar auditin keçirilməsi barədə qərar qəbul etmək və bu məqsədlə kənar auditoru təyin etmək;*
- ✓ *bankın büdcəsini qəbul və təsdiq etmək;*
- ✓ *bankın İdarə Heyətinin üzvlərini təyin və azad etmək, İdarə Heyətinin əsasnaməsini təsdiq etmək;*
- ✓ *bankın Müşahidə Şurasının üzvlərini təyin və azad etmək, əsasnaməsini təsdiq etmək, "Banklar haqqında" AR Qanununun tələbləri nəzərə alınmaqla bankın inzibatçılarının işə götürülməsi müddətlərini və şərtlərini müəyyənləşdirmək;*
- ✓ *Müşahidə Şurası üzvlərinin səlahiyyətləri istisna olmaqla, bankın inzibatçılarının bank adından və bank hesabına öhdəliklər qəbul etmək səlahiyyətlərini və həmin səlahiyyətlərin bankın digər əməkdaşlarına verilməsi hüququnun hədlərini müəyyənləşdirmək;*
- ✓ *bank inzibatçılarının kommersiya maraqlarını açıqlaması haqqında qaydaları və həmin qaydalara dəyişiklik və əlavələri qəbul etmək;*
- ✓ *bankın törəmə təsərrüfat cəmiyyətlərini yaratmaq və fəaliyyətlərinə xitam vermək, başqa bankın satın alınması barədə qərarlar qəbul etmək;*
- ✓ *nizamnamə kapitalının artırılması və azaldılması barədə qərarlar qəbul etmək, bank səhmlərinin buraxılması*

*müddətlərini və şərtlərini müəyyənləşdirmək, habelə bankda mühüm iştirak payının əldə edilməsinə razılıq vermək;*

- ✓ *bankın kənar auditor tərəfindən təsdiqlənmiş və Audit Komitəsi tərəfindən tövsiyə edilmiş illik maliyyə hesabatlarını təsdiq etmək, habelə xalis mənfəət hesabına ehtiyatların yaradılması və dividentlərin ödənilməsi barədə qərar qəbul etmək;*
- ✓ *bankın satılması, yenidən təşkili və ləğvi barəsində qərarlar qəbul etmək;*
- ✓ *Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə, Qanunla və bankın nizamnaməsi ilə səlahiyyətinə aid edilmiş digər məsələləri həll etmək.*

Bankın təsis yığıncağı bütün təsisçilər və ya onların nümayəndələri iştirak etdikdə səlahiyyətli sayılır. Səhmdarların sonrakı ümumi yığıncaqları (o cümlədən yenidən və təkrarən çağırılan ümumi yığıncaqlar) bütün səsvermə hüququ olan səhmlərin azı 60 faizinin sahibi olan səhmdarlar iştirak etdikdə səlahiyyətli sayılır.

Nizamnaməyə əlavə və dəyişikliklər edilməsi, Müşahidə Şurası və İdarə Heyəti üzvlərinin təyin və azad edilməsi, bankın satılması, yenidən təşkili, başqa bankın alınması və bankın fəaliyyətinə xitam verilməsi məsələləri üzrə qərarlar yığıncaqda təmsil edilən səhmdarların **75 faiz səs çoxluğu** ilə qəbul olunur.

Bankın Müşahidə Şurasının **səlahiyyətlərinə** aşağıdakılar aiddir:

- ✓ *bankın idarə edilməsinə və fəaliyyətinə nəzarəti həyata keçirmək, o cümlədən bankın İdarə Heyətindən hesabat almaq;*
- ✓ *səhmdarların ümumi yığıncağı və İdarə Heyəti üçün tövsiyələr vermək;*
- ✓ *səhmdarların ümumi yığıncağının hər bir iclasmı bildirişlər göndərmək yolu ilə çağırmaq və səhmdarların, habelə Audit Komitəsinin və İdarə Heyətinin tələbi ilə və onların gündəliyi üzrə keçirilən növbədənkənar iclaslar istisna olmaqla, hər bir iclasın gündəliyini qəbul etmək;*

- ✓ *bank tərəfindən qüvvədə olan qanunvericiliyin pozulması faktını müəyyən etdikdə bu pozuntu barəsində səhmdarların ümumi yığıncağını, Audit Komitəsini və İdarə Heyətini xəbərdar etmək, maliyyə bazarlarına nəzarət orqanına isə bank qanunvericiliyinin və "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinin pozulması faktları barədə bildiriş göndərmək;*
- ✓ *İdarə Heyəti üzvlərini vəzifədən kənarlaşdırmaq, səhmdarların ümumi yığıncağında təsdiq edilənədək onları müvəqqəti olaraq "Banklar haqqında" AR Qanununun 10-cu maddəsinin tələblərinə cavab verən başqa şəxslərlə əvəz etmək;*
- ✓ *bankın Audit Komitəsinin üzvlərini təyin və azad etmək, Audit Komitəsinin əsasnaməsini təsdiq etmək;*
- ✓ *bank ilə İdarə Heyətinin bir və ya bir neçə üzvü arasında mənafelər toqquşması olduğu hallarda bankı idarə və təmsil etmək;*
- ✓ *bankın etibarlı və prudensial idarə olunmasını təmin etmək üçün zəruri olan qaydaları və daxili əsasnamələri qəbul etmək, habelə cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı daxili nəzarət sistemini hazırlamaq və tətbiq etmək;*
- ✓ *bankın kapital ehtiyatları yaradılması haqqında qərar qəbul etmək;*
- ✓ *bankın nizamnamə kapitalının* ***50 faizindən artıq*** *məbləğdə və bankın nizamnaməsində nəzərdə tutulmuş hallarda bank adından müvafiq əqdlərin bağlanmasına icazə vermək;*
- ✓ *səhmdarların ümumi yığıncağının səlahiyyətinə aid olan hallar istisna olmaqla, aidiyyəti şəxslərlə dəyəri bankın aktivlərinin* ***5 faizədək hissəsini*** *təşkil edən əqdin bağlanması haqqında qərar qəbul etmək;*

- ✓ *bankın fəaliyyətinin kompleks və ya ayrı-ayn sahələrinin yoxlanması barədə qərar qəbul etmək;*
- ✓ *kənar və daxili auditorların, habelə yoxlayıcı orqanların yoxlamalarının nəticələrini nəzərdən keçirmək və bu yoxlamaların yekunlarına dair tədbirlər görmək;*
- ✓ *bankın nizamnaməsi və maliyyə bazarlarına nəzarət orqanının normativ xarakterli aktları ilə nəzərdə tutulmuş digər səlahiyyətləri həyata keçirmək.*

Bankın Müşahidə Şurası **3 nəfərdən az olmamaqla**, tək sayda üzvlərdən ibarətdir. Şuranın üzvləri bankın səhmdarlarının ümumi yığıncağı tərəfindən səhmdarlardan və (və ya) kənar şəxslərdən **3 ildən çox olmayan müddətə** təyin edilən fiziki şəxslərdir. Şuranın üzvləri növbəti müddətlərə yenidən seçilə bilərlər. Səhmdarların ümumi yığıncağı Müşahidə Şurasının üzvləri sırasından Müşahidə Şurasının sədrini təyin edir.

Bankın İdarə Heyəti bankın idarə olunması və fəaliyyətinin həyata keçirilməsi üçün məsuliyyət daşıyır. İdarə Heyəti **3 nəfərdən az olmamaqla**, **tək sayda** üzvlərdən ibarətdir. İdarə Heyətinin üzvləri bank səhmdarlarının ümumi yığıncağı tərəfindən **3 ildən çox olmayan müddətə** təyin edilirlər. Onlar növbəti müddətlərə yenidən seçilə bilərlər. Səhmdarların ümumi yığıncağı İdarə Heyətinin üzvlərindən birini İdarə Heyətinin sədri təyin edir. İdarə Heyəti sədrinin səlahiyyətləri İdarə Heyətinin əsasnaməsində müəyyən edilir.

Hər bir bankda müstəqil Audit Komitəsi və daxili audit bölməsi (departament, şöbə və s.) fəaliyyət göstərir. Audit Komitəsinin səlahiyyətlərinə aşağıdakılar aiddir:

- ✓ *bankın audit siyasətini və strategiyasını müəyyən etmək;*
- ✓ *daxili audit planlarını təsdiq etmək və audit bölməsinin fəaliyyətinə nəzarəti həyata keçirmək;*
- ✓ *kənar auditin təyin edilməsi ilə əlaqədar bankın səlahiyyətli idarəetmə orqanlarına təkliflər vermək;*

- ✓ *kənar auditlə birgə işi təşkil etmək, auditin nəticə və tövsiyələrinin həyata keçirilməsinə yardım etmək;*
- ✓ *bankın idarəetmə orqanları ilə kənar auditorlar, habelə nəzarət orqanları arasında əlaqələr qurmaq;*
- ✓ *daxili nəzarət sistemlərinin təkmilləşdirilməsinə dair Səhmdarların Ümumi Yığıncağına və Müşahidə Şurasına təkliflər vermək.*
- ✓ *Maliyyə bazarlarına nəzarət orqanının normativ xarakterli aktları ilə nəzərdə tutulmuş digər səlahiyyətləri həyata keçirmək.*

Bankın Audit Komitəsi **üç nəfərdən az olmamaqla** tək sayda üzvlərdən ibarətdir. Komitənin üzvləri Müşahidə Şurası tərəfindən **3 ildən çox olmayan** müddətə təyin edilir. Komitənin üzvləri növbəti müddətə yenidən seçilə bilər. Müşahidə Şurası Komitənin üzvlərindən birini Komitənin sədri təyin edir. Audit Komitəsinin üzvlərinin əmək haqqı formasında muzdu Müşahidə Şurası tərəfindən təyin edilir. Daxili audit bölməsi (departament, şöbə və s.) Audit Komitəsinin nəzarəti altında fəaliyyət göstərir və bankın icra orqanı ilə qarşılıqlı surətdə bankda daxili nəzarət və risklərin idarə edilməsi sistemlərinin fəaliyyətinin səmərəliliyinə fasiləsiz nəzarəti həyata keçirir. Daxili audit bölməsinin rəhbəri və əməkdaşları Audit Komitəsinin təqdimatı ilə bankın Müşahidə Şurası tərəfindən vəzifəyə təyin edilir və vəzifədən azad olunur.

Bankların yaradılmasına və fəaliyyətinə, o cümlədən onun filialların, şöbələrin və nümayəndəliklərin açılmasına yalnız lisenziya və icazə əsasında yol verilir. Bank üçün lisenziyalarının verilməsində və ləğv edilməsində, habelə filiallar, şöbələr və nümayəndəliklər açmaq üçün banklara icazə verilməsində və verilmiş icazələrin ləğv edilməsində müstəsna hüquqlara maliyyə bazarlarına nəzarət orqanı kimi Azərbaycan Respublikasının Mərkəzi Bankı malikdir.

Bank lisenziyaları və icazələr yazılı formada müddətsiz ola-

raq verilir. Bank lisenziyaları və icazələr yalnız onları almış şəxslər tərəfindən istifadə edilə bilər və üçüncü şəxslərə verilə bilməz. Bank lisenziyaları və icazələr maliyyə bazarlarına nəzarət orqanı tərəfindən verildiyi gündən qüvvəyə minir.

Bank lisenziyası və icazə alınması üçün bankın təsisçiləri və ya qanunvericiliyə müvafiq qaydada vəkil edilmiş şəxslər maliyyə bazarlarına nəzarət orqanına yazılı şəkildə müraciət edirlər. Belə müraciət iki mərhələdən ibarətdir:

- ***ilkin müraciət** - bankın təsisçiləri və ya qanunvericiliyə müvafiq qaydada vəkil edilmiş şəxs (şəxslər) tərəfindən bank lisenziyası almaq üçün ilkin müraciətin edilməsi və ona baxılması (birinci mərhələ);*
- ***yekun müraciət.** bank dövlət qeydiyyatına alındıqdan sonra bank lisenziyası almaq üçün yekun müraciətin edilməsi və ona baxılması (ikinci mərhələ).*

Bank lisenziyası və icazə alınması üçün müraciətə baxarkən maliyyə bazarlarına nəzarət orqanı bankın kapitalında mühüm iştirak paylarının sahiblərinin (hüquqi şəxs olduqda onların icra orqanlarının rəhbərlərinin) və inzibatçıların maliyyə vəziyyəti, peşəkar fəaliyyəti və keçmişdə cinayət məsuliyyətinə cəlb olunub-olunmadıqları haqqında maliyyə, vergi və hüquq mühafizə orqanlarından məlumat ala bilər. Bu tələb sonradan bankda mühüm iştirak payını əldə etmək istəyən şəxslərə (hüquqi şəxs olduqda onların icra orqanlarının rəhbərlərinə), yeni təyin olunan inzibatçılara və bankın törəmə strukturuna çevrilən hüquqi şəxsin icra orqanlarının rəhbərlərinə də şamil edilir. Bu məqsədlə maliyyə, vergi və hüquq mühafizə orqanları maliyyə bazarlarına nəzarət orqanına onun tələb edə biləcəyi məlumatı verir.

Azərbaycan Respublikası Mərkəzi Bankı baxılmaq üçün ona təqdim edilmiş ilkin müraciətdə və ya müraciətə əlavə edilmiş sənədlərdə səhvlər və ya çatışmazlıqlar müəyyən etdikdə, bu barədə müraciət edənlərə **15 təqvim günü müddətində** bildiriş göndərir və onlara bu səhvləri və ya çatışmazlıqları aradan qal-

dırmağı təklif edir. Həmin müddətdə Azərbaycan Respublikası Mərkəzi Bankı müraciət edənlərə yazılı bildiriş göndərməzsə, sənədlər baxılmaq üçün qəbul edilmiş hesab edilir.

Maliyyə bazarlarına nəzarət orqanı ilkin müraciəti bildirişin göndərildiyi gündən **ən geci 90 təqvim günü** müddətində, xarici təsisçilərin iştirakı olduğu halda isə **ən geci 180 təqvim günü** müddətində baxır və müvafiq qərar qəbul edir. Hər bir halda maliyyə bazarlarına nəzarət orqanı qəbul etdiyi qərarı müraciət edənlərə göndərir.

Maliyyə bazarlarına nəzarət orqanının ilkin müraciətə müsbət baxılması haqqında qərarında aşağıdakılar göstərilir:

- ❖ *bankın biznes-planı və təqdim edilmiş sənədlərdə göstərilən bank fəaliyyəti növlərini nəzərə almaqla ödənilməli olan ilkin nizamnamə kapitalının minimum miqdarı.*
- ❖ *bank lisenziyasına daxil edilən bütün məhdudiyyətlər və bunun əsaslandırılması;*
- ❖ *ərizəçilərin bank lisenziyası verilənədək yerinə yetirməli olduqları şərtlər və onlara dair tədbirlər;*

Maliyyə bazarlarına nəzarət orqanı bank lisenziyası almaq üçün ilkin müraciəti rədd etdikdə, öz qərarında bunun səbəblərini göstərməlidir.

Maliyyə bazarlarına nəzarət orqanı bank lisenziyası alınması üçün ilkin müraciətə müsbət baxdıqda, ilkin nizamnamə kapitalının minimum miqdarının köçürülməsi üçün öz balansında həmin bankın müraciəti ilə onun adına hesab açır.

Təsis edilən bank ilkin müraciətinin müsbət baxılması haqqında qərarın qəbul olunduğu gündən **180 təqvim günü müddətində** ilkin nizamnamə kapitalının minimum miqdarını ödəməli və Azərbaycan Respublikasının Mülki Məcəlləsi və ona müvafiq olaraq qəbul edilmiş digər qanunvericilik aktlarına uyğun dövlət qeydiyyatından keçməlidir. Bu müddət ərzində təsis edilən bank korporativ idarəetmə sistemlərini təşkil etməli ("Banklar haqqında" AR Qanununun tələblərinə uyğun idarəetmə orqanlarını ya-

ratmalı, təşkilati strukturu formalaşdırmalı, informasiya texnologiya sistemini tətbiq etməyə hazır olmalı, mühasibat uçotu və hesabatı siyasətini müəyyən etməli, reqlament hazırlamalı, müvafiq rəhbər və minimum işçi heyəti müəyyən etməli), texniki-təchizat və təhlükəsizlik tədbirlərini tamamlamalıdır.

Bank lisenziyası almaq üçün yekun müraciətlərə qanunvericiliklə müəyyən edilmiş sənədləri əlavə etməlidir.

Bankın yekun müraciətinə və ona əlavə edilmiş sənədlərə ən geci **30 təqvim günü müddətində** baxılır. Yekun müraciətdə və (və ya) ona əlavə edilmiş sənədlərdə səhvlər və ya çatışmazlıqlar müəyyən edildikdə, onların aradan qaldırılması üçün maliyyə bazarlarına nəzarət orqanı müraciət edən banka müvafiq bildiriş göndərir. Yenidən təqdim olunmuş sənədlərə maliyyə bazarlarına nəzarət orqanı ən geci **15 təqvim günü müddətində** baxmalıdır.

Bankın və ya xarici bankın yerli filialının bank lisenziyası yalnız maliyyə bazarlarına nəzarət orqanı tərəfindən "Banklar haqqında" AR Qanununda təsbit edilən əsaslardan hər hansı biri olduqda ləğv edilməsi məsələsinə baxılır. Bankların ləğvi və iflası "Banklar haqqında" AR Qanunu əsasında həyata keçirilir.

### 9.4. Bank olmayan kredit təşkilatlarının anlayışı, onların yaradılması və idarə edilməsi

Bank olmayan kredit təşkilatlarının fəaliyyəti "Bank olmayan kredit təşkilatları haqqında" Azərbaycan Respublikasının 26 dekabr 2009-cu il tarixli 933-III nömrəli Qanunu və Azərbaycan Respublikası Mərkəzi Bankının normativ aktları ilə tənzim olunur.[1]

"Bank olmayan kredit təşkilatları haqqında" AR Qanununun 1.0.1.-ci maddəsinə əsasən, **bank olmayan kredit təşkilatı** (bundan sonra – BOKT) xüsusi razılıq (lisenziya) əsasında kreditlərin verilməsi və bu Qanunla nəzərdə tutulmuş digər fəaliy-

[1] Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, №2, maddə 72.

yət növlərini həyata keçirən ixtisaslaşmış kredit təşkilatıdır. "Bank olmayan kredit təşkilatları haqqında" AR Qanunundan fərqli olaraq "Banklar və bank fəaliyyəti haqqında" Rusiya Federasiyası Qanununun 1-ci maddəsinə müvafiq olaraq, bank olmayan kredit təşkilatı – Federal qanunla nəzərdə tutulmuş ayrı-ayrı bank əməliyyatlarını həyata keçirmək hüququ olan kredit təşkilatıdır. Başqa sözlə desək, Rusiya qanunvericisi bank əməliyyatları terminologiyasından istifadə etməklə bank və bank olmayan kredit təşkilatları anlayışları arasında bərabərlik işarəsi qoyur. Fikrimizcə, bunu doğru hesab etmək olmaz. Bu halda Azərbaycan qanunvericisinin mövqeyini daha uğurlu hesab etmək olar. **Əvvəla** qeyd edək ki, "Bank olmayan kredit təşkilatları haqqında" AR Qanununda "bank əməliyyatları" deyil "əməliyyatlar" terminologiyasından istifadə olunur ki, bu da öz növbəsində, bank olmayan kredit təşkilatlarının Azərbaycan Respublikasında həyata keçirdikləri fəaliyyətinə xas olan xüsusiyyəti özündə ehtiva edir. **İkincisi,** "Banklar haqqında" AR Qanununun məzmunundan irəli gələrək qeyd etmək olar ki, bank əməliyyatlarına müştərilərin tapşırığı ilə köçürmə və hesablaşma – kassa əməliyyatlarını, pul vəsaitlərinin əmanətə (depozit) qoyulması, bankın öz hesabına və ya müştərinin hesabına valyuta mübadilələri əməliyyatlarını, müxbir hesabların açılması ilə bağlı əməliyyatları və s. aid etmək olar. Lakin həm "Banklar haqqında", həm də "Bank olmayan kredit təşkilatları haqqında" AR Qanunlarında "kreditlərin verilməsi" kimi anlayışlardan istifadə edilir. Bu halda sual yaranır ki, kreditlərin verilməsi bank əməliyyatları anlayışına daxildirmi, yəni, bank əməliyyatları hesab olunurmu? Əgər olunursa, bu halda belə qənaətə gəlmək olar ki, kredit təşkilatları da bank əməliyyatlarını həyata keçirmiş olur ki, bu da öz növbəsində bank olmayan kredit təşkilatlarının banklarla eyni fəaliyyəti əvəzedici, tamamlayıcı struktur kimi qəbul etməyə imkan yaradır.

BOKT-lar Azərbaycan Respublikasının Mülki Məcəlləsində hüquqi şəxslər üçün nəzərdə tutulmuş təşkilati-hüquqi formada,

Azərbaycan Respublikasının və (və ya) xarici dövlətlərin fiziki və hüquqi şəxsləri, habelə beynəlxalq təşkilatlar tərəfindən təsis edilə bilərlər. Qeyri-kommersiya BOKT-ları yalnız fond formasında, Azərbaycan Respublikasının bağladığı müqavilələrə uyğun olaraq beynəlxalq təşkilatlar, habelə xarici ölkələrin dövlət büdcəsindən maliyyələşdirilən qeyri-hökumət təşkilatları tərəfindən təsis edilə bilərlər. Qeyri-kommersiya BOKT-ları kommersiya təşkilatları yarada və ya onlarda iştirak edə bilməzlər.

BOKT-un adında "bank olmayan kredit təşkilatı" sözləri mütləq olmalıdır. BOKT-un minimum nizamnamə (şərikli) kapitalı, habelə qeyri-kommersiya hüquqi şəxs kimi yaradılan BOKT-un təsisçilərinin əmlak haqları pul şəklində ödənilməlidir. Nizamnamə (şərikli) kapitalı (əmlak haqları) Azərbaycan Respublikasının milli valyutasında formalaşdırılmalıdır.

Bank olmayan kredit təşkilatların **əsas əlamətlərinə** aşağıda göstərilənləri aid etmək olar:

- bank olmayan kredit təşkilatları hüquqi şəxs statusuna malikdir;
- bank olmayan kredit təşkilatı gəlir götürülməsinə yönələn fəaliyyətlə məşğul olan sahibkarlıq fəaliyyətinin subyektidir. Bu fikir B.N.Toporninin elmi redaktoru olduğu "Rusiya Federasiyasının bank hüququ" dərsliyində geniş yer alır;[1]
- bank olmayan kredit təşkilatı istənilən mülkiyyət formasında yaradıla bilər. D.Q. Alekseyevanın və E.Q.Xomenkonun fikrincə, bu əlaməti kredit təşkilatlarına, o cümlədən bank olmayan kredit təşkilatlarına aid etmək olar.[2]

Təşkilati-hüquqi formasından asılı olmayaraq BOKT-un təşkilati strukturunda ən azı aşağıdakı vəzifələr nəzərdə tutulmalıdır:

---

[1] Банковское право Российской Федерации. Общая часть: Учеб. / Под общ. ред. акад. Б.Н. Топорнина. М.: Юрист, 2002. с. 198.

[2] Алексеева Д.Г., Хоменко Е.Г. Банковское право: Вопросы и ответы. М.: Юриспруденция, 2002. с. 15.

- rəhbər (direktor, kollegial icra orqanının rəhbəri);
- mühasibat xidmətinin rəhbəri (baş mühasib, maliyyə meneceri);
- kredit mütəxəssisi;
- daxili auditor.

BOKT-un inzibatçıları **ali təhsilə** və **ən azı bir illik iş təcrübəsinə** malik olmalıdırlar. Mühasibat xidmətinin rəhbəri ali iqtisadi təhsilə və müvafiq ixtisas üzrə **ən azı bir illik iş təcrübəsinə** və ya orta ixtisas təhsilinə və müvafiq ixtisas üzrə **ən azı 5 illik iş təcrübəsinə** malik olmalıdır, baş mühasib və ya bu vəzifələri icra edən şəxs peşəkar mühasib olmalıdır.

Həmçinin qanunvericiliklə müəyyən edilmiş qaydada müvafiq vəzifənin tutulması qadağan edilən, habelə qəsdən törədilmiş cinayətlərə görə məhkumluğu olan şəxslər BOKT-un inzibatçıları ola bilməzlər.

Bank olmayan kredit təşkilatları iki növə bölünür - **girov əmanəti qəbul etmək hüququ olan** və **belə hüququ olmayan kredit təşkilatları**. Lakin Rusiya Federasiyasında bank olmayan kredit təşkilatları da iki qrupa ayrılır: **hesablaşma bank olmayan kredit təşkilatları** və **depozit-kredit bank olmayan kredit təşkilatları.**

Azərbaycan Respublikası Maliyyə Bazarlarına Nəzarət Palatasının 7 iyun 2017-ci il tarixdə qəbul edilmiş və 21 iyun 2017-ci il tarixdə qüvvəyə minmiş "Bank olmayan kredit təşkilatlarının prudensial tənzimlənməsi Qaydaları"nın 4.3.-cü bəndinə görə bank olmayan kredit təşkilatları həm kommersiya, həm də qeyri-kommersiya təşilati-hüquqi formada yaradılır. Qeyd edək ki, qeyri-kommersiya hüquqi şəxsi olan BOKT **fond formasında** yaradılır və fəaliyyət göstərir.

"Bank olmayan kredit təşkilatlarının prudensial tənzimlənməsi Qaydaları"nın 4.3-cü bəndinə əsasən, kommersiya hüquqi şəxsi kimi yaradılan BOKT üçün **300000 (üç yüz min)**, qeyri-kommersiya hüquqi şəxs kimi yaradılan (fond) BOKT üçün –

**30000 (otuz min) manat** məbləğində nizamnamə (şərikli) kapitalına (əmlak haqlarına) dair minimum tələblər müəyyən edilmişdir.

Xarici ölkələrin ərazisində fəaliyyət göstərən bank olmayan kredit təşkilatları Azərbaycan Respublikasında yalnız girov əmanəti qəbul etmək hüququ olmayan filiallar təsis edə bilər. Belə filiallara lisenziyaların verilməsi, onların fəaliyyətinin tənzimlənməsi və fəaliyyətləri üzərində nəzarət qanunla müəyyən edilmiş qaydada həyata keçirilir.

Bank olmayan kredit təşkilatlarının dövlət qeydiyyatı və lisenziyalaşdırılması bank olmayan kredit təşkilatlarının fəaliyyətinin hüquqi tənzimlənməsinin ən vacib və əsas mərhələsidir. Bank olmayan kredit təşkilatlarının fəaliyyətinin hüquqi tənzimlənməsinin digər məqamı bank olmayan kredit təşkilatlarının fəaliyyətinə dair prudensial normativlərin və tələblərin Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən müəyyən edilməsidir: bank olmayan kredit təşkilatları üçün nizamnamə (seçkili) kapitalının (əmlak haqları) minimum miqdarı; girov əmanəti qəbul etmək hüququ olan bank olmayan kredit təşkilatları üçün bir borcalana və birgə borcalanlar qrupuna verilən kreditlərin maksimum miqdarı; aidiyyəti şəxslərə verilən kreditlərin maksimum məbləği və həmin şəxslərlə aparılan əməliyyatlara dair tələblər; aktivlərin, balansarxası öhdəliklərin təsnifatından və qiymətləndirilməsindən asılı olaraq mümkün zərərin ödənilməsi üçün xərclər hesabına yaradılan xüsusi ehtiyatlara dair tələblər.

Kreditlərin verilməsi üçün BOKT maliyyə bazarlarına nəzarət orqanından xüsusi razılıq (lisenziya) almalıdır. Bu halda qeyd olunmalıdır ki, bank olmayan kredit təşkilatlarının fəaliyyətinin lisenziyalaşdırılması hüquq qabiliyyətinin məhdudlaşdırıcı üsulu deyil, dövlət nəzarətinin formasıdır.

Girov əmanəti qəbul etmək üçün BOKT-un lisenziyasında bu barədə xüsusi icazə olmalıdır. Belə icazə olmadan BOKT-un girov əmanəti qəbul etməsi qadağandır. BOKT-a verilən lisenziya

**müddətsizdir.** Lisenziya maliyyə bazarlarına nəzarət orqanı tərəfindən verildiyi gündən qüvvəyə minir. Lisenziya yalnız onu almış BOKT tərəfindən istifadə edilə bilər.

Lisenziyanın alınması üçün müraciətə maliyyə bazarlarına nəzarət orqanı tərəfindən **30 gün müddətində** baxılır. Təqdim edilmiş sənədlərdə çatışmazlıqlar aşkar olunduqda maliyyə bazarlarına nəzarət orqanı onların aradan qaldırılması barədə ərizə qəbul edildikdən sonra **15 gündən gec** olmayaraq müraciət edənə yazılı bildiriş göndərir. Çatışmazlıqlar aradan qaldırıldıqdan sonra maliyyə bazarlarına nəzarət orqanı **15 gün müddətində sənədlərə** baxır və müvafiq qərar qəbul edir.

Qanunvericilikdə lisenziyanın verilməsindən imtinanın əsasları aşağıdakılardan ibarətdir:

- ❖ *təqdim olunmuş sənədlər qanunvericiliyin tələblərinə cavab vermədikdə və ya məlumatlar yanlış olduqda;*
- ❖ *maliyyə bazarlarına nəzarət orqanı tərəfindən tələb olunan minimum nizamnamə (şərikli kapitalının ödənilməsi və ya təsisçilərin əmlak haqlarının formalaşdırılması barədə bank sənədi təqdim edilmədikdə;*
- ❖ *inzibatçılar peşə yararlılığı tələblərinə cavab vermədikdə və (və ya) onların qəsdən törədilmiş cinayətlərə görə məhkumluğu olduqda.*

"Bank olmayan kredit təşkilatları haqqında" AR Qanununun 12-ci maddəsinin 2-ci hissəsinə görə maliyyə bazarlarına nəzarət orqanı lisenziyanın verilməsindən imtina etdikdə, müraciət edənə imtinanın səbəblərini göstərməklə yazılı məlumat verir. Lisenziyanın verilməsindən imtina barədə maliyyə bazarlarına nəzarət orqanın qərarından qanunvericilikdə nəzərdə tutulmuş qaydada məhkəməyə şikayət verilə bilər.

BOKT maliyyə bazarlarına nəzarət orqanından aldığı lisenziya əsasında təminatlı və təminatsız kreditlər verə bilər. BOKT tərəfindən verilən kreditlər daşınan və daşınmaz əmlakın girovu, girov əmanəti, qarantiya, zaminlik və qanunvericiliklə nəzərdə

tutulmuş digər üsullarla təmin oluna bilər. Girov əmanəti yalnız maliyyə bazarlarına nəzarət orqanın BOKT-a verdiyi lisenziyada bu barədə xüsusi icazə olduqda qəbul edilə bilər.

Kreditlərin verilməsi üçün lisenziya almış BOKT aşağıdakı fəaliyyət növlərini də həyata keçirə bilər:

❖ *borc öhdəliklərinin alqı-satqısı (faktorinq, forfeytinq);*
❖ *lizinq;*
❖ *veksellərin uçotu;*
❖ *qarantiyanın verilməsi;*
❖ *sığorta agenti xidmətinin göstərilməsi;*
❖ *borc alanlara, o cümlədən birgə borcalan qruplarına maliyyə, texniki və idarəetmə məsələləri üzrə məsləhət xidmətinin göstərilməsi.*

BOKT-un hüquqi və fiziki şəxslərdən əmanət (depozit) cəlb etməsi qadağandır. Məhz bu, bank olmayan kredit təşkilatların banklardan fərqləndirən əsas cəhətlərdən biri kimi çıxış edir.

"Bank olmayan kredit təşkilatları haqqında" AR Qanununun 16-cı maddəsinə əsasən BOKT-ların fəaliyyəti aşağıdakı mənbələr hesabına maliyyələşdirilə bilər:

❖ *nizamnamə (şərikli) kapitalı (əmlak haqları) və əldə edilmiş gəlirlər;*
❖ *cəlb edilmiş kreditlər;*
❖ *fiziki və hüquqi şəxslərin ianələri, qrantları və digər formalarda əvəzsiz olaraq ayırdıqları vəsaitlər;*
❖ *qanunvericilikdə qadağan olunmayan digər mənbələrdən əldə edilən vəsaitlər.*

BOKT-un fəaliyyətinə nəzarət **iki formada** həyata keçirilir: **daxili** və **xarici nəzarət** formalarında. Belə ki, BOKT-un fəaliyyətinə **daxili nəzarət** onun nizamnaməsində müəyyən edilmiş idarəetmə orqanı tərəfindən həyata keçirilir.

BOKT fəaliyyəti barədə prudensial tələblərə dair hesabatları maliyyə bazarlarına nəzarət orqanı tərəfindən müəyyən edilmiş forma və məzmunda hər hesabat rübü başa çatdıqdan sonra **10**

**gündən gec olmayaraq** maliyyə bazarlarına nəzarət orqanına təqdim etməlidir.

Maliyyə bazarlarına nəzarət orqanı BOKT-un fəaliyyətini "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" AR Qanununa uyğun olaraq yoxlayır.

"Bank olmayan kredit təşkilatları haqqında" AR Qanununun 25-ci maddəsinə əsasən, BOKT-un lisenziyası və ya filiallara verilmiş icazələr aşağıdakı bir və ya bir neçə əsas olduqda maliyyə bazarlarına nəzarət orqanı tərəfindən ləğv edilə bilər:

- ✓ *BOKT tərəfindən müvafiq ərizə təqdim edildikdə;*
- ✓ *lisenziya və ya icazə almaq üçün BOKT tərəfindən təqdim edilmiş məlumatların yanlış olduğu müəyyən edildikdə;*
- ✓ *BOKT və ya onun filialı lisenziyanın və ya icazənin qüvvəyə* ***mindiyi gündən on iki ay müddətində*** *fəaliyyətə başlamadıqda;*
- ✓ *fəaliyyətində yol verdiyi pozuntuların aradan qaldırılması barədə maliyyə bazarlarına nəzarət orqanının və ya Mərkəzi Bankın göstərişlərinə əməl etmədikdə;*
- ✓ *tələb olunan hesabatları ardıcıl olaraq iki hesabat tarixinə maliyyə bazarlarına nəzarət orqanına təqdim etmədikdə və ya maliyyə bazarlarına nəzarət orqanına təhrif olunmuş hesabat təqdim etdikdə;*
- ✓ *qanunla nəzərdə tutulmamış və ya lisenziyasında qadağan edilmiş fəaliyyəti həyata keçirdikdə;*
- ✓ *qanunvericiliyə müvafiq olaraq BOKT ləğv olunduqda və ya müflis elan edildikdə.*

Lisenziyanın ləğv edilməsi haqqında qərar dərhal BOKT-a, qərarın qüvvəyə mindiyi gündən **5 iş günündən gec olmayaraq** isə müvafiq vergi orqanına göndərilir, habelə kütləvi informasiya vasitələrində dərc edilir. BOKT-un filialına verilmiş icazənin ləğvi barədə bildiriş maliyyə bazarlarına nəzarət orqanının qərarı qüvvəyə mindiyi gündən BOKT-a göndərilir.

## Mövzu üzrə nəticə:

**Bank fəaliyyəti dedikdə,** bank xidmətlərinin təhlükəsizliyinin yüksəlməsinə və səmərəliyinin inkişafına bilavasitə yönələn və əsas məqsədi mənfəət götürülməsi olan kredit təşkilatları tərəfindən həyata keçirilən bank əməliyyatları və digər hərəkətlərdir. Bank fəaliyyəti həm geniş mənada, həm də dar mənada nəzərdən keçirilir. **Dar mənada bank fəaliyyəti dedikdə**, kredit təşkilatları tərəfindən bank əməliyyatlarını və bank əqdlərini məcmu halda həyata keçirilməsini özündə əks etdirən sahibkarlıq fəaliyyətinin bir növüdür. **Geniş mənada bank fəaliyyəti dedikdə**, həm əsas, həm də köməkçi bank fəaliyyəti aid edilir. **Əsas bank fəaliyyəti dedikdə,** bank əməliyyatlarını həyata keçirən və əqdləri bağlayan kredit təşkilatlarının fəaliyyəti başa düşülür. **Köməkçi bank fəaliyyəti dedikdə** isə əsas təhlükəsiz və əlverişli şəraitin təmin edilməsinə yönəlmiş fəaliyyət başa düşülür. Bu fəaliyyət dolayısı ilə əsas bank fəaliyyətinin nəticələri ilə əlaqədardır.

Azərbaycan Respublikasının bank sistemində **birinci pilləsində** maliyyə bazarlarına nəzarət orqanı durur. Maliyyə bazarlarına nəzarət orqanı kimi maliyyə bazarlarında tənzimləmə və nəzarəti həyata keçirən Azərbaycan Respublikası Mərkəzi Bankı çıxış edir. **İkinci pillədə** isə "Banklar haqqında" AR Qanununun 1-ci maddəsinə müvafiq olaraq, kredit təşkilatı – bank, xarici bankın yerli filialı və ya bank olmayan kredit təşkilatıdır.

Mərkəzi Bank publik hüquqi şəxsdir. Pul nişanlarının tədavülə buraxılması və tədavüldən çıxarılması yalnız Mərkəzi Banka mənsubdur. Mərkəzi Bank dövlətin müstəsna mülkiyyətindədir. Mərkəzi Bankın fəaliyyətinin **əsas məqsədi** öz səlahiyyətləri daxilində qiymətlərin sabitliyinin təmin edilməsidir. Azərbaycan Respublikası Mərkəzi Bankın fəaliyyətinin **əsas məqsədi** qanunvericiliklə müəyyən edilmiş öz səlahiyyətləri daxilində qiymətlərin sabitliyinin təmin edilməsidir. Azərbaycan Respublikası Mərkəzi Bankın fəaliyyətinin məqsədi banklararası

mərkəzləşdirilmiş və digər lisenziyalaşdırılmayan ödəniş sistemlərinin təşkili və fəaliyyətinin təmin edilməsi, habelə bank sisteminin sabitliyinə dəstəyin göstərilməsindən ibarətdir. AR Mərkəzi Bankın hüquqi statusu özündə aşağıdakı elementləri ehtiva edir: **təşkilati-hüquqi forma, səlahiyyəti və strukturu.**

AR Mərkəzi Bankın təşkilati strukturuna İdarə Heyəti, mərkəzi aparat, ərazi idarələri daxildir. Mərkəzi Bankın mərkəzi aparatı daxili audit bölməsindən, habelə İdarə Heyətinin müəyyən etdiyi digər struktur bölmələrdən ibarətdir. Azərbaycan Respublikasının Mərkəzi Bankı İdarə Heyəti tərəfindən idarə olunur. İdarə Heyətinin tərkibi **yeddi nəfərdən** ibarətdir. İdarə Heyətinin tərkibinə sədr, Mərkəzi Bankda daimi əsaslarla işləyən **dörd üzv** və **iki kənar üzv** daxildir.

Bank ən azı **üç hüquqi və ya fiziki şəxs** tərəfindən açıq səhmdar cəmiyyəti formasında yaradılır və fəaliyyət göstərir. Siyasi partiyalar, ictimai birliklər, fondlar və digər qeyri-kommersiya təşkilatları bankın səhmdarı ola bilməzlər. Bank yalnız adlı səhmlər buraxa bilər.

Bank fiziki və hüquqi şəxslərdən depozitlərin və ya digər qaytarılan vəsaitlərin cəlb edilməsi, öz adından və öz hesabına kreditlərin verilməsini, habelə müştərilərin tapşırığı ilə köçürmə və hesablaşma-kassa əməliyyatlarını məcmu halda həyata keçirən hüquqi şəxsdir. Bank ali idarəetmə orqanı olan **səhmdarların ümumi yığıncağı**, onun idarə olunmasına və işinə nəzarəti həyata keçirən orqan olan **Müşahidə Şurası**, bankda audit işini təşkil edən **Audit Komitəsi** və məsul icra orqanı olan **İdarə Heyəti** tərəfindən idarə olunur.

**Bank olmayan kredit təşkilatı -** xüsusi razılıq (lisenziya) əsasında kreditlərin verilməsi və bu Qanunla nəzərdə tutulmuş digər fəaliyyət növlərini həyata keçirən ixtisaslaşmış kredit təşkilatıdır. Bank olmayan kredit təşkilatları iki növü var: **girov əmanəti qəbul etmək hüququ olan** və **girov əmanəti qəbul etmək hüququ olmayan kredit təşkilatları**.

## Mövzunun mənimsənilməsi üçün tövsiyə olunan ədəbiyyat:

***a) əsas ədəbiyyat:***


1. "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının 10 dekabr 2004-cü il tarixli 802-IIQ nömrəli Qanunu.
2. "Banklar haqqında" Azərbaycan Respublikasının 16 yanvar 2004-cü il tarixli 590-IIQ nömrəli Qanunu.
3. "Bank olmayan kredit təşkilatları haqqında" Azərbaycan Respublikasının 25 dekabr 2009-cu il tarixli 933-IIIQ nömrəli Qanunu.
4. Mirzəyeva A.Q., Əliyeva Ə.Ə. Bank hüququ. Dərslik. Bakı, 2019.
5. Mirzəyeva A.Q., Əliyeva Ə.Ə. Bank hüququ. Dərs vəsaiti. Bakı, ADMİU-nun mətbəəsi, 2019.
6. İsayev A. Azərbaycan Respublikası qanunları əsasında bankların yaradılmasının nəzəri və praktiki aspektləri. "Qanun" jurnalı, № 02, 2006. Səh. 41-46.
7. Ağayev Q. Qiymətli kağızlar bazarının mahiyyəti. «Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri. Elmi məqalələr məcmuəsi». 21-ci buraxılış. Bakı, "Adiloğlu", 2008. Səh.187-192.
8. Братко А.Г. Банковское право России. М.: 2003 г.
9. Вишневский А.А. Банковское право. Краткий курс лекций. М.: 2004 г.
10. Жуков Е.Ф. Деньги, кредит, банки. М.: ЮНИТИ-ДАНА, 2008.
11. Коробова Г.Г. Банковское дело. М.: Юристъ, 2014.
12. Парамонова Т.В. Принципы регулирования банковской сферы. М.: Финансы и статистика, 2015.
13. Лаврушин О.И. Деньги, кредит, банки. М.: Финансы и статистика, 2013.

14. Мадатов Я.Г. Правовое регулирование банков-ской деятельности и валютных операций: Конспект лекций. Краснодар: НЭЦПО КК, 2012 г.

### *b) əlavə ədəbiyyat:*

15. Алексеев Д.Г. Применение систем удаленного доступа в банковских расчетах // Закон. 2006. № 1.

16. Авраменко Ю. Совместные формы международной банковской деятельности // Экономист. 2006. № 4.

17. Борисов С.М., Коротков П.А. Банковская система России: состояние и перспективы. // Деньги и кредит. 2014. №8. с. 25-37.

18. Ерпылева Н. Механизм правового регулирования банковской деятельности // Хозяйство и право. 2015. № 2. с.34-45.

19. Козлов А.А. Некоторые актуальные вопросы развития банковского сектора России. // Деньги и кредит. 2014. № 2. с. 11-15.

20. Ларина Л.С. Организация деятельности Центрального Банка Российской Федерации. М.: Юриспруденция, 2014.

21. Матюхин Г.Г. Центральный банк: проблемы операций на открытом рынке. // Банковское дело. 2014. № 9. с. 22-25.

22. Порамарчук А. А. Законодательство о банках и банковской деятельности. М.: Законность, 2013.

23. Маркунцов С.А. О необходимости законодательного закрепления понятия "банковская деятельность" // Российская юстиция. - № 4. - 2006 г.

24. Пастушенко Е. Правовое значение официальных разъяснений Банка России // Российская юстиция. № 11, ноябрь 2001 г.

# X FƏSİL
# İNVESTİSİYA FƏALİYYƏTİNİN HÜQUQİ TƏNZİMLƏNMƏSİ

## 10.1. İnvestisiya və investisiya fəaliyyətinin anlayışı və növləri

Bildiyimiz kimi, Azərbaycan iqtisadiyyatı uzun müddət inzibati-amirlik metodları ilə idarə olunurdu. Müstəqillik əldə etdikdən sonrakı ilk illərdə ölkə iqtisadiyyatı özünün tənəzzül dövrünü yaşayırdı. İstehsal vasitələri üzərində dövlət mülkiyyəti mövcud olduğundan özəlləşdirməyə xüsusilə ehtiyac duyulurdu.

Müstəqillik əldə etdikdən sonra "Sahibkarlıq fəaliyyəti haqqında" 15 dekabr 1992-ci il tarixli 405 nömrəli, "Xarici investisiyanın qorunması haqqında" 15 yanvar 1992-ci il tarixli 57 nömrəli AR Qanunlarının qəbul edilməsi o dövrdə heç də ölkə iqtisadiyyatında mövcud olan problemin nəinki aradan qaldırılmasına, hətta bu problemin yaratdığı neqativ tendensiyalara təsiri belə yox səviyyəsində idi. Çünki, qəbul edilən qanunlar sadəcə olaraq "ağ kağız üzərində yazıdan başqa bir şey deyildir". Belə ki, bu qanunların müstəqilliyin ilk illərində realizəsi mexanizminin mövcud deyildir. Daha dəqiq desək, özəlləşdirmənin aparılmaması, istehsal müəssisələrinin hələ də dövlət mülkiyyətində olması, habelə həmin dövrdə ictimai-siyasi sabitliyin olmaması, ölkədə anarxiya və özbaşınalığın hökm sürməsi, kriminogen durumun dövlətin nəzarətindən çıxması və s. bu kimi ölkə iqtisadiyyatına, habelə ölkədə investisiya qoyuluşunun həyata keçirilməsinə mənfi təsir göstərən səbəblər bu qanunların tətbiqini məhdudlaşdırırdı.

Ölkə iqtisadiyyatının bazar iqtisadiyyatı prinsipləri üzərində qurulması və inkişaf etdirilməsi, onun dayanaqlı olması üçün investisiyalara, xüsusilə də xarici investisiyalara böyük ehtiyac

duyulurdu. Bunun üçün isə ölkədə ictimai, siyasi və hüquqi şərait yaradılmalı idi.

Xalqın təkidli tələbi ilə hakimiyyətə gələn ulu öndər Heydər Əliyev tərəfindən mərkəzləşdirilmiş hakimiyyətin formalaşdırılması, kriminogen durumun nəzarətə götürülməsi, ölkədə sürən anarxiya, özbaşınalığın aradan qaldırılması və s. istiqamətlərdə mühüm addımlar atılmışdır.

Müstəqil dövlətimizin ilk Milli Konstitusiyasının qəbul edilməsi ilə qanunvericilik bazasının formalaşması mərhələsinə ilk addımlar atıldı. Bu halda xüsusilə "Dövlət əmlakının özəlləşdirilməsi haqqında", "Torpaq islahatı haqqında", "Aqrar islahatların əsasları haqqında" və s. AR Qanunlarının qəbul edilməsini göstərmək olar.

Ölkəmizə xarici investisiya axımının başlanğıcı kimi 20 sentyabr 1994-cu ildə "Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının dərinlikdə yerləşən hissənin birgə işlənməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi haqqında" dünyanın 11 ən böyük şirkəti ilə Bakı şəhərində bağlanmış və məhz "Əsrin müqaviləsi" kimi tarixə düşən müqavilə oldu.

Lakin invenstisiyaların cəlb olunmasına təsir edən müəyyən amilləri, xüsusilə də investorlar üçün mühüm əhəmiyyət kəsb edən amilləri qeyd etmək zəruridir. Bu amilləri **3 qrupa** ayırmaq olar:

**1. Siyasi amillər.** Burada dövlətin həm xarici, həm də yerli investorlara olan münasibəti ön plana çəkilir. Xüsusilə də, qanunvericilik səviyyəsində investorlar üçün dövlət təminatlarının müəyyən olunmasıdır. Belə ki, "İnvestisiya fəaliyyəti haqqında" AR Qanununun 12-ci maddəsinə müvafiq olaraq, dövlət tərəfindən investorların "İnvestisiya fəaliyyəti haqqında" AR Qanunu ilə nəzərdə tutulmuş hüquq və azadlıqlarının qorunmasına təminat verilir, investorlara və onların investisiyalarına qarşı əsassız və ayrı-seçkilik yaradan münasibət, hədə-qorxu, təqib və zorakılıq qadağan edilir.

**2. İqtisadi amillər.** Bura əsasən iqtisadiyyatın ümumi vəziyyəti (böhran və yaxud yüksəliş), inflyasiyanın səviyyəsi, valyuta kursunun sabitliyi, işçi qüvvəsinin dəyəri, vergi və gömrük imtiyazları, konkret növ əmtəələrə və xidmətlərə tələb və təkliflər, verilən kreditlərə görə ödənilən faizlər və s. aiddir.

**3. Sosial amilə** cəmiyyətin üzvlərinin xarici kapitala və xüsusi mülkiyyətçiyə münasibəti, cəmiyyət üzvlərinin ideoloji bilik səviyyəsi, işçilərin təşkilatçılıq qabiliyyəti və s. aiddir.

Azərbaycan Respublikasında investisiya fəaliyyətinin həyata keçirilməsi ilə bağlı yaranan münasibətlər "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 22 iyun 2022-ci il tarixli 551-VIQ nömrəli Qanunu ilə tənzim olunur.[1]

İnvestisiya anlayışının təhlilinə keçməzdən əvvəl ilk növbədə investisiya institutuna dair müddəaların düzgün dərk edilməsi məqsədi ilə "investisiya" termininin etimoloji mənasının üzərində dayansaq hesab edirik ki, daha məqsədəmüvafiq olar. Azərbaycan dilinin izahlı lüğətində investisiya – müəyyən bir işə vəsait qoyulması kimi açıqlanır.[2] Rus - Azərbaycan izahlı hüquq lüğətində isə investisiya - kapital qoyma, sərmayə qoyma, hər hansı işə, müəssisəyə gəlir götürmək məqsədilə uzun müddətli kapital qoyuluşudur.[3]

Hüquq və iqtisadi ədəbiyyatlarda "investisiya" termininin tətbiqi ilə bağlı müxtəlif yanaşmalar mövcuddur. Bunun əsas səbəbi ondan ibarətdir ki, "kapital qoyuluşu", "sərmayə" anlayışlarının "investisiya" anlayışı ilə nisbəti məsələsi ilə bağlı müzakirələr davam etməkdədir. Buna baxmayaraq həm "investisiya",

---

[1] Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1995-ci il, №17-18, maddə 275.

[2] Axundov A. Azərbaycan dilinin izahlı lüğəti. Bakı, "Elm" nəşriyyatı, 2005. Səh. 154.

[3] Рзаев Р., Новрузов Р., Алиева К. Руссо-азербайджанский толковый юридический словарь.Баку, «Нурлар» Издательско-Полинрафический Центр, 2015. c. 242.

həm də “kapitalı qoyuluşu” anlayışlarının məzmununda əsas məqsəd – gəlir və ya mənfəətin əldə edilməsidir. Əlbəttə ki, ingilis dilindən tərcümədə “investisiya” kapital qoyuluşu deməkdir. Lakin hüquqşünas alimlər arasında bu barədə yekdil bir fikir formalaşmamışdır və bu məsələ bu gün də mübahisəli olaraq qalmaqdadır. Başqa sözlə desək, “investisiya”, “sərmayə” və “kapital qoyuluşu” anlayışlarının fərqləndirilməsinə cəhd göstərilir. Belə ki, heç də bütün kapital qoyuluşlarının investisiya olmadığını hesab edən A.Q. Boqatıryov investisiyanın əsas hüquqi elementi kimi gəlir əldə etmək üçün istifadə olunan əmlaka mülkiyyət hüququnun olduğunu göstərir. [1] V.F. Popondopulo və V.V. Yakovleva qeyd edirlər ki, investisiya – müxtəlif forma və növlərdə mülkiyyəti ifadə edən kapitaldır.[2] Y.V. İvanov isə investisiyanı sərmaye kimi nəzərdən keçirərək qeyd edir ki, investisiya – fiziki və hüquqi şəxslərin, dövlət və bələdiyyə təşkilatlarının, onların aktivlərinin artırılmasına yönələn sərmayədir.[3] “İnvestisiya fəaliyyəti haqqında” AR Qanununun 1-ci maddəsində təsbit olunan anlayışa əsasən, gəlir əldə etmək məqsədilə sahibkarlıq fəaliyyəti obyektlərinə qoyulan pul vəsaitləri, qiymətli kağızlar, digər əmlak, o cümlədən əmlak hüquqları və pul dəyəri olan digər hüquqlar kimi təsbit edilir. Hesab edirik ki, “investisiya”, “sərmayə” və “kapital qoyuluşu” anlayışlarının fərqləndirilməsinə zərurət yoxdur və bu anlayışlar məzmun baxımından eyni mənalı anlayışlardır.

İnvestisiya özünəməxsus əlamətlərə malikdir və onlar aşağıdakılardan ibarətdir:

➢ **İnvestisiyanın birinci əlaməti kimi** aktivlərin qoyuluşunu göstərmək olar. Belə ki, iqtisadçı alimlər K.R. Makkonel,

---

[1] Богатырев А.Г. Инвестиционное право. М., Росс. Право, 1992. с.13, 17.

[2] Коммерческое право: Учебник // Под ред. В.Ф.Попондопуло, В.Ф.Яковлевой. М.: Юрист, 2002. Часть 2. с. 152.

[3] Иванов Е.В. Гражданско-правовое положение паевых инвестиционных фондов. вопросы теории и практики. Вис. к.ю.н. М.2009. с. 18.

S.L.Bryu hesab edir ki, investisiyalar istehsal xərclərinin və istehsal vəsaitlərinin toplanması və maddi ehtiyatlarının artırılması kimi başa düşülür.[1] Analoji mövqedə duran digər alimlər U.Şarp, Q.Aleksander, C.Beyli isə qeyd edirlər ki, investisiyalar bu gün pullardan ayrılma prosesidir ki, gələcəkdə bu pulların daha böyük məbləğini əldə etsin.[2]

➢ İnvestisiyalara xas olan **ikinci əlamət** isə onun müddətli xarakter daşımasıdır. Bu o deməkdir ki, kapital qoyuluşları bu gün qoyulur, lakin bir qədər sonra potensial gəlir əmələ gəlir. Lakin onu da qeyd etmək lazımdır ki, kapital qoyuluşu investor tərəfindən qoyulsa belə, onun gələcəkdə mütləq olaraq gəlir götürəcəyinə zəmanət verilmir. Bu halda U.Şarpın, Q.Aleksanderin, C.Beylinin fikirləri ilə desək, indi müəyyən məbləğdə pulun verilməsi lazım gəlir, mükafat isə sonra olur, əgər mükafat olursa mükafatın həcmi qabaqcadan məlum deyil.[3]

➢ **İnvestisiyanın üçüncü əlaməti** isə investisiyanın riskli xarakter daşıması ilə bağlıdır. Çünki investisiya qoyuluşunu həyata keçirən investor qoyuluşların itkisinə səbəb olan faktorları hər zaman görə bilmir.

➢ **İnvestisiyanın dördüncü əlaməti** isə onun məqsədi ilə bağlıdır. Hüquq ədəbiyyatında investisiyanın məqsədlərinin müəyyən edilməsi də mübahisəli olaraq qalmaqdadır. Belə ki, A.V.Mayfat investisiyanı yalnız gəlirin götürülməsi məqsədini daşıdığını qeyd edir.[4] Bu mövqeyi dəstəkləyən B.V. Muravyov, İ.A.Vdavin və başqaları tərəfindən isə investisiyanın məqsədi sahibkarlıq fəaliyyətinin məqsədi ilə eyniləşdirilir, yəni mənfəət

---

[1] Макконел К.Р. Брю С.Л. Экономика М. ИНФРА – М, 2003. с. 10.

[2] Шарп У. Александер Г., Бейли Дж. Инвестиции М. ИНФРА – М, 2001. с. 1.

[3] Yenə orada.

[4] Майфат А.В. Гражданско-правовые конструкции инвестировании. М.. Волтерс Клувер, 2006. Шарп У. Александер Г., Бейли Дж. Инвестиции М. ИНФРА – М, 2001. с. 1, 21-22.

götürülməsi ilə bağlı fəaliyyət olduğunu qeyd edirlər.[1] Bu əlamət investisiyanın sahibkarlıqla sıx bağlı olduğunu ifadə edir. Belə ki, investisiyalar gəlir əldə etmək məqsədilə qoyulur və investorların öz adından və öz riski ilə həyata keçirilir. Bu halda xüsusilə qeyd edilməlidir ki, investisiya fəaliyyəti sahibkarlıq fəaliyyəti kimi müstəqilliklə xarakterizə olunur.

Bu gün iqtisadi və hüquq ədəbiyyatlarında investisiyanın müxtəlif meyarlara əsaslanaraq təsnifatı verilir. Belə ki, A.Q.Boqatıryovun fikrincə, investisiyalar aşağıdakı kimi təsnifatlaşdırılır: maddi (real) investisiyalar (maddi obyektlərə qoyulan investisiyalar);

- *maliyyə (nominal) investisiyalar (qiymətli kağızlar, paylara qoyulan mülkiyyət);*
- *qeyri-maddi investisiyalar (təkrar istehlak ümumi şərtlərinə, reklam vasitəsilə bazanın formalaşdırılmasına, elmi-texniki layihələrinə və s.).*[2]

İnvestisiyaların təsnifatı məsələsini nəzərdən keçirərkən qeyd etmək lazımdır ki, iqtisadi ədəbiyyatda ənənəvi olaraq, kapitalın əmələ gəlməsi mənbəyinə görə milli və xarici investisiyalar fərqləndirilir.

S.Z. İsayev isə investiyaları aşağıdakı kimi təşkilatlaşdırır:

- *əsas kapitala istiqamətlənməsinə görə; maddi (real) investisiyalar, qeyri-maddi (intellektual) investisiyalar, maliyyə (portfel) investisiyaları;*
- *reallaşdırma formalarına görə: dövlət və şəxsi investisiyalar;*
- *riskin səviyyəsinə görə: etibarlı və riskli investisiyalar;*
- *investisiyanın tsiklinə görə: uzun müddətli və qısa müddətli investisyalar.* [3]

---

[1] Муравьев Б.В. Инвестиционное обязательство в строительстве: автореф. дис…. канд. юрид. наук. М.2001. Вдавин И.А. Механизм правового регулирования инвестиционной деятельности: автореф. дис…д-ра юрид. наук. СПб, 2002. Предпринимательское (хозяйственное) право: учебник: в 2-х томах. Т.2. ), отв ред. О.М.Олейник. М. 2002. с. 44.

[2] Богатырев А.Г. Инвестиционное право. М., 1992. с. 18.

[3] S.Z.İsayev İnvestisiya fəaliyyətinin hüquqi tənzimlənməsi. Dərs dəvaiti. Bakı, “İqtisad Universiteti” nəşriyyatı, 2011. Səh. 10-11.

İlk növbədə qeyd etmək lazımdır ki, “investisiya” anlayışı iqtisadi kateqoriyalı anlayışdır. “Ekonomiks” əsərinin müəllifləri K.R. Makkonell, C.L. Bryu hesab edirlər ki, makroiqtisadi mənada investisiyaya ümumi daxili məhsulun artırılmasına aparan qoyuluşlar aid edilə bilər.[1] E.C. Dolan və D.E. Lindsey isə investiyanı – kapital həcminin artırılması kimi nəzərdən keçirirlər.[2] C. Keyns isə investisiyanı əsas və likvid[3] kapitaldan ibarət olan kapital əmlakın dəyərinin artımı kimi başa düşür. [4]

Lakin hüquqi müstəvidə investisiya anlayışı iqtisadi kateqoriya kimi təsbit olunan anlayışdan fərqlənir. Belə ki, O.M. Antipova qeyd edir ki, “investisiya” anlayışına yaxın olan əmlak və intellektual dəyərlər anlayışıdır. Bu zaman, müəllif investisiyanın əlavə əlaməti kimi gəlir və ya faydalı səmərə götürülməsinə gətirib çıxaran sahibkarlıq və digər fəaliyyət obyektlərinə məqsədyönlü qoyuluşunu təsbit edir.[5]

Hüquq doktrinasında investisiyanın anlayışı və mahiyyəti barədə alimlərin mövqelərini üç qrupa ayırmaq olar. **Birinci mövqenin tərəfdarları** hesab edirlər ki, investisiya pul vəsaitlərinin qoyulduğu alətdir. Bu mövqeyi əsasən N.Q.Doronina və N.Q.Semilyutina müdafiə edirlər.[6] **İkinci mövqedə** duran müəlliflər isə investisiyanı hərəkət, yəni proses kimi nəzərdən keçi-

---

[1] Макконелл К., Вресф С., Экономика М., 2003. с. 137-138. Шарп Н., Александер Г., Бейли Дж. Инвестиции. М., 2003. с. 1- 4.

[2] Долан Э. Дж., Линдсей Д. Рынок: микроэкономическая модель СПб. 1992. с. 13.

[3] Likvid – satıla bilən, pula gedən, pula çevrilə bilən mənasında işlədilir. Likvidlik, bir maliyyə məhsulunun nağdlaşdırılma imkanına verilən addır. Bax: Rusca-Azərbaycanca izahlı lüğəti. Bakı, “NURLAR” Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2015. Səh. 331. https://www.investaz.az/likvidlik-nedir

[4] Кейс Дж. Общая теория занятности процента и денег. Пер. с англ. Н.Н.Любимова. Под ред. Л.П.Куракова. М. 2000. с. 54.

[5] Антипова О.М. Правовые регулирование инвестиционной деятельности (анализ теоретических и практических проблем). М., 2007. с. 18.

[6] Доронина Н.Г., Семилютина Н.Г. Государство и регулирование инвестиции. М. 2003. с. 10.

rirlər. Belə ki, V.V.Quşin və A.A. Ovçinnikov qeyd edirlər ki, investisiya dedikdə, investora məxsus olan mülki-hüquqi obyektlərə sərəncam verilməsi üzrə investorun hərəkətləri başa düşülür.[1] **Üçüncü mövqenin tərəfdarları isə** hesab edirlər ki, investisiya dedikdə, əmlak başa düşülür. Bu mövqeyi dəstəkləyən T.A. Serebryakova hesab edir ki, investisiyalar dövlət tərəfindən təminatlar, imtiyaz və güzəştlər müəyyən edilməsinə münasibətdə gəlir götürmək və ya digər faydalı səmərəyə nail olmaq məqsədi ilə dövlət, fiziki və hüquqi şəxslər tərəfindən əmlakının vətəndaşlara, təşkilatlara və xarici dövlətlərə verilməsidir.[2] Hüquq doktrinasında normativ hüquqi aktlarda təsbit olunan müddəalara əsaslanaraq belə bir fikir də formalaşmışdır ki, qoyuluşun əsas məqsədi qismində investisiyalar daim gəlir götürülməsinə yönəlmişdir. Bu mövqeyi əsasən V.A. Bublik,[3] A.A.Qoryaqin,[4] V.N.Kokin[5] və digər müəlliflər dəstəkləyirlər.

Çətin ki, investisiyanın alət kimi nəzərdən keçirilməsi mümkün olsun. Digər tərəfdən investisiya müəyyən fəaliyyət sahəsinə qoyulmaqla əsas məqsədi əsasən gəlirin əldə edilməsidir. İnvestisiyanın bir proses kimi nəzərdən keçirilməsi də özü-özlüyündə müəyyən çaşqınlıq yarada bilər. Həmçinin, bu mövqedə duran müəlliflər tərəfindən investisiya və investisiya fəaliyyəti

---

[1] Гушин В.В. Овчинников А.А. Инвестиционное право: Учеб. пособ. М. 2006. с. 72.

[2] Серебрякова Т.А. Регулирование инвестиционной деятельности: финансовое-правовой аспект. Дис.канд. юрид. наук. Саратов, 2002. с. 25.

[3] Бублик В.А. Гражданское-правовое регулирование внешнеэкономической деятельности в Российской Федерации: проблемы теории, законотворчества и право применения. Монография. Екатеринбург. 1999.

[4] Горягин А.А. Административно – правовое регулирование инвестиционной деятельности в Российской Федерации. Автореферат. дис… канд. юрид. наук. М., 2001. Səh. 8

[5] Кокин В.Н. Защита прав инвестора при недропользовании на условиях соглашения о разделе продукции. Автореферат. дис. канд. юрид. наук. М., 2002. с. 10.

anlayışları arasında bərabərlik işarəsi qoyulur ki, bunu da hesab edirik ki, doğru hesab etmək olmaz. Fikrimizcə, sonuncu mövqe investisiyaya daha çox yaxındır. Çünki investisiya fəaliyyətinin özü gəlir götürəcək bir fəaliyyətdir. Bu da öz növbəsində investisiya fəaliyyətinin sahibkarlıq fəaliyyətinin bir növü kimi nəzərdən keçirilməsinə imkan verir. İnvestisiya qoyulmaqla investisiya fəaliyyəti həyata keçirilir.

Lakin, "İnvestisiya fəaliyyəti haqqında" AR Qanununun 1-ci maddəsində investisiyaya verilən anlayışdan belə qənaətə gəlmək olar ki, qanunverici açıq-aydın şəkildə investisiya fəaliyyətini sahibkarlıq fəaliyyəti hesab edir. Yəni, göstərilən anlayışdan belə nəticəyə gəlmək olar ki, investisiya fəaliyyəti yalnız gəlir əldə etmək məqsədi daşıyır.

Mühüm əhəmiyyət kəsb edən məqam ondan ibarətdir ki, hüquq ədəbiyyatında investisiya anlayışının məzmununda "sosial səmərənin əldə edilməsi" və ya "faydalı səmərənin əldə edilməsi" terminologiyasından istifadə edilir. Məsələn, "Rusiya Federasiyasında investisiya fəaliyyəti haqqında" Rusiya Federasiyasının 25 fevral 1999-cu il tarixli 39-FZ nömrəli Qanununda təsbit olunan investisiya anlayışının məzmununda isə investisiyanın əsas məqsədlərindən biri kimi "faydalı səmərə"nin əldə edilməsi nəzərdə tutulmuşdur.

Bu baxımdan, "sosial səmərə" və "faydalı səmərə" anlayışlarının nisbəti məsələsi üzərində dayanmaq daha məqsədəmüvafiq olar. Uzun müddətdir ki, sosial səmərə barədə məsələnin formalaşdırılması sosiologiya və iqtisadiyyatda mübahisəli hesab olunur. Bugünədək elmdə "sosial səmərə" anlayışının birmənalı və ümumi qəbul edilmiş tərifi müəyyən edilməmişdir. "Sosial səmərə"yə həsr olunan çoxlu sayda monoqrafik xarakterli əsərlərdə müəlliflər tərəfindən sosial səmərəni müxtəlif fəaliyyət növləri nöqteyi-nəzərindən tədqiq edilməsinə cəhd göstərilir. İlk növbədə, əksər müəlliflər sosial səmərə anlayışını, habelə onun qiymətləndirilməsi meyarlarını və üsullarını ictimai istehsalın

məqsədlərindən asılı olaraq müəyyən edirlər.

Səmərə – maddi, pul, sosial (sosial səmərə) ifadədə əldə edilən nəticə.[1] Sosial səmərəlilik problemi üzrə klassik yanaşma kimi bolqar alimi M.Markovun monoqrafiyasını göstərmək olar. Onun fikrincə, səmərəlilik odur ki, nəticədə səmərəyə səbəb olur (latınca effectus – fəaliyyət, icra və afficio – fəaliyyət göstərirəm, icra edirəm) – səmərəlidir, demək fəaldır.[2]

Beləliklə deyilənlərdən belə qənaətə gəlmək olar ki, investorun qarşısına qoyulduğu vəzifələrdən asılı olaraq qanunverici investisiya qoyuluşunun **iki növünü** müəyyən edir. **Birinci növ investisiya qoyuluşu** gəlir götürmək məqsədi ilə kapital qoyuluşudur. **İkinci növü isə** faydalı səmərəyə nail olmaq məqsədi ilə investisiya qoyuluşudur. Digər tərəfdən isə "faydalı səmərə" anlayışı subyektiv kateqoriyadır və hüquq ədəbiyyatında qeyd olunduğu kimi "investisiya" anlayışının hüquqi tərəfinin əsasına daxil edilə bilməz".[3] Yəni, başqa sözlə desək, investisiya fəaliyyətinin müəyyənedici əlamətini xarakterizə etmir.

Hüquq ədəbiyyatında investisiya anlayışı dar və geniş mənalarda nəzərdən keçirilir. **Dar mənada investisiyalar dedikdə,** maddi və mənəvi nemətlərin yaradılmasına yönələn və gəlir əldə etmək məqsədilə investor tərəfindən qoyulan şəxsi cəlb edilən və ya borc kimi alınan pul vəsaitləridir. **Geniş mənada investisiyalar dedikdə,** müsbət sosial səmərəyə nail olmaq və gəlir (mənfəət) əldə etmək məqsədilə investor tərəfindən sahibkarlıq və digər fəaliyyət növləri obyektlərinə qoyulan əmlak (maddi) və intellektual (qeyri-maddi) sərvətlərin istənilən növləri və onlar üzərində hüquqlar başa düşülür.

Bütün bu göstərilənləri ümumiləşdirib investisiyaya aşağıdakı kimi anlayış vermək olar: **investisiya dedikdə,** sosial səmərəyə

---

[1] Mömsümov Camid. İqtisadi lüğət**.** Bakı: 2011. Səh. 366.

[2] Марков М. Технология и эффективность социального управления. М. : Прогресс, 1982.

[3] Yenə orada.

nail olmaq və ya gəlir (mənfəət) əldə etmək məqsədilə sahibkarlıq və digər fəaliyyət növləri obyektlərinə qoyulan maddi və intellektual sərvətlərin bütün növləri, o cümlədən onlar üzərində olan hüquqlar başa düşülür.

Mürəkkəb bir fenomen kimi investisiyalar müxtəlif təsnifat kriteriyalarının köməkliyi ilə təsnifatlaşdırıla birlər. Daha geniş yayılmış təsnifatlardan biri investisiyaların **düzünə** və **portfel investisiyalara** bölünməsidir. **Düzünə investisiyalar** dedikdə, investisiya qoyuluşlarının artmasını və biznesin idarəedilməsini təmin edən qoyuluşlar başa düşülür. Bir qayda olaraq, düzünə investisiyalar müəssisəni səhmlərinin nəzarət paketinin (iştirak payının) alınmasını nəzərdə tutur. Bu səbəbdən bu investisiyaları strateji investisiyalar və ya real investisiyalar adlandırırlar. **Portfel investisiyalar** isə fəaliyyətdən gəlir götürmək məqsədi ilə qiymətli kağızların əldə edilməsi yolu ilə həyata keçirilir və bir qayda olaraq müəssisənin idarə edilməsinə həlledici təsir göstərmir.

Göstərilənlərdən belə qənaətə gələ bilərik ki, düzünə investisiyalar portfel investisiyalardan əsas fərqi ondan ibarətdir ki, düzünə investisiyalarda müəssisəyə investisiya qoyuluşunu həyata keçirən investor həmin müəssisənin idarə edilməsində iştirak etmək və bu müəssisənin fəaliyyətinə nəzarət etmək imkanına malik olduğu halda, portfel investisiyalarda isə investorun belə bir imkanı yoxdur.

İnvestisiyaların xarakterindən asılı olaraq investisiyalar aşağıdakı kimi təsnifləşdirilir:

- ***ilkin investisiyalar*** - *həm şəxsi, həm də borc götürdüyü vəsaitlər hesabına həyata keçirilən kapitalın ilkin qoyuluşudur;*
- ***reinvestisiyalar*** - *ilkin kapital qoyuluşu üçün istifadə olunan kapitalın azad edilməsindən sonra həyata keçirilərn ikinci kapital qoyuluşudur;*
- ***dezinvestisiyalar*** - *investisiya məqsədlərində sonradan istifadə edilməklə kapitalın azad edilməsidir.*

Bundan başqa investisiyalar müddətindən asılı olaraq aşağı-

dakı kimi təsnifatlaşdırılır;

- ❖ ***qısamüddətli investisiyalar*** - *bir ildən çox olmayaraq həyata keçirilən kapital qoyuluşudur;*
- ❖ ***ortamüddətli investisiyalar*** - *bir ildən beş il müddətinədək vəsaitlərin qoyuluşunu nəzərdə tutur;*
- ❖ ***uzunmüddətli investisiyalar*** - *beş ildən artıq müddətə investisiya qoyuluşlarının həyata keçirilməsinin nəzərdə tutur.*

İnvestisiyaların digər təsnifatına isə gəlirin götürülməsi kriteriyasıdır. Belə ki, gəlirin götürülməsinə görə investisiyalar aşağıdakı kimi təsnifatladırılır:

- ❖ ***yüksək gəlirli investisiyalar*** - *investisiyanın səmərəsi gəlirin yüksək səviyyəsindən ibarət olan qoyuluşdur;*
- ❖ ***orta gəlirli investisiyalar*** - *bazarda investisiya gəlirinin təqribi olaraq orta səviyyəsinə uyğun olan qoyuluşlardır;*
- ❖ ***aşağı gəlirli investisiyalar*** - *investisiya bazarında orta gəlir səviyyəsindən aşağı olan qoyuluşlardır;*
- ❖ ***gəlirsiz investisiyalar*** - *gəlir götürmək məqsədi olmadan həyata keçirilən qoyuluşlardır. Bu kapital qoyuluşları bir qayda olaraq, iqtisadi, sosial və s. məqsədlər üçün realizə olunur.*

Mülkiyyət formasından asılı olaraq investisiyalar aşağıdakı kimi təsnifatlaşdırılır:

- ❖ ***dövlət (büdcə) investisiyaları*** – *dövlət hakimiyyəti orqanları tərəfindən müvafiq büdcə hesabına həyata keçirilən qoyuluşlardır.*
- ❖ ***bələdiyyə investisiyaları*** – *bələdiyyə büdcəsi hesabına yerli özünüidarəetmə orqanları tərəfindən həyata keçirilən qoyuluşlardır;*
- ❖ ***özəl investisiyalar*** - *fiziki və hüquqi şəxslər tərəfindən həyata keçirilən kapital qoyuluşlardır;*
- ❖ ***qarışıq investisiyalar*** - *əmlakın müxtəlif mülkiyyət formalarında bir neçə subyekt tərəfindən həyata keçirilən kapital qoyuluşlardır.*

İnvestisiyaların təsnifatı sırasında investisiyaların ərazi meya-

rı da mühüm əhəmiyyət kəsb edir. Belə ki, ərazi baxımından investisiyalar aşağıdakı kimi təsnifatlaşdırılır:

- ❖ ***xarici investisiyalar*** - *ölkə hüdudlarından kənarda yerləşən obyektlərə həyata keçirilən kapital qoyuluşlarıdır;*
- ❖ ***daxili investisiyalar*** – *ölkə daxilində yerləşən obyektlərə həyata keçirilən kapital qoyuluşlarıdır.*

Daxili investisiyalar da öz növbəsində aşağıdakı növlərə ayrılır:

- ❖ ***dövlət investisiyaları*** – *dövlət əhəmiyyətli obyektlərə qoyulan investisiyalardır;*
- ❖ ***regional investisiyalar*** - *müvafiq region üçün mühüm əhəmiyyət kəsb edən obyektlərə kapital qoyuluşlarıdır;*
- ❖ ***yerli investisiyalar*** - *yerli özünüidarəetmə üçün mühüm əhəmiyyət kəsb edən obyektlərə qoyulan kapital qoyuluşudur.*

"İnvestisiya fəaliyyəti haqqında" AR Qanununun 1.1.1.-ci maddəsinə müvafiq olaraq, investisiya fəaliyyəti – investorların Azərbaycan Respublikasının ərazisində investisiya qoyuluşu ilə bağlı olan hərəkətlərinin məcmusudur. Bu halda verilən investisiya fəaliyyətinə dair anlayış onun sahibkarlıq fəaliyyətinin bir növünün olub-olmamasını açıq-aydın şəkildə müəyyən etməyə imkan vermir. İnvestisiya fəaliyyəti anlayışlarını nəzərdən keçirdikdə belə qənaətə gəlmək olar ki, investisiya fəaliyyəti investisiyaların qoyuluşu və realizəsi üzrə həyata keçirilən hərəkətlər kimi xarakterizə olunur.

Hüquq elmində investisiya fəaliyyəti anlayışına dair müxtəlif mövqelər mövcuddur. Belə ki, A.B. Suşkin isə investisiya fəaliyyətini bir proses kimi nəzərdən keçirərək qeyd edir ki, investisiya fəaliyyəti – investorun məqsədlərinə çatmasına yönələn investisiya qoyuluşu prosesi və fəal fəaliyyətdir.[1] A.V. Mayfatın mövqeyi isə "İnvestisiya fəaliyyəti haqqında" AR Qanununda

---

[1] Сушкин А.Б. Комментарий к Федеральному закону от 25 февраля 1999 г. № 39-ФЗ «Об инвестиционной деятельности в Российской Федерации, осуществляемой в форме канительных вложений. ООО Новая правовая культура. 2007.

təsbit olunan anlayışa daha yaxındır. Müəllif investisiya fəaliyyətini investisiya vəsaitlərinin istifadəsi üzrə hərəkətlərin və investisiya qoyuluşunun məcmusu kimi müəyyən edir.[1] Buradan belə qənaətə gəlmək olar ki, investisiya fəaliyyəti investisiya qoyuluşu prosesinin özünü və investisiyaların realizəsini əhatə edir. Başqa sözlə desək, müəllif investisiya fəaliyyətini investisiya qoyuluşu üzrə proses və onların realizəsi kimi nəzərdən keçirir. Lakin, D.N.Yermakov investisiya fəaliyyətini dar və geniş mənada nəzərdən keçirilməsini təklif edərək qeyd edir ki, **geniş mənada investisiya fəaliyyəti dedikdə**, gəlir və müsbət sosial səmərə əldə etmək məqsədi ilə investisiya obyektlərinə vəsaitlərin qoyuluşu ilə bağlı olan fəaliyyəti başa düşülür. **Dar mənada investisiya fəaliyyəti dedikdə** isə investisiya ehtiyatlarının investisiyaya çevrilməsinə yönələn fəaliyyət başa düşülür. Müəllif belə fəaliyyətin iki mərhələsini müəyyən edir.[2]

Onu da qeyd edək ki, əgər investisiya fəaliyyəti sahibkarlıq fəaliyyəti kimi nəzərdən keçirilirsə, bu halda sahikarlıq fəaliyyəti subyektinin hüquqi statusuna olan qanunvericiliyin, müvafiq tələbləri investora aid edilməlidir. O.M.Antipova "sosial səmərə" anlayışı altında – onun öz məqsədlərinə daha yaxşı şəkildə nail ola bilər.[3]

Nəticədə E.N.Lisitsanın belə bir fikri ilə razılaşmaq olar ki, investisiya fəaliyyətinin obyektinin əsas xüsusiyyəti gələcəkdə

---

[1] Майфат В.А. Гражданско-правовые конструкции инвестирования: Монография М, Волнарс Клувер. 2006

[2] Ермаков Д.Н Инвестиционная деятельность негосударственных пенсионных фондов в реализации региональных и социальных проектов. Дис... канд. экон. наук. М. 2007.

[3] Антипова О.М. Правовое регулирование инвестиционной деятельности (анализ теоретических и практических проблем). М. Волтерс-Кулвер. 2007.

investora gəlir gətirmək qabiliyyətindən ibarətdir.[1] Məhz, kapitalın əsas vəzifəsi bundan ibarətdir. Bu səbəbdən də hesab edirik ki, investisiya obyektinə istənilən investisiya qoyuluşu əksər hallarda gəlir götürməyə yönəlməlidir.

İnvestisiya fəaliyyəti aşağıdakı formalarda həyata keçirilə bilər:

- *hüquqi şəxslərin yaradılması və yenidən təşkili;*
- *hüquqi şəxslərdə iştirak paylarının (səhmlərin) əldə edilməsi;*
- *xarici hüquqi şəxsin Azərbaycan Respublikasında filial və nümayəndəliyinin təşkili;*
- *fərdi sahibkarlıq;*
- *investisiya fəaliyyətinin həyata keçirilməsinə dair müqavilənin bağlanması;*
- *əmlakın, o cümlədən əmlak hüquqlarının və pul dəyəri olan digər hüquqların əldə edilməsi.*

## 10.2. İnvestisiya fəaliyyətinin subyektləri

İnvestisiya fəaliyyətinin subyektlərinin dairəsi "İnvestisiya fəaliyyəti haqqında" AR Qanununa əsasən müəyyən edilir. Belə ki, "İnvestisiya fəaliyyəti haqqında" AR Qanununun 1-ci maddəsinin təhlilindən çıxış edərək qeyd etmək olar ki, qanunverici investisiya fəaliyyətinin subyektlərinin dairəsini müəyyən edərkən onları **iki kateqoriyaya** ayırır: **yerli investor** və **xarici investor**. **Yerli investor** – investisiya fəaliyyətini həyata keçirən Azərbaycan Respublikasının vətəndaşı və Azərbaycan Respublikasının hüquqi şəxsidir. **Xarici investor** – investisiya fəaliyyəti-

---

[1] Лисица В.Н. Правовые регулирование инвестиционных отношений: теория законодательства и практика применения: монография, Рос. акад. наук. Инс-т философии и права СОРАН, М-во образовании и науки РФ. Новосибирский гос. уни-т. Новосибирск. 2011

ni həyata keçirən əcnəbilər, vətəndaşlığı olmayan şəxslər, xarici hüquqi şəxslər və onların filial və nümayəndəlikləri, beynəlxalq təşkilatlar, habelə xarici dövlətdir.

Həmçinin, qanunverici investisiya fəaliyyətinin yerli və xarici investoru ola biləcək şəxslərin dairəsini təsbit edir:

- *Azərbaycan Respublikasının vətəndaşları;*
- *Azərbaycan Respublikasının hüquqi şəxsləri;*
- *xarici ölkələrin vətəndaşları;*
- *xarici ölkələrin hüquqi şəxsləri;*
- *vətəndaşlığı olmayan şəxslər;*
- *dövlətlər.*

Digər bir tərəfdən hüquq elmində belə bir fikir də irəli sürülür ki, investorun dövlət qeydiyyatından keçməsi məcburi şərt deyil. Bu mövqeyi A.V.Belitskaya, Y.P. Qubin və P.Q. Laxno dəstəkləyir.[1] Belə ki, Y.P.Qubinin və P.Q. Laxnonun fikrincə, dövlət qeydiyyatı sahibkarlıq subyektinin statusunun yaranması üçün zəruri və əsas məqam olmasına baxmayaraq, sahibkarlıq fəaliyyətinin mühüm əlaməti deyildir.[2] Bu fikirlərlə razılaşmaq olar, lakin Azərbaycan Respublikası qanunvericiliyi baxımından çıxış edərək qeyd etməliyik ki, şəxsin sahibkarlıq fəaliyyətinin subyekti qismində qeydiyyatı olmadan sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi qanunsuz sahibkarlıq fəaliyyəti hesab olunur.

Azərbaycan Respublikası ərazisində mülkiyyət formasından və təsərrüfat fəaliyyətinin növündən asılı olmayaraq investisiya fəaliyyətinin bütün subyektləri investisiya fəaliyyətinin həyata keçirilməsi sahəsində bərabər hüquqlara malikdirlər. İnvestisiya fəaliyyəti subyektlərinin hüquqları aşağıdakılardır:

---

[1] Белицкая А.В. Основы инвестиционного права Российской Федерации // Предпринимательское право. Приложение «Бизнес и право в России и зарубежном. 2012, №1, Səh. 12-22.

[2] Предпринимательское право Российской Федерации. Учебник / Под ред. Е.П. Губина, П.Г.Лахно. 2-е изд. М.: Норма-Инфра, 2010, с. 34.

- *investisiya fəaliyyətinin həyata keçirilməsi formasını, investisiyanın həcmini, sahibkarlıq fəaliyyəti sahəsini və formasını sərbəst müəyyənləşdirmək;*
- *investisiya fəaliyyətinin qanunla qadağan edilməyən maliyyələşmə mənbələrini sərbəst müəyyənləşdirmək;*
- *Qanunun tələbləri və investisiya fəaliyyətinin həyata keçirilməsinə dair müqavilənin şərtləri nəzərə alınmaqla, istənilən vaxt investisiya fəaliyyətini dayandırmaq və ya ona xitam vermək;*
- *investisiya fəaliyyətindən əldə etdiyi gəlirlərə, istehsal etdiyi mallara, gördüyü işlərə və göstərdiyi xidmətlərə, əmlaka, o cümlədən əmlak hüquqlarına və pul dəyəri olan digər hüquqlara malik olmaq;*
- *investisiya fəaliyyətindən əldə etdiyi gəlirləri yenidən investisiya etmək;*
- *xarici investorlara münasibətdə "İnvestisiya fəaliyyəti haqqında" AR Qanununun 14-cü maddəsinə uyğun olaraq, investisiya fəaliyyətindən əldə edilən gəlirlərin və digər vəsaitlərin vergiləri və digər dövlət ödənişlərini ödədikdən sonra "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə və investisiya fəaliyyətinin həyata keçirilməsinə dair müqaviləyə uyğun olaraq sərbəst dönərli valyutada və ya digər formada xarici ölkəyə köçürmək;*
- *dövlət əmlakının özəlləşdirilməsində iştirak etmək;*
- *dövlət orqanlarından (qurumlarından), yerli özünüidarəetmə orqanlarından investisiya fəaliyyətinin həyata keçirilməsi üçün zəruri olan və açıqlanması qanunla qadağan edilməyən məlumatlar əldə etmək;*

İnvestisiya fəaliyyətinin subyektləri Azərbaycan Respublikası qanunvericiliyi ilə müəyyən olunmuş hallarda və qaydada müvafiq olaraq aşağıdakı vəzifələri vardır:

- *lisenziya və ya icazə alınması tələb olunan fəaliyyət növlərini "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirmək;*
- *qanunla müəyyən edilmiş vergiləri və digər dövlət ödənişlərini əməliyyatların həyata keçirildiyi vaxt qüvvədə olan qanunlara uyğun olaraq ödəmək;*
- *əhalinin həyat və sağlamlığının, ətraf mühitin, tarixi və mədəniyyət abidələrinin qorunması, şəhərsalma və tikinti sahələrində, əmək qanunvericiliyinin tələblərinə, texniki təhlükəsizlik, malların (işlərin, xidmətlərin) təhlükəsizliyi, yanğın və radiasiya təhlükəsizliyi, habelə dövlət təhlükəsizliyi sahəsində məcburi tələblərə əməl etmək;*
- *haqsız rəqabətə yol verməmək, habelə digər şəxslərin qanunla qorunan hüquq və mənafelərinə ziyan vurmamaq;*
- *"İnvestisiya fəaliyyəti haqqında" AR Qanununda və investisiya fəaliyyətinin həyata keçirilməsinə dair müqavilədə nəzərdə tutulan digər vəzifələrə əməl etmək.*

"İnvestisiya fəaliyyəti haqqında" AR Qanununun 1.1.4.-cü və 1.1.5.-ci maddələrinin təhlilindən çıxış edərək qeyd etmək olar ki, investisiya fəaliyyətinin subyektləri sırasında Azərbaycan Respublikası və xarici dövlətlər ola bilər. Buradan belə nəticəyə gəlmək olar ki, dövlət bir tərəfdən investisiya fəaliyyətinin şərtlərinin tənzimlənməsini və bu şərtlərə investisiya fəaliyyətinin bütün subyektləri tərəfindən əməl edilməsinə nəzarəti həyata keçirir, digər tərəfdən isə investor kimi çıxış edir, yəni, strateji faydalı səmərə əldə etməkdən ötrü büdcədə vəsaitlərinin hər hansı bir sahəyə qoyuluşlarını fəal şəkildə həyata keçirir.

Bu halda V.V. Boçarovun fikirləri ilə razılaşmaq olar ki, investisiya fəaliyyətində dövlət büdcə vəsaitlərinin maliyyələşdirilməsinə yönəltdiyi real layihələrdən maksimal gəlir götürülməsi kimi dövlət əsas məqsəd daşımır.[1]

---

[1] Бочаров В.В. Инвестиции. Санкт-Петербург: Питер, 2009. с. 36-37.

## 10.3. İnvestisiya fondları - investisiya fəaliyyətinin subyekti kimi

Azərbaycan Respublikasında investisiya fondlarının fəaliyyəti "İnvestisiya fondları haqqında" Azərbaycan Respublikasının 22 oktyabr 2010-cu il tarixli 1101-IIIQ nömrəli Qanunu ilə tənzim olunur.[1] Qanun investisiya fondlarının təşkilati-hüquqi formaları, yaradılması, idarə edilməsi və ləğvi məsələlərini özündə ehtiva edir.

"İnvestisiya fondları haqqında" AR Qanununun 1-ci maddəsində təsbit olunan anlayışlar aparatında investisiya fondunun anlayışı təsbit olunmuşdur. Belə ki, **investisiya fondu** – səhmdar və ya paylı investisiya fondu formasında yaradılan, vəsaitlərin cəlb edilib mənfəət əldə edilməsi məqsədi ilə investisiya bəyannaməsində nəzərdə tutulmuş qaydada yatırılması ilə məşğul olan maliyyə qurumudur.

İqtisadiyyatda investisiya fondlarının rolunu nəzərdən keçirərkən qeyd etmək lazımdır ki, investisiya fondları dünya iqtisadiyyatında mühüm rol oynayır. A.S. Jeqalova bu sahədə apardığı tədqiqat nəticəsində qeyd edir ki, müasir dünya inkişaf etmiş ölkələrdə paylı investisiya fondlarının aktivlərinin payı ümumi daxili məhsulun 15-30%-i təşkil edir.[2] V.İ. Qavrilyuk isə yazır: investisiya qoyuluşunda dünyanın bütün fiziki şəxsləri tərəfindən investisiya fondları tez-tez istifadə edilən alətlərdən biridir.[3]

İnvestisiya fondlarının funksiyalarını A.İ.Fridman aşağıdakı kimi təsnifləşdirir:

---

[1] "Azərbaycan" qəzeti, 21 noyabr 2010-cu il. № 255.

[2] Жегалова А.С. Паевые инвестиционные фонды в системе коллективного инвестирования в Российской Федерации: автореф. дис… канд. эконом. наук. Самарский Государственный экономический университет. Самара. 2014. с. 3.

[3] Гаврилюк В.И. Паевые инвестиционные фонды в РФ: хронологический срез развития индустрии // Вестник РЭУ 2012, № 10. с. 66

- *pul vəsaitlərinin investisiyası;*
- *əhalinin əmanətlərinin saxlanılması;*
- *kredintləşdirmə bazarında faiz dərəcələrinin aşağı salınması;*
- *qiymətli kağızlar bazarında likvidliyin artırılması.*[1]

İnvestisiya fondları adətən, investisiya fondlarının obyektləri hesab edilən aktivlərə görə və fondlar tərəfindən istifadə olunan investisiya stategiyasına görə təsnifatlaşdırılır.

İnvestisiya fondlarının funksiyalarını nəzərdən keçirən A.İ. Fridman onların aşağıdakı kimi təsnifatlaşdırılmasını təklif edir: pul vəsaitlərinin investisiyası; əhalinin əmanətlərinin saxlanılması; qeyri-dövlət pensiya fondlarının aktivlərini, sığorta şirkətləri, suveren investisiya fondları tərəfindən cəlb olunmuş pul vəsaitlərinin idarə edilməsi; qiymətli kağızlar bazarının likvidliyinin artırılması; qiymətli kağızlar bazarında dəyişikliyin azaldılması; kreditləşmə bazasında faiz dərəcələrinin azaldılması; elmin və texniki tərəqqinin inkişafının maliyyələşdirilməsi.[2]

Hüquq ədəbiyyatında belə bir fikir də irəli sürülür ki, investisiya fondları - əksər hallarda fond bazarlarında yerləşdirilməsi üçün fiziki və hüquqi şəxslərdən vəsaitləri cəlb edən fonddur.[3] Qanunvericilikdə investisiya fondunun iki növü fərqləndirilir:

- ***səhmdar investisiya fondu** - səhmdar investisiya fondu fəaliyyəti üçün lisenziyaya malik olan, fəaliyyətinin müstəsna predmeti səhmlərinin yerləşdirilməsindən əldə edilən pul vəsaitlərinin investisiya bəyannaməsi ilə nəzərdə tutulmuş qaydada qiymətli kağızlara və digər əmlaka yatırılmasından mənfəət əldə edilməsi olan açıq səhmdar cəmiyyətidir.*

---

[1] Фридман А.И.Развитие инвестиционных фондов в мире и их место в экономике // Экономический журнал, 2015, № 4 (40). с. 69-70.

[2] Yenə orada.

[3] Хуснитдинов П. Инвестиционные фонды в Европейском Союзе // Зарубежные финансовые рынки, 2007, № 19 (346). с. 66-67.

❖ ***paylı investisiya fondu*** - *ümumi paylı mülkiyyət hüququ əsasında investisiya fond paylarının sahiblərinə məxsus və investisiya fondunun idarəçisinin idarəetməsində olan əmlak toplusudur.*

Qeyd etmək lazımdır ki, səhmdar investisiya fondu paylı investisiya fondundan **birinci fərqli cəhəti** ondan ibarətdir ki, səhmdar investisiya fondu hüquqi şəxs statusuna malikdir və açıq səhmdar cəmiyyəti təşkilati-hüquqi formasında yaradılıb fəaliyyət göstərdiyi halda, paylı investisiya fondu hüquqi şəxs statusuna malik deyil.

**İkinci fərqli** cəhəti də ondan ibarətdir ki, səhmdar investisiya fondu səhmlərinin yerləşdirilməsindən əldə edilən pul vəsaitlərinin qiymətli kağızlara və digər əmlaka yatırılmasından mənfəət əldə etdiyi halda, paylı investisiya fondunun fəaliyyəti isə paylarının satışından daxil olan pul vəsaitlərin investisiyası nəticəsində əldə olunan aktivlərdən ibarətdir.

**Üçüncü fərq** isə ondan ibarətdir ki, əgər səhmdar investisiya fondu azı üç hüquqi və (və ya) fiziki şəxs tərəfindən yaradılırsa və maliyyə bazarlarına nəzarət orqanı tərəfindən verilən lisenziya əsasında fəaliyyət göstərirsə, paylı investisiya fondunun yaradılması barədə qərar idarəçi tərəfindən qəbul edilir.

Qanunvericiliklə müəyyən olunmuş qaydada paylı investisiya fondu aşağıdakı formalarda yaradıla bilər:

❖ ***açıq paylı investisiya fondu*** – *paylarının satışını və geri satınalınmasını həftədə bir dəfədən az olmamaq şərti ilə həyata keçirən və aktivləri yalnız pul vəsaitləri və qiymətli kağızlardan ibarət olan paylı investisiya fondudur;*

❖ ***interval paylı investisiya fondu*** – *paylarının satışını və geri satınalınmasını ildə bir dəfədən az olmamaq şərti ilə həyata keçirən və aktivləri yalnız pul vəsaitləri və qiymətli kağızlardan ibarət olan paylı investisiya fondudur;*

❖ ***qapalı paylı investisiya fondu*** – *paylarının satışını və geri satın alınmasını fondun fəaliyyət müddətinin sonunda hə-*

*yata keçirən və aktivləri yalnız pul vəsaitləri, qiymətli kağızlar və daşınmaz əmlakdan ibarət olan paylı investisiya fondudur.*

Əgər investisiya fondu səhmdar investisiya fondu formasında yaradılıbsa onun adında "səhmdar investisiya fondu" sözləri, paylı investisiya fondu formasında yaradılıbsa onun adında "paylı investisiya fondu" sözləri olmalıdır. Həmçinin, paylı investisiya fonduna münasibətdə onun açıq, interval və ya qapalı olması göstərilməlidir.

"İnvestisiya fondları haqqında" AR Qanununun 3.4.-cü maddəsinə müvafiq olaraq, investisiya fondunun və İdarəçinin adında "dövlət", "milli", "mərkəzi", "hökumət", "zəmanətli" və ya "sığortalanmış" kimi sözlərin işlənməsi qadağandır.

Hüquq elmində isə investisiya fondlarının anlayışına dair bu günə qədər vahid bir fikir formalaşmayıb. Buna əsas səbəb kimi isə investisiya anlayışının qeyri-müəyyənliyidir. Çünki, bu anlayış daha çox iqtisadi anlayışdır, nəinki hüquqi və hüquq elmində də kifayət dərəcədə işlənilməmişdir.

Hesab edirik ki, investiya fondlarının anlayışını istifadə etməkdən ötrü, ilk növbədə investisiya fondlarının funksiyalarını başa düşmək, investisiya fondlarının müasir hüquqda fərqləndirilən növlərini bilmək zəriridir.

Onu da qeyd etmək yerinə düşər ki, hüquq elmində "suveren investisiya fondları" anlayışına da tez-tez rast gəlinir. V. Puninin fikrincə, suveren investisiya fondları söz birləşməsi hər hansı bir dövlətə məxsus olan suveren fondun adlandırılması üçün investiya bankları tərəfindən düşünülmüşdür.[1] Belə fondlar adətən ictimai sektorda artıq likvidlilik hesabına və Mərkəzi Bankın ehtiyatı hesabına təşkil olunur.[2] Suveren fondlar müxtəlif aktivlərdə yatırılan və dövlət tərəfindən idarə olunan maliyyə alətləri-

[1] Пупынин В. Суверенные инвестиционные фонды. определения и основы функционирования // Международная экономика. 2008. №10. с.56

[2] Yenə orada. səh. 51.

dir. Qeyd etmək lazımdır ki, hüquq ədəbiyyatlarında “Suveren investisiya fondu”na dair digər anlayışlara da rast gəlinir. Belə ki, M.V. Kaurakova hesab edir ki, “....investisiya fondları – şəxsiyyətin, cəmiyyətin və dövlətin azad inkişafını təmin etmək məqsədilə transsərhəd əsasında kommersiya fəaliyyətində iştirak etmək hüququ olmaqla publik məqsədlərə çatmaqdan ötrü dövlət tərəfindən yaradılan hüquqi şəxslərdir. [1]

**Suveren investisiya fondları** – bəzən dövlət investisiya fondları suveren investisiya fondları – milli pul vəsaitlərinə malik olan və müxtəlif aktivlərə qoyulan onların qoyuluşunu həyata keçirən, dövlət tərəfindən idarə olunan maliyyə alətidir, “suveren fond” ifadəsi hər hansı suveren dövlətə məxsus olan fondun belə adlandırılması üçün investisiya bankları tərəfindən tətbiq edilmişdir.[2]

“İnvestisiya fondları haqqında” AR Qanununun 5-ci maddəsinə əsasən, **səhmdar investisiya fondu** azı üç hüquqi və (və ya) fiziki şəxs tərəfindən açıq səhmdar cəmiyyəti formasında yaradılır. Səhmdar investisiya fondu maliyyə bazarlarına nəzarət orqanı tərəfindən verilmiş lisenziya əsasında fəaliyyət göstərir. Bildiyimiz kimi maliyyə bazarlarına nəzarət orqanın səlahiyyətlərini Azərbaycan Respublikasının Mərkəzi Bankı həyata keçirir. Beləliklə, səhmdar investisiya fondları Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən verilmiş lisenziya əsasında fəaliyyət göstərə bilər.

Səhmdar investisiya fondunun nizamnamə kapitalının minimum məbləği **500000 (beş yüz min) manat** həcmində müəyyən edilir. Səhmdar investisiya fondu sahibkarlıq fəaliyyətinin digər növləri ilə məşğul ola bilməz.

Səhmdar investisiya fondunun idarəetmə strukturu aşağıdakı kimi müəyyən olunur:

---

[1] Кауракова М.В. Трансграничный инвестиционный фонд как субъект инвестиционных отношений. Автореферат на соиск. учен. стен. канд. юрид. наук. М. 2014. с. 9.

[2] Пупынин В. Суверенные инвестиционные фонды: определения и основы функционирования// Международная экономика. 2008, №10. с.56.

- ❖ ***səhmdarların ümumi yığıncağı** - Azərbaycan Respublikası Mülki Məcəlləsinin 107.1-ci maddəsi ilə nəzərdə tutulmuş səlahiyyətlərdən əlavə səhmdarlarının ümumi yığıncağının müstəsna səlahiyyətlərinə idarəçinin və ya depozitarın dəyişdirilməsi və fondun xərclərinin artırılması barədə qərarların qəbul edilməsi aiddir.*
- ❖ ***müşahidə şurası** - səhmdar investisiya fondunda tərkibi tək sayda, azı üç fiziki şəxsdən ibarət olmaqla **müşahidə şurası** yaradılmalıdır. Müşahidə şurasının üzvlərindən azı biri səhmdar investisiya fonduna aidiyyəti şəxs olmayan müstəqil şəxs olmalıdır. Onu da qeyd edək ki, səhmdar investisiya fondu ilə müvafiq müqavilələr bağlamış idarəçi, depozitar, auditor və qiymətləndirici, habelə onlara aidiyyəti olan şəxslər və onların nümayəndələri səhmdar investisiya fondunun müşahidə şurasının üzvü ola bilməz.*
- ❖ ***icra orqanı - s**əhmdar investisiya fondu ilə müvafiq müqavilələr bağlamış idarəçinin, depozitarın, auditorun və qiymətləndiricinin əməkdaşları, habelə onlara aidiyyəti olan şəxslər səhmdar investisiya fondunun icra orqanının üzvü ola bilməzlər.*

"İnvestisiya fondları haqqında" AR Qanununun 16-cı maddəsinə müvafiq olaraq, paylı investisiya fondunun idarə edilməsi qaydaları Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən dövlət qeydiyyatına alındıqdan sonra idarəçi həmin fondun paylarını investorlara təklif edə bilər.

Paylı investisiya fondunun formalaşdırılmasının baş tutmuş hesab edilməsi üçün yetərli olan **kapitalın minimum məbləği 500.000 (beş yüz min) manat** həcmində müəyyən edilir.

İdarəçi paylı investisiya fondunun qaydalarının dövlət qeydiyyatına alındığı tarixindən etibarən **90 gün ərzində** fondun formalaşdırılmasını başa çatdırmalıdır. Göstərilən müddət ərzində formalaşdırılması baş tutmadıqda, fond paylı investisiya fondlarının və onların idarəçilərinin dövlət reyestrindən çıxarılır

və idarəçi həmin fondu formalaşdırmaq hüququnu itirir.

Paylı investisiya fondunun formalaşdırılmasının baş tutmuş hesab edilməsi üçün yetərli olan kapitalın minimum həcminə dair tələblər maliyyə bazarlarına nəzarət orqanı tərəfindən müəyyən edilir. İdarəçi paylı investisiya fondunun əmlakı ilə bağlı fondun idarə edilməsi qaydalarına zidd olmayan əqdlər bağlayır. Bu əqdlər idarəçi tərəfindən, onun hansı paylı investisiya fondunun adından çıxış etdiyi göstərilməklə bağlanılır. Açıq və interval paylı investisiya fondunun payları idarəçi tərəfindən qeyri-məhdud sayda buraxıla bilər. Qapalı paylı investisiya fondunun idarəçisi tərəfindən buraxılan payların sayı fondun idarə edilməsi qaydaları ilə müəyyən edilir.

Payların dəyəri Azərbaycan Respublikasının milli valyutasında ifadə olunmaqla, yalnız pulla ödənilir. Paylı investisiya fondunun paylarının **50%-dən çoxu bir şəxsə məxsus ola bilməz** və hər bir investisiya fond payının sahibi eyni hüquqlara malikdir.

Paylı investisiya fondunda investisiya fond payını aldığı andan investor paylı investisiya fondunun idarə edilməsi haqqında müqaviləyə qoşulur və pul vəsaitlərini fondun idarə edilməsi qaydalarına uyğun olaraq idarə edilmək üçün idarəçinin sərəncamına verir.

"İnvestiya fondları haqqında" AR Qanununun 48-ci maddəsinə əsasən investisiya fondlarının fəaliyyətinin tənzimlənmə və nəzarət məqsədi ilə aşağıdakılar həyata keçirilir:

- *səhmdar investisiya fondu və investisiya fondlarının idarə edilməsi üzrə fəaliyyətlərə lisenziya verilir və qanunvericiliklə müəyyən edilmiş hallarda verilmiş lisenziyalar ləğv edilir;*
- *investisiya fondlarının, idarəçinin və depozitarın fəaliyyətinin tənzimlənməsi üzrə normativ xarakterli aktlar qəbul edilir;*
- *investisiya fondlarının və onların idarəçilərinin dövlət reyestri aparılır;*
- *investisiya fondlarında pay sahiblərinin reyestrinin təşkili və aparılması qaydaları müəyyən edilir;*

- *investisiya fondlarının və idarəçinin hesabatlarına dair tələblər, habelə onların təqdim edilməsi və açıqlanması qaydaları müəyyən edilir;*
- *səhmdar investisiya fondu və ya idarəçinin icra orqanlarının üzvlərinin, investisiya fondlarının idarə edilməsini həyata keçirən əməkdaşlarının attestasiyasına dair tələblər və attestasiya qaydaları müəyyən edilir və attestasiya keçirilir;*
- *səhmdar investisiya fondunun investisiya bəyannaməsi, ona əlavə və dəyişikliklər qeydiyyata alınır;*
- *paylı investisiya fondunun idarə edilməsi qaydaları, həmin qaydalara əlavə və dəyişikliklər qeydiyyata alınır və s.*

Onu da qeyd etmək lazımdır ki, səhmdar investisiya fondları, idarəçilər, xarici investisiya fondları və idarəçilərin nümayəndəlikləri və ya depozitarlar tərəfindən qanunvericiliyin tələblərinə əməl edilməsini, həmçinin investisiya fondlarının maliyyə sabitliyini araşdırmaq məqsədi ilə Azərbaycan Respublikasının Mərkəzi Bankı yerində növbəti və növbədən kənar yoxlamalar keçir.

## Mövzu üzrə nəticə:

İnvestisiya anlayışı dar və geniş mənalarda nəzərdən keçirilir. **Dar mənada investisiyalar dedikdə,** maddi və mənəvi nemətlərin yaradılmasına yönələn və gəlir əldə etmək məqsədilə investor tərəfindən qoyulan şəxsi cəlb edilən və ya borc kimi alınan pul vəsaitləridir. **Geniş mənada investisiyalar dedikdə,** müsbət sosial səmərəyə nail olmaq və gəlir (mənfəət) əldə etmək məqsədilə investor tərəfindən sahibkarlıq və digər fəaliyyət növləri obyektlərinə qoyulan əmlak (maddi) və intellektual (qeyri-maddi) sərvətlərin istənilən növləri və onlar üzərində hüquqlar başa düşülür. **İnvestisiya dedikdə,** gəlir əldə etmək məqsədilə sahibkarlıq fəaliyyəti obyektlərinə qoyulan pul vəsaitləri, qiymətli kağızlar, digər əmlak, o cümlədən əmlak hüquqları və pul dəyəri olan digər hüquqlar başa düşülür.

**İnvestisiyanın əlamətlərinə** aktivlərin qoyuluşu, investisiyanın müddətli xarakterli daşıması, investisiyanın məqsədi, investisiyanın riskli xarakter daşıması aiddir.

İnvestisiyaların xarakterindən asılı olaraq **ilkin investisiyalar**, **reinvestisiyalar, dezinvestisiyalar**, müddətindən asılı olaraq **qısamüddətli, ortamüddətli, uzunmüddətli** investisiyalar, gəlirin götürülməsinə görə **yüksək gəlirli, orta gəlirli, aşağı gəlirli** və **gəlirsiz** investisiyalar, mülkiyyət formasından asılı olaraq isə **dövlət (büdcə)**, **bələdiyyə**, **özəl** və **qarışıq** investisiyalara təsnifatlaşdırılır.

**İnvestisiya fəaliyyəti** investorların Azərbaycan Respublikasının ərazisində investisiya qoyuluşu ilə bağlı olan hərəkətlərinin məcmusudur. İnvestisiya fəaliyyətinin subyektləri **investorlar** və **iştirakçılardır**. İnvestisiya fəaliyyətinin növlərinə aiddir: **özəl investisiya fəaliyyəti, dövlət investisiya fəaliyyəti, xarici investisiya fəaliyyəti, birgə investisiya fəaliyyəti.**

**İnvestisiya fondu** – səhmdar və ya paylı investisiya fondu formasında yaradılan, vəsaitlərin cəlb edilib mənfəət əldə edilməsi məqsədi ilə investisiya bəyannaməsinə nəzərdə tutulmuş qaydada yatırılması ilə məşğul olan maliyyə qurumudur.

İnvestisiya fondunun iki növü fərqləndirilir: **səhmdar investisiya fondu** - səhmdar investisiya fondu fəaliyyəti üçün lisenziyaya malik olan, fəaliyyətinin müstəsna predmeti səhmlərinin yerləşdirilməsindən əldə edilən pul vəsaitlərinin investisiya bəyannaməsi ilə nəzərdə tutulmuş qaydada qiymətli kağızlara və digər əmlaka yatırılmasından mənfəət əldə edilməsi olan açıq səhmdar cəmiyyətidir. **Paylı investisiya fondu** - ümumi paylı mülkiyyət hüququ əsasında investisiya fond paylarının sahiblərinə məxsus və investisiya fondunun idarəçisinin idarəetməsində olan əmlak toplusudur. Səhmdar investisiya fondunun idarəetmə strukturuna **səhmdarların ümumi yığıncağı, müşahidə şurası, icra orqanı aiddir.** Paylı investisiya fondunun idarə edilməsi qaydaları Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən dövlət qeydiyyatına alındıqdan sonra i**darəçi** həmin fondun paylarını investorlara təklif edə bilər.

**Mövzunun mənimsənilməsi üçün**
**tövsiyə olunan ədəbiyyat:**

***a) əsas ədəbiyyat:***

1. "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 22 iyun 2022-ci il tarixli 551-VIQ nömrəli Qanunu.
2. "İnvestisiya fondları haqqında" Azərbaycan Respublikasının 22 oktyabr 2010-cu il tarixli, 1101-IIIQ nömrəli Qanunu.
3. Əliyev E.Ə. Beynəlxalq iqtisadi hüquq. Dərslik. Üçüncü nəşr (yenidən işlənmiş və əlavələr edilmiş). Bakı: "Günəş-B" nəşriyyat-poliqrafiya müəssisəsi. 2016.
4. İsayev S.Z. İnvestisiya fəaliyyətinin hüquqi tənzimlənməsi. Dərs dəvaiti. Bakı, "İqtisad Universiteti" Nəşriyyatı, 2011.
5. Антипова О.М. Правовые регулирование инвестиционной деятельности (анализ теоретических и практических проблем). М., 2007.
6. Доронина Н.Г., Семилютина Н.Г. Государство и регулирование инвестиции. М. 2003.
7. Гушин В.В., Овчинников А.А. Инвестиционное право: Учеб. пособ. М. 2006.
8. Серебрякова Т.А. Регулирование инвестиционной деятельности: финансовое-правовой аспект. Дис. канд. юрид. наук. Саратов, 2002.
9. Лисица В.Н. Инвестиционное право. М-во образования и науки РФ; Новосибирский нац. исслед. гос. ун-т. Новосибирск, 2015.
10. Ершова И.В., Отнюкова Е.Д., Спектор А.Л., Шевченко О.М. Инвестиционное право: учеб, пособие. М.: Проспект, 2014.
11. Инвестиционное право: учебник для бакалавриата и магистратуры / А.А. Овчинников [и др.]. 3-е изд., перераб. и доп. М.: Юрайт, 2015.
12. Павликов С.Г., Москаленко И.В., Зимин А.Е. О раз-

витии инвестиционной деятельности // Современный юрист. 2016. N 2. с. 85-95.

13. Терехова Е.В. Инвестиционное право: публично-правовые начала: учебное пособие. М.: РГУП, 2015.

14. Майфат А.В. Гражданско-правовые конструкции инвестировапия. М. 2006.

15. Фархутдинов И.З.,Трапезников В.А. Инвестиционное право. Учеб. Пособие. М.: 2006. с.165.

### *b) əlavə ədəbiyyat:*

16. Бабкин С.А., Хохлов, Е.С. Ограничение иностранных инвестиций в стратегические отрасли: продолжение дискуссии//Вестник гражданского права. 2010. № 5. с.148-170.

17. Доронина. Г. Семилютина Н.Г. Регулирование инвестиций как форма защиты экономических интересов государства // Журнал российского права. 2005. № 9. с.14.

18. Доронина Н.Г. Применение положений двусторонних международных соглашений о защите и гарантии инвестиций. // Инвестиции в России. 2002. № 7 .с. 67-82.

19. Жильцов А.Н., Карабельников Б.Р. Режим «стратегических инвестиций»: новеллы или коллизии // Вестник гражданского права. 2009. № 4. с. 141-162.

20. Исполинов А.С. Иностранные инвестиции в Российской Федерации и современное международное право // Московский журнал международного права 1993. №1. с.154.

21. Мухетдинова Н.М. Проблемы инвестиционной политики в регионах РФ//Аналитический вестник Совета Федерации ФС Р. 2007. № 1.

22. Отнюкова Г.Д. Об инвестициях и инвестиционной деятельности. // Закон. 2006. № 3. с.18.

**Dərs vəsaitinin hazırlanmasında istifadə olunan**

# Ə D Ə B İ Y Y A T

***a) Azərbaycan dilində:***

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2023.
2. Azərbaycan Respublikasının Mülki Məcəlləsi. Azərbaycan Respublikasının 28 dekabr 1999-cu il tarixli 779-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş və Azərbaycan Respublikasının 26 may 2000-ci il tarixli 886-IQ nömrəli Qanununa əsasən 2000-ci il sentyabr ayının 1-dən qüvvəyə minmişdir.
3. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi. Azərbaycan Respublikasının 28 dekabr 1999-cu il tarixli, 779-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş və Azərbaycan Respublikasının 26 may 2000-ci il tarixli 886-IQ nömrəli Qanununu ilə sentyabr ayının 1-dən qüvvəyə minmişdir.
4. "Xarici ticarət arbitrajı haqqında" 21 aprel 1961-ci il Avropa Konvensiyası. Azərbaycan Respublikası 31 may 1996-cı il tarixli 108-IQ nömrəli Azərbaycan Respublikasının Qanunu ilə "Xarici ticarət arbitrajı haqqında" Avropa Konvensiyasına qoşulmuşdur.
5. "Müflisləşmə və iflas haqqında" Azərbaycan Respublikasının 13 iyun 1997-ci il tarixli 326-IQ nömrəli Qanunu.
6. "Məşğulluq haqqında" Azərbaycan Respublikasının 29 iyun 2018-ci il tarixli 1196-VQ nömrəli Qanunu.
7. "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının 21 oktyabr 2005-ci il tarixli 1036-IIQ nömrəli Qanunu.
8. "Haqsız rəqabət haqqında" Azərbaycan Respublikasının 2 iyun 1995-ci il tarixli 1049 nömrəli Qanunu.
9. "Antiinhisar fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 4 mart 1993-cü il tarixli 526 nömrəli Qanunu.

10. “Dövlət əmlakının özəlləşdirilməsi haqqında” Azərbaycan Respublikasının 16 may 2000-ci il tarixli 878-IQ nömrəli Qanunu.

11. “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının 15 mart 2016-cı il tarixli 176-VQ nömrəli Qanunu.

12. “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının 2 iyul 2013-cü il tarixli 714-IVQ nömrəli Qanunu.

13. “Təbii inhisarlar haqqında” Azərbaycan Respublikasının 15 dekabr 1998-ci il tarixli 590-IQ nömrəli Qanunu.

14. “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının 10 iyun 1997-ci il tarixli 310-IQ nömrəli Qanunu.

15. “Tənzimləyici təsirin təhlili qaydasının təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 2 noyabr tarixli 432 nömrəli Qərarı.

16. “Notariat haqqında” Azərbaycan Respublikasının 26 noyabr 1999-cu il tarixli 762-IQ nömrəli Qanunu.

17. “Beynəlxalq arbitraj haqqında” Azərbaycan Respublikasının 18 noyabr 1999-cu il tarixli 757-IQ nömrəli Qanunu.

18. “Mediasiya haqqında” Azərbaycan Respublikasının 29 mart 2019-cu il tarixli 1555-VQ nömrəli Qanunu.

19. “Standartlaşdırma haqqında” Azərbaycan Respublikasının 17 may 2019-cu il tarixli 1587-ci nömrəli Qanunu.

20. “Texniki tənzimləmə haqqında” Azərbaycan Respublikasının 30 sentyabr 2019-cu il tarixli 1669-VQ nömrəli Qanunu.

21. “İstehlakçıların hüquqlarının müdafiəsi haqqında” 19 sentyabr 1995-ci il tarixli 1113 nömrəli Azərbaycan Respublikasının Qanunu.

22. “Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında” Azərbaycan Respublikasının 10 dekabr 2004-cü il tarixli 802-II Q nömrəli Qanunu.

23. “Banklar haqqında” Azərbaycan Respublikasının 16 yanvar 2004-cü il tarixli 590-IIQ nömrəli Qanunu.

24. “İnvestisiya fəaliyyəti haqqında” Azərbaycan Respublikasının 13 yanvar 1995-ci il tarixli 952 nömrəli Qanunu.

25. “Xarici investisiyanın qorunması haqqında” Azərbaycan Respublikasının 15 yanvar 1992-ci il tarixli 57 nömrəli Qanunu.

26. “İnvestisiya fondları haqqında” Azərbaycan Respublikasının 22 oktyabr 2010-cu il tarixli 1101-IIIQ nömrəli Qanunu.

27. “Bank olmayan kredit təşkilatları haqqında” Azərbaycan Respublikasının 25 dekabr 2009-cu il tarixli 933-IIIQ nömrəli Qanunu.

28. “Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramının təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 10 avqust 2000-ci il tarixli 383 nömrəli Fərmanı.

29. “Dövlət əmlakının özəlləşdirilməsi haqqında Azərbaycan Respublikası Qanununun icrası ilə bağlı əlavə tədbirlər barədə” Azərbaycan Respublikası Prezidentinin 23 dekabr 2000-ci il tarixli 432 nömrəli Fərmanı.

30. “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin Əsasnaməsi”nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 12 may 2020-ci il tarixli 1017 nömrəli Fərmanı.

31. “Standartlaşdırma haqqında” Azərbaycan Respublikasının 2019-cu il 17 may tarixli 1587-VQ nömrəli Qanununun tətbiqi barədə Azərbaycan Respublikasının Prezidentinin 12 iyul 2019-cu il tarixli 780 nömrəli Fərmanı.

32. “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının 2016-cı il 15 mart tarixli 176-VQ nömrəli Qanununun tətbiqi barədə Azərbaycan Respublikasi Prezidentinin 20 aprel 2016-cı il tarixli 866 nömrəli Fərmanı.

33. “İnvestisiya müsabiqəsinin keçirilməsi Qaydalarının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 17 iyul 2001-ci il tarixli 533 nömrəli Fərmanı.

34. “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin Əsasnaməsi”nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 may tarixli 1017 nömrəli Fərmanı.

35. Azərbaycan Respublikası apellyasiya instansiyası məhkəmələrinin, ağır cinayətlər məhkəmələrinin, inzibati-iqtisadi məhkəmələrinin və hərbi məhkəmələrinin ərazi yurisdiksiyası haqqında” Azərbaycan Respublikası Prezidentinin 9 avqust 2010-cu il tarixli 310 nömrəli Fərmanı.

36. “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 9 iyul tarixli 1632-VQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikasi Prezidentinin 19 iyul 2019-cu il tarixli 1325 nömrəli Sərəncamı.

37. “Azərbaycan Respublikasında ticarət, ictimai iaşə, məişət və digər növ xidmət Qaydaları”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 3 aprel tarixli 94 nömrəli Qərarı.

38. “İlkin mediasiya sessiyası zamanı mediasiya xidmətinin göstərilməsinə görə haqqın və digər xərclərin məbləğinin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 15 iyul tarixli 308 nömrəli Qərarı.

39. “Uyğunluğun qiymətləndirilməsi fəaliyyətləri üzrə akkreditasiya Qaydaları”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 2 iyul tarixli 252 nömrəli Qərarı.

40. “Dövlət əmlakının özəlləşdirilməsində iştirak etmək üçün təqdim edilməli sənədlərin siyahısı və qaydaları haqqında”

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2 fevral 2001-ci il tarixli 32 nömrəli Qərarı.

41. “Bank olmayan kredit təşkilatlarının prudensial tənzimlənməsi Qaydaları” Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının 7 iyul 2017-ci il 14 nömrəli Qərarı.

42. “Fiziki şəxslərin vergi uçotuna alınması, yenidən uçota alınması və uçotdan çıxarılması Qaydaları”. Azərbaycan Respublikası Vergilər Nazirliyinin Kollegiyasının 19 may 2015-ci il tarixli 1517050000003100 nömrəli qərarı ilə təsdiq edilmişdir.

43. Aslanov S.X. Sahibkarlıq hüququ. Əlavə və dəyişikliklərlə. İkinci nəşr. Bakı, “Digesta” nəşriyyatı, 2013.

44. Axundov A. Azərbaycan dilinin izahlı lüğəti. Bakı, “Elm” nəşriyyatı, 2005.

45. Elnur Sadıqov. Bank əməliyyatları. Dərs vəsaiti. Bakı: “İqtisad Universiteti” Nəşriyyatı, 2010.

46. Əliyev E.Ə. Beynəlxalq iqtisadi hüquq. Dərslik. Üçüncü nəşr (yenidən işlənmiş və əlavələr edilmiş). Bakı: “Günəş-B” nəşriyyat-poliqrafiya müəssisəsi. 2016.

47. Əsgərov İ.Q., Əsədov B.H. Azərbaycan Respublikası Mülki Məcəlləsinin Kommentariyası. I kitab, Bakı, Qanun, 2004. Səh. 309;

48. Hüquq nəzəriyyəsi. Təkmilləşdirilmiş yeni nəşr. M.B. Əhmədovun elmi redaktorluğu ilə. Bakı: Mütərcim, 2013.

49. Xələfov E.A. Sahibkarlıq hüququ. Dərs vəsaiti. Bakı, 2007.

50. İnzibati hüquq. Dərs vəsaiti. Xüsusi hissə. //M.B.Əhmədovun elmi redaktorluğu ilə. Bakı, Azərbaycan Respublikası DİN-in Polis Akademiyası. “MBM” nəşriyyatı, 2011.

51. İsayev S.Z. İnvestisiya fəaliyyətinin hüquqi tənzimlənməsi. Dərs dəvaiti. Bakı, “İqtisad Universiteti” Nəşriyyatı, 2011.

52. Qasımov A.M. Əmək hüququ: Dərslik. Bakı: Letterpress, 2016.

53. Quliyev A.İ. Hüquq ensiklopediyası. Bakı, “Qanun”, 2007.

54. Məlikova M.F. Hüququ nəzəriyyəsi. Dərslik. Yenidən işlənmiş və əlavələr edilmiş üçüncü nəşri. Bakı, “Elm və təhsil”, 2019.

55. Mirzəyeva A.Q., Əliyeva Ə.Ə. Bank hüququ. Dərslik. Bakı, 2019.

56. Mirzəyeva A.Q., Əliyeva Ə.Ə. Bank hüququ. Dərs vəsaiti. Bakı, ADMİU-nun mətbəəsi, 2019.

57. Mömsümov Camid. İqtisadi lüğət. Bakı, 2011.

58. Vahid Novruzov. “Azərbaycan” qəzeti. 2011. 26 oktyabr. s. 10.

***b) rus dilində:***

1. Агарков М.М. Основы банковского права: курс лекций. Учение о ценных бумагах: научное исследование. 2-е издание. М., 1994.

2. Агафонов А.В. Ответственность за посягательства на безопасность жизни или здоровья потребителей (истори-ко-правовой анализ). Под ред. докт. юрид. наук. проф. С.Н.Сабанина. СПб. Издательство, «Юридический центр Пресс», 2004.

3. Адушкина Е.Ю. Актуальные гражданско-правовые вопросы предпринимательской деятельности кредитных организаций. Дис. Канд. Юрид. Наук. Саратов, 2010.

4. Алексеева Д.Г., Хоменко Е.Г. Банковское право: Вопросы и ответы. М.: Юриспруденция, 2002.

5. Алехин А.П., Кармолицкий А.Н., Козлов Ю.М. Административное право Российской Федерации. М., 1997.

6. Анохин В.С. Предпринимательское право. М,: «Владос», 2003.

7. Антипова О.М. Правовое регулирование инвестиционной деятельности (анализ теоретических и практических проблем). М. Волтерс- Кулвер. 2007.

8. Арупов А.А. Приватизация государственной собственности: сравнительный анализ мирового опыта и Республики Казахстан. Дисс. на соиск. доктора экономических наук. СПб., 2000.

9. Васильев Е.Н. Правовое регулирование конкурс-ного производства в капиталистических странах. М., 1989.

10. Багандов А.Б. Общий порядок выдачи лицензий / А.Б. Багандов // Современное право. 2006. № 4. с. 6-8.

11. Байша Ж.Ф. Предпринимательское право. Учебное пособие. М., 2003.

12. Байша Ж.Ф. Предпринимательское право. Учебное пособие. 2-е изд. переработан. и доп. М,. Издательско-торговая корпорация «Дашков и К», 2008.

13. Баренбойм П.Д. Правовые основы банкротства. Учеб. Пособие. М., 1995.

14. Бахрах Д.Н. Административное право России: Учебник для вузов. М., 2000.

15. Банковское право Российской Федерации. Общая часть: Учеб. / Под общ. ред. акад. Б.Н. Топорнина. М.: Юрист, 2002.

16. Барихин А.И. Экономика и право. энциклопедический словарь. М. Книжный мир. 2000.

17. Белицкая А.В. Основы инвестиционного права Российской Федерации // Предпринимательское право. Приложение «Бизнес и право в России и зарубежом. 2012. № 1. с. 12-22.

18. Белых В.С. Правовое регулирование предпринимательской деятельности в России. М.: Проспект, 2008.

19. Белых В.С. Приватизация государственных и муниципальных предприятий в Российской Федерации: эконом-

ико-правовые вопросы // Государство и право. 1996. №10. с. 28.

20. Борисов А.Б. Большой экономический словарь / А.Б.Борисов. Москва: Книжный мир, 2003.

21. Братко А.Г. Банковское право (теория и практи-ка). М.:2000.

22. Бородкин В.Г. Введение финансового оздоровления и столкновение конкурирующих интересов // Право и экономика. 2014. № 11. с. 25–26;

23. Брагинский М.И. Участие советского государ-ства в гражданских правоотношениях. М., 1981.

24. Бруско Б.С. Защита прав и законных интересов кредиторов в конкурсном праве. Иркутск,2004.

25. Богатырев А.Г. Инвестиционное право. М., 1992.

26. Бочаров В.В. Инвестиции (Текст) В.В.Бочаров // Санкт-Петербург: Питер-2009.

27. Братко А.Г. Центральный банк в банковской системе России. - М.: Спарк, 2001

28. Братко А.Г. Центральный банк м банковской системе России. М. Спарк, 2001.

29. Бобылев А.И. Современное толкование системы права и системы законодательства // Государство и право, 1998, № 2. с. 24.

30. Богуславский М.М. Международное частное право. Учебник. 5-е изд. перераб. и доп. М. Юрист. 2005.

31. Большой российский энциклопедический словарь. М.: Больш. российская энцик., 2003.

32. Брославский Л.И. Техническое регулирование качества и безопасности продукции и окружающей среды: проблемы теории и практики. Бизнес, Менеджмент и право, № 2(32), 2015.

33. Бублик В.А. Гражданское-правовое регулирование внешнеэкономической деятельности в Российской Феде-ра-

ции: проблемы теории, законотворчества и право применения. Монография. Екатеринбург. 1999.

34. Васильев Д.В., Дробышев П.Ю., Конов А.В. Объективные факторы коррупции, складывающиеся при осуществлении регулятивных и контрольно-надзорных полномочий Центральным банком Российской Федерации. М., 2002.

35. Вдавин И.А. Механизм правового регулирования инвестиционной деятельности: автореф. дис…д-ра юрид. наук. СПб, 2002.

36. Венгеров А.Б. Теория государства и права: Учебник. М., 1999.

37. Вершинин А.П. Выбор способа защиты граж-данских прав. СПб., 2000.

38. Витрянский В.В. Проблемы арбитражно-судебной защиты гражданских прав участников имущественного оборота: Дисс. … докт. юрид. Наук. М., 1996.

39. Владимир Даль. Толковый словарь живого великорусского языка. Т.1-4. Т. 3; П-Р. М. А\О издательская группа «Прогресс» «Универс», 1994.

40. Владимирова М.О. Медиативное соглашение в системе гражданскоправового регулирования: диссертация на соискание ученой степени кандидата юридических наук / Маргарита Олеговна Владимирова. – Казань, 2014.

41. Вознесенская Н.Н. Новый закон в Россиии в сфере регулирования иностранных инвестиций и безопасности // Закон, 2009. № 2. с. 188.

42. Гаврилюк В.И. Паевые инвестиционные фонды в РФ: хронологический срез развития индустрии. // Вестник РЭУ 2012, № 10.

43. Гальперин В. В. Лекция 48. Монопольная власть [Электронный ресурс] / В. В. Гальперин, В. М. Гальперин // 50 лекций по микроэкономике: [электронный учебник]. http://goo.gl/TFaMy0.

44. Гейвандов Я.А, Центральный банк Российской Федерации. Юридический статус. Организация. Функции. Полномочия. М. Издательство МНИМП. 1997.

45. Герцев Д.А. Гражданско-правовое регулирование отношений по приватизации предприятий, находящихся в государственной собственности: дис. ... канд. юрид. наук. М., 2008.

46. Гиляровская Л.Т., Вехорева А.А. Анализ и оценка финансовой устойчивости. СПб., 2003.

47. Гобузов В.Ф./ Финансово-кредитный словарь. – М.: Финансы и статистика, 1994. – Т.1.

48. Голубев С.А. Правовое регулирование государственного управления банковской системой Российской Федерации и в зарубежных странах (сравнительно-правовой анализ): Дисс. на соискание ученой степени д-ра юрид. наук. М., 2004.

49. Горбухов В.А. Коммерческое право. Конспект лекций. М. 2007.

50. Горягин А.А. Административно–правовое регулирование инвестиционной деятельности в Российской Федерации. Автореферат. дис… канд. юрид. наук. М., 2001.

51. Государственное регулирование экономики: Учебное пособие /Под ред. Т.Г. Морозовой. М. 2011.

52. Гражданское и торговое право капиталистических государств: Учебник для вузов /Отв. ред. Е.А. Васильев. М., 1993.

53. Гражданский процесс России. Учебник. Под ред. М.Л. Викут. М.: Юристь, 2005.

54. Грибанов В.П. Осуществление и защита граж-данских прав. М.: Изд-во МГУ, 1972.

55. Губин Е.П. Государственное регулирование ры-ночной экономики и предпринимательства: правовые проблемы. М. 2005.

56. Гурвич М.А. Учение об иске (состав, виды). М., 1981.

57. Гущин А.В. Лицензирование в РФ: Правовые и организационные основы / А.В. Гущин. - М.: Дашков и К, 2004.

58. Гушин В.В. Овчинников А.А. Инвестиционное право: Учеб. пособ. М. 2006.

59. Добровольский А. А., Иванова С.А. Основные проблемы исковой формы защиты права. М., 1979.

60. Добролюбова, Е.А. Медиация в системе способов защиты прав предпринимателей: автореферат диссертации на соискание ученой степени кандидата юридических наук. Москва, 2012.

61. Дойников И.В. Предпринимательское право. М.: Изд.: ПРИОР, 1998.

62. Долан Э. Дж., Линдсей Д. Рынок: микроэкономическая модель СПб. 1992.

63. Доронина Н.Г., Семилютина Н.Г. Государство и регулирование инвестиции. М. 2003.

64. Елисейкин П.Ф. Предмет судебной деятельности в советском гражданском процессе. Автореф. дис. д-ра юрид. наук. Л., 1974.

65. Ерпылева Н.Ю. / Правовые стандарты банковского регулирования и надзора: научная статья. Законодательство и экономика № 6, 1999.

66. Ермаков Д.Н Инвестиционная деятельность негосударственных пенсионных фондов в реализации региональных и социальных проектов. Дис... канд. экон. наук. М. 2007.

67. Ершова И.В. Предпринимательское право. Учебник. - Изд. 4-е, перераб. и доп. - М.: Юриспруденция, 2006.

68. Жегалова А.С. Паевые инвестиционные фонды в системе коллективного инвестирования в Российской Федерации: автореф. дис… канд. эконом. наук. Самарский Государственный экономический университет. Самара. 2014.

69. Жилинский С. Э. Предпринимательское право (правовая основа предпринимательской деятельности): Учебник для вузов. 2-е изд. Перераб. и доп. М.,1999.

70. Жучков А.Ю. Роль естественных монополий в национальной экономике социально-экономические явления и процессы. № 9 (055), 2013. с. 42-46.

71. Зайцева В.В. Правовые проблемы конкурсного производства в процессе банкротства банков: Дис. … канд. юрид. наук. М., 2002.

72. Зайцев А.И., Кузнецов Н.В., Савельева Т.А. Негосударственные процедуры урегулирование правовых споров. Саратов, 2000.

73. Замалаев П.С. Совершенствование законодательства о несостоятельности // Арбитражный управляющий. 2011, № 2, с. 31–32.

74. Занковский С.С. Предпринимательское (хозяй-ственное) право и 21 веке. Преемственность и развитие. М. 2001.

75. Зеленский Ю.Б. Банковская система Российской Федерации и реальный сектор экономики. Саратов: изд. центр Саратовского гос. социально-экономич. ун-та, 2002.

76. Игнатов В.М. Приватизация государственной собственности в РФ: проблемы правового регулирования: автореф. дис. … канд. юрид. наук. М., 2002.

77. Иванов Е.В. Гражданско-правовое положение паевых инвестиционных фондов. вопросы теории и практи-ки. Дис. к.ю.н. М.2009.

78. Иванова, М.С. Медиация как способ защиты прав и интересов супругов при расторжении брака: авто-реферат диссертации на соискание ученой степени канди-дата юридических наук / Мария Сергеевна Иванова. Тверь, 2014.

79. Иоффе О.С. Правоотношения по советскому праву. М., 1949.

80. Камышанский В.П. Приватизация как способ распоряжения государственным и муниципальным имуществом // За-кон. 2005. № 11.

81. Карелина С.А. Правовое регулирование несостоятельности (банкротства). М, 2002.

82. Карелина С.А. Правовое регулирование несостоятельности (банкротства): Учебно-практич. пособие. М., 2007.

83. Карелина С.А. Принципы правового регулирования отношений, возникающих в связи с несостоятельностью (банкротством) должника // Предпринимательское право. 2008. № 2.

84. Кауракова М.В. Трансграничный инвестиционный фонд как субъект инвестиционных отношений. Авто-реферат на соиск. учен. стен. канд. юрид. наук. М. 2014.

85. Кейс Дж. Общая теория занятности процента и денег. Пер. с англ. Н.Н.Любимова. Под ред. Л.П.Куракова. М. 2000.

86. Кнутов А.В. «Лицензирование отдельных видов экономической деятельности»//Вопросы государственного и муниципального управления, №1, 2014 г.

87. Кокин В.Н. Защита прав инвестора при недропользовании на условиях соглашения о разделе продукции. Автореферат. дис. канд. юрид. наук. М., 2002.

88. Клейнман А.Ф. Советский гражданский процесс. М., 1954.

89. Комарицкий С.И. Приватизация: Правовые проб-лемы: курс лекций // Исследовательский центр частного права: Российская школа частного права. М.: Статут, 2000.

90. Комарицкий С.И. Приватизация: правовые проб-лемы : курс лекций. М., 2000.

91. Коммерческое право: В 2 ч.: Учебник /Под ред. В.Ф. Попондопуло, В.Ф. Яковлевой; СПбГУ. 3-е изд., перераб. и доп. М., 2002.

92. Коммерческое право: В 2 ч.: Учебник /Под ред. В.Ф. Попондопуло, В.Ф. Яковлевой; СПбГУ. 3-е изд., перераб. и доп. М., 2002.

93. Коммерческое право: Учебник //Под ред. В.Ф. Попондопуло, В.Ф. Яковлевой. М.: Юрист, 2002. Часть 2.

94. Коммерческое право: Учебник. В 2 ч. / Под ред. В.Ф. Попондопуло и В.Ф. Яковлевой. СПб., 1997. Ч.1.

95. Коммерческое право зарубежных стран: Учебник / Под ред. В.Ф. Попондопуло. –СПб., изд. Дом С.-Петерб. Гос. ун-та, 2005.

96. Комментарий части первой Гражданского кодек-са российской Федерации // Под ред. М.И. Брагинского и др. М. 1995.

97. Коршунов Н.М. Процесс приватизации в России. Методология правового регулирования. Н. Новгород: НЮИ МВД России, 1998.

98. Красавчиков О.А. Возмещение вреда причинен-ного источником повышенной опасности. Москва, 1966.

99. Круглова Н.Ю. Хозяйственное право. М.: Русская Деловая Литература, 1997.

100.Краткий юридический справочник. В помощь профактиву. М. Проф. издат. 1993.

101. Кращенко Д.А. Банкротство субъектов предпринимательства в РФ: Проблемы правового регулирования: Дис. ... канд. юрид. наук. Волгоград, 2001.

102. Кулагин М.И. «Избранные труды». М., 1997.

103. Кучера Ю.В. Административно-правовое регу-лирование банковской деятельности в Российской Федерации: дисс. На соиск. Учен. Степ. Канд. Юрид. наук. Омск, 2004.

104. Ламкина, И.С. Правовые проблемы лицензирования. М., 2016.

105. Лисица В.Н. Правовые регулирование инвестиционных отношений: теория законодательства и практика

применения: монография, Рос. акад. наук. Инс-т философии и права СОРАН, М-во образовании и науки РФ. Новосибирский гос. уни-т. Новосибирск. 2011

106. Лоркинанидзе А.Г. Гарантии платежеспособ-ности по законодательству Англии И Франции. // Законо-дательство зарубежных стран. Выпуск 162// М., 1979.

107. Майфат А.В. Гражданско-правовые конструкции инвестировании. М., Волтерс Клувер, 2006.

108. Макконелл К., Вресф С., Экономика М., 2003.

109. Макконнелл К.Р., Брю С.Л. Экономикс. М., 1993. Т. I.

110. Малая приватизация в Российской Федерации. Нижегородская модель. Пособие для должностных лиц муниципального уровня. Подготовлено Международной финансовой корпорацией. Washington, 1992.

111. Матвеев Г.К., Шелестов В.С., Сергиенко А.А. Новое исследование деликтных обязательств. Советское государство и право, 1967.

112. Марков, М. Технология и эффективность социальнього управления. Пер. с болг. М. 1982.

113. Махнева Е.А. Развитие гражданских правоотношений в процедурах банкротства: Дис. ... канд. юрид. наук. М., 2003.

114. Мильшин Ю.Н. Лицензирование как способ обеспечения прав и законных интересов граждан. Круглый стол: Приоритеты правовой политики современной России (окончание) // Правоведение. 1998. № 1.

115. Международное публичное право: учебник для бакалавров / отв. ред. К.А. Бекяшев. 5-е изд., перераб. и доп. Москва: Проспект, 2013.

116. Миронов И. Приватизация в СССР: поиск оптимального варианта // Вопросы экономики. 1991. № 4.

117. Морозов М.Э. Частное процессуальное право: тупиковая ветвь права или новый вектор его развития? / М.Э.Морозов // Третейский суд. 2010. № 6. с. 80-84.

118. Муравьев Б.В. Инвестиционное обязательство в строительстве: автореф. дис…. канд. юрид. наук. М.2001.

119. Мырзалиев Б.С. Государственное регулирование экономики: Учебник. – Алматы: «Нур-Пресс», 2007.

120. Несостоятельность (банкротство): Научно-практический комментарий новелл законодательства и практики его применения / В.В. Витрянский, В.В. Бациев, А.В. Егоров и др.; под ред. В.В. Витрянского. М.: Статут, 2010.

121. Несостоятельность (банкротство): Научно-практический комментарий новелл законодательства и практики его применения / Под ред. В.В. Витрянского. М.: Статут, 2010 (автор главы − С.В. Сарбаш).

122. Назаренко, Л.И. Понятие естественной монополии, ее основные черты и классификация /Л.И. Назаренко// Фундаментальные и прикладные исследования в современном мире. 2016. № 14-2. с. 50-57.

123. Ойгензихт В.А. Проблемы риска в гражданском праве.Дюшанбе, 1972.

124. Олейник О.М. Основы банковского права: курс лекций. М.: 1997.

125. Олейник О.М. Лицензирование предпринимательской деятельности: Проблемы теории и практики. М., 2015.

126. Организация предпринимательской деятельности: Учебное пособие. Под ред. А.С. Пелихина. Ростов-на-Дону, издательский центр «Март», 2002.

127. Ортлофф К. Европейская культура разрешения споров // Медиация и право. 2007. № 3 (5).

128. Пантюхин А.В., Смирнова Е.В. Предпринимательское право: в вопросах и ответах. Учебное пособие. М, ТК Велби, КноРус, 2004.

129. Пантелеева И.А. Семейная медиация как альтернативная процедура разрешения споров // Вестник Нижегородского университета им. Лобачевского. 2014. № 1(2).

130. Попондопуло В.Ф. Коммерческое (прелпринимательское) право. Учебник. М. Юристь, 2004.

131. Попондопуло В.Ф. Коммерческое (предпринимательское) право: Учебник. 2-е изд. Перераб. и доп. М., 2006.

132. Плячкайтене И.М. Исторический обзор подходов к понятию естественная монополия //Актуальные проб-лемы гуманитарных и естественных наук. 2011. № 8.

133. Понасюк, А. М. Медиация как альтернативна и доп-олнение судопроизводству // Мировой судья. 2012. № 9.

134. Право международных организаций: учебник/ Под ред. И.П. Блищенко, А.Х. Абашидзе. М.: РУДН, 2013. С. 217.

135. Правовое регулирование финансового контроля в Российской Федерации: проблемы и перспективы: монография / отв. ред. Е.Ю. Грачева. М. НОРМА, ИНФРА-М, 2013.

136. Попондопуло В.Ф. Понятие и субъекты несостоятельности ( банкротства ) // Правоведение, 1995, № 3.

137. Предпринимательское право. Курс лекций / Под ред. Н.И. Клейн. М., 1993.

138. Предпринимательское право Российской Федерации: учебник/под ред. Е.П.Губина, П.Г. Лахно. М., 2003.

139. Предпринимательское право Российской Федерации. Отв. ред. Е.П.Губин, П.Г. Лахно. М.: Юристь, 2004.

140. Предпринимательское (хозяйственное) право. Учебник. Под ред. В.В.Лаптева, С.С. Занковского. М., 2006.

141. Предпринимательское право Российской Федерации. Под ред. Е.П. Губина, П.Г. Лахно. М., 2007.

142. Предпринимательское право России: учеб. / В. С. Белых, Г. Э. Берсункаев, С. И. Виниченко и др.// отв. ред. В. С. Белых. М.: Проспект, 2009.

143. Предпринимательское право Российской Федерации. Учебник/ Под ред. Е.П. Губина, П..Г. Лахно, 2-е изд. М., Норма-Инфра-М, 2010.

144. Пупынин В. Суверенные инвестиционные фонды. определения и основы функционирования // Международная экономика, 2008. №10.

145. Райзберг Б.А. Современный экономический словарь / Б.А.Райзберг, Л.Ш.Лозовский, Е.Б.Стародубцева. 5-е изд., перераб. и доп. Москва: ИНФРА-М, 2007.

146. Ракитина, Л. Н., Львова О. А. Медиация (посредничество): Как урегулировать спор, не обращаясь в суд. М.: Эксмо, 2008.

147. Рзаев Р., Новрузов Р., Алиева К. Руссо-азербайджанский толковый юридический словарь. Баку, «Нурлар» Издательско-Полинрафический Центр, 2015.

148. Роде Э. Банки, биржи, валюты современного капитализма. М., 1986.

149. Российская банковская энциклопедия /под ред. О.И.Ловрушкина. М.: ЭТА, 1995.

150. Российская социологическая энциклопедия / Под общ. ред. Г.В.Осипова. М.: Норма-Инфра, 1998.

151. Свердлыг Г.А. Страунинг Э.Л. Защита и самозащита гражданских прав: Учебное пособие. М., 2002.

152. Семеусов В.А., Пахаруков А.А. Банкротство предприятий. Внешнее управление: Учеб. пособие. Иркутск, 1999.

153. Серебрякова Т.А. Регулирование инвестиционной деятельности: финансовое-правовой аспект. Дис. канд. юрид. наук. Саратов, 2002.

154. Свириденко О.М. Институт несостоятельности (банкротства) в системе гражданского права // Журнал российского права. 2011. № 1. с. 44-45.

155. Смагина И.А. Предпринимательское право. Учебное пособие. 3-е изд. М. Изд-во «Омега-Л», 2009.

156. Смирнова Е.В. Банкротство несостоятельности рознь? // ЭКО. 1993. № 9.

157. Смит В. Происхождение центральных банков: Пер. с англ. - М.: ИНМЭ, 1996.

158. Соболь О.С. Лицензирование предпринимательской деятельности (правовой аспект): автореф. дис. ...канд. юрид. наук: 12.00.03 / О.С. Соболь; Московск. госуд. юрид. академия. -М., 2004.

159. Советское административное право. Управление в области административно-политической деятельности. М., 1978.

160. Советское гражданское право. Т. 2. М. Юрид. 1976.

161. Советский энциклопедически словарь. Гл. ред. А.Я. Сухарев. М. Сов. Энциклопедия. 1984.

162. Степанов В.В. Несостоятельность (банкротство) в России, Англии, Франции, Германии. М., 1999.

163. Субанова Н.В. «Вопросы правового регулирования лицензирования предпринимательской деятельнос-ти», Вестник академии Генеральной прокуратуры Россий-ской Федерации, Изд: Академия Генеральной прокуратуры Российской Федерации (Москва). №4 (12). 2009. с.42-47.

164. Сушкин А.Б. Комментарий к Федеральному закону от 25 февраля 1999 г. № 39-ФЗ «Об инвестиционной деятельности в Российской Федерации, осуществляемой в форме канительных вложений. ООО Новая правовая культура. 2007.

165. Таймазов В. Медиация в России: первые шаги // Расчёт. 2008, №12.

166. Тедеев А.А. Банковское право: учебник. М.: 2005.

167. Телюкина М.Б. Соотношение понятий «несостоятельность и «банкротство» в дореволюционном и современном праве. Юрист. 1997. № 12.

168. Телюкина М.В. Признаки и критерии несостоятельности юридического лица // Юридический мир. 1997. № 11.

169. Телюкина М.В., Ткачев В.Н., Тарасов В.И. Финансовое оздоровление как пассивная оздоровительная процедура // Адвокат. 2003. № 12.

170. Теория государства и права /Под ред. В.П.Малахова, В.Н.Казакова. М., 2002.

171. Тихонова С.С. Инновационный общетеоретический лекционный курс «Юридическая техника»: взгляд отраслевика. Рецензия на курс лекций «Юридическая техни-ка» под редакцией В.М.Баранова и В.А.Толстика. М., 2013.

172. Тихонова С. С. Юридическая техника в уголовном праве: Курс лекций. Н.Новгород: Деком, 2008.

173. Ткачев В.Н. Правовое регулирование несостоятельности (банкротства) в РФ. М., 2002.

174. Ткачев В.Н. Конкурсное право. Правовое регулирование несостоятельности (банкротства) в России. М., 2006.

175. Треушников М.К. Судебная защита гражданских прав: учебник гражданского процесса. М.: 1996.

176. Толстошеин К.Б. Предпринимательство в условиях развития рыночных отношений. М., 1997.

177. Тотьев К.Ю. Конкурентное право (правовое регулирование деятельности субъектов конкуренции и монополий): Учебник для вузов. 2-е изд., перераб. и доп. М., 2003.

178. Трофимов К.Т. Проблемы правоспособности банка// Хозяйство и право, № 4.

179. Трофимова А.Х. Особенности правового регулирования приватизации государственного и муниципаль-ного имущества: дис. … канд. юрид. наук. М., 2012.

180. Тяпкина Е.А. Способы приватизации // Гражданин и право. 2003. № 2. с. 9-14.

181. Умань И.Н. Финансовое оздоровление как реабилитационная процедура, условия, порядок и процессуальные проблемы его применения при банкротстве юридических лиц // Российский судья. 2010. № 5. с. 34-37.

182. Ушаков Д.Н. Толковый словарь. М., 1940.

183. Фархутдинов И.З., Магомедов М.Ж. Федеральный Закон «Об иностранных инвестициях в Российской Федерации» - 10 лет спустя (лпыт, проблемы и пути совершенствования) // Законы России: опыт, анализ и практика. № 12.

184. Философский словарь // Под ред. М.М.Розенталя и П.Ф. Юдина. М.: Издательство политической литературы, 1963. 544 с.

185. Фридман А.И. Развитие инвестиционных фондов в мире и их место в экономике // Экономический журнал, 2015-№ 4 (40). с.: 69-70.

186. Фролов И.В. Управление процедурами банкротства: теория и юридическая практика: Учеб. пособие. Новосибирск, 2013.

187. Хозяйственное право. Учебник. Под ред. В.К.Мамутова. Киев, 2002.

188. Хуснитдинов П. Инвестиционные фонды в Европейском Союзе // Зарубежные финансовые рынки, 2007, № 19 (346). с. 66-67.

189. Чумиков А.Н. Связи с общественностью: Учеб. Пособие. 2-е изд., испр. и доп. М.: Дело, 2001.

190. Шамликашвили Ц.А. Основы медиации как процедуры урегулирования споров. Учебное пособие. М.: МЦУПК, 2013.

191. Шарп Н., Александер Г., Бейли Дж. Инвестиции. М., 2003.

192. Шейнин Е.Я. Предпринимательство и бизнес. Учебное пособие, Ростов-на-Дону: «Феникс», 2002.

193. Шерстобитов А. Е. Гражданско-правовые вопросы охраны прав потребителей. М.: Изд-во Моск. Ун-та, 1993.

194. Шершеневич Г.Ф. Курс торгового права. М., 1912.

195. Щенникова Л., Банкроство в гражданском праве России: традиции и перспективы // Российская юстиция. 1998. № 10.

196. Юлова Е.С. Правовое регулирование несостоятельности (банкротства) кредитных организаций. Автореф. дис. … канд. юрид. наук. М., 2004.

197. Юридический энциклопедический словарь // сост. У.А.Янин, В.А.Захагнина, М. АСТ, Владимир: ВКТ 2010.

198. Юридическая наука и практика: Вестник Нижегородской академии МВД России. 2013. №23. с. 244-245;

199. Юрьева, Ю.С. Лицензирование как форма деятельности органов исполнительной власти: автореф. дис. ...канд. юрид. наук: 12.00.14 / Ю.С.Юрьева; Саратовск. госуд. академия права. Саратов: 2008.

200. Яснопольский Л.Н. Государственный банк // Вопросы государственного хозяйства и бюджетного права. СПб., 1907.

### c) ingilis dilində:

1. Blind K. The economics of standards: theory, evidence, policy// Edward Elgar Pub, 2004; Slowak A. Standard-setting capabilities in industrial automation: a collaborative process //Journal of Innovation Economics and Management. 2008, № 2, P. 147-169.

2. Brunsson N., Jacobsson B. A World of Standards//Oxford University Press, 2000. P.200.

3. Caffagi F., Muir Watt H. The regulatory Function of European Private Law// electron resurs// URL://bookre.org/reader?file=1174040andpg=11

4. Delimatsis P. The Law, Economics and Politics of International Standardisation// Cambridge University Press, 2015. P. 4.

5. Les investments et le development economies des pans do tiers – monde (colloquy jurudque) P.1968.

6. Monitorul Oficial от 14 сентября 2012 года №193-197 статья №:663.

7. Schuarzenbergen I. Foreign investments and International Law d.1959 p.17.

8. Steven H. Gifis. Law Dictionary. Printed in the United States of America. Barron's Educational Series, Inc. - 1996.

9. A Handbook of Business Law Terms. BRYAN A. GARNER. Editor. St. Paul, Minnesota. WEST GROUP. - 1999.

10. Black's Law Dictionary. Abridged Seventh Edition. Bryan A. Garner. Editor in Chief. WEST GROUP. ST. PAUL, MINN., 2000.

***d) internet resursları:***

1. https://www.cbar.az/page-4/history

2. https://banker.az/ bankcılığın inkişaf tarixi /C9-99 qısa ekskurs/

3. https://banker.az/ bankcılığın inkişaf tarixi /C9-99 qısa ekskurs/

4. https://www.wto.org/english/res_e/anrep_e/wtr 05-2b_e.pdf.

5. World Trade Raport 2005//

6. http://www.itu.int/dms_pub?itu-s/opb/conf/S-CONF-PLEN-2015-PDF-R.pdf

7. http://www.iso.org/iso/iso_iec_guide_2_2004.pdf

8. https://documents-dds-ny.un.org/doc/UNDOC/GEN/N15/449/13/PDF/N1544913.pdf?OpenElement

9. www.standards/org/an/ Standards Development/What-is-a-standard/Pages/default/aspx

10. www.bsigroup/com/en/ standard-and Publications /About – is-a-standard/ What-is-a-standard

11. www.astm.org/ABOUT/faqs.html

12. http://azstand.gov.az/upload/files/AZS%20ISO%20IEC%2017020-2020(1).pdf

13. http://docs.cntd.ru/document/1200054151

14. http://azstand.gov.az/az/static/13

15. https://europa.eu/youreurope/business/product/standardisation-in-europe/index_en.htm

16. https://www.merriamwebster. com/dictionary/privatization

17. http://ozhegov.slovaronline.com/%D0%9B/%D0%9B%D0%98/14250-liberalizovat

18. Естественная монополия [Электронный ресурс]: //Академик. Энциклопедический словарь. – Режим доступа: http://goo.gl/3wBSYX; Естественная монополия [Электронное издание]: //Академик. Политология. Словарь. http://dic.academic.ru/dic.nsf/politology/1016; Естественная монополия [Электронное издание]: //Академик. Политология. Словарь-справочник. http://goo.gl/76Lgud.

19. http://www.taxes.gov.az/uploads/qanun/2015/qayda/19052015.pdf

20. https://www.investaz.az/likvidlik-nedir

# KİTABIN İÇİNDƏKİLƏR

**Ön söz**..........2

**I fəsil. Kommersiya (sahibkarlıq) hüququnun anlayışı**..........8
1.1. Kommersiya (sahibkarlıq) hüququnun anlayışı, predmeti və metodu..........8
1.2. Kommersiya (sahibkarlıq) hüququnun prinsiplərinin anlayışı və təsnifatı..........23
1.3. Kommersiya (sahibkarlıq) hüququnun mənbələrinin anlayışı və təsnifatı..........29
1.4. Kommersiya (sahibkarlıq) hüquq münasibətlərinin anlayışı və növləri..........38
**Nəticə**..........44
**Tövsiyə olunan ədəbiyyat**..........46

**II fəsil. Kommersiya (sahibkarlıq) hüququnun subyektləri və onların əmlakının hüquqi rejimi**..........49
2.1. Kommersiya (sahibkarlıq) hüququnun subyektlərinin anlayışı, əlamətləri və təsnifatı..........49
2.2. Dövlət orqanları kommersiya (sahibkarlıq) hüququnun subyektləri kimi..........63
2.3. Kommersiya (sahibkarlıq) hüququnun subyektlərinin ayrı-ayrı növlərinin hüquqi vəziyyəti..........71
2.4. Sahibkarlıq fəaliyyəti subyektlərinin əmlakının hüquqi rejimi..........82
**Nəticə**..........86
**Tövsiyə olunan ədəbiyyat**..........88

**III fəsil. Müflisləşmə və iflasın hüquqi tənzimlənməsi**..........91
3.1. Müflisləşmə və iflasın anlayışı, əlamətləri və xüsusiyyətləri..........91
3.2. Müflisləşmə və iflasın subyektləri və iflas prosesi..........100
3.3. Sağlamlaşdırmanın anlayışı və sağlamlaşdırma prosesi..........115
**Nəticə**..........123
**Tövsiyə olunan ədəbiyyat**..........125

**IV fəsil. Sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsi**.........128
4.1. Sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsinin anlayışı, forma və metodları.........128
4.2. Sahibkarlıq fəaliyyətinin ayrı-ayrı növlərinin lisenziyalaşdırılmasının anlayışı və məqsədi.........141
4.3. Lisenziya və icazə sisteminin dövlət tənzimlənməsinin prinsipləri və subyektləri.........147
4.4. Lisenziya və icazələrin verilməsi, dayandırılması və ləğvi...153
4.5. Sahibkarlıq fəaliyyəti sahəsində yoxlamaların aparılmasının hüquqi tənzimlənməsi.........160
**Nəticə**.........165
**Tövsiyə olunan ədəbiyyat**.........166

**V fəsil. Dövlət əmlakının özəlləşdirilməsinin hüquqi tənzimlənməsi**.........168
5.1. Dövlət əmlakının özəlləşdirilməsinin anlayışı, subyektləri və obyektləri.........168
5.2. Dövlət əmlakının özəlləşdirilməsinin üsulları.........185
5.3. Dövlət əmlakının özəlləşdirilməsi qaydası.........193
**Nəticə**.........200
**Tövsiyə olunan ədəbiyyat**.........201

**VI fəsil. Sahibkarlıq fəaliyyəti sahəsində inhisar fəaliyyətinin məhdudlaşdırılması və rəqabətin hüquqi təminatı**.........204
6.1. Haqsız rəqabətin anlayışı və formaları.........204
6.2. İnhisar fəaliyyətinin anlayışı və növləri.........212
6.3. Təbii inhisar subyektlərinin fəaliyyətinin hüquqi tənzimlənməsi.........223
**Nəticə**.........231
**Tövsiyə olunan ədəbiyyat**.........232

**VII fəsil. Sahibkarlıq fəaliyyəti subyektlərinin hüquqlarının və qanuni mənafelərinin müdafiəsi**.........234
7.1. Sahibkarların hüquqlarının və qanuni mənafelərinin müdafiəsinin anlayışı, forma və üsulları.........234
7.2. Sahibkarların hüquqlarının və qanuni mənafelərinin məhkəmə müdafiəsi.........244

7.3. Sahibkarların hüquqlarının və qanuni mənafelərinin məhkəmədənkənar müdafiəsi ........ 258
7.4. Sahibkarlıq fəaliyyəti subyektləri arasında yaranan mübahisələrin həllində mediasiyanın rolu ........ 267
**Nəticə** ........ 276
**Tövsiyə olunan ədəbiyyat** ........ 278

**VIII fəsil. Sahibkarlıq fəaliyyəti subyektlərinin istehsal fəaliyyətinin hüquqi tənzimlənməsi** ........ 281
8.1. Standartlaşdırmanın anlayışı, məqsədi və prinsipləri ........ 281
8.2. Standartın anlayışı və növləri ........ 291
8.3. İstehlakçıların hüquqlarının və qanuni mənafelərinin müdafiəsi ........ 300
**Nəticə** ........ 309
**Tövsiyə olunan ədəbiyyat** ........ 311

**IX fəsil. Bank fəaliyyətinin hüquqi tənzimlənməsi** ........ 313
9.1. Bank fəaliyyətinin anlayışı və məzmunu ........ 313
9.2. Azərbaycan Respublikasının Mərkəzi Bankının bank sistemində yeri ........ 322
9.3. Bankın anlayışı, təşkili və idarə olunması ........ 332
9.4. Bank olmayan kredit təşkilatlarının anlayışı, onların yaradılması və idarə edilməsi ........ 343
**Nəticə** ........ 351
**Tövsiyə olunan ədəbiyyat** ........ 353

**X fəsil. İnvestisiya fəaliyyətinin hüquqi tənzimlənməsi** ........ 355
10.1. İnvestisiya və investisiya fəaliyyətinin anlayışı və növləri ........ 355
10.2. İnvestisiya fəaliyyətinin subyektləri ........ 369
10.3. İnvestisiya fondları - investisiya fəaliyyətinin subyekti kimi ........ 373
**Nəticə** ........ 380
**Tövsiyə olunan ədəbiyyat** ........ 382

**Dərs vəsaitinin hazırlanmasında istifadə olunan ədəbiyyat** ... 385

**Rəşad Məmmədov**
**Nəzakət Fərziyeva**

# Kommersiya (sahibkarlıq) hüququ.

## Mühazirə mətnləri

***dərs vəsaiti***

Yığılmağa verilmişdir: 23.01.2023
Çapa imzalanmışdır: 20.02.2023
Tiraj 200; format 80x64; ş.ç.v. 25,5
"Sapfir-15" MMC nəşriyyatının mətbəəsində
çap olunmuşdur